# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## İKİNCİ KİTAB

## OKTYABR 2003 - FEVRAL 2004

AZƏRNƏŞR
BAKI - 2009

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2009

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2009. 432 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan çoxcildliyinin 2-ci cildində Azərbaycan dövlətinin möhkəmləndirilib daha da inkişaf etdirilməsinə, respublikamızın sürətli iqtisadi tərəqqisi və yüksəlişi, sosial sahələrdə aparılan islahatlara həsr olunmuş materiallar öz əksini tapmışdır.

Kitabda Cenevrədə İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitindəki nitqi, BMT-nin Baş katibi Kofi Annan, həmçinin, bir sıra dövlət və hökumət başçıları ilə görüşlərdəki söhbətləri də verilmişdir.

Eyni zamanda, Prezident İlham Əliyevin xaricə – Fransaya ilk rəsmi səfəri zamanı Prezident Jak Şirakla, Fransa senatının rəhbərləri, parlamentin üzvləri, nüfuzlu işgüzar dairələrin, ölkənin xarici işlər, müdafiə, iqtisadiyyat, maliyyə, sənaye nazirliklərinin nümayəndələri, Fransa sahibkarlar təşkilatının üzvləri, Fransa Beynəlxalq Əlaqələr İnstitutunun kollektivi ilə görüşləri, çıxışları, nitqləri, ölkənin ən nüfuzlu mətbuat orqanlarına və televiziya kanalına verdiyi dolğun bəyanat və müsahibələri, Fransanın «Kastel» qrupunun, «Total» şirkətinin prezidentləri ilə söhbətləri verilmişdir.

**İSBN 978-9952-8100-7-3**

$$Ə\,\frac{\mathbf{0801000000}}{\mathbf{M-651(07)-2009}}$$

**BBK-32**

**© Azərnəşr, 2009**

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ SEÇİLMƏSİ İLƏ ƏLAQƏDAR ANDİÇMƏ MƏRASİMİNDƏ* NİTQ

*Respublika sarayı*

*31 oktyabr 2003-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əlini Azərbaycan Respublikasının Konstitusiyasının üzərinə qoyaraq dedi:*

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!

*Sonra Prezident müqəddəs Qurani-Şərifə əl basaraq dedi:*

Əlimi Qurani-Şərifə basaraq and içirəm: Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli-mənəvi dəyərlərə və ənənələrə sadiq qalacağam, onları daim uca tutacağam.

* * *

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Azərbaycan Respublikasının prezidenti seçilməyimlə mənə göstərilmiş bu böyük etimada görə Azərbaycan seçicilərinə, Azərbaycan vətəndaşlarına, bütün Azərbaycan xalqına öz dərin təşəkkürümü bildirirəm.

Mən bu böyük etimadı doğruldacağam, bu vəzifənin

---

* Mərasimdən əvvəl İlham Əliyev xalqımızın müqəddəs and yeri olan Şəhidlər xiyabanına gələrək, Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən oğullarının əziz xatirəsini ehtiramla yad etdi, "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.

öhdəsindən layiqincə gələcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm.

Oktyabrın 15-də Azərbaycan xalqı seçki məntəqələrinə gələrək Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur.

Heydər Əliyevin siyasəti Azərbaycana böyük uğurlar gətiribdir. Bütün sahələrdə Azərbaycan inkişaf edir, uğurlar qazanır. Beynəlxalq aləmdə Azərbaycan yüksəlir, uğurlar qazanır. Azərbaycan beynəlxalq aləmdə özünəlayiq yerini tuta bilibdir, Azərbaycanın nüfuzu artıbdır. İndi Azərbaycanla hesablaşırlar, Azərbaycana hörmət edirlər. Regionda bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı ilə, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir.

Beynəlxalq təşkilatlarda Azərbaycan çox uğurlu fəaliyyət göstərir, onun nüfuzu artır. Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilat Azərbaycanın təkidi ilə Ermənistanı işğalçı dövlət kimi tanıyıbdır. Bu proses davam edəcəkdir. Azərbaycan beynəlxalq aləmdə, dünya miqyasında daha da möhkəm mövqelərə sahib olacaqdır.

Qonşularımızla münasibətlərimiz çox uğurla inkişaf edir. Həm ikitərəfli münasibətlərimiz güclənir, həm də regional əməkdaşlıq inkişaf edir. Bu gün andiçmə mərasimində iştirak etmək üçün Azərbaycana, Bakıya gəlmiş qonşu dövlətlərin görkəmli dövlət xadimlərinin iştirakı bunu bir daha sübut edir.

Mən bu fürsətdən istifadə edərək, bu gün bizimlə birlikdə mərasimdə iştirak edən Gürcüstan prezidenti cənab Eduard Şevardnadzeni, Rusiya Federal Məclisi Federasiya Şurasının sədri cənab Sergey Mironovu, Türkiyə Cümhuriyyəti Baş nazirinin müavini cənab Əbdüllətif Şənəri, İran İslam Respublikasının vitse-prezidenti cənab Seyid Məhəmmədəli Əbtəhini və Ukrayna hökumətinin başçısı cənab Viktor Yanukoviçi salamlayıram.

Azərbaycan hərtərəfli inkişaf edir, iqtisadiyyatı güclənir. Azərbaycanda iqtisadi islahatlar aparılır. Bu islahatların

nəticəsində ölkəmiz qısa müddət ərzində öz iqtisadiyyatının yüksəlişini təmin etmişdir. İqtisadiyyatın ən mühüm göstəricisi – ümumi daxili məhsul son beş il ərzində hər il 10 faiz artır, inflyasiyanın səviyyəsi 2 faiz təşkil edir. Halbuki, on il bundan əvvəl inflyasiyanın səviyyəsi 1600 faiz idi.

Azərbaycanda özəl sektor uğurla inkişaf edir. Çox sevindirici haldır ki, ümumi daxili məhsulun formalaşmasında özəl sektorun payı 70 faiz təşkil edir. Sahibkarlar sinfi yaranır. Genişmiqyaslı özəlləşdirmə proqramı həyata keçirilir. Torpaq islahatı aparılıbdır və torpaq artıq kəndlilərin özəl mülkiyyətinə verilibdir. Bunun nəticəsində kənd təsərrüfatı istehsalı artır. Bütün bunlar onu göstərir ki, Azərbaycanda Heydər Əliyevin rəhbərliyi altında aparılan iqtisadi islahatlar öz gözəl nəticələrini verməkdədir.

Azərbaycana xarici sərmayə qoyuluşu çox yüksək səviyyədədir və bu proses davam edir. Sizə deyə bilərəm ki, bütün mənbələrdən qoyulan sərmayələrin həcmi 15 milyard dollar təşkil edir. Adambaşına xarici sərmayənin həcminə görə Azərbaycan keçmiş sovet respublikaları arasında qabaqcıl yerdədir, bəzi Şərqi Avropa dövlətlərini də qabaqlayır.

Amma heç kəsə sirr deyil ki, sərmayələr, xüsusilə xarici sərmayələr sabitlik olan ölkələrə qoyulur. Çünki hər bir sərmayədar o qədər də risk etmək istəmir. Bu baxımdan da Azərbaycan sərmayə qoyuluşu üçün çox münasib ölkədir. Azərbaycanda son illər ərzində hökm sürən sabitlik, ictimai-siyasi asayiş sərmayələrin cəlb olunması istiqamətində böyük addımlar atmağa imkan veribdir.

Əlbəttə, bizim hamımızın borcudur ki, Azərbaycanda yaranmış bu sabitliyi qoruyaq, saxlayaq, möhkəmləndirək. Əgər Azərbaycanda sabitliyin pozulmasına kimsə can atarsa, biz buna imkan verməyəcəyik, Azərbaycan xalqının rahat, təhlükəsiz, sabitlik şəraitində yaşamasını təmin edəcəyik.

Bu sabitlik bizə imkan verəcək ki, gələcəkdə Azərbaycanı daha da sürətlə, hərtərəfli inkişaf etdirək. Bu barədə bizim çoxlu planlarımız vardır. Azərbaycanın hər bir sahəsi inkişaf etməlidir.

Təbii ki, Azərbaycan iqtisadiyyatının əsas istiqaməti onun neft strategiyasının həyata keçirilməsidir. 1994-cü ildə Heydər Əliyev tərəfindən başlanmış yeni neft strategiyası Azərbaycana böyük uğurlar gətiribdir. "Əsrin müqaviləsi"nin imzalanması ilə bu strategiya artıq 9 ildir ki, həyata keçirilir. Bunun nəticəsində Azərbaycan öz neft-qaz ehtiyatlarını çox səmərəli şəkildə dünya bazarlarına çıxarır. Azərbaycan Xəzər dənizinin özünə məxsus olan sektorunda xarici şirkətlərlə çox uğurlu əməkdaşlıq edir. Azərbaycanın neft sənayesinə on milyard dollar sərmayə qoyulubdur. On minlərlə yeni iş yerləri açılıb, qısa müddət ərzində qazma qurğuları, platformalar, neft kəmərləri, neft terminalları və ölkəmiz üçün vacib olan digər infrastruktur yaradılıbdır.

Azərbaycan öz neftini dünya bazarlarına artıq iki kəmər vasitəsilə çıxarır. Bakı–Novorossiysk neft kəməri ilə hazırda ildə 2,5 milyon ton neft ixrac olunur. Bakı–Supsa neft kəməri vasitəsilə qərb istiqamətində ildə 6,7 milyon ton neft ixrac edilir. Hazırda Bakı–Tbilisi–Ceyhan neft kəməri inşa edilir və artıq işlərin 40 faizi görülübdür. Artıq bu kəmərin inşasına 1 milyard 200 milyon dollar sərmayə qoyulubdur. Gələn ilin sonunda biz bunun açılışını qeyd edəcəyik.

Azərbaycan böyük qaz ehtiyatları olan "Şahdəniz" yatağında uğurla işləməyə başlayıbdır. Bakı–Ərzurum qaz kəmərinin tikintisinə vəsait qoyulur və əgər hər şey cədvəl üzrə gedərsə, 2006-cı ildə Azərbaycan qazı Avropaya çatdırılacaqdır.

Bütün bu planların, görülən işlərin əsası 1994-cü ildə qoyulubdur. O vaxt çətin və mürəkkəb şərait vardı, Azərbaycan çox riskli bir ölkə sayılırdı. Azərbaycana sərmayənin cəlb edilməsi üçün cənab prezident Heydər Əliyev böyük işlər görmüşdür. Nəhayət, əfsanəni reallığa, gerçəkliyə çevirmişdir.

Neft strategiyasının tərkib hissəsi ondan ibarətdir ki, neftdən əldə olunan gəlirlər Azərbaycan xalqına səmərəli şəkildə xidmət etsin. Bu məqsədlə Azərbaycan Dövlət Neft Fondu yaradılmışdır. Fondun yaradılması Azərbaycanın müasir tarixində çox əlamətdar hadisədir. O, bütün beynəlxalq standartlara cavab

verən şəffaf qurumdur. Beynəlxalq maliyyə qurumları onun fəaliyyətini çox yüksək qiymətləndirirlər.

Hazırda neft fondunda 800 milyon dollar vəsait yığılıbdır. Bu, xalqın vəsaitidir. Buna görə də neft fondunun fəaliyyəti haqqında ictimaiyyətə mütəmadi qaydada məlumat verilir. Hər bir vətəndaş bilməlidir ki, onun ölkəsinin valyuta ehtiyatları nə qədərdir və necə, hansı istiqamətlərə sərf olunur.

Gələcəkdə Azərbaycan öz iqtisadi potensialını inkişaf etdirdikcə, Azərbaycanda yeni neft yataqları kəşf olunandan sonra, Bakı–Tbilisi–Ceyhan neft kəməri istismara veriləndən sonra, əlbəttə, ölkəmizin imkanları daha da artacaqdır. Hər il Azərbaycana milyardlarla dollar vəsait daxil olacaqdır. Bu vəsaitlə Azərbaycanda bütün sahələrdə quruculuq işləri aparılacaq, sosial problemlərin həlli istiqamətində böyük işlər görüləcəkdir.

Bilirsiniz ki, neft fondundan ayrılan vəsait, ilk növbədə, Azərbaycanda ən çətin vəziyyətdə yaşayan qaçqın-köçkünlərə, onların həyat səviyyəsinin yaxşılaşdırılması üçün sərf olunur. Cənab prezident Heydər Əliyevin fərmanları ilə bu məqsəd üçün 70 milyon dollar ayrılmışdır və qaçqın-köçkünlərdən ötrü yeni qəsəbələr, şəhərciklər, evlər tikilir. On minlərlə qaçqın və köçkün artıq çadır düşərgəsindən çıxarılaraq müasir evlərə köçürülüb və bu proses davam edəcəkdir. Biz gələcəkdə də bu məsələyə çox böyük diqqət göstərəcəyik. Əminəm ki, yaxın gələcəkdə işğaldan əziyyət çəkən bütün qaçqın və köçkünlər müasir şəraitlə təmin olunacaqlar.

Azərbaycanda digər sosial məsələlər də öz həllini tapır. Bilirsiniz ki, bu yaxınlarda cənab prezidentin sərəncamları ilə səhiyyə, təhsil, mədəniyyət işçilərinin və başqalarının əmək haqqı 50 faiz artırılmışdır. Pensiyalar 40 faiz artırılmışdır. Bu bir daha onu göstərir ki, sosial məsələlər prezidentimizin daim diqqət mərkəzində olmuşdur. Bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Ölkənin bütün imkanları buna xidmət edəcəkdir. Təsadüfi deyil ki, gələn ilin büdcəsinin 60 faizi sosial məsələlərə sərf olunacaqdır.

Azərbaycan gələcəkdə çox zəngin və qüdrətli ölkəyə çevriləcəkdir. Neft strategiyasını davam etdirərək, qısa müddət ərzində ölkəmizi hərtərəfli inkişaf etdirəcəyik.

Xüsusilə, qeyri-neft sektoruna böyük diqqət göstəriləcəkdir. Yeni zavodlar, fabriklər istifadəyə veriləcəkdir. Sahibkarlığın inkişafı üçün tədbirlər planı, Azərbaycanda iqtisadi inkişaf proqramı hazırlanır. Bu çoxşaxəli inkişaf proqramı Azərbaycanı qısa müddət ərzində zəngin dövlətə çevirməyə imkan verəcəkdir. Bizdə bütün imkanlar – təbii sərvətlər, insan potensialı və ən önəmlisi, xalqın iradəsi vardır. Biz hamımız birləşərək və bir nöqtəyə vuraraq Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik. Azərbaycanda ordu quruculuğu sahəsində də böyük işlər görülmüşdür. Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır. Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmiz üçün ən ağır problemdir. Uzun illərdir ki, biz atəşkəs rejimində yaşayırıq. Təəssüflər olsun ki, bu məsələ ilə bilavasitə məşğul olan ATƏT-in Minsk qrupunun fəaliyyəti hələlik heç bir nəticə vermir. Biz hələ də ümidlərimizi itirmirik. Hələ də ümid edirik ki, həmsədrlər bu məsələ ilə daha ciddi şəkildə, məsuliyyətlə məşğul olacaqlar. Bu məsələ öz həllini tapmalıdır. Bu problem yalnız bir neçə prinsiplər, beynəlxalq hüquq normaları əsasında həll oluna bilər: Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim

səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir.

Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır.

Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm.

Mən bu gün bu yüksək kürsüdən əziz prezidentimiz cənab Heydər Əliyevə müraciət edərək deyirəm: əziz Prezident, əsərin olan müasir Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Sizin yolunuzla yeni qələbələrə doğru gedəcəyik.

Yaşasın Azərbaycan xalqının milli lideri, müasir Azərbaycanın qurucusu Heydər Əliyev!

Yaşasın qəhrəman Azərbaycan xalqı!

Yaşasın azad və müstəqil Azərbaycan!

## GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZE İLƏ GÖRÜŞDƏ* SÖHBƏT

*"Ulduz" sarayı*

*31 oktyabr 2003-cü il*

**E d u a r d   Ş e v a r d n a d z e:** Sizi dövlətdə ali vəzifəyə seçilməyiniz münasibətilə gürcü xalqı adından və şəxsən öz adımdan təbrik edirəm. Azərbaycan–Gürcüstan münasibətlərinin bundan sonra da qardaşlıq və mehriban qonşuluq ruhunda inkişaf edəcəyinə ümidvar olduğumu bildirirəm. Bu münasibətlərin bərqərar olmasında Azərbaycan prezidenti Heydər Əliyevin misilsiz rolunu xüsusi vurğulamaq istəyirəm.

**İ l h a m   Ə l i y e v:** Səmimi sözlərə görə Sizə, cənab prezident Eduard Şevardnadze, təşəkkür edirəm. Andiçmə mərasiminə şəxsən təşrif gətirdiyinizə görə Heydər Əliyevin adından və öz adımdan minnətdarlığımı bildirirəm. Nəzərə çatdırıram ki, Azərbaycan rəhbərliyinin Gürcüstan barəsində Azərbaycan prezidenti Heydər Əliyevin dövründə təşəkkül tapmış siyasəti dəyişməyəcəkdir.

Görüşdən sonra Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin və Gürcüstan prezidenti Eduard Şevardnadzenin jurnalistlərin suallarına cavabı:

**S u a l: İlham Heydəroviç, Gürcüstan prezidenti Eduard Şevardnadzenin andiçmə mərasimində iştirakı Sizin üçün nə deməkdir?**

---

* Görüşdə Gürcüstanın Azərbaycandakı səfiri Zurab Qumberidze və Gürcüstan Beynəlxalq Neft Korporasiyasının prezidenti Giorgi Çanturia iştirak edirdilər.

**İ l h a m  Ə l i y e v:** Bugünkü andiçmə mərasimində iştirak etmək üçün vaxt tapıb Azərbaycana gəldiyinə görə çox hörmətli Eduard Amvrosiyeviçə səmimi-qəlbdən təşəkkürümü bildirdim. Bu, indiki mərhələdə xeyli dərəcədə xalqlarımızın liderləri Eduard Şevardnadze ilə Heydər Əliyevin şəxsi dostluğu və qarşılıqlı hörmətinin nəticəsi olan münasibətlərimizin qardaşlıq xarakterini bir daha nəzərə çatdırır. Mənə son dərəcə xoşdur ki, çox məşğul olmasına və Gürcüstanda gözlənilən proseslərə baxmayaraq, Eduard Şevardnadze vaxt tapıb buraya gəldi. Buna görə mən ona çox minnətdaram. Ölkələrimiz arasında münasibətlər əvvəlki ruhda, əvvəlki məcrada, qardaşlıq, qarşılıqlı yardım, qarşılıqlı anlaşma əsasında inkişaf edəcəkdir. Ümidvaram ki, Azərbaycanda varislik siyasəti və Gürcüstanda aparılan siyasət ölkələrimizin və xalqlarımızın bir-birinə daha yaxın olmasına rəvac verəcəkdir.

**S u a l**: **Cənab Şevardnadze, Siz Azərbaycanın yeni prezidentindən Gürcüstan barəsində nə gözləyirsiniz?**

**E d u a r d  Ş e v a r d n a d z e:** Mən İlham Heydəroviçin dediklərinə təzə bir şey əlavə edə bilmərəm. Biz, iki prezident – Heydər Əliyeviç və mən birlikdə işlədiyimiz illərdə xalqlarımız arasında dostluq və qardaşlığın sanballı bünövrəsini qoymağa müvəffəq olduq. Biz iqtisadi problemləri, neft kəməri və qaz kəməri ilə bağlı çox mürəkkəb problemləri, digər məsələləri birlikdə həll edirdik. Bu gün razılığa gəldiyimiz ən başlıca məsələ dostluğu əvvəlki ruhda davam etdirməkdir. Prezidentlərin dostluq etməsi xalqlar üçün çox yaxşı nümunədir. Biz Heydər Əliyeviçlə xalqlarımıza sübut edə bildik ki, bu, xalqlarımızın – Azərbaycan və gürcü xalqlarının xeyrinədir. Xoşbəxtəm ki, biz bunu İlham Əliyevlə də həyata keçirəcəyik.

Mən onu çoxdan tanıyıram, amma Heydər Əliyeviçi tanıdığım qədər çoxdan yox. Biz onunla MDBMİ-də oxuduğu vaxtdan tanışıq. Ona diqqət yetirirdim. Zənnimcə, Azərbaycan xalqı və Heydər Əliyeviç düzgün seçim etmişlər və Azərbaycanı xoşbəxt gələcək gözləyir.

## RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ SƏDRİ SERGEY MİRONOV İLƏ GÖRÜŞDƏ* SÖHBƏT

*"Ulduz" sarayı*

*31 oktyabr 2003-cü il*

**İ l h a m  Ə l i y e v:** Andiçmə mərasimində iştirak etmək üçün Bakıya xoş gəlmisiniz. Sizi səmimi-qəlbdən salamlayıram. Mən bünövrəsi Azərbaycan prezidenti Heydər Əliyev və Rusiya prezidenti Vladimir Putin tərəfindən qoyulan dostluq əlaqələrinin ölkəmizdə əziz tutulduğunu vurğulayıram. Biz bu siyasətin davam etdirilməsi üçün mümkün olan bütün işləri görəcəyik. Bu siyasətin alternativi yoxdur, iki prezident Azərbaycan–Rusiya münasibətlərində yeni mərhələnin təməlini qoymuşlar. Dövlətlərimiz arasındakı dostluq və mehriban qonşuluq əlaqələri əvvəlki kimi inkişaf etdiriləcək və bu məsələdə varislik qorunub saxlanacaqdır.

İqtisadiyyatda, mədəniyyətdə və iki ölkənin parlamentləri arasında qarşılıqlı surətdə faydalı münasibətlərin davam etdirilməsinin vacibliyini də nəzərə çatdırıram.

**S e r g e y  M i r o n o v:** Sizi, cənab İlham Əliyeviç, Azərbaycan dövlətinin başçısı seçilməyiniz münasibətilə təbrik edirəm. Ölkələrimiz arasında münasibətlər dinamik və müsbət şəkildə inkişaf edir. Hər iki tərəf üçün faydalı olan bu münasibətlərin bünövrəsini Azərbaycan və Rusiya prezidentləri qoymuşlar. İndi dövlətlərimiz siyasətin, iqtisadiyyatın bir çox sahələrində, beynəlxalq terrorizmlə mübarizədə əməkdaşlıq edirlər. Ölkələrimizin parlamentləri arasında da münasibətlər

---

* Görüşdə Rusiyanın Xarici İşlər naziri İqor İvanov, Azərbaycanın Moskvadakı səfiri Ramiz Rizayev, Rusiyanın Bakıdakı səfiri Nikolay Ryabov iştirak edirdilər.

yaxşı sürətlə və yüksələn xətlə inkişaf edir. Azərbaycanda rus millətindən olan vətəndaşlara qayğı göstərildiyini, rus dilinin saxlanmasına diqqət yetirildiyini sevindirici fakt kimi qeyd edirəm. Bu, Azərbaycanı keçmiş SSRİ-nin bir sıra digər ölkələrindən fərqləndirir.

## UKRAYNANIN BAŞ NAZİRİ VİKTOR YANUKOVİÇ İLƏ GÖRÜŞDƏ* SÖHBƏT

*"Ulduz" sarayı*

*31 oktyabr 2003-cü il*

**İ l h a m Ə l i y e v:** Andiçmə mərasimində iştirak etdiyinə görə Ukraynadan Bakıya gəlmiş nümayəndə heyətinə təşəkkürümü bildirir və xoş arzularımı prezident Leonid Kuçmaya yetirməyinizi xahiş edirəm. Heydər Əliyevin və Leonid Kuçmanın siyasəti sayəsində Azərbaycanla Ukrayna, xalqlarımız arasında mehriban dostluq münasibətləri yaranmışdır və bu münasibətləri Azərbaycanda çox əziz tuturlar. Ölkələrimiz beynəlxalq həyatın bir çox məsələlərində çox vaxt eyni mövqelərdən çıxış edirlər. Əminəm ki, ölkələrimiz arasında münasibətlər gələcəkdə də genişlənəcək və möhkəmlənəcəkdir.

**V i k t o r Y a n u k o v i ç:** Seçkilərdə inamlı qələbə münasibətilə Sizi Ukrayna prezidenti Leonid Kuçmanın adından və öz adımdan təbrik edirəm. Əmin olduğumu bildirirəm ki, prezidentlər Heydər Əliyevin və Leonid Kuçmanın uğurlu siyasəti sayəsində çox böyük stimul alan Azərbaycan–Ukrayna münasibətləri daha da inkişaf edəcəkdir. İkitərəfli əlaqələrin strateji xarakter daşıdığını qeyd edərək vurğulayıram ki, Ukrayna Azərbaycanın ərazi bütövlüyünü həmişə dəstəkləmişdir. İqtisadi əlaqələr də yaxşı sürətlə inkişaf edir. Son vaxtlar ölkələrimiz arasında əmtəə dövriyyəsinin artdığı müşahidə olunur. İqtisadi mənafelərin öncüllüyündən danışaraq nəzərə çatdırıram ki, Ukrayna Azərbaycana kənd təsərrüfatı

* Görüşdə Ukraynanın Azərbaycandakı səfiri Boris Aleksenko iştirak edirdi.

məhsulları göndərməkdə və Xəzər neftinin Odessa–Brodı boru kəməri ilə nəql edilməsində maraqlıdır. Yaxın vaxtlarda Ukraynaya səfər etməyiniz barədə Leonid Kuçmanın dəvətini Sizə, Azərbaycanın yeni prezidentinə təqdim edirəm.

**İlham Əliyev:** Mən Ukrayna şirkətlərinin ölkəmizin iqtisadi həyatında fəal iştirakını qeyd etmək istəyirəm. Xəzər neftinin Odessa–Brodı boru kəməri ilə nəql edilməsi, habelə Azərbaycanda kənd təsərrüfatı istehsalı səviyyəsinin yüksək olmasına baxmayaraq, Ukraynadan kənd təsərrüfatı məhsulları idxalı ideyasını dəstəkləyirəm.

**Anatoli Raxanski** (*Ukraynanın Avropa Şurası Parlament Assambleyasında nümayəndə heyətinin üzvü*): Cənab Prezident, AŞPA üzvlərinin tapşırığı ilə Sizi ali dövlət vəzifəsinə seçilməyiniz münasibətilə təbrik edirəm. AŞPA-nın fəaliyyətində Sizin böyük xidmətlərinizi vurğulayıram. Beynəlxalq İnsan Hüquqlarını Müdafiə Komitəsi tərəfindən təsis olunmuş "Şərəf və ləyaqət" qızıl ulduzunu Sizə təqdim edirəm.

## KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNƏ İLK MÜSAHİBƏ

*"Ulduz" sarayı*

*31 oktyabr 2003-cü il*

**S u a l: Cənab Prezident, artıq Siz and içdiniz. İndi ölkənin birinci şəxsisiniz və hansı hissləri keçirirsiniz?**

**C a v a b:** Bilirsiniz, bu gün mənim üçün əlamətdar bir gündür. Əlbəttə, bir az həyəcanlı idim, gələcək haqqında düşünürdüm, planlar haqqında düşünürdüm. Mənə göstərilən bu böyük etimadı gərək doğruldam. Gərək mən ümidləri doğruldam. Azərbaycanı xalqın dəstəyi ilə inkişaf etdirəm ki, yaxın zamanlarda respublikamız qüdrətli dövlətə çevrilsin. Gərək Heydər Əliyevin siyasətini davam etdirəm.

Qarşımda çoxlu vəzifələr var, çoxlu işlər görmək əzmindəyəm. Bütün bunlar haqqında düşünürdüm. Keçmiş həyatım haqqında düşünürdüm. Bu da təbii idi ki, keçmişdə gördüyüm işlər haqqında düşünürdüm. Həyatımın artıq növbəti və elə bil ki, sonuncu mərhələsi başlanır. Çünki bundan yuxarı vəzifə yoxdur. Bu elə bir zirvədir ki, əlbəttə, mən bu zirvədə duraraq təkcə özümü deyil, bütün Azərbaycan xalqını beynəlxalq aləmdə təmsil edəcəyəm. Əlbəttə, bu mənim çiyinlərimə əlavə məsuliyyət yükü qoyur. Düşünürəm ki, bu yük nə qədər ağır olacaq, məni gələcəkdə nələr gözləyir. Belə, bu barədə düşünürdüm.

**S u a l: Sizcə, Sizi asan işlər gözləyir, yoxsa çətin?**

**C a v a b:** Həm asan, həm də çətin. Asan o mənada ki, artıq Azərbaycanda ölkəmizi hərtərəfli inkişaf etdirmək üçün gözəl zəmin yaranıbdır. On il ərzində Heydər Əliyevin siyasəti Azərbaycanda çox güclü bir təməl qoyubdur. Bu təməlin üzərində gözəl binanın inşa edilməsi asan görünə bilər. Amma eyni zamanda, həyat yerində durmur. Yeni tələblər çıxır, qarşımıza yeni vəzifələr çıxır. Əlbəttə, yəqin çətinliklər də olacaqdır. Amma mən

bu çətinliklərə hazıram. Əgər mən özümdə belə bir hazırlıq görməsəydim, heç vaxt bu yola getməzdim. Mən məsuliyyətə də, çətinliklərə də hazıram. Əminəm ki, Azərbaycan xalqının dəstəyi ilə qarşıda duran bütün vəzifələri ləyaqətlə yerinə yetirəcəyəm. Demişəm, Azərbaycan xalqı görəcək ki, mən Azərbaycan üçün, xalqımız üçün yaxşı prezident olacağam.

**S u a l: İlham müəllim, müxalifətlə dialoq barədə Sizin təklifiniz oldu. Bu təklif qüvvəsində qalırmı?**

**C a v a b:** Mən bu barədə öz fikirlərimi dəfələrlə bildirmişəm. Sizə deyə bilərəm ki, o, səmimi sözlər idi. Yəni təbliğat naminə deməmişdim. Əlbəttə, qüvvədə qalır. Azərbaycanda siyasi partiyalar arasında gərək mədəni səviyyədə münasibətlər qurulsun. Bəzi hallarda bunu milli həmrəylik kimi qələmə verməyə çalışırlar. Mən bununla razı deyiləm. Azərbaycanda milli həmrəylik var. Azərbaycan xalqı oktyabrın 15-də öz iradəsini göstərdi, öz mövqeyini bildirdi və Azərbaycanda heç bir vətəndaş qarşıdurması yoxdur. Azərbaycan xalqı bu baxımdan vahid bir fikirdədir. Amma siyasi partiyalar arasında həmrəyliyin yaradılması zəruridir.

Yenə deyirəm, mən bu barədə dəfələrlə öz fikirlərimi bildirmişəm, belə dəvətlər etmişəm. Amma onu da bilməlisiniz ki, bu dəvətlər müəyyən bir müddət ərzində masa üzərində qala bilər. Yəni mən bunu davamlı olaraq təkrarlamaq fikrində deyiləm. Kim mənim bu dəvətimə qoşulursa, qəbul edirsə, mən bu dialoqa hazıram. Yox, kimsə əgər başqa fikirdədir, onda özləri bilər.

**S u a l: İlham müəllim, Sizin imzalayacağınız ilk fərman nə ilə bağlı olacaqdır?**

**C a v a b:** Yəqin ki, ilk fərman ənənəvi xarakter daşıyacaqdır. Bəzi məsələlər var ki, onlar öz həllini bəlkə də bu gün tapmalıdır. Yəni bu, texniki məsələlərdir. Amma o ki qaldı Azərbaycanın gələcəyi üçün vacib olan hansısa sənədlər haqqında, hələ bir söz demək istəmirəm. Amma belə fikirlərim var və yaxın gələcəkdə görərsiniz.

**S u a l: İlham müəllim, Sizin andiçmə mərasiminizə bax-**

**dıq. Siz ölkənin iqtisadiyyatının inkişafını tez-tez vurğulayırdınız. Çünki doğrudan da hər şey iqtisadiyyatdan asılıdır. Hesab etmək olarmı ki, iqtisadiyyatın inkişafı üçün yeni mərhələ başlayır. İlk növbədə, Sizdən hansı addımları gözləyəcəyik ki, iqtisadiyyatın inkişafı üçün bunlar zəruridir?**

**C a v a b:** O, təsadüfi deyildi. Çünki hər şey iqtisadiyyat üzərində qurulur. Azərbaycanın iqtisadiyyatı möhkəm olarsa, bütün məsələləri həll etmək imkanımız olacaqdır. Artıq bu istiqamətdə çox böyük işlər görülübdür. Mən bu gün də, bundan əvvəlki çıxışımda da bu barədə kifayət qədər geniş məlumat vermişdim.

Azərbaycanın bütün iqtisadi göstəriciləri onu göstərir ki, ölkə dinamik şəkildə inkişaf edir. Vəzifəmiz bundan ibarətdir ki, bu ənənələri inkişaf etdirək, sahibkarlara gözəl şərait yaradaq. Çünki iqtisadiyyatımızın birinci inkişaf mərhələsi dövlətin qayğısı ilə bağlıdır. Dövlət tərəfindən görülən tədbirlər nəticəsində sərmayəni cəlb edə, neft sektorunu inkişaf etdirə bildik. Dövlət tərəfindən tənzimlənməklə torpaq islahatları apardıq.

Hesab edirəm ki, iqtisadiyyatımızın növbəti mərhələsi məhz özəl sektorun daha fəal iştirakından asılı olmalıdır və bu istiqamətdə bizim üzərimizə düşən vəzifələri yerinə yetirməyə hazırıq. Bazar iqtisadiyyatı davam etdiriləcəkdir. Sahibkarlar sinfi yaranacaq və beləliklə, özəl sektorun fəaliyyəti nəticəsində Azərbaycanın büdcəsi də artacaqdır, iş yerləri də açılacaqdır. Yəni hesab edirəm ki, indi qlobal şəkildə bu istiqamət də Azərbaycan üçün lazımdır. Əlbəttə, sosial məsələlər, ordu quruculuğu, qaçqın-köçkünlərin həyat səviyyəsinin yaxşılaşdırılması, əziyyət içində yaşayan insanların, pensiyaçıların həyat səviyyəsinin yaxşılaşdırılması, onların taleyi ilə ciddi məşğul olacağam. Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss eləsin.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ SEÇİLMƏSİ İLƏ ƏLAQƏDAR ANDİÇMƏ MƏRASİMİNDƏN SONRA TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA* NİTQ

*"Gülüstan" sarayı*

*31 oktyabr 2003-cü il*

Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və dəvətimizi qəbul edib bu axşam qəbulda iştirak etdiyinizə görə sizə təşəkkürümü bildirirəm.

Bu gün mənim həyatımda çox əlamətdar bir gündür. Azərbaycan xalqının dəstəyi ilə mənə göstərilən böyük etimadın nəticəsində bu gün mən prezident vəzifəsinin icrasına başlayıram.

---

* Qəbulda İlham Əliyev «Gülüstan» sarayının foyesində İranın vitse-prezidenti cənab Seyid Məhəmmədəli Əbtəhi ilə görüşdü. İranlı qonaq İlham Əliyevi prezident seçilməsi münasibətilə təbrik edərək, İran–Azərbaycan əlaqələrinin bundan sonra da inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi.

Azərbaycanın dövlət başçısı əmin olduğunu vurğuladı ki, iki ölkə arasındakı münasibətlər gələcəkdə də inkişaf edəcəkdir. Prezident Heydər Əliyevin İrana son səfərindən sonra ikitərəfli əlaqələrin möhkəmlənməsində böyük irəliləyiş əldə olunmuşdur. İndi İran və Azərbaycan hökumətləri bir sıra birgə layihələr həyata keçirir.

Seyid Məhəmmədəli Əbtəhi İranın dövlət başçısının xüsusi salamlarını Azərbaycan prezidentinə çatdırdı.

Prezident İlham Əliyev rəsmi qəbula gəlmiş qonaqlarla – Ukraynanın Baş naziri Viktor Yanukoviçlə, Gürcüstanın Xarici İşlər naziri İrakli Menaqarişvili ilə, Rusiya Federasiyasının Xarici İşlər naziri İqor İvanovla da görüşdü.

Mən bu gün də, bundan əvvəlki çıxışlarımda da gələcək planlarım haqqında ətraflı danışmışam. Hesab edirəm ki, bunları təkrarlamağa ehtiyac yoxdur. Ancaq bir məqamı yenə vurğulamaq istəyirəm ki, Azərbaycanın xoşbəxt gələcəyi, hərtərəfli inkişafı üçün ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir.

Düşünürəm ki, bu gün ən çox sevinən və bu günü gözləyən cənab prezident Heydər Əliyevdir. Onun əsəri olan müasir Azərbaycan özünün müəyyən etdiyi yolla gedəcəkdir. Onun siyasəti yaşayacaqdır və Azərbaycan xalqına yeni qələbələr gətirəcəkdir. Ona görə də mən istəyirəm ilk badəni cənab prezident Heydər Əliyevin sağlığına qaldıraq, ona uzun ömür, cansağlığı arzulayaq. Bütün dövrlərdə və mərhələlərdə o, əsl mənada xalqın lideri olmuşdur və olaraq qalır. Sovet İttifaqı dövründə fərqli sistem olmasına baxmayaraq, Heydər Əliyev çalışırdı ki, Azərbaycanda yeni zavod və fabriklər yaradılsın, iş yerləri açılsın, mədəniyyət, elm, təhsil, ədəbiyyat inkişaf etsin. O bütün bu məsələlərə böyük diqqət göstərirdi. Məhz o illərdə Azərbaycanda neft infrastrukturu yaradılmışdır. Biz bu gün neft strategiyası haqqında danışırıq, ancaq bilməliyik ki, əgər onun belə uğurla həyata keçirilməsi üçün 1970-ci illərdə möhkəm zəmin yaradılmasaydı, indi gördüyünüz işləri yerinə yetirə bilməzdik. Yəni o dövrdə də Heydər Əliyev öz xalqına xidmət edirdi.

Azərbaycan müstəqillik əldə etdikdən sonra formalaşmış yeni ictimai-siyasi mühitdə də Heydər Əliyev əsl liderlik xüsusiyyətlərini nümayiş etdirdi, xalqı böhrandan, anarxiyadan, hərc-mərclikdən inkişafa doğru apardı. Biz hamımız Azərbaycanın hansı təhlükələrlə üzləşdiyini yaxşı xatırlayırıq. Ona görə biz heç vaxt imkan verməməliyik ki, ölkədə yenidən sabitlik pozulsun, xaos və anarxiya yaransın. Azərbaycan xalqı buna heç vaxt imkan verməyəcək, biz də buna yol verməyəcəyik.

Təklif edirəm bu badələri cənab Prezidentin sağlığına

qaldıraq. Biz hamımız, bütün Azərbaycan xalqı ona cansağlığı, uzun ömür arzulayır və onun vətənə dönməsini səbirsizliklə gözləyir.

Cənab Prezidentin sağlığına!

## YEKUN NİTQİ

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Mən bu tədbirdə iştirak edən xarici ölkələrdən gəlmiş qonaqları bir daha salamlamaq istəyirəm.

Mən andiçmə mərasimində iştirak etmək üçün ölkəmizə gəlmiş Sergey Mixayloviç Mironovu salamlamaq istəyirəm. Bu gün biz onunla görüşdük və bir çox məsələləri müzakirə etdik.

Rusiya ilə Azərbaycan arasında son illər yaranmış münasibətlərdən biz çox razıyıq. Bu münasibətlərin əsası Rusiya Federasiyasının prezidenti Vladimir Putinin Azərbaycana səfəri zamanı qoyulmuşdur. İki ölkənin prezidentinin – Vladimir Putinin və Heydər Əliyevin şəxsi münasibətləri və qarşılıqlı hörməti ölkələrimiz arasında münasibətlərin inkişafının, möhkəmlənməsinin və yeni məzmun almasının əsasını qoymuşdur. Ötən 3 il ərzində bütün istiqamətlərdə – həm siyasi, həm mədəni sahələrdə böyük tərəqqi əldə olunmuş və əlaqələrimiz keyfiyyətcə yeni mərhələlərə qədəm qoymuşdur. Bu bir daha sübut edir ki, rəhbərlərin siyasi iradəsi olarsa, problemlər həllini tapacaqdır. Bu gün Rusiya ilə Azərbaycan arasında həll olunmayan heç bir problem yoxdur. Bütün məsələlər, hətta uzun illərdən bəri yığılıb qalmış və kimin üçünsə həlli qeyri-mümkün görünən mürəkkəb məsələlər də hər iki tərəfin mənafeyinə uyğun olaraq həll edilmişdir.

Əminəm ki, gələcəkdə də Rusiya və Azərbaycan arasında münasibətlər dostluq, qarşılıqlı anlaşma və strateji tərəfdaşlıq zəminində qurulacaqdır. Mən vaxt tapıb bizim tədbirimizdə iştirak etdiyi üçün Sergey Mixayloviçə öz təşəkkürümü bildirirəm.

Bu gün bu tədbirdə bizə dost ölkə olan Ukraynanın Baş naziri də iştirak edir. Azərbaycan və Ukraynanı dərin tarixi köklər birləşdirir. Müstəqillik əldə etdikdən sonra ölkələrimizin əsl tərəfdaş olması çox sevindiricidir. Biz beynəlxalq təşkilatlarda əməkdaşlıq edirik, demək olar ki, həmişə eyni mövqedən çıxış edirik. Bizim ikitərəfli əlaqələrimiz real məzmuna malikdir. Bu sahədə məlumatı olan şəxs kimi deməliyəm ki, əlaqələrimizin inkişafında ölkələrimizin prezidentləri – Leonid Kuçmanın və Heydər Əliyevin dostluq münasibətlərinin böyük rolu vardır.

Sentyabr ayında Yaltada Ukrayna prezidentinin məni səmimi qəbul etməsi bir daha onu göstərir ki, gələcəkdə də ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətləri inkişaf edəcəkdir.

Mən bizim bugünkü tədbirimizdə iştirak etdiyinə görə Viktor Fyodoroviçə təşəkkürümü bildirirəm və ümidvaram ki, ölkələrimiz gələcəkdə də bir-birinə dost və qardaş münasibəti bəsləyəcək, xalqlarımız daha da yaxın olacaqlar.

Bizim bugünkü tədbirimizin rəsmi hissəsindən sonra Eduard Amvrosiyeviç Şevardnadze vətənə qayıtdı. Bu gün onun çox gərgin iş cədvəli var idi. O, Azərbaycana gəlməzdən əvvəl çox mühüm tədbir keçirmişdir. Hamımız bilirik ki, iki gündən sonra Gürcüstanda parlament seçkiləri olacaqdır. Əlbəttə, mən bu gün orada təbliğat kampaniyasının son günü olmasına rəğmən Eduard Şevardnadzenin vaxt tapıb ölkəmizə gəlməsini çox yüksək qiymətləndirirəm. Bu ölkəni – müasir Azərbaycanı onun dostu və qardaşı Heydər Əliyev yaratmışdır. O öz vətəninə, öz ailəsinə, öz evinə gəlmişdir.

Mən Baş nazir vəzifəsinə təyin olunduqdan sonra MDB dövlət başçılarının zirvə görüşündə ilk dəfə iştirak etdim. Orada mən Eduard Amvrosiyeviçlə görüşmək şərəfinə nail oldum. O məni çox səmimiyyətlə və hərarətlə qarşıladı. Bizim rəhbərlərimiz – Eduard Şevardnadze və Heydər Əliyev arasında olan münasibətlər həmişə, demək olar ki, 40 ilə yaxın müddət ərzində qardaşlıq münasibətləri olmuşdur. Onlar bir-birinə həmişə kömək etmişlər, istər hüquq-mühafizə orqanlarında

çalışdıqları dövrdə, istər respublikalarımıza rəhbərlik etdikləri dövrdə, istərsə də Moskvada işlədikləri dövrdə, Siyasi Büronun üzvü olarkən bir-birilərini yaxından tanıyırdılar. O zaman onlar sovet dövlətinin inkişafını müəyyən edən səkkiz nəfərdən ikisi idi.

Ən başlıcası, ölkələrimizi parçalanmaqdan, xaosdan və anarxiyadan xilas etmək üçün çağırdıqları zaman da onlar çiyin-çiyinə müasir Gürcüstanı və müasir Azərbaycanı yaratdılar. Onlar bir çoxlarına əfsanə kimi gələn layihələri həqiqətə çevirdilər. Hər iki rəhbərin siyasi müdrikliyi, əzmi, cəsarəti və öz xalqına sədaqəti onlara bu işləri görməyə imkan verdi. Mən Eduard Amvrosiyeviçin xidmətlərini xüsusi qeyd etmək istəyirəm və Xarici İşlər nazirindən mənim xoş arzularımı bir daha ona çatdırmağı xahiş edirəm. Mən ona uzun illər qardaş Gürcüstana rəhbərlik etməsini arzulayıram.

Bu gün hörmətli Baş nazirin müavini Əbdüllətif Şənər də bizim qonağımızdır. Mən onu səmimiyyətlə salamlayıram.

Türkiyə ilə Azərbaycan arasında mövcud olan dostluq və qardaşlıq münasibətləri əbədidir, sarsılmazdır. Bu münasibətlər gələcəkdə də inkişaf edəcək və xalqlarımızı daha da yaxınlaşdıracaqdır. Türkiyə bütün sahələrdə daim Azərbaycana dayaq və arxa olmuşdur. Azərbaycan müstəqilliyini əldə etdikdən sonra ilk olaraq ölkəmizi tanıyan məhz qardaş Türkiyə olmuşdur. Biz daim belə bir ifadəni işlədirik: Türkiyə haradadır, Azərbaycan da oradadır, Azərbaycan haradadır, Türkiyə də oradadır.

Mən hörmətli Əbdüllətif bəydən səmimi salamlarımı dostum və qardaşım hörmətli Baş nazir Rəcəb Tayyib Ərdoğana və hörmətli prezident Əhməd Necdət Sezərə çatdırmağı xahiş edirəm. Bir daha sizi əmin etmək istəyirəm ki, ölkələrimiz gələcəkdə də vahid mövqedən çıxış edərək həm ikitərəfli münasibətlərdə, həm də regional məsələlərdə yaxından əməkdaşlıq edəcəklər.

Əziz dostlar, bu gün mən fürsətdən istifadə edərək bütün Azərbaycan xalqına müraciət etmək istəyirəm. Oktyabrın 15-də mənə göstərilən etimada görə bir daha xalqımıza öz min-

nətdarlığımı bildirmək istəyirəm. Bu gün Respublika sarayında keçirilmiş andiçmə mərasimində iştirak etmək istəyən insanların hamısı orada iştirak edə bilmədilər. Bilirəm ki, bu gözəl salonda da vətəndaşlarımız iştirak etmək istəyirlər. Əlbəttə, buna imkan yoxdur. Eyni zamanda bilirəm ki, Azərbaycanın müxtəlif yerlərində – Bakıda, digər şəhərlərdə şənliklər keçirilir. Bu gün Bakının Azadlıq meydanında yüz minlərlə insan elə bu vaxt yığışaraq bu günü qeyd edirlər, sevinirlər, bir-birilərini təbrik edirlər, bayram edirlər. Mənim üçün ən böyük xoşbəxtlik məhz bundadır. Oktyabrın 15-də Azərbaycan xalqı sərbəst şəkildə öz iradəsini ifadə etmişdir ki, bu da mənim üçün böyük səadətdir. Seçkilərin nəticələri məhz Azərbaycan xalqının iradəsini əks etdirir.

Bu gün mən bu masa arxasında Azadlıq meydanında toplaşmış və şənlənən soydaşlarımızı salamlayıram. Qaçqın düşərgəsində yaşayan soydaşlarımızı salamlayıram. Orduda xidmət edən, sərhədlərimizin keşiyində duran əsgərləri salamlayıram. Bu gün növbədə olan həkimlərimizi, hər bir Azərbaycan vətəndaşını salamlayıram. Mən hər bir Azərbaycan vətəndaşı üçün prezident olacağam. Milliyyətindən, dinindən, siyasi əqidəsindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam və Azərbaycan xalqının etimadını doğruldacağam.

Bu badəni Azərbaycan xalqının şərəfinə qaldırıram.

* * *

*"Gülüstan" sarayında təşkil olunmuş rəsmi qəbulun sonunda Azərbaycan Respublikasının prezidenti İlham Əliyev idmançılarla və incəsənət xadimləri ilə də səmimi görüşdü.*

**ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA**

Hörmətli cənab Prezident!

Əlcəzair Xalq Demokratik Respublikasının milli bayramı – Əlcəzair inqilabı günü münasibətilə Sizi və dost Əlcəzair xalqını öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Əlcəzair Xalq Demokratik Respublikası arasında yaranmış dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Əlcəzair xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *1 noyabr 2003-cü il*

## BOLQARISTAN RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ NİKOLAY SVİNAROV VƏ ONU MÜŞAYİƏT EDƏN ŞƏXSLƏRLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*4 noyabr 2003-cü il*

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab nazir, hörmətli qonaqlar, mən sizi Azərbaycanda salamlamaq, ölkəmizə səfərinizin xoş keçməsini və uğurlu iş arzulamaq istəyirəm. Hesab edirəm ki, burada keçirəcəyiniz vaxt əməkdaşlığımız üçün də, daha yaxından ünsiyyət və tanışlıq üçün də faydalı olacaqdır.

Ölkələrimiz arasında çox mehriban münasibətlər yaranmışdır. 1995-ci ildə prezidentimiz Heydər Əliyev Bolqarıstanda rəsmi səfərdə olmuş və səfər zamanı qarşılıqlı münasibətlərimizə dair mühüm sənədlər imzalamışdır. Çox əhəmiyyətlidir ki, belə əməkdaşlıq davam etsin və yeni məzmunla dolğunlaşsın. Ötən il hərbi əməkdaşlığa dair razılaşmalar əldə edilmişdir və Azərbaycana səfəriniz göstərir ki, bu sahədə də uğurlu iş gedir.

Bolqarıstan bizim üçün dost ölkədir, onu uzun illərdən bəri tanıyırıq. Əlbəttə, Azərbaycan müstəqillik əldə etdikdən sonra bütün ölkələrlə, o cümlədən əvvəllər bizi dostluq tellərinin bağladığı ölkələrlə çox konstruktiv, mehriban münasibətlər yaradırıq. Ona görə də hesab edirəm ki, müdafiə nazirlikləri arasında da, bir çox digər sahələrdə də əməkdaşlıq münasibətlərimizin gələcəyi çox uğurlu olacaqdır.

Mən sizi bir daha salamlamaq istəyirəm. Ümidvaram ki, Azərbaycana səfəriniz sizin üçün yaddaqalan olacaq və əlaqələrimiz gələcəkdə də fəal inkişaf edəcəkdir.

**N i k o l a y  S v i n a r o v:** Cənab Prezident, səmimi və mehriban qəbula görə Sizə – Azərbaycan dövlətinin başçısına

təşəkkür edirik, Sizin dövlət başçısı seçilməyinizdən və bu vəzifəyə başlamağınızdan dərhal sonra bizi qəbul etməyinizdən böyük şərəf və məmnunluq duyuruq.

Sizin vəzifəyə başlamağınız münasibətilə ölkəmizin prezidenti adından Sizə təbrik məktubu təqdim etmək barədə fəxri tapşırıq almışam. Ölkələrimiz arasında münasibətlərin çox böyük əhəmiyyəti var və ümidvaram ki, həmkarım Müdafiə naziri ilə birlikdə biz bu münasibətlərin inkişafına gücümüz çatan töhfəni verə biləcəyik. Mən Sizə prezident vəzifəsində işinizdə uğurlar arzulayıram. Siz ölkənin tərəqqi etdiyi dövrdə onu irəli aparacaqsınız və bu, vəzifənizi çətinləşdirir. Ümidvarıq ki, təcrübəniz, hazırlığınız və məsuliyyətliliyiniz parlaq qələbədən sonra Azərbaycan xalqının inkişafına və tərəqqisinə təkan verəcəkdir.

O ki qaldı bizim idarələrimiz arasındakı münasibətlərə, iki ildir bu, yüksələn xətlə inkişaf edir. Ölkənizin Sofiyada diplomatik və hərbi nümayəndəliklərinin açılması haqqında qərar qəbul olunması üçün öz nüfuzunuzdan istifadə etməyiniz bizdən ötrü çox mühüm olacaqdır. Bu, ölkələrimiz və hərbi idarələrimiz arasında münasibətləri optimallaşdıra bilər, bütün istiqamətlərdə münasibətlərin inkişaf etməsinə gətirib çıxarardı. Ümidvarıq ki, ölkənizin parlamentinin sədrini və Xarici İşlər nazirini gələn il qəbul edə biləcəyik.

2004-cü ildə Bolqarıstan ATƏT-in sədri olacaqdır. Odur ki, ATƏT-in sədri vəzifəsində Bolqarıstanın indiyədək həll edilməmiş qalan Dağlıq Qarabağ probleminin həllinə kömək göstərə bilməsi üçün xarici işlər nazirlərinin birbaşa əlaqə saxlaması çox faydalı olardı.

**İ l h a m Ə l i y e v:** Sağ olun, cənab nazir. İlk növbədə, xahiş edirəm təbriklərə görə təşəkkürümü və ən xoş arzularımı cənab prezidentə yetirəsiniz. Siz doğru dediniz ki, indi Azərbaycan dinamik inkişaf edən ölkədir. Son on ildə ölkəmiz tənəzzül və xaosdan inkişafadək çox böyük yol keçmişdir. Prezidentimiz Heydər Əliyevin on il ərzində apardığı siyasət özünün yeganə düzgün siyasət olduğunu sübuta yetirdi. Bu gün

iqtisadi inkişafın səviyyəsi, sosial məsələlərin həlli, cəmiyyətimizi daha da demokratikləşdirmək səylərimiz baxımından Azərbaycan çox dinamik inkişaf edir. Biz dünya və Avropa qurumlarına çox fəal surətdə qoşuluruq, üç ildir ki, Avropa Şurasının üzvüyük.

Avropa Birliyi ilə də münasibətlərimiz çox dinamik inkişaf edir. Beynəlxalq qurumlara inteqrasiyaya yönəldilmiş siyasətimiz davam etdiriləcəkdir.

Bununla yanaşı, əlbəttə, ölkənin qarşısında yeni vəzifələr, böyük problemlər durur. Onlardan biri də, sizin qeyd etdiyiniz kimi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Ermənistanın təcavüzü nəticəsində ərazimizin 20 faizi işğal olunmuş və bir milyon insan qaçqın-köçkün düşmüşdür. Bolqarıstan ATƏT-in sədri funksiyasını öz üzərinə götürəcəkdir və əlbəttə, çox istərdik ki, sizin iştirakınızla ATƏT-in Minsk qrupu bu məsələ ilə daha fəal məşğul olsun. Biz böyük təəssüflə qeyd etməyə məcburuq ki, Minsk qrupunun bütün fəaliyyəti indiyədək heç bir nəticə verməyibdir. Əlbəttə, bunda Ermənistanın qeyri-konstruktiv mövqe tutması da az rol oynamır. Lakin biz bu fikirdəyik ki, XXI əsrdə, Avropanın birləşdiyi bir vaxtda, hər iki ölkənin, əslində, bütün beynəlxalq təşkilatların və Avropa təşkilatlarının üzvləri olduğu vaxtda bir dövlətin digər dövlətin ərazisini işğal etməsi və oradan çıxmaq istəməməsi kimi vəziyyət ola bilməz. Bu yolverilməz və perspektivsizdir. İndiki dünya və reallıqlar elədir ki, artıq ötən əsrlərin üsulları ilə hərəkət etmək olmaz. Bu gün digər dövlətin ərazisinin işğalına yol vermək mümkün deyildir. Ümidvaram ki, Minsk qrupunun fəaliyyəti məhz beynəlxalq hüquq normalarına riayət edilməsinə əsaslanacaqdır. Biz sizin bu təşkilatda – ATƏT-də sədrliyinizə böyük ümidlə baxır və inanırıq ki, birgə səylərimizlə bu məsələnin həllinə, bir daha təkrar edirəm, beynəlxalq hüquq normalarını əks etdirən ədalətli həllinə nail olacağıq.

Müxtəlif idarələr arasında mövcud olan əlaqələrimiz, əlbəttə, davam etdiriləcəkdir. Biz müxtəlif nazirliklər, nazirlər

səviyyəsində əlaqələri məmnuniyyətlə alqışlayacağıq. Çünki bu əlaqələr daha da yaxınlaşmağımıza kömək edəcəkdir.

Dövlətimiz nisbətən gəncdir. Ona görə də istədiyimiz hər yerdə diplomatik və hərbi nümayəndəliklərə malik olmağa imkanımız yoxdur. Əlbəttə, imkan yarandıqca, iqtisadi gücümüz möhkəmləndikcə biz bu məsələni nəzərdən keçirəcəyik və Bolqarıstan siyahıda ön sıralarda olacaqdır. Bir daha təkrar edirəm, Bolqarıstanla, bolqar xalqı ilə əlaqələrimiz çox möhkəm olmuşdur. Azərbaycan Sovet İttifaqının tərkibində olarkən çox geniş əlaqələr vardı. Biz çox şadıq ki, müstəqillik əldə etdikdən sonra ölkələrimiz arasında mehriban münasibətlər yaranmışdır. Biz öz tərəfimizdən hərbi, siyasi, iqtisadi və mədəni sahələrdə münasibətlərin inkişaf etməsi üçün səylərimizi əsirgəməyəcəyik. Zənnimcə, bu, ölkələrimizin və xalqlarımızın xeyrinə olacaqdır.

**N i k o l a y  S v i n a r o v:** Mən Sizə bir daha uğurlar arzulamaq istəyirəm. Sizin uğurlarınız həm də Azərbaycan xalqının uğurları olacaqdır. Sizdən xahiş edirəm, bizim salamımızı və möhkəm cansağlığı diləyimizi atanıza yetirəsiniz.

## İNFORMASİYA VƏ KOMMUNİKASİYA TEXNOLOGİYALARININ MİLLİ STRATEGİYALARI VƏ ELEKTRON İDARƏÇİLİYİ ÜZRƏ BEYNƏLXALQ FORUMUN İŞTİRAKÇILARINA

Hörmətli forum iştirakçıları!

Hamınızı Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində ürəkdən salamlayır, hər birinizə cansağlığı, xoşbəxtlik və uğurlar arzulayıram. Ümidvar olduğumu bildirirəm ki, bu ilin dekabrında keçiriləcək Ümumdünya sammiti ərəfəsində təşkil edilən bu forum informasiya cəmiyyətinin qurulmasının siyasi, sosial, humanitar və texnoloji aspektlərinin müzakirə edilməsi yolunda mühüm bir mərhələ olacaqdır.

Dinamik inkişaf yoluna qədəm qoymuş Azərbaycan dövləti qlobal informasiya cəmiyyətinin qurulması ideyasını dəstəkləyir və onun gerçəkləşdirilməsini öz siyasətinin prioritetlərindən hesab edir. Azərbaycan Respublikası prezidentinin sərəncamı ilə təsdiq olunmuş informasiya və kommunikasiya texnologiyaları üzrə milli strategiya Azərbaycan dövlətinin bu sahədə siyasətini əks etdirərək ölkəmizin hərtərəfli inkişafına, demokratik cəmiyyət quruculuğuna, elektron idarəçiliyinin tətbiq edilməsinə, Azərbaycanın beynəlxalq aləmə inteqrasiyasının sürətləndirilməsinə xidmət edir. Son illər ərzində Azərbaycan Respublikasında informasiya və kommunikasiya texnologiyaları bir çox sahələrdə uğurla tətbiq edilmiş və bu proses mütəmadi olaraq genişlənməkdədir.

Forumunuzun Bakı şəhərində keçirilməsini ölkəmizin informasiya və kommunikasiya texnologiyalarının tətbiqi sahəsindəki nailiyyətlərinin beynəlxalq miqyasda tanınması kimi qəbul edir və güman edirəm ki, forum iştirakçıları bu sahənin ölkəmizdəki inkişaf səviyyəsini layiqincə qiymətləndirmək imkanına malik olacaqlar.

İqtisadiyyatı keçid dövründə olan Azərbaycan dövləti yaxşı dərk edir ki, elektron hökumətinin yaradılması ölkənin intellektual potensialından səmərəli istifadə edərək hərtərəfli inkişafın təmin edilməsi, korrupsiya ilə mübarizə, yoxsulluq və işsizliyin aradan qaldırılması, cəmiyyətdə aşkarlıq və şəffaflığın bərqərar edilməsi, bütövlükdə ictimai həyatın demokratikləşməsi üçün güclü vasitədir. Odur ki, Azərbaycan hökuməti informasiya cəmiyyətinin qurulması yolunda əməkdaşlığın hər cür formasına daim hazır olduğunu bəyan edir. İnanıram ki, Bakıda keçirilən forumunuz bu əməkdaşlığın konkret formalarının müəyyən edilməsi yolunda da mühüm addım olacaqdır.

Forumunuzun işinə uğurlar diləyir, ölkələrinizin hərtərəfli inkişafına yönəldilmiş nəcib fəaliyyətinizdə hamınıza müvəffəqiyyətlər arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *5 noyabr 2003-cü il*

**KAMBOCANIN KRALI ƏLAHƏZRƏT**
**NORODOM SİANUKA**

Əlahəzrət!

Kamboca Krallığının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda dost Kamboca xalqını şəxsən öz adımdan və bütün Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvar olduğumu bildirmək istəyirəm ki, ölkələrimiz arasında yaranmış dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kamboca xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *5 noyabr 2003-cü il*

## ABŞ PREZİDENTİNİN MİLLİ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ ÜZRƏ SABİQ MÜŞAVİRİ ZBİQNEV BJEZİNSKİ VƏ ONU MÜŞAYİƏT EDƏN ŞƏXSLƏRLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*7 noyabr 2003-cü il*

**İ l h a m   Ə l i y e v:** Hörmətli cənab Bjezinski, hörmətli qonaqlar, mən hamınızı salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Azərbaycanda sizi yaxşı tanıyırlar və bu, ölkəmizə birinci səfəriniz deyildir. Ölkəmizdə sizi Azərbaycanın dostu kimi tanıyırlar.

Cənab Bjezinski, sizi Heydər Əliyevlə böyük dostluq telləri bağlayır və mən də bunun şahidiyəm. Siz dəfələrlə görüşmüş, müxtəlif məsələlərə dair fikir mübadiləsi aparmısınız. Sizin dəyərli tövsiyələriniz bizə həmişə böyük kömək olmuşdur.

Təəssüflər olsun ki, səhhətində yaranmış problemlərlə bağlı cənab prezident indiki seçkilərdə iştirak edə bilmədi. Ancaq Azərbaycanda onun siyasəti yaşayır və davam etdiriləcəkdir. Gələcəkdə Azərbaycan onun müəyyənləşdirdiyi prinsiplər əsasında inkişaf edəcəkdir. Son on il ərzində Azərbaycan Heydər Əliyevin rəhbərliyi altında böyük və uğurlu yol keçib, ölkəmiz hərtərəfli, dinamik şəkildə inkişaf etmişdir. Eyni zamanda, Amerika Birləşmiş Ştatları ilə münasibətlərimiz çox sürətlə inkişaf etmişdir. Əməkdaşlığımız genişdir. Bütün sahələrdə – iqtisadi sahədə, Azərbaycanın neft-qaz strategiyasının həyata keçirilməsində, terrorizmə qarşı mübarizədə münasibətlərimiz sürətlə inkişaf edir və bu da bizi çox sevindirir. Ümid edirəm ki, bizim strateji tərəfdaşlığımız davam edəcək və ATƏT-in Minsk qrupunun həmsədri kimi,

Birləşmiş Ştatlar Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində öz səylərini qoyacaqdır. Əlbəttə ki, bu münaqişənin həlli yalnız beynəlxalq hüquq normaları əsasında, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi şərtilə mümkündür.

Siz artıq ikinci gündür Bakıdasınız və bilirəm ki, müxtəlif görüşlər keçirirsiniz. Əminəm ki, bu görüşlər və səfərdən aldığınız təəssürat sizdə Azərbaycan haqqında daha geniş və dolğun fikir formalaşdıracaq, əməkdaşlığımız bundan sonra da davam edəcəkdir.

**Z b i q n e v  B j e z i n s k i:** Cənab Prezident, istərdim ki, dövlət başçısı seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edim. Eyni zamanda, istərdim ki, mənim ən səmimi salamlarımı və xoş arzularımı atanız Heydər Əliyevə yetirəsiniz. Həm də yalnız mənim deyil, xanımımın da salamlarını yetirməyinizi xahiş edirəm. Həqiqətən, biz hər dəfə Bakıya gələrkən prezidentlə görüşlərimizdən böyük məmnunluq hissi ilə ayrılmışıq. Mən deyərdim ki, onunla görüşlərdən aldığımız zəngin təəssüratı indiyədək qəlbimizdə saxlayırıq.

Ötən on ildə Bakıda baş vermiş dəyişikliklər bizdə böyük təəssürat yaratmışdır. Əlbəttə, bütün bunlar prezident Heydər Əliyevin siyasəti nəticəsində baş vermiş dəyişikliklərdir. Bu dəyişikliklər gələcək gözəl inkişaf üçün zəmin yaratmışdır. Mən hesab edirəm ki, məhz bu dəyişikliklər, bir növ, kaman rolu oynayacaq və ondan atılan ox gələcək inkişafa doğru aparacaqdır.

Mənim və həmkarlarımın Azərbaycana tez-tez gəlməyimizin səbəbi vardır, yəni təsadüfi xarakter daşımır. Azərbaycanı bu regionda Amerika Birləşmiş Ştatlarının əsas tərəfdaşı kimi seçməyimiz də təsadüfi deyildir. Biz Azərbaycanın Birləşmiş Ştatlar üçün həqiqətən vacib ölkə olmasını qəbul edir və bunu gözəl anlayırıq.

Mən həmkarlarımı ayrı-ayrılıqda sizə təqdim etmək fikrində deyiləm, əminəm ki, onların haqqında kifayət qədər məlumat almısınız. Lakin bircə bunu deyə bilərəm ki, onlar bu bölgə ilə

bağlı kifayət qədər təcrübəyə malik şəxslərdir. Bununla belə, Amerika səfirinin adını çəkmək istəyirəm. Baxmayaraq ki, bizim görüşümüz şəxsi xarakter daşıyır, o burada iştirak edir.

Bakıya gəlməyimizin əsas məqsədlərindən biri burada regionla bağlı uzunmüddətli qiymətləndirmə aparmaqdır. Görək ki, regionla bağlı Amerika Birləşmiş Ştatlarının uzun müddətə hesablanmış münasibətləri necə ola bilər. ABŞ-da biz bu məsələyə tərəfsiz bir qurum kimi yanaşırıq və düşünürük ki, Avratlantik məkanının genişlənməsi çox vacibdir və o əslində sülhün mərkəzidir. Bu isə təkcə Avratlantik məkanı üçün deyil, ümumiyyətlə, dünya üçün vacib xarakter daşıyır.

Burada biz genişlənmənin bir neçə fazasını nəzərdən keçirə bilərik. Birinci fazadan danışarkən deyə bilərik ki, bu həm NATO-nun, həm də Avropa Birliyinin genişlənməsi idi. Yəni bu qurumlar genişlənərək Polşa, Macarıstan və Çexiyanı əhatə etsin.

Sonra ikinci mərhələ başlandı və daha yeddi ölkə NATO-ya qoşuldu, eyni zamanda onların Avropa Birliyinə daxil olması perspektivi açıldı.

Birinci fazanı biz, şərti olaraq, Varşava fazası, ikincini Vilnüs fazası adlandıra bilərik. Üçüncü faza da gözlənilir. Bu faza haqqında NATO-nun gələn il nəzərdə tutulan İstanbul sammitindən sonra danışmaq olar. Biz onu Kiyev fazası da adlandıra bilərik. Çünki burada əsas söhbətlər Ukrayna ətrafında olacaqdır. Sonra isə SSRİ-nin digər keçmiş respublikalarını da əhatə edə bilər. Biz istərdik elə bu kontekstdə sizinlə fikir mübadiləsi aparaq, məsələyə baxışınızı öyrənək ki, bu ərəfədə buradakı şəraiti necə qiymətləndirirsiniz, qonşu ölkələrlə münasibətlərinizi necə görürsünüz. Məlumdur ki, Sizinlə qonşu ölkələrdə, həqiqətən, nəzərəçarpan böyük problemlər mövcuddur. Öyrənmək istəyirik ki, siz vəziyyəti necə qiymətləndirirsiniz, regional əməkdaşlığa, ümumiyyətlə, digər ölkələrlə əməkdaşlığa necə baxırsınız, bölgədə sabitliyi necə görürsünüz.

Cənab Prezident, bugünkü görüşə görə Sizə bir daha

minnətdarlığımı bildirmək istəyirəm. Çox sağ olun, mənə başucalığı verirsiniz ki, əvvəlki prezidentlə olduğu kimi, Sizinlə də dialoqumuz davam edir.

## QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ VALERİ ÇEÇELAŞVİLİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*7 noyabr 2003-cü il*

**İ l h a m Ə l i y e v:** Sizi səmimi-qəlbdən salamlayıram. Azərbaycan Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının fəal iştirakçısıdır. Təsadüfi deyildir ki, bu təşkilatın müxtəlif fəaliyyət sahələri üzrə bir çox tədbirləri ölkəmizdə yüksək səviyyədə keçirilmişdir.

Azərbaycan bütün beynəlxalq təşkilatlarla əməkdaşlığa böyük diqqət yetirir. Regional, ikitərəfli və çoxtərəfli əməkdaşlığı əhatə edən təşkilatların fəaliyyətinə ölkəmizin öz töhfəsini verdiyini bildirirəm.

Azərbaycanın regionda yüksək mövqe qazandığını, regional iqtisadi layihələrin, xüsusilə enerji layihələrinin həyata keçirilməsində çox fəal iştirakını və aparıcı rol oynadığını xüsusi vurğulayıram. Sizin QİƏT-in Baş katibi vəzifəsində fəaliyyətinizi də yüksək qiymətləndirir, Sizə uğurlar diləyirəm.

**V a l e r i Ç e ç e l a ş v i l i:** Səmimi qəbula görə Sizə təşəkkürümü bildirirəm. Sizi prezident seçilməyiniz münasibətilə təbrik edirəm, ölkənizin gələcək inkişafı və regionda mövqeyinin daha da möhkəmlənməsi naminə fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

QİƏT-in fəaliyyət proqramı, regional əməkdaşlığın inkişaf etdirilməsi sahəsində qarşıda duran vəzifələr barədə məlumatımız var. Ötən il iyunun 25-də İstanbulda bu təşkilatın yaradılmasının on illiyi ilə əlaqədar keçirilmiş dövlət başçılarının zirvə görüşündə Azərbaycan prezidenti Heydər Əliyevin çıxışlarında QİƏT qarşısında mühüm vəzifələr müəyyən edildi.

Biz onun tövsiyələrini rəhbər tutduqlarımızı və həyata keçirdiklərimizi bildirirəm. Onu da söyləyim ki, Azərbaycan bu təşkilatda sədrliyi dövründə ciddi irəliləyişlərə nail olmuş, ölkəniz təkcə enerji sektorunda deyil, habelə nəqliyyat sahəsində də lider mövqeyi tutmuşdur.

**İ l h a m  Ə l i y e v:** Məmnunluqla bildirirəm ki, enerji sektoru ilə yanaşı, nəqliyyat və turizm sahəsində də ölkəmiz regional əməkdaşlıq istiqamətində yüksək nəticələr əldə etmişdir. Regionda mövcud olan böyük potensialdan hələ tamamilə istifadə edilməmişdir. Qarşıdakı illər ərzində təşkilata üzv olan ölkələrin ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsi ilə bu sahədə böyük işlər görüləcəkdir. Mən şəxsən bu prosesdə fəal iştirak edəcək və Azərbaycanın QİƏT-də sədrlik müddəti başa çatdıqdan sonra da ölkəmiz bu təşkilatın möhkəmlənməsi və inkişafı üçün səylərini artıracaqdır.

## UKRAYNA DÖVLƏT MİLLƏTLƏRİN İŞLƏRİ VƏ MİQRASİYA KOMİTƏSİNİN SƏDRİ GENNADİ MOSKALIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*10 noyabr 2003-cü il*

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab sədr!

Hörmətli qonaqlar, mən sizi Azərbaycanda salamlayıram.

Ölkələrimiz arasında tarixən xoş münasibətlər, dostluq münasibətləri mövcuddur.

Ukrayna və Azərbaycan xalqları bütün dövrlərdə bir-birilərinə qarşılıqlı hörmət və rəğbət hissləri bəsləmişlər. Çox xoşdur ki, müstəqillik əldə edildikdən sonra da ölkələrimiz arasında dostluğa və qarşılıqlı yardıma əsaslanan münasibətlər yaranır. Bu münasibətlərin təşəkkül tapmasına prezidentlərimiz – Leonid Kuçma və Heydər Əliyev böyük töhfə vermişlər. Dövlətlərimizin başçılarının dostluq münasibətləri ölkələrimiz arasında əlaqələrin xarakterini bir çox cəhətdən öncədən müəyyənləşdirmişdir.

Bizim aramızda bütün istiqamətlərdə – beynəlxalq məsələlərdə də, ikitərəfli münasibətlərlə bağlı məsələlərdə də qarşılıqlı anlaşma, qarşılıqlı dəstək var. Bildiyiniz kimi, biz beynəlxalq təşkilatlar çərçivəsində də çox fəal əməkdaşlıq edirik. Mən bu yaxınlarda, sentyabrda Ukraynada olarkən bir daha yəqin etdim ki, ölkələrimiz arasında münasibətlər MDB çərçivəsində də və əlbəttə, daha geniş miqyasda böyük rol oynayır.

Fürsətdən istifadə edərək, Ukrayna torpağında olarkən mənə göstərilmiş qonaqpərvərliyə görə təşəkkürümü möhtərəm prezident Leonid Daniloviç Kuçmaya yetirməyinizi xahiş

edirəm. Düşünürəm ki, bu münasibətlər gələcəkdə də inkişaf edəcək və möhkəmlənəcəkdir.

Siz millətlərarası münasibətlər sahəsində problemlərə məsul olan çox mühüm bir quruma başçılıq edirsiniz.

Mən Sizə deyə bilərəm ki, Azərbaycanda bu baxımdan böyük uğurlar qazanılmışdır. Azərbaycanda tarixən də milli zəmində heç vaxt heç bir problem olmamışdır, çox xoşdur ki, müstəqil dövlətimizin təşəkkül tapdığı dövrdə də belə problemlər yoxdur. 1991–1993-cü illər tariximizdə ağır dövr olmuş, bu sahədə çox ciddi səhvlərə, hətta deyərdim ki, cinayətlərə yol verilmişdir. O dövrdə Azərbaycan vətəndaşlarına şəxsi keyfiyyətlərinə görə deyil, milli mənsubiyyətlərinə görə qiymət verirdilər. Lakin Azərbaycan xalqı 1993-cü ildə Heydər Əliyevi hakimiyyətə dəvət etməklə bu siyasətə öz münasibətini bildirdi. O vaxtdan bizdə bu problemlər uğurla həll olunur, milli və dini mənsubiyyətindən asılı olmayaraq, hər bir Azərbaycan sakini ölkənin tamhüquqlu vətəndaşıdır. Azərbaycanda milli münasibətlərdəki sülh və həmrəylik ölkəmizin əsas sərvətlərindən biridir. Biz bu siyasəti davam etdirəcək və möhkəmləndirəcəyik.

Bilirəm ki, ölkəmizə səfəriniz müddətində görüşləriniz, ikitərəfli əlaqələriniz olmuş və təcrübə mübadiləsi aparmısınız. Zənnimcə, bu həmin sahədə aramızda yaxşı əlaqələr yaranmasına kömək edəcəkdir. Ukraynada çoxsaylı, çox fəal və Ukrayna cəmiyyətinə inteqrasiya olunmuş Azərbaycan icması mövcuddur. Əlbəttə, biz çox istərdik ki, Ukraynada yaşayan azərbaycanlılar ictimai proseslərdə fəal iştirak etsinlər, həm də ölkələrimiz arasında, bir növ, əlaqələndirici vəsilə olsunlar. Əminəm ki, bu belə də olacaqdır.

Mən bir daha sizi salamlamaq istəyirəm və ümidvaram ki, sizin bu qısa səfəriniz ikitərəfli münasibətlərimiz üçün faydalı olacaqdır.

**Gennadi Moskal:** Cənab Prezident, çox sağ olun.

Hər şeydən əvvəl, Azərbaycan prezidenti kimi yüksək

vəzifəyə seçilməyiniz münasibətilə Sizi təbrik etmək, uğurlar arzulamaq istəyirəm. Minnətdaram ki, Siz gərgin iş cədvəlinizə baxmayaraq, bizim nümayəndə heyəti ilə görüşməyə vaxt tapdınız.

Sizə məlumat üçün deyim ki, biz müxtəlif yerlərdə Ukrayna icmasının nümayəndələri ilə görüşdük və Sizin və əvvəlki prezidentin burada yaşayan ukraynalılara göstərdiyiniz diqqətə görə Ukrayna hökuməti adından təşəkkür etmək istəyirəm. Ukraynalılar burada normal yaşayır və onların heç bir problemi yoxdur, buna görə də onlar öz dərin minnətdarlıqlarını bildirirlər.

Ukrayna Azərbaycanlıları Konqresinin sədri də nümayəndə heyətimizin üzvüdür. Demək istəyirəm ki, Ukrayna prezidenti də, hökuməti də, parlamenti də ölkəmizdə yaşayan millətlərin, o cümlədən də azərbaycanlıların özlərini yaxşı hiss etməsi üçün mümkün olan hər şeyi edirlər. Sizi əmin etmək istəyirəm ki, Ukraynadakı Azərbaycan icması ilə bağlı heç bir problemimiz yoxdur. O, Ukrayna cəmiyyətinə inteqrasiya edibdir, ana dilində danışmaq imkanına malikdir, uşaqlar üçün bazar günü məktəbləri var, lazım gələrsə, dövlət məktəbləri də yaradılacaqdır.

Hesab edirik ki, Ukraynada yaşayan azərbaycanlılar çox əməksevər və qanunpərəst insanlardır. Müxtəlif rəqəmlər deyirlər, amma mən hökumətin adından bildirmək istəyirəm ki, ölkəmizdə yaşayan azərbaycanlıların sayının bizim üçün əhəmiyyəti yoxdur. Təkcə bir rəqəmi nəzərə çatdırmaq istəyirəm: 2001-ci ildə 45 min azərbaycanlı Ukrayna vətəndaşı olmağı arzulamışdı, indi bu rəqəm artmışdır. İşləmək və ya bizneslə məşğul olmaq, Azərbaycan vətəndaşlığını saxlamaq istəyənlər üçün heç bir maneə yoxdur. Kimisə ölkədən deportasiya etdiyimiz barədə heç bir fakt olmayıbdır. Düşünürəm ki, bunu Ukrayna Azərbaycanlıları Konqresi sədrinin sözləri də sübut edəcəkdir.

Mən iki misal çəkmək istərdim. Bu misallar bizi riqqətə

gətirmişdir və onların barəsində hər yerdə danışacağam. Bu gün biz Pravoslav kilsəsində ibadətdə olduq və Sovet İttifaqı dövründə dağıdılmış məbədi müsəlman və milliyyətcə azərbaycanlı olan bir nəfərin öz şəxsi vəsaiti hesabına bərpa etdiyini eşidəndə yaxşı mənada təəccübləndik. Təəssüflənirəm ki, o adam dünyasını dəyişib və baş yepiskop bizi qəbul edə bilmədi, çünki Moskvaya onun dəfn mərasiminə gedibdir. Onun portreti və saysız-hesabsız şamlar göstərir ki, bu adam, həqiqətən, layiqli töhfə vermişdir. Biz xoş təəccüb hisslərini ikinci dəfə Slavyan Universitetində olarkən keçirdik. Burada gördük ki, azərbaycanlılar nəinki Ukrayna dilini öyrənir, həm də mahnılarımızı gözəl ifa edirlər, Ukrayna dilində təmiz danışırlar, ola bilsin, hətta bəzi ukraynalılardan yaxşı danışırlar. Bu göstərir ki, ukraynalılar burada özlərini evlərindəki kimi hiss edirlər. Biz onlardan bir kəlmə də olsun giley-güzar eşitmədik. Milli azlıqların problemləri ilə, soydaşlarımızla əlaqələr yaradılması ilə bağlı çox ölkələrdə oluruq. Ukraynalılar mövcud hakimiyyətə sadiqliyi ilə həmişə fərqlənmişlər, onları müxalifətin sıralarında, ölkədə sabitliyi pozanların sırasında görə bilməzsiniz. Onlar həmişə hakimiyyətlə əməkdaşlıq etməyə, bu ölkənin vətəndaşları kimi işləməyə çalışmışlar. Axı bu ölkə onlara ev-eşik, iş, təhsil veribdir, ona görə də öz mədəniyyət və ənənələrini unutmamaqla, bu ölkəyə xidmət etmək lazımdır.

Siz və atanız Azərbaycandakı Ukrayna icmasına dəstək verdiyinizə görə Sizə bir daha təşəkkür etmək istəyirəm.

**İ l h a m Ə l i y e v:** Xoş sözlərə görə çox sağ olun. Bunu eşitmək çox xoşdur. Siz bu iki nümunəni tamamilə düzgün qeyd etdiniz, hərçənd belə nümunələr çoxdur. Lakin onlar diqqətəlayiqdir. Rus Pravoslav kilsəsi azərbaycanlının, təəssüf ki, həyatdan vaxtsız getmiş Aydın Qurbanovun vəsaiti hesabına bərpa edilmişdir. Biz Aydın Qurbanovu yaxşı tanıyırdıq və o bu təşəbbüsü irəli sürəndə hamı – prezident Heydər Əliyev də, başqaları da onu dəstəklədi. Kilsənin açılışı təntənəli şəraitdə keçdi. Əlbəttə, bu, müqəddəs işdir və

sübut edir ki, ölkəmizdə, xalqımızda həm milli, həm də dini dözümlülük vardır. Bu, xalqımıza xas olan xüsusiyyət, onun sərvətidir.

Slavyan Universitetində Ukrayna mahnıları oxuyurlar, bunda da təəccüblü heç nə yoxdur. Əvvəla, mahnılarınız çox yaxşıdır, ikincisi də, sizin mədəniyyətinizə çox böyük maraq vardır. Azərbaycanlıların Ukrayna vətəndaşlığını qəbul etmək arzusu da müsbət haldır, bu bizi bir-birimizə daha çox yaxınlaşdırır, ölkələrimizi və xalqlarımızı zənginləşdirir. Ukrayna kimi, Azərbaycan da çoxmillətli ölkədir. Bu, müsbət amildir. Dünyada monomilli ölkələr də vardır.

Lakin bu ona görə baş verir ki, həmin ölkələrdə milli azlıqlar çox da yaxşı yaşamırlar. Azərbaycan isə hər bir kəsin özünü doğma evində hiss etdiyi bir ölkədir. Bu, tarixən belə olmuşdur. Deməliyəm ki, son vaxtlar iqtisadi islahatlar keçirilməsi, xarici sərmayələrin cəlb edilməsi sayəsində ölkəmizə uzaq xaricdən xeyli adam gəlmişdir. Burada xarici ölkələrdən gəlmiş bir neçə min əcnəbi vətəndaş yaşayır və özlərini əla hiss edirlər. Bu, cəmiyyətin inkişafının və səviyyəsinin, işlərin vəziyyətinin göstəricisidir. Odur ki, prezidentimizin 10 il ərzində həyata keçirdiyi siyasət hökmən davam etdiriləcək və möhkəmləndiriləcəkdir. Milliyyətindən, dinindən və dilindən asılı olmayaraq, Azərbaycanın hər bir vətəndaşı özünü azərbaycanlı qədər müdafiə olunmuş hiss etməlidir. Bu da ölkələrimizi bir-birinə yaxınlaşdırır. Biz bilirik ki, Ukraynada da digər millətlərə münasibət belədir. Zənnimcə bu, böyük sərvətdir, bizim nailiyyətimizdir və biz birlikdə bunu möhkəmlətməli və inkişaf etdirməliyik.

**Gennadi Moskal:** Cənab Prezident, fürsətdən istifadə edib demək istəyirəm ki, səhər Şəhidlər xiyabanında məzarların üstünə gül-çiçək qoyduq, 1990-cı ildə həlak olanlar arasında ukraynalı da vardır. O, Azərbaycanın müstəqilliyi və dövlətçiliyi uğrunda həlak olmuşdur.

Bizim prezidentlərimiz, hökumətlərimiz və parlamentlərimiz arasında həmişə sıx dostluq münasibətləri olmuşdur. Aramızda

heç bir problem olmamışdır və heç vaxt olmayacaq. Biz Sizdən ikitərəfli münasibətlərin inkişaf etdirilməsi işini dəstəkləməyi xahiş edirik.

**İ l h a m Ə l i y e v:** Mən Leonid Daniloviçlə Yaltada görüşərkən biz hər şey barədə səmimiyyətlə və dostcasına danışdıq. Bir qədər sonra Nyu-Yorkda BMT Baş Məclisinin sessiyasında yenidən görüşdük. Mən onu əmin etdim ki, biz bu münasibətləri davam etdirəcəyik.

Azərbaycanda prezident dəyişmişdir, lakin siyasi xətt dəyişməmişdir. Bu, ən başlıca amildir. Qonşularımızla, eləcə də sizin ölkənizlə münasibətlərimiz dəyişməz qalacaqdır.

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB SEYİD MƏHƏMMƏD**
**XATƏMİYƏ**

Hörmətli cənab Prezident!

Yəzd vilayətində baş vermiş avtomobil qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni ürəkdən kədərləndirdi. Bu faciə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün İran xalqına dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *10 noyabr 2003-cü il*

**İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ,
SƏUDİYYƏ ƏRƏBİSTANININ MƏLİKİ
ƏLAHƏZRƏT
FƏHD BİN ƏBDÜLƏZİZ AL SƏUDA**

Əlahəzrət!

Ər-Riyad şəhərində törədilmiş terror aktı nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni ürəkdən kədərləndirdi.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə, bütün Səudiyyə Ərəbistanı xalqına dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *10 noyabr 2003-cü il*

**SƏUDİYYƏ ƏRƏBİSTANI MƏMLƏKƏTİNİN VƏLİƏHDİ ƏLAHƏZRƏT ABDULLAH BİN ƏBDÜLƏZİZ AL SƏUDA**

Əlahəzrət!

Ər-Riyad şəhərində terrorçuların qəsdi nəticəsində çoxsaylı insan tələfatı xəbərini dərin kədər hissi ilə qarşıladım.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə, bütün Səudiyyə Ərəbistanı xalqına dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *10 noyabr 2003-cü il*

**İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM MEQAVATİ SUKARNOPUTRİYƏ**

Hörmətli xanım Prezident!

Ölkənizdə baş vermiş su daşqınları nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni ürəkdən kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün İndoneziya xalqına dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *11 noyabr 2003-cü il*

## DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ DİREKTORU DONNA DOUSSET-KOYROLONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*11 noyabr 2003-cü il*

**İ l h a m  Ə l i y e v:** Hörmətli qonaqlar, mən sizi ürəkdən salamlayıram, Azərbaycana xoş gəlmisiniz.

Dünya Bankı ilə Azərbaycan arasında əməkdaşlıq sürətlə inkişaf edir və çox yüksək səviyyədədir. Uzun illərdir ki, müxtəlif sahələrdə çox işgüzar işbirliyi var və bunun sayəsində gözəl nəticələr və uğurlar əldə olunmuşdur. Xüsusilə neft və qaz sektorunda görülən işlərin nəticəsində Azərbaycan öz neft strategiyasını həyata keçirdikcə Dünya Bankının dəstəyini daim hiss etmişik. Bakı–Tbilisi–Ceyhan layihəsinə göstərilən diqqət sübut edir ki, Dünya Bankı bu məsələyə çox ciddi yanaşır. Fürsətdən istifadə edərək, mən sizə öz təşəkkürümü bildirmək istəyirəm.

On il əvvəl Heydər Əliyevin təşəbbüsü ilə hazırlanmış neft strategiyası Azərbaycana böyük uğurlar gətirmişdir. Əlbəttə, Bakı–Tbilisi–Ceyhan kimi irimiqyaslı neft kəməri istismara verildikdən sonra Azərbaycanın iqtisadiyyatı daha da güclənəcək, iqtisadi həyatın bütün sahələrində daha böyük nəticələr və uğurlar müşahidə olunacaqdır.

Eyni zamanda, Azərbaycanın qeyri-neft sektorunun inkişafında da Dünya Bankının köməyi çox əhəmiyyətlidir. Biz bunu daim hiss edirik və çalışırıq ki, Azərbaycanın iqtisadiyyatı hərtərəfli inkişaf etsin, təkcə neft amilindən asılı olmasın. Ona görə qeyri-neft sektorunun, ölkəmizdə sahibkarlığın inkişafı bizim üçün prioritet məsələlərdir. Bu sahədə sizin həmişə

köməyiniz olmuşdur və əminəm ki, bu, gələcəkdə də davam edəcəkdir.

Çox sevindirici haldır ki, iqtisadi sahədə əməkdaşlıqla yanaşı, Dünya Bankı sosial məsələlərin həllinə də böyük diqqət yetirir və bu məqsədlə yoxsulluğun azaldılması istiqamətində mühüm işlər görülür. Bu sahədə də biz sizin köməyinizi hiss edirik və əminəm ki, gələcəkdə bu mühüm sosial problemin həlli istiqamətində ölkəmizdə həyata keçirilən xüsusi dövlət proqramı öz gözəl nəticələrini verəcəkdir.

Bir daha sizi salamlayıram, əminəm ki, gələcəkdə də bizim əməkdaşlığımız uğurlu olacaqdır.

**Donna Dousset–Koyrolo:** Cənab Prezident, bu qəbula görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. İstərdim ki, Dünya Bankının prezidenti cənab Vulfensonun təbriklərini Sizə yetirim. O, artıq Sizi rəsmi məktubla təbrik edibdir. İndi isə mən onun şəxsi salamlarını Sizə çatdırmaq istəyirəm.

Bu görüs imkan verir ki, Sizinlə qarşıda duran məsələləri müzakirə edək. Biz prezident Heydər Əliyev ilə Azərbaycanla bağlı bir çox məsələləri müzakirə edir və fikir mübadiləsi aparırdıq. Ümidvarıq ki, bu görüşlər Sizinlə də davam etdiriləcəkdir.

Eyni zamanda, mən Sizi öz adımdan və Dünya Bankında Azərbaycanla bağlı qrupun üzvləri adından təbrik etmək istəyirəm və ən xoş arzularımızı yetirirəm. Azərbaycanın rəsmi şəxsləri ilə təmasda olan qrupun üzvlərinin hamısı ölkənizdə gedən proseslərdən çox məmnundurlar. Həqiqətən, burada böyük həcmdə islahatlar aparılır. Azərbaycanın qarşısında böyük vəzifələr durur və Siz andiçmə mərasimində bu vəzifələrə toxundunuz. Ümidvaram ki, onların həlli üçün gələcəkdə bizim əlaqələrimiz daha da sıx olacaqdır.

Bir müddət əvvəl Dünya Bankının Direktorlar Şurası Bakı–Tbilisi–Ceyhan layihəsinə öz dəstəyini bildirdi. Məlum olduğu kimi, Beynəlxalq Maliyyə Korporasiyası layihəyə vəsait ayırmışdır və Direktorlar Şurası bu vəsaitin ayrılmasını təsdiq etdi. Əsas məqam ondan ibarətdir ki, biz bu layihənin, sadəcə,

neft kəməri olmadığını nəzərə aldıq və qeyd etdik ki, Azərbaycan, həqiqətən, neftdən gələn gəlirlərdən ölkə iqtisadiyyatının digər sahələrinin inkişafı üçün istifadə etməyi qarşısına məqsəd qoymuşdur. Artıq mənə məlumdur ki, Avropa Yenidənqurma və İnkişaf Bankı da bu layihəyə öz dəstəyini bildirmişdir və bu bizim hamımızı sevindirir.

Sizin də dediyiniz kimi, Dünya Bankı Azərbaycanla sıx əməkdaşlıq edir. Bizim üstünlük verdiyimiz sahələr Bakı–Tbilisi–Ceyhan kimi irimiqyaslı layihələrdir. Bu da Beynəlxalq Maliyyə Korporasiyası kimi iri maliyyə qurumları tərəfindən həyata keçirilir. Eyni zamanda, Dünya Bankını Azərbaycanla bağlayan digər mühüm sahələr də vardır ki, bunların sırasında neft gəlirlərinin istifadə olunması, Azərbaycanda Neft Fondunun idarəçiliyi, büdcə xərclərinə nəzarət, ümumilikdə maliyyə resurslarının idarəçiliyini göstərmək olar.

Bundan başqa, digər sahələr də vardır və bu sahələrdə layihələrin həyata keçirilməsinə başlamışıq. Ümidvarıq ki, bu sahələrdə əməkdaşlıq gələcəkdə də davam edəcəkdir. Bu sahələr, əsasən, qeyri-neft sektoru ilə əlaqədardır. Əsas məqsədimiz sizinlə birlikdə kiçik və orta sahibkarlığı inkişaf etdirmək, orta həcmli müəssisələrin sayını artırmaq və bu sahəni daha da genişləndirməkdir. Digər vacib məsələ insan inkişafı ilə bağlıdır. Bu sahədə biz təhsilə və səhiyyəyə xüsusi diqqət yetiririk, kənd yerlərində və ucqarlarda yaşayan insanların inkişafına böyük əhəmiyyət veririk.

Beləliklə, biz sizin ölkənizdəki inkişafdan, fəal əməkdaşlıqdan razıyıq və məqsədimiz ondan ibarətdir ki, münasibətlərimiz daha da dərinləşsin və genişlənsin. Sizin qeyd etdiyiniz kimi, yoxsulluğun azaldılması proqramının həyata keçirilməsi sahəsində əməkdaşlığımızın genişlənməsinə ümid edirik. Gələcəkdə görüləcək işlərlə bağlı Sizin məsləhətləriniz və şərhiniz bizim üçün çox faydalı olardı.

Bildiyiniz kimi, Dünya Bankının Azərbaycanda fəaliyyəti yalnız maliyyə dəstəyi ilə məhdudlaşmır. Biz islahatların həyata keçirilməsinə texniki yardım və məsləhətlər sahəsində də öz

köməyimizi göstəririk. Biz sizinlə bütün sahələrdə fikir mübadiləsi aparmağa həmişə hazırıq.

Ötən illərdə Azərbaycanla əməkdaşlığımız çox uğurlu keçmiş, maliyyə və texniki sahədə bizim yardımımız ölkəniz üçün faydalı olmuşdur. Lakin illər keçdikcə Azərbaycan öz iqtisadiyyatını gücləndirəcək və maliyyə yardımına bir o qədər də ehtiyacı olmayacaqdır. Bununla yanaşı, ümidvaram ki, əməkdaşlığımız davam edəcək və biz gələcəkdə də sizə texniki yardım göstərəcəyik. Biz sizin göstərişlərinizi gözləyirik.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Azərbaycanda iqtisadi islahatlar davam etdiriləcək və bu da yaxın gələcəkdə ölkəmizin çox zəngin və qüdrətli dövlətə çevrilməsinə imkan verəcəkdir. İqtisadiyyatımız bazar iqtisadiyyatı prinsipləri üzərində qurulur. Ümumi daxili məhsulun 70 faizinin özəl sektorun fəaliyyəti nəticəsində formalaşması çox müsbət göstəricidir. Neft bizim üçün son məqsəd deyil, ölkəmizi hərtərəfli və dinamik inkişaf etdirmək üçün gözəl bir vasitədir. Azərbaycan bu imkandan məharətlə istifadə etdi və biz əfsanəni gerçəyə çevirdik. İndiki mərhələdə ən mühüm vəzifəmiz ondan ibarətdir ki, neftdən əldə olunan gəlirlər səmərəli şəkildə xərclənsin və gələcək nəsillər üçün çox etibarlı şəkildə qorunub saxlanılsın.

Siz Neft Fondunu qeyd etdiniz. Doğrudan da bu Fondun yaradılması Azərbaycanın müasir tarixində çox əlamətdar bir hadisədir.

Bildiyiniz kimi, bu Fond çox şəffaf bir qurumdur və beynəlxalq maliyyə təşkilatları tərəfindən çox yüksək qiymət almışdır. Eyni zamanda, dünyanın aparıcı qeyri-hökumət təşkilatları da Fondun fəaliyyətini bəyənirlər. Sizə məlumdur ki, neft hasil edən bir çox ölkələrdə zəngin təbii ehtiyatlar olmasına baxmayaraq iqtisadi durum o qədər də qənaətbəxş deyildir. Onların səhvlərini təkrarlamamaq üçün biz mövcud olan beynəlxalq təcrübəni diqqətlə öyrəndik və əlbəttə, Dünya Bankının, Beynəlxalq Valyuta Fondunun tövsiyələrini qəbul etdik, indi də bu tövsiyələr üzərində öz siyasətimizi aparırıq. Neftdən əldə olan gəlirlər Azərbaycanın hərtərəfli inkişafı üçün

gözəl imkan yaradır və hər bir vətəndaşımız bunu öz gündəlik həyatında hiss etməlidir.

Əminəm ki, Bakı–Tbilisi–Ceyhan neft kəməri istifadəyə verildikdən, Azərbaycanın xəzinəsinə böyük həcmdə valyuta axını təmin edildikdən sonra hər bir vətəndaşımız bunu daha çox hiss edəcək və ölkəmizin bütün regionları bu imkandan yararlanaraq inkişaf edəcəkdir. Bizim məqsədimiz məhz bundan ibarətdir. Azərbaycanın paytaxtı və böyük şəhərləri ilə yanaşı, ən ucqar kəndlər və qəsəbələr də bu imkandan istifadə etməlidirlər. Əminəm ki, hökumət onlara bu imkanı yaradacaqdır.

Biz ümidvarıq ki, Dünya Bankı ilə, dünyanın digər beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığımız gələcəkdə də uğurla davam edəcəkdir. Bu da, öz növbəsində, gələcək layihələrin həyata keçirilməsində bizə kömək olacaqdır.

**Donna Dousset–Koyrolo:** Cənab Prezident, bildiyiniz kimi, Dünya Bankı Bakı–Tbilisi–Ceyhan layihəsinə maliyyə vəsaiti ayırmazdan əvvəl, bizim tənqidçilərimiz çox idi. Onlar təkid edirdilər ki, biz bu layihəni maliyyələşdirməyək. Onlar səbəb kimi bunu göstərirdilər ki, digər ölkələrdə bu cür layihələr həyata keçirilməyibdir. Lakin həm Direktorlar Şurası, həm də Dünya Bankının prezidenti onları əmin edə bildi ki, bu layihəyə maliyyə vəsaitinin ayrılması, hər şeydən əvvəl, Azərbaycanın yüksək iqtisadi göstəriciləri ilə bağlıdır. Belə ki, bu ölkə, həqiqətən, özünü qarşısına məqsəd qoymuş güclü bir ölkə kimi doğrultmuşdur, həqiqətən, bu ölkədə islahatlar aparılır və Neft Fondu yaradılmışdır. Biz sizin ölkənizə çox böyük ümidlər bəsləyirik. Cənab Prezident, biz istəyirik ki, Azərbaycan gələcəkdə digər ölkələr üçün model rolunu oynasın və biz də sizinlə fəxr edək. Bu həm də o deməkdir ki, Siz prezidentliyiniz dövründə çox məşğul olacaqsınız. Sizə uğurlar diləyirik.

## QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNİN SƏDRİ ŞEYXÜLİSLAM HACI ALLAHŞÜKÜR PAŞAZADƏ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*11 noyabr 2003-cü il*

**Allahşükür Paşazadə:** Cənab Prezident, oktyabrın 15-də keçirilmiş seçkilərdə əksəriyyət səs çoxluğu ilə qalib gəlməyiniz və prezident kimi fəaliyyətə başlamağınız münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Onu da qeyd edim ki, builki seçkilərdə yüksək fəallıq göstərən vətəndaşlarımız xalqımızın ümummilli lideri Heydər Əliyevin respublikaya başçılıq etdiyi son on ildə ölkəmizdə bərqərar olunmuş ictimai-siyasi sabitliyə, iqtisadi tərəqqiyə, bu xəttin gələcəkdə də davam etdirilməsinə səs vermişlər.

Əmin olduğumu vurğulayıram ki, xalqımızın müdrik oğlu Heydər Əliyev məktəbinin ən layiqli davamçısı olan İlham Əliyev Azərbaycan dövlətçiliyinin daha da möhkəmlənməsi, ölkəmizin iqtisadi qüdrətinin artması, beynəlxalq aləmdə nüfuzunun getdikcə yüksəlməsi, respublikamızın ən ağrılı və çətin probleminin – Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin milli maraqlarımız çərçivəsində sülh yolu ilə həlli üçün bütün səylərini, qüvvə və bacarığını əsirgəməyəcəkdir.

Daha sonra Sizi mübarək Ramazan ayı münasibətilə də təbrik edir, Ulu Tanrıdan Sizə çətin və məsul işlərinizdə böyük uğurlar arzulayıram.

Bu görüşdən xatirə olaraq Sizə Quran hədiyyə edirəm. Tanrı Sizi qorusun.

**İlham Əliyev:** Xoş sözlərə və səmimi təbriklərə görə Sizə təşəkkür edirəm. Yüksək dövlət vəzifəsində xalqın etima-

dını doğruldacaq, Heydər Əliyevin alternativsiz siyasətini davam və inkişaf etdirəcək, dini və milli mənsubiyyətindən, siyasi baxışlarından asılı olmayaraq, Azərbaycanın hər bir vətəndaşının prezidenti olacağam.

## AZƏRBAYCANDA BANK FƏALİYYƏTİNİN İNKİŞAFINA HƏSR OLUNMUŞ BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Hamınızı ürəkdən salamlayır və Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində belə bir yüksək səviyyəli konfransın keçirilməsindən məmnun olduğumu bildirirəm. Bu konfransın keçirilməsini bütövlükdə Azərbaycanda radikal iqtisadi islahatların, o cümlədən bank islahatlarının uğurlarına diqqət və qiymət kimi dəyərləndirirəm.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra bazar iqtisadiyyatına keçməyi bəyan etmiş və bu yolda müsbət nəticələr əldə etmişdir. Ölkədə bazar münasibətlərinin formalaşmasında əhəmiyyətli nailiyyətlər qazanmış sahələrdən biri bank sistemidir. İndi Azərbaycanda iqtisadiyyata çeşidli beynəlxalq standartların tələblərinə cavab verən bank xidməti göstərilməkdədir. Xarici bank kapitalının da iştirak etdiyi müasir bank bazarının formalaşması bank sisteminə iş adamlarının, əhalinin, habelə xarici investorların inamını artırmışdır. Azərbaycan bankları öz fəaliyyətlərində şəffaflıq prinsiplərini rəhbər tutur, korporativ idarəetmə mədəniyyətini daim yüksəldir.

Azərbaycanda iqtisadi inkişafın yeni mərhələsi milli bank sisteminin inkişafı üzrə yeni vəzifələr irəli sürür. Onun iqtisadiyyata daha geniş maliyyə xidmətinin göstərilməsində, xüsusilə kiçik və orta sahibkarlığın maliyyə ehtiyacının ödənilməsində rolu artırılmalı, milli bank sisteminin etibarlılığı və dayanıqlılığı daha da möhkəmləndirilməli, rəqabət mühiti yaxşılaşdırılmalı, bank işinin dünya bank sisteminə inteqrasiyası şəraitində qloballaşmanın çağırışlarına hazır olmalıdır. Ümidvaram ki, konfransın işi məhz bu mühüm problemlərin həlli yollarının müəyyən olunmasında çox faydalı olacaqdır.

Biznes və bank ictimaiyyəti əmin ola bilər ki, Azərbaycan dövləti bundan sonra da bank sisteminin inkişafına və islahatların davam etdirilməsinə öz zəruri dəstəyini verəcək və bu istiqamətdə beynəlxalq maliyyə-kredit institutları ilə əməkdaşlığı inkişaf etdirəcəkdir.

Konfransın işinə uğurlar diləyir və hər birinizə işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *12 noyabr 2003-cü il*

## GÜRCÜSTANIN ACARISTAN MUXTAR RESPUBLİKASININ BAŞÇISI ASLAN ABAŞİDZE İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*12 noyabr 2003-cü il*

**İ l h a m  Ə l i y e v:** Hörmətli Aslan İbraimoviç, Sizi Azərbaycanda görməyə çox şadam. Xoş gəlmisiniz.

Mənə dedilər ki, bu gün səhər Sizin şəhəri görmək imkanınız oldu. Təəssüf ki, Siz çox qısa müddətə gəlmisiniz. Buna baxmayaraq, düşünürəm ki, tanışlıq artıq baş tutmuşdur.

Gürcüstanla Azərbaycan arasında münasibətlər həmişə və hər zaman dostluq, qardaşlıq, qarşılıqlı anlaşma, qarşılıqlı yardım xarakteri ilə fərqlənibdir. Xalqlarımızın tarixinin bütün mərhələlərində belə olubdur. Çox sevindirici haldır ki, ölkələrimiz müstəqilliyə qovuşduqdan sonra bu münasibətlər bütün sahələrdə – iqtisadiyyatda da, siyasi müstəvidə də, mədəniyyətdə də möhkəmlənir və inkişaf edir. Bu çox qiymətlidir və xalqlarımızın böyük qələbəsidir. Çətinliklərə, müstəqil dövlətlərimizin təşəkkül tapması tarixinin bəzən ağır mərhələlərinə baxmayaraq, biz müstəqilliyi qoruyub saxladıq, bir-birimizə kömək etdik. Əminəm ki, bu, gələcəkdə də davam etdiriləcəkdir.

İndi Gürcüstanla Azərbaycan regional məsələlərdə və dünya məsələlərində çox mühüm rol oynayan strateji tərəfdaşlardır. Ölkələrimizin birlikdə həyata keçirdikləri iqtisadi layihələr, energetika layihələri həm dövlətlərimizin gələcək iqtisadi firavanlığı üçün, həm də beynəlxalq qurumlara daha dərindən inteqrasiya üçün böyük əhəmiyyətə malikdir. Sizə həmçinin məlumdur ki, Azərbaycanı Acarıstanla xoş münasibətlər, qardaşlıq münasibətləri bağlayır. Bizim mənəvi, mədəni səpkidə ümumi cəhətlərimiz çoxdur, keçmişdə olduğu kimi, bu gün də

geniş əlaqələrimiz var. Biz respublikanızın iqtisadi, sosial sahələrdə əldə etdiyi uğurları çox diqqətlə izləyir və buna olduqca sevinirik.

Biz bütün sahələrdə münasibətlərimizi inkişaf etdirməyi çox istərdik və əlbəttə, keçmişdə bir çox ümumi cəhətlərimiz olduğuna görə bu potensialdan gələcək üçün də çox fəal surətdə faydalana bilərdik. Ölkələrimizdə müsbət demokratik proseslər baş verir. Əlbəttə, dövlətçiliyin inkişafının indiki mərhələsində sabitlik müvəffəqiyyətin başlıca amillərindən biridir. Sabitlik olan ölkələrdə iqtisadi inkişaf da olur. Ona görə də çox istərdik ki, regionumuzda sülh və sabitlik bərqərar edilsin, xalqlarımızın dinc və sakit şəraitdə inkişaf etmək, iqtisadi potensialı möhkəmlətmək və öz rifahını yüksəltmək imkanı olsun.

Mən Sizi bir daha salamlayıram və ümidvaram ki, ölkəmizə bu qısamüddətli səfəriniz yadınızda qalacaq və yaradılmaqda olan əlaqələr gələcəkdə də davam etdiriləcəkdir.

**A s l a n  A b a ş i d z e:** İlk növbədə Sizi belə yüksək vəzifəyə – Azərbaycan prezidenti seçilməyiniz münasibətilə təbrik etmək istəyirəm. Azərbaycan xalqını da təbrik edirəm. Mənim səfərimlə bir vaxta düşən Konstitusiya günü münasibətilə də təbrik etmək istəyirəm. Biz seçkilər zamanı Sizin təəssübünüzü çəkirdik və ümidlərimiz tamamilə doğruldu.

Əcdadlarımız qarşılıqlı münasibətlərin çox möhkəm əsasını, təməlini qoymuşlar. Odur ki, biz yeni üstqurum yaratmalı, bu münasibətləri mədəniyyət sahəsində də, iqtisadiyyat sahəsində də möhkəmlətməli və gücləndirməliyik. Mənim səfərim qısa, birgünlükdür. Görüşümüz əsnasında biz çox maraqlı və hərtərəfli məsələlərə toxunacağıq.

Babam bolşeviklərin hakimiyyəti dövründə repressiya edilmiş, 1937-ci ildə güllələnmişdir. Lakin bundan əvvəl Bakıda sürgündə olmuşdur. İndi mən buraya məmnuniyyətlə sürgünə gəlib sizinlə birlikdə yaşayardım. Mehribancasına qəbula görə sağ olun. Mən Bakıya üçüncü dəfə gəlirəm, çox istərdim ki, köhnə və təzə şəhərə, yeni tikililərə baxım. Şadam ki, şəhər yaxşılığa doğru dəyişir. Marşrutum hava limanından

iqamətgahadək oldu, lakin bu dəyişikliklər yolun hətta o qısa hissəsində də görünür.

Qəbula görə bir daha təşəkkür edirəm, bizə mehribanlıq göstərən bütün adamlara da təşəkkür etmək istəyirəm. Bizim xüsusi münasibətlərimiz var, burada qohumlarımız yaşayır. Gürcüstanla Azərbaycan arasındakı münasibətlərə gəldikdə isə, onlar tarixi qarşılıqlı əlaqələrdir. Buraya gəlməyimə və Sizi görməyimə görə xoşbəxtəm.

**İ l h a m Ə l i y e v:** Xoş sözlərə görə sağ olun. Azərbaycanın iqtisadiyyatı uğurla inkişaf edir, abadlaşdırma və tikinti sahəsində də çox işlər görülür. Çox sevindirici haldır ki, özəl sektor dinamik inkişaf edir və ticarət sərbəstləşdirilmişdir. Özəlləşdirmə proqramı fəal surətdə həyata keçirilir, mülkiyyətçilərin kifayət qədər sabit sinfi yaranır. Diqqətəlayiq haldır ki, neftin iqtisadiyyatın əsas hərəkətverici qüvvəsi və dövlətin mülkiyyətində olmasına baxmayaraq, ümumi daxili məhsulun formalaşmasında 70 faiz özəl sektorun payına düşür. Bizdə torpaq özəlləşdirilib, kənd təsərrüfatı məhsulları istehsalı bir neçə dəfə artıbdır. Yəni ölkədə dinamik və çox fəal inkişaf gedir.

Ölkələrimiz arasında qardaşlıq münasibətlərinin olması bizə iqtisadi cəhətdən də kömək edir. İndi Azərbaycanın on milyardlarla dollar məbləğində qiymətləndirilən bütün energetika layihələri Gürcüstandan keçən nəqliyyat dəhlizi ilə bağlıdır. Əlbəttə, bundan Gürcüstan da iqtisadi fayda götürür, gələcəkdə, həmin nəqliyyat strukturları tam gücü ilə işə düşdükdən sonra isə bu səmərə Gürcüstanın dövlət büdcəsi üçün də nəzərəçarpacaq dərəcədə olacaqdır. Bu, çoxsahəli iqtisadiyyatın hərtərəfli inkişafında bizim üçün zəmindir və gələcək bir çox illər üçün də zəmin olacaqdır. Ona görə də çox xoşdur ki, iqtisadi əlaqələr inkişaf edir və çox möhkəm təmələ əsaslanır.

Sizə deyim ki, əsrlər boyu yan-yana yaşayan qonşular arasında belə yaxın münasibətlər heç də həmişə olmur, bəlkə də çox nadir hallarda olur. Xalqlarımızın tarixində heç vaxt heç bir

anlaşılmazlıq, münaqişə olmayıbdır. Yəqin ki, bu, nadir haldır. Adətən, yan-yana yaşayanlar arasında bəzən münaqişələr baş verir. Bizim münasibətlərimiz isə möhkəm dostluq və qardaşlıq əlaqələrinə əsaslanır. Çox şadıq ki, bu əlaqələr möhkəmlənir, biz onları bütün istiqamətlərdə və müstəvilərdə bundan sonra da inkişaf etdirəcəyik.

Həyata keçirmək istədiyimiz birgə planlarımız çoxdur. Aslan İbraimoviç, əlbəttə, Sizin də köməyinizə ümid bəsləyəcəyik. Mən Sizi görkəmli siyasətçi, dövlət xadimi, öz respublikasında çox möhkəm iqtisadi təməl yaradan insan kimi tanıyıram. Bilirəm ki, respublikanızda sosial məsələlər həll edilir və sabitlik hökm sürür.

Bir daha demək istəyirəm ki, Sizin gəlişinizə çox şadam. Əlbəttə, indi Azərbaycan 30-cu illərdəki ölkə deyildir. Deyə bilərəm ki, buraya minlərlə əcnəbi vətəndaş gəlir. Bu da bir daha göstərir ki, ölkə inkişafdadır, Azərbaycanda yaşayan bütün millətlər özlərini öz evlərindəki kimi hiss edirlər. Mövcud milli həmrəylik, razılıq bundan sonra da davam etdiriləcəkdir.

**İTALİYA RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB KARLO ADZELYO ÇAMPİYƏ**

Hörmətli cənab Prezident!

İraqın Ən-Nasiriyyə şəhərində törədilmiş terror aktı nəticəsində italiyalı hərbçilərin və mülki şəxslərin həlak olması xəbəri məni ürəkdən kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə, bütün İtaliya xalqına dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *13 noyabr 2003-cü il*

**İTALİYA RESPUBLİKASI NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB SİLVİO BERLUSKONİYƏ**

Hörmətli cənab sədr!

İraqın Ən-Nasiriyyə şəhərində törədilmiş terror aktı nəticəsində italiyalı sülhməramlıların həlak olması xəbərini kədər hissi ilə qarşıladım.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə, bütün İtaliya xalqına dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *13 noyabr 2003-cü il*

**LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM VAYRA VİKE-FREYBERQAYA**

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı – Latviya Respublikasının elan edilməsi günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm. Ümidvaram ki, Azərbaycan ilə Latviya arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Latviya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *15 noyabr 2003-cü il*

**OMANIN SULTANI**
**ƏLAHƏZRƏT QABUS BİN SƏİDƏ**

Əlahəzrət!

Oman Sultanlığının milli bayramı – Milli gün münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Oman arasında yaranmış xoş münasibətlər xalqlarımızın iradəsinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir. Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Oman xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *15 noyabr 2003-cü il*

## AVROPA PARLAMENTİNİN XARİCİ ƏLAQƏLƏR, İNSAN HÜQUQLARI, BİRGƏ TƏHLÜKƏSİZLİK VƏ MÜDAFİƏ SİYASƏTİ KOMİTƏSİNİN CƏNUBİ QAFQAZ ÜZRƏ MƏRUZƏÇİSİ PER QARTON İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*15 noyabr 2003-cü il*

**İ l h a m  Ə l i y e v:** Azərbaycana xoş gəlmisiniz, mən Sizi ürəkdən salamlayıram.

Azərbaycanın Avropa strukturlarına inteqrasiyası prosesi davam edir və biz bu məsələyə böyük diqqət göstəririk. Avropa İttifaqının təşəbbüsü ilə həyata keçirilən "Daha geniş Avropa" proqramı da Azərbaycanda dəstəklənir və bilirəm ki, Avropa Parlamenti də bu proqrama müsbət münasibət göstərir.

Avropa İttifaqı ilə Azərbaycan arasında sıx işgüzar münasibətlər yaranmışdır. Bir sıra məsələlərdə biz çox uğurlu əməkdaşlıq edirik.

Cənubi Qafqaz regionu üçün hazırda ən vacib məsələ sülhün və təhlükəsizliyin təmin olunmasından ibarətdir. Biz ümidvarıq ki, Avropa İttifaqı, Avropa Parlamenti bu məsələdə fəal rol oynayacaqdır. Əlbəttə ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi region üçün böyük təhlükədir. Bu münaqişənin nəticəsində Azərbaycanın 20 faiz torpaqları işğal olunmuş və 1 milyon azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

ATƏT-in Minsk qrupu uzun illərdir ki, bu məsələ ilə məşğul olur, amma əfsuslar olsun ki, heç bir nəticə əldə edilməmişdir. Hesab edirəm ki, bu münaqişənin həll olunması üçün, ilk növbədə, ikili standartlar siyasətinə son qoyulmalıdır, işğalçı

dövlətdən zəbt etdiyi torpaqlardan geri çəkilməsi tələb olunmalıdır. Sevindirici haldır ki, artıq Avropa strukturlarında bu istiqamətdə işlər aparılır və Avropa Şurasının Ermənistanı işğalçı dövlət kimi tanıması bunu əyani şəkildə göstərir.

Ümidvaram ki, digər Avropa strukturları da bu təşəbbüsə qoşulacaqlar və məsələyə öz mövqelərini birmənalı şəkildə bildirəcəklər.

Siz bu regionda olmusunuz və regionla tanışsınız. Bu gün həmçinin Azərbaycanda müxtəlif görüşlər keçirmisiniz. Əminəm ki, bu görüşlər Azərbaycan haqqında sizdə geniş məlumat yaratmışdır və məruzəçi vəzifəsində siz regionda sülhün və təhlükəsizliyin təmin olunması istiqamətində uğurlu fəaliyyət göstərəcəksiniz.

**P e r Q a r t o n:** Cənab Prezident, bu görüşə görə Sizə minnətdarlığımı bildirirəm. Tamamilə doğru söylədiniz, biz region haqqında geniş məlumata malikik. Biz ilk dəfə deyil ki, regionda oluruq, bu mənim buraya artıq üçüncü səfərimdir. Bundan əvvəl Sizin atanız prezident Heydər Əliyevlə intensiv görüşlərimiz və fikir mübadilələrimiz olmuşdur.

Siz çox düzgün qeyd etdiniz ki, Avropa İttifaqı indi xüsusi bir dövr yaşayır və hazırda genişlənmək üzrədir. Bu təşkilat hələ ki, Avropa İttifaqının üzvü olmayan dövlətlərlə fəal münasibətlər qurmaq üzrədir. Bu bizim haqqında danışdığımız geniş Avropadır. Təəssüflə qeyd etməliyəm ki, Avropa Komissiyası sizin ölkənizi geniş Avropa tərkibinə daxil etməyibdir. Lakin mənim təmsil etdiyim Avropa Parlamenti ölkənizi bu tərkibə daxil etmişdir və ümidvaram ki, gələcəkdə də biz Azərbaycanla geniş əməkdaşlıq edəcəyik.

Sizə məlum olduğu kimi, əməkdaşlığımızın ən vacib istiqamətlərindən biri regionda ciddi münaqişələrin olmamasıdır. Sizin də giriş sözünüzdə qeyd etdiyiniz kimi, bu münaqişələr mövcuddur. Sizin regionda bu, Dağlıq Qarabağ münaqişəsidir. Sizinlə görüşdən əvvəl atanızla keçirdiyim görüşlər zamanı biz bu məsələləri müzakirə etmişik və onun bu barədə çoxlu konstruktiv fikirləri var idi. Bugünkü görüşdən

əvvəl mən Ermənistanın prezidenti ilə görüşmüşəm. İstərdim ki, bu barədə mən Sizə ilk sualımı verim: Siz bu münaqişə ilə bağlı yaxın gələcəyi necə görürsünüz və Ermənistan prezidenti ilə görüşləri planlaşdırırsınızmı?

**İ l h a m   Ə l i y e v:** Bu istiqamətdə Azərbaycanın siyasətində heç bir dəyişiklik yoxdur və bu vaxta qədər aparılan siyasət davam etdiriləcəkdir. Biz çalışırıq ki, münaqişəyə sülh yolu ilə son qoyulsun. Ancaq eyni zamanda, hamı bilməlidir ki, belə vəziyyət çox davam edə bilməz. Azərbaycanın səbri tükənməz deyil, münaqişə beynəlxalq hüquq normaları əsasında öz həllini tapmazsa, biz bütün digər vasitələrdən istifadə edib öz torpaqlarımızı azad etməliyik.

Bu məsələdə, mən bunu giriş sözümdə də qeyd etdim, ikili standartlara yol verilməməlidir. Ermənistan Azərbaycan torpaqlarını – Dağlıq Qarabağı və onun ətrafında yerləşən digər əraziləri işğal etmişdir. Bu işğalın nəticəsində 1 milyon insan öz doğma torpaqlarından didərgin düşmüşdür və ərazimizin 20 faizi işğal altındadır. Bu bir faktdır, həqiqətdir. Təəssüf edirəm ki, bəzi beynəlxalq qurumlar bunu etiraf etmək istəmirlər. İlk növbədə, bu həqiqət etiraf olunmalıdır və bundan sonra beynəlxalq təşkilatlar, o cümlədən bu məsələ ilə bilavasitə məşğul olan ATƏT-in Minsk qrupu və digər nüfuzlu təşkilatlar işğalçı qüvvələrin Azərbaycan torpaqlarından geri çəkilməsi üçün öz təsirlərini göstərməlidirlər. Hər bir ölkənin, o cümlədən Azərbaycanın da ərazi bütövlüyü vardır. Bizim ərazi bütövlüyümüz bərpa olunmalıdır. Bu bizim ədalətli tələbimizdir. Dağlıq Qarabağ Azərbaycanın qədim torpağıdır, ermənilər oraya təxminən 160–170 il əvvəl köçürülmüşlər, qonaq kimi gəlmişlər. Sizə deyə bilərəm ki, Dağlıq Qarabağın mərkəzi şəhəri olan Xankəndidə keçmişdə bu məsələyə aid abidə də qoyulmuşdu və bu abidə ermənilərin Dağlıq Qarabağa köçürülməsini əks etdirirdi. Bu, məsələnin tarixi hissəsidir, problemin həlli üçün vacibdir və hamı bunu bilməlidir. Eyni zamanda, əgər biz bu gün hamıdan beynəlxalq hüquq normalarına əməl etməyi tələb ediriksə, Ermənistan da bu

normalara tabe olmalıdır və işğal etdiyi Azərbaycan torpaqlarından çıxmalıdır.

Mən bu barədə dəfələrlə fikrimi bildirmişəm və bir daha demək istəyirəm ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır, qaçqınlar və məcburi köçkünlər öz torpaqlarına qayıtmalıdırlar. Əlbəttə, əgər bu baş verərsə, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi imzalana bilər. Təbii ki, o vaxta qədər Ermənistanla Azərbaycan arasında hər hansı bir əməkdaşlıqdan söhbət gedə bilməz, biz buna imkan verməyəcəyik. Biz bununla əlaqədar keçmişdə və hazırda öz qəti mövqeyimizi bildirmişik və bildiririk. Bir daha qeyd etmək istəyirəm ki, nüfuzlu beynəlxalq təşkilatların artıq reallığı dərk etməsi və Avropa Şurasının öz sənədlərində Ermənistanı işğalçı dövlət kimi tanıması, Azərbaycanın işğal olunmuş rayonlarının adlarını sadalaması çox sevindirici haldır. Hesab edirəm ki, digər beynəlxalq təşkilatlar, ilk növbədə, Avropa strukturları bu təşəbbüsə qoşulmalıdır.

Baxmayaraq ki, ATƏT-in Minsk qrupunun fəaliyyətində heç bir müsbət nəticə yoxdur, hesab edirəm ki, onlar öz fəaliyyətini, vasitəçilik funksiyasını davam etdirməlidirlər. Əgər lazım olarsa, gələcəkdə Azərbaycanın prezidenti də danışıqlara qoşula bilər.

Siz bilirsiniz ki, keçmişdə danışıqlar aparılıbdır. O cümlədən ikitərəfli danışıqlar da olmuşdur. Onların heç bir nəticəsi olmayıbdır. Əgər Ermənistan tərəfindən bu münaqişənin həll olunması istiqamətində əsl, real maraq olarsa, əlbəttə, biz hesab edirik ki, danışıqlar davam etdirilməlidir. Amma bu danışıqlar formal xarakter daşımamalıdır. Danışıqlar o vaxt nəticə verə bilər ki, onlar konstruktiv zəmində aparılsın. Qısa şəkildə mənim mövqeyim bundan ibarətdir.

## AZƏRBAYCANDA PREZİDENT SEÇKİLƏRİNDƏN SONRA RESPUBLİKA HÖKUMƏTİNİN İLK İCLASINDA* NİTQ

*Nazirlər Kabinetinin iclas zalı*

*17 noyabr 2003-cü il*

Prezident seçkilərindən sonra Nazirlər Kabinetinin ilk iclasıdır. Ona görə qərara gəldim ki, ilk iclası mən özüm aparım.

Oktyabrın 15-də prezident seçkilərində Azərbaycan xalqının böyük əksəriyyəti öz səsini Azərbaycanda son illər ərzində aparılan Heydər Əliyev siyasətinə veribdir. Seçkilər bir daha göstərdi ki, bu siyasətə Azərbaycanda alternativ yoxdur və Azərbaycanın hərtərəfli gələcək inkişafı üçün bu siyasət davam etdirilməlidir. Əlbəttə, iqtisadi sahədə bu siyasət böyük uğurlar gətiribdir.

Azərbaycanın iqtisadiyyatı çox uğurla və hərtərəfli inkişaf edibdir. Son on il ərzində aparılan islahatların nəticəsində iqtisadiyyatımızın əldə olunan bütün əsas göstəriciləri deməyə əsas verir ki, Azərbaycan çox sürətlə inkişaf edən, dinamik şəkildə inkişaf edən ölkədir.

Hamımız yaxşı xatırlayırıq ki, 1991–1993-cü illərdə yaranmış xaos, anarxiya iqtisadiyyata da böyük zərbələr vurmuşdu. Demək olar ki, iqtisadiyyatımız tamamilə dağılmışdı, böhran içində idi. Əlbəttə, 1993-cü ildə xalqın tələbi ilə Heydər Əliyev Azərbaycan rəhbərliyinə gəlməsəydi, yəqin ki, iqtisadiyyatımız tamamilə dağılacaqdı. İlk illərdə çətinliklər çox idi, Azərbaycan müharibə şəraitində idi. Eyni zamanda, vətəndaş müharibəsi də

---

* İclasda Prezidentin İcra Aparatının, Nazirlər Kabinetinin məsul işçiləri, respublikanın nazirlikləri, komitələri, şirkətləri, səhmdar cəmiyyətləri, konsernləri, birlikləri və baş idarələrinin rəhbərləri iştirak edirdilər.

aparılırdı, dövlət çevrilişlərinə cəhdlər də göstərilmişdi. Yalnız 1995-ci ildən sonra iqtisadi tənəzzülün qarşısı alındı və iqtisadiyyatımız tədricən inkişaf etməyə başladı. Bunun üçün çox cəsarətli addımlar atılmışdır, müxtəlif sahələrdə islahatlar aparılmışdır və bu islahatların nəticəsində qısa müddət ərzində iqtisadiyyatda dirçəliş başlandı.

İqtisadiyyatın əsas göstəricisi olan ümumi daxili məhsul 1998–2003-cü illərdə 60 faiz artdı. Ölkəyə böyük həcmdə kapital qoyuluşu təmin edildi, sərmayələr cəlb olundu. İndi hamı bilir ki, xarici sərmayənin qoyuluşu üzrə adambaşına düşən paya görə Azərbaycan nəinki MDB ölkələri arasında qabaqcıl yerdədir, eyni zamanda, Şərqi Avropa məkanında da liderliyi əldə edibdir. Bu çox böyük göstəricidir. Nəzərə alsaq ki, Azərbaycan o vaxt dünyada riskli bir məkan sayılırdı, Azərbaycanda sabitlik hələlik tam bərqərar olunmamışdı. Digər tərəfdən, Ermənistanın işğalçılıq siyasəti nəticəsində 20 faiz torpaqlarımız işğal altında idi. Bütün bunlara baxmayaraq, Heydər Əliyevin uzaqgörən, müdrik siyasətinin nəticəsində xarici sərmayənin cəlb edilməsi mümkün olmuşdur. Sərmayələr, ilk növbədə, neft sektoruna yatırılıbdır və neft sektorunda əldə olunan uğurlar təkcə Azərbaycanda deyil, bütün dünyada tanınır və təqdir edilir.

Qısa müddət ərzində Azərbaycan özünün neft strategiyasını müəyyən edibdir. Heydər Əliyev tərəfindən müəyyən edilmiş neft strategiyası Azərbaycana böyük uğurlar gətiribdir. Azərbaycana böyük həcmdə sərmayə qoyulubdur, yeni infrastruktur yaradılıbdır, neft kəmərləri tikilibdir və tikilməkdədir. Bir sözlə, neft strategiyası bizə imkan verir ki, bu gün də, gələcəkdə də neftdən əldə olunan gəlirlərdən səmərəli istifadə edərək Azərbaycanı hərtərəfli inkişaf etdirək, xalqımız üçün gözəl şərait yaradaq.

Amma eyni zamanda bunu da qeyd etməliyəm ki, əgər ötən əsrin 70-ci illərində yenə də cənab Heydər Əliyev tərəfindən Azərbaycanda müasir neft infrastrukturu yaradılmasaydı, yəqin ki, 1993-cü ildə başlanan yeni neft strategiyasını həyata

keçirmək o qədər də asan olmazdı. Məhz o illərdə Azərbaycanda qazma qurğuları tikilibdir, Dərin Özüllər zavodu istifadəyə verilibdir ki, öz növbəsində, həmin zavodda indi yeni platformalar quraşdırılır.

Bu illər ərzində sosial məsələlərə böyük diqqət göstərilibdir. Amma təbii ki, sosial məsələlər bilavasitə ölkənin iqtisadi vəziyyətindən asılıdır. İqtisadiyyat güclü olanda, sosial məsələlər də öz həllini tapır. Baxmayaraq ki, Azərbaycan öz iqtisadi potensialını hələ tam mənada göstərə bilmir – əlbəttə, bunun da obyektiv səbəbləri var – buna baxmayaraq, ölkəmizin başçısının göstərişləri əsasında sosial məsələlərə də böyük diqqət göstərilmişdir. Pensiyalar, müavinətlər, əməkhaqları qaldırılıbdır və bu yaxınlarda artırılan pensiyalar, əməkhaqları onu bir daha göstərir ki, ilk növbədə, Azərbaycanda sosial məsələlərə böyük diqqət göstərilir. Azərbaycan vətəndaşları daha yaxşı yaşamalıdırlar və bununla bağlı gələcək üçün də tədbirlər planı var və həyata keçiriləcəkdir.

Çətin vəziyyətdə yaşayan qaçqınlar və məcburi köçkünlərin həyat səviyyəsinin yaxşılaşdırılması üçün də tədbirlər həyata keçirilir. Cənab Prezidentin fərmanları ilə bu məqsəd üçün böyük həcmdə vəsait ayrılmışdır. Neft Fondunun vəsaiti hesabına yeni qəsəbələr, şəhərciklər tikilmişdir. Əlbəttə, bu proses bundan sonra da davam edəcəkdir.

Mən seçkilərə qədər olan çıxışlarımda dəfələrlə bu barədə öz fikirlərimi bildirmişdim. Bir daha bəyan edirəm ki, Azərbaycanda görüləcək tədbirlərin nəticəsində heç bir çadır şəhərciyi qalmayacaq, bütün çadır şəhərcikləri ləğv ediləcək və onların əvəzində yeni, müasir standartlara cavab verən evlər, qəsəbələr salınacaqdır.

Bir sözlə, Azərbaycanda son illər ərzində aparılan iqtisadi siyasət çox uğurlu olubdur və Azərbaycanın gələcək inkişafı üçün də gözəl təməl yaranıbdır. Bizim hamımızın vəzifəsidir ki, bu siyasəti davam etdirək, əldə olunan bu uğurları artıraq və Azərbaycanın hərtərəfli inkişafı üçün böyük imkanlardan istifadə edərək, qoyulmuş bu gözəl təməlin üzərində müasir

Azərbaycanı yaradaq.

Mən əminəm ki, biz buna nail olacağıq. Gələcəkdə böyük işlər görməliyik, mövcud problemləri aradan qaldırmalıyıq. Problemlər var və biz bunları bilirik. Əlbəttə, onların həlli istiqamətində yaxın gələcəkdə tədbirlər görüləcəkdir. İlk növbədə, yoxsulluğun aradan qaldırılması istiqamətində ciddi tədbirlər görülməlidir. Artıq bu istiqamətdə işlər aparılır. Dünya Bankı ilə birlikdə tədbirlər həyata keçirilir. Əminəm ki, biz buna nail olacağıq.

Azərbaycan üçün ən böyük problem işsizlik problemidir. Bu istiqamətdə görüləcək tədbirlərin nəticəsində, əminəm ki, həmin problem də aradan qaldırılacaqdır. Mən seçkilərdən əvvəlki çıxışlarımda bu barədə öz fikirlərimi bildirmişdim. Bəyan etmişdim, məqsədimiz odur ki, növbəti beş ildə Azərbaycanda 600 min iş yeri açılsın. Bu, sadəcə olaraq, seçkiqabağı vəd deyildir. Bu proqramdır. Yəni mən əminəm ki, həm dövlət tərəfindən, eyni zamanda, özəl sektor tərəfindən görüləcək tədbirlərin nəticəsində biz buna nail olacağıq.

Bütün gələcək planlarımızı həyata keçirmək üçün Azərbaycanda, ilk növbədə, maliyyə intizamı olmalıdır. Bu istiqamətdə böyük işlər aparılıbdır. Hesab edirəm ki, biz gələcəkdə də mövcud problemlərə daha böyük diqqətlə yanaşmalıyıq. Hələ də müəssisələr arasında ödəməmələr problemi mövcuddur və bu problem yeni borclar yaradır. Xüsusilə, bu, yanacaq-energetika kompleksində özünü çox kəskin şəkildə büruzə verir.

Bildirmək istəyirəm ki, Azərbaycanın tələbatlarını ödəmək, əhalini və müəssisələri elektrik enerjisi və qazla təmin etmək üçün Azərbaycan dövləti, Dövlət Neft Şirkəti xaricdən böyük həcmdə təbii qaz və elektrik enerjisi alır. Bu məqsədlərə – qazın alınması üçün ildə 200 milyon dollardan çox, elektrik enerjisinin alınması üçün isə Dövlət Neft Şirkəti tərəfindən 40 milyon dollardan çox vəsait ayrılır. Bu təbii qaz və elektrik enerjisi müvafiq qaydada «Azərenerji» və "Azəriqaz" səhmdar cəmiyyətlərinə verilir.

Ancaq təəssüflər olsun ki, təbii qaz və elektrik enerjisi

satılandan sonra yığılan vəsait Neft Şirkətinə ödənilmir. Hətta yığılan vəsait ödənilsə belə, bu, xərclərin hamısını bağlaya bilməz. Çünki Neft Şirkəti qazı və elektrik enerjisini dünya qiymətinə alır, daxildə isə bu, yerli qiymətlərə satılır. Buradan yaranan fərq çox böyükdür. Amma yenə də birincisi, yığılan vəsaitlər ödənilmir. İkincisi də, verilən qazın və elektrik enerjisinin haqqının cəmi 50 faizi yığılır. Bu çox aşağı göstəricidir. Deyə bilərəm ki, bazar iqtisadiyyatı yolu ilə gedən, inkişaf edən ölkələrdə belə hallara rast gəlinmir. Əgər hansısa bir şirkət, xüsusilə dövlət şirkəti əhalini və müəssisələri yanacaqla təmin etmək üçün xaricdən qaz, elektrik enerjisi alırsa, o, əhaliyə və müəssisələrə daha yüksək, daha baha qiymətə satılır. Azərbaycanda isə əksinə, həm ucuz qiymətə satılır, eyni zamanda, onun haqqı da ödənilmir.

Mən sizə deyə bilərəm ki, belə olan halda Azərbaycanın büdcəsi ildə ən azı 500 milyon dollar vəsait itirir. Biz bu məsələyə çox diqqətlə, ciddi yanaşmalıyıq. Bu məsələ bizim üçün yeni bir məsələ deyildir. Biz keçmişdə də bununla əlaqədar dəfələrlə danışmışıq, fikir mübadiləsi aparmışıq. Artur müəllimlə də biz bu barədə dəfələrlə danışmışıq və əminik ki, Nazirlər Kabineti yaxın vaxtlarda bu məsələnin həlli barədə tədbirlər planını təqdim edəcəkdir.

Sahibkarlığa kömək davam etdirilməlidir. Bu bizim strateji məqsədimizdir. Sevindirici haldır ki, Azərbaycanın ümumi daxili məhsulunun böyük hissəsi özəl sektorun hesabına formalaşır. Bu onu göstərir ki, Azərbaycanda aparılan iqtisadi islahatlar öz nəticələrini verməkdədir və Azərbaycanda bazar iqtisadiyyatı inkişaf edir.

Gələn ilin büdcəsində sahibkarlığa kömək məqsədi ilə 100 milyard manat vəsait nəzərdə tutulubdur. Əlbəttə, bu, keçən illərə nisbətən daha böyük rəqəmdir. Ancaq yenə də tam mənada bizi qane etmir. Amma onu da bilməliyik ki, imkanımız nəyə çatır və biz də onu etməliyik. Həm dövlət tərəfindən göstərilən və gələcəkdə göstəriləcək qayğı, eyni zamanda, özəl sektor üçün yaradılmış şərait əminəm ki, yaxın gələcəkdə imkan

verəcək ki, Azərbaycanda sahibkarlıq daha sürətlə inkişaf etsin, sahibkarlar Azərbaycan iqtisadiyyatında daha fəal rol oynasınlar. Beləliklə, Azərbaycanın hərtərəfli inkişafı təmin olunacaqdır.

Azərbaycanın hərtərəfli inkişafına nail olmaq üçün regional proqramlar həyata keçirilməlidir. Sizə bildirməliyəm ki, Azərbaycanın iqtisadi potensialının üçdə iki hissəsi Bakıda və Abşeron yarımadasında formalaşıbdır. Bu onu göstərir ki, regionlarda iqtisadi inkişaf ləng gedir. Əlbəttə, bunun da obyektiv səbəbləri vardır. Amma bu istiqamətdə dönüş yaratmaq üçün regional proqramlara böyük diqqət göstərilməlidir.

Hazırda Azərbaycanın regional inkişafına dair çox geniş fərman hazırlanır. Əminəm ki, bu fərman imzalanandan sonra bu istiqamətdə də müsbət nəticələri görəcəyik. Azərbaycan təkcə Bakıdan və Abşerondan ibarət deyildir. Azərbaycanın hər bir regionu inkişaf etməlidir, hər bir bölgəsi inkişaf etməlidir. Əlbəttə, biz bu məsələyə böyük diqqət göstərməliyik.

Kənd təsərrüfatında aparılan islahatların nəticəsində böyük uğurlar qazanılıbdır. Torpaq özəl mülkiyyətə verilibdir. Bunun nəticəsində kənd təsərrüfatı istehsalında böyük uğurlar vardır. Bu ənənə davam etməlidir və kənd təsərrüfatında islahatların ikinci mərhələsi başlamalıdır. Dövlətin öhdəsinə nə düşürsə, biz bunu edəcəyik. Amma eyni zamanda, yerlərdə də bu məsələyə böyük diqqət göstərilməlidir.

Hesab edirəm ki, aqrar sektorda texniki servis mərkəzləri yaradılmalıdır. Fermerlər texnika ilə daha böyük həcmdə təmin olunmalıdır. Toxumçuluq bazası inkişaf etməlidir və əlbəttə, emal sənayesi yaranmalıdır. Bu istiqamətdə artıq çox uğurlu addımlar atılıbdır. Azərbaycanın müxtəlif bölgələrində yeni, müasir, dünya standartlarına cavab verən emal müəssisələri yaranmaqdadır. Bu həm işsizlik probleminin aradan qaldırılmasına kömək göstərir, həm də eyni zamanda, yerli istehsalın inkişafı üçün gözəl zəmin yaradır. Bizim də məqsədimiz budur ki, Azərbaycanda yerli istehsal inkişaf etsin, idxal azalsın və Azərbaycan öz daxili bazarını ölkəmizdə

istehsal olunan məhsullarla təmin etsin. Hesab edirəm ki, əgər kənd təsərrüfatında bu vaxta qədər görülən tədbirlərin davamı olarsa, biz buna da nail ola biləcəyik.

Azərbaycanın gələcək inkişafında Neft Fondunun rolu əvəzolunmazdır. Neft Fondunun yaradılması Azərbaycanın müasir tarixində çox əlamətdar bir hadisə olubdur. Hamı bilməlidir ki, bu fond bilavasitə cənab prezident Heydər Əliyevin təşəbbüsü ilə yaranmışdır. Fondda böyük həcmdə valyuta ehtiyatı cəmlənib və bu fond çox şəffaf şəkildə fəaliyyət göstərir. Hər bir Azərbaycan vətəndaşı fondun fəaliyyəti haqqında kifayət qədər məlumat əldə etmək iqtidarındadır. Fondun vəsaitləri haqqında mətbuatda mütəmadi qaydada məlumatlar dərc olunur və beynəlxalq audit keçirilir.

Fondun əsas məqsədi neftdən əldə olunan gəlirləri çox etibarlı şəkildə saxlamaq, onları artırmaq, gələcək nəsillər üçün gözəl iqtisadi baza yaratmaq, eyni zamanda, Azərbaycan iqtisadiyyatı üçün əhəmiyyətli layihələrdə iştirak etmək, onları maliyyələşdirməkdir. Bilirsiniz ki, fonddan edilən ilkin ödəmələr Azərbaycanda ən çətin vəziyyətdə yaşayan qaçqınlar və məcburi köçkünlərin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində nəzərdə tutulmuşdur. Hesab edirəm ki, gələcəkdə də Azərbaycan Dövlət Neft Fondu bu funksiyaları daşımalıdır. Ölkəmiz üçün əhəmiyyətli olan layihələrin həyata keçirilməsi üçün kömək göstərməlidir.

Əlbəttə, hesab edirəm ki, fondun vəsaitlərini büdcənin ümumi xərclərinin içərisində əritmək düzgün siyasət deyildir. Düzdür, Azərbaycanda sosial məsələlərə göstərilən qayğının nəticəsində əməkhaqları, təqaüdlər qaldırılıbdır və bunun mənbələrinin biri də Neft Fondudur. Amma hesab edirəm, hər bir Azərbaycan vətəndaşı bilməlidir ki, Neft Fondunun vəsaitləri hansı məqsədlərə xərclənir. Ona görə, gələcəkdə büdcə formalaşanda biz bunu nəzərə almalıyıq və fondun vəsaitlərini ümumi xərclərin içərisində ayrıca bir maddə ilə göstərməliyik. Çünki fondun vəsaitlərinin büdcənin ümumi xərclərinin içərisində əridilməsi iqtisadi və siyasi cəhətdən

düzgün deyildir.

Azərbaycanın iqtisadiyyatı inkişaf edəcəkdir. 2005-ci ildə Bakı–Tbilisi–Ceyhan neft kəməri istifadəyə veriləndən sonra Azərbaycan iqtisadiyyatı daha sürətlə inkişaf edəcəkdir. Deyə bilərəm ki, qazın hasilatı da artacaqdır. "Şahdəniz" yatağından çıxarılacaq qazın bir hissəsi daxili bazarda emal olunacaq, eyni zamanda, "Azəri" yatağında görülən yüksək tədbirlərin nəticəsində böyük həcmdə qaz ehtiyatı yaranacaqdır. Əlbəttə, əhalini tam şəkildə təbii qazla təmin etmək üçün, Azərbaycanda elektrik stansiyalarına qazın verilməsini tam şəkildə təmin etmək üçün mövcud qaz anbarları təmir olunmalıdır. Mən artıq bu barədə müvafiq göstərişlər vermişəm. Bir il ərzində qaz anbarlarının tutumu iki dəfə artıbdır və gələcəkdə Azərbaycanda qaz anbarlarının tutumu 3 milyard kubmetrə çatdırılmalıdır. Biz buna nail olacağıq və gələcəkdə ölkəmizin qazla təminatı üçün heç bir problem olmayacaqdır.

Əlbəttə, Bakı–Tbilisi–Ceyhan kəməri istifadəyə veriləndən, Azərbaycanda neft hasilatı ildə 50 milyon ton təşkil edəndən sonra əldə olunan faiz və gəlirlərin hesabına Azərbaycan hərtərəfli inkişaf edəcəkdir. Amma biz buna indidən hazır olmalıyıq. İki-üç ildən sonra daxil olacaq böyük məbləğdə vəsait gərək səmərəli şəkildə xərclənsin. Ona görə də, müxtəlif sosial-iqtisadi proqramlar indidən hazırlanmalıdır. İlk növbədə, infrastrukturun inkişaf etdirilməsi üçün proqramlar təqdim olunmalıdır. Bu sahədə işlər artıq gedir və bilirsiniz ki, Azərbaycanda elektrik stansiyalarının tikintisi nəzərdə tutulur.

"Şimal-2" elektrik stansiyası tikilməlidir. Eyni zamanda, Sumqayıt şəhərində yeni elektrik stansiyası tikilməlidir. Qısa müddət ərzində biz buna nail olmalıyıq və beləliklə, Azərbaycanda, ümumiyyətlə, elektrik enerjisinin verilməsi ilə bağlı heç bir problem olmayacaq. Gələcəkdə bəlkə də Azərbaycan lazımi qədər elektrik enerjisi ixrac edə biləcəkdir.

Digər infrastruktur layihələr də həyata keçirilməlidir. İlk növbədə, ölkənin hərtərəfli inkişaf etdirilməsi üçün əhəmiyyətli olan avtomobil yollarının tikintisi aparılmalıdır. Bilirsiniz ki,

qərb istiqamətində işlər aparılır. Bakı–Qazax–Gürcüstan istiqamətində magistralın layihəsi uğurla həyata keçirilir. Eyni zamanda, digər istiqamətlərdə də buna oxşar səviyyədə yolların tikilməsi vacibdir. Bakı–Qusar–Rusiya sərhədi, Bakı–Astara–İran sərhədi – bu istiqamətlərdə də yolların tikilməsi zəruridir. Əminəm ki, yaxın gələcəkdə bu barədə təkliflər veriləcəkdir.

Ümumiyyətlə, mən hesab edirəm ki, hər bir nazir, hər bir komitə rəhbəri öz sahəsinə aid olan problemləri, zəif yerləri də yaxşı bilir və əldə olunan bütün uğurlarla yanaşı, ilk növbədə, bizim diqqətimiz məhz problem məsələlərə yönəlməlidir. Hesab edirəm ki, hər bir nazirlik öz fəaliyyətinə aid olan problemlərin aradan qaldırılması üçün görüləcək proqramın əsas istiqamətlərinə dair təkliflər paketini Nazirlər Kabinetinə, Azərbaycan prezidentinə təqdim etməlidir. Bu təkliflər, hesab edirəm, geniş hazırlanmalıdır. Maksimum proqram şəklində olmalıdır və bu proqram hökmən icra edilməlidir.

Mən avqustun 4-də Azərbaycanın Baş naziri vəzifəsinə təyin olunandan sonra elə bu salonda Nazirlər Kabinetinin üzvləri ilə ilk görüşümdə öz fikirlərimi bildirmişdim. Demişdim ki, bu mənim üçün böyük məsuliyyətdir. Mən çalışacağam ki, bu etimadı doğruldam. Eyni zamanda, bildirmişdim ki, mən hesab edirəm, Nazirlər Kabinetinin bu tərkibi qarşıda duran vəzifələri çox uğurla həyata keçirir. Eyni zamanda bildirmişdim ki, mən Nazirlər Kabinetinin bu tərkibi ilə işləmək istəyirəm. Görürsünüz ki, mən həmişə olduğu kimi, öz sözümə sadiqəm. Ancaq eyni zamanda, bütün bunlarla yanaşı, mən bildirmək istəyirəm ki, hər birinizin gələcək fəaliyyəti nəticələrdən asılı olacaqdır. Bütün sahələrdə nəticələr olmalıdır.

Mən çıxışımın əvvəlində demişdim ki, yüksək nəticələr əldə etmək üçün gözəl şərait vardır. Heydər Əliyev tərəfindən Azərbaycanda yaradılmış bu iqtisadi iqlim o qədər gözəldir ki, yeni nəticələr əldə etmək üçün çox yaxşı şərait vardır. Əlbəttə, hamıdan tələb edirəm ki, öz işinə məsuliyyətlə yanaşsın və öz vəzifə borcunu vicdanla yerinə yetirsin.

Əlbəttə, ilk növbədə, hamı insanlara böyük diqqətlə yanaş-

malıdır. Biz Azərbaycan xalqı üçün işləyirik. Onlar bizə bu etimadı göstəriblər və biz də bu etimadı doğrultmalıyıq. Mən əminəm ki, belə də olacaqdır. Əminəm ki, Nazirlər Kabineti bundan sonra da Azərbaycanın gələcək iqtisadi potensialını daha da gücləndirmək əzmində olacaqdır. Beləliklə, biz hamımız yaxın zamanlarda Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik. Bu işlərdə sizin hamınıza uğurlar arzulayıram. Sağ olun.

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ DÖVLƏT KATİBİ MÜAVİNİNİN AVRO–ASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MƏSUL NÜMAYƏNDƏSİ LİNN PASKO İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*17 noyabr 2003-cü il*

**İ l h a m   Ə l i y e v:** Hörmətli cənab Linn Pasko!

Mən Sizi ürəkdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Amerika ilə Azərbaycan arasında münasibətlər uğurla inkişaf edir. Biz bütün sahələrdə çox uğurlu əməkdaşlıq edirik. Əminəm ki, bu əməkdaşlıq gələcəkdə də davam edəcəkdir. İqtisadi sahədə bu əməkdaşlıq artıq böyük uğurlar gətiribdir. Amerika dövlətinin dəstəyi ilə Azərbaycanda və regionda beynəlxalq aləm üçün çox böyük əhəmiyyəti olan irimiqyaslı enerji layihələri həyata keçirilir.

Bilirsiniz ki, beynəlxalq maliyyə qurumları, Beynəlxalq Maliyyə Korporasiyası, Avropa Bankı Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi üçün müvafiq vəsait ayırıbdır. Nəzərə alsaq ki, Amerika dövlətinin xüsusilə Dünya Bankında və Beynəlxalq Maliyyə Korporasiyasında nüfuzu çox güclüdür, ehtimal irəli sürmək olar ki, bu qurumlar layihəyə müvafiq vəsaiti Amerika hökumətinin növbəti dəstəyi ilə ayırıblar.

Digər sahələrdə də, o cümlədən terrorizmə qarşı mübarizədə ikitərəfli münasibətlərimiz yüksək səviyyədədir. Azərbaycan artıq açıq-aydın göstərib ki, çox etibarlı tərəfdaşdır. Prezident cənab Buş mənə göndərdiyi məktubda vurğulayır ki, Azərbaycan Amerika üçün dost ölkədir. Bu həqiqətən də belədir. Siz bilirsiniz ki, Amerika da Azərbaycan üçün dost ölkədir. Əminəm ki, bu dostluq gələcəkdə də davam edəcəkdir

və bizim ölkələrimizi bir-birinə daha da sıx bağlayacaqdır.

**L i n n P a s k o:** Cənab Prezident, vaxt ayırıb məni qəbul etdiyinizə görə dərin minnətdarlığımı bildirirəm. İcazə verin, Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Buşun və Amerika xalqının adından Sizə salamlarımı yetirim. Biz Sizinlə Azərbaycan prezidenti kimi işləyəcəyimizə qəti surətdə əmin ola bilərsiniz.

Bildiyiniz kimi, Azərbaycanla bizi uzun müddətdir ki, sıx əlaqələr birləşdirir. Bu əlaqələr özünü Bakı–Tbilisi–Ceyhan kimi böyük layihələrdə büruzə verir. Həqiqətən, Sizin dediyiniz kimi, biz Beynəlxalq Maliyyə Korporasiyası və Avropa Yenidənqurma və İnkişaf Bankı ilə müvafiq iş aparırıq ki, bu layihəyə lazımi maliyyə ayrılsın.

Eyni zamanda, Amerika Birləşmiş Ştatları Azərbaycana antiterror əməliyyatlarında iştirakına görə minnətdarlığını bildirir. Məlumdur ki, Amerika Birləşmiş Ştatlarının və Azərbaycanın hərbi qüvvələri bundan əvvəl Əfqanıstanda birgə işləmişlər. İndi isə İraqda birgə işləyirlər. Bu bizim uzunmüddətli əlaqələrimiz üçün çox vacibdir.

Ümumiyyətlə, bizim üçün Qafqaz həm dünya siyasətində, həm də dünya iqtisadiyyatında vacib bir region hesab olunur. Biz keçmişdə olduğu kimi, indi də, gələcəkdə də Azərbaycanla ölkənizin Qərbə uzunmüddətli inteqrasiyası üçün işləməyə hazırıq. Bu bizim ən mühüm vəzifələrimizdəndir.

Bir neçə ay bundan əvvəl Sizi Vaşinqtonda görməkdən çox məmnun idik. Ümid edirik ki, daha tez-tez görəcəyik.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Sizin dediyiniz kimi, ölkələrimiz arasında münasibətlər çox uğurla davam edir və bir neçə irimiqyaslı regional layihələr Azərbaycanın bilavasitə iştirakı ilə həyata keçirilir. Əlbəttə, bu və bu cür layihələri gələcəkdə də həyata keçirmək üçün regionda sülh və təhlükəsizlik bərqərar olunmalıdır.

Regionda hazırda müxtəlif münaqişələr mövcuddur. Bunların arasında ən ciddi münaqişə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Amerika Birləşmiş Ştatları

ATƏT-in Minsk qrupunun həmsədri kimi, münaqişənin həll olunmasında öz rolunu oynayır. Biz ümidvarıq ki, gələcəkdə də Amerika Birləşmiş Ştatları öz nüfuzundan istifadə edərək, bu münaqişənin həll olunmasında daha fəal rol oynayacaqdır və münaqişə beynəlxalq hüquq normaları əsasında öz həllini tapacaqdır.

Siz bu məsələ ilə yaxından tanışsınız. Çünki siz özünüz də Amerika Birləşmiş Ştatları tərəfindən Minsk qrupunun həmsədri olmusunuz və bu məsələnin mahiyyətini dərindən bilirsiniz. Ümid edirəm ki, yaxın gələcəkdə bu münaqişə sülh yolu ilə öz həllini tapacaqdır.

**L i n n  P a s k o:** Cənab Prezident, icazə verin deyim ki, bu mövzu ətrafında elə bu binada Sizin atanızla böyük vaxt sərf edərək müzakirələr aparmışıq. Lakin həqiqətən, biz gərək qüvvəmizi ikiqat artıraq ki, bu məsələ həll olunsun. Həqiqətən, biz belə düşünürük və inanırıq ki, bu münaqişə regionu çox geriyə aparır. Həm Minsk qrupunun həmsədri kimi, həm də Amerika Birləşmiş Ştatları olaraq Sizinlə birlikdə işləyəcəyik ki, bu məsələ tezliklə sülh yolu ilə həll olunsun. Sadəcə, biz bundan sonra qüvvəmizi ikiqat artırmalı olacağıq.

Bildiyiniz kimi, mən ilk əvvəl Bakıya səfərə gəlmişəm. Daha sonra Tbilisiyə, Yerevana və Ankaraya gedəcəyəm. Həqiqətən, çox inanırıq ki, bu məsələ tezliklə həll olunacaqdır.

**TÜRKİYƏ RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ**

Hörmətli cənab Prezident!

İstanbul şəhərində terror aktları törədilməsi bizi son dərəcə hiddətləndirdi. Baş vermiş partlayışlar nəticəsində insanların həlak olması, yaralanması xəbərindən kədərləndik.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və qardaş Türkiyə xalqına dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *20 noyabr 2003-cü il*

**TÜRKİYƏ RESPUBLİKASININ**
**BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ**
**CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Baş nazir!

İstanbul şəhərində törədilmiş terror aktları nəticəsində çoxsaylı insan tələfatı xəbəri bizi kədərləndirdi.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və qardaş Türkiyə xalqına dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *20 noyabr 2003-cü il*

## ABŞ-ın AVROPA KOMANDANLIĞININ QƏRARGAH RƏİSİNİN MÜAVİNİ GENERAL ÇARLZ UOLDUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*21 noyabr 2003-cü il*

**İ l h a m Ə l i y e v i:** Hörmətli cənab general!

Hörmətli qonaqlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram, Azərbaycana xoş gəlmisiniz.

Amerika Birləşmiş Ştatları ilə münasibətlərimiz sürətlə inkişaf edir. Bütün sahələrdə uğurlu əməkdaşlıq edirik və əminəm ki, bu əməkdaşlıq gələcəkdə də davam edəcəkdir. İqtisadi sahədə, energetika sektorunda ölkələrimiz arasında münasibətlər dünya və region üçün böyük əhəmiyyət kəsb edir. Amerika Birləşmiş Ştatlarının dəstəyi ilə regionda irimiqyaslı, region və dünya üçün böyük əhəmiyyətə malik layihələr həyata keçirilir.

Eyni zamanda, hərbi sahədə də əməkdaşlığımız çox uğurludur. Azərbaycan Amerika Birləşmiş Ştatları ilə bir koalisiyada dünyada sülhün və təhlükəsizliyin təmin olunmasında iştirak edir. Xüsusilə terrorizmə qarşı mübarizədə ölkələrimiz fəal əməkdaşlıq edir və bu, gələcəkdə də davam edəcəkdir. Azərbaycan terrorizmdən zərər çəkmiş bir ölkədir. Ölkəmizin ərazisində erməni terrorçu təşkilatları tərəfindən 30-dan çox terror aktı törədilmişdir və bunun nəticəsində 2000-dən yuxarı Azərbaycan vətəndaşı həlak olmuşdur.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ümumilikdə region üçün böyük təhlükədir. Biz ümidvarıq ki, ATƏT-in Minsk qrupunun həmsədri kimi, Amerika Birləşmiş

Ştatları bu münaqişənin həll olunmasında gələcəkdə də fəal rol oynayacaq və tezliklə bu problem beynəlxalq hüquq normaları əsasında öz həllini tapacaqdır.

Bir daha sizi ürəkdən salamlayıram. Əminəm ki, burada keçirdiyiniz görüşlər ölkələrimiz arasında mövcud olan dostluq və mehribanlıq münasibətlərini, ikitərəfli əməkdaşlığı daha da gücləndirəcək və inkişaf etdirəcəkdir.

**Ç a r l z U o l d:** Cənab Prezident, çox sağ olun. Vaxt ayırıb bizimlə görüşməyiniz bizim üçün başucalığıdır. Bu yaxınlarda seçkilərdə qazandığınız qələbə münasibətilə Sizi təbrik edirəm. Həm Avropa Komandanlığının Qərargah rəisi general Consonun adından, həm də öz adımdan Sizin atanızın tezliklə sağalmasını arzu edirik.

Mən Amerika Birləşmiş Ştatlarının hərbi komandanlığının xüsusi minnətdarlığını Sizə çatdırıram. Çox sağ olun ki, həm Balkanlarda, həm Əfqanıstanda, həm də İraqda əməliyyatlar zamanı sizin hərbçilər bizimlə birlikdə çalışmışlar. Ümidvarıq ki, bu əməkdaşlıq gələcəkdə də davam etdiriləcəkdir. Əlbəttə, Sizinlə tam razıyıq ki, Dağlıq Qarabağ münaqişəsi sülh yolu ilə və beynəlxalq hüquq normaları əsasında tezliklə həll olunmalıdır.

Biz ölkələrimizin hərbi qüvvələri arasında əməkdaşlığın daha yüksək səviyyəyə qalxmasını arzulayırıq. Sizin nazirinizlə bu haqda daim söhbətlərimiz olur. Bu söhbətlər, əsas etibarilə, regional və Xəzər dənizindəki təhlükəsizlik mövzusunda olur.

Cənab Prezident, biz tezliklə Azərbaycana hərbi sahədə yardım etməyi düşünürük. Elə başa düşürəm ki, bizim edəcəyimiz yardım regional təhlükəsizlik baxımından çox əhəmiyyətli olacaqdır. Yəqin Sizə məlumdur ki, Amerika Birləşmiş Ştatları Qazaxıstanda bu cür təşəbbüs göstəribdir. Eynilə Azərbaycana da bu yardımı etmək fikrindəyik. Biz, ilk növbədə, Xəzər dənizinin və ümumiyyətlə, regionun təhlükəsizliyini nəzərdə tuturuq. Düşünürəm ki, həm hökumət, həm də hərbi sahə bununla çox maraqlanır. Bu bir model olacaqdır. Həmin modelə əsasən, biz Xəzər dənizində həm

suüstü, həm sualtı məkana, həm də ki, hava məkanına eyni vaxtda nəzarət edə biləcəyik. Lazımi anda oradan yüksək komandanlığa məlumat çatdırılacaqdır. Düşünürəm ki, bu həm regionun, həm də dünyanın təhlükəsizliyi üçün vacib bir modeldir. Biz yanvar ayında bu işə başlamağı nəzərdə tutmuşuq.

Siz yəqin ki, digər bir proqramdan da xəbərdarsınız. Biz Gürcüstanda belə bir proqram həyata keçirmişdik. Bu proqram "Gürcüstan treninq və təchizat" proqramı adlanır. Həmin proqrama əsasən, biz Gürcüstanda işləmişik. Daha sonra isə onların Müdafiə naziri bizim Müdafiə nazirimiz cənab Ramsfeldə məktubla müraciət etmişdi. Bu əməkdaşlıq daha da genişlənəcəkdir. Ümumiyyətlə, bu proqram dünyada əhəmiyyət kəsb etməyə başlayan ölkələr üçün nəzərdə tutulmuşdur. Azərbaycanın da bu mənada rolu çox böyükdür. Elə hesab edirik ki, biz sizinlə bu sahədə də əməkdaşlıq edəcəyik.

Bizimlə görüşə vaxt ayırdığınıza görə Sizə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Seçkilərdə qazandığınız qələbə münasibətilə Sizi bir daha təbrik edirəm və ölkənizə ən xoş arzularımı yetirmək istəyirəm. Ümidvar olmaq istədiyimi bildirirəm ki, Sizin liderliyinizlə ölkənizdə yeni dövr başlanacaqdır. Bu dövrdə münasibətlərimiz də yüksək səviyyədə olacaqdır.

**İ l h a m Ə l i y e v:** Təşəkkür edirəm, xoş sözlərinizə görə sizə minnətdaram. Siz düzgün qeyd etdiniz ki, Azərbaycan Amerika Birləşmiş Ştatları ilə hərbi sahədə əməkdaşlıq edir. Azərbaycan etibarlı tərəfdaşdır. Balkanlarda, Əfqanıstanda, İraqda bizim əməkdaşlığımız davam edir və bilirsiniz ki, bu bizim prezidentimiz Heydər Əliyevin siyasətidir. Azərbaycanda bu siyasət davam etdiriləcəkdir.

Bildiyiniz kimi, regionda sabitlik, təhlükəsizlik tam mənada bərqərar olunmayıbdır. Buna görə də Azərbaycan öz müdafiə potensialını gücləndirmək əzmindədir. Əlbəttə ki, bu baxımdan ikitərəfli əməkdaşlıq və gələcəkdə göstəriləcək yardımlar bizim üçün çox əhəmiyyətlidir.

## MƏŞHUR İQTİSADÇI, NOBEL MÜKAFATI LAUREATI, KOLUMBİYA UNİVERSİTETİNİN PROFESSORU COZEF STİQLİTS İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*20 noyabr 2003-cü il*

**İ l h a m Ə l i y e v:** Hörmətli qonaq, mən Sizi ürəkdən salamlayıram.

Siz artıq bir neçə gündür Bakıdasınız, eşitdiyimə görə, burada çox fəal işləyirsiniz, seminarlar keçirirsiniz. Əlbəttə, sizin məsləhətləriniz, tövsiyələriniz bizim üçün çox əhəmiyyətli və dəyərlidir. Siz dünya söhrətli alimsiniz, iqtisadi sahədə Nobel mükafatına layiq görülmüsünüz. Yəqin ki, Azərbaycan da iqtisadi baxımdan sizin diqqətinizi cəlb etmişdir.

Ölkəmiz iqtisadi cəhətdən sürətlə inkişaf edir. Son illər ərzində Azərbaycanda aparılan iqtisadi islahatlar çox müsbət nəticələr verməkdədir.

Bütün makroiqtisadi göstəricilər bir daha sübut edir ki, Azərbaycanda uğurlu iqtisadi siyasət aparılır. Son 6-7 il ərzində ümumi daxili məhsulun, o cümlədən sənaye istehsalının artımı, həm də digər iqtisadi göstəricilər Azərbaycanı dünyada dinamik inkişaf edən ölkə kimi tanıtmışdır.

Eyni zamanda, biz gələcəyə də çox nikbinliklə baxırıq. Bir neçə ildən sonra Azərbaycan iqtisadi cəhətdən daha da güclənəcəkdir. Əlbəttə ki, burada neft amili önəmli rol oynayır. Bilirəm ki, Neft Fondunun yaradılması və onun fəaliyyəti müzakirə obyektinə çevrilmişdir və siz burada keçirdiyiniz görüşlərdə bu məsələyə diqqət yetirmisiniz. Deyə bilərəm ki, Azərbaycan bu istiqamətdə də neftdən gələn gəlirləri daha etibarlı saxlamaq üçün çox önəmli addımlar atmışdır. Neft Fondu çox şəffaf şəkildə fəaliyyət göstərir və onun fəaliyyəti

beynəlxalq maliyyə qurumları tərəfindən bəyənilir.

Bir sözlə, Azərbaycan gələcəkdə də regionda mühüm rol oynayacaqdır. Əminəm ki, iqtisadiyyatımız daha sürətlə inkişaf edəcəkdir və bu bizə Azərbaycanı hərtərəfli inkişaf etmiş ölkəyə çevirməyə imkan verəcəkdir.

**C o z e f  S t i q l i t s:** Sizinlə görüşmək imkanı yaratdığınıza görə minnətdarlığımı bildirirəm.

Biz Azərbaycanda çox maraqlı bir həftə keçirtdik və böyük qonaqpərvərlik gördük. Çoxlu sayda müzakirələrimiz oldu, mühazirələr oxuduq və fikir mübadiləsi apardıq.

Sizin prezidentlik kampaniyanız dövründə dediyiniz bir sözü xatırlayıram və onu çox bəyənirəm. Siz demişdiniz ki, Azərbaycan vətəndaşları üçün yüz minlərlə iş yerləri açılacaqdır. Bu mənə Klintonun seçkiqabağı kampaniya zamanı dediyi sözləri xatırlatdı. Mən onun müşaviri olmuşam və o zaman amerikalılara söz verdi ki, 8 milyonadək Amerika vətəndaşı üçün iş yerləri açılacaqdır. Xüsusilə keçid dövrünün çətinliklərini yaşayan Azərbaycan üçün bu çox vacib məsələdir. Çünki ölkəniz işsizlikdən əziyyət çəkir.

Siz doğru buyurdunuz ki, həqiqətən, bizim maraq dairəmizdə olan əsas məsələlərdən biri Neft Fondu ilə bağlıdır və bu fondun şəffaflığı yalnız müqavilələrə və pay bölgüsü işlərinə aid deyildir. Bu, eyni zamanda, neft sahəsinə gələn gəlirlərə və xərclərə də aiddir. Mən çox şadam ki, Azərbaycanda hamı bunun vacib məsələ olduğunu dərk edir və bu məsələyə çox diqqətlə yanaşır. Hamıya məlumdur ki, Azərbaycanda neft 25 il və yaxud daha artıq müddətə olacaqdır. Bu imkan bir dəfə verilir və ondan maksimum istifadə edib digər sahələri inkişaf etdirmək lazımdır.

Bizim müzakirə etdiyimiz daha bir məsələ də ondan ibarət olmuşdur ki, bir çox ölkələrdə – bunu təəssüflə deməliyəm – neft ehtiyatları, əslində, onların xalqlarının xoşbəxtliyinə deyil, əksinə işləyir. Bu da, bildiyiniz kimi, yerli pul vahidinin dəyərini itirməsi ilə bağlı olan məsələdir və biz iqtisadçılar bunu "holland sindromu" adlandırırıq. Əsas məsələ ondan

ibarətdir ki, vergi siyasəti düzgün aparılmalı, iqtisadçıların dili ilə desək, mütərəqqi vergi siyasəti olmalıdır, yerli ehtiyatlar hökumətin nəzərdə tutduğu proqramlara yönəldilməlidir.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun, mən sizinlə tamamilə razıyam. Biz hamımız – hökumət də, ictimai qurumlar da, qeyri-hökumət təşkilatları da Azərbaycanın gələcəyi haqqında düşünməliyik. Biz hamımız ölkəmizin uzunmüddətli və davamlı inkişaf etməsini istəyirik. Neft nə vaxtsa tükənir və bu ehtiyatlar daimi deyildir. Düşünməliyik ki, 20–30 və yaxud 50 il bundan sonra Azərbaycanın gələcəyi necə olacaqdır. İndi biz yoxsulluqla ciddi mübarizə aparırıq, işsizliyi aradan qaldırmaq üçün proqram hazırlanır və əminəm ki, mənim söylədiyim rəqəmlər özünü doğruldacaqdır.

Eyni zamanda, neft gələcək nəsillər üçün də xidmət etməlidir. Məhz bu məqsədlə Dövlət Neft Fondu yaradılmışdır. Bu fond çox şəffaf bir qurumdur. Bundan başqa, Azərbaycan beynəlxalq şəffaflıq təşəbbüsünə də qoşulmuşdur. Bu bizim siyasətimizdir və əminəm ki, neftdən əldə olunan gəlirlər çox səmərəli şəkildə xərclənəcəkdir.

Biz Neft Fondunu yaradarkən digər ölkələrin təcrübəsini də öyrənmişik və əminəm ki, seçdiyimiz model bütün müasir tələblərə cavab verir. Siz çox düzgün dediniz ki, bir çox neft hasil edən ölkələrdə iqtisadi durum o qədər də ürəkaçan deyildir. Biz bu mənfi təcrübəni də öyrəndik və başqa ölkələrdə yol verilmiş səhvləri Azərbaycanda təkrar etməyəcəyik.

Azərbaycan müstəqil dövlət kimi, öz təbii ehtiyatlarından başqa ölkələrə nisbətən gec istifadə etməyə başlayıbdır. Əlbəttə, bir tərəfdən, bunun obyektiv səbəbləri var idi, digər tərəfdən, müsbət haldır ki, biz digər ölkələrdə baş verən hadisələrə nəzər salaraq, qabaqcıl təcrübəni tətbiq edəcəyik, mənfi təcrübədənsə uzaq olmağa çalışacağıq.

Mən hökumət üzvlərinə müraciət edərək demişdim ki, gərək biz hamımız neft amilini kənara qoyaq. Orada işlər çox uğurla davam edir və bu sahə Azərbaycana böyük həcmdə valyuta ehtiyatları gətirəcəkdir. Biz öz siyasətimizi elə aparmalıyıq ki,

sanki Azərbaycanda neft yoxdur. İqtisadiyyatın bütün sahələri– ilk növbədə qeyri-neft sektoru, infrastruktur inkişaf etməlidir. Ancaq bu yolla biz Azərbaycanı hərtərəfli inkişaf etmiş ölkəyə çevirə bilərik.

Bir daha Sizə xoş gəlmisiniz deyirəm və işlərinizdə uğurlar diləyirəm.

## OMBUDSMANLARIN II BEYNƏLXALQ «DƏYİRMİ MASA» İŞTİRAKÇILARI İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*21 noyabr 2003-cü il*

**İ l h a m  Ə l i y e v:** Əziz qonaqlar, xanımlar və cənablar!

Mən sizin hamınızı Azərbaycanda səmimiyyətlə salamlayıram. Bilirəm ki, Azərbaycanda ombudsmanların ikinci iclası keçirilir. Bu, ölkəmizin həyatında çox mühüm hadisədir.

Azərbaycanda ombudsman təsisatı bu yaxınlarda yaradılıb və bunun da öz səbəbləri var. Lakin bu təsisat yaradıldığı vaxtdan çox səmərəli fəaliyyət göstərir. İnsan hüquqları məsələsi hər bir ölkə üçün, o cümlədən də Azərbaycan üçün çox mühüm məsələdir. Hüquqi dövlət qurulmasının bizim üçün çox böyük əhəmiyyəti var.

Deməliyəm ki, Azərbaycanın 1 milyondan çox sakini adi insan hüquqlarının pozulmasından əziyyət çəkir. Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü nəticəsində onlar qaçqın-köçkünlərə çevrilmiş, ev-eşiklərini itirmişlər. Biz beynəlxalq təşkilatların köməyi ilə onların hüquqlarının bərpa olunması üçün mümkün olan bütün işləri görürük. Demokratiyanın inkişaf etdirilməsi bizim üçün xüsusilə vacibdir. Biz bu prinsiplərə sadiqik. Azərbaycan dövlət müstəqilliyinə qovuşduqdan sonra demokratiya yolu ilə gedir, ölkədə demokratik prinsiplərə önəm verilir. Əminəm ki, Azərbaycanda təşkil olunmuş «dəyirmi masa» görüşləri bizim ombudsman təsisatının digər ölkələrin bu cür qurumlarının nümayəndələri ilə daha sıx əlaqələr yaratmasına, habelə, ümumən, ölkəmizin demokratikləşməsinə kömək edəcəkdir.

**E l m i r a   S ü l e y m a n o v a** (*Azərbaycanın insan hüquqları üzrə müvəkkili*): Hörmətli cənab Prezident!

İcazə verin, ilk öncə xalqın iradəsi ilə və demokratik, şəffaf seçkilər nəticəsində Azərbaycan Respublikasının prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edim.

Biz bu gün Ombudsmanların II Beynəlxalq "dəyirmi masa" iştirakçılarını qəbul etdiyinizə görə Sizə çox böyük təşəkkürümüzü bildiririk.

**M a r k o   B o r s o t t i** (*BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi*): Cənab Prezident, Sizinlə görüşmək bizim üçün böyük şərəfdir. Sizi bu yüksək vəzifəyə seçilməyiniz münasibətilə təbrik etmək istəyirəm. Ombudsmanların II Beynəlxalq "dəyirmi masa" iclasının keçirilməsinə şərait yaratdığınıza görə Sizə minnətdarlığımızı bildiririk.

Ölkənizlə bizim təşkilat arasında çox gözəl münasibətlər yaranmışdır. Əminəm ki, Sizin prezidentliyiniz dövründə bu münasibətlər daha da inkişaf edəcəkdir.

**C e y m s   L i** (*BMT İnkişaf Proqramının ombudsmanı*): Prezident seçilməyiniz münasibətilə "dəyirmi masa"nın bütün iştirakçıları adından Sizə təbriklərimi çatdırıram. BMT-nin İnkişaf Proqramının ombudsmanı kimi, mən səfərlərimi məxfi saxlayıram. Amma ötən axşam BMT İP-in qlobal forumu keçirildi və rəhbərlik 132 ölkənin nümayəndəsi qarşısında çıxış edirdi. Orada mənim buraya gəlməyimlə bağlı faktı qeyd etdilər. Həm də ombudsmanların görüşməsinin nə dərəcədə əhəmiyyətli olduğu bildirildi. Bunun hamısı BMT İP-in bu işə, demokratik dövlət quruculuğu işinə nə dərəcədə diqqətlə yanaşmasını göstərir. Hazırda ehtiyatları tükənmək üzrə olan dünyamızda bu cür görüşlərin keçirilməsi bizim işimizin əhəmiyyətini artırır. Bir daha rəhbərliyimizin təbriklərini Sizə yetirirəm. Qonaqpərvərliyə görə sağ olun!

**K l e r   L u i s** (*Beynəlxalq Ombudsman İnstitutunun prezidenti*): Cənab Prezident, mənim adım Kler Luisdir. Mən Kanadanın Ontario əyalətinin ombudsmanı və Beynəlxalq Ombudsman İnstitutunun prezidentiyəm. Bu mənim Azərbay-

cana bu il ərzində ikinci səfərimdir. Əvvəlcə iyunda və indi ombudsman Elmira Süleymanovanın qonağı olmuşam. İcazə verin Sizi prezident seçilməyiniz münasibətilə təbrik edim və prezidentlik müddətində uğurlar arzulayım. Burada əyləşmiş ombudsman həmkarlarımın gördüyü işdən valeh olmuşam. Onlar çətinliklərin öhdəsindən həqiqətən bacarıqla gəlirlər və işlərinə məsuliyyətlə yanaşırlar. Həm burada olmağım, həm də sizin ombudsmanla daimi əlaqələrim əsas verir ki, ölkənizin Konstitusiya qanunu haqqında xoş sözlər deyim. Hökumət olaraq müdrik addım atmısınız, yaxşı ombudsman seçmisiniz. Ombudsmanınız yorulmadan çalışır. Ümumiyyətlə, ombudsmanın işi yorucu da olsa, ölkənin gələcəyi üçün xeyirlidir.

**Nikolaus Şvartsler** (*Avropa Ombudsmanlar İnstitutunun icraçı direktoru*): Cənab Prezident. Avropada ombudsmanla bağlı bir sıra qanunları təhlil etmək imkanım olub. Ona görə də buraya dəvət olunanda hansısa tənqidi şərhlər etməyə hazır idim. Amma həm ölkənizə, həm də Sizə deyəcəyim kompliment belədir ki, tənqid eləməyə səbəb tapa bilmədim. Siz də parlamentinizlə fəxr edə bilərsiniz ki, ombudsmanın fəaliyyəti üçün yaxşı qanun hazırlamışdır. Hər hansı bir Avropa ölkəsinin qanunu ilə müqayisədə görərik ki, sizin qanun lazımi səviyyədədir və ombudsmanın fəaliyyət göstərməsi üçün bütün müddəaları nəzərdə tutur.

**Tatyana Merzlyakova** (*Rusiya Federasiyası Sverdlovsk vilayətinin insan hüquqları üzrə müvəkkili*): Hörmətli cənab Prezident!

Hesab edirəm ki, mənə Sizi rusiyalılar adından təbrik etmək kimi böyük şərəf nəsib olmuşdur. Zənnimcə, Sizə aydındır ki, Sverdlovsk vilayətinin insan hüquqları üzrə müvəkkili burada rusiyalılar adından təsadüfən çıxış etmir. Seçkilərdə qələbənizdən keçirdiyimiz səmimi sevinc hisslərini Sizə bir daha yetirmək barədə qubernatorumuzdan və diaspordan tapşırıq almışam. Biz seçkilərlə əlaqədar həyəcan keçirirdik və nəticələrin necə olacağından həqiqətən narahat idik. Sonra nələr olduğunu mən

Sizə, hər halda, qısaca danışacağam.

Heydər Əliyev ilə Eduard Rosseli nə kimi səmimi münasibətlər bağladığını Siz gözəl bilirsiniz. Bizim baş nazirlərimiz, mədəniyyət nazirlərimiz dostluq edirlər, Elmira Süleymanova ilə kifayət qədər səmimi, mehriban münasibətlərimiz var. Ona görə də biz əvvəllər mövcud olmuş xəttin qorunub saxlanmasını istərdik. Bu həm mədəni, mənəvi əməkdaşlığa, həm də iqtisadi əməkdaşlığa kömək edir. Ümidvarıq ki, bu əməkdaşlıq bundan sonra da davam etdiriləcəkdir.

Seçkilərdəki qələbənizlə əlaqədar Sverdlovskdakı Azərbaycan diasporunun keçirdiyi sevinc hissindən də danışmaq istərdim. Bu hadisə bizdə bayrama çevrildi, onlar Gənclər sarayını icarəyə götürdülər. Mənə də oraya dəvət edilmək nəsib oldu. Bu, sözün əsl mənasında, bayram idi. Bilirsinizmi, mən başqa diasporlarda buna bənzər hadisə görməmişdim. Başqaları öz liderlərinin seçilməsini müxtəlif cür qarşılayırlar. Azərbaycanlılar isə Sizə ürəkdən inanırlar. Orada həm də güclü diaspor var. Diasporu dəstəklədiyinizə görə respublika prezidentinə və hökumətinə təşəkkürümü bildirməliyəm. Bu dəstək onların birlikdə işləməsinə, öz ölkəsi və milləti qarşısında məsuliyyəti qoruyub saxlamasına müəyyən dərəcədə kömək edir. Ona görə də Sverdlovsk vilayətində bu diasporun böyük nüfuzu var. Onların bu seçkilərdən hansı nəticələri gözlədikləri barədə məqaləsinin dərc olunduğu qəzeti – orada onları qubernator da təbrik etmişdir – mən Elmira Teymurovnaya verdim, bu məqaləni "Azərbaycan" qəzetinə də göndərmişlər. Məqalədə seçkilərin nəticələri barədə səmimi sözlər yazmışlar.

Əməkdaşlığın davam etdiriləcəyinə ümid bəsləyirəm. Mənə Yekaterinburq şəhərində Heydər Əliyev ilə görüşdə iştirak etmək şərəfi nəsib olmuşdur. Ümidvaram ki, orada yeni prezidentlə keçiriləcək görüşdə də iştirak edəcəyəm.

**İlham Əliyev:** Xoş sözlərə görə çox sağ olun. Fürsətdən istifadə edərək mənə təbrik göndərdiyinə görə hörmətli qubernatora – cənab Rosselə təşəkkürümü yetirməyinizi xahiş

edirəm. Siz doğru dediniz, Heydər Əliyev ilə Eduard Rossel arasında çox mehriban və səmimi münasibətlər yaranmışdır. Bu münasibətlər Azərbaycanla Sverdlovsk vilayəti arasında çox yaxşı əlaqələr yaranmasına xeyli kömək etmişdir. Bizim nümayəndə heyətlərimiz də orada olmuş, sverdlovsklılar da buraya gəlmişlər. Bizim iqtisadi sahədə bir çox birgə proqramlarımız var. Dəstəklərinə və səmimi münasibətlərinə görə Azərbaycan diasporuna da təşəkkürümü yetirməyinizi xahiş edirəm. Bu mənim üçün çox qiymətlidir. Əlbəttə, onların əksəriyyəti Rusiya vətəndaşı olsa da, vətənlə əlaqəni kəsmirlər.

Biz xaricdə, o cümlədən Rusiyada yaşayan azərbaycanlıların həyat və fəaliyyətinə böyük diqqət yetiririk. Çox dəyərli haldır ki, onlar da respublika ilə əlaqələri kəsmirlər. Odur ki, biz bacardığımız qədər onlara kömək göstərməyə çalışırıq. Ümumiyyətlə, ölkələrimiz arasında münasibətlər bütün səviyyələrdə çox uğurla inkişaf edir və bunda da prezidentlərimizin böyük xidməti olmuşdur. Mən öz tərəfimdən bu siyasəti–Heydər Əliyev siyasətini davam etdirəcəyəm. Ümidvaram ki, biz Bakıda və sizin vətəninizdə hələ çox görüşəcəyik. Xoş sözlərə görə bir daha təşəkkür edirəm.

**Frenk Uorton** (*Bosniya və Herseqovinanın ombudsmanı*): Cənab Prezident, mənim adım Frenk Uortondur. Mən İsveçdənəm. Keçmiş İsveç ombudsmanıyam. Hazırda Bosniya–Herseqovinada işləyirəm. Sizdən əvvəl parlamentin spikeri ilə də görüşümüz oldu. Mənim üçün başucalığıdır ki, ölkənizə gəlib işləyirəm. Eyni ilə mənim babam da 100 il bundan qabaq mədən mühəndisi kimi Azərbaycana işləməyə gəlmişdi. Mən Sizə işinizdə uğur arzu edirəm. Ümid edirəm ki, ombudsmanın işinə güclü dəstək verəcəksiniz, insan haqları və qanunun aliliyi kimi sözlər, sadəcə, beynəlxalq konfranslarda deyilən boş sözlər olmayacaqdır. Bunlar ölkədə adi adamların həyatında həqiqətən yer tuta biləcəkdir. Çox sağ olun.

**İlham Əliyev:** Çox sağ olun. Belə çıxır ki, sizin babanızı da bizim ölkə ilə tellər bağlamışdır. Sizin ölkədən başqa adamlar da ötən əsrin əvvəllərində burada işləyiblər.

Bunlar bizim yadımızdadır. Nobel qardaşlarının burada işləməsi hamının xatirindədir. Keçən il Nobel ailəsinin üzvləri, haradasa 30-a yaxın adam ölkəmizə gəlmişdi. Planımız var ki, Nobellərin Bakıdakı evini yenidən təmir edək.

Mənə deyilib ki, ombudsmanlıq ilk dəfə elə İsveçdə yaranmışdır. Əminəm ki, bizim ölkədə insan haqları, qanunun aliliyi qorunacaqdır. Biz bu strategiyanı seçmişik və bu yolda irəliləyəcəyik. Hökumət də, prezident kimi mən də həmişə ombudsmanın işinə yardım edəcəyik. Bizim ölkədə də hamı bu fikirdədir. Sizdən də eşitmək çox xoşdur ki, xanım Süleymanova bizim ölkənin xalqı üçün çox gözəl iş görür. İstərdim ki, xoş sözlərinizə görə hamınıza təşəkkürümü bildirim. Ümid edirəm ki, buradakı işiniz uğurlu oldu, işinizi tamamladınız. Arzu edirəm ki, hər biriniz ölkənizə Azərbaycanla bağlı xoş xatirələr aparasınız, sizi burada bir daha qəbul etməkdən xoşbəxt olarıq. Çox sağ olun.

**A l i n a  Y a n u ç e n k o** (*Moldovanın insan hüquqları üzrə müvəkkili*): Cənab Prezident, mən Moldovanı təmsil edirəm. İnanın ki, Azərbaycanda seçkilərin gedişini, Sverdlovsk vilayətində olduğu kimi, ölkəmizdə də böyük maraqla izləyirdilər. Sizin televiziya ekranındakı surətiniz, seçkiqabağı kampaniya zamanı davranışınız və seçkilərin nəticələri sübut edir ki, bu, xalqın iradəsi idi. Ona görə də prezident seçilməyiniz münasibətilə mən Sizi və xalqınızı təbrik edirəm. Aradan 1 ay 6 gün keçdikdən sonra ombudsmanlarla görüşməyi lazım bilməyinizin çox rəmzi mənası var. Zənnimcə, artıq bu gün ölkənizin taleyi aydındır. Bu yol nurlu və demokratik yoldur. Prezident seçilməyiniz münasibətilə Sizi Moldovada birincilər sırasında şəxsən təbrik etməyimə çox şadam. Sizə böyük uğurlar arzulayıram.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Əlavə edə bilərəm ki, bizdə seçkilər oktyabrın 15-də olmuşdur, lakin mən vəzifəyə oktyabrın 31-də başlamışam. Bu belə mötəbər nümayəndə heyəti ilə ilk görüşümdür. Doğrudur, mən artıq müxtəlif nümayəndələrlə görüşlər keçirmişəm. Amma belə beynəlxalq

heyətlə ilk dəfə görüşürəm. Çox şadam ki, bunu siz də əlamətdar hadisə kimi qiymətləndirirsiniz. Bu, həqiqətən belədir. Azərbaycanda insan hüquqları məsələlərinə bundan sonra da çox böyük əhəmiyyət veriləcəkdir. Xoş sözlərə görə sağ olun.

**R i m a n t e   S a l a s e v i ç y u t e** (*Litvanın insan hüquqları üzrə müvəkkili*): Cənab Prezident. Təbriklərə mən də qoşuluram.

Mən Litvanın ombudsmanıyam, moldovalı həmkarımın fikrini davam etdirərək demək istəyirəm ki, bizi qəbul etməyiniz məni həqiqətən təəccübləndirdi. Tədbirimizə və bizə diqqət yetirməyinizə çox təəccübləndim. Sizin ombudsmanın – Elmira Süleymanovanın fəaliyyətinə gəldikdə isə, o, həqiqətən tərifəlayiqdir. Mən öz təsisatımızda artıq 10-cu ildir işləyirəm, 8 il müşavir işləmişəm, indi isə ombudsmanam. İnsanlar arasında belə etimada və diqqətə, habelə nüfuza ombudsmanlarımız, görünür, hələ nail olmayıblar. Elmiraya təkcə onu deməyə macal tapmadım ki, biz ona həmişə kömək edəcəyik, çünki işçilərimiz təcrübəlidirlər. Ombudsmanların özləri isə ondan öyrənməlidirlər.

**İ l h a m   Ə l i y e v:** Bütün bunları eşitmək çox xoşdur. Bu, həqiqətən belədir. Bizdə Elmira xanım çox böyük nüfuza malikdir. Çox böyük iş aparır və insanlar bunu qiymətləndirirlər. Sizdə ombudsman təsisatı nə vaxt yaradılıb?

**R i m a n t e   S a l a s e v i ç y u t e:** Bizdə qanun 1994-cü ilin dekabrında qəbul edilib, ofis isə 1995-ci ilin martından işləməyə başlayıbdır. Belə ki, stajımız böyükdür. İlk vaxtlar nüfuzumuz yüksək idi, lakin sonralar bir qədər aşağı düşdü, indi, deyəsən, onu yenidən yüksəltməyə çalışırıq.

**T u r s u n b a y   B a k i r** (*Qırğızıstanın insan hüquqları üzrə müvəkkili*): Hörmətli cənab Prezident, Sizi qırğız xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Biz bilirik ki, parlament seçkiləri ilə müqayisədə prezident seçkiləri  çox çətindir. Mən bunu seçkilərdə dəfələrlə iştirak etmiş bir adam kimi deyirəm. Buna görə də çox sağ olun ki,

seçkilərdən sonra yorğunluğunuzu almadan bütün ölkələrin ombudsmanları və beynəlxalq ekspertlərlə görüşməyə vaxt tapdınız.

Hesab edirəm, tale bizi xoşbəxt etmişdir ki, canlı əfsanələrin şahidiyik. Sizin atanız Heydər Əlirza oğlu bizim hamımız üçün canlı əfsanədir. Xahiş edirəm, bizim ən xoş arzularımızı, uzun ömür, cansağlığı diləklərimizi ona çatdırasınız. Sizə də uğurlar arzulayırıq, çünki biz Azərbaycanın və Azərbaycan xalqının təəssübünü çəkirik.

Mən ötən ildən ombudsmanam və düşünürəm ki, bu işdə mənim yolgöstərənim böyük bacım Elmira xanımdır. O Sizin köməyinizlə böyük uğurlar qazanmışdır. Əgər dövlət, iqtidar ombudsmana diqqət yetirmirsə, onda onun işləməsi çox çətindir. Sizin Elmira xanıma göstərdiyiniz və bizim şahidi olduğumuz diqqət isə MDB ölkələri üçün örnəkdir. Çox sağ olun, Sizə və Azərbaycan xalqına uğurlar arzulayıram.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Qırğızıstandakı qardaşlarımıza və prezident Əsgər Akayevə mənim ən xoş arzularımı çatdırın. Bizi tarixi qardaşlıq və dostluq telləri bağlayır. Prezidentimiz haqqında Sizdən belə sözlər eşitmək mənim üçün, əlbəttə, çox xoşdur. Heydər Əliyev rəhbərlikdə olduğu bütün dövrlərdə – sovet dövründə də, müstəqillik illərində də Azərbaycanın inkişafına əvəzsiz töhfə vermişdir. 1970-ci illərdə, sonra isə 1990-cı illərdə onun bütün fəaliyyəti xalqın rifahına yönəlmişdi. Keçmişdə başqa sistem, başqa qaydalar mövcud idi. Lakin bütün sənaye, o cümlədən neft sənayesi həmin illərdə yaranmışdı. Mərkəzin ehtiyatlarından bacarıqla istifadə edilməklə, Azərbaycanda müxtəlif kənd təsərrüfatı və sənaye müəssisələri yaradılırdı. Bütün bunlar müstəqil Azərbaycanın inkişafı üçün yaxşı təməl oldu. Ölkəyə başçılıq etmək etibarı olunanların hamısının vəzifəsi onun siyasətini bundan sonra da şərəflə və vicdanla davam etdirməkdir. Mən bunu edəcəyəm. Ötən seçkilər bir daha sübut etdi ki, Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur. Bizim vəzifəmiz bu siyasəti davam və inkişaf etdirməkdir.

**T u r s u n b a y  B a k i r:** Orta Asiya və Qafqaz yaxın regionlar olduğuna görə bir kompliment deyim. Bu gün müxbirlərin çoxu belə bir sual verir ki, sizdə hakimiyyətin atadan oğula keçməsi təcrübəsi mümkündürmü? Cavab verirəm, əgər oğul ataya layiqdirsə, onda mümkündür. Mən hesab edirəm ki, Siz buna layiqsiniz.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Lakin bu, Azərbaycan təcrübəsi deyildir. Bu təcrübə digər ölkələrdə başlanmışdır. Sadəcə olaraq, bu, Azərbaycanda da baş verdi, lakin təşəbbüskarı biz deyilik.

**T e y m u r a z  L o m s a d z e** *(Gürcüstanın insan hüquqları üzrə müvəkkili)*: Hörmətli cənab Prezident!

Mən Gürcüstanı təmsil edirəm. Bakıda olmağıma ürəkdən şadam. Bir də ona görə şadam ki, yaxın qonşunun və dostların nümayəndəsi kimi, mən Sizi prezident seçilməyiniz münasibətilə təbrik etmək imkanına malikəm. Qəti əminəm ki, Azərbaycanda insan hüquqları, əvvəllər olduğu kimi, yenə də qorunacaqdır.

XXI əsrdə insan hüquqları ən böyük dəyərlərdən biridir. Bu sahədə ilk ombudsmandan çox şey asılıdır. Azərbaycanda ilk ombudsman Elmira xanım oldu. Ombudsman təsisatının bünövrəsinin qoyulmasının gələcək işdə böyük əhəmiyyəti var. Qəbula görə sağ olun.

**M a r a t  Y u s u p o v** (*Özbəkistanın insan hüquqları üzrə müvəkkili*): Cənab Prezident, qardaş xalqın torpağında olduğum bir vaxtda Sizi belə gözəl xalqın rəhbəri seçilməyiniz münasibətilə səmimi-qəlbdən təbrik etmək imkanına görə özümü xoşbəxt sayıram.

Biz dövlət başçısının Azərbaycanda demokratik təsisatlara böyük qayğı göstərdiyini hər an duyurduq. Həm də burada çox şey öyrəndik. Azərbaycanda baş verən demokratik dəyişikliklərdən xoşhal olduq. Paytaxtınızda çoxlu yeni tikililər, bol xalq istehlakı malları da gördük. Qiymətlər də nisbətən ucuzdur. Azərbaycan xalqının öz prezidentinə necə böyük etimad və hörmət bəslədiyini dərhal başa düşdük. Bu, seçkilərdə

səsvermənin nəticələrindən də görünürdü.

Sonda Sizə və özbək xalqının böyük dostu Heydər Əliyeviçə möhkəm cansağlığı arzulamaq istəyirəm.

**Eduard Pavlenko** (*Ukraynanın insan hüquqları üzrə müvəkkili*): Hörmətli cənab Prezident, mən Ukraynanı təmsil edirəm. Həmkarlarımın çıxışlarına dərhal qoşulmaq, təkcə öz səmimi təşəkkürümü deyil, həm də Ukrayna xalqının təbriklərini ifadə etmək istəyirəm. Biz seçkilər zamanı baş verən hadisələri həyəcanla izləyirdik. Atanızın necə əfsanəvi şəxsiyyət olduğunu bildiyimizə görə, əlbəttə, inanırdıq ki, oğlu onun siyasətini mütləq davam etdirəcəkdir. Ona görə də mən buraya gəlməyə hazırlaşarkən parlamentdəki, Prezidentin İcra Aparatındakı və hökumətdəki həmkarlarım ən xoş arzularını Sizə yetirməyimi xahiş edirdilər.

Ukraynada bu problemlərlə 6 ildən bəri məşğul olan insan kimi, demək istəyirəm ki, ombudsmana belə şərait yaradılması mənim üçün böyük fərəhdir. Eyni zamanda, ümidvar olduğumu bildirmək istəyirəm ki, ombudsmanın və prezidentin münasibətləri səmərəli, konstruktiv olacaq və Bakıya bir daha gələrəmsə, mənə Sizinlə görüşmək səadəti nəsib olacaqdır.

**Sergey Sirotkin** (*BMT İnkişaf Proqramının Avropa ofisinin nümayəndəsi*): Cənab Prezident, mən BMT İP-in demokratik idarəçiliyin dəstəklənməsi üzrə regional ofisində işləyirəm. Həmkarlarım Marko Borsotti və Ceyms Li bu təşkilatın rəsmi mövqeyini ifadə etdilər. Mən isə, fürsət düşmüşkən, Sizi seçkilərdəki qələbəniz münasibətilə ürəkdən təbrik etmək istəyirəm. İş cədvəlinizin gərgin olmasına baxmayaraq, vaxt tapıb bizi qəbul etməyiniz əlamətdar hadisədir. Mən bunu insan hüquqları probleminə diqqət kimi qiymətləndirirəm.

BMT İP insan hüquqları üzrə səmərəli milli təsisatlar yaradılmasına həmişə diqqət yetirir. Bu bir neçə gündə burada öyrənə bildiklərimiz tam aydınlıqla sübut edir ki, Azərbaycanda bu istiqamətdə uğurlu addımlar atılmışdır. Mən Sizə və insan hüquqları üzrə sağ əliniz olan hörmətli Elmira xanıma uğurlar

arzulayıram.

**İ l h a m  Ə l i y e v:** Əziz dostlar, xoş sözlərə görə sağ olun. Mənə bu tədbir barədə məlumat verdilər və sizinlə görüşmək istədim. Bunun əlamətdar hadisə olması barədə sizin fikrinizlə razıyam.

Azərbaycan müvəffəqiyyətlə inkişaf edir. İqtisadiyyat inkişaf edir, ölkə siyasi sahədə mövqelərini möhkəmləndirir, regional siyasətin ciddi mərkəzinə çevrilir. Lakin ölkənin dinamik və hərtərəfli inkişafı, iqtisadi nailiyyətlər nə qədər təsiredici olsa da, insan hüquqlarına əməl edilmədən vətəndaş cəmiyyəti yaratmaq və demokratiyanı inkişaf etdirmək mümkün deyildir. Biz hamımız tarixin dərslərini bilirik. Tarixdə iqtisadi baxımdan çox firavan görünən ölkələr olmuşdur, lakin orada hökm sürmüş qarşılıqlı siyasi münasibətlər, dövlət idarəçiliyi formaları üzündən bu ölkələr uğur qazanmamışlar, bəzən isə varlıqlarına, sadəcə, olaraq, son qoyulmuşdur. Ona görə də biz bu məsələlərə böyük diqqət yetirmək lazımdır deyəndə, bunlar heç də, sadəcə, gəlişigözəl sözlər deyildir.

Mən bu vəzifəyə seçilməzdən əvvəl də seçkiqabağı çıxışlarımda buna çoxlu diqqət yetirirdim, indi də yetirirəm və gələcəkdə də yetirəcəyəm. Bu yenə də ona dəlalət edir ki, bu, seçkiqabağı texnologiyaların təzahürü deyil, məhz səmimi əqidədir. Mən bu fikirdəyəm ki, ölkəmizin davamlı və uzunmüddətli inkişafı, bütün digər cəhətlərlə yanaşı, ilk növbədə, demokratiyanın inkişaf səviyyəsindən və hər bir vətəndaşın hüquq və azadlıqlarının təmin edilməsindən asılıdır. Əlbəttə, danışmaq, ümumən, asandır, amma hər bir konkret məsələni nəzərdən keçirdikdə bu hüquqların təmin edilməsinin bəzən nə qədər çətin olduğunu görürük.

Bizim ombudsman Elmira xanım haqqında sizdən yaxşı sözlər eşitmək mənə çox xoşdur. Dediyim kimi, onun böyük nüfuzu və hörməti var. Belə də olmalıdır, çünki bu məsələlərlə məşğul olan insan hər bir konkret halda onları nüfuzla həll etməlidir. Onun hər hansı qapını açmaq və ümdə məsələləri həll etmək imkanı olmalıdır.

Təbriklərinizə, xoş sözlərinizə görə sizə çox minnətdaram. Düşünürəm ki, Azərbaycan gələcəkdə bu yolla qətiyyətlə gedəcəkdir. Əlbəttə, ümidvaram ki, əlaqələrimiz davam edəcəkdir. Əlaqələrimiz qarşılıqlı təcrübə mübadiləsi baxımından gərəklidir. Müxtəlif ölkələrdən olan adamlar nə qədər tez-tez görüşsələr, bir-birini də bir o qədər yaxşı başa düşərlər. Sizə və ölkələrinizə uğurlar arzulamaq istəyirəm. Ümidvaram ki, biz gələcəkdə də əməkdaşlıq edəcəyik.

## QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNİN SƏDRİ ŞEYXÜLİSLAM HACI ALLAHŞÜKÜR PAŞAZADƏNİN MÜQƏDDƏS RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AÇDIĞI İFTAR SÜFRƏSİNDƏ NİTQ

*22 noyabr 2003-cü il*

Hörmətli şeyx həzrətləri!

Hörmətli qonaqlar!

İlk növbədə mən Sizə öz təşəkkürümü bildirmək istəyirəm. Ramazan bayramı həmişə – keçmişdə də, indi də Azərbaycan xalqının ürəyində yaşayıbdır. Ancaq Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra bu bayram ölkəmizdə rəsmi qaydada qeyd olunur.

Bizim müstəqilliyimiz çox böyük nailiyyətdir. Azərbaycan müstəqil dövlət kimi, bütün sahələrdə azad, sərbəst şəkildə inkişaf edir. Azərbaycanda xalqımızın milli-mənəvi dəyərləri, ənənələr daim qorunur, saxlanılır, bundan sonra da buna böyük diqqət göstəriləcəkdir.

Azərbaycanda dini dözümlülük var. Bu gün bu məclisdə müxtəlif konfessiyaların nümayəndələrinin iştirakı və çıxışları bunu bir daha göstərir. Bu çox böyük nailiyyətdir, sərvətdir. Həmişə belə olubdur. Milli, dini dözümlülük, tolerantlıq Azərbaycan xalqına xas olan xüsusiyyətdir. Azərbaycanın tarixində qısa bir müddət bu sahədə gərginlik müşahidə olunmuşdu. Ancaq Azərbaycan xalqının tələbi ilə hörmətli prezident Heydər Əliyev hakimiyyətə qayıdandan sonra bu sahədə keçmişdə buraxılan səhvlər aradan qaldırıldı.

Şeyx həzrətləri cənab prezidentin 40 illik dostudur. Bəlkə də bu dostluğun nəticəsində Azərbaycanda dövlət və din arasında mehriban münasibətlər, işgüzar əlaqələr mövcud olmuşdur. Bizim hamımızın borcudur ki, bu istiqamətdə işimizi davam

etdirək.

Mən dəfələrlə bəyan etmişəm ki, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm. O cümlədən, bu sahədə də davam etdirəcəyəm. Mənim üçün çox xoş idi və əziz idi ki, seçkilərə qədər dindarlar, hörmətli şeyx həzrətləri başda olmaqla, bu prosesdə çox fəal iştirak etmiş, məni birmənalı şəkildə dəstəkləmişlər. Bu, bir tərəfdən, onu göstərir ki, Azərbaycanda yaranmış ictimai-siyasi vəziyyət, ab-hava, sabitlik, əmin-amanlıq davam etməlidir və bütün Azərbaycan xalqı kimi, dindarlar da bu siyasətin davam etməsini istəyirlər.

Digər tərəfdən, biz hamımız – cəmiyyətin bütün üzvləri, sağlam qüvvələr Azərbaycanda Heydər Əliyevin siyasətinin davam etməsini arzulayırıq. Əlbəttə, yəqin bu amillər dindarları çox fəal hərəkətə sövq etmişdir. Mən bu münasibətlə, hörmətli şeyx həzrətləri başda olmaqla, bütün dindarlara dərin təşəkkürümü bildirirəm. Mən bilirəm ki, seçkilərə qədərki proseslərdə onlar məni dəstəkləyirdilər və əminəm ki, bu gün də dəstəkləyirlər. Mən də öz fəaliyyətimdə daim çalışacağam ki, dövlətlə din arasında yaranmış bu gözəl münasibətlər davam etsin.

Azərbaycan uğurla inkişaf edən ölkədir, onun çox gözəl perspektivləri vardır. Azərbaycan hərtərəfli inkişafa nail olacaqdır. Məqsədimiz də budur ki, Azərbaycan daha yaxşı, sülh, əmin-amanlıq, rifah içində yaşasın. Bütün bunlara nail olmaq üçün Azərbaycanda son on il ərzində yaranmış ictimai-siyasi vəziyyət saxlanılmalı, möhkəmlənməlidir. Azərbaycanda sabitlik qorunmalıdır. Seçkilərdən sonra baş vermiş hadisələr bir daha göstərdi ki, əgər bu seçkilərdə radikal qüvvələr hakimiyyətə gəlsəydi, Azərbaycan yenə böyük bəlalarla üzləşə bilərdi. Ancaq Azərbaycan xalqı öz müdrikliyini, iradəsini göstərdi və oktyabrın 15-də yenidən Heydər Əliyev siyasətinə səs verdi.

Mən seçkilərə qədərki çıxışlarımda, seçkilərdən sonra andiçmə mərasimində və ondan sonrakı çıxışlarımda dəfələrlə öz mövqeyimi bildirmişəm. Demişəm ki, hər bir Azərbaycan

vətəndaşının prezidenti olacağam. Hər bir Azərbaycan vətəndaşına qayğı göstərəcəyəm. Azərbaycanda heç vaxt dini zəmində, milli zəmində ayrı-seçkilik olmayacaqdır. Hər bir Azərbaycan vətəndaşı dinindən, dilindən, milliyyətindən asılı olmayaraq, eyni hüquqlara malikdir və bu siyasət gələcəkdə də davam edəcəkdir.

Hörmətli şeyx həzrətləri çıxışında dedi ki, mən bu məclisdə keçən il də iştirak edirdim. Qeyd elədi ki, mən o məclisə İlham müəllim kimi qatılmışdım. Sizi əmin etmək istəyirəm ki, mən bu gün də İlham müəllim, İlham Əliyev kimi bu məclisdə iştirak edirəm. Düzdür, mənim vəzifəm artıq prezident vəzifəsidir. Amma öz yaxınlarıma, dostlarıma, o cümlədən şeyx həzrətlərinə, öz dostuma demişəm ki, çalışacağam mən dəyişməyim. Necə varamsa, elə də qalım. Sadəcə olaraq, mənim məsuliyyətim artıbdır. Mənim vəzifə borcum dəyişibdir və genişlənibdir. Amma əmin ola bilərsiniz ki, mən İlham Əliyev kimi, Heydər Əliyevin oğlu kimi öz fəaliyyətimi davam etdirəcəyəm və atamın siyasətinə layiq olacağam. Əlbəttə, əgər məni gələcəkdə də dəvət etsəniz, məmnuniyyətlə belə məclislərə qatılacağam, daim sizinlə birlikdə olacağam. Sağ olun

## YAPONİYA XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ İÇİRO FUCİSAKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*24 noyabr 2003-cü il*

**İ l h a m   Ə l i y e v:** Hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz.

Yaponiya ilə Azərbaycan arasında münasibətlər çox uğurludur və sürətlə inkişaf edir. 1998-ci ildə Azərbaycan Respublikasının prezidenti cənab Heydər Əliyev Yaponiyada rəsmi səfərdə olmuşdur. Həmin səfərdən sonra münasibətlərimizdə yeni mərhələ başlanmış, Azərbaycan Respublikası ilə Yaponiya arasında iqtisadi əməkdaşlıq üzrə dövlət komissiyası yaradılmış, Yaponiyanın ölkəmizdə səfirliyi açılmışdır. Ümumiyyətlə, iqtisadi sahədə əməkdaşlığımız çox sürətlə inkişaf etməyə başlamışdır.

Yaponiya hökumətinin ayırdığı kreditlər hesabına Azərbaycanda böyük işlər görülmüş, yeni infrastruktur yaradılmışdır. Buna görə biz sizə öz minnətdarlığımızı bildiririk. Eyni zamanda Yaponiya hökuməti Azərbaycana təmənnasız olaraq böyük həcmdə kömək göstərmiş, qrantlar ayırmışdır ki, bu da çox sevindirici haldır. Xahiş edirəm, buna görə mənim dərin təşəkkürümü Yaponiya hökumətinə çatdırasınız.

Yaponiya şirkətləri Azərbaycanın neft-qaz yataqlarının işlənilməsində də fəal iştirak edirlər, beynəlxalq konsorsiumların üzvləri kimi, ölkəmizə böyük həcmdə sərmayə qoyurlar. Yaponiya şirkətləri region üçün böyük əhəmiyyət kəsb edən Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisində də iştirak edirlər. Sizə deyə bilərəm ki, bu kəmərin tikintisi uğurla davam edir, gələn ilin sonlarında istismara veriləcəkdir.

Biz gələcəkdə də bu əməkdaşlığın güclənməsini istəyirik. İndi yeni layihələr üzərində işlər aparılır. "Şimal" elektrik stansiyasının ikinci mərhələsinin layihəsi müzakirə edilir. Əmin olduğumu bildirmək istəyirəm ki, bu məsələ də yaxın vaxtlarda öz həllini tapacaqdır. Beləliklə, Azərbaycanda elektrik enerjisi təminatı yaxşılaşacaq, müasir infrastruktur yaradılacaqdır.

Bu fürsətdən istifadə edərək, sizdən xahiş edirəm ki, mənim salamlarımı və ən xoş arzularımı Yaponiya hökumətinin başçısı hörmətli Koidzumiyə çatdırasınız.

**İ ç i r o F u c i s a k i:** Çox sağ olun, cənab Prezident. Bu gün Sizinlə görüşmək bizim üçün başucalığıdır.

Sizə də məlumdur ki, bizim hökumətin başçısı cənab Koidzumi prezidentlik fəaliyyətinə başladığınız zaman Sizə məktub göndərmiş və bu münasibətlə təbrik etmişdir. Əmin ola bilərsiniz ki, mən Sizin salamlarınızı da ona çatdıracağam.

Yaponiya hökuməti indiyədək olduğu kimi, bundan sonra da Azərbaycanda gedən demokratik prosesləri, bazar iqtisadiyyatının inkişafını dəstəkləyəcəkdir. Yaponiya hökuməti Azərbaycanı vacib bir dövlət hesab edir.

Siz atanızın Yaponiyaya rəsmi səfərini xatırlatdınız. Həqiqətən, prezident Heydər Əliyev Yaponiyaya səfəri ilə və ondan sonra gördüyü işlərlə ikitərəfli münasibətlərin inkişafına misilsiz töhfələr vermişdir. Mən istərdim ki, o, tezliklə sağalıb vətənə dönsün.

Yaponiya ilə Azərbaycan arasında münasibətlər indiyədək çox yüksək səviyyədə olmuşdur və əminik ki, gələcəkdə daha yüksək səviyyəyə qalxacaqdır. Azərbaycandakı səfirimiz cənab Fucivaranın işləməsi üçün yaxşı şərait yaratdığınıza görə Sizə təşəkkürümü bildirirəm. O mənim ən yaxşı dostlarımdan biridir. Həmçinin bilirik ki, tezliklə Tokioda öz səfirliyinizi açmağı planlaşdırırsınız. Biz bundan çox şad olarıq və bunu səbirsizliklə gözləyirik. Mənim özüm və Yaponiya Xarici İşlər Nazirliyinin yeni müstəqil dövlətlər departamentinin rəhbəri cənab Miçi əlimizdən gələni edəcəyik ki, səfirliyin fəaliyyəti üçün hər cür şərait yaradılsın.

Cənab Prezident, Siz Yaponiya ilə Azərbaycan arasında iqtisadi əməkdaşlıqdan söz açdınız. Bizim əməkdaşlığımız və ölkənizə köməyimiz barədə dediyiniz xoş sözlərə görə Sizə minnətdaram. Həqiqətən Yaponiya şirkətləri energetika sahəsində Azərbaycanla fəal əməkdaşlıq edirlər, Bakı–Tbilisi–Ceyhan layihəsinin iştirakçılarıdır. Ümidvaram ki, həyata keçirilən layihələrin hamısı uğurla başa çatdırılacaqdır. Eyni zamanda biz ölkənizin Ümumdünya Ticarət Təşkilatına üzv olması üçün də əlimizdən gələni edəcəyik. Sizin də dediyiniz kimi, bizim əməkdaşlığımızın inkişafında sərmayələrin də böyük əhəmiyyəti var. Burada müştərək iqtisadi komissiyanın rəhbəri cənab Abid Şərifov da iştirak edir. Düşünürəm ki, bu sahədə də əməkdaşlığımız uğurlu olacaqdır.

Biz ümid edirik ki, digər sahələrdə də, o cümlədən demokratiyanın inkişafı sahəsində Azərbaycana yardımlarımız bundan sonra da davam etdiriləcəkdir.

Siz bizim birgə həyata keçirdiyimiz digər layihənin də adını çəkdiniz – bu, «Şimal» elektrik stansiyası layihəsidir. Bizim bununla əlaqədar cənab Şərifovla çox intensiv söhbətlərimiz olmuşdur. Sizin dediklərinizi və cənab Şərifovdan aldığım məlumatları Yaponiya hökumətinə çatdıracağam. Ümidvaram ki, bizim əməkdaşlığımız bundan sonra da genişlənəcək və daha çox sahəni əhatə edəcəkdir.

**İ l h a m Ə l i y e v:** Təşəkkür edirəm. Biz də münasibətlərimizin bütün sahələri – iqtisadi sahəni və siyasi müstəvini əhatə etməsini istəyirik. Siz cənab səfirin fəaliyyətini qeyd etdiniz. Deyə bilərəm ki, o bizim də dostumuzdur. Şəxsən mən cənab səfiri 1996-cı ildən tanıyıram. Azərbaycanın rəsmi nümayəndə heyəti ilk dəfə həmin il Yaponiyaya səfər etmişdir və mən də bu nümayəndə heyətinin tərkibinə daxil idim. Cənab səfir o zaman Yaponiyanın Xarici İşlər Nazirliyində çalışırdı. Biz onunla görüşdük və türkcə yaxşı söhbət etdik. Çox şadıq ki, cənab Fucivara indi Azərbaycandadır.

**İ ç i r o F u c i s a k i:** Cənab Prezident, üzr istəyirəm ki, Sizin sözlərinizə düzəliş verirəm. Ancaq səfir mənə deyir ki,

mən türkcə yox, Azərbaycanca danışıram.

**İ l h a m   Ə l i y e v:** Siz haqlısınız, ancaq mən 1996-cı ildən misal gətirirəm. O vaxt cənab səfir türkcə danışırdı. Azərbaycana gəldikdən sonra azərbaycanca danışır. İndi iki dildə danışır, həm türkcə, həm də azərbaycanca.

Siz qeyd etdiyiniz kimi, Azərbaycan Yaponiyada öz səfirliyini açmaq barədə qərar qəbul etmişdir. Ümidvaram ki, yaxın zamanlarda bu səfirlik öz işinə başlayacaq və beləliklə, bizim ikitərəfli münasibətlərimiz daha da yüksək pilləyə qalxacaqdır.

## BAKIDAKI DƏRİN DƏNİZ ÖZÜLLƏRİ ZAVODUNUN İŞÇİLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*24 noyabr 2003-cü il*

Mən sizi təbrik edirəm, bu gün zavodun 25 ili tamam olur. Bilməlisiniz ki, əgər prezident Heydər Əliyev o vaxt «Əsrin müqaviləsi»ni imzalamasaydı, bunların heç biri olmayacaqdı. Azərbaycanda görün, neftdən nə qədər gəlir gəlir. Bu gəlir də pensiyaların, maaşların artırılmasına, sosial məsələlərin həllinə xərclənir. Eyni zamanda yeni iş yerləri açılır.

Burada 3500 adam işləyir. Əgər 1994-cü ildə həmin müqavilə imzalanmasaydı, bu qədər adam harada işləyəcəkdi?! Özü də burada yüksək əmək haqqı verilir. Bilmirəm, düzdür, ya yox, mənə deyiblər ki, orta əmək haqqı 500 dollardır.

Hələ bundan sonra iki platforma tikiləcəkdir. Xəzərin digər sahillərində də işlər gedir. Yəni bu, artıq beynəlxalq bir müəssisədir, zavoddur. Əgər belə demək mümkündürsə, keyfiyyətli məhsul buraxan bir müəssisədir.

Mən sizə minnətdaram ki, Azərbaycanın adını yüksək tutursunuz. Mənə deyirlər ki, burada işləyən fəhlələr, mütəxəssislər çox yüksək peşəkarlığa malikdir. Bu da məni çox sevindirir. Azərbaycan qədim neft ölkəsidir. Xarici şirkətlər burada uğurla işləyirlər. Onlar çox ölkələrdə işləyirlər. Amma bəzi ölkələrdə elə vəziyyətlə üzləşirlər ki, gərək bütün mütəxəssisləri, fəhlələri özləri ilə gətirsinlər. Azərbaycanda belə deyildir. Azərbaycanda o qədər güclü kadr potensialı yaranmışdır ki, bu bizə yerli kadrlardan istifadə etməyə imkan verir. Bu məni çox sevindirir. Sizə uğurlar arzulayır, yeni-yeni qələbələr diləyirəm.

Yeni platformalarla tanışlıq başa çatdıqdan sonra

jurnalistlərə müsahibə:

**S u a l: Cənab Prezident, Gürcüstanda baş verən hadisələrə Azərbaycanın münasibəti necədir? Bilirsiniz ki, orada prezident istefa vermişdir.**

**C a v a b:** Bəli, biz hadisələri çox diqqətlə izləyirik. Çox narahatıq. İstəyirik ki, Gürcüstanda sabitlik qorunsun, heç bir xoşagəlməz hadisə baş verməsin. Bildiyiniz kimi, Gürcüstanda 500 minə qədər azərbaycanlı yaşayır. Əlbəttə, biz onların taleyinə biganə qala bilmərik. Düzdür, onlar Gürcüstan vətəndaşlarıdır, amma, eyni zamanda bizim soydaşlarımızdır. Ona görə biz, əlbəttə, narahatıq ki, bu hadisələr onlara da mənfi təsir göstərə bilər. Ümid edirəm ki, Gürcüstanda yaşanan böhran tezliklə öz həllini tapacaq və vəziyyət sabitləşəcəkdir.

**S u a l: Siz Gürcüstanın yeni rəhbərliyi ilə əlaqə saxlamısınızmı?**

**C a v a b:** Xeyr, mən iki gün bundan əvvəl prezident Eduard Şevardnadzeyə zəng elədim, vəziyyətlə maraqlandım, öz narahatlığımı bildirdim. Dünən orada vəziyyət elə idi ki, əlaqə saxlamaq üçün imkan yox idi. Ondan sonra əlaqəm olmayıbdır.

**S u a l: Cənab Prezident, Bakı–Tbilisi–Ceyhan kimi strateji layihələrə bu hadisələr necə təsir göstərə bilər?**

**C a v a b:** Əlbəttə, bilirsiniz, belə böyük layihələrə sabitliyin pozulması mənfi təsir göstərə bilər. Düzdür, bu, artıq beynəlxalq layihədir. Bu gün burada gördüyünüz işlər dünyanın heç bir yerində görülmür. Yəni bir il – iki il ərzində həm Bakı–Tbilisi–Ceyhan neft kəməri, həm də yaxınlarda inşasına başlanacaq Bakı–Tbilisi–Ərzurum qaz kəməri, "Azəri" platforması – belə böyük həcmli işlər heç bir ölkədə görülmür və bu, dünyanın ən böyük energetika layihəsidir. Ona görə mən bu layihə üçün gələcəkdə hər hansı bir təhlükə görmürəm. Xüsusilə nəzərə alsaq ki, beynəlxalq maliyyə qurumları da bu layihəyə artıq öz dəstəyini veriblər, kreditlər ayırıblar. Düzdür, o kreditlər bir az gecikibdir. Bu gecikmə də bir daha onu göstərir ki, Azərbaycan hökuməti, dövləti və bizdə fəaliyyət göstərən neft şirkətləri bütün çətinliklərə

baxmayaraq, öz imkanlarını səfərbər edib layihəni maliyyələşdirirlər.

Amma, əlbəttə, siyasi nöqteyi-nəzərdən Azərbaycanda gələcəkdə kreditləşmənin asanlaşdırılması istiqamətində beynəlxalq maliyyə qurumları tərəfindən atılan bu addım təqdirəlayiqdir.

Bir sözlə, mən gələcəkdə bu layihəyə təhlükə görmürəm. Amma, əlbəttə, regionda vəziyyət gərginləşərsə, sabitlik pozularsa, bu, layihəyə də təsir edə bilər. Məhz ona görə biz çalışırıq ki, bölgədə sülh, əmin-amanlıq olsun. Bu gün Azərbaycanda sabitlik var. Biz deyəndə ki, sabitlik müstəqil Azərbaycanın ən böyük sərvətlərindən biridir, məhz bunu nəzərdə tuturuq. Sabitlik pozulan yerdə irimiqyaslı layihələr həyata keçirilmir.

Mən ümid edirəm ki, Gürcüstanda yaşanan bu böhran tezliklə öz həllini tapacaqdır.

**S u a l: İlham müəllim, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Sizin mövqeyiniz hamını maraqlandırır. Bəziləri deyir ki, Azərbaycan tərəfi danışıqları sıfırdan başlaya bilər. Bəziləri isə deyir ki, danışıqlar harada dayanıbsa, Azərbaycan oradan başlaya bilər. Bununla bağlı vəziyyət necədir və yaxın vaxtlarda danışıqlar gözlənilirmi?**

**C a v a b:** Mən hesab edirəm ki, biz hələ heç bir yerdə dayanmamışıq. Heç bir razılaşma əldə olunmayıbdır. Danışıqlar gedir, vasitəçilər yaxşı-pis, öz funksiyalarını icra ediblər, ikitərəfli danışıqlar gedibdir. Amma mən deyə bilmərəm ki, biz hardasa dayanmışıq. Biz heç bir yerdə dayanmamışıq. Çünki heç bir razılaşma yoxdur. Ona görə mən bu barədə bir şey deyə bilmərəm. Vasitəçilər gəlməlidir, onlar öz fikirlərini bildirməlidirlər. Mənim də fikrim Azərbaycan ictimaiyyəti üçün aydındır. Dəfələrlə bunu bildirmişəm, bu mövqedə də qalıram. Baxarıq, hər şeyi gələcək göstərər.

**S u a l: Cənab Prezident, Türkiyədə törədilmiş terror aktlarını və Gürcüstanda baş verən hadisələri Bakı–Tbilisi–**

**Ceyhan layihəsinə qarşı məqsədyönlü aksiya kimi qiymətləndirmək olarmı?**

**C a v a b:** Mən düşünmürəm. Əlbəttə, müxtəlif ehtimallar irəli sürülə bilər. Mən burada hansısa bağlılıq görmürəm. Bunu demək üçün gərək əsas olsun. Hələlik belə bir əsas yoxdur. Amma, ümumiyyətlə, gərək vəziyyət araşdırılsın. Regionda Bakı–Tbilisi–Ceyhanla bağlı, Azərbaycanın öz neft-qaz yataqlarını işlətməsi ilə bağlı müxtəlif mərhələlərdə xoşagəlməz hadisələr baş veribdir.

Yadınızdadır ki, 1994-cü ildə "Əsrin müqaviləsi" imzalanandan sonra Bakıda baş vermiş hadisələr, hərbi qiyam təsadüfi xarakter daşımırdı. Sonrakı mərhələlərdə də biz bu layihəni həyata keçirməkdə daim çətinliklərlə üzləşmişdik. Bütün bunlara baxmayaraq, Heydər Əliyevin qətiyyəti, iradəsi bütün bu layihələri gerçəyə çeviribdir. Yəni fikirləri, əfsanələri gerçəyə çeviribdir. Azərbaycan bir daha göstərib ki, öz milli maraqlarını müdafiə etməyə qadirdir və bundan sonra da belə olacaqdır. Biz Azərbaycanda heç kimə imkan verməyəcəyik ki, ölkə üçün böyük həyati əhəmiyyət kəsb edən layihələr, tədbirlər kiminsə tərəfindən pozulsun. Sabitlik qorunub saxlanılacaq, müstəqil dövlət kimi, Azərbaycan öz siyasətini bütün sahələrdə aparacaqdır.

Amma, əlbəttə, gərək araşdırmalar aparılsın. Dünya ictimaiyyəti bilməlidir ki, bu terror aktlarının arxasında kimlər dayanır. Ancaq belə bir araşdırmalar aparılandan sonra hansısa bir sözü deyə bilərəm.

**S u a l: Cənab Prezident, bir ara söhbət gəzdi ki, haqqında cinayət işi qaldırılmış şəxslər var və onlar vaxtilə müxtəlif vəzifələr tuturdular. Onlar bu gün Azərbaycandan kənardadırlar. Məsələn, Ayaz Mütəllibovun, Rəsul Quliyevin Azərbaycana gətirilməsi gündəlikdədirmi?**

**C a v a b:** Elə bir yenilik yoxdur. Cinayət törətmiş şəxslər əməllərinə görə xalq və qanun qarşısında cavab verməlidirlər. Bu istiqamətdə heç bir yenilik yoxdur.

Sizin bütün suallarınız ictimai-siyasi xarakter daşıyır. Gö-

rürsünüz, Azərbaycan üçün ən böyük əhəmiyyət kəsb edən məsələ kənarda qaldı. Əlbəttə, digər məsələlər də vacibdir.

**S u a l: Cənab Prezident, zavodda görülən işlər Sizi qane etdimi?**

**C a v a b:** Bu zavod elə-belə zavod deyil, onun yaradılması da tarixi hadisədir. Burada deyildi, əgər 25 il bundan əvvəl bu zavod Azərbaycanda tikilməsəydi, bəlkə də bu layihələr belə uğurla həyata keçirilməzdi. İlk növbədə, burada görülən bütün işlərin sürəti azaldılacaqdı, yeddi il yubanma ola bilərdi. Ümumi xərclər 700 milyon dollar arta bilərdi. Əlbəttə, zavodun Azərbaycanda tikilməsi məhz o vaxt Heydər Əliyevin fəaliyyəti nəticəsində olubdur. O vaxt mərkəzi hökumət bu zavodu Həştərxan şəhərində tikmək qərarına gəlmişdi. Amma Heydər Əliyevin müdaxiləsindən sonra zavod Azərbaycanda tikildi. Bu gün burada 3500 azərbaycanlı işləyir, yüksək maaş alır. Orta əmək haqqı 500 dollardır. Əlbəttə, bu zavod hələ uzun-uzun illər işləyəcək, Azərbaycan üçün, bölgə üçün, region üçün çox mühüm işlər görəcəkdir.

Neft sektoru uğurla inkişaf edir. Neft sektorunda əldə olunan nəticələr ancaq cənab prezident Heydər Əliyevin adı ilə bağlıdır. Əgər o, gərgin vaxtlarda təşəbbüs, qətiyyət göstərməsəydi, bu layihələr elə layihə olaraq qalacaqdı.

Mən bu zavodda dəfələrlə olmuşam, vəziyyətlə tanışam. Bu gün bütün bu gözəl işləri görəndə çox sevinirəm. Bu yaxınlarda modullar platforma şəklində dənizə aparılacaq və tezliklə "Azəri" yatağından ilkin neft çıxarılacaqdır. Bütün Azərbaycanın gələcək iqtisadi inkişafı bu layihələrlə bağlıdır. Bu layihələr olmasa, Azərbaycan çox çətin iqtisadi vəziyyətdə qala bilər. Layihələrdən əldə olunacaq gəlirlər ölkəmiz üçün səmərəli işləməlidir. Əminəm ki, Azərbaycan xalqı yaxın gələcəkdə bunun bəhrəsini görəcəkdir.

**S u a l: Cənab Prezident, Sizin Cenevrəyə səfəriniz gözlənilir. Ümumiyyətlə, hansı səfərləriniz olacaqdır?**

**C a v a b:** Hələlik heç bir səfər planlaşdırmıram. Azərbay-

canda işlər çoxdur. Heç bir rəsmi səfər nəzərdə tutmuram. Ancaq hansısa beynəlxalq tədbirdə iştirakım vacibdirsə, oraya gedəcəm. Amma mən hansısa bir ölkəyə xüsusi səfər planlaşdırmıram. Sağ olun.

## ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALFRED MOİSİUYA

Hörmətli cənab Prezident!

Albaniya Respublikasının milli bayramı – Bayraq günü münasibətilə Sizi və Sizin simanızda dost Albaniya xalqını şəxsən öz adımdan və bütün Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Albaniya arasında dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeyinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *24 noyabr 2003-cü il*

## RUSİYA FEDERASİYASI XARİCİ İŞLƏR NAZİRİNİN BİRİNCİ MÜAVİNİ VYAÇESLAV TRUBNİKOV İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*26 noyabr 2003-cü il*

**İ l h a m  Ə l i y e v:** Hörmətli Vyaçeslav İvanoviç, sizi görməyimə çox şadam. Xoş gəlmisiniz. Buraya gəlməyə hazırlaşdığınızı bilirdik, ona görə də sizi səbirsizliklə gözləyirdik. Azərbaycanda sizi ölkəmizin böyük dostu kimi tanıyırlar, sizin cənab Heydər Əliyevlə çoxdankı və sıx münasibətləriniz də burada yaxşı məlumdur. Odur ki, sizinlə görüşmək ikiqat xoşdur.

Ölkələrimiz arasında münasibətlər çox uğurla inkişaf edir. Biz bütün istiqamətlərdə və sahələrdə böyük uğurlara nail olmuşuq. Siyasi, iqtisadi və sosial sahələrdə, mədəni mübadilədə böyük nailiyyətlər var. Rusiya bizim üçün strateji tərəfdaşdır. Prezidentimiz Heydər Əliyev bunu dəfələrlə açıqlamışdır. Azərbaycanda onun siyasəti davam etdirilir. Bizdə hakimiyyətin varisliyi mövcuddur, nəzərdə tutulanların hamısı həyata keçirilməkdədir. Zənnimcə, cəmiyyətimizin sabitliyinin və inkişafının rəhni bundadır.

Bildiyiniz kimi, Rusiya prezidenti Vladimir Vladimiroviç Putinin Azərbaycana səfərindən, prezident Heydər Əliyev ilə görüşlərindən sonra Rusiya ilə Azərbaycan arasında münasibətlərə çox ciddi təkan verildi. İki dövlətin prezidentləri arasında sonrakı görüşlərdə tam qarşılıqlı anlaşma və şəxsi rəğbət özünü büruzə verirdi. Mənə xoşdur ki, prezident seçiləndən sonra mən də Vladimir Vladimiroviçin diqqətini və xoş münasibətini duyuram. Yaltada, MDB-nin zirvə toplantısı zamanı bizim yaxşı görüşümüz, sonra isə telefon danışıqlarımız oldu. Bu çox

qiymətlidir və biz bu əlaqələri inkişaf etdirəcək, möhkəmləndirəcək, ölkələrimizin daha da yaxınlaşması, birlikdə irəliləməsi üçün bütün işləri görəcəyik.

Çox işlər görülmüşdür və qarşıda da hələ çox işlər durur.

Mən dəfələrlə bəyan etmişəm ki, ikitərəfli münasibətlərimizdə heç bir problem görmürəm. Həll edilməli məsələlər bütün sahələrdə uğurla həll olunmuşdur. İndi vəzifəmiz bu münasibətləri möhkəmləndirmək üçün gələcəkdə də bizdən asılı olan hər şeyi etməkdir. Mən artıq bunu qeyd etmişəm. Düşünürəm ki, ölkələrimiz bir-birinə daha da yaxınlaşmaq və sıx qarşılıqlı əlaqə istiqamətində bundan sonra da birgə hərəkət edəcəklər.

**V y a ç e s l a v T r u b n i k o v:** İlham Heydəroviç, çox sağ olun.

İkitərəfli münasibətlərimiz haqqında indi Sizin qeyd etdiyiniz fəaliyyət proqramını mən ürəkdən alqışlamaq istəyirəm. Mən prezidentimiz Vladimir Vladimiroviçin səmimi salamlarını Sizə çatdırmaq istəyirəm. Bu faktı da vurğulamaq istəyirəm ki, indi Rusiya və Azərbaycan münasibətləri strateji tərəfdaşlıq xətti səviyyəsinə çataraq bir nümunə sayıla bilər. Həqiqətən də, bizi bir-birimizdən ayıran problemlər yoxdur, əksinə, əməkdaşlığı gələcəkdə də bütün sahələrdə – istər siyasət, iqtisadiyyat, sosial, yaxud mədəniyyət məsələləri olsun – əməkdaşlığı inkişaf etdirmək və dərinləşdirmək üçün böyük potensial vardır. Biz indicə səfirlikdən gəlmişik, rus icması orada onilliyini qeyd edir. Rus icmasının yaşadığı torpağa olan münasibətini hiss etmək mənim üçün çox xoş idi – bu, səmimi, mehriban və dərindən yaşanmış hisslərdir. Bütün bunlar Heydər Əliyeviçin sayəsində mümkün olmuşdur və mən əminəm ki, Siz də həmin siyasəti davam etdirəcəksiniz ki, bizim mədəni məkanımız nəinki daralmasın, əksinə, möhkəmlənsin və inkişaf etsin. Bu sahədə də bizim böyük potensialımız vardır.

Azərbaycan və Rusiya münasibətləri üçün tam şəffaflıq və aşkarlıq, ən başlıcası isə, bir-birinə yardım göstərmək xasdır. Bu çox yaxşıdır.

Bildirmək istərdim ki, elə dünən, Azərbaycana səfərim ərəfəsində öz nazirimizlə söhbət etdim. O, MDB ölkələri Xarici İşlər Nazirləri Şurasının Gürcüstanda vəziyyətlə bağlı məsələnin müzakirə olunduğu növbədənkənar iclasından qayıtmışdı. Bilirsiniz, prezidentimizlə söhbətində İqor Sergeyeviçin Azərbaycanın mövqeyinə çox yüksək qiymət verdiyini, Qafqazda bu gün mövcud olan problemləri çox dərindən hiss etdiyimizi eşitmək mənim üçün olduqca xoş idi. Sözsüz, bu məsələdə bizim qarşılıqlı fəaliyyətimiz buna əsas verir ki, dünyanın bu regionunda əmin-amanlıq olacaq, insan hüquqlarına, dövlətlərin suverenliyinə, onların ərazi bütövlüyünə hörmət ediləcəkdir. Bu, keçmiş Sovet İttifaqı məkanında Rusiyanın xarici siyasətinin prinsipial xəttidir.

Mənə elə gəlir ki, Azərbaycanla münasibətlərimizdə biz mövcud potensialımızdan axıradək istifadə edilməmiş yeni istiqamətlər üzərində düşünməliyik. Zənnimcə, biz iqtisadiyyat sahəsində daha çox iş görə bilərik, çünki yanacaq-energetika kompleksi sahəsində böyük və maraqlı planlarımız var. Biz Xəzəryanı dövlətlərik, burada da aramızda tam qarşılıqlı anlaşma mövcuddur. Biz onu əsas götürürük ki, Xəzər daxili sututardır və biz burada Xəzərin səthinin deyil, dibinin bölgüsündə bir-birimizə kömək etmək yolu ilə gedirik. Biz onu əsas tuturuq ki, yeraltı sərvətlərdən istifadə naminə biz ümumi mövqedən çıxış etməli, yenə də bir-birimizə kömək göstərməliyik.

Ümumiyyətlə, strateji tərəfdaşlıq çoxsahəlidir və bizim ikitərəfli münasibətlərimizi yeni səviyyəyə çıxarmağa qadirdir. Mənə elə gəlir ki, Minsk prosesinin iştirakçısı olaraq Rusiya da Dağlıq Qarabağ kimi problemin həlli yolunun tapılması üçün, şübhəsiz, mümkün bütün işləri görəcəkdir. Güman edirəm ki, bu məsələdə danışıqlar prosesi obyektiv və subyektiv səbəblər üzündən müəyyən dövr ərzində inkişaf etməmişdir. Yəqin bu prosesə necə başlamaq barədə düşünmək vaxtı çatmışdır. Müxtəsəri, bu gün biz Azərbaycanı da, Rusiyanı da, beynəlxalq ictimaiyyəti də narahat edən ən geniş səpkili məsələlər üzrə geniş

qarşılıqlı fəaliyyətə hazır və açıqıq.

**İ l h a m Ə l i y e v:** Vyaçeslav İvanoviç, sağ olun. Bunu eşitmək çox xoş idi. Siz Azərbaycanda rus xalqına, rus mədəniyyətinə və rus millətinin burada yaşayan nümayəndələrinə münasibəti qeyd etdiniz. Buradakı rusların öz ölkəsinə–Azərbaycana münasibəti bizim ən böyük nailiyyətlərimizdəndir. Ölkəmizdə sülh, həmrəylik və dini dözümlülük mövcuddur. Sizə açığını deyəcəyəm, biz heç vaxt milli əlamətə görə fərq qoymamışıq. Bu, Sovet İttifaqı illərində də belə olmuşdur, indi də belədir. Əminəm ki, Azərbaycanda son 10 il ərzində bu istiqamətdə aparılmış siyasət davam etdiriləcək və ölkəmizdə yaşayan bütün xalqların daha da yaxınlaşmasına gətirib çıxaracaqdır.

Ölkəmizdə rus dilinə olan münasibət də Sizə bəllidir. Rus məktəblərindən heç biri heç bir təzyiqə məruz qalmayıbdır. Mən bu yaxınlarda burada öz konqresini keçirmiş rusdilli mətbuatın nümayəndələrinə demişdim ki, müstəqillik əldə edildikdən sonra Azərbaycanda rus dilində çıxan qəzetlərin sayı artmışdır. Yəni, bütün bunlar çox əhəmiyyətlidir. Bu bir daha göstərir ki, ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi üçün çox yaxşı zəmin vardır. Çox xoşdur ki, bəzən sınaqlara çəkilmiş xoş hissləri biz Rusiyada da, Azərbaycanda da qoruyub saxlamışıq.

Lakin xalqlarımız müdriklik nümayiş etdirərək, bu sınaqlardan şərəflə çıxmışdır.

Əlbəttə, regiondakı vəziyyət həm Rusiya, həm də Azərbaycan üçün vacibdir. Biz ümid edirik ki, regionun inkişafı dinc proseslər, Konstitusiya çərçivəsində gedəcəkdir. Azərbaycan bunda çox maraqlıdır. Əlbəttə, regionda sabitlik bizim üçün çox vacibdir. Bildiyimiz kimi, belə qeyri-sabitlik ocaqlarından biri Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Biz ümid edirik ki, Minsk qrupunun həmsədrləri kimi, Rusiya, Fransa və ABŞ bu münaqişənin beynəlxalq hüquq normaları əsasında həll olunması üçün bundan sonra da səy göstərəcəklər. Təəssüf ki, Minsk qrupunun fəaliyyəti indiyədək konkret

nəticələr verməmişdir, lakin biz ümidimizi itirmirik.

Biz bu problemin sülh yolu ilə həll olunmasını, beynəlxalq hüququn bütün elementar normalarına riayət edilməsini istəyirik. Əlbəttə, biz Minsk qrupunun vasitəçilik missiyasını alqışlayırıq və ümid edirik ki, nəticə əldə olunacaqdır.

Siz düzgün qeyd etdiniz ki, bütün sahələrdə, həm ikitərəfli münasibətlərdə, həm də regional əməkdaşlıq sahəsində aramızda tam qarşılıqlı anlaşma vardır. Biz energetika kompleksində hələ beş il bundan əvvəl real görünməyən layihələri həyata keçiririk. Əminəm ki, bu istiqamətdə səylərin birləşdirilməsi bizim qarşılıqlı mənafelərimizə cavab verir. Yanacaq-energetika kompleksinin inkişafında əməkdaşlıq üçün çox yaxşı potensialımız vardır və əminəm ki, ölkələrimiz bundan istifadə edəcəklər.

Mətbuat nümayəndələrinə elə gələ bilər ki, biz ancaq müsbət hallardan danışırıq. Lakin bu, həqiqətən də belədir. Keçmişdə mövcud olan problemlər öz həllini tapmışdır. Özü də bu problemlər hər iki dövlətin mənafelərinə qarşılıqlı riayət olunması əsasında həll edilmişdir. Bu bir daha sübut edir ki, xeyirxah iradə, siyasi iradə və arzu olanda, hətta müşkül görünən məsələlər də öz həllini tapır. Zənnimcə, ölkələrimiz arasında bundan sonra da heç bir problem olmayacaq, regionda sülhə, təhlükəsizliyə və tərəqqiyə nail olmaq üçün birgə səy göstərəcəyik.

Azərbaycan Rusiyanın iqtisadi cəhətdən güclü dövlət olmasında maraqlıdır və əminəm ki, Rusiya da Azərbaycanın güclü dövlət olmasını istəyir. Biz qonşuyuq, bizi dostluq və qardaşlıq münasibətləri bağlayır. Biz bu münasibətləri inkişaf etdirəcək və möhkəmləndirəcəyik.

**Vyaçeslav Trubnikov:** Hörmətli cənab Prezident, sözsüz ki, münasibətlərimizi inkişaf etdirmək üçün məkan çox genişdir. Mən terrorizmə qarşı çox çətin mübarizə meydanında sıx qarşılıqlı fəaliyyətimizə görə Sizin simanızda Azərbaycana, Azərbaycan xalqına öz minnətdarlığımı bildirmək istəyirəm. Terrorizmə qarşı ciddi mübarizəyə

başlamaq, Çeçenistanda beynəlxalq terrorizmlə bağlı meydana çıxan problemləri həll etməkdə Rusiyaya kömək göstərmək üçün Heydər Əlirza oğlunun böyük vətəndaşlıq cəsarəti lazım idi. Mən bütün bunların nə qədər çətin olduğunu başa düşürəm.

Heydər Əliyeviç bu cəsarəti göstərə bildi və mən əminəm ki, Siz varislikdən danışanda, bu o deməkdir ki, XXI əsrdə yeni təhdidlərlə və təhlükələrlə hədələyən çox ciddi mübarizə meydanında Azərbaycan əvvəllər Heydər Əliyeviçin tutduğu mövqeyi tutacaqdır. Bu bizim üçün çox vacibdir. Çünki Çeçenistanda vəziyyət yaxşılaşdıqca, bütövlükdə Şimali Qafqazda vəziyyət normallaşacaq, bu regionda bütün münasibətləri çətinləşdirən ciddi problemlər aradan qaldırılacaqdır. Sözsüz ki, beynəlxalq birlik bunu layiqincə qiymətləndirəcəkdir. Buna heç bir şübhə yoxdur. Biz həm Əfqanıstanda, həm də onun hüdudlarından kənarda antiterror koalisiyası çərçivəsində kifayət qədər geniş qarşılıqlı fəaliyyət göstəririk. Bu gün biz terror beynəlmiləlçiliyi tərəfindən çox ciddi təzyiqə məruz qalmışıq. Biz hadisələri qabaqlamalı və fəal surətdə əməkdaşlıq etməliyik.

Bunu da böyük məmnunluqla qeyd etmək istəyirəm ki, biz xarici siyasi idarələr xətti ilə də, xüsusi xidmətlər xətti ilə də çox ciddi və sıx qarşılıqlı fəaliyyət göstəririk. Bu sahələrdə biz birik. Bu isə münasibətlərimizi daha da möhkəmləndirir.

Düşünürəm ki, münasibətlərimizdə mövcud olan şəffaflıq, qarşılıqlı hörmət, bir-birimizə tərəf atdığımız cəsarətli addımları layiqincə qiymətləndirmək bacarığı, əlbəttə, bütövlükdə antiterror koalisiyasını möhkəmləndirir. Bu hamıya aydındır.

Bu gün xalqlarımız, həqiqətən, bir-birinə dərin hörmət hissi bəsləyir və biz burada təmiz rus dilini eşidəndə çox sevinirik. Bu gün səfirlikdə gördüklərimiz bir-birimizin mədəni dəyərlərinə necə yüksək qiymət verdiyimizi və buna necə qayğı ilə yanaşdığımızı bir daha sübut edir. Buna görə mən şəxsən Sizə böyük minnətdarlığımı bildirmək istərdim.

Siz bilirsiniz ki, Vladimir Vladimiroviç Yaltada da Sizi

ölkəmizə dəvət etdi. Biz Sizi böyük məmnuniyyətlə qəbul edəcəyik. Lap bu yaxınlarda, bazar ertəsi cənab Vilayət Quliyevin bizim nazirlə Moskvada çox faydalı danışıqları oldu. Bu, sübut edir ki, münasibətlərimiz yüksələn xətlə inkişaf edir və sözsüz ki, bundan sonra da irəli addımlayacağımıza nəinki ümid, həm də böyük əminlik vardır.

## RUSİYA FEDERASİYASI HÖKUMƏTİ SƏDRİNİN MÜAVİNİ VİKTOR XRİSTENKO İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*28 noyabr 2003-cü il*

**İ l h a m  Ə l i y e v:** Hörmətli Viktor Borisoviç, Sizi salamlamağa çox şadam. Xoş gəlmisiniz. Mənə dedilər ki, hökumətlərarası komissiyanın iclası çox uğurla keçmişdir. Çoxlu məsələlər müzakirə olunmuşdur. Bu bir daha sübut edir ki, ölkələrimiz arasında münasibətlər bütün sahələrdə, o cümlədən iqtisadi əməkdaşlıq sahəsində uğurla inkişaf edir.

Heç kimə sirr deyildir ki, çoxtərəfli və çoxcəhətli qarşılıqlı münasibətlərimizin yeni mərhələsinin əsasını 2001 və 2002-ci illərdə prezidentlərimiz Vladimir Putinin Azərbaycana və Heydər Əliyevin Moskvaya səfərləri qoymuşdur. Bu səfərlərdən, aparılmış məsləhətləşmələrdən və danışıqlardan sonra münasibətlərimiz keyfiyyətcə yeni səviyyəyə qalxmışdır. İllər boyu həllini tapmayan problemlər qısa müddətdə həll olunmuşdur. Siyasi müstəvidə də sıx qarşılıqlı münasibətlər yaranmışdır. Daim məsləhətləşmələr aparılır, mövqelər dəqiqləşdirilir.

Əlbəttə, bütün bunlar iqtisadi sahədə dərhal öz nəticəsini göstərdi. Biz buna çox məmnunuq. Bütün bunlar bizim üçün çox əhəmiyyətlidir. Ölkələrimiz arasındakı iqtisadi əməkdaşlığın bu gün çox yaxşı siyasi təməli vardır. Yəni, siyasi iradə olduqda bu münasibətlər uğurla inkişaf edir.

İqtisadi əlaqələr dostluq və mehriban qonşuluq münasibətlərimizi də möhkəmləndirir. Azərbaycanda Rusiya kapitalı ilə fəaliyyət göstərən 300-dən artıq müəssisə vardır və onlar üçün yaxşı şərait yaradılmışdır. Biz bunu alqışlayırıq. Biz bütün

sahələrdə, indiki halda isə, iqtisadi müstəvidə daha çox səy göstərmək istəyirik. Bizim potensialımız böyükdür, ölkələrimizin böyük perspektivləri var. Əlbəttə, yaxşı iqtisadi əsas olarsa, ölkələrimiz arasında münasibətlər daha da möhkəm olar. Bu baxımdan hökumətlərarası komissiyanın fəaliyyəti yüksək qiymətə layiqdir.

Qeyd etmək istəyirəm ki, biz bu işləri sürətləndirmək üçün öz tərəfimizdən bundan sonra da səy göstərəcəyik.

Sizi bir daha salamlayır və ümid edirəm ki, Azərbaycana qısa səfəriniz xoş və faydalı olacaqdır.

**V i k t o r  X r i s t e n k o:** Çox hörmətli İlham Heydəroviç, çox sağ olun. Əvvəla, bizimlə görüşmək üçün vaxt tapdığınıza görə Sizə öz təşəkkürümü bildirmək istəyirəm. Rusiya prezidenti Vladimir Vladimiroviç Putinin salamlarını və ən xoş arzularını Sizə yetirmək istəyirəm.

Səciyyəvi haldır ki, ticarət-iqtisadi müstəvidə qarşılıqlı əməkdaşlığımız nəzərdə tutulmuş dəqiq plan üzrə, hətta deyərdim ki, həm təşkilati, həm də məzmun baxımından dəqiq vaxt üzrə gedir. Biz həmsədrlərin görüşünü Bakıda keçirməyi nəzərdə tuturduq və o keçirildi. Mən belə bir fikirlə tam şərikəm ki, bu gün iqtisadi münasibətlərimiz açıq-aşkar yüksəlişdədir. Artıq iki ildir ki, həm əmtəə dövriyyəsində, həm də iqtisadi əməkdaşlıqda yüksəliş müşahidə edirik. Özü də bu yüksəliş təkcə həcm baxımından deyil, çoxşaxəliliyi və müxtəlif istiqamətdə olması baxımından da müşahidə olunur. Münasibətlərimizdə əvvəllər olmayan, tamamilə yeni səhifələr açılmışdır. Bu gün kosmik fəaliyyət sahəsində əməkdaşlıq haqqında hökumətlərarası memorandum imzalandı. Elektrik enerjisinin qarşılıqlı surətdə göndərilməsi üzrə yeni səhifə açıldı ki, bu da son dərəcə vacib məsələdir, çünki yüksək texnologiyalar da, infrastruktur da bir tərəfdən, əməkdaşlığımızın əsasını, digər tərəfdən isə, əməkdaşlığımızın perspektivini təşkil edir.

Demək istəyirəm ki, Sizin və tabeliyinizdə olanların Azərbaycan–Rusiya münasibətlərinə xüsusi münasibətini həmişə

hiss edirik. Onlar kimi, biz də belə fəal olmağa çalışırıq. Onların fəallığı hər cür tərifə layiqdir. Biz buna nəinki diplomatik nəzakətlə reaksiya verməli, həm də vaxtilə həlli müşkül görünən məsələləri həll etməliyik. Həyat göstərdi ki, bu məsələləri həll etmək mümkündür. Bu, gömrük, sərhəd, əmlak məsələlərinə və bir sıra digər problemlərə də aiddir. Bu gün biz bütün istiqamətlərdə ətraflı söhbət etdik.

Biz aprel ayında Azərbaycan–Rusiya hökumətlərarası komissiyanın geniş iclasını keçirməyi nəzərdə tutmuşuq. Cədvələ görə o, Bakıda keçirilməlidir. Ümid edirəm ki, bu planlarımıza heç nə mane olmayacaqdır.

**İlham Əliyev:** Əminəm ki, mane olmayacaqdır. Biz sizi bir dost və komissiyanın həmsədri kimi bir daha salamlamağa şad olacağıq. Çünki, dediyim kimi, biz münasibətlərin hərtərəfli inkişafında maraqlıyıq. Siz tamamilə doğru dediniz ki, iqtisadi sahədə əməkdaşlığın əvvəllər mövcud olmamış yeni sahələri meydana gəlir. Biz bunu alqışlayırıq. Bütün bunlar bir daha göstərir ki, əməkdaşlığı genişləndirmək üçün geniş imkanlarımız var. Bundan ötrü yaxşı baza – təşəkkül tapmış yaxşı qarşılıqlı siyasi münasibətlər mövcuddur. Bir neçə gün bundan əvvəl Rusiya prezidenti ilə telefon danışığım oldu. Biz bir çox məsələlər – ikitərəfli və regional məsələlər barəsində ətraflı fikir mübadiləsi apardıq və bir çox mövqelərdə baxışlarımız tam uyğun gəlir. Demək istəyirəm ki, siyasi mühit çox əlverişlidir. Onu real layihələrlə dolğunlaşdırmamaq günah olardı.

Biz Rusiya şirkətlərinin sərmayə layihələrində iştirakında çox maraqlıyıq. Əməkdaşlığın lap əvvəlindən, prezidentimiz Heydər Əliyevin qərarı ilə Azərbaycanın MDB-yə daxil olduğu vaxtdan bəri mövqeyimiz belə olmuşdur. Təbii ki, ölkələrimizdə biznes inkişaf etmiş ölkələrdəkinə nisbətən gec formalaşmışdır. Şirkətlər möhkəmlənməli, gücünü artırmalı idi. İndi Rusiyada yüksək texnologiyalara və maliyyə potensialına malik dünya səviyyəli şirkətlər mövcuddur. Odur ki, biz onların Azərbaycanda fəal işləməsində maraqlıyıq. Zənnimcə bu,

qarşılıqlı surətdə faydalı olacaqdır.

Düşünürəm ki, siz apreldə yenidən buraya gələndə nəzərdə tutulan bütün məsələlər də həll ediləcəkdir. Həllolunmaz məsələlər yoxdur. Xəzərə, Qəbələ Radiolokasiya Stansiyasına dair məsələlər və digər məsələlər bizə həlledilməz görünürdü. Lakin onlar həll edildi, özü də qarşılıqlı məmnunluq və hər iki dövlətin qarşılıqlı milli mənafelərinə riayət olunmaqla həll edildi. Ona görə də hesab edirəm ki, qalan bütün məsələlər də həll olunacaqdır. Biz Nikolay Timofeyeviçlə bu barədə danışmışıq. Əgər qarşıya hər hansı bir məsələ çıxsa, düşünürəm ki, biz onu da həll edərik.

**Viktor Xristenko:** Mən tamamilə razıyam ki, başlıcası, onların üstündən sükutla keçməməkdir. Onları görməmək o demək deyil ki, onlar azalır və öz-özünə həll edilir. Diqqəti Sizin dediyiniz bu sözlərə cəlb etmək istərdim ki, 300 müştərək müəssisə mövcuddur və sərmayə potensialı tükənməyibdir. Mən bu fikirlə tamamilə razıyam. Son beş ildə münasibətlərin inkişaf dinamikasına nəzər salsaq, görərik ki, hər halda, səylərimiz xeyli dərəcədə iqtisadi əməkdaşlığımızın ticarət sahəsini irəlilətməyə yönəldilmişdir. Bu da çox vacib və olduqca aktualdır. Lakin investisiya əməkdaşlığı daha vacibdir və daha böyük səmərə verir. Bu əməkdaşlıq istiqamətinə görə çox geniş sahəni əhatə edə bilərdi.

Bu gün biz maşınqayıma sahəsində layihəni müzakirə etdik. Əlbəttə, mən infrastruktur və nəqliyyat layihələrini də bu sahəyə aid edirəm. Bu elə bir sahədir ki, burada biz öz qüvvələrimizə, texnologiya və maliyyə sxemlərimizə real surətdə arxalana bilərik. Həmin layihələrin həyata keçirilməsi üçün zəngin təcrübəmiz və praktikamız var. Mən sizinlə razıyam, üç ildə yaradılmış əlverişli mühit, yüksək siyasi səviyyədə tez-tez keçirilən görüşlər bizim bu səviyyəyə müvafiq olmağımızı qarşımızda bir vəzifə kimi qoyur. Ona görə də mən bu fikirdəyəm ki, sizin qarşınıza qoyduğunuz vəzifələri ticarət-iqtisadi və investisiya əməkdaşlığının təşkili çərçivəsində icra üçün, şübhəsiz, qəbul edəcəyik.

**RUMINİYANIN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB İON İLİYESKUYA**

Hörmətli cənab Prezident!

Rumıniyanın milli bayramı – Birlik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Rumıniya arasındakı dostluq və əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirirəm. Əminəm ki, ikitərəfli əlaqələrimiz xalqlarımızın rifahı naminə daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Rumıniya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *28 noyabr 2003-cü il*

## XALQ RƏSSAMI TAHİR SALAHOVA

Hörmətli Tahir Salahov!

Sizi–rəssamlıq sənətinin görkəmli nümayəndəsini anadan olmağınızın 75 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan təsviri sənətinin XX əsrdə çiçəklənməsi Sizin adınızla sıx bağlıdır. Mövzu və janr müxtəlifliyi, bədii forma əlvanlığı ilə yanaşı, estetik kamilliyi ilə səciyyələnən səmərəli yaradıcılığınız milli mədəniyyətimizin inkişafında xüsusi bir mərhələ təşkil edir. Yaradıcı əməyin romantikasını, bəşər övladının qurub yaratmaq əzmini, insanın daxili aləmini bütün əlvanlığı və zənginliyi ilə tərənnüm edən silsilə tablolarınız sənətsevərlər tərəfindən həmişə rəğbətlə qarşılanmışdır.

Rəngarəngliyi və orijinallığı ilə yadda qalan mənzərə və natürmortlarınız doğma Azərbaycan diyarına dərin övlad məhəbbətindən yaranmışdır. Vətən təbiətinin gözəlliklərini mahir sənətkar fırçası ilə canlandıran həmin lövhələr insana xoş ovqat bəxş edir, onu bu gözəllikləri sevməyə və qorumağa çağırır.

Teatr-dekorasiya sənəti sahəsində xidmətləriniz də təqdirəlayiqdir. Məharətli teatr rəssamı kimi, Sizin səhnə əsərlərinə verdiyiniz tərtibatlar öz novatorluğu ilə seçilir.

Dünyanın bir sıra ölkələrində təşkil olunmuş incəsənət sərgilərində nümayiş etdirilən, eləcə də muzeylərdə qorunub saxlanılan əsərləriniz Sizi Azərbaycanın hüdudlarından kənarda böyük sənətkar kimi tanıtmaqla yanaşı, çoxəsrlik ənənələrə malik milli təsviri sənətimizin də şöhrətini artırmışdır.

İnanıram ki, Sizin özünəməxsusluğu ilə seçilən yaradıcılığınızın timsalında Azərbaycan təsviri sənəti bundan sonra da dünya mədəniyyətində layiqincə təmsil olunacaqdır.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar arzu edirəm.

**İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *28 noyabr 2003-cü il*

**BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX ZAYİD BİN SULTAN AL NƏHƏYYANA**

Əlahəzrət!

Ölkənizin milli bayramı – Birləşmiş Ərəb Əmirlikləri dövlətinin yaradılması günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında yaranmış xoş münasibətlər xalqlarımızın iradəsindən qaynaqlanır. Əminəm ki, bu gün qarşılıqlı münasibətlərimiz üçün səciyyəvi olan dostluq və əməkdaşlıq mühitini birgə səylərimiz ilə bundan sonra da qoruyub saxlayacaq və inkişaf etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Birləşmiş Ərəb Əmirliklərinin dost və qardaş xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *28 noyabr 2003-cü il*

**LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB XAMTAY SİPHANDONA**

Hörmətli cənab Prezident!

Laos Xalq Demokratik Respublikasının milli bayramı – Respublika elan edilməsi günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Laos arasında təşəkkül tapmış əlaqələrin genişlənməsi dostluq və əməkdaşlıq münasibətlərimizin inkişafına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Laos xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *28 noyabr 2003-cü il*

## NARKOTİKLƏRƏ NƏZARƏT ÜZRƏ REGİONAL ƏMƏKDAŞLIĞA DAİR ANLAŞMA MEMORANDUMUNUN ÜZV TƏRƏFLƏRİNİN BEŞİNCİ GÖRÜŞÜNÜN İŞTİRAKÇILARINA

Hörmətli görüş iştirakçıları!

Narkotiklərə nəzarət üzrə regional əməkdaşlığa dair Anlaşma Memorandumunun üzv Tərəflərinin Beşinci görüşünün iştirakçılarını salamlayaraq ümidvar olduğumu bildirirəm ki, Bakı şəhərində keçirilən bu görüş narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə mühüm mərhələ olacaqdır.

Müasir inkişaf dövrü narkotiklərin qanunsuz dövriyyəsinin qloballaşması ilə səciyyələnir. Belə ki, dünyada geniş vüsət almış iqtisadi inteqrasiya, ticarət və nəqliyyat əlaqələrinin genişlənməsi prosesləri dünyanın bəzi regionlarında istehsal edilən narkotik vasitələrin digər ölkələrə yayılması ilə müşayiət olunur. Bu da öz növbəsində hər bir ölkənin sosial-iqtisadi inkişafına mənfi təsir göstərir. İnsanların həyat və sağlamlığına ciddi təhlükə yaradır, cinayətkarlığın, zorakılığın artmasına səbəb olur, insan cəmiyyətinin mənəvi dəyərlərinə böyük zərbə vurur.

Narkotik vasitələrin qanunsuz dövriyyəsinin bəşəriyyət üçün təhlükəliliyi milli, eləcə də beynəlxalq səviyyədə müvafiq nəzarət sisteminin tətbiq edilməsini zəruri edir.

Lakin dünyanın bəzi bölgələrində hələ də davam edən hərbi münaqişələr və onların nəticəsində formalaşmış işğalçı rejimlər hakimiyyət orqanlarının və beynəlxalq təşkilatların nəzarət edə bilmədiyi ərazilərdə narkotik bitkilərin əkilib-becərilməsinə, narkotiklərin istehsalına, onların qanunsuz dövriyyəsinə və digər cinayətkarlıq yuvalarının yaranmasına gətirib çıxarmış və bu fəaliyyətdən əldə edilən milyardlarla gəlir beynəlxalq terrorçuluğun maliyyələşdirilməsinə yönəldilir.

İşğalçı rejimlər beynəlxalq hüququn prinsip və normalarını,

demokratik dəyərləri və insan hüquqlarını kobudcasına pozaraq yalnız öz əhalisi üçün deyil, həm də beynəlxalq sülhə və əmin-amanlığa real təhlükə yaratmaqdadırlar. Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalı nəticəsində ölkəmizin Dağlıq Qarabağ bölgəsində yaradılmış terrorçu rejim buna əyani sübutdur.

Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni ümumdövlət vəzifəsi hesab edən Azərbaycan Respublikası beynəlxalq birliyin bütün səylərini dəstəkləyərək Birləşmiş Millətlər Təşkilatının müvafiq konvensiyalarına qoşulmuş, ölkəmizdə beynəlxalq standartlara uyğun normativ-hüquqi baza yaradılmışdır.

Bu mübarizədə cinayət hüququ xarakterli tədbirlərlə yanaşı, cəmiyyətimizdə sağlam sosial bünövrənin daha da möhkəmləndirilməsi istiqamətində zəruri kompleks tədbirlər həyata keçirilmişdir. Biz gələcəkdə də narkotiklərə qarşı qətiyyətli və güzəştsiz mübarizə aparacağıq.

Əminəm ki, narkotiklərə nəzarət üzrə regional əməkdaşlığa dair Anlaşma Memorandumunun üzv Tərəflərinin Beşinci görüşü narkomanlığa və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə öz dəyərli töhfəsini verəcək, beynəlxalq birliyin qəti iradəsini bir daha nümayiş etdirərək səylərimizi səfərbər edəcəkdir.

Məqsəd və məramlarınızın həyata keçirilməsində, ölkələrimiz arasında yaranmış qarşılıqlı əlaqələrin inkişafına yönəlmiş fəaliyyətinizdə Sizə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *2 dekabr 2003-cü il*

**TAİLANDIN KRALI**
**ƏLAHƏZRƏT BHUMİBOL ADULYADEYƏ**

Əlahəzrət!

Tailand Krallığının milli bayramı – Kralın təvəllüd günü münasibətilə Sizi və Sizin simanızda bütün Tailand xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan Respublikası ilə Tailand Krallığı arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Tailand xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *2 dekabr 2003-cü il*

**TAİLAND KRALLIĞININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB TAKSİN ŞİNAVATRAYA**

Hörmətli cənab Baş nazir!

Ölkənizin milli bayramı – Kralın təvəllüd günü münasibətilə Sizi və bütün Tailand xalqını ürəkdən təbrik edirəm. Ümidvaram ki, Azərbaycan–Tailand münasibətləri xalqlarımızın mənafeyinə uyğun olaraq, bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Tailand xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *2 dekabr 2003-cü il*

**FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM TARYA HALONENƏ**

Hörmətli xanım Prezident!

Finlandiya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün Finlandiya xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Finlandiya arasında yaranmış dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı üçün birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Finlandiya xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *2 dekabr 2003-cü il*

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ MÜDAFİƏ NAZİRİ DONALD RAMSFELDİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*3 dekabr 2003-cü il*

Hörmətli cənab nazir!

Hörmətli qonaqlar, mən sizi ürəkdən salamlayıram, Azərbaycana xoş gəlmisiniz.

Bu, son iki ildə sizin Azərbaycana ikinci səfərinizdir və bir daha göstərir ki, ölkələrimiz arasında mövcud olan münasibətlər çox yüksək səviyyədədir və inkişaf etməkdədir.

Həqiqətən, Amerika ilə Azərbaycan arasında münasibətlər bütün sahələrdə uğurla inkişaf edir. Siyasi müstəvidə, iqtisadi sahədə, energetika sektorunda olduğu kimi, hərbi sahədə də əməkdaşlığımız çox uğurludur.

2002-ci il sentyabrın 11-də Nyu-York şəhərində baş vermiş dəhşətli terror aktından sonra Azərbaycan dərhal və birmənalı şəkildə Amerikaya öz dəstəyini vermişdir. Bu dəstək davam edir, biz sizinlə bir koalisiyadayıq və bu koalisiyada qalacağıq. Əminəm ki, Amerika ilə Azərbaycan arasında hərbi sahədə mövcud olan əməkdaşlıq bundan sonra da inkişaf edəcəkdir.

Amerika Azərbaycan üçün dost ölkədir. Prezident Corc Buş mənə göndərdiyi məktubda qeyd etmişdir ki, Azərbaycan da Amerika üçün dost ölkədir. Biz buna çox böyük əhəmiyyət veririk. Birləşmiş Ştatlar ölkəmiz üçün strateji tərəfdaşdır. Bu siyasət 1993-cü ildən başlayaraq prezident Heydər Əliyev tərəfindən aparılır və bundan sonra da davam etdiriləcəkdir.

Hörmətli cənab nazir, bir daha sizi ürəkdən salamlayıram. Əmin olduğumu bildirmək istəyirəm ki, bu səfərdən sonra hərbi sahədə əlaqələrimiz daha da möhkəmlənəcəkdir.

**Donald Ramsfeld:** Cənab Prezident, çox sağ olun. Mən Sizi prezident seçilməyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Məndə olan məlumata görə, Sizin atanız hazırda Klivlenddə çox yaxşı müalicə olunur və özünü çox yaxşı hiss edir.

Çox şadam ki, ölkənizə ikinci dəfə səfər etmək və burada bir daha fikir mübadiləsi aparmaq imkanı əldə etmişəm. Biz, həqiqətən, Azərbaycanla mövcud olan strateji əməkdaşlığa böyük əhəmiyyət veririk. Artıq biz Brüsseldə Sizin nazirlə görüşlər keçirmişik. Azərbaycanın NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramında iştirakı ilə bağlı məsələnin müzakirəsində o da iştirak edirdi. Biz bu gün günorta da nazirlə görüş keçirdik və geniş fikir mübadiləsi apardıq. Sizin də dediyiniz kimi, biz hərbi sahədə əməkdaşlığın inkişaf etdirilməsi barədə danışıqlar apardıq. Bu əməkdaşlıq gündən-günə güclənir və genişlənir.

Bir daha Sizinlə görüşə imkan yaratdığınıza görə təşəkkürümü bildirmək istəyirəm.

## BMT BAŞ KATİBİNİN MÜAVİNİ VƏ BU TƏŞKİLATIN NARKOTİKLƏR VƏ CİNAYƏTKARLIQ ÜZRƏ İDARƏSİNİN İCRAÇI DİREKTORU ANTONİO MARİA KOSTA İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*4 dekabr 2003-cü il*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab BMT Baş katibinin müavini!

Hörmətli qonaqlar, sizi Azərbaycanda salamlayıram. Xoş gəlmisiniz.

Bakıda narkotiklərə qarşı mübarizə üzrə toplantı keçirilmişdir. Mənə verilən məlumata görə, bu toplantı çox uğurlu olmuşdur. Mühüm məsələlər müzakirə olunmuşdur və əminəm ki, bu müzakirələr gələcək fəaliyyətimizə kömək edəcəkdir.

Bildiyiniz kimi, Azərbaycanda narkotiklərin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə üçün xüsusi dövlət komissiyası təşkil olunmuşdur və milli proqram həyata keçirilir. Deyə bilərəm ki, son illər ərzində bu istiqamətdə böyük uğurlar qazanılmışdır. Narkomaniya ilə bağlı cinayətlərin sayı 1995-ci illə müqayisədə 25 faiz azalmışdır. Bu onu göstərir ki, Azərbaycanda bu istiqamətdə işlər yaxşı təşkil olunmuşdur.

Amma narkomaniya və narkotik vasitələrin qeyri-qanuni dövriyyəsi ilə, ümumiyyətlə, müxtəlif cinayətlərlə bağlı mübarizə o vaxt tam mənada uğurlu sayıla bilər ki, nəzarətdən kənar olan bütün zonalarda beynəlxalq monitorinq keçirilsin. Ermənistan tərəfindən Azərbaycana qarşı aparılan işğalçı siyasət nəticəsində torpaqlarımızın 20 faizi zəbt edilmiş ərazilərdə tamamilə beynəlxalq nəzarətdən kənar olan hadisələr baş verir. Bizdə olan məlumata görə, bu nəzarətsiz zonada

narkotik tərkibli bitkilər yetişdirilir və narkotik vasitələrin tranziti həyata keçirilir. Azərbaycan beynəlxalq təşkilatlarda dəfələrlə bu məsələ ilə bağlı öz mövqeyini bildirmişdir. Xüsusilə Avropa Şurasının iclaslarında bu məsələ kifayət qədər qaldırılmışdır və orada qəbul edilmiş sənədlərin bir çoxunda öz əksini tapmışdır. Bütün bunlara baxmayaraq, Ermənistanın qeyri-konstruktiv mövqeyi beynəlxalq auditə imkan yaratmır və o ərazidə tamamilə nəzarətsizlik hökm sürür. Ona görə də beynəlxalq monitorinq keçirilmir.

Bildiyimə görə, həmin məsələ bu günlərdə Bakıda keçirilmiş toplantıda da diqqət mərkəzində olmuşdur. Güman edirəm ki, siz bu məsələdə bizə kömək edəcəksiniz.

Bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan bundan sonra da narkomaniyaya və narkotiklərin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizəni davam etdirəcəkdir.

**A n t o n i o  M a r i a  K o s t a:** Cənab Prezident, bu gün Sizin tərəfinizdən qəbul olunmağımız məndən ötrü və həmkarlarım üçün, həqiqətən, böyük şərəfdir. Prezident seçilməyiniz münasibətilə Sizi təbrik etmək istəyirəm. Bu, həqiqətən, xalqın Sizə göstərdiyi böyük etimad, ümid və inamdır, eyni zamanda, Sizin də xalqınız qarşısında böyük məsuliyyətiniz deməkdir.

Məndə olan son məlumatlara görə, Sizin atanızın səhhətində müsbət dəyişikliklər vardır, o, sağalmağa doğru gedir. İstərdim ki, Sizin vasitənizlə ən xoş arzularımı və salamlarımı atanıza yetirim.

Cənab Prezident, yəqin ki, xatırlayırsınız, bir neçə ay bundan əvvəl, Siz hələ Baş nazir olarkən biz Yaltada görüşmüşdük. Bu görüşdə mənim söhbətlərimin əsas mövzusu Əfqanıstanla bağlı idi. Bunun səbəblərindən biri o idi ki, Yalta görüşündə Mərkəzi Asiya respublikalarının prezidentləri iştirak edirdilər və Rusiyanın dövlət başçısı Vladimir Putin də bu məsələ ilə dərindən maraqlanırdı.

Əsas məsələ – Qafqazda işimizi necə qurmaq barədə fikir mübadiləsi aparmaqdan əvvəl qonaqpərvərliyə görə Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Baş nazirin müavini

cənab Həsənov və Vyanadakı səfiriniz cənab Sadıqov bu işdə bizə yaxından kömək göstərmişlər. Azərbaycanın yüksək vəzifəli şəxsləri ilə bir sıra görüşlərimiz olmuşdur və onlar bizə öz fikirlərini bildirmişlər. Sizdən aldığımız məlumatlar bizə işimizi konstruktiv əsaslarda qurmağa imkan verir. Mənə həmişə narkotiklərlə, onların daşınması, cinayətkarlıqla, korrupsiya ilə bağlı müraciətlər daxil olur. Müraciət edənlər bizim məsləhətlərimizi, bir növ, həkim müayinəsi kimi qəbul edirlər. Deyə bilərəm ki, son zamanlar olduğum yerlərlə müqayisədə Azərbaycandakı vəziyyət qat-qat yaxşıdır. Bəli, həqiqətən, ölkə özünün çətin bir dövrünü yaşayır. Xüsusilə, müharibədən sonra terrorizmlə və ümumiyyətlə, cinayətkarlıqla bağlı problemlər mövcud idi.

Məmnunluq hissi ilə demək istəyirəm ki, ölkə artıq bu problemlərin öhdəsindən müvəffəqiyyətlə gəlmişdir. Azərbaycan terrora qarşı koalisiyaya qoşulmuşdur. Ölkənizin parlamentinin sədri mənə məlumat verdi ki, artıq bu sahədə BMT-nin bütün sənədlərinə imza atılıb və mühüm irəliləyişlər əldə olunmuşdur. Statistik məlumatlara görə müəyyən etmək olar ki, ölkəniz düzgün istiqamətlə irəliləyir. Həm narkotiklərin daşınması və istifadə olunması, həm də QİÇS xəstəliyinin yayılmasının qarşısının alınması baxımından sizdə göstəricilər çox qənaətbəxşdir. Bununla əlaqədar, mən bütün ölkənizi və ilk növbədə, Sizi təbrik etmək istəyirəm.

Siz işğal olunmuş ərazilərdən bəhs etdiniz. İstəyirəm ki, mən bu barədə bir neçə kəlmə danışım. Bildiyiniz kimi, mənim mandatım regional münaqişələri həll etməkdən ibarət deyildir. Amma bizim nöqteyi-nəzərimizcə, işğal olunmuş ərazilər, həqiqətən, təşviş doğurur və burada baş verən hadisələri dərindən öyrənməyə ehtiyac vardır. Ölkənin suverenliyi ilə bağlı məsələlər artıq Birləşmiş Millətlər Təşkilatının qətnamələrində öz əksini tapmışdır və münaqişənin həll olunması üçün müvafiq danışıqlar da aparılır. Lakin işğal olunmuş ərazilərdə kriminal hadisələrin çox olması, orada narkotiklərin daşınması, həqiqətən, bizdə narahatlıq doğurur.

Həmin ərazilərdə baş verə biləcək xoşagəlməz halların qarşısını almaqdan ötrü biz yalnız Azərbaycanın deyil, Ermənistanın da razılığını almaq istərdik ki, orada müvafiq baxış keçirək. Biz Afrika, Latın Amerikası ölkələrində əldə etdiyimiz təcrübəyə əsasən deyə bilərik ki, münaqişə olan yerlərdə nəzarət olunmayan ərazilər yaranır və burada mütəşəkkil cinayətkarlıq özünü çox rahat hiss edir.

İkinci mövzuya keçməzdən əvvəl mən ölkənizin neft sahəsində əldə etdiyi uğurlarla bağlı Sizi təbrik etmək istəyirəm. Bu inkişaf Sizə gələcəkdə Azərbaycanı firavan ölkəyə çevirmək imkanı verir. Əlbəttə ki, ölkə həm neft hasilatı və satışından böyük gəlir götürəcəkdir ki, bu da xalqınızın mənafeyinə xidmət edəcəkdir.

Toxunmaq istədiyim digər məsələ də vardır. Artıq təcrübədən bizə məlumdur ki, hər hansı bir ölkədə – Azərbaycan da istisna deyildir – müəyyən irəliləyişlər əldə olunmağa başladıqda, gözlənilməyən hadisələr baş verir. Ona görə də qazanılmış təcrübəyə əsaslanaraq biz həm Sizə, həm də hökumətinizə bu hadisələrin qarşısını almaq üçün qabaqlayıcı, preventiv tədbirlər təklif etmək istərdik.

İnanın ki, bizim təqdim edəcəyimiz tədbirlər daha sonra görüləcək tədbirlərdən ucuz başa gələcəkdir. Mən Əfqanıstanda olduğu kimi, yalnız narkotiklərlə əlaqədar tədbirləri deyil, eyni zamanda, geniş səpkidə olan məsələləri nəzərdə tuturam. Bu, ümumi cinayətkarlıq, ölkədə gedən sosial dəyişikliklərlə əlaqədar proseslər və digər məsələlərdən ibarətdir.

**İlham Əliyev:** Sağ olun. Mən bu təkliflə razıyam. Hesab edirəm ki, bu profilaktik tədbirlərin görülməsi istiqamətində biz birgə işləyəcəyik. Azərbaycan tərəfi öz üzərinə düşən vəzifələrin hamısını yerinə yetirəcəkdir. Şadam ki, Azərbaycanda cinayətkarlığa qarşı mübarizəyə verdiyiniz qiymət çox müsbətdir. Bu bir daha göstərir ki, ölkəmizdə son 10 ildə aparılan siyasət bu sahədə də öz müsbət nəticələrini vermişdir. Hər hansı bir cinayətkarlığa qarşı mübarizə bir-iki il ərzində nəticə verə bilməz. Bunun üçün uzunmüddətli mübarizə

aparılmalıdır. Azərbaycanda bu mübarizə aparılıb və bundan sonra da aparılacaqdır. Uğurlu mübarizənin əsas səbəblərindən biri, bəlkə də başlıcası, Azərbaycanda son 10 il ərzində ictimai-siyasi vəziyyətin sabit olması, asayişin qorunmasıdır. Cinayətkarlığa qarşı ancaq bu şəraitdə uğurla mübarizə aparmaq mümkündür.

Eyni zamanda, mən çox şadam ki, işğal altında olan bölgələrdə vəziyyətlə tanışsınız. Yenə də qeyd etmək istəyirəm ki, biz bütün beynəlxalq forumlarda dəfələrlə bu məsələni kəskin şəkildə qoymuşuq. Təəssüflər olsun ki, ilk növbədə, Ermənistanın qeyri-konstruktiv mövqeyi hələ ki, bu istiqamətdə əməli addımların atılmasına imkan vermir.

Əlbəttə, Dağlıq Qarabağ və onun ətrafındakı digər işğal olunmuş rayonlar Azərbaycan ərazisidir. Amma bu ərazi indi başqa ölkənin nəzarəti altındadır. Ona görə də hesab edirəm ki, beynəlxalq ictimaiyyətin, BMT-nin və digər beynəlxalq təşkilatların təzyiqi Ermənistanı vadar etməlidir ki, bu nəzarətsiz əraziyə beynəlxalq auditorlar, müşahidəçilər buraxılsın, orada lazımi monitorinq aparılsın. Çünki bu nəzarətsiz ərazi bütün bölgə üçün təhlükə yaradır. Bizdə olan məlumata görə, orada müxtəlif terror düşərgələri də yaradılmışdır və beynəlxalq terror təşkilatları orada təlim keçirirlər.

Artıq heç kim üçün sirr deyildir ki, 4–5 il əvvəl Ermənistan Rusiyadan qeyri-qanuni şəkildə bir milyard dollar dəyərində silah-sursat almışdır. Təbii ki, Ermənistanın büdcəsində bu qədər pul yoxdur. Bu o deməkdir ki, silaha verilən pullar qeyri-qanuni şəkildə qazanılıbdır. Bizdə olan məlumata görə, bu vəsait məhz narkotiklərin yetişdirilməsindən və daşınmasından əldə olunur və bu istiqamətə yönəldilir. Yəni bu o qədər ciddi məsələdir ki, bir cinayətin digər cinayətlərin təməlini qoymasına şərait yaradır. Ona görə də biz hökumət və dövlət olaraq bu sahədə mübarizəni davam etdirəcəyik. Əlbəttə, bu bəlaya birdəfəlik son qoymaq üçün beynəlxalq təşkilatların dəstəyi və birbaşa müdaxiləsi lazımdır.

## ATƏT-in MİNSK QRUPUNUN RUSİYADAN, AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINDAN VƏ FRANSADAN OLAN HƏMSƏDRLƏRİ YURİ MERZLYAKOV, RUDOLF PERİNA, ANRİ JAKOLƏN VƏ RUSİYA FEDERASİYASI XARİCİ İŞLƏR NAZİRİNİN BİRİNCİ MÜAVİNİ VYAÇESLAV TRUBNİKOV İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*5 dekabr 2003-cü il*

**İ l h a m Ə l i y e v:** Hörmətli qonaqlar!

Mən Sizi salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Azərbaycanda keçirilmiş prezident seçkilərindən sonra bu, Minsk qrupu həmsədrlərinin regiona ilk səfəridir. Ümidvaram ki, səfər zamanı biz geniş fikir mübadiləsi aparacağıq. Mən əvvəllər bu məsələnin həlli ilə bağlı prosesdə iştirak etməmişdim. Mənim başqa vəzifələrim var idi. Əlbəttə, bizim üçün həm keçmişə nəzər salmaq, həm də gələcək perspektivlər haqqında fikir mübadiləsi aparmaq faydalı olardı.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin uzun illər öz həllini tapmaması bizi çox narahat edir. Artıq bütün dünya ictimaiyyətinə məlumdur ki, Ermənistan ölkəmizə qarşı hərbi təcavüz etmiş və Azərbaycanın ərazilərinin 20 faizini işğal etmişdir. Bu işğalın nəticəsində bir milyondan artıq Azərbaycan vətəndaşı qaçqın və köçkün vəziyyətinə düşmüşdür.

İndi haqlı olaraq insan hüquqları barədə çox danışılır. Amma onu da nəzərə almalıyıq ki, bir milyondan artıq insanın elementar hüquqları kobud surətdə tapdalanmışdır. Ermənistan və Azərbaycan həm MDB-nin, həm də Avropa Şurasının üzvüdür. XXI əsrdə Avropada bir ölkənin digər ölkənin

ərazisini işğal altında saxlaması dözülməzdir və buna tezliklə son qoyulmalıdır.

Biz artıq 10 ilə yaxındır ki, atəşkəs rejimində yaşayırıq. Bu, özlüyündə müsbət bir haldır. Xüsusilə nəzərə alsaq ki, atəşkəsə beynəlxalq sülhməramlı qüvvələrin iştirakı olmadan əməl edilir, bu daha çox təqdirəlayiqdir. Amma eyni zamanda, ötən on illədək müddət onu göstərir ki, münaqişə çox çətin bir mərhələyə qədəm qoymuşdur. Bu bir də onu göstərir ki, bu illər ərzində ATƏT-in Minsk qrupunun fəaliyyəti uğursuz olub, heç bir nəticə verməyibdir.

Mən indi bunun səbəbləri üzərində geniş dayanmaq istəmirəm. Çünki bu səbəblər bizim hamımıza məlumdur. Amma təəssüflər olsun ki, bu beynəlxalq mexanizm işləmir və bu bir faktdır. İlk görüşümüzdə mən Minsk qrupunu ittiham etmək fikrində deyiləm. Hamıya bəllidir ki, münaqişənin həllinin bu qədər uzanması, ilk növbədə, Ermənistanın qeyri-konstruktiv mövqeyinin nəticəsidir. Ümidvaram ki, beynəlxalq ictimaiyyət, nəhayət ki, Ermənistana öz təsirini göstərəcək və bu təsirin nəticəsində haqq-ədalət bərpa olunacaqdır, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək və bir milyon qaçqın-köçkün öz doğma torpaqlarına qayıdacaqdır.

Yəqin onu da bilirsiniz ki, bizim cəmiyyətimizdə də Minsk qrupunun fəaliyyətinə ümidlər azalır və belə bir rəy yaranır ki, indiyədək bu qrupun fəaliyyətinin uğursuz olması onun işinin bundan sonra da uğursuzluqla nəticələnəcəyinə dəlalət edir. Mən belə fikirləşmək istəmirəm və inanmaq istəyirəm ki, Minsk qrupunun gələcək fəaliyyəti münaqişənin həllinə və ədalətli, beynəlxalq hüquq normalarına uyğun şəkildə sülh müqaviləsinə nail olmağa şərait yaradacaqdır. Eyni zamanda, biz bilirik ki, münaqişənin həllində Minsk qrupundan başqa vasitəçiliklə məşğul olan digər qurum yoxdur. Ona görə mən Minsk qrupu ilə əməkdaşlıq etməyə hazıram, bu əməkdaşlığa inanıram. Habelə inanmaq istərdim ki, bu əməkdaşlığın nəticəsində biz istədiyimizə nail ola biləcəyik.

**Vyaçeslav Trubnikov:** Hörmətli cənab Prezi-

dent!

Hər şeydən əvvəl, icazə verin seçkilərdə inamlı qələbəniz münasibətilə Sizi Minsk qrupunun həmsədrləri adından təbrik edim. Mən habelə Sizə belə tez müddətdə – prezident vəzifəsinin icrasına başladığınızdan bir ay sonra Minsk qrupu həmsədrlərini qəbul etdiyinizə görə təşəkkürümü bildirirəm.

Biz bu səfərə çox böyük əhəmiyyət veririk. Bu, Azərbaycanın yeni prezidenti ilə ilk görüşümüz və bir ildən çox fasilədən sonra bizim regiona ilk səfərimizdir. Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə Sizinlə sıx və səmərəli əməkdaşlıq edəcəyimizə ümid bəsləyirik. Biz problemin əhəmiyyətini və münaqişənin nəticələrini, xüsusilə Ermənistan tərəfindən Azərbaycanın torpaqlarının bir hissəsinin işğal edilməsini, yüz minlərlə qaçqın və məcburi köçkün olduğunu və bununla əlaqədar Azərbaycan cəmiyyətində olan əhval-ruhiyyəni çox aydın başa düşürük. Biz habelə Sizin atanız Heydər Əliyevin münaqişənin sülh yoluna üstünlük verdiyini çox yüksək qiymətləndiririk. Bu, münaqişənin ədalətli və hər iki tərəfi qane edən həlli üçün yeganə düzgün yoldur. Münaqişənin güc yolu ilə həllinə yönəldilmiş hər hansı bir cəhd yalnız problemi dərinləşdirə bilər. Bununla əlaqədar atanızın siyasətini davam etdirəcəyiniz barədə, o cümlədən Dağlıq Qarabağ problemi ilə əlaqədar Sizin dəfələrlə söylədiyiniz sözlər bizdə ümid yaradır.

Əgər bugünkü vəziyyətə qiymət versək, etiraf etməliyik ki, münaqişənin həlli 2001-ci ildən sonra nəzərəçarpacaq dərəcədə çətinləşmişdir. Bir il əvvəl isə bu proses, ümumiyyətlə, dayanmışdır. Bunun həm obyektiv, həm də subyektiv səbəbləri vardır. Zənnimcə, tərəflərin danışıqları davam etdirmək, məsuliyyətli, dinamik, təşəbbüskar fəaliyyəti üçün əlverişli şərait yaranmışdır. Əvvəlki danışıqlarda əldə olunmuş təcrübəyə də əsaslanmaq lazımdır. Bizim fikrimizcə, bu danışıqlarda bir çox müsbət cəhətlər də olmuşdur.

Minsk qrupu həmsədrlərinin problemin həlli üzrə münaqişə tərəflərini qane edə biləcək yeni və hazır təkliflər verəcəyini gözləmək düzgün olmazdı. Biz münaqişə tərəflərinə yalnız

kompromis əldə etmək üçün kömək edə bilərik. Münaqişənin həlli yollarını, bizim fikrimizcə, tərəflər özləri tapmalıdır.

Ona görə də bilmək istəyirik ki, Siz bu kompromisin əsaslarını və münaqişənin mümkün həlli yollarını necə görürsünüz? Azərbaycan hamının səbirsizliklə gözlədiyi danışıqlara hansı mövqedən gedəcək? Təbiidir ki, prezident Köçəryanla danışıqlara hazır olmağınız barədə Sizin mövqeyinizi öyrənmək istərdik. Əgər bu, baş verəcəksə, biz danışıqların vaxtını da bilmək istərdik. Bununla əlaqədar Sizinlə öz təklif və mülahizələrimizi bölüşmək istərdik. Bizə elə gəlir ki, Sizin Köçəryanla görüşünüz danışıqların davam etdirilməsi prosesinə təkan verə bilər və bizim bu sahədə səylərimizi artırmağımız üçün şərait yaradar. Biz Minsk qrupu tərəfindən qarşımıza qoyulmuş vəzifələrin yerinə yetirilməsinə çalışacağıq. Ona görə də səylərimizi artırmaq niyyətindəyik.

Sizin bizimlə gələcəkdə sıx əməkdaşlıq etmək haqqında bugünkü bəyanatınız bizi çox sevindirir, danışıqlar prosesinə təkanın real nəticələr verəcəyinə ümid yaradır. Bu nəticələr Azərbaycanın, ərazinizdə olan qaçqın və köçkünlərin xeyrinə olardı. Hesab edirik ki, regiona bu səfərimiz bizim daha fəal və intensiv fəaliyyət göstərməyimiz üçün yeni imkanlar yaradacaqdır. Biz həm üçlük formatında fəaliyyət göstərmişik, həm də cənab Heydər Əliyev ilə Ermənistan prezidenti arasında keçirilmiş görüşlərdə iştirak etmişik. Biz bu fəaliyyətimizi gələcəkdə də davam etdirmək istərdik.

Həmçinin arzu edirik ki, bizim Praqa prosesi adlandırdığımız mexanizm də bu və ya digər formada – prezidentlər arasında danışıqların və onların əməli fəaliyyətinin fasiləsi zamanı davam etdirilsin və bu mexanizm daha səmərəli olsun. Hesab edirik ki, Siz və Ermənistanın prezidenti yeni və müasir nəslin nümayəndələri kimi, yeni ideyalarla çıxış edə bilərsiniz.

Bu bizim üçün çox vacibdir. Biz gələcəkdə konkret fəaliyyət göstərmək üçün Ermənistan prezidentinə Sizin tərəfinizdən müəyyən istiqamətləri çatdırmaq istəyirik.

Mən verilmiş vaxtdan çox danışmaq istəmirəm. Yəqin ki,

həmkarlarım mənim sözlərimə əlavələr edəcək və öz fikirlərini bildirəcəklər.

**Rudolf Perina:** Cənab Prezident!

Mən bir neçə kəlmə demək istəyirəm. Bu gün səhər biz Bakıda məskunlaşmış məcburi köçkünlərlə görüşdük, söhbət etdik. Biz onların nə qədər dərin hisslər keçirdiyini və çətin yaşayış şəraitini gördük. Bu bizi çox kədərləndirdi. Mən demək istəyirəm ki, bizim təmsil etdiyimiz ölkələr və beynəlxalq ictimaiyyət bu münaqişənin davam etməsi ilə əlaqədar və heç bir iş görə bilmədiyimizlə bağlı xəcalət hissləri keçirir.

Son on il ərzində münaqişənin həllində tərəqqi əldə edə bilməmişik. Biz regionda uzunmüddətli və ədalətli sülhün bərqərar olmasını arzulayırıq. Bilirik ki, bu il münaqişənin həllində çox çətin bir il olmuşdur. Güman edirik ki, qarşıdakı ildə bu sahədə yeni və çox mühüm imkanlar yaranır. Hər iki tərəfin bu imkandan istifadə etməsi vacibdir. Biz Sizinlə görüşümüzü çox yüksək qiymətləndiririk və arzu edirik ki, bu görüş münaqişənin həllində çox mühüm və ilk addım olsun. Sizin fikirlərinizi eşitmək istəyirik. Bilmək istəyirik ki, Siz məsələyə necə yanaşırsınız. Bir daha minnətdarıq ki, prezidentliyinizin ilk dövründə bizi qəbul edirsiniz.

**Anri Jakolən:** Mənim üçün danışmaq çətindir, çünki cənab Trubnikov bütün məsələlər haqqında geniş fikir söylədi.

Mən məcburi köçkünlərlə keçirdiyimiz görüşdə onların münaqişənin həlli ilə bağlı narazılıqları haqqında danışmaq istəyirəm. Son dəfə məcburi köçkünlərlə Sumqayıtda görüşmüşdüm və onların öz doğma torpaqlarına qayıtmaq istəklərini eşitdim. Onların bu arzularını tam anlayıram. Cənab Prezident, zənnimcə, münaqişənin həlli üçün əlverişli şərait yaranmaqdadır. Yenicə seçilmiş iki prezident var. Bəlkə də münaqişə başlayandan ilk dəfədir ki, qarşımızda belə perspektiv yaranır. Biz – üç həmsədr ümid edirik ki, Azərbaycanın yeni seçilmiş prezidenti ilə sıx əməkdaşlıq şəraitində problemin həllinə və möhkəm sülh əldə edilməsinə nail olacağıq. Mənim ölkəmin prezidenti, lazım gələrsə, bu münaqişənin həlli üçün öz

köməyini göstərmək əzmindədir.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı haldır ki, siz bu gün qaçqınlar və məcburi köçkünlərlə görüşmüsünüz və onların vəziyyəti ilə yaxından tanış olmusunuz. Biz hökumət və dövlət olaraq əlimizdən gələni etməyə çalışırıq ki, onların həyat səviyyəsini yaxşılaşdıraq. Amma bilirsiniz ki, bu çox çətin məsələdir. Buna baxmayaraq, Azərbaycan dövləti məhdud maliyyə imkanlarından istifadə edərək qaçqınlar və məcburi köçkünlər üçün yeni qəsəbələr və şəhərciklər salır və bu proses davam edəcəkdir. Müəyyən müddətdən sonra Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmayacaqdır. Eyni zamanda, Bakıda və Sumqayıtda, digər şəhərlərdə yerləşən qaçqınlara da kömək göstəriləcəkdir. Onların yaşadığı yataqxanalar, müvəqqəti yaşadıqları evlər təmir olunacaqdır. Bir sözlə, onların sosial problemlərinə böyük diqqət yetiriləcək və əminəm ki, tezliklə hamı bunu hiss edəcəkdir.

Amma bu, məsələnin yalnız bir hissəsidir. Əsas məsələ ondadır ki, onlar öz doğma torpaqlarına qayıtsınlar və işğala son qoyulsun, işğalçı qüvvələr zəbt etdikləri torpaqları azad etsinlər. Hesab edirəm ki, Azərbaycanın tələbi çox ədalətli tələbdir. Biz heç kimin torpağını işğal etməmişik, heç kimin ərazi bütövlüyünü pozmamışıq. Əksinə, bizim torpaqlarımız işğal altındadır, ərazi bütövlüyümüz pozulmuşdur. Biz sadəcə olaraq, öz ərazimizdə beynəlxalq hüquq normalarına əməl olunmasına çalışırıq. Biz bundan sonra da bu istiqamətdə əməkdaşlığımızı davam etdirməliyik. Ümidvaram ki, Minsk qrupunun fəaliyyəti öz nəticələrini verəcəkdir. Siz düzgün qeyd etdiniz ki, bir müddət bu prosesdə fasilə yaranmışdır. Amma hesab edirəm ki, indiki mərhələdə bu proses intensivləşməlidir və beləliklə, yaxın gələcəkdə biz yeni vəziyyət haqqında düşünməliyik.

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Yessentuki şəhəri yaxınlığında elektrik qatarında baş vermiş partlayış nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni ürəkdən kədərləndirdi.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *5 dekabr 2003-cü il*

**KENİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MVAİ KİBAKİYƏ**

Hörmətli cənab Prezident!

Keniya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün Keniya xalqını ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Keniya münasibətləri xalqlarımızın mənafeyi naminə daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Keniya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *5 dekabr 2003-cü il*

# “TÜRKİYƏ–AZƏRBAYCAN ƏLAQƏLƏRİ XXI ƏSRDƏ” FORUMUNUN İŞTİRAKÇILARINA

Hörmətli forum iştirakçıları!

Sizi – Türkiyə–Azərbaycan əlaqələrinin inkişafına dəstək vermək məqsədilə Ankara şəhərində toplaşmış bütün nümayəndələri ürəkdən salamlayır, forumun işinə uğurlar diləyirəm.

Forumun iki qitəni birləşdirən, regionda və dünyada böyük nüfuzu, iqtisadi, siyasi və mədəni potensialı ilə seçilən Türkiyədə keçirilməsinin əhəmiyyətini xüsusi vurğulamaq istəyirəm.

Azərbaycanda Türkiyə dövlətinə, onun vətənpərvər, qəhrəman və zəhmətsevər xalqına həmişə yüksək məhəbbət bəslənmiş, onunla əlaqələrə xüsusi diqqət göstərilmişdir. Türkiyədə də böyük Atatürkdən başlanan Azərbaycan sevgisi ilbəil yüksəlmiş və bu gün real məzmun kəsb edərək praktiki işə çevrilmiş, xalqlarımız və dövlətlərimiz arasında möhkəm və qırılmaz qardaşlıq körpüsü salınmışdır. Keçən on ildə həm Türkiyə, həm də Azərbaycanın dövlət rəhbərləri qarşılıqlı əlaqələrimizi gücləndirmək, xalqlarımızın daha da yaxınlaşmasını, qardaşlaşmasını təmin etmək üçün əllərindən gələni etmişlər. Sevindirici haldır ki, indi bu işlərə dövlət adamları, rəsmi strukturlarla yanaşı, həm də hər iki ölkənin ictimaiyyət nümayəndələri, qabaqcıl iş və düşüncə adamları, sadə vətəndaşlar da qoşulmuşdur.

Azərbaycan dövləti, başda xalqımızın lideri Heydər Əliyev olmaqla, ölkəmizin iqtisadi inkişafını, Qərbə inteqrasiyasını, Xəzər dənizinin zəngin karbohidrogen ehtiyatlarının mənimsənilməsi və dünya bazarlarına çıxarılmasını, Bakı–Ceyhan neft və Bakı–Ərzurum qaz kəmərlərinin reallaşdırılmasını, böyük "İpək yolu" adlandırılan Avropa–Asiya nəqliyyat-kommunikasiya dəhlizinin bərpası və işə salınmasını,

regionda geniş enerji mübadiləsi yaradılmasını və sair böyük layihələri bütün çətinliklərə və maneçiliklərə baxmayaraq, Türkiyə ilə bağlamış və onun iştirakı ilə reallaşdırmışdır.

Bundan başqa, Azərbaycanda bütün böyük layihələrin həyata keçirilməsinə, tikinti, nəqliyyat, xidmət müəssisələrinin inşasına Türkiyənin iş adamları cəlb edilmiş, onların fəaliyyəti üçün hərtərəfli şərait yaradılmışdır.

Biz bundan sonra da Azərbaycanın bütün imkanlarından qardaş Türkiyə dövlətinin və türk xalqının iqtisadi inkişafının, sosial rifahının və firavan həyatının təmin olunması üçün istifadə edilməsi əzmindəyik. Hesab edirəm ki, Türkiyə dövləti və xalqı da indiyə qədər olduğu kimi, Azərbaycanın mövcud problemlərinin həllinə, xüsusən onun pozulmuş ərazi bütövlüyünün və təhlükəsizliyinin təmin olunmasına öz yardımını davam etdirəcəkdir. İnanıram ki, iki qardaş ölkə arasındakı əlaqələr yenicə qədəm qoyduğumuz XXI əsrdə daha geniş vüsət alacaqdır.

Türkiyənin mühüm dövlət adamlarının, millət vəkillərinin, məşhur elm, mədəniyyət xadimləri və ziyalılarının, qabaqcıl iş adamlarının qatıldığı bugünkü forum da xalqlarımız və dövlətlərimizin dostluq və qardaşlıq əlaqələrinin inkişafına öz müsbət təsirini göstərəcəkdir. Əmin olduğumu bildirirəm ki, toplantıda ölkələrimiz arasında mövcud olan iqtisadi, siyasi və mədəni əlaqələr hərtərəfli araşdırılacaq, bütün sahələrdə əməkdaşlığın daha da inkişafı üçün mühüm təkliflər səslənəcəkdir.

Bir daha forum iştirakçılarına Azərbaycan xalqının və hökumətinin salamlarını çatdırır, toplantının işinə müvəffəqiyyətlər arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *8 dekabr 2003-cü il*

## AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ AZƏRBAYCANDA "SİYASİ MƏHBUSLAR" MƏSƏLƏSİ ÜZRƏ MƏRUZƏÇİSİ MALKOLM BRYUS, HÜQUQ MƏSƏLƏLƏRİ VƏ İNSAN HÜQUQLARI KOMİTƏSİ KATİBİNİN MÜAVİNİ DEVİD KUPİNA İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*8 dekabr 2003-cü il*

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab Bryus!

Hörmətli cənab Devid!

Mən Sizi salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Üç ilə yaxındır ki, Azərbaycan Avropa Şurasının üzvüdür. Həmin müddətdə bu təşkilatla ölkəmiz arasında çox uğurlu əməkdaşlıq olmuşdur. Ümidvaram ki, bu əməkdaşlıq gələcəkdə də davam edəcəkdir.

Ötən bu müddət ərzində Azərbaycanda Avropa Şurasının tövsiyələri ilə çoxlu yeni qanunlar qəbul edilmişdir. Bu qanunlar işləyir və ölkəmizin daha da demokratikləşməsində böyük rol oynayır. Çox sevindirici haldır ki, Avropa Şurası qəbul etdiyi rəsmi sənədlərdə Ermənistanı işğalçı dövlət kimi tanımış və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə xüsusi məruzəçi təyin etmişdir. Ümidvaram ki, bu məruzəçi yaxın vaxtlarda bölgəyə səfər edəcək və obyektiv məruzə hazırlayacaqdır.

Azərbaycan Avropa Şurası qarşısında müəyyən öhdəliklər götürmüşdür və deyə bilərəm ki, onların hamısı vaxtında yerinə yetirilir. Bilirəm ki, qarşıdakı sessiyada bu öhdəliklərlə bağlı məsələyə baxılacaqdır. İnanıram ki, bizim parlamentimiz – Milli Məclis o vaxtadək qalan məsələlərə də baxaraq, müvafiq

qanunlar qəbul edəcəkdir. Biz bu öhdəliklərə çox ciddi yanaşırıq və ümidvaram ki, üzərimizə götürdüyümüz öhdəliklər bundan sonra da yerinə yetiriləcəkdir.

Sizin vəzifəniz başqa məsələlərlə bağlıdır. Əlbəttə, Avropa Şurasında bu məsələlərlə də bağlı müzakirələr aparılıbdır. Bu barədə bizim mövqeyimiz də sizə bəllidir. Vəzifəniz çox çətindir, çünki dünya praktikasında, əfsuslar olsun ki, siyasi məhbus anlayışı barədə ümumi meyar yoxdur. Bu həm ekspertlərin, həm də bu məsələ ilə məşğul olan digər şəxslərin işini çətinləşdirir. Əvvəllər bu məsələ ilə bağlı bizim çoxlu söhbətlərimiz olubdur. Güman edirəm ki, bizim nümayəndə heyətimiz, digər məsul şəxslərimiz səfər zamanı sizinlə bu məsələni müzakirə edəcəklər və məsələ tezliklə öz həllini tapacaqdır.

**M a l k o l m B r y u s:** Hörmətli cənab Prezident, vaxt ayırıb bizi qəbul etdiyiniz üçün Sizə təşəkkürümüzü bildiririk. Gəlişimizin məqsədi burada konstruktiv iş aparmaqdır. Sizə məlum olduğu kimi, mən son 4 il müddətində Avropa Şurasında çalışmışam. Siz də Avropa Şurası Parlament Assambleyası sədrinin müavini vəzifəsində olmusunuz.

Mən prezident seçkilərində parlaq qələbəniz münasibətilə Sizi təbrik edirəm. Biz yeni prezident kimi, Sizdən konstruktiv dialoq gözləyirik. Mən bir sıra detallar haqqında Sizinlə söhbət etmək istəyirəm. Elə bu niyyətlə də ölkənizə səfərə gəlmişik.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Mən də konstruktiv dialoqun tərəfdarıyam. Deyə bilərəm ki, Azərbaycan daim bu dialoqa hazır olub və əslində o aparılıbdır. Azərbaycan prezidenti Heydər Əliyevin fərmanları ilə yüzlərlə insan əfv olunub, bu məsələlərə həmişə müsbət baxılıbdır. Düzdür, müəyyən mərhələlərdə problemlər olmuşdur. Lakin ümumilikdə, işlər müsbət istiqamətdə aparılmışdır. Əminəm ki, bundan sonra da biz bu dialoqu davam etdirəcəyik və məsələlər öz həllini tapacaqdır.

## İNFORMASİYA CƏMİYYƏTİ ÜZRƏ DÜNYA SAMMİTİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN İSVEÇRƏNİN CENEVRƏ ŞƏHƏRİNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*9 dekabr 2003-cü il*

**S u a l: Cənab Prezident, ilk dəfədir ki, belə bir sammit keçirilir. Bu sammitin məramı, mahiyyəti barədə nə demək olar? Cenevrədə ikitərəfli görüşlər nəzərdə tutmusunuzmu?**

**C a v a b:** Sammitdə yeni informasiya texnologiyaları müzakirə olunacaqdır. Bilirsiniz ki, bu, gələcək üçün çox vacib bir sahədir. Azərbaycan da bu istiqamətdə inkişaf edir, ölkəmizdə yeni texnologiyalar tətbiq olunur, irimiqyaslı beynəlxalq layihələr həyata keçirilir, onlar da öz növbəsində, yeni texnologiyaların tətbiq olunmasını tələb edir. Bu baxımdan, ümumiyyətlə, dünyanın gələcək inkişafı üçün sammit böyük əhəmiyyət kəsb edir.

İkitərəfli görüşlər də gözlənilir, onlar da keçiriləcəkdir. Yəni çalışacağam ki, bu sammitdən səmərəli istifadə edim.

**S u a l: Cənab Prezident, Azərbaycanın Cənubi Qafqaz və Orta Asiya regionunda liderliyi əldə saxlaması üçün görülən işlər prezident kimi Sizi qane edirmi?**

**C a v a b:** Mən hesab edirəm ki, Azərbaycan liderliyi saxlayacaqdır. Uzun illərdir ki, Azərbaycan regionda çox önəmli rol oynayır. Azərbaycan regionda aparıcı bir dövlətdir, öz mövqeyini möhkəmləndirir. Bütün irimiqyaslı beynəlxalq və regional layihələrdə də Azərbaycan aparıcı rol oynayır. Azərbaycanın rolu olmadan heç bir layihə həyata keçirilmir. Energetika sektorunda, eyni zamanda, nəqliyyat sektorunda da, gələcəkdə «Şimal–Cənub» nəqliyyat dəhlizində də Azərbaycan

önəmli rol oynayacaqdır. Əlbəttə, Azərbaycan çalışacaqdır ki, yeni informasiya texnologiyaları sahəsində də öz mövqelərini möhkəmləndirsin. Bu, gələcək üçün lazımdır. Yeni nəsil üçün lazımdır. Azərbaycan əhalisinin böyük əksəriyyəti gənc insanlardan ibarətdir. Ölkəmiz müasirləşəcək, yeniləşəcək, yeni mərhələyə qədəm qoyacaqdır.

* * *

*Həmin gün Azərbaycan prezidenti İlham Əliyev Cenevrə hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

*İlham Əliyev günün ikinci yarısında Cenevrənin Palekspo sarayına gəldi. Burada zirvə görüşündə iştirak edən dövlət və hökumət başçıları, habelə BMT-nin strukturlarının rəhbərləri üçün İsveçrə konfederasiyası və Cenevrə kantonu tərəfindən qeyri-rəsmi qəbul təşkil olundu. Prezident İlham Əliyev qəbulda iştirak etdi.*

## CENEVRƏ ZİRVƏ GÖRÜŞÜNÜN KEÇİRİLƏCƏYİ PALEKSPO SARAYINDA BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ BAŞ KATİBİ KOFİ ANNAN İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*9 dekabr 2003-cü il*

**K o f i   A n n a n:** Cənab Prezident, xoş gəlmisiniz. Mən Sizi Azərbaycanın dövlət başçısı seçilməyiniz münasibətilə ürəkdən təbrik edir, bu məsuliyyətli vəzifədə Sizə uğurlar diləyirəm.

**İ l h a m   Ə l i y e v:** Sağ olun, təşəkkür edirəm. Bir daha nəzərinizə çatdırmaq istəyirəm ki, ölkəmizdə keçid dövrünün öz problemləri olsa da, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məni ən çox düşündürən məsələdir, Azərbaycanın ən ağrılı problemidir.

**K o f i   A n n a n:** Bu münaqişənin hərbi yolla həlli regionda qeyri-sabitliyi gücləndirə bilər, ona görə də problemin sülh yolu ilə aradan qaldırılması məqsədəuyğundur.

**İ l h a m   Ə l i y e v:** Münaqişənin həllində vasitəçilik edən ATƏT-in Minsk qrupunun fəaliyyətinin heç bir nəticə vermədiyini təəssüflə xatırlayaraq bildirirəm ki, BMT, digər beynəlxalq təşkilatlar münaqişəyə son qoyulması ilə bağlı qəti sözlərini deməlidir.

Bir də, cənab Baş katib, donorların respublikamızdakı qaçqınlara və məcburi köçkünlərə humanitar yardımı azaltmasından narahatlığımı da söyləyirəm. Eyni zamanda Azərbaycan hökuməti qaçqınların və məcburi köçkünlərin ehtiyacları üçün Neft Fondundan 70 milyon dollardan artıq vəsait ayırmışdır. Bununla belə, beynəlxalq təşkilatların yardımına böyük ehtiyac var. Neft Fondunun fəaliyyəti barədə müəyyən məlumatınız vardır.

**K o f i   A n n a n:** Azərbaycanda yaradılmış Neft Fondunun

fəaliyyətini yüksək qiymətləndirirəm, eyni zamanda neft hasil edən ölkələrin təcrübəsini öyrənməyin də zəruri olduğunu söyləmək istəyirəm.

**İ l h a m Ə l i y e v:** Ölkəmizdə Neft Fondu yaradılarkən Norveç modeli nümunə kimi götürülmüşdür. Azərbaycanın Neft Fondu şəffaf bir qurumdur və beynəlxalq maliyyə təşkilatları da onun fəaliyyətinə yüksək qiymət vermişlər.

**K o f i A n n a n:** Mən söz verirəm ki, Azərbaycanda qaçqınlara və məcburi köçkünlərə yardımların artırılması üçün donorlarla müvafiq iş aparacağam. Eyni zamanda ümidvar olduğumu bildirirəm ki, Dağlıq Qarabağ problemi tezliklə sülh yolu ilə həll ediləcəkdir.

Mən son dövrdə dünyada terror aktlarının artmasından narahatlığımı bildirmək istəyirəm. Azərbaycanın da antiterror koalisiyasında iştirakını yüksək qiymətləndirirəm. Ölkənizdə təsisatların yaradılması və təkmilləşdirilməsinin zəruriliyini vurğulayır və bildirirəm ki, BMT bu yöndə Azərbaycana hər cür yardım göstərəcəkdir.

Azərbaycanda yoxsulluğun azaldılması ilə bağlı dövlət proqramının qəbul edilməsindən məmnunluğumu söyləyir, bu sahədə də ölkənizə köməyi əsirgəməyəcəyimi bildirirəm.

**İ l h a m Ə l i y e v:** Respublikamızda işsizliyin aradan qaldırılmasının, yoxsulluğun azaldılmasının dövlət başçısı kimi, özümün ən əsas vəzifələrindən biri olduğunu vurğulayır və Sizi əmin edirəm ki, ölkəmiz təsisatların yaradılması və təkmilləşdirilməsi sahəsində beynəlxalq birliklə əməkdaşlığı davam etdirəcəkdir.

**K o f i A n n a n:** Mənim salamlarımı və xoş arzularımı Heydər Əliyev cənablarına çatdırmağınızı Sizdən xahiş edirəm.

## İNFORMASİYA CƏMİYYƏTİ ÜZRƏ DÜNYA SAMMİTİNİN AÇILIŞINDA NİTQ

*Cenevrə,*
*Palekspo sarayı*

*10 dekabr 2003-cü il*

Əziz cənab Sədr!

Əziz sammit iştirakçıları, forumun nümayəndələri, qonaqlar!

Xanımlar və cənablar!

Son on il müddətində kommunikasiya texnologiyaları bizim gündəlik həyatımızın tərkib hissəsinə çevrilmişdir. Artıq bugünkü gündə gündəlik həyatımızı İnternetsiz, e-mail-siz və qlobal rabitənin imkanları olmadan təsəvvür etmək mümkün deyildir.

Bu gün biz yeni informasiya cəmiyyəti haqqında söhbət edirik. Bu gün biz yeni informasiya idarəçiliyi haqqında söhbət edirik.

Mən əminəm ki, bugünkü sammitin qərarları xüsusilə gənc nəsil üçün çox əhəmiyyətli olacaqdır. Çünki əslində gənc nəsil yeni informasiya cəmiyyətini yaradan nəsildir. Hesab edirəm ki, bu sammitin sənədlərinin Azərbaycan üçün xüsusi əhəmiyyəti vardır. Çünki bizim ölkənin əhalisinin 70 faizinin yaşı 35 yaşdan aşağıdır. Azərbaycanın gənc nəsli fəal surətdə informasiya və kompüter texnologiyaları layihələrini həyata keçirməkdədir. Bu işdə bizə BMT-nin İnkişaf Proqramı yaxından yardım edir.

İstərdim ki, bu yardıma görə BMT-yə və digər beynəlxalq təşkilatlara Azərbaycan dövləti adından minnətdarlığımı bildirim və bir daha kompüter işinin Azərbaycanda inkişaf etdirilməsinə sadiq olacağımızı bildirim. Hazırda biz dövlət

proqramı kimi «İ – Azərbaycan» («Elektron Azərbaycanı) proqramını inkişaf etdiririk. Elə bilirəm ki, bu, iqtisadiyyatın idarəçiliyində bizə yaxından kömək edəcəkdir.

Azərbaycanda son 10 il müddətində bərqərar olmuş iqtisadi və siyasi sabitlik bu cür inkişafın sürətlə aparılmasına tam əsas verir. Biz ölkəmizdə iqtisadi, sosial və siyasi islahatlara əsas yer ayırmışıq. Bizim iqtisadiyyatımız və cəmiyyətimiz Dünya Birliyinə inteqrasiyanı özünün ən başlıca prioriteti kimi görür. Cəmiyyətimiz demokratiyaya doğru irəliləməkdədir, ölkəmizdə iqtisadi artım hiss olunur. Son 6 ildə Azərbaycanda ümumi daxili məhsulun illik artımı 10 faiz təşkil etmişdir. Azərbaycanda ümumi daxili məhsulun 70 faizdən artığı özəl sektorun payına düşür. Azərbaycan keçmiş sovet ölkələri içərisində də, Mərkəzi Avropa ölkələri içərisində də adambaşına düşən xarici sərmayələrin payına görə aparıcı mövqedədir.

Bu gün Azərbaycanda nəhəng enerji layihələri yerinə yetirilməkdədir. Azərbaycanın neft və qaz sənayesinin inkişafı üçün on milyardlarla ABŞ dolları ayrılmışdır. Xəzər dənizinin Azərbaycana aid olan hissəsində neft və qaz layihələri uğurla həyata keçirilir və biz bu məhsulların daşınması üçün boru kəmərləri yaradırıq. Azərbaycanda yaradılmış əlverişli sərmayə mühiti, eləcə də möhkəm siyasi sabitlik ölkəmizə sürətli investisiya axınının əsas amillərindən biridir.

Ölkəmizin əlverişli coğrafi-siyasi mövqeyi Azərbaycanı Şərq–Qərb, Şimal–Cənub nəqliyyat dəhlizlərinin vacib hissəsi etmişdir. Bu nəqliyyat dəhlizləri vasitəsilə Azərbaycana yeni bizneslər və yeni informasiya növləri axıb gəlir. Hazırda həmin informasiyanı rabitə texnologiyalarına çevirmək ehtiyacı duyulur.

Biz inanırıq ki, ölkəmiz bu mənada aparıcı rol oynayacaqdır və bütün ölkələrə bəyan etmək istəyirik ki, bu sahədə əməkdaşlığa hazırıq. Azərbaycan regional layihələrdə nəinki iştirak edir, eyni zamanda, aparıcı rol oynayır. Azərbaycanın regional əməkdaşlığı bundan sonra da davam etdiriləcəkdir.

Təəssüflər olsun ki, Azərbaycanda olan ən ağrılı problem

hələ də regional əməkdaşlığa tam miqyasda imkan vermir. Bu problem dedikdə, mən Azərbaycanın on ildən artıq sürən münaqişəsini nəzərdə tuturam. Azərbaycan artıq on ildən çoxdur ki, qonşu Ermənistan tərəfindən təcavüzə məruz qalıbdır. Azərbaycanın 20 faiz ərazisi – Dağlıq Qarabağ və 7 digər inzibati rayonu Ermənistan tərəfindən işğal olunmuşdur. Bu işğalın nəticəsi kimi, bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmişdir. Ermənistanın təcavüzkar olması BMT-nin 4 qətnaməsində öz əksini tapmışdır. Bu barədə ATƏT-in Minsk qrupu bəyanat vermişdir. Bu barədə Avropa Şurasının rəsmi sənədlərində qeydlər vardır. Beynəlxalq icma öz gücündən və nüfuzundan istifadə edib Ermənistanı məcbur etməlidir ki, Azərbaycanın işğal olunmuş ərazilərindən geri çəkilsin.

Xanımlar və cənablar!

Azərbaycanda informasiya texnologiyalarının yaradılmasına və eyni zamanda, informasiya texnologiyalarının infrastrukturunun qurulmasına böyük əhəmiyyət verilir. Bizim ölkədə həm elmi potensial mövcuddur, həm də texnoloji nailiyyətlər imkan verir ki, Azərbaycan bu yöndə regionda aparıcı ölkə olsun.

Azərbaycanda Neft Fondu yaradılmışdır ki, bu da tam şəffaf bir təşkilatdır. Beynəlxalq auditorlar bu təşkilatın işini nəzərdən keçirirlər. Bu fond bizə imkan verir ki, əsas ehtiyatlarımızı gələcəkdə əhalimizin güzəranının daha da yaxşılaşdırılması üçün istifadə edək.

Diqqətinizə görə sağ olun.

* * *

*Həmin gün sammitin keçirildiyi Palekspo sarayının iclas salonunda Azərbaycan prezidentinin dövlət başçıları ilə bir sıra görüşləri oldu. Estoniya Respublikasının prezidenti Arnold Rüütel, Rumıniya Respublikasının prezidenti İon İliyesku, İran İslam Respublikasının prezidenti Seyid Məhəmməd Xatəmi, Banqladeş Xalq Respublikasının Baş naziri Xalidə Ziya Rəhman, Qırğızıstan Respublikasının prezidenti Əsgər Akayev,*

*Makedoniya Respublikasının prezidenti Boris Traykovski ilə görüşmüşdür. Dövlət başçıları ölkələrimizi maraqlandıran bir sıra məsələlər haqqında fikir mübadiləsi apardılar.*

***

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev dekabrın 11-də «İnterkontinental» mehmanxanasının «Millətlər salonu»nda Ermənistan Respublikasının prezidenti Robert Köçəryan ilə görüşmüşdür.*

*Görüş ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə başlandı və sonra dövlət başçıları söhbəti təkbətək davam etdirdilər. Daha sonra Minsk qrupunun həmsədrləri yenidən görüşə qatıldılar.*

*Görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyev və Ermənistan prezidenti Robert Köçəryan jurnalistlər qarşısında bəyanatla çıxış etdilər. Dövlət başçıları tanışlıq xarakteri daşıyan bu görüşün qarşılıqlı anlaşmaya kömək edəcəyini bildirdilər. Prezidentlər Ermənistan–Azərbaycan münaqişəsinin aradan qaldırılmasına dair ikitərəfli danışıqların bərpa olunmasını müsbət addım kimi qiymətləndirdilər, fikir mübadiləsinin faydalı olduğunu söylədilər.*

*Görüşlərin gələcəkdə də davam etdiriləcəyinə inandıqlarını bildirən prezidentlər hər iki tərəfin problemin həllinə maraq göstərdiyini vurğuladılar. Prezident İlham Əliyev dedi ki, biz görüşdə öz fikirlərimizi açıq şəkildə ifadə etdik.*

## BMT-nin QAÇQINLAR İŞİ ÜZRƏ ALİ KOMİSSARLIĞININ RƏHBƏRİ RUUD LUBBERS İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Cenevrə*

*11 dekabr 2003-cü il*

**R u u d  L u b b e r s:** Cənab Prezident, xoş gördük. Azərbaycan Respublikasının prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirəm. Bu görüşə vaxt ayırdığınıza və Azərbaycanın Ali Komissarlıqla səmərəli əməkdaşlığına görə Sizə minnətdarlığımı bildirirəm.

Azərbaycanda Dağlıq Qarabağdan, ətraf rayonlardan məcburi köçkünlər və Ermənistandan gəlmiş qaçqınlar vardır. Azərbaycan dini və etnik baxımdan o qədər dözümlü ölkədir ki, hətta Məshəti türkləri, çeçen qaçqınları da buraya pənah gətirmişlər. Ali komissar bu insanlara qayğı göstərdiyinə görə Azərbaycan hökumətinə minnətdardır.

**İ l h a m  Ə l i y e v:** Xoş sözlərə görə təşəkkür edirəm. Sizə məlumat verim ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yurd-yuvasından didərgin düşmüş bir milyondan artıq soydaşımız ağır vəziyyətdə yaşayır. Onların yaşayışının yüngülləşdirilməsi üçün Azərbaycan hökuməti bir çox tədbirlər görmüşdür. Respublikamızda Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi fəaliyyət göstərir. Azərbaycan hökuməti son dövrdə qaçqın-köçkünlərdən ötrü evlər tikilməsi üçün 70 milyon dollardan artıq vəsait ayırmışdır. Həmin evlər su və elektrik enerjisi ilə təchiz olunmuşdur. Bu işin gələcəkdə də davam etdiriləcəyini bildirirəm. Hələ də çadırlarda, yataqxanalarda məskunlaşmış qaçqın-köçkünlər vardır.

Bu, problemin bir tərəfidir. Bizim əsas məqsədimiz Ermə-

nistan silahlı qüvvələrinin işğal edilmiş ərazilərdən tamamilə çıxarılmasına nail olmaqdır. Onu da xatırladım ki, münaqişənin həlli ilə bağlı Azərbaycan və Ermənistan prezidentləri 20-dək birbaşa görüşlər keçirmişlər. Bir neçə saat əvvəl də Ermənistan prezidenti ilə görüşümüz olmuşdur.

Cənab Yubbers, bildirirəm ki, işğalçı qüvvələrin Azərbaycan torpaqlarından çıxarılması barədə BMT-nin 4 qətnaməsi var. Avropa Şurasının rəsmi sənədində Ermənistan işğalçı dövlət kimi göstərilmişdir. Lakin Ermənistanın qeyri-konstruktiv mövqe tutması münaqişənin həllinə mane olur.

Məlumat verim ki, son vaxtlar donorlar Azərbaycandakı qaçqın-köçkünlərə yardımı azaltmışlar. İstərdik ki, BMT-nin Qaçqınların İşi üzrə Ali Komissarlığı bu sahədə ölkəmizə kömək göstərsinlər.

**R u u d L u b b e r s:** Biz də Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tezliklə aradan qaldırılması sahəsində səylərin artırılmasının, tərəflərin bu problemi danışıqlar vasitəsilə tezliklə həll etməsinin vacibliyini bildiririk. Qaçqınların və məcburi köçkünlərin tezliklə doğma yurdlarına qayıdacağına ümidvar olduğumu bildirirəm. Eyni zamanda bizim rəhbərlik etdiyimiz qurum Azərbaycanda qaçqınlara və məcburi köçkünlərə kömək göstərilməsi sahəsində daha intensiv işləyəcəkdir.

Biz yanvar ayının axırlarında Bakıda konfrans keçirməyi planlaşdırırıq. Konfransda qaçqın-köçkünlər yerlərinə qayıtdıqdan sonra görüləcək işlər haqqında müzakirələr aparılacaqdır. Eyni zamanda bu insanların yoxsulluq səviyyəsində yaşayan hissəsinin problemlərinə xüsusi diqqət yetirmək nəzərdə tutulur.

**İ l h a m Ə l i y e v:** Bu təşəbbüsü bəyənirik, bildirirəm ki, konfransın keçirilməsi üçün Azərbaycanda hər cür şərait yaradılacaqdır.*

* Görüş başa çatdıqdan sonra prezident İlham Əliyev və Ali komissar Ruud Lubbers jurnalistlərin suallarına cavab verdilər.

## BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ CENEVRƏ BÖLMƏSİNİN BAŞ DİREKTORU SERGEY ORCONİKİDZE İLƏ GÖRÜŞDƏ* SÖHBƏT

*Cenevrə,*
*Millətlər sarayı*

*12 dekabr 2003-cü il*

**Sergey Orconikidze:** Cənab Prezident, mən Sizi ürəkdən salamlayıram.

Bu, Azərbaycan Respublikası prezidentinin BMT-nin Cenevrə bölməsinə ilk gəlişidir və BMT ilə Azərbaycan arasında əlaqələrin daha da intensivləşməsinə xidmət edəcəkdir.

Məlumat verərək bildirim ki, bölmənin yerləşdiyi bu bina ötən əsrin 30-cu illərində Millətlər Cəmiyyətinə məxsus olmuşdur.

**İlham Əliyev:** Mənə və nümayəndə heyətinin üzvlərinə göstərilən yüksək qonaqpərvərliyə görə Sizə təşəkkür edirəm. Bildiyiniz kimi, mən Dünya Sammitində iştirak etmək üçün Cenevrəyə gəlmişəm. Burada BMT-nin Baş katibi Kofi Annanla, bir sıra dövlət və hökumət başçıları ilə faydalı görüşlər keçirmişəm. Cenevrəyə səfərimin faydalı və yaddaqalan olduğunu bildirirəm.

Onu da bildirim ki, BMT-nin Baş katibi Kofi Annan

---

* Görüşdə Sergey Orconikidze Azərbaycan prezidenti İlham Əliyevə dünya xalqlarının mədəniyyət incilərini əks etdirən fotoalbom, BMT-nin Cenevrə bölməsi barədə məlumat kitabı və BMT-nin fəaliyyəti ilə bağlı markalar kolleksiyası hədiyyə etdi.

Görüşdən sonra Sergey Orconikidze və BMT-nin Cenevrə bölməsinin məsul əməkdaşları prezident İlham Əliyevi Millətlər sarayının nəhəng inzibati binası, o cümlədən iclas salonları, görüşlər keçirilən otaqları ilə tanış etdilər.

ölkəmizdə aparılan islahatları dəstəklədiyini söylədi və qeyd etdi ki, Azərbaycan BMT Təhlükəsizlik Şurasında baş verəcək dəyişiklikləri müsbət qarşılayır. Mən İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitində inkişaf edən ölkələr üçün İnternet şəbəkəsinin təkmilləşdirilməsi ilə bağlı fond yaradılması təklifini dəstəkləyirəm.

Mən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ probleminin həlli ilə əlaqədar dekabrın 11-də Ermənistan prezidenti Robert Köçəryan ilə görüşmüşəm. Diqqətinizə çatdırım ki, bu problemin həlli ilə əlaqədar ATƏT-in Minsk qrupunun fəaliyyəti hələ də heç bir nəticə vermir.

**Sergey Orconikidze:** Təəssüflə qeyd edim ki, İkinci dünya müharibəsindən sonra münaqişələr daha da artmışdır. Mən də Dağlıq Qarabağ problemi və qaçqınların vəziyyətinin yaxşılaşdırılması ilə əlaqədar BMT-nin Baş katibi Kofi Annanla və BMT-nin qaçqınların işi üzrə ali komissarı Ruud Lubberslə söhbət edərəm.

Onu da qeyd edim ki, biz terrorizmə və narkotiklərin daşınmasına qarşı mübarizədə Azərbaycana hər cür yardım etməyə hazırıq.

**İlham Əliyev:** Mən xüsusi olaraq vurğulamaq istəyirəm ki, terrorizmə qarşı mübarizədə Azərbaycan fəal və birmənalı mövqe tutur. BMT və digər nüfuzlu təşkilatlar Azərbaycanın yerləşdiyi regionda da terrorizmlə mübarizəni gücləndirməlidirlər.

Azərbaycan BMT ilə sıx əməkdaşlıq edir və bütün dünyada, o cümlədən regionumuzda sülhün və təhlükəsizliyin təmin olunması naminə bu əməkdaşlığı gələcəkdə də davam etdirəcəkdir.

Təəssüflə qeyd edim ki, ölkəmizin ərazisinin İranla 143 kilometrlik sərhədi Ermənistan tərəfindən zəbt olunmuş və bu ərazi nəzarətsiz zona hesab olunur.

**Sergey Orconikidze:** Sizin əldə etdiyiniz uğurları məmnunluqla izləyirəm. Müasir dünyada gedən proseslərə dərindən bələd olan liderlərin keçmiş sovet respublikalarında hakimiyyətə gəlməsi böyük rəğbət hissi doğurur.

## BMT-nin Cenevrə bölməsinə Azərbaycan Respublikası adından hədiyyə edilən rəsm əsərinin təqdimat mərasimi

**S e r g e y   O r c o n i k i d z e:** Mən Azərbaycan Respublikası Prezidentinin BMT-nin Cenevrə bölməsinə ilk gəlişini əlamətdar hadisə kimi qiymətləndirirəm. BMT-nin fəaliyyətinə Azərbaycanın verdiyi töhfəyə görə təşəkkürümü bildirir və bu sahədə əməkdaşlığın gələcəkdə də davam edəcəyinə ümidvar olduğumu söyləyirəm. Azərbaycan Respublikasının Cenevrə bölməsinə təqdim etdiyi hədiyyəyə görə də minnətdarlığımı bildirirəm.

**İ l h a m   Ə l i y e v:** BMT-nin Cenevrə bölməsinə gəlişimdən məmnunam. Xatırladım ki, Azərbaycan xalqının qədim və zəngin mədəniyyəti var. Dövlət müstəqilliyi qazandıqdan sonra ölkəmiz siyasi və iqtisadi baxımdan sürətlə inkişaf edir, regionda çox mühüm rol oynayır. Ölkəmiz bundan sonra da təkcə regionumuzda deyil, bütün dünyada, o cümlədən Avropada öz layiqli yerini tutmağa və mühüm rol oynamağa çalışacaqdır.

Azərbaycan Avropaya, ümumən dünyaya inteqrasiyasını gücləndirmək niyyətindədir. Bu baxımdan İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitində respublikamızın layiqincə təmsil olunması çox əlamətdar bir hadisə kimi qiymətləndirilməlidir. Azərbaycan informasiya-kommunikasiya texnologiyaları sahəsində mühüm uğurlar əldə etmişdir və gələcəkdə daha böyük inkişafa nail olacaqdır. Sağ olun.

## AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ, AZƏRBAYCAN RESPUBLİKASININ EKS-PREZİDENTİ HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEVİN VƏFATI İLƏ BAĞLI RƏSMİ MƏLUMAT

**2003-cü il dekabr ayının 12-də Bakı vaxtı ilə saat 19.00-da Amerika Birləşmiş Ştatlarının Klivlend şəhərinin tibb klinikasında Azərbaycan xalqının ümummilli lideri, Azərbaycan Respublikasının eks-prezidenti Heydər Əlirza oğlu Əliyev uzun sürən ağır xəstəlikdən sonra vəfat etmişdir.**

**Heydər Əlirza oğlu Əliyevin cənazəsi 2003-cü il dekabr ayının 14-də Azərbaycana gətiriləcəkdir.**

* * *

Azərbaycan xalqı bu günlər sonsuz kədər hissi içərisindədir. Otuz ildən artıq bir dövrdə ölkəmizə rəhbərlik etmiş görkəmli şəxsiyyət, dünya şöhrətli siyasətçi və dövlət xadimi, müstəqil Azərbaycan Respublikasının qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı Heydər Əlirza oğlu Əliyevin əbədiyyətə qovuşması Vətənimiz və xalqımız üçün əvəzsiz itkidir.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır.

O, böyük və siyasi dövlət xadimi, şəksiz lider olaraq hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. Bütün bu illər ərzində əsil rəhbər kimi, məhz Heydər Əliyev Azərbaycan həqiqətlərini bütün dünyaya tanıda bilmiş, Azərbaycanın beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsi arxada qalmışdır. Dünya siyasət meydanında cərəyan edən proseslərə təsir baxımından o həmişə öz sözü, öz çəkisi, öz sanbalı ilə seçilmişdir.

Xalqımızın yetirdiyi nadir dövlət xadimlərindən olan Heydər Əliyev həyatı boyu vətənini düşünmüş, onun ürəyi Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, doğma xalqının xoşbəxtliyi üçün çırpınmışdır. Dövlət başçısı kimi, Heydər Əliyev Azərbaycanın ən çətin anlarında onu xilas etmək üçün misilsiz fədakarlıq göstərmiş, xalqını və ölkəsini bəlalardan qurtarmağı bacarmışdır. Müasir dövrdə nəinki Azərbaycanda, həmçinin bütün postsovet məkanında, eləcə də dünya miqyasında prosesləri Heydər Əliyevin şəxsiyyətindən və fəaliyyətindən kənarda təsəvvür etmək mümkün deyildir.

Heydər Əliyev zəmanəmizin böyük filosofu və mütəfəkkiri idi. Onun formalaşdırdığı və inkişaf etdirdiyi azərbaycançılıq fəlsəfəsi ölkəmizin müasir dünyada xüsusi yerini müəyyən etmiş, milli dövlətçiliyimizin bünövrəsini təşkil edərək, dünya azərbaycanlılarının həmrəyliyi üçün möhkəm zəmin yaratmışdır.

Heydər Əliyev öz parlaq zəkası və istedadı sayəsində yeni Azərbaycanı, onun bugünkü gerçəkliklərini yaratmış və ölkəmizi gələcəyə aparan yolları müəyyən etmişdir. Məhz buna görə də Azərbaycan tarixinin 1969-cu ildən sonrakı dövrü Heydər Əliyevin adı ilə sıx bağlıdır və tariximizə Heydər Əliyev dövrü kimi həkk olunmuşdur. Bu dövrün isə Azərbaycanın gələcək tarixi baxımından başlıca məzmunu azərbaycançılıqdır.

Bu gün Azərbaycan xalqı özünün dahi oğlunu son mənzilə yola salır. Lakin o, bütün mənalı həyatını həsr etdiyi xalqının qəlbində yaşayacaq, qurub-yaratdığı, sözün əsil mənasında, memarı olduğu Azərbaycan əbədi olduğu kimi, Heydər Əliyev də təkcə tariximizdə deyil, vətənin təəssübünü çəkən, onun sabahını düşünən hər bir azərbaycanlının ürəyində yaşayacaqdır. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə xalqımızın neçə-neçə görkəmli şəxsiyyətinə abidələr qoyulmasına nail olmuşdur. Lakin o, Vətən, xalq qarşısında misilsiz xidmətləri ilə milyonların qəlbində özünə abidə ucaltmışdır. Belə şəxsiyyətlər həyatdan cismən köçürlər, ruhən isə sonsuz olan əbədiyyətə qədər yaşayırlar.

## HEYDƏR ƏLİYEVİN MƏZARININ ZİYARƏT EDİLMƏSİ

*Bu günlər Azərbaycan Respublikasının prezidenti İlham Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət edir. Heydər Əliyevin doğmaları, dəfn mərasiminin təşkili üzrə Dövlət Komissiyasının üzvləri, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin üzvləri, xarici ölkələrin Bakıdakı diplomatik nümayəndəliklərinin rəhbərləri də Fəxri xiyabana gəlirlər. Azərbaycan prezidenti İlham Əliyev ümummilli liderimiz Heydər Əliyevin məzarı önünə gül dəstəsi qoyur. Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə Heydər Əliyevin ruhuna dua oxuyur.*

* * *

*Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə elan edilmiş matəmin son günü – 19 dekabr müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın müdrik rəhbəri, ümummilli liderimiz prezident Heydər Əliyevin Fəxri xiyabandakı məzarına insan axını davam edirdi. Öz möhtəşəmliyi ilə təkcə ölkəmizin deyil, dünya tarixində nadir hadisə kimi qalacaq bu vidalaşma milyonlarla azərbaycanlının, dahi şəxsiyyətə son borcunu vermək üçün yaxın və uzaq ölkələrdən respublikamıza gəlmiş qonaqların hüzn və kədəri ilə müşayiət olundu. Bu böyük insanın saysız-hesabsız gül dəstələrindən görünməz olmuş məzarı xalqımız üçün müqəddəs ziyarətgaha çevrildi.*

*İnsanların qəlbini sonsuz kədər və hüznlə dolduran matəm ovqatı Fəxri xiyabana, Bakıya, ölkənin rayonlarına sığmadı. Heydər Əliyev şəxsiyyəti, dühası Azərbaycanın sərhədlərini aşaraq dünyaya səs saldığı kimi, onun müqəddəs ruhunun yad edilməsi də bütün cahanı əhatə etdi. Böyük dövlətlər, görkəmli şəxsiyyətlər, müxtəlif xalqların nümayəndələri xalqımızın dərdinə şərik çıxaraq, prezident Heydər Əliyevin əbədiyyətə qovuşan ruhu qarşısında baş əydilər. Xalqımızın dünya tarixinə*

*bəxş etdiyi dahi şəxsiyyətin müqəddəs ruhunun anıldığı matəm günlərində bütün bəşəriyyət yas saxladı. Böyük Heydər Əliyev planetimizin xəritəsində kiçik nöqtə olan Azərbaycanını vəfatından sonra da dünyaya tanıtdı.*

*Dekabrın 19-da Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Fəxri xiyabana gələrək ümummilli liderimiz Heydər Əliyevin məzarını ziyarət etmişdir.*

*Prezident Heydər Əliyevin doğmaları, dəfn mərasiminin təşkili üzrə Dövlət Komissiyasının üzvləri, respublika ictimaiyyətinin nümayəndələri Fəxri xiyabana gəlmişdilər.*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarı önünə gül dəstəsi qoydu.*

*Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə Heydər Əliyevin ruhuna dua oxudu.*

*Azərbaycan prezidenti İlham Əliyev və onun ailə üzvləri Zərifə xanım Əliyevanın və görkəmli dövlət xadimi Əziz Əliyevin də məzarlarını ziyarət edərək gül dəstələri qoydular.*

Mərasimdən sonra kütləvi informasiya
vasitələrinin nümayəndələrinə müsahibə

**S u a l: Cənab Prezident, bu kədərli hadisəyə insanlarımızın münasibəti Sizi razı saldımı?**

**C a v a b:** Əlbəttə, bu gözlənilən idi. Heydər Əliyev bütün Azərbaycan xalqının ümummilli lideri və atasıdır. Ona görə də bu reaksiya təbiidir.

Mən sizə yaxınlaşdım ki, bu gün gecə saat 12-də rəsmi matəmin başa çatmasını telekanallar vasitəsilə bildirim. Sabahdan Azərbaycanda adi həyat başlanır.

Bu hər birimiz üçün böyük itkidir. Əlbəttə, ailə üzvləri üçün ağırdır. Mən onun xatirəsini belə böyük hörmət və ehtiramla yad etdiyinə görə bütün Azərbaycan xalqına minnətdarlığımı bildirmək istəyirəm. Bilirsiniz ki, buraya – Fəxri xiyabana insan axınının ardı-arası kəsilmir. Yəqin ki, bu, davam edəcəkdir.

Amma artıq bunu hər kəs şəxsi həyatında özü müəyyən etməlidir.

Rəsmi matəm başa çatır və Azərbaycan normal, adi həyata qayıdır. Hesab edirəm ki, Heydər Əliyevin ruhu da buna sevinəcəkdir. O həmişə Azərbaycanın rahatlığını və firavanlığını, insanların xoşbəxt yaşamasını istəmişdir. Bizim hamımızın borcu onun yolunu davam etdirmək, Heydər Əliyevin qoyduğu yolla getməkdir. Hər kəs öz yerində çalışmalıdır ki, Azərbaycan xalqı rahat, firavan və xoşbəxt yaşasın.

Fürsətdən istifadə edərək, bütün telekanallara öz minnətdarlığımı bildirmək istəyirəm. Onlar bu günlər ərzində, həqiqətən, bütün Azərbaycan xalqına Heydər Əliyevin ümummilli lider, xalqın atası olduğunu bir daha göstərdilər.

Əminəm ki, Heydər Əliyev Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

## XALQIMIZIN ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN VƏFATI İLƏ ƏLAQƏDAR BAŞSAĞLIĞI VERMƏK ÜÇÜN BAKIYA GƏLMİŞ TÜRKİYƏ CÜMHURİYYƏTİNİN SABİQ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*"Ulduz" sarayı*

*20 dekabr 2003-cü il*

**Süleyman Dəmirəl:** Azərbaycan xalqının böyük oğlu, böyük dövlət adamı, əziz qardaşım və dostum prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar hörmətli prezident İlham Əliyevə və onun şəxsində Azərbaycan xalqına başsağlığı verməyə gəldim.

Mərhum Heydər Əliyev Azərbaycanın, Türkiyənin, türk dünyasının lideri idi. Bu dünyanın bütün insanlarına da başsağlığı verməyə gəldim. Allah rəhmət eləsin!

Mən Sizin kədərinizə şərik çıxıram.

**İlham Əliyev:** Hörmətli cənab Prezident, gəldiyinizə görə sağ olun.

Həqiqətən, Azərbaycan xalqı, bütün türk dünyası üçün böyük itkidir. Heydər Əliyev ümummilli lider, Azərbaycan xalqının atasıdır.

Azərbaycan xalqı bu günədək özünə gələ bilməyib. Onun uyuduğu məzarın önünə yüz minlərlə insan gəlir və bu axının ardı-arası kəsilmir. Bu bir daha göstərir ki, xalqımız onu nə qədər sevirdi, nə qədər böyük hörmət edirdi. Heydər Əliyevin xatirəsi bizim qəlbimizdə yaşayacaqdır.

Hamımızın – onun davamçılarının əsas vəzifəsi ondan ibarətdir ki, Heydər Əliyevin yolunu davam etdirək. Mən əminəm ki, Azərbaycan xalqı bu yolun yolçusu olacaq və onun

nəzərdə tutduğu bütün işləri yerinə yetirəcəkdir. Heydər Əliyevin təməlini qoyduğu layihələr, işlər davam etdiriləcəkdir və nəticədə Azərbaycan xalqı daha firavan və xoşbəxt yaşayacaqdır.

Hörmətli cümhurbaşqanı, mən bir daha Sizə öz təşəkkürümü bildirirəm. Siz Heydər Əliyevlə yaxın dost, qardaşsınız. Məhz bu qardaşlığın nəticəsində Türkiyə ilə Azərbaycan arasında münasibətlər daha da yaxın olmuşdur. Bu ikitərəfli münasibətlərin nəticəsində ölkələrimiz, region və bütün dünya üçün böyük miqyaslı layihələr həyata keçirilir. Mən Sizi görməyimə çox şadam. Siz Heydər Əliyevin qardaşısınız. Əlbəttə, biz istərdik ki, başqa bir məqamda görüşək. Amma bu kədərli günlərdə Sizi görməyimə çox şadam. Bu mənə böyük təsəllidir.

**S ü l e y m a n D ə m i r ə l:** Azərbaycan xalqının böyük dövlət adamı Heydər Əliyevə göstərmiş olduğu qədirbilənlik və vəfa Türkiyədə böyük təqdirlə qarşılanmış, dünyanın diqqətini çəkmişdir.

Dəyərli prezident, əziz qardaşım Heydər Əliyev, "Türkiyə–Azərbaycan münasibətləri sonsuza qədər yaşayacaqdır. Biz bir millətin iki dövlətiyik. Bu münasibətləri pozmağa kimsə nail ola bilməz" – demişdir. Mən də bununla əlaqədar, məmnunluğumu ifadə etmişdim.

Təkrar edirəm ki, qonşu və qardaş olan iki ölkə sonsuza qədər birlik, bərabərlik və qardaşlıq içində olacaqdır.

Sizə də bu böyük vəzifənizdə uğurlar diləyirəm.*

---

* Süleyman Dəmirəl əziz dostu və qardaşı, Azərbaycan xalqının və türk dünyasının böyük oğlu Heydər Əliyevə son borcunu vermək və ehtiramını ifadə etmək üçün dekabrın 20-də Fəxri xiyabana gələrək, onun məzarını ziyarət etmişdir. O, məzarın üzərinə gül dəstəsi qoymuş, mərhumun ruhuna dua oxumuşdur. Süleyman Dəmirəl sonra Zərifə xanım Əliyevanın da məzarını ziyarət etmiş və gül dəstəsi qoymuşdur.

## DÜNYA AZƏRBAYCANLILARINA

Əziz həmvətənlər!

Hörmətli soydaşlarımız!

Sizə Azərbaycan xalqının ən mühüm bayramlarından biri olan Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibətilə müraciət edirəm.

Azərbaycan xalqının müstəqillik əldə etdiyi vaxtdan 31 dekabr bütün dünyada yaşayan soydaşlarımız tərəfindən hər il qeyd edilən ümummilli bir bayramdır. Onun əsas qayəsini Azərbaycan dövlətçiliyi, xalqımızın milli-mənəvi dəyərlərinə hörmət, Azərbaycan xalqına mənsubluq, Vətənə bağlılıq hissi və ideyaları təşkil edir.

Dünya azərbaycanlılarının milli birlik və həmrəyliyinin güclənməsi müstəqil dövlət quruculuğu dövründə mümkün olmuşdur. 31 dekabr ilk dəfə ümummilli liderimiz Heydər Əliyev tərəfindən, o hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olarkən Dünya azərbaycanlılarının həmrəylik və milli birlik bayramı elan edilmiş, sonra isə bütün Azərbaycan xalqının, dünya azərbaycanlılarının milli bayramına çevrilmişdir. Keçən dövrdə Heydər Əliyev bütün dünyada azərbaycanlıların milli birlik və həmrəylik hisslərinin güclənməsi, onların ümummilli ideyalar, Azərbaycan dövlətçiliyi ətrafında sıx birləşməsi üçün ardıcıl və məqsədyönlü fəaliyyət göstərmişdir. Xarici ölkələrə səfərləri zamanı Azərbaycan diasporunun nümayəndələri ilə görüşləri, 2001-ci ilin noyabrında Bakıda yüksək səviyyədə Dünya azərbaycanlılarının I qurultayını keçirməsi və sonrakı məqsədyönlü siyasəti dünya azərbaycanlılarının milli mənlik şüurunun güclənməsinə, müxtəlif ölkələrdə azərbaycanlı icmalarının mütəşəkkilliyinin artmasına, onların tarixi Vətənlə əlaqələrinin möhkəmlənməsinə güclü təkan vermişdir.

Azərbaycançılıq ideyasının birləşdirici dəyər kimi bütün dünyada yaşayan azərbaycanlılar arasında yayılması, dilimizin,

mədəniyyətimizin, mütərəqqi adət-ənənələrimizin, tariximizin yaşadılması və inkişaf etdirilməsi prezident Heydər Əliyevin ideyası idi. Düşünürəm ki, bütün dünyada yaşayan soydaşlarımızın mədəni-mənəvi birliyinin mühüm şərti olaraq bu ideya bu gün də, gələcəkdə də bizim siyasətimizin əsasını təşkil edəcəkdir.

Dünya azərbaycanlılarının Azərbaycan Respublikası ilə, xalqımızın yeganə milli dövləti ilə əlaqələrinin möhkəmləndirilməsi, bu əlaqələrin hüquqi və mədəni-mənəvi əsaslarının gücləndirilməsi qarşımızda duran mühüm vəzifələrdən biridir. Hər bir azərbaycanlı dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, Azərbaycan dövlətinin, xalqının problemləri ilə yaşamalı, onların həlli üçün əlindən gələni etməlidir. Eyni zamanda, Azərbaycan hökuməti də dövlətin maddi və mənəvi imkanlarından bütün dünya azərbaycanlılarının bəhrələnməsinə şərait yaratmalı, onların milli və vətəndaş hüquqlarının qorunması üçün istifadə etməlidir.

Tarixi təcrübə sübut edir ki, dünyanın müxtəlif ölkələrində sıx icmalar şəklində yaşayan, öz milli-etnik mənsubiyyətini və xüsusiyyətlərini, mədəni-mənəvi dəyərlərini qoruyub saxlayan soydaşlar həm məskun olduqları ölkələrin və dövlətlərin iqtisadi, siyasi və sosial-mədəni həyatında fəal iştirak edir, həm də tarixi Vətəninin, ölkəmizin qayğısına qala bilir. Bu baxımdan Müstəqil Dövlətlər Birliyi ölkələrində, Avropada, Amerikada, Asiyada yaşayan çoxsaylı Azərbaycan icmalarının və cəmiyyətlərinin geniş imkanları, istifadə olunmamış potensialı mövcuddur və bu potensial ümummilli maraqlara xidmətə yönəldilməlidir.

Bu gün dünya azərbaycanlılarının həmrəyliyinin və mütəşəkkilliyinin güclənməsi, onların ümummilli ideyalar ətrafında sıx birləşməsi üçün daha geniş imkanlar yaranmışdır. Son on ildə aparılan düzgün daxili və xarici siyasət nəticəsində Azərbaycan dövləti güclənmiş, qlobal iqtisadi-enerji və nəqliyyat-kommunikasiya layihələrinin mərkəzinə, regional proseslərin həlledici faktoruna çevrilmişdir. Hazırda Azər-

baycan dövləti dünya azərbaycanlılarının ümumbəşəri və milli-mədəni hüquqlarının, beynəlxalq konvensiyalarla təsbit edilmiş insan haqlarının qorunmasını təmin etmək üçün daha təsirli vasitələrə malikdir. Əmin ola bilərsiniz ki, Azərbaycan dövləti və onun siyasi rəhbərliyi dünya azərbaycanlılarının Vətənə və xalqa mənsubluq hissini gücləndirmək, onların respublikamızın iqtisadi, mədəni həyatında, dövlət quruculuğunda hərtərəfli iştirakı üçün bütün zəruri tədbirləri görəcəkdir.

Dünya azərbaycanlılarının mütəşəkkilliyinin möhkəmlənməsi, soydaşlarımızın milli birlik və həmrəyliyinin, sözün həqiqi mənasında, təmin edilməsi ümummilli liderimiz Heydər Əliyevin ən böyük arzularından biri idi. Xalqımız, bütün dünya azərbaycanlıları mərhum prezidentimizin dünyasını dəyişməsindən sonra daha sıx birləşdi, onun müəyyən etdiyi strateji kursa, ideyalara sədaqət nümayiş etdirdi, onları həyata keçirib başa çatdırmaq əzmini bir daha təsdiq etdi.

Bu əziz bayram günündə Sizi bir daha səmimi-qəlbdən təbrik edir, hər birinizə sağlamlıq, firavanlıq, əmin–amanlıq və vətənimizin tərəqqisi yolunda davamlı uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *26 dekabr 2003-cü il*

## GÜRCÜSTANIN DÖVLƏT NAZİRİ ZURAB JVANİYA VƏ ÖLKƏNİN HÖKUMƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*27 dekabr 2003-cü il*

Hörmətli cənab dövlət naziri!

Hörmətli qonaqlar!

Mən sizi Azərbaycanda salamlamağa şadam.

Ölkələrimiz arasında ənənəvi dostluq və qardaşlıq münasibətləri mövcuddur. Bu münasibətlərin indi, ölkələrimizin artıq müstəqil dövlətlər kimi yaşadığı dövrdə qorunub saxlanması və genişləndirilməsi çox mühümdür. Zənnimcə, ölkələrimiz arasındakı münasibətlər qonşular arasında münasibətlərin necə olmasına yaxşı nümunədir. Bizi ümumi tarix bağlayır, aramızda geniş mədəni və siyasi əlaqələr var, əlbəttə, iqtisadi sahədə əməkdaşlıq da mövcuddur. İndi ölkələrimizin iştirakı ilə dünyada ən iri energetika layihələri həyata keçirilir. Əlbəttə, bu, həmin məsələ ilə məşğul olanların üzərinə xüsusi məsuliyyət qoyur. Bu yayihənin uğurla həyata keçirilməsi bir daha sübut edir ki, siyasi iradə, mehriban qonşuluq münasibətləri olarsa, nəinki region üçün, həm də bütun dünya üçün belə mühüm proqramlar uğurla həyata kesirilə bilər.

Bu energetika layihələrinin bünövrəsi 1994-cü ildə prezident Heydər Əliyevin təşəbbüsü ilə qoyulmuşdur. Həmin çətin dövrdə bu, xüsusi cəsarət, uzaqgörənlik və qətiyyət tələb edirdi. Çünki o vaxt vəziyyət daha mürəkkəb idi.

Bizim vəzifəmiz bunu daha geniş miqyasda davam və inkişaf etdirməkdən ibarətdir. Zənnimcə, ölkələrimizin rəhbərliyi bunun öhdəsindən gələcəkdir.

Bilirəm ki, bu gün siz bu layihənin kiçik bir hissəsində

işlərin gedişi ilə tanış ola bilmisiniz. Əminəm ki, layihənin qəti şəkildə gerçəkləşdirilməsi baxımından çox mühüm olan gələn il uğurlu olacaqdır.

Fürsətdən istifadə edərək, Gürcüstana – qardaş ölkəyə və xalqımıza əmin-amanlıq, sülh və sabitlik arzulamaq istəyirəm. Ölkələrimiz bir-biri ilə elə sıx bağlıdır ki, onların uğurlu inkişafı ancaq birlikdə mümkündür.

Sizi bir daha salamlamaq istəyirəm. Ümidvaram ki, sizin səfəriniz və keçirdiyiniz döyüşlər ölkələrimizin, xalqlarımızın daha da yaxınlaşmasına kömək edəcəkdir.

**Z u r a b J v a n i y a:** Cənab Prezident, çox sağ olun. Səmimi qəbula görə Sizə təşəkkürümüzü bildiririk.

Gürcüstan üçün də görkəmli dövlət xadimi olan Heydər Əliyevin vəfatı ilə əlaqədar bütün xalqımız adından bir daha ən səmimi başsağlığı vermək istəyirəm. Ölkəmizdə hər bir insan, hətta siyasətlə bağlı olmayanlar da Heydər Əliyevin təkcə Azərbaycan üçün deyil, Gürcüstan üçün, qarşılıqlı əlaqələrimizin iki qonşu dövlət arasında münasibətlər baxımından tamamilə nümunəvi və misilsiz olmasından ötrü nə qədər iş gördüyündən ətraflı danışa bilər. İnamla, mübaligəsiz deyə bilərəm ki, həqiqətən, böyük uğurlar qazanan, Azərbaycan dövlətinin bünövrəsini qoyan Azərbaycanın böyük prezidentinin xatirəsi Gürcüstanda əbədi yaşayacaqdır. Mən onunla dəfələrlə görüşdüyümdən qürur hissi duyuram. Çox təəssüflənirəm ki, onunla vida mərasimində iştirak edə bilmədim. Odur ki, imkan düşən kimi onun xatirəsinə səmimi ehtiram bəslədiyimi ifadə etməyi zəruri bildim.

Cənab Prezident, bu, Gürcüstanın dövlət naziri kimi, mənim ilk xarici səfərimdir. Bu həm indiki prezident xanım Burcanadzenin, həm də cəsarətlə deyə bilərəm, gələcək prezident Mixail Saakaşvilinin birgə qərarı idi. Biz nəzərə çatdırmaq istəyirik ki, Gürcüstanın yeni rəhbərliyi üçün Azərbaycan, sözsüz, müstəsna tərəfdaş olaraq qalır. Demək olar ki, biz bir çox məsələlərdə strateji tərəfdaşlar kimi hərəkət edirik. Biz prezident Heydər Əliyevin və prezident Eduard Şevardnadzenin

bütün əvvəlki illərdəki birgə səyləri ilə yaradılmış nə varsa, hamısına son dərəcə qayğı ilə yanaşırıq. Biz bütün istiqamətlərdə münasibətlərimizi nəinki qoruyub-saxlamaq, həm də dərinləşdirmək, mövcud potensialdan maksimum istifadə etmək niyyətindəyik.

Bildiyiniz kimi, mən Azərbaycanda dəfələrlə olmuşam. Burada xalqlar arasında mövcud olan kamil, səmimi münasibətlər üzərimizə böyük vəzifələr qoyur. Üstəlik, çox dəqiq qeyd etdiyiniz kimi, bizi əsrin layihəsi, dünyada ən möhtəşəm layihə birləşdirir. Mən Azərbaycanın neçə tərəqqi etdiyini, ölkənizdə inkişafın necə yüksək sürət və geniş vüsət aldığını görmüşəm və bu barədə çox eşitmişəm. İki il olar ki, Bakıya gəlməmişdim. Səngəçal terminalında olmağıma çox şadam. İnkişafın belə vüsəti, sürəti çox böyük təəssürat bağışlayır. Gürcüstan ərazisində tikinti işlərinin sürətlənməsinə hər vasitə ilə təkan vermək bizim üçün birinci dərəcəli vəzifədir. Biz neft kəmərinin tikintisi ilə bağlı öhdəliklərimizə son dərəcə məsuliyyətlə yanaşırıq və «Şahdəniz» yatağından qazın nəqli layihəsinin inkişafına da nikbinliklə baxırıq.

Cənab Prezident, bir daha vurğulamaq istəyirəm ki, bütün məsələlərdə ən yaxın müttəfiq, tərəfdaş bildiyimiz ölkənin prezidentinə bu gün Gürcüstan hökuməti adından müraciət etdiyimə görə xoşbəxtəm. Bizi çox səmimi ənənələr və qarşılıqlı münasibətlərin daha da inkişaf etdirilməsinin çox ciddi perspektivləri birləşdirir.

**İ l h a m Ə l i y e v:** Cənab dövlət naziri, sağ olun. Siz parlamentin sədri olarkən Bakıya səfərlərinizi xatırlayıram, prezident Heydər Əliyev ilə görüşlərinizi xatırlayıram.

Əlbəttə, bizim üçün, ölkələrimizin indiki rəhbərləri üçün asandır. Çünki biz ikitərəfli münasibətlərimizi, eləcə də dövlətlərimizi kifayət qədər möhkm təməl üzərində quracağıq və inkişaf etdirəcəyik. Ümidvaram ki, həm ikitərəfli münasibətlərdə, həm regional baxımdan, həm də daha geniş səpkidə – dünyada mövcud problemlərə münasibətdə ölkələrimizin birgə səyləri, əsasən, uyğun gəlir.

Təsadüfi deyil ki, ölkələrimizi dünyada strateji müttəfiqlər kimi tanıyırlar. Qlobal miqyasda baş verən proseslərə baxışlarımız bir çox cəhətdən üst-üstə düşür. Əlbəttə, bizi bu da yaxınlaşdırır. Ümumi iqtisadi mənafelər, Dünya Birliyinə inteqrasiyanın ümumi meylləri, bir çox məsələlərdə oxşar baxışlar, habelə mədəni və mənəvi əlaqələrin mükəmməl bazası – bütün bunlar ölkələrimizin inkişafını, o cümlədən də ikitərəfli münasibətlərimizin inkişafını əvvəlcədən müəyyənləşdirir. Vəzifəmiz bu münasibətləri möhkəmlətmək və inkişaf etdirmək, yeni məzmunla dolğunlaşdırmaqdır. Gələcəkdə qarşılıqlı fəaliyyət üçün yeni imkanlar olacaqdır. Əminik ki, Gürcüstan və Azərbaycan ölkələrimizin və xalqlarımızın yaxınlaşmasına yönəldilmiş siyasəti bundan sonra da birlikdə həyata keçirəcəklər. Əminəm ki, Gürcüstanın yeni rəhbərliyi bu vəzifənin öhdəsindən gələcəkdir. Həmçinin əminəm ki, Azərbaycanın yeni rəhbərliyi də bunun öhdəsindən gələcəkdir. Nəzərdə tutulmuş və bağlanmış nə varsa, hamısının uğurla həyata keçirilməsi üçün biz bundan sonra da sıx qarşılıqlı fəaliyyət şəraitində işləməliyik.

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ SEYİD MƏHƏMMƏD XATƏMİYƏ**

Hörmətli cənab Prezident!

Kirman ostanının Bəm şəhərində baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni ürəkdən kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün İran xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri*, 26 dekabr 2003-cü il*

* * *

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev dekabrın 26-da İran İslam Respublikasının Kirman ostanının Bəm şəhərində baş vermiş və on minlərlə insanın tələf olması ilə nəticələnmiş dəhşətli zəlzələ ilə əlaqədar başsağlığı vermək üçün dekabrın 30-da bu ölkənin Bakıdakı səfirliyinə gəlmişdir.*

*Prezident İlham Əliyev səfirlikdə qoyulmuş matəm kitabına aşağıdakı sözləri yazdı:*

**“Dost və qonşu İran xalqına üz vermiş dəhşətli faciə – Bəm şəhərində kütləvi insan tələfatı və dağıntılarla müşayiət olunan zəlzələ hər bir Azərbaycan vətəndaşını sarsıtmış və kədərləndirmişdir.**

**Həlak olanların qohumlarına və yaxınlarına başsağlığı verir, səbir və dözüm arzulayıram.**

**Allah rəhmət eləsin.**

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

**30 dekabr 2003-cü il”**

*Prezident İlham Əliyev səfirə zəlzələnin nəticələrinin aradan qaldırılması üçün Azərbaycanın hər cür köməyə hazır olduğunu, bununla bağlı bir sıra tapşırıqlar verildiyini qeyd etdi.*

*Səfir Əhəd Qəzai Azərbaycan dövlətinin başçısına minnətdarlığını bildirdi.*

İran televiziyası müxbirinin
sualına cavab

**S u a l: Siz İranda baş vermiş zəlzələ ilə bağlı səfirliyə təşrif buyurmusunuz və bununla öz dost münasibətinizi bir daha göstərdiniz. İran xalqına nə demək istərdiniz?**

**C a v a b:** Mən İran xalqına başsağlığı vermək üçün gəldim. Bu, böyük, dəhşətli hadisədir və hamımızı sarsıtmışdır.

Arzu edirəm ki, tezliklə bu dağıntılar aradan qaldırılsın, yaralılar müalicə olunsun. Mən, eyni zamanda, cənab səfirə də bildirdim ki, biz yaralıları, müalicəyə ehtiyacı olanları buraya dəvət etməyə hazırıq. Biz əlimizdən gələni edəcəyik. Artıq yardımlar göndərilib, mütəxəssislərimiz də İrandadır.

Bu, böyük bir bəladır, böyük dərd, görünməmiş bir faciə, kütləvi insan tələfatı ilə müşayiət olunan zəlzələdir. Arzum budur ki, İran xalqı tezliklə bu bəladan çıxsın. Bütün yaralılara Allahdan şəfa diləyirəm.

## AZƏRBAYCAN XALQINA YENİ İL TƏBRİKİ

Hörmətli xanımlar və cənablar!

Mən sizi Yeni il münasibətilə ürəkdən təbrik edirəm.

2003-cü ildə Azərbaycan uğurla inkişaf etmişdir. Ölkəmiz bütün sahələrdə böyük nailiyyətlər əldə etmişdir. Azərbaycanın beynəlxalq aləmdə mövqeləri möhkəmlənmişdir. Beynəlxalq təşkilatlarla əməkdaşlığımız güclənmişdir. İkitərəfli münasibətlərdə, regional əməkdaşlıq sahəsində böyük uğurlar əldə olunmuşdur. Bu bizə imkan verir ki, Azərbaycan Dünya Birliyində daha möhkəm və güclü yer tuta bilsin. Bu siyasət gələcəkdə də davam etdiriləcəkdir.

İqtisadi sahədə ölkəmiz böyük uğurlar əldə etmişdir. İqtisadiyyatın əsas göstəricisi olan ümumi daxili məhsul 11 faiz artm ışdır. İstehsal sahələrində ümumi artım 13 faiz təşkil etmişdir, sərmayə qoyuluşu prosesi davam edir. Heç kəs üçün sirr deyil ki, sərmayə qoyuluşu baxımından Azərbaycan nəinki regionda, bütün MDB-də, Şərqi və Mərkəzi Avropada liderliyi saxlayır. Adambaşına düşən xarici sərmayənin həcminə görə ölkəmiz bu mövqeyini saxlamış və daha da möhkəmləndirmişdir. 2003-cü ildə bütün mənbələrdən ölkəmizin iqtisadiyyatına 3 milyard 200 milyon dollar sərmayə qoyulmuşdur. Bu proses davam edir və bizə imkan verir ki, Azərbaycanda yeni iş yerləri açılsın, yeni istehsal sahələri, infrastruktur yaradılsın. Bu meyllər gələcəkdə də davam edəcək və böyük həcmdə sərmayə qoyuluşu təmin olunacaqdır.

1994-cü ildən başlayaraq Azərbaycanda neft strategiyası uğurla həyata keçirilir. Heydər Əliyevin təşəbbüsü ilə başlanılmış bu strategiya öz gözəl nəticələrini verməkdədir. Artıq neft strategiyasının əsas mərhələsi başlanmışdır. Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəmərinin tikintisi uğurla davam etdirilir və yaxın gələcəkdə başa çatdırılacaqdır. Azərbaycan nefti böyük həcmdə dünya bazarlarına göndəriləcəkdir. Bu bizə imkan verəcəkdir ki, ölkəmizin büdcəsinə və Neft Fonduna böyük həcmdə vəsait daxil

olsun. Bu da öz növbəsində Azərbaycanın hərtərəfli inkişafına gözəl şərait yaradacaqdır.

Sosial sahədə böyük uğurlar vardır. Bu sahə daim rəhbərliyin diqqət mərkəzindədir. 2003-cü ildə bu istiqamətdə böyük addımlar atılmışdır. Heydər Əliyevin fərmanları ilə büdcədən maliyyələşən təşkilatlarda çalışan 1 milyon 200 min insan öz həyat səviyyəsini yaxşılaşdırmışdır. Onların əmək haqları 50 faiz artırılmış, təqaüdçülərin pensiyaları 40 faiz qaldırılmışdır. Bu siyasət bundan sonra da davam etdiriləcək, sosial proqramlar həyata keçiriləcəkdir. Bu bizim siyasətimizin əsas istiqamətlərindən biridir.

Eyni zamanda, sosial cəhətdən ən az müdafiə olunan qaçqınların, məcburi köçkünlərin yaşayış səviyyəsi yaxşılaşmışdır. Prezident Heydər Əliyevin fərmanları ilə böyük sayda qaçqın və məcburi köçkün yeni qəsəbələrə köçürülmüşdür, onlar üçün yeni şəhərciklər və qəsəbələr salınmışdır. Biz bir neçə ay bundan əvvəl Biləsuvar rayonunun ərazisində salınmış qəsəbənin açılışında iştirak etmişdik. Bu siyasət davam edəcəkdir. Mən öz çıxışlarımda dəfələrlə bildirdiyim kimi, fəaliyyətimin əsas istiqamətlərindən biri ondan ibarət olacaqdır ki, Azərbaycanda ən çətin vəziyyətdə yaşayan qaçqın və məcburi köçkünlər normal şəraitlə təmin olunsun, ölkəmizdə bir dənə də çadır şəhərciyi qalmasın. Artıq bununla əlaqədar proqram hazırlanır, yaxın zamanlarda bu proqram təqdim ediləcək və onun icrası təşkil olunacaqdır.

2003-cü ildə Azərbaycanda prezident seçkiləri keçirilmişdir. Bu hər bir ölkə üçün çox mühüm bir hadisədir. Ölkənin gələcəyini müəyyən edən mühüm bir hadisə olan bu seçkilərdə Azərbaycan xalqı bir daha göstərdi ki, o, on il bundan əvvəl seçdiyi yolla getmək əzmində və arzusundadır. On il bundan əvvəl xalqın tələbi ilə Heydər Əliyev Azərbaycan rəhbərliyinə qayıtdı. Əgər o qayıtmasaydı, ölkəmiz çox böyük fəlakətlərlə üzləşə bilərdi. Bu illər ərzində aparılan siyasətin nəticəsində Azərbaycan hərtərəfli inkişaf etdi, qüdrətli dövlətə çevrildi. Azərbaycanın müstəqilliyi əbədi və dönməz oldu. 2003-cü ildə

keçirilmiş prezident seçkilərində Azərbaycan xalqı yenidən bu siyasətə səs vermişdir. Mən bu etimadı yüksək qiymətləndirirəm. Bir daha bu fürsətdən istifadə edərək, mənə inandığına görə, mənə etibar etdiyinə görə bütün Azərbaycan xalqına öz dərin minnətdarlığımı bildirirəm. Bir daha söz verirəm ki, mən bu etimadı doğruldacağam, xalqa ləyaqətlə xidmət edəcəyəm.

2003-cü il eyni zamanda ölkəmiz və xalqımız üçün çox ağır il olmuşdur. Bu ildə xalqımız öz liderini itirmişdir. Ümummilli liderimiz Heydər Əliyev dünyasını dəyişmişdir. Bu hamımız üçün böyük faciədir, böyük dərddir.

Ancaq bu faciə bizi ruhdan salmamalıdır. Biz daha da sıx birləşməliyik, Heydər Əliyevin qoyduğu yolla getməliyik, onun başladığı işləri davam etdirməli və başa çatdırmalıyıq. Mən əminəm ki, belə də olacaqdır. Dekabrın 15-də onun xatirəsinə göstərilən böyük hörmət və ehtiram bir daha göstərir ki, Azərbaycan xalqı böyük xalqdır, qüdrətli xalqdır. Biz hamımız birlikdə bu faciəni də yaşamaq məcburiyyətindəyik. Biz bunu edəcəyik, daha da sıx birləşərək ölkəmizi daha da gücləndirəcəyik. Heydər Əliyevin istədiyi səviyyədə, onun qoyduğu yolla gedəcəyik və əminəm ki, bu yol bizə böyük xoşbəxtlik gətirəcəkdir.

2004-cü il ölkəmiz üçün çox mühüm bir il olacaqdır. Azərbaycanda həyata keçirilən tədbirlər davam etdiriləcəkdir. İqtisadi baxımdan 2004-cü il bizim üçün çox önəmli olacaqdır. Bu ildə Azərbaycanın gələcək iqtisadi potensialını xeyli dərəcədə müəyyən edəcək Bakı–Tbilisi–Ceyhan neft kəməri tikilib istifadəyə veriləcəkdir. 2004-cü ildə Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin həyata keçirilməsi istiqamətində böyük addımlar atılacaqdır. Yoxsulluqla mübarizə davam etdiriləcəkdir. Yeni iş yerlərinin açılması istiqamətində əməli tədbirlər görüləcəkdir.

Bütün bu görüləcək işlər bizə imkan verəcəkdir ki, Azərbaycan daha da güclənsin və ölkəmiz daha yüksək pilləyə qalxa bilsin. Mən əminəm ki, biz hamımız birlikdə qarşıda duran bütün məqsədlərə nail olacağıq.

Ordu quruculuğunda da böyük addımlar atılacaqdır. Artıq bu istiqamətdə çox böyük dəyişikliklər mövcuddur və bu proses davam edəcəkdir. Azərbaycanın müdafiə potensialı güclənəcəkdir. Bu bizim strateji xəttimizdir. Azərbaycan Ordusu güclü bir ordudur. Biz çalışacağıq və əminəm, nail olacağıq ki, bu ordu daha da güclənsin və qarşıda duran bütün məsələləri həll edə bilsin.

2004-cü ildə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində də yeni mərhələ başlana bilər. Biz ümid edirik ki, ATƏT-in Minsk qrupu bu məsələ ilə daha ciddi məşğul olacaq, beynəlxalq ictimaiyyət işğalçıya daha güclü təzyiq göstərəcək və haqq-ədalət öz yerini tapacaqdır. Bu istiqamətdə Azərbaycanın siyasəti dəyişməz olaraq qalır. Mən bu barədə öz fikirlərimi dəfələrlə bildirmişəm və bir daha bildirirəm ki, bu münaqişə yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü prinsipləri əsasında öz həllini tapa bilər. İşğal olunmuş torpaqlar azad olunmalıdır, bir milyon qaçqın-köçkün öz doğma torpaqlarına qayıtmalıdır. Bu münaqişə ancaq bu prinsiplər əsasında öz həllini tapa bilər. Biz ümidvarıq ki, beynəlxalq ictimaiyyət, dünyanın aparıcı dövlətləri, habelə Minsk qrupunun həmsədrləri bu istiqamətdə daha da fəal və ədalətli fəaliyyət göstərəcəklər.

Əziz dostlar!

Bu gün eyni zamanda Dünya Azərbaycanlılarının Həmrəyliyi günüdür. Bu münasibətlə mən sizi təbrik edirəm, dünyada yaşayan bütün azərbaycanlıları həmrəyliyə, birliyə dəvət edirəm.

Əziz həmvətənlər!

Əziz xanımlar və cənablar, bacılar və qardaşlar!

2003-cü il arxada qalır. Qarşıda bizi böyük işlər gözləyir. Mən sizin hamınıza bu işlərdə uğurlar arzulayıram. Hamınıza xoşbəxtlik, cansağlığı, ailə səadəti arzulayıram.

Yeni iliniz mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *31 dekabr 2003-cü il*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ**

Hörmətli cənab Prezident!

Pakistan İslam Respublikasının prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Biz Azərbaycan–Pakistan münasibətlərinə xüsusi əhəmiyyət veririk.

Əminəm ki, ölkələrimiz arasında qarşılıqlı etimada və dəstəyə əsaslanan möhkəm dostluq və əməkdaşlıq əlaqələri xalqlarımızın iradəsinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Pakistan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *2 yanvar 2004-cü il*

**MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB MƏHƏMMƏD HÜSNİ MÜBARƏKƏ**

Hörmətli cənab Prezident!

Şərm-əş-Şeyx şəhəri yaxınlığında sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına şəxsən öz adımdan, bütün Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *3 yanvar 2004-cü il*

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB JAK ŞİRAKA**

Hörmətli cənab Prezident!

Misirin Şərm-əş-Şeyx şəhəri yaxınlığında baş vermiş təyyarə qəzası nəticəsində çoxlu sayda həmvətəninizin həlak olması xəbərindən son dərəcə kədərləndim.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına şəxsən öz adımdan, bütün Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *3 yanvar 2004-cü il*

## ŞİMALİ ATLANTİKA MÜQAVİLƏSİ TƏŞKİLATININ BAŞ KATİBİ CƏNAB YAAP DE HOOP SXEFFERƏ

Hörmətli cənab Baş katib!

Şimali Atlantika Müqaviləsi Təşkilatının Baş katibi vəzifəsinin icrasına başlamağınız münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikası NATO ilə əməkdaşlığa böyük əhəmiyyət verir. Biz "Sülh naminə tərəfdaşlıq" proqramının fəal iştirakçısı olaraq, təşkilatın strateji xəttini tam dəstəkləyir və bu işə töhfəmizi verməyə çalışırıq.

Sizi əmin edirəm ki, Azərbaycan NATO-nun bəyan etdiyi prinsiplərə daim sadiq qalacaq və əməkdaşlığımızın daha da dərinləşdirilməsi üçün əlindən gələni edəcəkdir.

Bir daha Sizə öz təbriklərimi yetirir, möhkəm cansağlığı, səadət, işlərinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *5 yanvar 2004-cü il*

**İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB YOZEF DAYSA**

Hörmətli cənab Prezident!

İsveçrə Konfederasiyasının prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə İsveçrə Konfederasiyası arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost İsveçrə xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *5 yanvar 2004-cü il*

**GÜRCÜSTAN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MİXAİL SAAKAŞVİLİYƏ**

Hörmətli cənab Prezident!

Dost Gürcüstanın prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Seçkilərdə Sizin qələbəniz xalqınızın Sizə bəslədiyi böyük etimadın təzahürüdür.

Əminəm ki, Siz bu yüksək vəzifədə fəaliyyətiniz dövründə Gürcüstanın qarşısında duran problemlərin həlli yolunda addımlarınız ilə seçicilərinizin ümidlərini doğruldacaqsınız.

Ümidvaram ki, xalqlarımız arasında tarixi ənənələrə malik möhkəm dostluq, mehriban qonşuluq və qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri daim inkişaf edəcək və genişlənəcəkdir.

İnanıram ki, ölkələrimizin birgə iştirak etdiyi irimiqyaslı transmilli iqtisadi layihələrin həyata keçirilməsi sahəsində səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə bir daha öz təbriklərimi yetirir, qardaş Gürcüstan xalqının rifahı naminə dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *6 yanvar 2004-cü il*

## AZƏRBAYCANIN PRAVOSLAV İCMASINA

Əziz həmvətənlər!

Sizi–Azərbaycanın bütün pravoslav xristianlarını müqəddəs Milad bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

İsa peyğəmbərin mövludu ilə əlamətdar olan Milad günü bəşər tarixinin yeni bir dövrünün təməlini qoyan mühüm günlərdən biridir. Bütün dünya xristianlarının böyük təntənə ilə qeyd etdiyi Milad bayramı insanların dostluq, mehribanlıq və əmin-amanlıq arzularını özündə təcəssüm etdirir. Müxtəlif din və mədəniyyətlərin əsrlər boyu konstruktiv dialoqunu təmin etmiş Azərbaycanda Milad bayramı xalqımızın bütün dinlərə bəslədiyi dərin ehtiramı əyani şəkildə nümayiş etdirərək, həmişə geniş keçirilmişdir.

Müstəqil Azərbaycan Respublikası xalqımızın tolerantlıq, dini və etnik dözümlülük ənənələrinə sadiq qalaraq ölkəmizin bütün dini icmalarının, o cumlədən pravoslav xristianların vicdan və dini etiqad azadlığını qanunvericiliklə təsbit etmiş, onlara öz dini ayin, mərasim və bəyanatlarını sərbəst şəkildə keçirmək üçün lazımi şərait yaratmışdır. Azərbaycanın pravoslav xristianları da ölkənin tamhüquqlu vətəndaşları kimi, digər dini icmaların nümayəndələri ilə yanaşı, müstəqil Azərbaycan Respublikasının hərtərəfli inkişafı naminə əllərindən gələni əsirgəmir, ölkənin siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak edirlər.

Hörmətli həmvətənlər!

Sizi əmin etmək istəyirəm ki, Azərbaycan dövləti dinindən, dilindən və milliyyətindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşının xoşbəxt həyata qovuşmasına yönəldilmiş siyasi xəttini bundan sonra da əzmlə davam etdirəcəkdir.

Milad bayramı münasibətilə hamınızı bir daha təbrik edir, hər birinizə cansağlığı, səadət və bayram əhval-ruhiyyəsi, işlərinizdə uğurlar arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*7 yanvar 2004-cü il*

## TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ VƏ BAŞ NAZİRİN MÜAVİNİ ABDULLAH GÜL VƏ ONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*10 yanvar 2004-cü il*

**İ l h a m Ə l i y e v**: Hörmətli cənab nazir!

Hörmətli qonaqlar, mən sizin hamınızı ürəkdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz.

Türkiyə ilə Azərbaycan arasında ənənəvi dostluq və qardaşlıq münasibətləri uğurla davam edir. Ölkələrimiz bütün sahələrdə sıx əməkdaşlıq edir. Bütün sahələrdə – siyasi, iqtisadi, hərbi, mədəni əməkdaşlıq günü-gündən güclənir və bu bizi çox sevindirir.

Azərbaycan tarixinin ən çətin dövrlərində Türkiyə daim bizim yanımızda olmuşdur. Biz bu dəstəyi hər zaman hiss etmişik və bu gün də hiss edirik. Əmin ola bilərsiniz ki, Azərbaycan da daim Türkiyənin yanında olacaqdır.

Azərbaycan üçün və bütün region üçün ən böyük və ən ciddi problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında da biz daim Türkiyənin dəstəyini hiss etmişik və edirik. Türkiyənin mövqeyi ədalətlidir və biz bu məsələ ilə bilavasitə məşğul olan ATƏT-in Minsk qrupunun da öz fəaliyyətində ciddi dönüş yaratmasını və münaqişənin ədalətli, beynəlxalq hüquq normaları əsasında həlli istiqamətində böyük səylər göstərməsini istəyirik. Azərbaycanın zəbt edilmiş torpaqları işğalçılardan azad olunmalı, bir milyona yaxın qaçqın-köçkün öz doğma torpaqlarına qayıtmalıdır.

Mən bilirəm ki, siz burada olduğunuz müddətdə çoxlu görüşlər keçirmisiniz. Bu görüşlər faydalı olmuşdur. Eyni za-

manda, mən Ankaraya etdiyim səfəri məmnunluq hissi ilə xatırlayıram. Orada keçirdiyim görüşlər ölkələrimiz üçün çox əhəmiyyətlidir. Əminəm ki, bu görüşlər bundan sonra da davam edəcəkdir, biz daim məsləhətləşmələr aparacağıq və bu görüşlərdə bütün məsələləri müzakirə edəcəyik.

Bir daha sizi salamlayıram və əmin olduğumu bildirmək istəyirəm ki, sizin bu səfəriniz də çox uğurlu keçəcək, ölkələrimiz bundan sonra bir-birinə daha yaxın olacaqdır.

**A b d u l l a h G ü l:** Hörmətli Prezident, səmimi qəbula görə təşəkkürümü bildirirəm. Hökumətimiz adından bir daha Sizi bu yüksək vəzifəyə seçilməyiniz münasibətilə təbrik edirik və uğurlar diləyirik. Azərbaycanın önündə açılan bu yeni səhifənin ölkəniz, şəxsən Sizin üçün və bütün türk dünyası üçün xeyirli və uğurlu olmasını arzulayırıq.

İtirdiyimiz və sadəcə, Azərbaycanın deyil, bütün türk dünyasının ən görkəmli dövlət adamlarından, çox dəyərli insanlarından biri olan Heydər Əliyevə bir daha Allahdan rəhmət diləyirik və sizlərə başsağlığı veririk. Şübhəsiz ki, onun göstərdiyi xidmətlər daim anılacaq, Azərbaycanın yeni dövründə də ölkənizi irəli aparacaq və liderliyiniz dövründə Sizə yardımçı olacaqdır.

Türkiyə ilə Azərbaycan arasında mövcud olan dostluq əlaqələrini anlatmağa heç də ehtiyac yoxdur. Bu, təbii olan bir şeydir və bunu ən gözəl şəkildə rəhmətlik prezident, hörmətli Heydər Əliyev ifadə etmişdir. Biz bir millətik, amma ayrı-ayrı dövlətlərimiz vardır. İndi bu ayrı-ayrı dövlətlərimizi daha güclü və bu dövlətlərdə yaşayan millətimizi daha xoşbəxt, daha inkişaf etmiş və daha yüksəlmiş bir vəziyyətə gətirmək üçün əməkdaşlığımızı gücləndirmək əzmindəyik. Keçmişdə gördüyümüz işlər məhz bu istiqamətdə olmuşdur. Çox səmərəli, faydalı və əhəmiyyətli görüşlər keçirilmişdir.

Bildiyiniz kimi, Qarabağ problemi təkcə Azərbaycanın deyil, həm də bizim problemimizdir. Bu məsələnin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və sülh yolu ilə həll edilməsi üçün səylər göstərilməkdədir. Ümid edirik ki, bizim

göstərdiyimiz bu xoş niyyəti qarşı tərəf də göstərəcəkdir və bütün dünya bu münaqişəni sülh yolu ilə nizama salmaq üçün ədalətli və tərəfsiz şəkildə kömək edəcək və Azərbaycanın işğal olunmuş torpaqları azad ediləcəkdir. Bu istiqamətdə Türkiyə əlindən gələn hər cür köməyi göstərəcəkdir. Buna heç bir şübhə olmamalıdır.

Mən hörmətli prezidentimiz Əhməd Necdət Sezərin də Yeni il arzularını və salamlarını çatdırıram. Sizləri Türkiyədə görməkdən çox böyük xoşbəxtlik duyacağıq. Təkcə prezidentimiz və hökumətimiz deyil, bütün türk xalqı bundan məmnun olacaqdır. Bu səfərin ən qısa zamanda və Sizə münasib olan bir vaxtda həyata keçiriləcəyinə inanırıq.

Bir daha bu yüksək vəzifənizdə Sizə uğurlar diləyirik. Burada bir daha Azərbaycan xalqının xoşbəxt gələcəyinə inam ifadə etmək istəyirik.

**İlham Əliyev:** Çox sağ olun. Təşəkkür edirəm. Eyni zamanda Sizdən də rica edirəm ki, mənim də səmimi salamlarımı hörmətli prezident Əhməd Necdət Sezərə və hörmətli Baş nazir Rəcəb Tayyib Ərdoğana çatdırasınız. Mən bu dəvətə görə də Sizə minnətdaram və böyük məmnuniyyətlə yaxın zamanlarda qardaş ölkəyə səfər edəcəyəm.

**ƏFQANISTAN İSLAM DÖVLƏTİ
KEÇİD HÖKUMƏTİNİN BAŞÇISI
ZATİ-ALİLƏRİ
CƏNAB HƏMİD KƏRZAİYƏ**

Zati-aliləri!

Əfqanıstan İslam Dövlətinin yeni Konstitusiyasının qəbul edilməsi münasibətilə Sizi və bütün dost Əfqanıstan xalqını səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, yeni Konstitusiyanın qəbul edilməsi ölkənizdə dövlətçiliyin inkişafında və möhkəmləndirilməsində, vətəndaş həmrəyliyinin, sülhün, sabitliyin və tərəqqinin təmin olunmasında mühüm rol oynayacaqdır.

Əminəm ki, Azərbaycan Respublikası ilə Əfqanıstan İslam Dövləti arasında dostluq və əməkdaşlıq münasibətlərinin genişləndirilməsi üçün bundan sonra da səylərimizi davam etdirəcəyik.

Sizə dost Əfqanıstanın hərtərəfli inkişafı yolunda uğurlar, xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *12 yanvar 2004-cü il*

**ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA**

Hörmətli İslam Əbdüqəniyeviç!

Daşkənd şəhərində baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *14 yanvar 2004-cü il*

**BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ BAŞ KATİBİ ZATİ-ALİLƏRİ CƏNAB KOFİ ANNANA**

Hörmətli cənab Baş katib!

Daşkənd şəhərində baş vermiş təyyarə qəzası nəticəsində Birləşmiş Millətlər Təşkilatının yüksək rütbəli əməkdaşı, təşkilatınızın Özbəkistandakı rezident əlaqələndiricisi Riçard Konroyun həlak olması xəbərindən olduqca kədərləndim.

Bu faciə ilə əlaqədar Sizə, mərhumun ailəsinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *14 yanvar 2004-cü il*

**HİNDİSTAN RESPUBLİKASININ
PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ƏBDÜL KALAMA**

Hörmətli cənab Prezident!

Hindistan Respublikasının milli bayramı – Respublika günü münasibətilə Sizi və dost Hindistan xalqını şəxsən öz adımdan və bütün Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, qədim ənənələrə malik Azərbaycan–Hindistan əlaqələrinin, dostluq və əməkdaşlıq münasibətlərimizin inkişafı üçün bundan sonra da səylərimizi davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Hindistan xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *16 yanvar 2004-cü il*

**HİNDİSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ
CƏNAB ATAL BİHARİ VACPAİYƏ**

Hörmətli cənab Baş nazir!

Hindistan Respublikasının milli bayramı – Respublika günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm. Ümidvaram ki, xalqlarımızın mənafeyinə uyğun olaraq Azərbaycan ilə Hindistan arasındakı dostluq və əməkdaşlıq münasibətləri daim inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *16 yanvar 2004-cü il*

**AVSTRALİYANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB CON HOVARDA**

Hörmətli cənab Baş nazir!

Ölkənizin milli bayramı – Avstraliya günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Avstraliya arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Avstraliya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *16 yanvar 2004-cü il*

## İRAN İSLAM RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRİNİN BİRİNCİ MÜAVİNİ MÖHSÜN ƏMİNZADƏ VƏ ONU MÜŞAYİƏT EDƏN ŞƏXSLƏRLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*16 yanvar 2004-cü il*

**İ l h a m Ə l i y e v:** Hörmətli qonaqlar, mən sizi ürəkdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

İlk növbədə, Kirman vilayətində, Bəm şəhərində baş vermiş dəhşətli zəlzələ ilə əlaqədar bütün İran xalqına, həlak olanların qohumlarına, yaxınlarına başsağlığı verirəm. Allah onlara rəhmət eləsin. Bu dəhşətli təbii fəlakət bizim hamımızı kədərləndirdi və sarsıtdı. Amma eyni zamanda, bir daha göstərdi ki, bizim xalqlarımız bir-birinə nə qədər yaxındır. Azərbaycan dərhal öz köməyini təklif etdi, bizim mütəxəssislərimiz oraya getdilər. Biz hamımız bir daha gördük ki, çətin günlərdə bir-birimizə kömək edirik, bir-birimizə arxa oluruq.

Ümumiyyətlə, ölkələrimiz arasında əlaqələr uğurla inkişaf edir. Xüsusilə Azərbaycanın ümummilli lideri prezident Heydər Əliyevin 2002-ci ilin may ayında İrana rəsmi səfərindən sonra bu münasibətlər yeni pilləyə qalxıbdır. Biz də çalışmalıyıq ki, bu münasibətləri daha da inkişaf etdirək, İranla Azərbaycan arasında olan dostluq əlaqələrini genişləndirək. Siyasi, iqtisadi, mədəni sahələrdə əməkdaşlığımız çox uğurludur.

Azərbaycan üçün, bütün region üçün ən ağır problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsində də biz İranın dəstəyini daim görürük. Azərbaycanın ədalətli mövqeyi beynəlxalq təşkilatlarda İran tərəfindən dəstəklənir və mən buna görə sizə, İran rəhbərliyinə, bütün İran xalqına bir daha öz minnətdarlığımı bildirmək istəyirəm.

Ədalət bərpa olunmalıdır, Azərbaycanın işğal olunmuş torpaqları azad olunmalıdır, bir milyon qaçqın-köçkün öz doğma torpaqlarına qayıtmalıdır. Mən ümid edirəm ki, bilavasitə bu məsələ ilə məşğul olan qurumlar, ölkələr və o cümlədən regiondakı ölkələr bu istiqamətdə öz səylərini bundan sonra da göstərəcəklər və bu münaqişə tezliklə beynəlxalq hüquq normaları əsasında öz həllini tapacaqdır.

İqtisadi sahədə də münasibətlərimiz inkişaf edir. Azərbaycan Şimal–Cənub dəhlizi layihəsində də fəal iştirak etmək niyyətindədir və mən bilirəm ki, bu məsələdə də İranın mövqeyi müsbətdir. Ölkələrimiz arasında enerji mübadiləsi aparılır və hər iki ölkə bundan faydalanır. Mən bilirəm ki, indi görülən işlər, gələcəkdə görüləcək işlər nəticəsində bu mübadilənin həcmi artacaqdır. Beləliklə, həm İranın, həm də Azərbaycanın tələbatları daha da böyük həcmdə ödəniləcəkdir.

Bakı–Astara avtomobil yolunun bərpası, daha doğrusu, yenidən qurulması istiqamətində də işlər görülür. Əminəm ki, yaxın gələcəkdə bu istiqamətdə də əməli addımlar atılacaqdır. Bir sözlə, siyasi iradə olan yerdə qarşımızda duran bütün məsələlər öz müsbət həllini tapa bilər və mən əminəm ki, belə də olacaqdır. Bizim münasibətlərimiz bundan sonra da uğurla inkişaf edəcəkdir.

**Möhsün Əminzadə:** Möhtərəm cənab Prezident, vaxt ayırıb məni qəbul etdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirirəm.

Mənə söylədiyiniz fikirlərə görə dərin təşəkkürümü bildirirəm. Mən bilirəm ki, başınız çox qarışıqdır, müxtəlif problemlərin həlli ilə məşğulsunuz. Bu səbəbdən vaxt tapıb bizi qəbul etdiyinizə görə Sizə minnətdarlığımı bildirirəm.

İcazə verin, ilk öncə, İran prezidenti cənab Seyid Məhəmməd Xatəminin salamlarını Sizə yetirim. Mənə tapşırıblar ki, Sizi İran İslam Respublikasına səfərə dəvət edim. İran prezidentinin niyyəti var idi ki, cənab prezident Heydər Əliyevin sağlığında Azərbaycana səfər etsin. Amma bu, qismət olmadı. Lakin əmindir ki, münasib bir vaxtda Azərbaycana səfər

edəcəkdir. Biz ümid edirik ki, bu yeni ildə həm Sizin İrana səfərinizin, həm də İran prezidentinin Azərbaycana səfərinin şahidi olacağıq. İki ölkənin əlaqələri bizi vadar edir ki, bu səfərləri həyata keçirək.

Mən özümə borc bilirəm ki, Azərbaycanın milli lideri cənab Heydər Əliyevin vəfatı ilə əlaqədar Sizə və Azərbaycan xalqına başsağlığı verim.

Bu mənim Azərbaycana üçüncü səfərimdir. İlk səfərimi təqribən bir il bundan öncə etmişdim. Mən çox iftixarla, qürurla deyə bilərəm ki, həmin bu binada bir il əvvəl mən möhtərəm Heydər Əliyev ilə görüşmüşdüm. O mənimlə bir saata yaxın, çox səmimiliklə söhbət etdi və dedi ki, çalışıram iki ölkə arasındakı əlaqələri, əməkdaşlığı daha da genişləndirək. Çox çalışırdı ki, bu əlaqələr genişlənsin. Yadımdadır, dedi ki, bizim çox vaxtımız yoxdur, qısa vaxtda bütün məsələləri həll etməliyik.

Biz bunu hiss edirik və özümüzü borclu sayırıq ki, onun buyurduğu həmin yolu keçək və qarşımızda olan vəzifələri yerinə yetirək. Prezident Heydər Əliyevin ömrünün son illəri İran–Azərbaycan əlaqələrinin daha rövnəq tapmış illəri idi və bu əlaqələrin inkişaf etməsi, genişlənməsi üçün onun vəsiyyətlərini yerinə yetirməliyik. Onun vəsiyyəti yerinə yetirilmək baxımından çox ağırdır və şəxsən mən özümə fəxr bilirəm ki, bu işi öhdəmə, çiyinlərimə götürmüşəm.

Mən cənab alinizin prezident seçilməsi münasibətilə öz təbriklərimi yetirirəm və ümid edirəm ki, Siz atanızın qoyduğu vəzifələri ləyaqətlə yerinə yetirəcəksiniz. İnanıram ki, Sizin rəhbərliyiniz altında iki ölkə arasındakı əlaqələr daha da inkişaf edəcək, daha da genişlənəcəkdir. Atanızla görüşəndə ona söz vermişdim ki, ölkələrimiz arasında əlaqələrin genişləndirilməsinə çalışacağam. İndi həmin sözü Sizə də verir və bildirirəm ki, əlimdən gələni əsirgəməyəcəyəm. Bu təkcə mənim qərarım deyil, bizim səfirimizin də qərarı və fikri budur.

İranda baş vermiş faciəli zəlzələ ilə əlaqədar göstərdiyiniz diqqətə, köməyə görə Sizə minnətdarlığımı bildirirəm, Azər-

baycan xalqına, Azərbaycan dövlətinə minnətdarlığımı bildirirəm. Sizin İranın Bakıdakı səfirliyinə gəlməyiniz və orada göstərdiyiniz diqqətə görə də dərin təşəkkürümü bildirirəm. Sizin buyurduğunuz kimi, bütün bunlar iki ölkə arasındakı əlaqələrin dərinliyindən, bağlılığından xəbər verir. Bütün bunlara görə Sizə minnətdaram.

İqtisadi layihələr baxımından da biz çox ümidlə çalışırıq ki, bunları genişləndirək. Bakı–Astara yolunun yenidən qurulması ilə əlaqədar İran dövləti 40 milyon dollar həcmində kredit ayırmışdır. Biz bununla əlaqədar dünən İqtisadi İnkişaf naziri cənab Fərhad Əliyev ilə söhbət etdik və işin sürətləndirilməsi yollarını aradıq. Biz Naxçıvanın qazla təmin olunması məsələsində razılaşdıq ki, əvəzetmə yolu ilə müəyyən bir yerdən qaz veririk və müəyyən tərəfdən qaz alırıq. Qeyd etdiyim və qeyd etmədiyim digər sahələr üzrə də əlaqələrimizi genişləndirməyə çalışırıq və Sizin diqqətiniz, nəzarətiniz altında bunu yerinə yetirməyə çalışacağam.

**İlham Əliyev**: Çox sağ olun, təşəkkür edirəm. Doğrudan da, çox mühüm layihələrdir, mühüm işlərdir. Biz gələcəkdə bunların hamısını birlikdə görəcəyik. O cümlədən, Naxçıvana qazın verilməsi barəsində də danışıqlar gedibdir, demək olar, son mərhələyə çatıbdır. Biz bu sahədə mübadilə yolu ilə Naxçıvanı qazla təmin edə bilərik. Eyni zamanda, digər tərəfdən, İrana qaz verə bilərik. Yəni belə layihələr çox ola bilər. Biz çox istəyirik ki, bütün sahələrdə əməkdaşlığımız inkişaf etsin.

Mən keçən ay beynəlxalq tədbirdə hörmətli cənab prezident Xatəmi ilə görüşmüşdüm. Qısa olsa da, çox səmimi söhbət etdik və qərarlaşdıq ki, yaxın zamanlarda mən İrana, cənab Xatəmi isə Azərbaycana səfər edəcəyik. Ona görə sizdən bir daha xahiş edirəm ki, bu dəvətə görə mənim minnətdarlığımı cənab prezidentə çatdırasınız. Əminəm ki, yaxın zamanlarda bu səfərlər baş tutacaq və bunların nəticəsində ölkələrimiz bir-birinə daha da yaxın olacaqlar.

## QANLI YANVAR FACİƏSİNDƏ HƏLAK OLANLARIN ƏZİZ XATİRƏSİNİ YAD ETMƏK ÜÇÜN ŞƏHİDLƏR XİYABANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*Bakı, Şəhidlər xiyabanı*

*20 yanvar 2004-cü il*

**S u a l: Cənab Prezident, istəyirik bizim tariximiz olan 20 Yanvarla bağlı Sizin fikirlərinizi öyrənək. Azərbaycan prezidenti nəyin yaddan çıxarılmamasının, hansı məsələlərə diqqət yetirilməsinin vacibliyini düşünür?**

**C a v a b:** Azərbaycan xalqı bu günü heç vaxt yaddan çıxarmayacaq və gələcəkdə də hər il bu gün qeyd olunmalıdır. Azadlıq, müstəqillik uğrunda, Vətən uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli Azərbaycan xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur. Bu da heç vaxt yaddan çıxarılmamalıdır.

**S u a l: Cənab Prezident, Heydər Əliyevin adının əbədiləşdirilməsi ilə bağlı komissiya yaradıldı və müxtəlif təkliflər verilibdir. Şəhərlərə onun adının verilməsi barədə və digər təkliflər var. Siz bu təkliflərin hansını məqbul hesab edirsiniz?**

**C a v a b:** Komissiyaya çoxlu təkliflər daxil olubdur. Əlbəttə, hər bir təklifə diqqətlə baxılacaqdır. Hələlik bir şey deyə bilmərəm. Amma görüləcək tədbirlər Heydər Əliyevin adına layiq olmalıdır. Mən indidən bir şey demək istəmirəm. Amma bu tədbirlərin kütləvi xarakter almasının da tərəfdarı deyiləm. Biz bu məsələyə çox diqqətlə yanaşmalıyıq, onun adına layiq, bilavasitə onun adı ilə bağlı olan müəssisələr və obyektlər Heydər Əliyevin adını daşımalıdır. Amma konkret bir şey deyə

bilmərəm. Komissiya bu məsələyə baxandan sonra qərar veriləcəkdir.

**S u a l: Cənab Prezident, insanların çoxu Heydər Əliyevə məhz bu ərazidə heykəl qoyulmasını təklif edir. Siz buna necə baxırsınız?**

**C a v a b:** Komissiya bu təklifə də baxacaqdır. Əlbəttə, mən hesab edirəm ki, Azərbaycan tarixində böyük xidmətləri olmuş insan kimi, Azərbaycanın müstəqilliyinin təminatçısı kimi, müstəqil Azərbaycanın banisi kimi, gərək Heydər Əliyevə layiq olan abidə ucaldılsın. Bu məsələ ilə bağlı müxtəlif təkliflər var. Əlbəttə, komissiya bunlara baxacaqdır. Eyni zamanda, ictimaiyyətin rəyi də nəzərə alınmalıdır. Bütün bu amillər nəzərə alınandan sonra hansısa qərardan söhbət gedə bilər. Təbiidir ki, heykəl olacaq, onun yeri də müəyyən ediləcəkdir.

**S u a l: Cənab Prezident, Fransaya səfəriniz zamanı hansı məsələlərin müzakirəsi nəzərdə tutulmuşdur? Fransa Minsk qrupunun həmsədridir, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hansısa müzakirələr gözlənilirmi?**

**C a v a b:** Təbii ki, bu məsələ müzakirə olunacaqdır. Ölkəmiz üçün ən mühüm məsələ Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmasıdır. Fransa da Minsk qrupunun həmsədri kimi, bu istiqamətdə daha fəal rol oynamalıdır. Ona görə düşünürəm ki, bu məsələ danışıqlarımızın əsas mövzusu olacaqdır.

Eyni zamanda, ikitərəfli münasibətlərimiz də çox uğurla inkişaf edir. Azərbaycan Avropa strukturlarına inteqrasiya edir, neçə ildir Avropa Şurasının üzvüdür. Avropa İttifaqı ilə əməkdaşlıq da yeni mərhələyə qalxır. Bütün bu amilləri, eyni zamanda, dünyada gedən proseslərdə böyük Avropanın yerini nəzərə alaraq, biz çox maraqlıyıq ki, Fransa ilə də, digər Avropa ölkələri ilə də münasibətlərimizi daha da inkişaf etdirək. İqtisadi məsələlər, Fransa şirkətlərinin Azərbaycana investisiyalar qoyması – bütün bu məsələlərə baxılacaqdır.

**S u a l: Cənab Prezident, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli sahəsində ATƏT-in fəaliyyəti Sizi qane edirmi? Ümumiyyətlə, hər hansı bir irəliləyiş gözləyirsinizmi?**

**C a v a b:** Məni qane etmir. Yəni heç kimi qane etmir. Son illər ərzində ATƏT-in fəaliyyəti uğursuz olubdur. Bunu hamımız bilirik. Mən də öz fikrimi həmsədrlərə demişəm. Gərək onlar yeni təkliflər hazırlasınlar. Yəni işğalçıya daha böyük təzyiq göstərməlidirlər.

Əlbəttə, əgər bu hansısa bir nəticəyə gətirib çıxararsa, prezidentlər görüşməlidirlər. Ancaq eyni zamanda, ATƏT özünü kənar müşahidəçi kimi aparmamalıdır. Ona görə də onlardan çox şey gözləyirik.

**S u a l: Cənab Prezident, son zamanlar Azərbaycanda torpaqlarımızın hərbi yolla azad edilməsi əhval-ruhiyyəsi artıbdır. Adətən, belə məqamlarda xaricdən, xüsusilə Qərb ölkələrindən Azərbaycana təzyiqlər başlayır. Azərbaycan prezidentinə bununla bağlı hansısa fikirlər söylənilibmi və Sizcə, bu əhval-ruhiyyənin artmasının səbəbi nədir?**

**C a v a b:** Bilirsiniz ki, biz dəfələrlə demişik və hesab edirəm, Azərbaycanın siyasi həyatının bütün təbəqələri bildirmişlər ki, ölkəmiz bu münaqişənin sülh yolu ilə həll olunmasının tərəfdarıdır. Bu, həqiqətən də belədir. Biz müharibə istəmirik. İstəmirik ki, insanlarımız yenə şəhid olsun, yenə qurbanlar verək. Bunu kim istəyər ki?!

Təzyiqlərə gəldikdə isə, hələ bir söz deyə bilmərəm. Hələ ki, bu məsələ ilə bağlı təzyiqlər olmayıbdır. Ancaq mən Minsk qrupunun həmsədrlərinə və bu məsələ ilə məşğul olan digər şəxslərə dəfələrlə bildirmişəm ki, bizim səbrimiz tükənir. Axı biz bu vəziyyətlə, ikili standartlarla nə qədər barışmalıyıq? Azərbaycanın tam haqqı var ki, istənilən vaxt bütün vasitələrdən istifadə edərək, öz torpaqlarını azad etsin. Amma bunun vaxtı var, bunun siyasəti var. Hesab edirəm ki, hələlik danışıqların aparılması zəruridir.

Mən Ermənistan prezidenti ilə bir dəfə görüşmüşəm, lazım gələrsə, gələcəkdə görüşlər yenə də olacaqdır. Əgər tam əmin olsaq ki, bu məsələ sülh yolu ilə öz həllini tapmır, ümumiyyətlə, bunun həlli perspektivləri yoxdur, əlbəttə, biz başqa variantlar haqqında düşünməliyik.

Eyni zamanda, mən qəti əminəm ki, Azərbaycan öz iqtisadi potensialını gücləndirməlidir. Bu proses artıq uğurla gedir. Azərbaycana qoyulan böyük həcmdə investisiyalar iqtisadiyyatımızı irəliyə aparır. Azərbaycanın ümumi daxili məhsulunun artımı, neft gəlirləri, digər bütün iqtisadi göstəricilər onu göstərir ki, bir ildən sonra Azərbaycan iqtisadi cəhətdən çox güclü ölkəyə çevriləcəkdir.

Əlbəttə, bu gün Ermənistanla Azərbaycanın iqtisadi potensialı müqayisəedilməzdir. Sabah, iki, üç ildən sonra bu uçurum daha da dərinləşəcəkdir. Azərbaycan iqtisadi cəhətdən güclü dövlətə çevriləcək, Ermənistanda isə belə perspektivlər yoxdur. Hərbi və iqtisadi potensialımızı gücləndirdikcə, mən əminəm ki, biz istədiyimizə sülh yolu ilə nail ola biləcəyik. Yox, əgər bu mümkün olmasa, əlbəttə, biz bu vəziyyətlə barışmamalıyıq. Vətənpərvərlik əhval-ruhiyyəsi güclənməlidir. Hər bir vətəndaş, hər bir gənc, hər bir uşaq bu ruhda tərbiyə olunmalıdır. Öz torpaqlarımızı azad etməliyik və əminəm ki, edəcəyik.

**S u a l: Cənab Prezident, son günlər mətbuatda kadr dəyişikliklərinin olacağı barədə fikirlər səslənir. Hansısa dəyişiklik edəcəksinizmi?**

**C a v a b:** Bu mənim səlahiyyətimdir. Bilirsiniz ki, mən öz fikirlərimi həmişə açıq şəkildə həm sizə, həm də ictimaiyyətə çatdırıram. Yəni heç nəyi gizlətmirəm, nə var onu deyirəm. Ona görə mən bu vəzifəyə gələndən sonra, hələ Baş nazir vəzifəsinə təyin olunandan sonra da bu məsələ ilə bağlı öz fikirlərimi demişəm. Hesab edirəm ki, Azərbaycanda çox güclü kadr potensialı yaranıbdır. Bu potensialı, peşəkar insanları qorumaq lazımdır. Sizə deyim ki, onlar Azərbaycanda o qədər də böyük sayda deyillər. Əlbəttə, hər bir məmura, hər bir vəzifəli şəxsə

eyni gözlə baxıram. Mən ayrı-seçkilik eləmirəm və hesab edirəm, kim öz vəzifə borcunu ləyaqətlə yerinə yetirirsə, əlbəttə, öz işinə davam etməlidir.

**S u a l: Cənab Prezident, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin çəkilişi ilə bağlı Türkiyə tərəfdə ciddi problemlər var. Hətta "bp–Azərbaycan" şirkətinin rəhbəri Devid Vudvord da bildirmişdir ki, bu, hansısa ləngimələrə səbəb ola bilər. Bu baxımdan narahat edə biləcək ciddi problem varmı və Türkiyənin rəsmi dairələri ilə hər hansı söhbət aparılıbmı?**

**C a v a b:** Əlbəttə, bu söhbətlər mütəmadi qaydada aparılır. Bakı–Tbilisi–Ceyhan layihəsi uğurla davam edir və hamımızın arzusudur ki, kəmər vaxtında istismara verilsin. Bəzən müəyyən çətinliklər olur, yubanmalar olur. Bəlkə də bu, təbii xarakter daşıyır. Amma, əlbəttə, bu barədə həm Gürcüstan, həm də Türkiyə rəhbərləri ilə mənim söhbətlərim olubdur.

Türkiyənin Xarici İşlər naziri cənab Abdullah Gül Bakıda səfərdə olarkən bu barədə də söhbət elədik. Eyni zamanda, mən təklif elədim ki, bu ayın sonunda Türkiyə ilə bizim müştərək komissiyamızın iclası keçirilsin. Bizim komissiyanın nümayəndəsi Abid Şərifov Türkiyəyə səfər edəcək və orada komissiya bütün məsələlərə baxacaqdır. Əgər hansısa yubanma varsa, bunun qarşısını almaq üçün hələ ki, imkanlar vardır. Mən əminəm ki, bu layihə vaxtında istismara veriləcəkdir. Türkiyə tərəfinin də fikri belədir. Onlar bizi əmin ediblər ki, Türkiyə ərazisində vaxtı-vaxtında bütün lazımi işlər görüləcəkdir.

**S u a l: Cənab Prezident, Sizin sosial-iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı geniş Fərmanınız oldu. Bu Fərmanın icrasından razısınızmı?**

**C a v a b:** Hələ onun icrasına başlanmayıbdır. O fərmanda iqtisadi inkişafın əsas istiqamətləri, konseptual fikirlər müəyyən olunubdur. Əlbəttə, bu Fərmanın nəticəsində müxtəlif addımlar atılacaqdır. İndi Nazirlər Kabineti bu məsələ ilə bağlı məşğul olur. İqtisadi İnkişaf Nazirliyi Azərbaycanın gələcək sosial-iqtisadi inkişaf proqramını hazırlayır. Yaxın zamanlarda bu

proqram da təsdiq olunacaqdır. Mən istəyirəm ki, verilən hər bir Fərman, qəbul olunan hər bir qərar, yaxud proqram həyata keçirilsin. Yəni onun icra mexanizmləri olsun. Mən bunu, sadəcə olaraq, bəyanat üçün etmirəm. Bu mənim fikirlərimdir. Mən bu fikirlərlə yaşayıram.

Bilirsiniz ki, mən iqtisadiyyatla bağlı məsələlərlə keçmişdə də məşğul olmuşam. Bilirəm ki, nə etmək və necə etmək lazımdır. Əlbəttə, bunu etmək üçün həm qanunvericilikdə bəzi dəyişikliklər edilməlidir, həm də maliyyə resursları olmalıdır, investisiya cəlb edilməlidir. İlk növbədə isə, sahibkarlara gözəl şərait yaradılmalıdır. Əgər biz xarici investorlar üçün bu şəraiti yaratmışıqsa, bunun nəticələrini görürüksə, deməli, yerli sahibkarlar üçün də eyni şəraiti yaratmalıyıq. Mən hesab edirəm ki, nə qədər sərbəstlik, nə qədər liberallıq olarsa, biz bir o qədər də bunun tez gözəl nəticələrini görəcəyik. Əminəm ki, bu Fərman icra olunacaqdır.

Bundan əlavə, başqa fikirlər də var. Azərbaycan hərtərəfli inkişaf etməlidir. Əminəm ki, gələcək beş il ərzində iqtisadi inkişafda bizi böyük uğurlar gözləyir.

**S u a l: Cənab Prezident, Siz ölkənin bütün regionlarındakı vəziyyətlə tanış ola bilmisinizmi? Yəni dediyiniz proqramda çox məsələlər nəzərdə tutulubdur. Regionlarda ilk növbədə nədən başlamaq lazımdır? Çünki orada, əsasən, kənd təsərrüfatı ilə məşğul olurlar və narazılıq da emal müəssisələri ilə bağlıdır. Bununla əlaqədar hansı addımlar atılacaqdır?**

**C a v a b:** Bununla bağlı müxtəlif addımlar olacaqdır. Əlbəttə, bilirsiniz ki, Azərbaycanda bu sahə, demək olar, bütünlüklə özəl sektorun əlindədir. Dövlətin burada bilavasitə investor kimi iştirak etməsi də düzgün olmazdı. Ona görə ilk növbədə, emal müəssisələrinin yaradılması üçün şərait təmin edilməli, kreditlər verilməlidir. İnvestorlarda arxayınlıq olmalıdır. Onlar əmin olmalıdırlar ki, qoyduqları sərmayə batmayacaq, buna kimsə, hansısa məmur şərik çıxmayacaq, heç kəs onlardan qeyri-qanuni imtiyazlar tələb etməyəcəkdir.

Biz investorları qorumalıyıq. Heç kəs üçün sirr deyil ki, bəzən belə xoşagəlməz hallarla da üzləşirik. Hansısa şirkət, yaxud sahibkar iş görmək istəyir, bu məsələ ilə məşğul olan dövlət adamları isə öz maraqlarını güdürlər. Buna son qoyulmalıdır və qoyulacaqdır. Mən bu fürsətdən istifadə edib bir daha demək istəyirəm ki, buna son qoyulmalıdır. Azərbaycanda sərmayə qoymaq istəyən şəxslərə bütün şərait yaradılmalıdır.

Ümumiyyətlə, regionlarda inkişaf potensialı çox güclüdür. Azərbaycanın gözəl təbiəti var, gözəl insanları var. Biz şərait yaratmalıyıq ki, orada işlər daha da uğurla getsin. Azərbaycanın regional inkişaf proqramı da dediyim həmin proqramın tərkib hissəsidir. Azərbaycan təkcə Bakıdan ibarət deyil, ölkəmizin gücü, gələcəyi məhz regionlarla bağlıdır. Bu məsələyə ciddi fikir verilir. Mən seçkiqabağı çıxışlarımda da bu məsələni xüsusilə qeyd etmişdim və bundan sonra da bu məsələ ilə ciddi məşğul olacağam. Regionlara səfər edəcək, məsələ ilə daha yaxından tanış olacağam ki, biz burada da ciddi dönüş yaradaq.

**S u a l: Cənab Prezident, Siz Gürcüstana gedəcəksiniz. Orada rəsmi şəxslərlə hər hansı ikitərəfli danışıqlar gözlənilirmi?**

**C a v a b:** Mən deyə bilərəm ki, bu məlumat qeyri-dəqiqdir. Bu barədə hansısa informasiya kanalı, yaxud agentlik məlumat vermişdir. Halbuki, bu, həqiqətə uyğun deyil. Mən bütün media qurumlarına məsləhət görərdim ki, prezidentin səfəri ilə bağlı olan xəbərləri onlar Prezident Aparatı ilə dəqiqləşdirsinlər.

Mən bu səfəri planlaşdırmıram. Bilirsiniz ki, mənim Fransaya rəsmi səfərim olacaqdır. Elə çıxır ki, bunlar bir vaxta, üst-üstə düşür? Ümumiyyətlə, keçmişdə də belə bir praktika olmayıbdır.

Əlbəttə, biz Gürcüstanla ikitərəfli münasibətlərimizi davam etdirməliyik. Mən bu son müddət ərzində Gürcüstanın, demək olar, bütün rəhbərləri ilə əlaqə saxlamışam. Həm dövlət naziri, həm də parlamentin spikeri buraya gəlmişdilər. Gürcüstanın yeni seçilmiş prezidenti ilə də əlaqə saxlayıram. Biz qəti əminik ki, ikitərəfli münasibətlər inkişaf etməlidir. Azərbaycanın və

Gürcüstanın uğurları ancaq bir yerdə ola bilər, biz buna birgə nail ola bilərik. Gürcüstanda da eyni fikirdədirlər. Ona görə hesab edirəm, həm Bakı–Tbilisi–Ceyhan, həm də Bakı–Ərzurum layihələri bizi daha da yaxınlaşdıracaqdır. Xalqlarımız əsrlər boyu mehriban yaşayıblar və bu, davam etməlidir.

Demək istəyirəm ki, mənim yeni vəzifəmlə bağlı sizinlə əlaqələrim o qədər də lazımi səviyyədə deyildir. Çünki keçmişdə mən cənab prezidenti gözləyəndə də, başqa tədbirlərdə də – həmişə sizinlə söhbət edirdim. İndi protokol qaydaları belədir ki, bu məni sizinlə ünsiyyətdən bir az məhrum edir. Ona görə imkan olanda siz, məsələn, Qənirə xanım kimi – mənə müraciət edin ki, biz tez-tez görüşək.

**S u a l: Cənab Prezident, fəaliyyətinizin 100 günü yaxınlaşır. Siz bu müddəti necə qiymətləndirərdiniz?**

**C a v a b:** Mən onu deyə bilmərəm. Hələ ki, 100 günə var. Yəqin ki, müəyyən əlavə addımlar da atılacaqdır. Amma bu qiyməti yəqin xalq verməlidir, siz verməlisiniz. Mən bir şey deyə bilmərəm.

**S u a l: İlham müəllim, Heydər Əliyev həmişə şəhərə çıxırdı, insanlar arasında olurdu. Sizin də belə planlarınız varmı?**

**C a v a b:** Əlbəttə, mən də hesab edirəm ki, bu ünsiyyət daim olmalıdır. Xalq prezidenti seçir, prezident də xalqın qarşısında cavab verməlidir. Əlbəttə, prezidentin müxtəlif vəzifələri vardır. Bəlkə də adam bunu ancaq vəzifəyə gələndən sonra dərk edir ki, bu nə qədər məsuliyyətli, nə qədər çətin bir vəzifədir. Amma, eyni zamanda, rəhbərin xalqla birliyi, ümumiyyətlə, ən mühüm məsələdir. Harada bu birlik yoxdursa, harada rəhbər xalqdan ayrılırsa, o rəhbər vəzifədə çox qala bilməz. Rəhbərin əsas güc mənbəyi xalqdır. Əgər xalq onun fəaliyyətini dəstəkləyirsə, ona inanırsa, bu, ən böyük mükafatdır. Ona görə də bu əlaqələr, ünsiyyətlər, təmaslar olacaqdır.

**S u a l: Cənab Prezident, Siz seçkiqabağı çıxışlarınızda belə bir fikir söyləmişdiniz ki, əmək haqları artırılacaqdır,**

**2005-ci ildə Azərbaycana neftdən gəlirlər daxil olacaqdır. Gələn il əmək haqlarının artırılmasını gözləmək olarmı?**

**C a v a b:** Birincisi, mən seçkiqabağı çıxışlarımda bu barədə bir şey deməmişdim. Mən nə demişəm, onu xatırlayıram. Mən demişdim ki, yeni iş yerləri açılacaq, sosial məsələlər öz həllini tapacaq, neftdən əldə edilən gəlirlər səmərəli istifadə olunacaq və Azərbaycan xalqı da bundan faydalanacaqdır. Amma əmək haqları barədə bir şey deməmişdim. Əlbəttə, bu, təbii prosesdir. Azərbaycanın iqtisadiyyatı gücləndikcə bu məsələyə də baxılacaq, əmək haqları da qaldırılacaqdır.

Bilirsiniz ki, cənab prezident Heydər Əliyevin fərmanları ilə yaxınlarda, haradasa altı ay bundan əvvəl insanların böyük bir qrupunun əmək haqları qaldırılıbdır. Amma onu da bilməlisiniz ki, əmək haqları hər dəfə qaldırılanda istər-istəməz, bu, bazardakı qiymətlərə də təsir edir. Məsələn, pul kütləsi çoxalanda qiymətlər qalxır. Bu bir-biri ilə bağlı proseslərdir. Bu, iqtisadiyyatın qanunlarıdır. Ona görə də gərək biz buna çox həssaslıqla yanaşaq. Yəni hər şeyi ölçüb-biçmək lazımdır. Amma o da şəksizdir ki, Azərbaycan xalqı ildən-ilə daha yaxşı yaşamalıdır və yaşayacaqdır. Mən əlimdən gələni edəcəyəm ki, bunu təmin edim. Çox sağ olun.

## "BÖYÜK İPƏK YOLU DÖVLƏTLƏRİNDƏ NARKOTİK VASİTƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI MÜBARİZƏ" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

"Böyük İpək yolu dövlətlərində narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə" mövzusunda beynəlxalq konfransın iştirakçılarını salamlayaraq, ümidvar olduğumu bildirirəm ki, Bakı şəhərində keçirilən bu konfrans narkotik vasitələrin qanunsuz yayılmasına qarşı mübarizə sahəsində vacib mərhələ olacaqdır.

Qədim dövrlərdən ölkələri, xalqları birləşdirən nəqliyyat kommunikasiyaları dövlətlərin iqtisadi yüksəlişinə və tərəqqisinə xidmət edir. Belə yollardan biri hələ eramızdan əvvəl başlayaraq, böyük bir tarixi dövrdə Avrasiyanın əsas iqtisadi-mədəni bölgələrini – Çini, Hindistanı, Mərkəzi Asiyanı, Qafqazı, Orta və Yaxın Şərqi, Avropanı birləşdirən ticarət karvan yolları sistemindən ibarət Böyük İpək yolu olmuşdur.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci ildə Bakı şəhərində keçirilmiş və tarixi Böyük İpək yolunun bərpasına həsr olunmuş beynəlxalq konfransda dövlət başçılarının, beynəlxalq təşkilatların və 32 dövlətin nümayəndələrinin iştirakı ilə imzalanmış "Avropa–Qafqaz–Asiya" nəqliyyat dəhlizinin inkişafı üçün beynəlxalq nəqliyyat üzrə əsas çoxtərəfli Saziş" və onun Texniki Əlavələri bu ölkələrin əməkdaşlığını gücləndirməklə onların tərəqqisi üçün zəmin yaratmışdır.

Məlumdur ki, Böyük İpək yolunun bərpası ölkələrimiz arasında iqtisadi, ticarət, mədəni əlaqələrin daha da inkişaf etdirilməsinə xidmət edir və bütün dünya üçün müstəsna əhəmiyyət daşıyır.

Lakin sivilizasiyanın inkişafına, sülhə xidmət edən Böyük İpək yolunu tarixin müxtəlif dövrlərində müharibə cığırına

çevirməyə də cəhdlər göstərilmişdir. Hazırda da Böyük İpək yolundan bəd niyyətlərlə istifadə etmək arzusunda olanlar iqtisadi inteqrasiya, ticarət və nəqliyyat əlaqələrinin genişlənməsi proseslərindən sui-istifadə edərək, narkotiklərin qanunsuz dövriyyəsinin artırılmasına can atırlar.

Çoğrafi mövqeyindən, ictimai-iqtisadi quruluşundan, inkişaf səviyyəsindən, mədəni və tarixi ənənələrindən asılı olmayaraq, elə bir ölkə yoxdur ki, dövrümüzün qlobal problemlərindən biri olan narkotiklərin qanunsuz dövriyyəsi ilə qarşılaşmasın. Məlumdur ki, narkomaniya və narkobiznes insan cəmiyyətinin mənəvi və əxlaqi dəyərlərinə böyük zərbə vuran, sosial-iqtisadi inkişafa mənfi təsir göstərən, insanların həyat və sağlamlığına ciddi təhlükə yaradan, cinayətkarlığın artmasına səbəb olan amildir. Hazırkı konfrans da məhz dövlətlərin, beynəlxalq təşkilatların narkotiklərin qanunsuz dövriyyəsinə nə qədər böyük diqqət yetirdiyini, problemin nə dərəcədə aktual olduğunu bir daha sübut edir.

Azərbaycan dövləti də narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni ümumdövlət vəzifəsi hesab edərək, beynəlxalq birliyin bu sahədə bütün səylərini dəstəkləyir. Lakin Azərbaycan torpaqlarının bir hissəsinin Ermənistanın hərbi təcavüzü nəticəsində işğal olunması və bu ərazidə işğalçı rejimin mövcudluğu transmilli mütəşəkkil cinayətkarlığa, o cümlədən, narkotiklərin qanunsuz dövriyyəsinə, qaçaqmalçılığa, silah alverinə rəvac verir, beynəlxalq terrorçuluq üçün münbit zəmin yaradır və hər bir dövlətin təhlükəsizliyini təhdid edir.

Hörmətli konfrans iştirakçıları!

Əmin olduğumu bildirmək istərdim ki, "Böyük İpək yolu dövlətlərində narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə" mövzusuna həsr edilmiş beynəlxalq Bakı Konfransı dünyanın hər bir regionunda hökumətlərin, hüquq mühafizə orqanlarının qarşısında əsas vəzifələrdən birinə çevrilmiş narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə müxtəlif ölkələr və təşkilatlar arasında əməkdaşlığın istiqamətlərini və

strategiyasını müzakirə etmək imkanı yaradacaq və Böyük İpək yolu dövlətlərində narkotiklərin yayılmasına qarşı ciddi sipər çəkilməsinə kömək edəcəkdir.

Konfransın məram və məqsədlərinin həyata keçirilməsi, dövlətlərimizin qarşılıqlı əlaqələrinin inkişaf etdirilməsi istiqamətində fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *21 yanvar 2004-cü il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV FRANSADA

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Fransa Respublikasının prezidenti Jak Şirakın dəvəti ilə yanvarın 22–23-də bu ölkədə ilk rəsmi səfərdə olmuşdur. Yanvarın 22-də Parisin "Orli" beynəlxalq hava limanı Azərbaycanın və Fransanın dövlət bayraqları ilə bəzədilmiş, dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyevi Fransanın dövlət naziri Kristian Jakob, hökumətin yüksək vəzifəli şəxsləri böyük mehribanlıqla və səmimiyyətlə qarşıladılar.*

*Hərbi orkestrin ifasında Azərbaycanın və Fransanın dövlət himnləri səsləndi.*

*Prezident İlham Əliyev fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Dövlətimizin başçısı İlham Əliyevə onu qarşılamağa gələn Fransa hökumətinin nümayəndələri təqdim olundu.*

*İlham Əliyev ölkəmizin Fransadakı səfirliyinin əməkdaşları, burada yaşayan və təhsil alan soydaşlarımızla səmimi görüşdü.*

*Respublikamızın rəhbərinə və onun xanımı Mehriban Əliyevaya gül dəstələri təqdim edildi.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev fəxri motosikletçilər dəstəsinin müşayiəti ilə Parisdə onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

* * *

*Həmin gün Azərbaycan prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda – «Meuripce» mehmanxanasında Fransanın «Ye Fiqaro» qəzetinə və «LCI» özəl informasiya televiziya kanalına müsahibə verdi.*

## FRANSANIN ƏN NÜFUZLU MƏTBUAT ORQANLARINDAN OLAN "FİQARO" QƏZETİNƏ MÜSAHİBƏ

*Paris*

*22 yanvar 2004-cü il*

*Oktyabrda Azərbaycanın rəhbərliyində Ulu öndər Heydər Əliyevi əvəz etmiş yeni prezident İlham Əliyev xaricə ilk rəsmi səfərini dünən məhz Parisdən başladı. Ötən ilin son ayında Gürcüstanda baş vermiş "məxməri inqilab" narahat Qafqaz regionunda ruslar və amerikalılar arasındakı rəqabəti açıq-aydın nümayiş etdirdiyi bir zamanda, görünür, Paris seçimi heç də təsadüfi olmamışdır. Dövlət başçısı kimi, beynəlxalq aləmdə ilk addımlarını atan yeni prezident geosiyasi qarşıdurmanın məntiqi ilə məhdudlaşmamaqda qətiyyətli mövqe nümayiş etdirir.*

**S u a l: Bu Sizin xaricə ilk səfərinizdir. Siz nə üçün Parisi seçdiniz?**

**C a v a b:** Mən prezident seçildikdən sonra dövlət başçılarından bir çox dəvətlər aldım. İlk dəvətlərdən biri prezident Şirak tərəfindən göndərilmişdi və mən bu dəvəti böyük məmnuniyyətlə qəbul etdim. Fransa Azərbaycan üçün mühüm tərəfdaşdır, bu ölkə ilə bizim çox yaxşı əlaqələrimiz var. Eyni zamanda, Fransa Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə birbaşa məşğul olan ATƏT-in Minsk qrupunun həmsədridir. Faktiki olaraq, Fransanın seçilməsi üçün bir çox səbəblər var idi. Prezident Heydər Əliyev də xaricə ilk səfərini Parisə etmişdi.

**S u a l: Sizin seçiminiz həm də ölkənizin, bir tərəfdən, Rusiyaya münasibətdə, digər tərəfdən isə, Birləşmiş Ştatlara münasibətdə müstəqilliyini nümayiş etdirmirmi?**

**C a v a b:** Yaşadığımız müstəqillik dövrü artıq onu göstərdi ki, bizim ölkə tam mənada müstəqil siyasət yürütməyə qadir olan bir ölkədir. Birləşmiş Ştatlarla çox yaxşı münasibətlərimiz var. Bizim Rusiya ilə də çox yaxşı münasibətlərimiz var. Lakin biz özümüzü Avropanın bir hissəsi hesab edirik. Azərbaycan faktiki olaraq, Avropanın şərq sərhədində yerləşir, ölkəmiz öz gələcəyini Avropa strukturlarına inteqrasiyada görür. Məhz buna görə də, ümumiyyətlə, Avropa İttifaqına üzv olan ölkələrlə, Avropa İttifaqının əsas ölkələrindən biri sayılan Fransa ilə münasibətlərimiz çox vacibdir.

**S u a l: Sizin atanız Qərblə, xüsusən də Birləşmiş Ştatlarla münasibətləri möhkəmləndirməyə yönəlmiş siyasət həyata keçirirdi. Siz bu siyasəti davam etdirəcəksinizmi?**

**C a v a b:** Əlbəttə, çünki bu siyasət böyük uğur qazanmışdır. Amma eyni zamanda, bir ölkə ilə yaxşı münasibətlərdə olmaq o demək deyil ki, digərləri ilə pis münasibətdə olmaq lazımdır. Heydər Əliyev diplomatiyasının uğuru məhz o fakta bağlıdır ki, o hamı ilə yaxşı münasibətlər qurdu.

**S u a l: Siz Azərbaycanda Amerika bazalarının yerləşdirilməsinə razılıq verəcəksinizmi?**

**C a v a b:** Bildiyiniz kimi, bizim ərazimizdə heç bir xarici hərbi qüvvə yoxdur. Biz bu mövzu ilə bağlı amerikalılarla heç bir müzakirə aparmırıq.

**S u a l: Seçilməyinizdən əvvəl, xüsusən də 2003-cü ilin sentyabr ayında Yaltada Sizinlə prezident Putin arasında çox səmimi yaxınlaşma müşahidə olundu. Sizin fikrinizcə, Ermənistanın strateji tərəfdaşı olan və münaqişənin həllinin açarını öz əlində saxlayan Rusiya ilə münasibətlərin yenidən istiləşməsi Qarabağ münaqişəsinin həllində irəliləyiş əldə etməyə imkan yaradacaqmı?**

**C a v a b:** Rusiya ilə münasibətlərimizin istiləşməsi 2000-ci ildə, Putinin hakimiyyətə gəlməsindən sonra başlandı. Həmin vaxt prezident Putin və prezident Heydər Əliyev arasında çox gözəl şəxsi münasibətlər yarandı. Onlar əməkdaşlığın bütün sahələrində böyük uğurlar əldə etməyə müvəffəq oldular. Biz

neftin bir hissəsini artıq Rusiya vasitəsilə nəql edirik. Eyni zamanda, Rusiyadan böyük həcmdə təbii qaz idxal edirik. Biz ümumi sərhədlərimizin delimitasiyasına nail olmuşuq. Əslində, əlaqələrimiz qonşu dövlətlər arasında yaxşı münasibətlər nümunəsi hesab edilməlidir. Mən bundan çox şadam. Qarabağ məsələsinə gəldikdə isə, demək istəyirəm ki, Rusiyanın Ermənistan üçün tərəfdaş olması mühüm əhəmiyyət daşıyır, lakin yaddan çıxarmaq lazım deyil ki, Ermənistanın digər tərəfdaşları da var. Onun Birləşmiş Ştatlarda, Fransada çox güclü lobbisi var. Məhz buna görə də, həm Azərbaycan, həm Ermənistan tərəfləri üçün ən yaxşı həll yolu, ümumiyyətlə, Minsk qrupuna arxalanmaqdır. Minsk qrupuna daxil olan ölkələr birlikdə təzyiq göstərməlidirlər ki, Ermənistan bizim əraziləri azad etmək məcburiyyətində qalsın. Heç kim üçün sirr deyil ki, Ermənistan Azərbaycanın ərazisinin 20 faizini işğal etmişdir. Bir milyon qaçqın-köçkün evsiz-eşiksiz qalmışdır. Amma əfsuslar olsun ki, beynəlxalq ictimaiyyət təcavüzkarı işğal olunmuş ərazilərdən çıxarmaq üçün lazımi tədbirlər görmədi. Münaqişə Avropa Şurasındakı öhdəliklərimizə ziddir, çünki həm Ermənistan, həm də Azərbaycan bu təşkilatın üzvləridir. Beləliklə, məsələni mümkün qədər tez həll etmək lazımdır. Amma anlamaq lazımdır ki, biz Qarabağın müstəqilliyini və ya onun Ermənistana birləşdirilməsini heç vaxt qəbul etməyəcəyik.

**S u a l: Bəs necə etməli? Burada gəlib çıxırıq Rusiyanın açar roluna, çünki Ermənistan regionda onun strateji dayağına çevrilibdir. Ermənistanda minlərlə rus əsgəri var, böyük hərbi baza var.**

**C a v a b:** Həmin baza təhlükə mənbəyidir. Qafqaz bütün xarici hərbi bazalardan azad olmalıdır. Azərbaycan bu baxımdan nümunə ola bilər. Bizim iqtisadiyyatımız inkişaf edir, bizim ən yüksək artım faizimiz var, ən yaxşı infrastrukturumuz mövcuddur. Regional əməkdaşlığın bərpası hamı üçün faydalı ola bilər. Ermənistan başa düşməlidir ki, müharibə yolu heç nəyə gətirib çıxarmayacaqdır.

**S u a l: Siz Gürcüstandakı "məxməri inqilabdan" hansı nəticəyə gəlirsiniz?**

**C a v a b:** Biz oradan ibrət götürməli deyilik. Baş vermiş hadisələr göstərdi ki, Gürcüstandakı vəziyyət nə qədər həssas ola bilər. Amma bizdə vəziyyət fərqlidir. Çünki bizim xalqdan dəstəyimiz var.

**S u a l: Siz Azərbaycanın güclü amillərini qeyd etdiniz. Sizin seçilməyiniz iğtişaşlarla müşayiət olundu. Nəticədə, ölənlər oldu, ATƏT saxtakarlıq faktını pislədi. Sizin mövqeyiniz çox güclüdürmü?**

**C a v a b:** Bəli, güclüdür. Əlbəttə, biz gənc ölkəyik, bizim neft sənayemiz yeniləşmişdir. Biz ordumuzu təchiz etməliyik. Keçid dövrünün böyük sosial problemlərini həll etməliyik. Bizə vaxt lazımdır. Amma eyni zamanda, bizim ölkədə ümumi daxili məhsulun illik artımı 9 faizdir. O ki qaldı seçkilərə, onlar tamamilə ədalətli keçmişdir. Əgər siz ATƏT-in və Avropa İttifaqının ilkin bəyanatlarını müqayisə etsəniz, onda görəcəksiniz ki, onlar seçkilərin keçirilməsini ruh yüksəkliyi ilə qarşılamışlar. Amma əfsuslar olsun ki, seçkidən sonra, müxalifətin polislə qarşıdurma yaradaraq iğtişaşlar törətməsindən sonra xarici nümayəndələr tərəfindən tamamilə fərqli və yeni bəyanatlar verildi, həmin bəyanatlar saxtakarlıq və manipulyasiyanı pisləyirdi. Mən bu cür bəyanatları tamamilə qərəzli sayıram. Şəxsi görüşdə məni yaxşı seçki münasibətilə təbrik etdilər. Lakin ictimaiyyət qarşısında, rəsmi olaraq, nəticə şübhə altına alındı. Bu qəbuledilməzdir.

**S u a l: Neftlə zəngin olan bir çox ölkələrdə neftdən gələn gəlir korrupsiya ucbatından yoxa çıxır. Siz inkişaf yolunuzda bu təhlükəni nəzərə alırsınızmı?**

**C a v a b:** Korrupsiyaya qarşı mübarizə bizim əsas prioritetlərimizdəndir. Bir neçə gün bundan əvvəl bizdə bu məsələ ilə bağlı qanun qəbul olundu. Neftdən gələn vəsaitin yoxa çıxmasının qarşısını almaq məqsədi ilə biz Neft Fondu yaratmışıq. Neftdən gələn gəlirlər orada yığılır və bu tamamilə şəffaf qurumdur. Fonddan istifadə olunan pul ictimaiyyətin açıq

nəzarətindədir. "Ernst Young" şirkəti onun auditi ilə məşğul olur. Biz bu sahədə fəaliyyətimizi Norveç modelinə uyğun qururuq. Qarşımıza çətinliklər çıxmasın deyə, şəffaflığı təmin edirik.

*«Fiqaro» qəzeti,*
*23 yanvar 2004-cü il*

*Müsahibənin mətni «Azərbaycan» qəzetinin*
*25 yanvar sayında da dərc olunmuşdur.*

## FRANSANIN "LCİ" TELEVİZİYA KANALINA MÜSAHİBƏ

*Paris*

*22 yanvar 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda – «Meuripce» mehmanxanasında Fransanın "LCİ" özəl informasiya televiziya kanalına müsahibə vermişdir.*

*Telekanalın müxbirinin suallarını cavablandıran prezident İlham Əliyev ölkəmizdə aparılan uğurlu siyasi, iqtisadi, sosial islahatlardan, Azərbaycanın Avropa strukturlarına inteqrasiyası prosesindən, Fransa–Azərbaycan əlaqələrinin mövcud vəziyyətindən və inkişaf perspektivlərindən, fransız şirkətlərinin və iş adamlarının ölkəmizin iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyətindən ətraflı bəhs etmişdir.*

## FRANSA SENATINDA QARŞILANMA

*22 yanvar 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin Fransaya rəsmi səfəri çərçivəsində ilk rəsmi görüşü Fransa Senatında olmuşdur. Azərbaycanın və Fransanın dövlət bayraqları ilə bəzədilmiş Senatın binası - "Petit Lüxsemburq" sarayı qarşısında Azərbaycan prezidenti İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi.*

*Prezident İlham Əliyevi və onun xanımı Mehriban Əliyevanı Fransa Senatının sədri Kristian Ponsöle böyük hörmət və ehtiramla, səmimiyyətlə qarşıladı.*

*Rəsmi qarşılanma mərasimindən sonra "Petit Lüxsemburq" sarayında Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin Fransa Senatının rəhbərləri ilə görüşü keçirildi.*

*Görüşdən sonra Senatın sədri Kristian Ponsölenin adından Azərbaycan prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət təşkil olundu.*

**Kristian Ponsöle:** Bu günlərdə həm Fransada, həm də Azərbaycanda hər bir insan iftixar hissi ilə deyə bilər ki, iki ölkə arasında olan münasibətlər çox gözəldir. Biz Sizin səfərinizi çox yüksək qiymətləndiririk və böyük sevinc hissi ilə qeyd etmək istəyirik ki, Siz Azərbaycan prezidenti kimi, ilk səfəriniz zamanı Fransada ən əvvəl Senatı ziyarət etdiniz. Məhz buna görə də mən və senator həmkarlarım Sizə xatirə olaraq kiçik bir hədiyyə təqdim etmək istəyirik.

Cənab Prezident, biz Fransaya səfərinizdə Sizə böyük uğurlar arzulayırıq və şəxsən öz adımdan, Senatın adından, bütün Fransa adından bizim ən xoş arzularımızı Azərbaycan xalqına da çatdırmağı xahiş edirik.

**İlham Əliyev:** Cənab sədr, çox sağ olun.

Hörmətli dostlar, mən bizə göstərdiyiniz qonaqpərvərliyə görə dərin təşəkkürümü bildirirəm.

Senatda olmağımdan çox məmnunam. Bu gün keçirdiyimiz görüş daim mənim xatirimdə qalacaqdır. Biz çox səmərəli fikir mübadiləsi apardıq. Bir çox məsələ haqqında öz fikirlərimizi ifadə etdik və bir daha əmin olduq ki, Fransa ilə Azərbaycan arasında olan münasibətlər inkişaf edir və bundan sonra da inkişaf edəcəkdir. Siyasi, iqtisadi, mədəni sahələrdə əməkdaşlığımız çox uğurludur və mən də öz fəaliyyətimdə çalışacağam ki, bu əməkdaşlığı daha da gücləndirək, Fransa ilə olan dostluq, mehribanlıq münasibətlərimizi inkişaf etdirək.

Bu gün qeyd olundu ki, prezident vəzifəsinə seçiləndən sonra mən ilk rəsmi səfərimi məhz Fransaya edirəm. Eyni zamanda, o da qeyd olundu ki, bu, artıq ənənəyə çevrilmişdir. 1993-cü ildə prezident Heydər Əliyev öz rəsmi səfərini Fransaya etmişdi. Hesab edirəm ki, bu, rəmzi xarakter daşıyır və bir

daha ölkələrimiz arasında olan dostluq münasibətlərinin nə dərəcədə dərin olmasından xəbər verir.

Cənab sədr, mənə göstərilən diqqətə və qonaqpərvərliyə görə Sizə və bütün dostlarımıza bir daha öz təşəkkürümü bildirirəm. Sağ olun.

## FRANSA SAHİBKARLAR TƏŞKİLATININ – MEDEF-in ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ* NİTQ

*22 yanvar 2004-cü il*

Əziz xanımlar və cənablar!

Mən qəbul olunmuş qaydaya əsasən, ingiliscə danışacağam. Hər şeydən əvvəl, bu görüşə gəldiyiniz üçün hamınıza minnətdarlığımı bildirirəm.

Burada deyildi və doğrudan da belədir ki, bu, prezident seçildikdən sonra mənim ilk rəsmi səfərimdir. Mənə müxtəlif ölkələrdən bir çox dəvətlər gəlmişdi. Amma seçimim Fransaya rəsmi səfər etmək oldu. Bu qərarın verilməsinin bir neçə səbəbi vardır. Son 10 il ərzində Fransa ilə Azərbaycan arasındakı münasibətlər uğurla inkişaf edir. Əməkdaşlığımız geniş miqyas almışdır. Siyasi, iqtisadi və mədəni münasibətlər durmadan inkişaf edir. Fransa ATƏT-in Minsk qrupunun həmsədri kimi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində iştirak edir. Digər tərəfdən, Fransa Avropanın aparıcı ölkələrindən biridir və Avropanın simvolu kimi tanınmışdır. Azərbaycan da Avropanın bir hissəsidir. Bizim ən başlıca prioritetlərimizdən biri Avropa təsisatlarına sıx inteqrasiyadır.

1993-cü ildə seçkilərdən sonra bizim mərhum prezidentimiz Heydər Əliyev ilk rəsmi səfərini Fransaya etdi. Ona görə də bugünkü səfər bu ənənənin davamıdır. Düşünürəm ki, bu ənənə uzun zaman yaşayacaqdır.

Bu gün biz söhbətimizi iqtisadi aspektdə cəmləşdirəcəyik. Artıq hörmətli nazirin də qeyd etdiyi kimi, iqtisadi münasibətlərimiz sürətlə inkişaf edir. İqtisadiyyat və ticarət sahəsində bir

* Görüşdə MEDEF-in prezidenti Fransua Periqo, Fransanın xarici ticarət məsələləri üzrə dövlət naziri Fransua Loos çıxış etdilər.

sıra birgə layihələr mövcuddur. Hər şeydən vacibi isə odur ki, biz birgə işləmək əzmindəyik.

Azərbaycan sürətlə inkişaf edən ölkədir. Müstəqillik qazandığı vaxt və sonrakı ilk illərdə bizim iqtisadiyyatımız tamamilə dağıdılmışdı. Min faizlə ölçülə biləcək iqtisadi tənəzzül hökm sürürdü.

Tamamilə dağıdılmış infrastruktur, fabrik və zavodların işini dayandırması ölkəni iqtisadi və siyasi böhranla üz-üzə qoymuşdu. Lakin 1993-cü ildən sonra, Heydər Əliyevin prezident seçilməsi ilə vəziyyət dəyişdi. Onun yaratdığı ictimai və siyasi sabitlik sonrakı iqtisadi yüksəlişin təməlini qoydu. 1996-cı ildən etibarən iqtisadiyyatdakı tənəzzülün qarşısı alındı və inkişaf dövrü başladı.

Son bir neçə il ərzində ölkəmizdə ümumi daxili məhsulun istehsalında 70 faiz artım müşahidə olunmuşdur ki, bu da ildə 10 faizdən çox deməkdir. Azərbaycanda əlverişli sərmayə mühiti yaradılmışdır. Ölkəmiz keçmiş SSRİ respublikaları arasında adambaşına düşən birbaşa sərmayənin həcminə görə liderdir. Azərbaycanda işləyən və mühüm layihələri həyata keçirən şirkətlərin heç bir problemi yoxdur. Biz artıq bir dəfə razılaşdırılmış sazişlərə heç vaxt yenidən qayıtmırıq, onların şərtlərini dəyişmirik. Biz danışıqlar əsasında, imzalanmış müqavilələr əsasında işləyirik. Bilirik ki, ölkəmizdə çalışan şirkətlər hər hansı bir sərt addım nəticəsində öz vəsaitlərini itirə bilərlər. Ona görə də onların iqtisadiyyatımıza qoyduqları sərmayələrin qorunması üçün bütün zəruri tədbirlər görülür. Bu proses davam etdiriləcəkdir.

Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrində böyük potensial mövcuddur. Əlbəttə, ölkəmizə sərmayə qoyuluşu haqqında danışarkən, ilk növbədə, neft və qaz sektoru nəzərdə tutulur. Bu da təbiidir. Çünki bu sektor maraqlı tərəfləri daha çox cəlb edir. Deməliyəm ki, iqtisadiyyatın bu sahəsində əldə edilən nailiyyətlər ölçüyəgəlməzdir. Azərbaycanın apardığı siyasət, Heydər Əliyevin neft strategiyası əvvəllər əfsanə kimi görünən düşüncələri reallığa çevirdi. 10 il bundan əvvəl, hətta 5

il əvvəl də əsas boru kəmərinin inşa edilməsi çoxlarına xülya kimi görünürdü. Milyardlarla vəsaitin qoyulması və bu kəmərin tikilməsi nəticəsində neft sənayesinin inkişafının yenidən canlandırılması yuxu kimi görünürdü. Bu gün isə neftin nəqli üzrə ən böyük layihə məhz Azərbaycanda həyata keçirilir. Neftin və qazın nəqli üzrə və neft sahəsinin inkişaf etdirilməsi sahəsində ən irimiqyaslı layihələr Azərbaycanda həyata keçirilir. Bununla ölkəmiz etibarlı tərəfdaş olduğunu və münasibətləri qiymətləndirməyi bacardığını sübuta yetirdi. Bu barədə danışarkən mən Fransa şirkətlərinə, fransız iş adamlarına Azərbaycanda işlədiklərinə görə və qarşılıqlı münasibətləri uca tutduqlarına görə minnətdarlığımı bildirirəm. Onlar bizim cəmiyyətimizə fəal inteqrasiya edir, Azərbaycanın ayrılmaz hissəsi olurlar. Bu da cəmiyyətimizdə onlara qarşı hörmət hissi yaradır.

İndi bizim ölkə üçün ən mühüm şərtlərdən biri bu uğurlu siyasətin davam etdirilməsidir. Bu nəhəng layihələr yalnız ictimai-siyasi sabitlik şəraitində həyata keçirilə bilər. Yalnız xalqla hökumət arasında qarşılıqlı etimad şəraitində xarici sərmayəçi özünü rahat və təhlükəsiz hiss edə bilər. Düşünürəm ki, bu barədə söylədiklərim ən vacib amillərdir.

Digər tərəfdən, iqtisadi islahatlar iqtisadiyyatımızın bütün sahələrini əhatə edəcək və uğurla davam etdiriləcəkdir. İndi Azərbaycan sosial və iqtisadi inkişaf proqramını həyata keçirməyə başlayır. Regionların inkişaf etdirilməsi proqramı hazırlanır və tezliklə həyata keçiriləcəkdir. Biz gələcəkdə də işimizi elə quracağıq ki, ölkəyə gələn sərmayəçilər öz vəsaitlərinin ən etibarlı şəkildə qorunacağına tam əmin olsunlar. Bununla bağlı bir neçə vacib addımlar da atılacaqdır.

Mən burada iştirak edən Fransanın biznes icmasının üzvlərini, fransız şirkətlərini Azərbaycana gəlməyə ruhlandırıram ki, biz onlarla birlikdə işləməyə hazırıq. Əmin ola bilərsiniz ki, siz ölkəmizə gəlişinizə təəssüflənməyəcəksiniz. Bizim gözəl ölkəmiz, qonaqpərvər insanlarımız vardır. Azərbaycana gəlmiş bir çox əcnəbilər elə burada qalır və fəaliyyətlərini davam

etdirməyi üstün tuturlar. Ölkəmizin paytaxtı Bakı da çox gözəl şəhərdir. Bu gün regional layihələri həyata keçirdiyimiz bir vaxtda Azərbaycanın inkişafı regionları da əhatə edəcəkdir ki, bu da ölkəmizin ümumilikdə dinamik və tarazlı inkişafını təmin edəcəkdir.

Hörmətli nazirin də dediyi kimi, ölkəmizdə Neft Fondunun yaradılması maliyyə vəsaitlərinin şəffaflığını təmin etmək istiqamətində atılmış çox mühüm addımdır. Biz bu fondu neftdən alınan ilk gəlirlər büdcəyə daxil olduğu zaman yaratmışıq. Bunun səbəbi ondan ibarətdir ki, daxil olmuş vəsaitləri fond vasitəsilə qoruyaq, sərəncamımızda olan gəlirlərin şəffaflığını təmin edək və ölkə vətəndaşlarına onlar haqqında məlumat verilsin. Neft hasil edən ölkələr üçün belə fondun yaradılması çox vacibdir. Şəffaflıq zəngin ölkəyə çevrilmək potensialı olan ölkə üçün böyük əhəmiyyət kəsb edir.

Azərbaycanın Neft Fondu bir sıra beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir, Beynəlxalq Valyuta Fondu və digər maliyyə qurumları ilə sıx əməkdaşlıq şəraitində işləyir.

Ölkəmizdə fondun şəffaflığı sahəsində yaxşı təcrübə mövcuddur və biz bunu qonşularımızla bölüşməyə hazırıq. Azərbaycan dünyada hasilat sahələrindəki şəffaflıq təşəbbüsünü, bu sahədəki meylləri tam dəstəkləyir. Biz hesab edirik ki, bu şəffaflıq yalnız hasilat sahələrini deyil, iqtisadiyyatın digər sahələrini də əhatə etməlidir.

Əlbəttə, neft hasilatı Azərbaycanın yaşaması üçün müstəsna əhəmiyyətə malikdir. Ona görə də bu sahəyə böyük diqqət yetirilir. Ancaq digər sahələrdə də geniş imkanlar mövcuddur. Kənd təsərrüfatında, turizmdə, tikinti sahəsində böyük potensialımız vardır. Müasir dövlət quruculuğu ilə məşğul olan Azərbaycan iqtisadi cəhətdən güclü ölkəyə çevrilmək əzmindədir. Bunun üçün bizə beynəlxalq təcrübə, məsləhətlər və daha çox sərmayə qoyuluşu lazımdır. Bu günədək ölkəmizin iqtisadiyyatına 15 milyard dollar vəsait qoyulmuşdur. Adambaşına götürüldükdə, bu, böyük rəqəmdir və onu göstərir

ki, ölkəmiz sərmayə qoyuluşu baxımından əlverişli və təhlükəsizdir. Bu bir də onu sübut edir ki, artıq 10 ildən çox müddətdə Azərbaycan hökuməti ilə sərmayəçilər arasında böyük problemlər olmamışdır. Mən əminəm ki, bu siyasət gələcəkdə də davam etdiriləcəkdir.

Əlbəttə ki, biz hər bir layihəyə böyük əhəmiyyət veririk. Ola bilər ki, çıxışım zamanı sizin gözlədiyiniz bütün sahələri əhatə edə bilmədim. Ancaq deməliyəm ki, Azərbaycanda, ümumiyyətlə, bütün sahələrə xüsusi diqqət yetiriləcək. Düşünürəm ki, sərmayəçiləri bundan artıq ruhlandırmaq və yaxud ölkəyə dəvət etmək mümkün deyildir. Mənə məlumdur ki, bizim İqtisadi İnkişaf Nazirliyi bu sahədə böyük iş görmüş, Bakıda və xarici ölkələrdə seminarlar, konfranslar keçirmişdir. Ən başlıcası ölkəmizi olduğu kimi təqdim etməyə nail olmaqdır. Bu bizim üçün çox vacibdir.

Təəssüflə qeyd etməliyəm ki, illərdən bəri davam edən erməni istilasına, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal olunmasına görə iki ölkə arasındakı münasibətlər heç də normal deyildir. Bu gün dünyadakı erməni icması Azərbaycanı daim fərqli səpkidən təqdim etməyə çalışır. Bütün bunlar reallıqdan çox uzaqdır. Biz Azərbaycan gerçəkliklərini dünyaya yaymaq üçün böyük əmək sərf etmişik. Ancaq ölkəmizi olduğu kimi görməyin ən yaxşı yolu Azərbaycana gəlməkdir. Ölkəmizə yeni gəlmiş şirkətlərin nümayəndələri, ayrı-ayrı adamlar və siyasətçilərlə görüşlərim zamanı onlar mənə deyirlər ki, gördüklərimiz eşitdiklərimizdən tamamilə fərqlənir. Ona görə də siz Azərbaycan haqqında mühakiməni yalnız hər şeyi öz gözlərinizlə gördükdən sonra yürüdə biləcəksiniz. Mən sizi Azərbaycana dəvət edirəm.

Gələcək üçün çoxlu planlarımız var, çoxlu layihələr nəzərdə tutulur. Hökumətin əsas məqsədi insanların həyatında yaxşılığa doğru dəyişikliklər etməkdir. Bu bəlkə də kənardan çox sadə görünür, amma qəti məqsədimiz bundan ibarətdir. Bu sahədə çoxlu sosial proqramlar həyata keçirilir. Azərbaycana çoxlu sosial layihələr lazım olacaqdır. Bizdə elektrik sektorunu tam

yeniləşdirmək layihəsi var. Yeni yolların çəkilməsi, yeni infrastrukturun yaradılması nəzərdə tutulur. Yüzlərlə, minlərlə yeni iş yerləri açmaq proqramı var. Bunun da öhdəsindən gələcəyik. Yerli səviyyədə sərmayələr, hökumətin dəstəyi, bank infrastrukturu, qanunların işləməsi, tənzimləmələr və xarici sərmayələr bizə imkan verəcəkdir ki, nəzərdə tutulan planlar həyata keçsin. Azərbaycan böyük ölkə deyildir. Əlbəttə, balaca ölkə olmağın üstünlükləri də var, mənfi cəhətləri də. Biz, əlbəttə ki, üstünlüklərdən istifadə etməyə çalışacaq, mənfi cəhətlərin qarşısını alacağıq.

Azərbaycan demokratik dəyərlərə möhkəm inanan ölkədir. Demokratiyanın inkişafına tam sadiqdir. Biz başa düşürük ki, cəmiyyətin demokratikləşməsi həyata keçmədən nəzərdə tutduğumuz iri iqtisadi layihələr uğurlu ola bilməz. Azərbaycan dinamik inkişaf edən ölkədir. İndi hamımız, mənim özüm, rəhbərlik etdiyimiz qurumlar, Azərbaycan xalqı, Azərbaycanın dostları, biznes icması üzərlərinə düşən vəzifələri yerinə yetirməlidir. Hamımız birləşməliyik ki, özümüzü vəziyyəti dəyişməyə, insanlarımızın həyatını yaxşılaşdırmağa həsr edək. Mən əminəm ki, Bakıdan Ceyhana gedən əsas ixrac kəməri işə düşəndən sonra indiyədək görünməmiş sürətli artım müşahidə olunacaqdır. Bu artım həyat standartında, həyat səviyyəsində özünü göstərəcəkdir. İndi isə bilirik ki, bizim potensialımız böyükdür, indi əsas fəaliyyətimizin təşkilati və hazırlıq işini tamamlamışıq. Elə bir məqama çatmışıq ki, Azərbaycan nefti iri həcmlərlə dünya bazarlarına daşınacaq və böyük mənfəət gətirəcəkdir. Azərbaycan qazı Avropaya çatdırılacaq və Avropada alternativ təchizat mənbəyi olacaqdır. Bunlar vasitəsilə Azərbaycan iqtisadiyyatı şaxələnəcəkdir. Bizim iqtisadiyyat gərək yalnız neft faktorundan asılı olmasın. Neft amili bizim üçün möhkəm çoxşaxəli iqtisadiyyat qurmağın vasitəsidir. Ümid edirəm ki, nəzərdə tutduğumuz bütün planlar həyata keçəcəkdir. Hökumətin nəzərdə tutduğu planlar yeni müsbət nəticələrlə müşayiət olunacaq və əminəm ki, Fransa şirkətləri, Fransa biznesinin nümayəndələri Azərbaycanda

fəaliyyətlərini artıracaqlar. Buyurun, bizim ölkəyə gəlin. Sərmayəçi kimi, podratçı şirkət kimi, dost kimi gəlin. Mənim çağırışımı qəbul edib Azərbaycana gəlsəniz, görəcəksiniz ki, doğru addım atmısınız.

Çox vaxtınızı almayacağam. Çox sağ olun ki, bu gün mənimlə görüşə gəldiniz, Azərbaycanın gələcəkdəki planları, inkişafı ilə bağlı, xarici sərmayənin bu inkişafda oynaya biləcəyi rolla bağlı fikirlərinizi bölüşdünüz. Əmin olduğumu bildirmək istəyirəm ki, bu görüşdən sonra digər görüşlərimiz də olacaqdır. Fransada da, Bakıda da bu görüşlər bizi bir-birimizə daha çox yaxınlaşdırır. Diqqətinizə görə çox sağ olun, sizə ən xoş arzularımı bildirirəm.

* * *

**F r a n s u a  P e r i q o:** Çox sağ olun, cənab Prezident. Görüşün davamı aşağıdakı kimi olacaqdır. İki ölkə arasında razılıq imzalanacaq və biz isə iftixar hissi keçiririk ki, razılıq bu binada imzalanır. Və istərdim ki, Mərkəzi Asiya və Qafqaz işləri üzrə komitənin sədrindən xahiş edim ki, Azərbaycana Fransa biznes nümayəndələrindən ibarət nümayəndə heyəti hazırlansın, onlar Azərbaycana getsinlər.

Bugünkü görüşdə sual vermək istəyənlər də var. Xahiş edirəm, yalnız vacib suallarla müraciət edəsiniz, prezidentin vaxtı azdır. Cənab Prezident, Sizdən isə xahiş edirəm ki, vaxt ayırıb iştirakçıları maraqlandıran suallara cavab verəsiniz. Burada olmağınız hamımız üçün olduqca xoşdur.

**S u a l: Cənab Prezident, biz Azərbaycanda 1997-ci ildən bəri işləyən "Kastel" qrupunu təmsil edirik. Azərbaycanda pivə istehsal edirik. Sizə və hökumətinizə minnətdarlığımızı bildirmək istəyirik. İlkin mərhələdə çətinliklərlə üzləşirdik. Lakin hökumətə müraciət etdikdən sonra problemlərimiz həll olundu. İşlərimiz qaydaya düşdü. "Kastel" qrupu olaraq Azərbaycana 40 milyon dollar vəsait qoymuşuq. Bunu ona görə etmişik ki, Azərbaycana inanırıq, ölkənizdə də etibar qazanmışıq. Minnətdarlığımı bildirirəm ki, sizin**

**ölkənizə gəlmək şəraiti yaratmısınız. Deməliyəm ki, indi biznes sahəsində işləmək çox rahatdır. Narazılıqlar olan zaman məhkəməyə müraciət edirik, haqlı olduğumuz zaman prosesi uduruq, haqlı olmadığımız zaman uduzuruq. Ədalətli məhkəmə sistemi mövcuddur. Vergi ilə bağlı işimizin başlanğıc mərhələsində müəyyən problemlər olsa da, sonradan hökumətə müraciət etdik, bu problem də həll olundu. Hansı problem olursa-olsun, sizin hökumətin dəstəyini həmişə hiss edirik. Azərbaycanda olmağımızla şərəf hissi keçiririk və fəal sərmayəçiyik. Sizin cağırışı dəstəkləyirik. Cənab Prezident, çox sağ olun.**

**C a v a b:** Dediyiniz sözlərə görə çox sağ olun. Elə bilirəm, sizin bu sözləriniz o deməkdir ki, sərmayə imkanları yalnız neft və qaz sektorunu əhatə etmir. Kənd təsərrüfatı sahəsində geniş imkanlar var. Xüsusilə də kənd təsərrüfatı məhsullarının emalında Azərbaycan Sovet İttifaqı dövründə ən böyük üzüm istehsalçısı idi. O zaman üzüm istehsalı ildə 2 milyon tona bərabər idi. Lakin keçmiş SSRİ rəhbərliyinin həyata keçirdiyi antialkoqol kampaniyasından sonra ölkəmizdəki üzümlüklərin əksəriyyəti məhv edildi. Şərabçılıq sənayesini bərpa etmək üçün bugünkü gündə sərmayə lazımdır. Mən bilirəm ki, siz pivə istehsalında nailiyyətlər əldə edirsiniz, məhsulunuz yaxşı satılır. Buna görə də sizi dəvət edirəm ki, bu işinizi, bu sərmayələrinizi davam etdirəsiniz. Hökumət tərəfindən nə lazımdırsa, olunacaqdır. Biz bu prosesi stimullaşdıracağıq. Xoş sözlərinizə görə bir daha sağ olun. Azərbaycandakı hər bir sərmayə qorunacaq, istənilən səviyyədə yarana biləcək hər hansı bir çətinlik həll ediləcəkdir. Sağ olun.

**S u a l: Mən Fransa–Azərbaycan Ticarət və Kommersiya Palatasının sədriyəm. Adım Serj Buadvedir. Mən sizin ölkəni 1974-cü ildən tanıyıram. Mərhum Heydər Əliyevlə bir neçə dəfə görüşmüşəm və artıq 10 ilə qədərdir ki, bizim qurum vasitəsilə Fransa şirkətlərinin Azərbaycanda işini təmin etmək vəzifəsi ilə məşğul oluruq. Biz həm Azərbaycandan xaricdə işləyirik, həm də Azərbaycanda**

**çalışırıq ki, şirkətlərlə Azərbaycanın əlaqədar təsisatları arasında müvafiq ünsiyyət yaradaq. Biz artıq Ticarət və Kommersiya Palatasının Bakıda ofisini də açmışıq və çox istərdik ki, imkan düşən zaman görüşək və Sizinlə gələcək iş perspektivlərini müzakirə edək. Qəti fikrimiz belədir ki, yalnız neft və qaz sənayesində deyil, digər sahələrdə də, məsələn, kənd təsərrüfatı sahəsində də əməkdaşlıq üçün böyük imkanlar var. Sağ olun.**

**C a v a b:** Siz də sağ olun!

**S u a l: Bizim şirkət təxminən 8 ildir ki, Azərbaycanda biznes ilə məşğul olur. Cənab Prezident, Sizin dediyiniz kimi, Azərbaycan son müddət ərzində çox sürətlə inkişafda olan ölkədir. Hər bir kəs razılaşır ki, ARDNŞ çox yaxşı, səmərəli danışıq aparan işçi qrupuna malikdir və ümumilikdə, Azərbaycanın xarici şirkətlərlə apardığı danışıqlar çox yaxşı məcrada keçir. Amma eyni zamanda, həm də müşahidə olunur ki, digər sektorlar neft və qaz sənayesi kimi inkişaf etmir. Necə fikirləşirsiniz, digər sahələri Neft Fondu vasitəsilə maliyyələşdirmək olarmı? Dövlət vəsaiti ilə özəl vəsait hesabına qarışıq maliyyələşdirməyə necə baxırsınız?**

**C a v a b:** Neft və qaz sektorunun digər sənaye sahələrindən daha sürətlə inkişaf etməsi faktı doğrudur və bu tamamilə təbiidir. Çünki Azərbaycan müstəqilliyini qazanarkən ölkənin heç bir maliyyə ehtiyatı yox idi. Praktiki olaraq, heç bir vəsaitimiz yox idi və bizim iqtisadiyyatın sonrakı inkişafı tamamilə xarici sərmayədən asılı idi. Əlbəttə, o vaxt, müharibə şəraitində iqtisadiyyatın hər hansı sahəsinə xarici sərmayələr cəlb etmək mümkün deyildi. Hərc-mərclik və iqtisadi tənəzzül şəraitində hətta neft sektoruna da sərmayə cəlb etmək çox çətin idi. Biz 1994-cü ildə sərmayəçiləri dəvət etməkdən ötrü böyük səylər qoyduq. Artıq 1995-ci ildə vəziyyət tamamilə dəyişdi və sərmayəçilər Azərbaycanda iş almaqdan ötrü rəqabət aparırdılar. Ona görə də bu sahəyə daha çox sərmayə cəlb olunması təbiidir. Amma bu o demək deyil ki, biz digər sahələrə

az diqqət yetiririk. Biz neftdən gələn gəlirlərdən, Neft Fondunun vəsaitindən digər sahələrin, infrastrukturun inkişaf etdirilməsində istifadə etmək fikrindəyik. Hazırda bu vəsaitdən qaçqın-köçkünlərin həyat səviyyəsini yaxşılaşdırmaq üçün istifadə olunur. Ermənistanın işğalı nəticəsində qaçqın-köçkün vəziyyətinə düşmüş bir milyon insana lazımi kömək göstərilir. Biz onlar üçün yeni evlər, qəsəbələr, şəhərciklər salırıq. Bu proses davam etdiriləcəkdir. Eyni zamanda, fondun vəsaiti yeni qurğular, müəssisələr və iş yerləri yaradılması üçün də istifadə olunacaqdır. Yeni yollar çəkiləcək, su-elektrik stansiyaları tikiləcəkdir. Bu baxımdan dövlət özəl sərmayəçilərlə birgə iqtisadiyyat üçün sərmayələr ayıra bilər.

**S u a l: Cənab Prezident, biz xüsusilə elektrik stansiyalarının tikintisinə böyük maraq göstəririk. Bu sahədə Azərbaycanda hansı perspektivlər mövcuddur? Energetika təsərrüfatının özəlləşdirilməsi gözlənilirmi?**

**C a v a b:** Biz energetika sektoruna xüsusi fikir veririk. Bu gün Azərbaycanda olan elektrik stansiyalarının sayı və gücü bizə imkan vermir ki, tələbləri tam ödəyək. Ölkəmiz inkişaf edir və yeni müəssisələr yaranır. Ona görə də əlavə elektrik stansiyalarına ehtiyac vardır. Bu sahədə layihələr həyata keçirilir. Böyük elektrik stansiyalarından biri Bakı ətrafında Yaponiya hökumətinin yardımı ilə tikilmişdir. Digər, gücü 400 meqavat olan elektrik stansiyasının tikilməsi ilə bağlı da danışıqlar aparılır. Bu sahənin inkişaf etdirilməsi üçün bütün imkanlardan istifadə olunur. Köhnə elektrik stansiyaları müasir tələblərə, bu günün reallıqlarına cavab vermir. Onlar həddindən artıq çox yanacaq – mazut və qaz sərf edirlər. Baxmayaraq ki, biz neft hasil edən ölkəyik, ancaq hələlik enerji daşıyıcılarına ehtiyacımız da böyükdür. Ona görə də Rusiyadan təbii qaz alınır.

Həmin sektorun özəlləşdirilməsinə gəldikdə isə, biz gərək bu məsələdə çox ehtiyatlı olaq. Bu gün elektrik enerjisinin paylanma sistemi xarici şirkətin idarəçiliyinə verilmişdir. Bu proses davam etdirilə bilər. Amma resursların özü – neft, qaz

dövlətə məxsusdur. Mən elə bilirəm ki, biz energetikanın potensialını artıra bilərik və bunu yeni qurğular, infrastruktur yaratmaqla əldə edə bilərik.

Neft hasilatı artan zaman isə Azərbaycan hətta elektrik enerjisini qonşu ölkələrə də ixrac edə biləcək səviyyəyə çata bilər.

**S u a l: Azərbaycanlıların müxtəlif ölkələrə gedərək orada bizneslə məşğul olmalarına münasibətiniz necədir?**

**C a v a b:** Mənim bu prosesə münasibətim çox müsbətdir. Düşünürəm ki, azərbaycanlılar yaşayış yerlərini seçməkdə azaddırlar. Biz kommunist ideologiyası sistemində, hər şeyin qadağan olunduğu şəraitdə o qədər yaşamışıq ki, sərbəst surətdə yaşayış yeri seçmək hüququmuz olmayıbdır. Ona görə də azadlığın nə olduğunu yaxşı bilirik və mən dediyiniz meyli tamamilə dəstəkləyirəm. Azərbaycanlılar Avropada və digər yerlərdə nə qədər çox yaşasalar, orada Azərbaycan haqqında daha çox məlumat olacaqdır. Bizimkilər də oralardan zəngin təcrübə qazanacaqlar, yeni biliklər alacaqlar, əlaqələr quracaqlar, yeni biznes sahələri öyrənəcəklər və uzunmüddətli perspektiv baxımından bunun hamısı bizim ölkənin xeyrinə işləyəcəkdir. Onlar həm də bizim ölkəni tanıdacaqlar. Azərbaycanlılar öz ölkəsinə, vətəninə bağlıdırlar. Onlar xaricdə ölkəmizin haqq sözünü deyəcəklər. Yaxşı haldır ki, bizim vətəndaşlar indi azaddırlar və digər ölkələrdə məskunlaşırlar. Onlar yaşadıqları ölkənin iqtisadi inkişafında da iştirak edir, eyni zamanda, bizim ölkənin inkişafına öz töhfələrini verirlər. Yəqin ki, bu sualı verəndə özünüzü nəzərdə tuturdunuz. Mən sizə də işinizdə uğurlar arzulayıram.

**S u a l: Mənim adım Jan Pol Delandır. 1997-ci ildən Azərbaycanda fəaliyyət göstərən şirkətdə çalışıram. Biz iki proqram üzrə fəaliyyət göstəririk – Avropa İttifaqının maliyyələşdirdiyi Füzuli və Ağdam rayonları kəndlərinin yenidən qurulması və Azərbaycanda müxtəlif sərmayə layihələrinin həyata keçirilməsi proqramları. Mənim iki sualım vardır. Birincisi, Ermənistanla danışıqlar hansı**

**səviyyədədir və razılıq əldə olunması Azərbaycan iqtisadiyyatına necə təsir edəcəkdir? İkincisi, Sizin Bakı şəhərində infrastruktur dəyişiklikləri ilə əlaqədar geniş planlarınız və layihələriniz vardır. Bununla əlaqədar məlumat verə bilərsinizmi?**

**C a v a b:** Sağ olun. Təəssüflər olsun ki, uzun müddətdir Azərbaycan və Ermənistan arasında danışıqlar prosesində tərəqqi yoxdur. Bu, əsasən Ermənistanın qeyri-konstruktiv siyasəti ilə bağlıdır. Bilirsiniz ki, XXI əsrdə bir ölkənin digər ölkənin ərazisini işğal etməsi dözülməz haldır. Bəli, Azərbaycanın Dağlıq Qarabağ ərazisində müharibə olub, separatizm olubdur. Lakin on ildir ki, biz atəşkəs rejimində yaşayırıq və bütün bu müddət ərzində danışıqlar aparılır. Təəssüf ki, danışıqlar uğurlu olmayıbdır. Zənnimcə, əsas məqsəd müharibəyə son qoymaqdır. Lakin bu yalnız erməni işğalçı qüvvələrinin zəbt edilmiş ərazilərdən geri çəkiləcəyi təqdirdə olacaqdır. Düşünürəm ki, Ermənistanda qərar qəbul edən şəxslər başa düşəcəklər ki, özlərini mühüm regional layihələrdən təcrid etmək çıxış yolu deyildir. Bəli, Azərbaycan müharibədən əziyyət çəkib, biz ərazilərimizi itirmişik, insanlarımız həlak olmuş, yaralanmışdır. Amma biz müstəqilliyimizi qorumuşuq. Bu isə ən vacib məsələdir.

Mən tam əminəm ki, bu gün ərazisinin 20 faizi işğal edilmiş Azərbaycan əraziləri işğal olunmayan Ermənistandan daha müstəqildir. Bu müharibə iqtisadi baxımdan çox zərərli və dağıdıcı olub. Ancaq gəlin müharibənin sonluğuna baxaq. Ermənistan özünü münaqişədə üstünlük qazanan ölkə kimi görürsə, mən buna şübhə edirəm. Gəlin nəticəyə baxaq, Azərbaycanın və Ermənistanın iqtisadi inkişafını müqayisə edək. Gəlin iki ölkənin perspektivlərinə nəzər salaq və görək ki, iki ildən sonra nələr olacaqdır. Bu gün Azərbaycanın büdcəsi Ermənistandakından üç dəfə artıqdır və üç ildən sonra 5–10 dəfə artıq olacaqdır. Bu uçurum daha da dərinləşəcək və fərq artacaqdır. Bu gün iki ölkədəki iqtisadi vəziyyət

müqayisəolunmazdır. Ona görə də hər hansı üstünlük barədə danışmaq böyük sual altındadır.

Mən istərdim ki, müharibə dayansın və ərazilərimiz sülh yolu ilə geri qaytarılsın. Amma bu yalnız bizdən asılı deyildir. Bu, habelə beynəlxalq ictimaiyyətdən də asılıdır. Beynəlxalq aləm gərək beynəlxalq hüquq normalarını pozan tərəfə təzyiq göstərsin. Bu normaları Azərbaycan pozmur. Biz heç kimin ərazisini işğal etmirik, torpaqlarını ələ keçirmirik. Bu müharibədə biz itki vermiş tərəfik və müharibənin qurbanıyıq. Ona görə də problemin həlli yalnız Azərbaycanın ərazi bütövlüyü əsasında həyata keçirilə bilər.

İnfrastruktur layihələrinə gəldikdə, hazırda ölkədə yeni yollar çəkilir. Azərbaycanı Gürcüstanla birləşdirən qədim İpək yolu bərpa olunur. Bu yolun bizim ərazimizdən keçən hissəsi 400 kilometrə yaxındır. Eyni yollar ölkəmizin paytaxtından İrana və Rusiyaya da çəkiləcəkdir. Ona görə də bizim gələcəkdə hər üç istiqamətə rahat yolumuz olacaqdır. Bakının özündə də şəhərdaxili yolların salınması nəzərdə tutulur, müsabiqələr elan olunur. İştirak etmək istəyən şirkətlər öz təkliflərini verə bilərlər. Ümumiyyətlə, gələcək üçün çoxlu layihələr nəzərdə tutulur. Yolların tamamilə yenidən qurulması həyata keçiriləcəkdir ki, onlar müasir tələblərə cavab versin. Burada həm beynəlxalq maliyyə qurumları, həm də bizim hökumətimiz vəsait qoyublar. Əlavə sərmayəçilər olarsa, biz onlarla da işləməyə hazırıq.

**S u a l: Cənab Prezident, mən turizmin inkişafı ilə maraqlanıram. Biz Azərbaycanda Şəki xanlarının sarayını, Naxçıvandakı məqbərələri və Şirvanşahlar sarayını görmüşük, Bakı ətrafında atəşpərəstlərin məbədi ilə də tanış olmuşuq. Birinci missiya BMT-nin İnkişaf Proqramı tərəfindən maliyyələşdirilirdi. Bizi çox maraqlandıran digər bir sahə isə Bakının və Abşeron yarımadasının dənizə qovuşan sahəsidir. Bu layihə haqqında sizin fikriniz necədir? Ümidvarıq ki, Fransa hökuməti bu layihələrlə bağlı bizə kömək edəcəkdir.**

**C a v a b:** İlk əvvəl onu deyim ki, mən prezident vəzifəsinə yeni seçilmişəm və layihələrin hamısı ilə yaxından tanışlıq üçün bir qədər vaxt lazım olacaqdır. Həm də Azərbaycanda o qədər layihələr həyata keçirilir ki, onların hamısı haqqında dəqiq məlumatlar vermək bir qədər çətindir. Amma sizin dediklərinizə görə minnətdaram. Bizim mədəniyyət incilərimiz qorunub saxlanmalıdır. Azərbaycanın qədim tarixi, memarlıq abidələri vardır ki, onlar ölkənin bütün bölgələrində mövcuddur. Ölkəmizin görməli yerləri çoxdur və bizdə 9 müxtəlif iqlim qurşağı vardır ki, bu da rəngarəng təbiət deməkdir. Ona görə turizm bizim üçün mühüm əhəmiyyət kəsb edən sahələrdən biridir. Təəssüflər olsun ki, Ermənistanın təcavüzü sovet dövründə qazandığımız bir çox turistlərdən bizi məhrum etmişdir. Onlar ölkəyə gəlməkdən qorxurlar. Bizim gözəl dənizimiz, dağlarımız vardır və onları turist yerləri kimi istifadə etmək imkanları böyükdür. Azərbaycanda turizm sənayesinə böyük diqqət yetiriləcəkdir, ölkənin hər bir bölgəsində turistləri maraqlandıra biləcək yerlər vardır. Mən ölkəyə qayıdan kimi sizin söylədiyiniz layihə ilə maraqlanacağam. Sizə isə bu məsələ ilə bağlı müraciət etdiyinizə görə minnətdaram.

**S u a l: Cənab Prezident, mən MEDEF-in Mərkəzi Asiya və Qafqaz üzrə komitəsinin prezidenti Kristian Monsam. İcazə verin Sizə öz minnətdarlığımı bildirim. Çox təqdirəlayiq haldır ki, Siz demokratikləşmə prosesinin iqtisadi layihələrin həyata keçirilməsində həlledici rolunu xüsusi vurğuladınız. Mən Sizinlə tam razıyam.**

**Siz yoxsulluğun azaldılması proqramından da bəhs etdiniz. Beləliklə, qarşınızda çətin vəzifələr durur. Bir tərəfdən, bazar iqtisadiyyatı şəraitində sərmayəçiləri cəlb etməyi düşünürsünüz, digər tərəfdən, insanların həyat səviyyəsinin yaxşılaşdırılmasına çalışırsınız. Bir sıra ölkələr bu çətin vəzifələrin öhdəsindən gələ bilməyiblər. Bəziləri yarı yolda düşünüblər ki, bazar iqtisadiyyatı sosial bərabərliklə yanaşı addımlaya bilməz. Zənnimcə, bu düzgün deyildir. Digərləri sosial ədalət mövzusunda**

**həddindən artıq uzağa gediblər. Nəticədə rəqabət qurban verilmişdir. Elə bilirəm ki, bu məsələ ilə bağlı Sizin fikirlərinizi öyrənmək maraqlı olacaqdır.**

**C a v a b:** Mən sizinlə tamamilə razıyam. Elə bilirəm ki, indiyədək Azərbaycanda bazar iqtisadiyyatının və sosial ədalətin tarazlığı təmin olunubdur. Bazar iqtisadiyyatına gəldikdə, deməliyəm ki, genişmiqyaslı özəlləşdirmə proqramı həyata keçirilmiş, ticarət sərbəstləşdirilmiş, torpaq islahatı aparılmış və nəticədə hazırda ümumi daxili məhsulumuzun 71 faizi özəl sektorda istehsal edilir.

Bildiyiniz kimi, hökumətin inhisarında olan neftdən gələn böyük həcmdə gəliri də nəzərə almaqla, 71 faiz böyük göstəricidir. Bu hələ son rəqəm deyildir. Bu proses davam edir. Bütün bu göstəricilər büdcəmizdə də əks olunmuşdur. İndi ticarət və kənd təsərrüfatının, xidmət sahələrinin büdcədə payı artmışdır. 1,5 milyarda çatdırılmış bu büdcə sosialyönümlüdür və onun çox hissəsi məhz sosial istiqamətlərə xərclənir – məvaciblər verilir, pulsuz təhsil və səhiyyəyə sərf olunur. Əlbəttə, bizim fikrimizcə, yalnız bazar iqtisadiyyatı dəyərləri tətbiq olunsaydı, büdcəmiz də tam fərqli olardı. Lakin bugünkü vəziyyət tam optimaldır və bizim tutduğumuz yol digərləri üçün örnək ola bilər.

Ölkənin ehtiyacları çoxdur, görüləsi işlər də yetərlidir. Bizə yeni elektrik stansiyaları, yeni qurğular, zavodlar, yeni iş yerləri açmaq lazımdır. Lakin eyni zamanda, neftdən əldə olunmuş gəlirləri qaçqın-köçkünlərin ehtiyaclarına da xərcləyirik. Bu məqsədlə artıq 70 milyon dollar vəsait ayrılmışdır. Onlar üçün yeni evlər tikilib, qəsəbələr salınmışdır. Mən bununla bağlı yeni bir fərman imzalayacağam. Ölkədə bir dənə də çadır şəhərciyi qalmayacaqdır. Biz bu siyasəti aparırıq və əminik ki, bu bizə uğur gətirəcəkdir.

İqtisadiyyatın öz qanunları var, biz bu qanunları bilirik və onlara riayət etmədən ölkə uğura nail olmayacaqdır. Amma eyni zamanda, ölkənin normal sosial inkişaf proqramı da var. Sosial inkişaf qanunlarına da riayət etmək mühümdür.

Azərbaycanın zəngin olmaq üçün böyük potensialı var. Zəngin olan ölkədə yoxsullar olmamalıdır. Ölkədə zəngin adamların sayı artır. Bu da ki, ölkədə gedən normal inkişafın nəticəsidir. Lakin eyni zamanda, yoxsulluq səviyyəsində yaşayanları həmin nöqtədən yuxarı qaldırmaq lazımdır. Ona görə də hökumətimiz üçün yoxsulluğun aradan qaldırılması ilə bağlı proqramlar çox böyük əhəmiyyət kəsb edəcəkdir. Xalqımız bunu görür və qiymətləndirir. Elə bilirəm ki, bu tarazlığı saxlamaq çox vacibdir, bazar iqtisadiyyatı və sosial yardım siyasəti gələcəkdə də davam etdiriləcək.

**F r a n s u a  P e r i q o:** Cənab Prezident, Sizin bizə ayırdığınız vaxt sona çatdı və deməliyəm ki, çox vaxt belə azad sual-cavab aparmaq imkanı olmur. Çoxumuz ölkənizdə mövcud olan imkanlar barəsində ətraflı məlumat əldə etdik. Sonda hamımızın adından Sizə minnətdarlığımı bildirmək istəyirəm. Mən cənab nazirə də öz minnətdarlığımı bildirirəm. O əvvəlcə ingiliscə zəif bildiyini desə də, sonra çox gözəl çıxış etdi. Xoşbəxtik ki, burada saziş imzalandı və həmin saziş ölkələrimiz arasında münasibətlərin inkişafını sürətləndirəcəkdir.

Siz bizi ölkənizə səfərə dəvət etdiniz. Biz bu səfəri həyata keçirəcəyik. Çox sağ olun, cənab Prezident.

## FRANSANIN "KASTEL" QRUPUNUN PREZİDENTİ İLƏ GÖRÜŞÜ

*22 yanvar 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Fransaya rəsmi səfərinin ilk günü Parisdə onun üçün ayrılmış iqamətgahda "Kastel" qrupunun prezidenti Pyer Kastel ilə görüşmüşdür.*

*Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə Azərbaycanın dövlət başçısı ölkəmizdə aparılan iqtisadi islahatlardan, xarici sərmayələrin etibarlı qorunmasından ətraflı bəhs etmiş, "Kastel" qrupunu ölkəmizin iqtisadiyyatında daha fəal iştiraka dəvət etmişdir.*

*Cənab Pyer Kastel səfər çərçivəsində vaxt ayırıb onunla görüşdüyü üçün prezident İlham Əliyevə minnətdarlığını bildirmiş, başçılıq etdiyi şirkətlər qrupu tərəfindən Azərbaycanda şərab istehsalı sahəsinə sərmayə qoyuluşu imkanlarının öyrənildiyi barədə məlumat vermişdir.*

## "TOTAL" NEFT ŞİRKƏTİNİN PREZİDENTİ İLƏ GÖRÜŞÜ

*22 yanvar 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev yanvarın 22-də, Fransaya rəsmi səfəri çərçivəsində Parisdə onun üçün ayrılmış iqamətgahda – «Meuripce» mehmanxanasında "TOTAL" neft şirkətinin prezidenti Tyeri Demare ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev şirkətin ölkəmizin iqtisadiyyatında, xüsusilə neft sektorunda fəaliyyətindən məmnunluğunu ifadə etmiş və bildirmişdir ki, fransız iş adamlarının təkcə neft*

sektoruna deyil, iqtisadiyyatın digər sahələrinə də sərmayələr yönəltməsi üçün geniş imkanlar mövcuddur.

"TOTAL" şirkətinin rəhbəri Azərbaycanın neft və qaz yataqlarının işlənilməsi sahəsində fəaliyyətlərinin istiqamətləri və gələcək planları barədə prezident İlham Əliyevə geniş məlumat vermiş, səfər çərçivəsində vaxt ayırıb onu qəbul etdiyinə görə dövlətimizin başçısına təşəkkürünü bildirmişdir.

## FRANSANIN MÜDAFİƏ NAZİRİ XANIM MİŞEL ALYO-MARİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA* NİTQ

*Paris,*
*«Debriyen» mehmanxanası*

*22 yanvar 2004-cü il*

Hörmətli xanım nazir!

Hörmətli xanımlar və cənablar!

Mən bu dəvətə görə sizin hamınıza öz təşəkkürümü bildirirəm. Bu gün mənim Fransaya rəsmi səfərim başlayıbdır. Çox şadam ki, bu səfər uğurla davam edir. Artıq çox mühüm görüşlər keçirilibdir.

Ölkələrimiz arasında uğurlu əməkdaşlıq aparılır. Bu əməkdaşlıq bütün sahələrdə öz gözəl nəticələrini verməkdədir. Siyasi, iqtisadi, mədəni sahələrdə ölkələrimiz uğurla əməkdaşlıq edir və bu bizim ölkələrimizi, xalqlarımızı bir-birinə daha da yaxınlaşdırır.

Fransa, eyni zamanda, ATƏT-in Minsk qrupunun həmsədridir. Biz ümid edirik ki, digər həmsədrlərlə birlikdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında daha fəal rol oynayacaqdır.

Fransa həm də Avropanın aparıcı ölkələrindən biridir. Nəzərə alsaq ki, Azərbaycan da öz gələcəyini Avropa strukturlarına inteqrasiyada görür, bu baxımdan da bizim ikitərəfli münasibətlərimiz böyük əhəmiyyət kəsb edir. Eyni zamanda, Fransa ilə bizi dostluq əlaqələri bağlayır və bu

---

* Rəsmi qəbulda Fransa parlamentinin üzvləri, xarici işlər, müdafiə, iqtisadiyyat, maliyyə, sənaye nazirliklərinin nümayəndələri və iş adamları iştirak edirdilər.

əlaqələr çox güclüdür. Əminəm ki, gələcəkdə onlar daha da güclənəcəkdir.

Bütün bu amilləri nəzərə alaraq demək olar ki, nə üçün Azərbaycan prezidenti öz ilk rəsmi səfərini Fransaya edibdir. 1993-cü ildə Azərbaycan prezidenti Heydər Əliyev ilk səfərini Fransaya edibdir. 2004-cü ildə Azərbaycanın prezidenti öz ilk səfərini Fransaya edibdir. Bu ənənə artıq yaranıbdır və ümidvaram ki, bundan sonra da yaşayacaqdır.

Arzu edirəm ki, bizim ikitərəfli münasibətlərimiz bundan sonra da inkişaf etsin, güclənsin, bizi bir-birimizə daha da yaxın etsin.

Xanım nazir, bu badələri Sizin sağlığınıza, hörmətli dostlar, sizin sağlığınıza və Fransanın şərəfinə qaldırıram. Sağ olun.

## FRANSA BEYNƏLXALQ ƏLAQƏLƏR İNSTİTUTUNDA GÖRÜŞDƏ ÇIXIŞ

*Paris*

*23 yanvar 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Fransaya rəsmi səfəri çərçivəsində Fransa Beynəlxalq Əlaqələr İnstitutunda görüş keçirmişdir. İnstitutun binası qarşısında Azərbaycan dövlətinin başçısını institutun direktor müavini cənab dö Vilpen, Fransanın dövlət və hökumət nümayəndələri qarşıladılar.*

*Görüşdə Fransanın siyasi xadimləri, diplomatlar və jurnalistlər iştirak edirdilər.*

*İnstitutun direktor müavini cənab dö Vilpen Azərbaycan prezidenti İlham Əliyevi görüş iştirakçılarına təqdim edərək, onun beynəlxalq aləmdə kifayət qədər tanınmış və diplomatiya sahəsində böyük təcrübəyə malik siyasətçi olduğunu söylədi.*

**İlham Əliyev:** Çox sağ olun, bu nəzakətli təqdimata görə minnətdaram.

Əziz xanımlar və cənablar!

Beynəlxalq Əlaqələr İnstitutuna dəvət olunmaq mənim üçün böyük şərəfdir. Bu institut dünyada gedən hadisələrin təhlili və dəyərləndirilməsi ilə bağlı mühüm tədqiqatlar aparır. Siz bilirsiniz ki, bizim mərhum prezidentimiz Heydər Əliyev bu institutla çox bağlı idi. Bir neçə dəfə buraya gəlib görüşlər keçirmişdi və bu görüşlərdən xoş təəssüratları var idi. Ona görə də mənim burada olmağım təsadüfi deyildir. Prezident kimi mənim ilk rəsmi səfərimin Fransaya olması bizim Fransa ilə ikitərəfli münasibətlərə, böyük Avropa ailəsinə inteqrasiyaya nə dərəcədə böyük əhəmiyyət verməyimizə dəlalət edir.

Azərbaycan müstəqilliyini 1991-ci ildə qazandı. O zaman ölkədəki vəziyyət çox çətin idi. İqtisadi, siyasi və sosial sahə-

lərdə tam böhran hökm sürürdü, Ermənistan Azərbaycana hərbi təcavüz etmişdi, Azərbaycan torpaqlarını itirirdi. Azərbaycan xalqı Heydər Əliyevi Bakıya dəvət edib, onu prezident seçənədək bütün bunlar davam edirdi. Ondan sonra vəziyyət dəyişməyə başladı. Ermənistanla müharibə dayandırıldı, atəşkəs əldə olundu, iqtisadi tənəzzülə son qoyuldu.

1996-cı ildən isə iqtisadi dirçəliş dövrü başlandı. O vaxtdan etibarən bizim ölkəmiz dinamik inkişaf edir. İqtisadi inkişafda böyük nailiyyətlər əldə olunmuşdur. İndi hamıya məlumdur ki, Azərbaycan iqtisadi cəhətdən regionun lideridir, biz iri həcmdə xarici sərmayələri ölkəyə cəlb edə bildik və adambaşına sərmayələrin qoyuluşu baxımından keçmiş sovet ölkələri içərisində lider mövqeyindəyik.

Azərbaycan öz təbii ehtiyatlarını xarici biznes üçün açıq elan etdi və bu gün dünyanın ən böyük şirkətləri bizimlə birlikdə işləyirlər. Azərbaycan Xəzər dənizində öz neft ehtiyatlarının işlənilməsi sahəsində öncül mövqelərə sahib olmuşdur. Bu işi əsas neft şirkətləri ilə birlikdə yerinə yetiririk, bu əməkdaşlığın nəticəsində ölkəmizə milyardlarla vəsait gətirilir.

Azərbaycan yalnız birbaşa xarici sərmayədən deyil, eyni zamanda, xarici texnologiyalardan, təcrübədən də yararlandı.

Hazırda bizdə, ölkədə yaşayan xaricilərin sayı çoxdur, onlar özlərini evdəki kimi hiss edirlər. Bizim xalqımız həmişə qonaqpərvərliyi ilə fərqlənib. Ölkədə dini və etnik səbəblərdən heç vaxt anlaşılmazlıq, narazılıq olmayıbdır. Ona görə də bizdə yaşayan minlərlə xarici özlərini rahat hiss edir. İqtisadi islahatların nəticəsi kimi, son bir neçə il ərzində illik 10 faiz artım müşahidə olunur. Həyat səviyyəsi yüksəlir, amma bununla belə, sosial problemlər də çoxdur. Bizim 1 milyon qaçqın və məcburi köçkünümüz var, onlar bizim zəbt olunmuş torpaqlarımızı tərk etmiş vətəndaşlarımızdır. Bu, Azərbaycan iqtisadiyyatı üçün çox ağır bir yükdür. Əhalinin ümumi sayına nisbətdə götürdükdə, Azərbaycan dünyada ən çox qaçqın-köçkün olan ölkədir. 8 milyonluq əhalinin 1 milyonu qaçqın-köçkünlərdir.

Bununla belə, biz elə bir şərait yarada bilmişik ki, xarici sərmayəçilər özlərini rahat hiss edirlər. Mən elə bilirəm ki, bu ən böyük nailiyyətlərdən biridir. Çünki etibar qazanmaqdan ötrü illər lazımdır, bircə səhv addım hər şeyi yox edə bilər. Biz işimizi elə qurduq ki, səhv addımlara yer qalmadı. Azərbaycanın coğrafi-siyasi mövqeyi, bir tərəfdən, onu çox mühüm yolayrıcı mərkəzə çevirir, digər tərəfdən, biz müxtəlif münaqişələrin baş verdiyi ərazidə yerləşmişik.

Biz coğrafi-siyasi mövqeyin üstünlüklərindən istifadə edirik. Azərbaycan şərq–qərb və şimal–cənub dəhlizlərinin vacib ölkəsidir. Biz bundan bəhrələnməyə çalışırıq. Eyni zamanda, regionun özü – Qafqaz və daha geniş ərazi münaqişələrlə doludur. Bu da ki, sabit şərait yaradılmasına mane olur.

Bizim daha bir böyük nailiyyətimiz Azərbaycanda mövcud olan sabitlikdir. İctimai-siyasi sabitlik ölkənin iqtisadi uğurlar əldə etməsinin əsas səbəblərindən biridir. Biz istəyirik ki, qonşularımızla sülh şəraitində yaşayaq, regionumuz düşmənçilik deyil, əməkdaşlıq regionu olsun. Azərbaycan qonşuları ilə yaxşı münasibətlər yaradıbdır.

Türkiyə, Rusiya, Gürcüstan, İranla bizim yaxşı ikitərəfli münasibətlərimiz var. Regional səviyyədə əməkdaşlıq edirik. Ancaq bir qonşumuzla heç bir münasibətimiz yoxdur ki, bu da Ermənistandır. Səbəbi də aydındır. 1980-ci illərin sonunda ölkəmizin Dağlıq Qarabağ bölgəsində başlayan separatçı hərəkat Azərbaycana qarşı müharibə ilə nəticələndi. Ermənistan Dağlıq Qarabağı Azərbaycandan ayırmaq məqsədi ilə ölkəmizə qarşı təcavüz etdi və Dağlıq Qarabağın inzibati ərazisindən kənarda yerləşən daha 7 rayon işğal olundu. Azərbaycana qarşı bu təcavüz 10 ildən artıqdır ki, davam edir.

Bütün ölkəmiz bu müharibədən əziyyət çəkibdir və əvvəldə dediyim kimi, 1 milyon əhalimiz qaçqın və köçkündür. Beynəlxalq aləm uzun müddətdir ki, bu məsələ ilə məşğuldur, lakin təəssüf ki, elə bir uğur əldə olunmayıbdır. ATƏT-in Minsk qrupu və onun həmsədrləri – Fransa, Rusiya və

Birləşmiş Ştatlar çox cəhdlər edirlər ki, münaqişənin həlli yollarını tapsınlar və tərəfləri razılığa gətirsinlər.

Təəssüf ki, bu sahədə heç bir irəliləyiş yoxdur. Bu münaqişəni həll etmək üçün beynəlxalq hüquq normaları nəzərə alınmalıdır. BMT 4 qətnamə qəbul etmişdir. Bu qətnamələrdə Ermənistandan tələb olunur ki, işğalçı ordusunu qeyd-şərtsiz geri çəksin. Təəssüf ki, Ermənistan beynəlxalq hüquq normalarına heç bir əhəmiyyət vermir. Ermənistanın mövqeyi belədir ki, Dağlıq Qarabağ ermənilərinin öz müqəddəratlarını təyin etməyə haqları vardır.

Beynəlxalq hüquq normaları isə bu fikrə haqq qazandırmır. Çünki ermənilər bir millət kimi, öz müqəddəratlarını təyin ediblər. Onların müstəqil ölkəsi vardır. Bu ölkə Ermənistandır. Onların məntiqinə əsaslansaq, ermənilər öz müqəddəratlarını hər bir yerdə təyin edə bilərlər, ona görə ki, onlar hər yerdə – Rusiyada, Fransada, Afrikada, Amerikada yaşayırlar. Bu, beynəlxalq aləmdə qəbul olunan bir şey deyildir. Ona görə də, onların təbliğat vasitəsi kimi istifadə etdikləri bu metod ciddi qəbul oluna bilməz. Beynəlxalq hüquq normalarında əsas əhəmiyyət kəsb edən prinsip ərazi bütövlüyüdür, hər bir ölkənin suverenliyidir. Azərbaycan dünyada hər bir ölkənin ərazi bütövlüyünü tanıyır və biz istəyirik ki, dünya da bizim ərazi bütövlüyümüzü tanısın və o, bərpa olunsun.

Biz ərazi bütövlüyümüzün bərpası üçün hər şey edəcəyik. Bəzən belə düşünürlər ki, hansısa bir səbəbdən, xarici ölkələrin köməyi nəticəsində münaqişədən əldə etdiyi üstünlüklərə görə Ermənistanın danışıqlar zamanı mövqeləri daha əlverişlidir. Mən bununla razı deyiləm. İstərdim ki, bu məsələ ilə bağlı öz fikrimi çatdırım. Bəli, həqiqətən, yuxarıda qeyd etdiyim səbəblər sayəsində onlar heç vaxt Ermənistana məxsus olmamış və məxsus ola bilməyəcək əraziləri ələ keçiriblər. Yeri gəlmişkən, mövzunun tarixi aspektindən danışsaq, ermənilər Dağlıq Qarabağ ərazisinə yalnız XIX əsrin əvvəllərində köçürülmüşlər. Bu, tarixi faktdır. 1970-ci illərdə Dağlıq Qarabağın mərkəzində ilk erməni məskənlərinin salınmasına

həsr olunmuş abidə də ucaldılmışdı. Bu abidə ermənilərin Qarabağ torpağına ayaq basmasının 150 illiyinə həsr olunmuşdu. Ona görə də onların bu torpağa iddialarının heç bir tarixi əsası yoxdur.

Bu gün isə mən bu problemin başqa aspektindən danışmaq istəyirəm. Elə görünə bilər ki, Ermənistanın mövqeləri daha əlverişlidir. Amma əslində, belə deyildir. Bu gün Ermənistanla Azərbaycanı müqayisə etsək, hər bir kəs fərqi görə bilər. Azərbaycan tam müstəqil ölkədir. Ərazisində heç bir xarici dövlətin hərbi bazası yoxdur. Xarici yardımdan asılı deyildir. Azərbaycan iqtisadiyyatını inkişaf etdirir. Büdcəmiz Ermənistanın büdcəsindən 3 dəfə çoxdur. Coğrafi-strateji mövqeyini və ölkədə neft sektorunun inkişafını nəzərə alsaq, Azərbaycan qısa zaman kəsiyində çox güclü ölkəyə çevriləcəkdir. Ermənistana nəzər salsaq, görərik ki, bu deyilənlərə yaxın heç bir şey yoxdur. Ona görə də bu müharibədə kimin üstünlük əldə etməsi hələ böyük sual altındadır.

Mən bu münaqişə ətrafında ona görə geniş danışıram ki, onun yalnız Azərbaycan, region üçün deyil, bütün dünyaya təsiri böyükdür. Xatırladım ki, Sovet İttifaqının dağılmasının özü Qarabağdakı separatist hərəkatdan başladı. Ondan sonra Abxaziya, daha sonra Dnestryanı, sonra Cənubi Osetiya münaqişələri başlandı. Bu etnik separatçı hərəkatlar digərləri ilə müşayiət olundu. Nəticədə Sovet İttifaqı dağıldı. SSRİ-nin dağılmasından heyfsilənmirik, əksinə, Sovet İttifaqının dağılması bizə müstəqil olmaq imkanı verdi. Bizim xalqın əsrlərlə gözlədiyi müstəqilliyə nail olduq. Məsələ ondadır ki, bu separatçı hərəkatlar dağıdıcılıqla müşayiət olundu. Bu gün münaqişə zonası regionda sabitliyin pozulması üçün potensial ərazidir. Ona görə də biz çox narahatıq ki, bu məsələ həll olunmazsa, regionda müharibənin yenidən başlanması üçün daimi təhlükə qalır. Ümid etmək istəyirəm ki, beynəlxalq icma və xüsusilə də ATƏT-in Minsk qrupunun həmsədrləri Fransa, Rusiya və ABŞ bu münaqişənin həll olunmasında daha fəal rol

oynayacaqlar. Ermənistanı inandıra biləcəklər ki, XXI əsrdə bir ölkənin digər ölkənin ərazisini işğal etməsi yolverilməzdir.

Məsələnin indiyə qədər həll olunmamasının digər bir səbəbi də beynəlxalq aləmin yeritdiyi ikili standartlardır. Əgər dünyanın hansısa hissəsində hansısa bir ölkənin ərazisi digər ölkə tərəfindən zəbt olunursa, bu zaman beynəlxalq aləm öz resurslarından, siyasi, diplomatik vasitələrdən, yeri gələrsə, hərbi vasitələrdən istifadə edir və ədaləti bərpa edir. Ermənistan–Azərbaycan münaqişəsi ilə bağlı isə bu cür tədbirlər görülmədi. Ona görə də Azərbaycan xalqı beynəlxalq aləmin bu cür münasibətini ikili standart kimi qəbul edir. Mən yenə də ümidimi bildirmək istəyirəm ki, bu münaqişə həll olunacaq və həm Azərbaycan xalqı, həm də erməni xalqı gələcəkdə sülh şəraitində yaşayacaqlar.

Fransa Minsk qrupunun həmsədri kimi, bu münaqişənin həll olunmasında böyük məsuliyyət daşıyır və buna çox qüvvə sərf edibdir. Prezident Jak Şirak şəxsən bu işlə məşğuldur və mən ümid edirəm ki, bütün bu səylərin bəhrəsi olacaqdır.

Bizim Fransa ilə ikitərəfli münasibətlərimiz çox müsbət istiqamətdə davam edir. Siyasi səviyyədə yaxşı qarşılıqlı anlaşma var, iqtisadi əlaqələr yüksək səviyyədədir. Fransız şirkətləri Azərbaycanda sərmayəçi kimi, kontraktor kimi işləyirlər. Hər iki tərəf bu əməkdaşlıqdan razıdır. Biz ümid edirik ki, gələcəkdə Fransa kapitalı, fransız şirkətləri Azərbaycanda daha çox təmsil olunacaq və ölkələrimiz bundan xeyir görəcəklər. Yeri gəlmişkən, ölkələrimiz arasında ticarət əla

qələri son müddətdə üç dəfə artmışdır.

Münasibətlərimizin inkişafı sahəsində böyük potensial var. Fransa ilə münasibətlərə Azərbaycanda həmişə böyük önəm verilmişdir. Fransa Azərbaycanı həmişə maraqlandıran ölkə olmuşdur. Fransanı Azərbaycanda həmişə daha yaxından tanımaq istəmişlər. Düşünürəm ki, bu da bizim əlaqələrin artmasına imkan verən bir məqamdır. Müxtəlif səpkilərdə, müxtəlif səviyyələrdə görüşlərin, səfərlərin, seminarların sayı artmalıdır. İnsanlar gərək bir-birini yaxşı tanısınlar. Fransa həm

də Azərbaycan üçün ona görə vacibdir ki, Azərbaycan özünü Avropanın bir hissəsi hesab edir. Ölkəmiz Avropa Şurasının üzvüdür.

Artıq üç ildən çoxdur ki, biz gələcək inkişafımızı Avropaya inteqrasiya ilə bağlayırıq. Fransanın Avropada aparıcı rol oynaması da bizim ölkə üçün vacib bir amildir. Elə bilirəm ki, yaxınlaşmaq ölkələrimizin qarşılıqlı arzusudur və sizin ölkə ilə yaxınlaşmaqla Azərbaycan qarşısında duran çətinliklərin öhdəsindən daha asan gələcəkdir.

Son müddət ərzində biz böyük uğurlar əldə etmişik, nailiyyətlərimiz çox olub, tamamilə dağıdılmış ölkə indi sabit, dinamik inkişaf edən ölkədir. Əlbəttə ki, Azərbaycanda problemlər çoxdur: iqtisadi problemlər, sosial problemlər, yoxsulluq, işsizlik. Bütün bu məsələlərlə növbəti 5 il müddətində yaxından məşğul olacağıq və uğur qazanacağımıza əminəm. Mən əminəm ki, Azərbaycan Avropa strukturlarına geniş inteqrasiya etdikdən sonra daha uğurla inkişaf edəcəkdir. Heydər Əliyevin Azərbaycanı inkişaf etdirmək siyasəti davam etdiriləcək, çünki həyatın və zamanın sınağından çıxmış bu siyasət özünün doğru olduğunu sübuta yetirmişdir.

Çox vaxtınızı almaq istəmirəm. Azərbaycan haqqında deyəcəyim söz çoxdur. Bu gün dediklərim demək istədiklərimin çox az bir hissəsidir.

İstərdim ki, ünsiyyətimiz davam etsin, gələn dəfə Fransada olarkən məmnuniyyətlə bir daha sizinlə görüş keçirim. İstərdim ki, sizi də Azərbaycana dəvət edim, gəlib hər şeyi özünüz görəsiniz ki, ölkəmiz necə yaşayır, necə inkişaf edir. Təəssüflər olsun ki, bəzən mətbuatın yazdığı qərəzli yazılarla ölkədəki reallıq arasında heç bir oxşarlıq olmur. Bir daha dəvətə görə sizə minnətdarlığımı bildirirəm. Ümid edirəm ki, belə görüşlərimiz bir-birimizi daha yaxşı anlamağa kömək edəcəkdir. Çox vaxtınızı almayacağam, bir neçə kəlmə də fransız dilində müraciət edim.

Bugünkü görüşə görə sizə minnətdaram. Mən ingilis dilində danışdım, çünki ingilis dilində tez-tez danışmaq lazım gəlir,

ünsiyyətlərimiz davam edərsə, fransız dilində daha tez-tez danışaram və gələn dəfə sizinlə görüşü fransızca keçirərəm.

Yaşasın Fransa, yaşasın Azərbaycan!

* * *

**S u a l: Fransa Senatı və Fransa hökuməti nəzərdə tutulan mədəni proqram çərçivəsində işləməkdən çox fəxr edir. İcazə verin, Senatdakı həmkarlarımı, xüsusilə də cənab Dümonu salamlayım. O, Fransa Senatında dostluq qrupunun rəhbəridir, cənab Monteskyönü də salamlayıram. Mənim sualım cənab prezidentədir. Regional vəziyyətlə bağlı bugünkü gündə Gürcüstanı necə qiymətləndirirsiniz? Sizcə, Gürcüstan Rusiya ilə ABŞ arasında tarazlıq tapa biləcəkmi?**

**İ l h a m Ə l i y e v:** Dost kimi, qonşu kimi, birgə layihələrin iştirakçısı kimi, yaxşı siyasi və iqtisadi əlaqələrimiz olduğu ölkə kimi, əlbəttə, Gürcüstandakı vəziyyət bizim üçün də vacibdir. Biz istəyirik ki, Gürcüstandakı vəziyyət sabit olsun. Biz istərdik ki, Gürcüstandakı dostlarımız sülh şəraitində yaşasınlar. Gürcüstanın Azərbaycanla oxşar problemləri var. Onların da qondarma, separatçı "respublikaları" var və bunlar Gürcüstanın ərazi bütövlüyünü pozurlar. Ümumi problemlər bizi bir-birimizə daha sıx yaxınlaşdırır. Mən elə bilirəm ki, bizim coğrafi məkanda, bizim kimi ölkələr üçün əsas məsələ qarşıdurmanı əməkdaşlığa çevirməyə çalışmaqdır. Azərbaycanın da Rusiya ilə münasibətlərində çətin dövrlər var idi. 1990-cı illərin əvvəllərində çoxlu narazılıqlar var idi, bizə çox təzyiq olunurdu. Heç kim üçün sirr deyil ki, Rusiya silahla Ermənistana yardım edirdi, bəzən birbaşa hərbi yardım göstərirdi. Azərbaycana qarşı iqtisadi blokada var idi. Biz elə vaxtları yaşamışıq ki, heç bir məsələdə razılığa gəlmirdik. Xəzər dənizinin sərhədlərə bölünməsi məsələsində də. Bugünkü Rusiya–Azərbaycan münasibətlərinə baxsaq – bu həm də Rusiya prezidenti Putinin fikridir – münasibətlərimiz əsl qonşuluq münasibətləri nümunəsidir. Biz bütün problemləri həll

edə bildik. Xəzər dənizi məsələsində də razılığa gəldik. Siyasi, iqtisadi məsələlərdə razılığa gəldik və hər iki tərəf bu razılıqlardan məmnundur. Elə bilirəm ki, bu qarşıdurma rəqabətin əməkdaşlığa çevrilməsinin gözəl nümunəsidir.

Güclü dövlətlərin maraqları çox vaxt toqquşur, onların mövqeləri çox zaman tam əks olur.

Bizim ölkələr üçün, region üçün ən yaxşısı odur ki, onların mənafeləri, haradasa, bizdən uzaq yerdə toqquşsun. Ona görə də elə bilirəm ki, Gürcüstan da bizim təcrübədən istifadə edəcək və bu qarşıdurmadan çəkinərək əməkdaşlığa başlayacaqdır. Bunun üçün imkanlar mövcuddur. Əgər bizim yardımımız lazım olarsa, bunu etməyə hazırıq. Dediyim kimi, Gürcüstanla münasibətlər bizim üçün çox vacibdir. Eyni zamanda, Rusiya ilə münasibətlər də bizim üçün mühüm əhəmiyyət kəsb edir. Hər ikisi bizim üçün qonşu və dost dövlətdir. Azərbaycan dostları ilə münasibətləri normal məcraya yönəltməyə və yardım göstərməyə həmişə hazırdır. Əminəm ki, yuxarıda qeyd olunan vəziyyət sülh məcrasına düşəcək, sabitləşəcək və narazılıqlar tezliklə aradan qaldırılacaqdır.

**S u a l: Son dəfə Ermənistan prezidenti Köçəryanla Cenevrədə görüşmüşdünüz. Bu görüşdən sonra hər hansı bir irəliləyiş varmı?**

**C a v a b:** Həmin görüş Azərbaycanda keçirilmiş prezident seçkilərindən sonra ilk görüş idi. Bu habelə mənim Ermənistan prezidenti ilə də birinci görüşüm idi. Ona qədər biz bir-birimizi tanımırdıq. Demək olar ki, bu, bir növ tanışlıq məqsədi daşıyan görüş idi. Əsas məqsəd münaqişənin sülh yolu ilə həlli üzrə bir-birimizə fikirlərimizi bildirmək, keçmişə nəzər salmaq və gələcək imkanları nəzərdən keçirmək idi.

Görüşdən sonra prezidentlər tərəfindən mətbuata bəyanat verildi və hər iki dövlət başçısı münaqişənin sülh yolu ilə həll olunmasının vacibliyini bildirdi. Bu bəyanat müsbət hal kimi qiymətləndirilməlidir.

O ki qaldı praktiki addımlara, bu haqda ətraflı söhbət olmadı. Bizim mövqeyimiz bəllidir və o ədalətlidir. Azərbaycan

özünə məxsus olmayan heç nəyi tələb etmir. Biz yalnız özümüzə məxsus olan əraziləri istəyirik. Ona görə də mövqeyimiz tam ədalətlidir. Hadisələrin necə cərəyan edəcəyini zaman göstərəcəkdir. Bu münaqişənin həlli üçün güclü beynəlxalq vasitəçilik lazımdır. Əgər iki prezident razılaşa bilərdisə, onda heç Minsk qrupuna da ehtiyac olmazdı. Bəzən ATƏT-in Minsk qrupunun üzvləri bizə deyirlər ki, siz gedib razılaşmalısınız və biz də bu razılaşma əsasında işləyərik. Biz razılaşacağıqsa, onda vasitəçiləri neyləyirik? Vasitəçilər münaqişəyə cəlb olunmuş tərəflərə onun həlli yolunu tapmaqda kömək etməlidirlər. Ümidvaram ki, onlar öz fəaliyyətlərini davam etdirəcəklər. Amma eyni zamanda, sizə deyə bilərəm ki, biz hadisələri tələsdirmirik. Azərbaycanın mövqeyi ədalətlidir, vaxt bizə işləyir və beynəlxalq hüquq da bizim tərəfimizdədir. Digər tərəf bunu nə qədər tez başa düşərsə, bu onlar üçün yaxşı olar.

**S u a l: Mənim adım Corc Eskoroldur, universitetdə iqtisadiyyat üzrə professoram. Cənab Prezident, istərdim ki, çox maraqlı və məzmunlu nitqinizə görə Sizə minnətdarlığımı bildirim. Bu təqdimatdan sonra mən anladım ki, Dağlıq Qarabağ məfhumu sizin ölkə üçün nə dərəcədə böyük əhəmiyyət kəsb edir. Mən Sizə ölkənizin ərazi bütövlüyünü bərpa etmək səylərində uğurlar diləyirəm. İcazə versəydiniz, mən Sizə iki sualla müraciət edərdim. Birinci sual siyasi, ikinci isə iqtisadi xarakterlidir. Bilirəm ki, Azərbaycandan kənarda – İranda milyonlarla azərbaycanlı yaşayır. O da məlumdur ki, hazırda İranla ABŞ arasında münasibətlər olduqca pisdir. Lakin Azərbaycan həm ABŞ, həm də Rusiya ilə yaxşı münasibətlərə nail olubdur. Necə düşünürsünüz, 1940-cı illərdə baş vermiş hadisələr təkrar oluna bilərmi? Bu adamlar Azərbaycana – ana vətənlərinə qovuşmaq arzusunu ifadə edə bilərlərmi? Digər sualım neft ehtiyatları ilə bağlıdır. Hələ 1945-ci ildə, müharibənin sonunda elan edilmişdi ki, Azərbaycanın neft ehtiyatları tükənir və daha**

**neft hasil olunmayacaqdır. Bundan sonra, Sizə məlum olduğu kimi, neftçilər ikinci və üçüncü Bakı axtarmağa başladılar. Bəlkə bu belə düşünülmüşdü ki, neft yataqları Azərbaycanın müstəqillik dövrü üçün saxlanılsın?**

**C a v a b:** Şərhinizə və sualınıza görə çox sağ olun. Xaricdə yaşayan azərbaycanlılara gəldikdə, deməliyəm ki, onları bir neçə kateqoriyalara ayırmaq olar. Elə azərbaycanlılar var ki, digər ölkəyə köçüb, orada diaspor kimi yaşayırlar. Digərləri isə başqa ölkə hesab olunsa da, öz dədə-baba torpaqlarında yaşayırlar. İranda yaşayan azərbaycanlılar öz ölkəsində yaşayırlar. Onların yaşadıqları yer dədə-baba torpaqlarıdır. 40-cı illərdə İranda olan hərəkat oradakı azərbaycanlıların Sovet İttifaqında yaşayan azərbaycanlılarla qovuşmaq hərəkatı deyildi. Bu, Cənubi Azərbaycanda olan müstəqillik hərəkatı idi. Bizim İranla yaxşı əlaqələrimiz var və biz bir-birimizin işlərinə qarışmırıq. Ölkələrimizdə dövlət qurumları, bir sıra məsələlərə baxışımız müxtəlifdir. Lakin aramızda qarşılıqlı anlaşma var. Biz qonşuyuq və dostuq. Əlaqələrimizi elə qurmalıyıq ki, hər iki ölkə bundan xeyir görsün.

İranda yaşayan azərbaycanlılar İran vətəndaşıdır və tarix boyu orada yaşamışlar. Bildiyiniz kimi, Böyük Azərbaycan Rusiya və İran arasında bölünmüşdü. Rusiya imperiyasının tərkibində olan Azərbaycan indi müstəqillik qazandı, İran ərazisində olan Azərbaycan isə indi İranın bir hissəsidir. Mən ölkələrimiz arasındakı münasibətlərin inkişafının tərəfdarıyam və biz bir-birimizin işlərinə qarışmamalıyıq.

Mən, ümumiyyətlə, bir ölkənin digər ölkənin işlərinə qarışmasının əleyhinəyəm. Əgər ölkələr yalnız öz problemlərini həll etməklə məşğul olsalar, mən əminəm ki, nə müharibələr olar, nə münaqişələr olar, nə də qan tökülər.

Azərbaycanın təsdiq olunmuş ehtiyatları ilə bağlı onu deyə bilərəm ki, bunun müxtəlif mənbələri vardır. Sovet dövründə neft hasilatı Sibirdə tapılmış ehtiyatlarla müqayisədə, Azərbaycanda artıq səmərəsini itirmişdi. Bu ona görə idi ki, dənizdə neft çıxarmaq qurudakından daha baha başa gəlir. Ona

görə də Azərbaycan neftinə diqqət azaldı. Bunun da bizim üçün müsbət sonluğu oldu. Çünki bu bizə həmin ehtiyatların müstəqillik dövrünə saxlanılmasına imkan verdi. Bu gün Azərbaycanda nə qədər neft ehtiyatları olması haqqında müxtəlif fikirlər vardır. Bəzən elə düşünürlər ki, biz neft ehtiyatlarının həcmini şişirdirik ki, xarici şirkətləri ölkəyə cəlb edək. Amma xarici şirkətlər bizim rəqəmlərlə yanaşı, öz dəyərləndirmələrini də aparırlar. Azərbaycanın çox böyük neft ehtiyatları və böyük qaz potensialı vardır. Mən əminəm ki, ölkəmiz Avropanın alternativ qaz təchizatçısı olacaqdır. Bu sahədə iş gedir və əminəm ki, neftdən gələn gəlirlər ölkəmizin mənafeyinə xidmət edəcəkdir.

**S u a l: Cənab Prezident, Siz burada xatırlatdınız ki, ölkəniz gələcəkdə Avropa İttifaqına qoşulmaq və ya ən azı, bu təşkilata daha da yaxınlaşmaq niyyətindədir. Eyni zamanda, bildiyiniz kimi, bu ilin dekabr ayında Avropa İttifaqının 25 üzvü Türkiyənin bu təşkilata üzv qəbul olunması məqsədi ilə danışıqların başlanması tarixini müəyyənləşdirəcəkdir. Sizin fikrinizcə, əgər Türkiyə Avropa İttifaqına daxil olarsa, bu, ölkənizin həmin quruma yolunu asanlaşdıra biləcəkmi?**

**C a v a b:** Biz Türkiyəyə bu yolda uğur arzu edirik və əminəm ki, bu məsələ müsbət həll olunacaqdır. Əgər bu baş tutarsa, bunun Azərbaycana da xeyri olar. Amma elə bilirəm ki, hər bir ölkə öz üzərinə düşən işi yerinə yetirməlidir ki, Avropa İttifaqının üzvü ola bilsin. Əlbəttə, təqdimatlar, dəvətnamələr, yardımlar vacibdir. Lakin ölkənin özü standartlara uyğun gəlmirsə, bunlar heç bir nəticə verməyəcəkdir.

Azərbaycan inkişafda olan ölkədir. Azərbaycan münaqişədən, müharibədən, hakimiyyətsizlikdən, vətəndaş müharibəsindən, çevriliş cəhdlərindən, iqtisadi tənəzzüldən çıxıb müstəqilliyini qoruyan ölkədir. Bütün bunlar 1991-ci ildən 1996-cı ilə qədər Azərbaycanın tarixində yer almış hadisələrdir. Yalnız bundan sonra ölkəmizdə demokratik təsisatların, bazar iqtisadiyyatının, iqtisadi islahatların həyata keçirilməsinə

başlanıldı. Gördüyünüz kimi, daha beş il müddətində biz iqtisadi və siyasi islahatları eyni sürətlə davam etdirə bilsək, o zaman standartlarımız Avropa tələblərinə cavab verəcəkdir.

**S u a l: Zati-aliləri, mən Sorbonna Universitetində beynəlxalq əlaqələr üzrə təhsil alıram. Hər şeydən əvvəl, belə mötəbər auditoriya qarşısında əla çıxışınıza görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Mənə elə gəlir ki, hazırda Ermənistanla Azərbaycan arasında olan münasibətlər İkinci dünya müharibəsi dövründə Fransa ilə Almaniya arasındakı münasibətlərdən heç də pis deyildir. Necə düşünürsünüz, bəlkə ölkələr arasındakı sosial-iqtisadi əlaqələr, birgə layihələr bu münaqişənin həll olunmasına yardım edə bilər? Eyni zamanda, Cənubi Qafqaz ölkələrinin Avropa İttifaqına üzvlüyü məsələsini asanlaşdıra bilər?**

**Cənab Prezident, Bakı–Ceyhan kəməri Türkiyəyədək uzanacaqdır. Bilmək istərdim ki, bu kəmərin tikintisi Azərbaycana və ümumilikdə regiona nə kimi dəyişikliklər gətirəcəkdir. Siz demokratik qaydada atanızı əvəz etdiniz. Qərb bu məsələdə ölkənizdə daha çox sabitliyə diqqət yetirdi. Eyni zamanda, demokratiya nöqteyi-nəzərindən Siz hesab edirsinizmi ki, hazırda bu, Qərb ölkələrindəki vəziyyətə uyğundur?**

**C a v a b:** Ermənistanla Azərbaycan arasındakı iqtisadi münasibətlərə gəldikdə, bizim mövqeyimiz dəyişməz olaraq qalır. Bu ölkə Azərbaycanın zəbt olunmuş ərazilərindən öz işğalçı ordusunu çıxarmayınca, heç bir iqtisadi əlaqələrimiz olmayacaqdır. Düşünürəm ki, bizim bu mövqeyimiz beynəlxalq aləm tərəfindən başa düşülməlidir. Bəzən bu məsələni belə təqdim etməyə çalışırlar ki, guya onlar əməkdaşlıq etmək istəyirlər, biz isə istəmirik. Əlbəttə, Ermənistan bizimlə əməkdaşlığa can atır və onunla iqtisadi əlaqələrin olmaması danışıqlarda müzakirə olunan məsələlərdən biridir. Bu gün bu məsələni həll etməkdən ötrü bütün vasitələrdən istifadə etmək

lazımdır. Ona görə də iqtisadi münasibətləri yalnız münaqişənin sülh yolu ilə həllindən sonra bərpa etmək mümkündür.

Bakı–Tbilisi–Ceyhan boru xətti uğurla inşa olunur. Tikintinin 50 faizi artıq tamamlanır və ilin sonunda boru xətti istifadəyə veriləcəkdir. Bu kəmər Azərbaycana gündəlik 1 milyon barrel neft ixrac etməyə imkan verəcəkdir. Neftdən gələn gəlirləri iqtisadiyyatımızın müxtəlif sahələrinə yönəltmək fikrindəyik. Biz Neft Fondu yaratmışıq və burada neftdən gələn bütün gəlirlər toplanır. Fond şəffaf bir qurumdur və beynəlxalq təşkilatlar tərəfindən burada auditor fəaliyyəti həyata keçirilir. Fondun idarəçiliyi isə Beynəlxalq Valyuta Fondunun yardımı ilə aparılır. Gələcəkdə burada yığılan vəsait artaraq, nəzərəçarpacaq rəqəmə çatacaq və ölkəmizin inkişafına yardım edəcəkdir.

Azərbaycanda son on il müddətində həyata keçirilən siyasət sübuta yetirdi ki, Heydər Əliyevin müəyyən etdiyi xətt ölkəmizi böhran vəziyyətindən inkişafa doğru aparan yeganə xətdir. 1980-ci illərin sonundan hər il ölkədə liderlər dəyişirdi, hərbi çevrilişlər olurdu, vətəndaş müharibəsi baş verirdi.

Yalnız Heydər Əliyev hakimiyyətə gəldikdən sonra bütün bunlara son qoydu. Ermənistanla müharibədə atəşkəs əldə edildi, vətəndaş müharibəsi dayandırıldı, qeyri-qanuni silahlı qruplaşmalar tərksilah olundu. Ölkəyə sülh və sabitlik gəldi. Ona görə də bizim indiki nəslin əsas məqsədi və vəzifəsi həmin siyasəti davam etdirməkdir. Azərbaycanı bu istiqamətdə inkişaf etdirmək çox zəruridir. Deməliyəm ki, əvvəllər ölkəmizin seçim etmək üçün yolları çox idi. Ölkə yeni idi və istənilən inkişaf yolu seçmək olardı. O zaman demokratik təsisatlar yox idi və biz bilərəkdən ən çətin yolu seçdik. Beynəlxalq ictimaiyyətə, beynəlxalq aləmə inteqrasiya yeganə mümkün və düzgün yol idi. Biz bu siyasəti davam etdirəcək və ölkəmizin demokratikləşdirilməsi prosesini ardıcıl surətdə aparacağıq.

Soruşursunuz ki, Azərbaycan indi Qərbdə qəbul edilmiş normalara və standartlara tam cavab verirmi? Əlbəttə ki, yox və bu da təbiidir. Qərb bu normaları əsrlər boyu yaratmış və

inkişaf etdirmişdir. Cəmi 50 il bundan əvvəlki Avropaya baxsaq, görərik ki, burada demokratiyaya bənzər bir şey yox idi. Müharibələr, irtica, digər xoşagəlməz hallar Avropanı bürümüşdü. Azərbaycan isə bunlardan yenicə qurtarıb, bu dəhşətli miras yenicə arxada qalmışdır. Bizə təsisatların buradakı səviyyəyə çatdırılması üçün vaxt lazımdır. Bu proses gedir və hər il biz məqsədə daha çox yaxınlaşırıq.

**S u a l: Siz burada bildirdiniz ki, regiondakı qonşularınızla sülh şəraitində yaşamaq istəyirsiniz. Buraya Xəzər dənizinin statusu məsələsini aid etmək olarmı? Sizin fikrinizcə, Xəzərin statusu ilə bağlı hansı variant daha münasibdir? İkinci sualım: Neft gəlirləri ilə bağlı Siz ən münasib variant kimi, Norveç modelini seçdiniz. Gələcək illərdə ölkənizin neftdən əldə olunmuş vəsaitlərin istifadəsi sahəsində ən real və tarazlaşdırılmış məqsədi nədən ibarət olacaqdır?**

**C a v a b:** Neft bizim son məqsədimiz deyil, neft bizim üçün ölkəmizin inkişafı yolunda bir vasitədir. Neft yataqlarına malik olmaq hələ varlı olmaq demək deyildir. Həm hasilat, həm də nəqletmə vasitələri olduqda müəyyən bir zəmin yaradılır. Son on il müddətində Azərbaycan fəal surətdə paralel olaraq bu iki amilin həyata keçirilməsi ilə məşğul olur. Milyardlarla dollarları cəlb eləmək çox çətindir, amma bundan da çətini Qərbin riskli hesab elədiyi bir ərazidə neft kəməri inşa etməkdir. Bu gün bizim iki boru kəmərimiz vardır.

Onlardan biri nefti Rusiyaya, digəri Gürcüstana nəql edir. Lakin həqiqi irimiqyaslı işləri başlamaqdan ötrü bizə böyük boru xətti lazım idi ki, nefti Aralıq dənizinə çıxarsın. Həmin boru kəməri indi tikilir.

Amma eyni zamanda, biz düşündük ki, Azərbaycan neft gəlirləri əldə etməyə başladıqdan sonra nə olacaq? Bilirsinizmi, yoxsul olmaq həqiqətən çətindir, amma yoxsulluqdan sonra vəsait əldə edən zaman ondan düzgün istifadə etmək də çətinlik törədir. Ona görə də çalışırıq ki, səhv etməyək. Biz Beynəlxalq Valyuta Fondu ilə bu haqda danışıqlar apardıq və dünyada neft

hasil edən bütün ölkələrin neft fondlarının təcrübəsini öyrəndik. Bizim nümayəndə heyətləri, onlar bu gün burada sizinlədir, həmin ölkələrə getdilər, neft fondlarının təcrübəsini öyrəndilər və qeyd olunduğu kimi, biz Norveçin neft fondunu əsas kimi götürdük. Biz hesab etdik ki, bu, ən şəffaf, ən səmərəli variantdır. Bu variant Norveçdə böyük uğurla nəticələnmişdir. Bu isə, bildiyiniz kimi, heç də bütün neft istehsal edən ölkələrdə baş vermir ki, ölkə hərtərəfli və dinamik inkişaf etsin. Neftdən gələn gəlir insanlara xidmət etməlidir. İnsanlar bunun xeyrini görmürlərsə, demək, bu sahədə düzgün siyasət aparılmayıbdır. Ona görə də lap əvvəldən bizim fondumuz öz işini şəffaf aparır, gəlirlər barədə məlumat mətbuatda dərc olunur, Azərbaycan vətəndaşları vəsaitin miqdarını izləyə bilirlər. Xüsusilə nəzərə almaq lazımdır ki, bütün xərclər cəmləşmiş ölkə büdcəsindən həyata keçirilir, yəni vəsaitin heç kimin bilməyəcəyi yerə, harayasa kənara xərclənməsinə heç imkan da yoxdur. Əgər xərclər büdcədən ayrılırsa, bu o deməkdir ki, məsələ parlamentdə açıq müzakirələrə çıxarılır. Dediyim kimi, bütün bunlar bizim ölkəyə dinamik, çoxşaxəli inkişaf imkanı verəcəkdir. Azərbaycanda neft tükəndikdən sonra – bu, gec-tez baş verəcəkdir – bizim iqtisadiyyatımız neftdən asılı olmayaraq tənzimlənəcək və inkişaf edəcəkdir. Biz daha səhər durub, indi etdiyimiz kimi, dünya bazarlarında neftin qiymətlərinə baxmayacağıq. (Alqışlar).

**S u a l: Cənab Prezident, məlumdur ki, Qafqazda həm Rusiyanın, həm də ABŞ-ın maraqları vardır. Siz bu iki dövlət arasında tarazlığı saxlamağa necə nail olursunuz?**

**C a v a b:** Elə bilirəm ki, hər şeydən əvvəl, uğur qazanmaq istəyirsənsə, xalqın dəstəyinə arxalanmalısan. Çünki lider xalqın dəstəyi olmadan lider ola bilməz. Ona görə də, hər şeydən əvvəl, gəlin öz maraqlarımız haqqında düşünək – Azərbaycanın maraqları haqqında, Azərbaycan xalqının maraqları haqqında. Biz xarici siyasətimizi yalnız bu istiqamətdə aparırıq. Azərbaycanın güclü olacağı, müstəqilliyinin dönməz olacağı, insanlarımızın həyatının günbəgün yaxşılaşacağı siyasətimizi necə

aparmağımızdan asılı olacaqdır. Başlanğıc nöqtə kimi bu, əsas götürülməlidir. Bizim gələcək xarici siyasətimiz də buna əsaslanacaqdır. Bu gün bizim ölkədə maraqları olan dövlətlər Azərbaycana yalnız ona görə gəlirlər ki, onların maraqları bizim maraqlarımızla üst-üstə düşür. Maraqlarımız üst-üstə düşəndə, onlar bizim ölkəyə gəlirlər və hər iki tərəf özünü məmnun hiss edir. Maraqlarımız üst-üstə düşməyəndə, bizim ölkədə onlara yer tapılmır. Ölkənin maraqlarını nəzərə almadan, kor-koranə bu və ya digər yolu seçsən, elə bilərəm ki, səhv yolla getmiş olarsan.

Xoşbəxtlikdən Azərbaycanda son on ildə aparılan siyasət məhz buna əsaslanmışdır. Ən başlıca məqsəd kimi, Azərbaycanın maraqlarının nədən ibarət olduğu, sonra isə bu maraqların digərlərinin maraqları ilə nə dərəcədə uyğun gəlməsi nəzərə alınmışdır. Azərbaycanda siz adını çəkdiyiniz ölkələrdən savayı, həm də digər ölkələrin maraqları ola bilər. Bu həm iqtisadi, həm də siyasi maraqlar ola, yaxud mədəniyyətlə də bağlı ola bilər. Bu maraqlar bizim nöqteyi-nəzərimizə zidd gəlməzsə, heç bir problem ola bilməz. Hər şey əməkdaşlıq əsasında olmalıdır. Bu, qarşılıqlı faydalı və qarşılıqlı hörmətə əsaslanan əməkdaşlıqdır.

**S u a l: Siz yalnız Qərb ölkələri ilə münasibətlərdən bəhs etdiniz. Ölkənizin Şərqlə münasibətləri necə qurulmuşdur? Məsələn Qazaxıstan, Özbəkistan və digər ölkələr ilə.**

**C a v a b:** Adını çəkdiyiniz ölkələrlə bizim yaxşı münasibətlərimiz var. Qonşularımızla – Qazaxıstanla, Özbəkistanla ikitərəfli əlaqələr, daimi ünsiyyət həyata keçirilir və bu ünsiyyət gələcəkdə artacaqdır. Habelə prezidentlərin qarşılıqlı səfərləri də həyata keçirilir.

Bu ölkələr bizə tarixən yaxındır. Azərbaycan hasilatçı ölkə olmaqla yanaşı, həm də təbii sərvətlərin nəqli üçün tranzit ölkə rolunu oynayır. Biz ölkədəki infrastrukturu ixrac üçün fərqli vasitə kimi təqdim etməyə hazırıq. Bu ölkələrlə bizim iqtisadi münasibətlərimiz uğurla inkişaf edir.

Daha çox Şərqə doğru yerləşən ölkələrlə də bizim yaxşı əlaqələrimiz vardır. Amma deyə bilmərəm ki, onlar çox intensivdir. Ticarət və iqtisadi əlaqələr az olsa da, siyasi əlaqələr kifayət qədər yaxşıdır. Bizim digər ölkələrlə heç bir problemimiz yoxdur və onlarla qarşıdurma səviyyəsində deyilik. Biz bütün mümkün əməkdaşlığa açığıq. Azərbaycan açıq qapı siyasəti həyata keçirir, dialoq siyasətinin tərəfdarıdır. Biz sivilizasiyalar arasında, dinlər arasında, etnik qruplar arasında dialoqun tərəfdarıyıq. Keçmiş Sovet İttifaqı məkanında Azərbaycan yeganə yer idi ki, biz etnik qruplar, millətlər, dinlər arasında qarşıdurmanın nə olduğunu bilmirdik.

Müstəqillik əldə etdikdən sonra baş vermiş bütün dəhşətli hallara baxmayaraq, biz bu xüsusiyyətimizi saxlaya bildik. Bizim yalnız bir problemimiz var, o da bizə zorla qəbul etdirilmişdir. Bu, Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi ilə bağlı problemdir. Bir daha demək istərdim ki, biz hər bir ölkə ilə istənilən istiqamətdə əlaqələri inkişaf etdirməyə hazırıq.

## FRANSA TELEVİZİYASININ ÜÇÜNCÜ KANALINA MÜSAHİBƏ

*Paris*

*23 yanvar 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda Fransanın «FR-3» televiziya kanalının beynəlxalq proqramlar üzrə redaktoru Kristian Malara müsahibə vermişdir.*

*Prezident İlham Əliyev Fransa–Azərbaycan əlaqələrinin mövcud vəziyyəti və gələcək perspektivləri, Azərbaycanın son illərdə qazandığı nailiyyətlər, siyasi, iqtisadi, sosial sahələrdə aparılan uğurlu islahatlar, xarici siyasətimizin əsas istiqamətləri, Cənubi Qafqaz regionunda sülh və təhlükəsizlik məsələləri ilə bağlı sualları ətraflı cavablandırmışdır.*

## FRANSA PREZİDENTİ JAK ŞİRAK İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

*Yanvarın 23-də Yelisey sarayında Azərbaycan prezidenti İlham Əliyev ilə Fransa prezidenti Jak Şirak arasında təkbətək görüş keçirilmişdir.*

Fransa prezidenti Jak Şirak Azərbaycan prezidenti İlham Əliyevi səmimiyyətlə salamlayaraq, prezident seçkilərində parlaq qələbə qazanması münasibətilə onu bir daha təbrik etdi, dəvətini qəbul edib Parisə rəsmi səfərə gəldiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Cənab Jak Şirak Azərbaycanı demokratiya və hüquqi dövlət quruculuğu yolu ilə daha uğurla irəli aparmaqda prezident İlham Əliyevə müvəffəqiyyətlər arzuladı. Azərbaycanın yeni liderinin ilk rəsmi səfərini Fransaya etməsini yüksək qiymətləndirən prezident Jak Şirak Fransa ictimaiyyətinin bu səfərə xüsusi əhəmiyyət verdiyini söylədi.

Azərbaycan prezidenti İlham Əliyev Parisə etdiyi ilk rəsmi səfərin onun üçün də böyük əhəmiyyətə malik olduğunu vurğulayaraq, bu səfərin prezident Jak Şirakla prezident Heydər Əliyevin sıx dostluq münasibətləri zəminində formalaşmış və inkişaf etmiş Azərbaycan–Fransa əlaqələrinin daha da möhkəmlənməsinə xidmət edəcəyini bildirdi.

Dövlət başçıları Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məsələsi ətrafında geniş fikir mübadiləsi apardılar. Fransa prezidenti Jak Şirak Azərbaycanın ümummilli lideri Heydər Əliyevin bu münaqişənin həlli istiqamətində fəaliyyətini böyük minnətdarlıqla xatırladı və onun səylərinin prezident İlham Əliyev tərəfindən də davam etdiriləcəyinə inamını ifadə etdi.

Azərbaycan prezidenti İlham Əliyev problemin həlli istiqamətində ATƏT-in Minsk qrupunun, o cümlədən bu qurumun fəal üzvü olan Fransanın səylərinin artırılması zərurətini qeyd etdi və həmsədrlərin regiona son səfərlərinin nizamasalma

*prosesində* canlanma *yaradacağı barədə fikir söyləməyə əsas* verdiyini bildirdi. *Dövlətimizin başçısı hələ də* problemin *həlli-nə yanaşmada* ikili *standartların* mövcudluğunun *münaqişənin beynəlxalq hüquq normaları əsasında* aradan *qaldırılmasına* mane *olduğunu* da *təəssüflə* qeyd etdi.

*Görüş zamanı hər iki ölkənin* prezidentləri *Azərbaycanla* Fransa *arasında* siyasi, iqtisadi *və mədəni əlaqələrin inkişafı, onların gələcək* perspektivləri *ətrafında* geniş *fikir* mübadiləsi *apardılar. Dövlət başçıları ikitərəfli* münasibətlərin daha *yük-sək səviyyəyə qaldırılması istiqamətində böyük* imkanlar *oldu-ğunu* bildirdilər.

*Azərbaycanın* Avropa *strukturlarına inteqrasiyası* prosesinin *dinamikasından məmnunluğunu* bildirən Fransa prezidenti *Jak Şirak vaxtilə* prezident *Heydər Əliyevin* bu *sahədə atdığı qə-tiyyətli və düşünülmüş addımları xüsusilə vurğuladı. Ölkəmizin* Avropa *Şurasına üzv olması və* Avropa *İttifaqı ilə sıx əmək-daşlığı məhz* ümummilli liderimizin *səyləri nəticəsində mümkün olmuşdur.*

Prezident *İlham Əliyev* Avropa *strukturlarına* interqasiyanın *ölkəmiz üçün öncül məsələlərdən olduğunu* bildirərək, *pre-zident Heydər Əliyevin* xarici *siyasət xəttinin* bundan sonra da *davam etdiriləcəyini söylədi.*

*Səmimiyyət və mehribanlıq şəraitində keçən görüşdə bey-nəlxalq və* regional *problemlər, habelə hər iki tərəfi* maraqlan-*dıran* digər *məsələlər ətrafında* da *geniş fikir mübadiləsi aparıldı.*

## FRANSA RESPUBLİKASININ PREZİDENTİ JAK ŞİRAKIN ÜMUMMİLLİ LİDERİMİZ PREZİDENT HEYDƏR ƏLİYEVİ VAXTİLƏ TƏLTİF ETDİYİ "FƏXRİ LEGİONUN BÖYÜK XAÇ KOMANDORU" ORDENİNİN İLHAM ƏLİYEVƏ TƏQDİM EDİLMƏSİ MƏRASİMİ

*Paris, Yelisey sarayı*
*"Salon des Aydes de Kamp" salonu*

*23 yanvar 2004-cü il*

**J a k Ş i r a k:** Cənab Prezident!

Hörmətli xanım!

Mən bir az həyəcan keçirirəm. Atanızı burada tez-tez gördüyümdən, təbii olaraq, gözləyirəm ki, onu yanımda yenə də görəcəyəm. Amma həyat belədir. Atanız mənim dostum idi və Fransanın ən layiqli mükafatını – “Fəxri legion ordeni”ni ona təqdim etmək sevincinin ləzzətini qabaqcadan duyurdum. Lakin ömür vəfa qılmadı. Ona görə də mən xüsusi bir variant seçdim. Bu variant hələ heç vaxt olmayıb və mən onu ilk dəfə tətbiq edirəm. Yəni mən bu mükafatı Sizə təqdim edirəm.

Məni prezident Heydər Əliyev ilə dostluq və hörmət telləri bağladığını Siz bilirsiniz. O çox böyük cazibə qüvvəsinə malik müstəsna bir şəxsiyyət idi. Yəni öz zəmanəsini, həqiqətən, səciyyələndirən şəxsiyyət idi. İğtişaşlar və çətinliklər dövründən sonra onun fəaliyyəti sayəsində Azərbaycan sabitlik əldə etdi və öz müstəqilliyini möhkəm təməl üzərində qura bildi. Heydər Əliyev çox cəsarətlə demokratik islahatlara da yol açdı. Bu islahatlar ölkənizə Avropa Şurasına daxil olmağa imkan verdi. Bir sözlə, Siz bu mirasla, haqlı olaraq, fəxr edə bilərsiniz.

Şübhəm yoxdur ki, Siz onun bu yolda fəaliyyətini davam etdirməyə mütləq çalışacaq və Azərbaycanı demokratiya və hüquqi dövlət quruculuğu yolu ilə irəli aparacaqsınız.

Biz Sizin atanızla bir çox məsələlərdə dostcasına, özü də uzun müddətə dialoq yaratmışdıq. Çoxsaylı müxtəlif görüşlərimiz zamanı, o cümlədən Dağlıq Qarabağ məsələsi ilə əlaqədar Parisdə keçirdiyimiz söhbətlərin gedişində mən onun münaqişənin sülh yolu ilə həlli yollarının axtarışında cəsarətinə və zəkasına, qətiyyətinə heyran qalırdım.

"Fəxri legion ordeni" 200 il əvvəl Napoleon tərəfindən təsis olunmuşdur. Mən Fransa Respublikasının bu ali mükafatını – "Fəxri legionun böyük xaç komandoru" ordenini atanızın 80 illik yubileyi münasibətilə ona vermək və bununla da ikitərəfli münasibətlərin inkişafında müstəsna rol oynadığını və Fransanın böyük dostu olduğunu vurğulamaq istəyirdim.

Bu gün mən dostum Heydər Əliyevin xatirəsini yad etmək istəyirəm. Mən bu mükafatı ona şəxsən təqdim etməyi arzulayırdım. Mən onun oğluna – əziz cənab İlham Əliyevə də etimad və hörmət bəslədiyimi ifadə etmək istəyirəm. Mən onun xanımına da ehtiramımı böyük hörmətlə izhar edirəm. Bilin ki, Fransada Sizi dost kimi qəbul edirlər.

*Sonra Fransa prezidenti Jak Şirak "Fəxri legionun böyük xaç komandoru" ordenini Azərbaycan prezidenti İlham Əliyevə təqdim etdi.*

**İ l h a m  Ə l i y e v:** Təşəkkür edirəm, hörmətli cənab Prezident.

Siz prezident Heydər Əliyevi yüksək mükafatla – ordenlə təltif edəndə biz hamımız böyük sevinc içində idik. O elə bir şəxsiyyət idi ki, dünyanın ən yüksək mükafatına layiq idi. Mən Azərbaycan Respublikasının prezidenti, Heydər Əliyevin oğlu kimi, onun xidmətlərini yüksək qiymətləndirdiyiniz üçün Sizə minnətdarlığımı bildirirəm.

Biz də bu mərasimi başqa cür təsəvvür edirdik. Düşünürdük ki, prezident Heydər Əliyev növbəti dəfə Fransaya gedəcək,

Sizinlə görüşəcək və bu ordeni ona şəxsən Siz təqdim edəcəksiniz.

Heydər Əliyevin bütün həyatı, bütün fəaliyyəti Azərbaycan xalqına xidmət etməkdən ibarət idi. 1993-cü ildə Azərbaycan rəhbərliyinə gəldikdən sonra o, faktiki olaraq, müasir Azərbaycanı yaratdı, ölkəni böhrandan, anarxiyadan, müharibədən inkişafa, tərəqqiyə, əməkdaşlığa apardı. Bugünkü müasir Azərbaycan Heydər Əliyevin əsəridir və biz, onun davamçıları bu əsəri qorumalıyıq, inkişaf etdirməliyik. Əminəm ki, biz buna nail olacağıq.

Heydər Əliyev Azərbaycanla Fransa arasında münasibətlərə çox böyük önəm verirdi. O həmişə xüsusilə vurğulayırdı ki, Fransa ilə olan münasibətlər Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb edir. Bunun səbəblərindən biri də odur ki, cənab Prezident, Sizinlə Heydər Əliyev arasında çox mehriban dostluq münasibətləri yaranmışdı. Heydər Əliyev Fransanı, fransız xalqını çox sevirdi və əminəm ki, gələcəkdə də ölkələrimiz arasında mövcud olan münasibətlər inkişaf edəcək və bizim xalqlarımızı bir-birinə daha da yaxın edəcəkdir.

Bu yüksək orden mənim üçün və əminəm ki, hər bir Azərbaycan vətəndaşı üçün əzizdir. Bir daha mən məmnunluq hissimi ifadə etmək istəyirəm ki, bu gün bu orden Azərbaycana təqdim olunur.

* * *

*Mərasimdən sonra Fransa prezidenti Jak Şirakın adından Azərbaycan prezidenti İlham Əliyevin şərəfinə rəsmi qəbul təşkil* olundu.

*Qəbulda Fransanın və Azərbaycanın yüksək rütbəli dövlət və hökumət nümayəndələri iştirak edirdilər.*

* * *

*Rəsmi qəbuldan sonra Yelisey sarayının qarşısında Azərbaycan prezidenti İlham Əliyevin yola salınması mərasimi oldu.*

*Fransa Respublikasının prezidenti Jak Şirak Azərbaycan Respublikasının prezidenti İlham Əliyevlə və xanımı Mehriban Əliyeva ilə sarayın qarşısında xatirə şəkli çəkdirdi.*

*Cənab Jak Şirak Mehriban xanım Əliyeva ilə ehtiramla sağollaşdı.*

*Fransa dövlətinin başçısı Azərbaycan prezidenti İlham Əliyevi çox böyük hörmət və səmimiyyətlə qucaqlayaraq yola saldı.*

## TULUZA ŞƏHƏRİNƏ YOLA DÜŞMƏ

*Yanvarın 23-də Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Fransanın Tuluza şəhərinə yola düşmək üçün Parisin "Orli" beynəlxalq hava limanına gəldi. Hava limanı Azərbaycanın və Fransanın dövlət bayraqları ilə bəzədilmişdi. Azərbaycan prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. İlham Əliyevi "Orli" hava limanında Fransanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri dostcasına yola saldılar.*

*Həmin gün İlham Əliyev Tuluza şəhərinə gəldi. Hava limanında dövlətimizin başçısını şəhərin rəhbər şəxsləri, "Airbus" şirkətinin prezidenti cənab Forgeard və şirkətin Baş direktoru cənab Humbert səmimiyyətlə qarşıladılar.*

*Prezident İlham Əliyev hava limanından birbaşa dünyada məşhur olan "Airbus" təyyarə zavoduna gəldi. Cənab Forgeard Azərbaycan dövlətinin başçısına şirkətin tarixi, burada istehsal olunan təyyarələr haqqında ətraflı məlumat verdi. Qeyd olundu ki, "Airbus"un zavodlarında istehsalına başlanan A-360 və A-380 airbusları elmin və texnikanın son nailiyyətlərinə əsaslanır. 360–380 sərnişinlik rahat salonu olan bu təyyarələr bir neçə ildən sonra xətlərə buraxılacaqdır.*

*Prezident İlham Əliyev təyyarələrin yığıldığı sexləri gəzdi, beynəlxalq standartlara cavab verən müasir texnologiya, təyyarələrin salonları ilə tanış oldu və yeni "Airbus"un sükanı arxasında əyləşdi.*

*Zavodla tanışlıqdan sonra İlham Əliyevə xatirə hədiyyəsi – təyyarə maketi təqdim olundu.*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev yanvarın 23-də axşam Fransaya rəsmi səfərini başa çatdıraraq, Tuluza şəhərindən vətənə yola düşdü.*

## AMERİKA TÜRK ASSOSİASİYALARI ASSAMBLEYASININ XXIV QURULTAYINA

Hörmətli qurultay nümayəndələri!

Sizi – Amerika Türk Assosiasiyaları Assambleyasının qurultayına toplanmış nümayəndələri və qonaqları ürəkdən salamlayır, toplantının işinə uğurlar diləyirəm.

Qardaş Türkiyə Cümhuriyyətini və xalqını təmsil edən yüz minlərlə türk on illərdir ki, dünyanın əksər dövlətlərində, o cümlədən Amerika Birləşmiş Ştatlarında yaşayır və fəaliyyət göstərir. Onların hamısını böyük Mustafa Kamal Atatürkün yaratdığı Türkiyə Cümhuriyyətinə, türk xalqına məhəbbət, mədəniyyəti, dili, dini və digər mənəvi dəyərləri şərəflə qorumaq və yaşatmaq kimi türklüyü fərqləndirən ali məqsədlər, dönməz iradə birləşdirir. Bu insanlar yaşadıqları ölkələrin, vətəndaşı olduqları dövlətlərin iqtisadi-siyasi və sosial-mədəni həyatında fəal iştirak etməklə yanaşı, həm də öz tarixi vətənləri, böyük Türkiyə ilə əlaqələrini qoruyur, doğma yurdlarının təəssübünü çəkir, onun sevincini və kədərini daim bölüşürlər. Odur ki, Türkiyə dövləti bu gün beynəlxalq aləmdə özünün mövcud imkanları, qüdrəti ilə yanaşı, həm də güclü beynəlxalq diasporu, böyük və nüfuzlu türk icmaları ilə tanınır.

Qloballaşmanın getdikcə geniş vüsət aldığı müasir dünyamızda bir dövlətə və xalqa mənsub insanların bütün dünya ölkələrinə yayılması və məskunlaşması adi haldır. Lakin təcrübə göstərir ki, bu insanlar arasında əlaqələr, öz tarixi vətənləri ilə bağlılıq nə qədər sıx olursa, onlar bir o qədər güclü olur. Güclü birliyi olan xalqlar həm yaşadıqları ölkələrdə öz milli və vətəndaş haqlarını daha dolğun qoruyur, həm də doğma vətənlərinin üzləşdiyi problemləri beynəlxalq aləmdə həll etmək gücünə malik olur. Sevindirici haldır ki, Amerikada fəaliyyət göstərən türk diasporu həm daxili birlik, həm də təşkilati cəhətdən böyük gücə malikdir.

Müstəqillik əldə etdikdən sonra Azərbaycanda, başda milli liderimiz Heydər Əliyev olmaqla, bütün dünyada yaşayan, müxtəlif tellərlə ölkəmizlə bağlı olan insanları aramaq, təşkilatlandırmaq və birləşdirmək üçün səmərəli fəaliyyət göstərilmişdir. Bu işdə qardaş Türkiyəni təmsil edən insanlar, onlara məxsus icma və birliklər həmişə Azərbaycanın yanında olmuş və öz dəstəyini bizdən əsirgəməmişlər. Onlar, xüsusən də ABŞ-da yaşayan türklər Azərbaycana daim sevgi nümayiş etdirmiş, onun problemləri ilə yaşamışlar.

Keçən on ildə həm Türkiyənin, həm də Azərbaycanın dövlət rəhbərləri qarşılıqlı əlaqələrimizi gücləndirmək, xalqlarımızı daha da yaxınlaşdırmaq, bir-birinin uğurlarını və problemlərini bölüşmək üçün əllərindən gələni etmişlər. Sevindirici haldır ki, indi bu işlərə dövlət adamları, rəsmi strukturlarla yanaşı, hər iki xalqı xarici ölkələrdə təmsil edən diaspor nümayəndələri, qabaqcıl iş və düşüncə adamları, sadə vətəndaşlar da qoşulmuşlar. Qurultayda nümayiş etdirilən birlik bunu bir daha təsdiq edir. Düşünürəm ki, həm Türkiyəni, həm də Azərbaycanı təmsil edən insanlar bundan sonra da bir olacaq, birlikdə fəaliyyət göstərəcək, sevincimizi və kədərimizi birlikdə bölüşəcəklər. Böyük Atatürkün birlik ideyaları və Azərbaycanın ümummilli lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" istəyi bizim fəaliyyətimizi hər zaman vahid istiqamətə yönəldəcəkdir. Qurultay nümayəndələrini və ABŞ-ın bütün türksevərlərini bir daha təbrik edir, qəbul edəcəyiniz qərarların həyata keçirilməsində böyük uğurlar diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *26 yanvar 2004-cü il*

## UKRAYNA BAŞ NAZİRİNİN MÜAVİNİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*26 yanvar 2004-cü il*

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab Baş nazirin müavini! Sizi salamlamağa şadam, Azərbaycana xoş gəlmisiniz.

Ölkələrimiz arasında ənənəvi olaraq dostluq və qardaşlıq münasibətləri mövcuddur. Ölkələrimizin müstəqil dövlətlər kimi təşəkkülü dövründə bu əlaqələr daha da möhkəmlənmişdir. Bu bizi çox sevindirir. Əməkdaşlıq bütün istiqamətlərdə – ikitərəfli əsasda da, beynəlxalq təşkilatların fəaliyyəti çərçivəsində də, regional təşkilatlarda da, əlbəttə, siyasi müstəvidə də çox uğurla gedir. Prezidentlərimiz – Leonid Daniloviç Kuçma və Heydər Əlirza oğlu Əliyev qarşılıqlı münasibətlərin yaxşı təməlini qoymuşlar. Ona görə də biz bütün bunları davam və inkişaf etdirəcəyik.

Mənim ötən ilin sentyabrında Ukrayna prezidenti ilə görüşüm oldu. Biz ikitərəfli əməkdaşlıqla bağlı, beynəlxalq səpkili bir çox məsələləri müzakirə etdik. Bütün məsələlərdə mövqelərimiz tam uyğun gəlir. Biz beynəlxalq təşkilatlarda da, regional baxımdan da bir-birimizi dəstəkləyirik, lakin ikitərəfli əlaqələr çərçivəsində daha böyük uğurlar əldə edilmişdir. Odur ki, Ukrayna hökuməti nümayəndələrinin Azərbaycana və Azərbaycan hökuməti nümayəndələrinin Ukraynaya səfərləri ənənəvi xarakter daşıyır və əlaqələrimizin daha da möhkəmləndirilməsi işində çox vacibdir. Düşünürəm ki, Sizin səfəriniz, burada keçirdiyiniz görüşlər də buna təkan verəcəkdir.

Fürsətdən istifadə edərək mənim salamımı, ən xoş arzularımı və tezliklə görüşmək ümidində olduğumu Leonid Daniloviçə yetirməyi sizdən xahiş etmək istəyirəm.

**A n d r e y  K l y u y e v**: Cənab Prezident, Sizinlə görüşmək imkanına görə sağ olun.

İlk növbədə, atanızın vəfatı ilə əlaqədar başsağlığımı qəbul edin. Bu gün biz onun məzarını ziyarət etdik. Onun vəfatı bütün Azərbaycan xalqı üçün böyük itkidir. Ümidvaram, Ukrayna ilə Azərbaycan arasında qarşılıqlı münasibətlərin inkişafı üçün atanızın yaratdığı zəmin bundan sonra da uğurla möhkəmləndiriləcəkdir.

Ötən il Ukrayna ilə Azərbaycan arasında əmtəə dövriyyəsi 30 faizdən çox artmış və 150 milyon dolları keçmişdir. Bunun çox, yaxud az olduğunu söyləmək çətindir. Lakin hesab edirik ki, əmtəə dövriyyəmizin həcmini minimum daha 15 faiz artırmağa potensial imkanlarımız var.

Metallurgiya, kimya sənayesi sahəsində, kənd təsərrüfatında, yanacaq-energetika kompleksində səmərəli əməkdaşlıq layihələri bizim üçün çox maraqlıdır. Ona görə də bu gün biz Baş nazirlə ilkin danışıqlar apardıq. Mən buraya özümlə böyük nümayəndə heyəti gətirmişəm. Onun tərkibinə Ukrayna–Azərbaycan birgə komissiyasının işçi qruplarında çalışan mütəxəssislər daxildir. Biz razılığa gəldik ki, komissiyanın növbəti iclasını martda Ukraynada keçirək.

Biz komissiyanın Ukraynada keçiriləcək iclasında Ukrayna–Azərbaycan birgə komissiyasının protokolunu imzalamaq üçün məsələləri ətraflı müzakirə edir, materialları işləyib təkmilləşdiririk.

Azərbaycan bizim üçün strateji tərəfdaşdır. Bu fikirdəyik ki, biz səmərəli əməkdaşlıq etməyə, sadəcə olaraq, borcluyuq. İqtisadiyyatda nə qədər səmərəli əməkdaşlıq etsək, xalqlarımız bir o qədər yaxın olarlar.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Mən strateji tərəfdaşlığımız barədə sizin sözlərinizə tam şərikəm. Ölkələrimizin yaxınlaşmasını sürətləndirməyə hər cür şərait var. Əlbəttə, əmtəə dövriyyəsinin artması çox mühüm göstəricidir. Bu, bir tərəfdən, ölkələrimizin hansı dinamizmlə inkişaf etdiyini, digər tərəfdən isə, qarşılıqlı iqtisadi mənafelər olduğunu göstərir. Ona görə də

əminəm ki, münasibətlərimiz birgə səylərlə inkişaf edəcək və möhkəmlənəcəkdir. Dost ölkələr arasında münasibətlər bundan sonra da nümunəvi olmalıdır.

## FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JAK ŞİRAKA

Hörmətli cənab Prezident!

Əziz dost!

Prezident seçiləndən sonra məni Fransaya rəsmi səfərə dəvət etdiyiniz üçün Sizə bir daha dərin minnətdarlığımı bildirir, səfər zamanı Azərbaycan nümayəndə heyətinə göstərdiyiniz diqqət və qayğı üçün Sizə ürəkdən təşəkkür edirəm.

Ümidvaram ki, gözəl ölkənizə ilk rəsmi səfərim, səfər zamanı sizinlə apardığım geniş və dərin məzmunlu söhbət, keçirdiyim görüşlər, müxtəlif təmaslar Azərbaycan–Fransa əlaqələrinin yeni mərhələsinin inkişafına təkan verəcəkdir. Azərbaycan–Fransa dostluğunun və əməkdaşlığının bütün sahələrdə inkişafı üçün böyük perspektivlər var və biz bu perspektivləri ölkələrimizin rifahı naminə reallaşdırmağa hazırıq.

Prezident Heydər Əliyevi Fransa Respublikası adından Fransanın Ali mükafatı –"Fəxri legionun böyük xaç komandoru" ordeni ilə təltif etməyinizi, bir tərəfdən, Fransa–Azərbaycan əlaqələrinin inkişafında onun xidmətlərinə verdiyiniz yüksək qiymətin, digər tərəfdən isə, prezident Heydər Əliyevə bəslədiyiniz şəxsi dostluq hisslərinin təsdiqi hesab edirəm.

İnanıram ki, ölkələrimiz arasında əsası prezident Heydər Əliyev və Sizin tərəfinizdən qoyulmuş və inkişaf etdirilmiş möhkəm dostluq və sıx əməkdaşlıq əlaqələri birgə səylərimiz sayəsində daha da genişlənəcək, möhkəmlənəcək, xalqlarımızın və ölkələrimizin tərəqqisinə xidmət edəcəkdir.

Şübhə etmirəm ki, Azərbaycanın, eləcə də regionun ən ağrılı problemlərindən biri olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun ədalətli həlli yolunda səylərinizi bundan sonra da əsirgəməyəcəksiniz.

Hörmətli cənab Prezident!

Fürsətdən istifadə edərək, Sizi münasib bildiyiniz vaxtda Azərbaycana səfərə dəvət edirəm. Əminəm ki, Sizin Azərbaycana səfəriniz ölkələrimiz arasındakı əlaqələrin tarixində yeni bir səhifə açacaqdır.

Sizə möhkəm cansağlığı, uğurlar, dost Fransa xalqına isə daim tərəqqi arzulayıram.

*Ən səmimi dostluq hissləri ilə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *27 yanvar 2004-cü il*

## İRANIN SƏRHƏD QOŞUNLARININ KOMANDANI VƏ ONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*27 yanvar 2004-cü il*

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab komandan!

Hörmətli qonaqlar!

Azərbaycana xoş gəlmisiniz. İranla Azərbaycan arasında ikitərəfli münasibətlər inkişaf edir və günü-gündən güclənir. Xüsusilə Azərbaycan prezidenti Heydər Əliyevin İrana rəsmi səfərindən sonra bu münasibətlər geniş pilləyə qalxıbdır. Bu səfər ikitərəfli münasibətlərimizdə böyük və önəmli rol oynamışdır. Ondan sonra bütün sahələrdə əlaqələrimiz daha da inkişaf etməyə başlamışdır.

Mən İranın prezidenti hörmətli cənab Xatəmi ilə Cenevrədə keçirilmiş beynəlxalq toplantıda görüşmüşdüm. Xarici İşlər naziri cənab Xərrazi ilə Nyu-Yorkda, Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin sessiyasında görüşmüşdüm. Digər görüşlərimiz də olubdur. Bütün bu danışıqlar, keçirdiyimiz görüşlər bizi bir daha əmin edir ki, ölkələrimiz arasında mövcud olan dostluq münasibətləri inkişaf edir və bundan sonra da inkişaf edəcəkdir.

İki ölkənin dövlət sərhəd xidmətlərinin də əməkdaşlığı çox uğurludur. Bildiyiniz kimi, bizim çox uzun sərhədimiz var. 700 kilometr uzunluğunda sərhədimiz var. Əlbəttə, bu sərhədi qorumaq üçün, əməkdaşlığı daha da artırmaq üçün iki sərhəd xidməti sıx əlaqədə olmalıdır və bilirəm ki, bu belədir. Sizin də Azərbaycana səfəriniz bunu bir daha sübut edir. Biz istəyirik ki, ikitərəfli münasibətlərimiz daha da inkişaf etsin, insanlarımızın

gediş-gəlişi artsın və beləliklə, ölkələrimiz bir-birinə daha yaxın olsunlar.

Sizi bir daha salamlayıram. Əminəm ki, burada keçirdiyiniz görüşlər bu istiqamətdə işimizi daha da təkmilləşdirəcəkdir.

**Behnam Şəriətifər**: Cənab Prezident, bu görüşün keçirilməsinə görə Allah-Təalaya minnətdaram. Sizinlə görüşmək fürsəti yaratdığınıza görə təşəkkür edirəm. Möhtərəm prezident Heydər Əliyevin dünyasının dəyişməsi ilə bağlı Sizə başsağlığı verirəm.

Azərbaycan Respublikasının prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirəm. Bu bizim ölkələrimiz arasında münasibətlərin daha da dərinləşdirilməsi və inkişafı üçün atılan addımdır. Bizim əməkdaşlığımız sərhədlərin qorunması sahəsində də davam edəcəkdir. İran İslam Respublikasının 15 ölkə ilə sərhədi vardır. Bütün bu ölkələrlə sərhəd məsələlərində əməkdaşlıq sahəsində böyük nailiyyətlər əldə etmək niyyətindəyik. Baxmayaraq ki, bizim Şərqdə və Qərbdə böyük problemlərimiz var, amma Azərbaycana böyük əhəmiyyət veririk və bu sahədə əməkdaşlığımızı genişləndirmək fikrindəyik.

İnanırıq ki, milli mənafeyin qorunması qarşılıqlı hörmət və əməkdaşlıq çərçivəsində olmalıdır. Biz azərbaycanlı həmkarlarımızla birgə gələcəkdə işlərin sürətləndirilməsi üçün addımlar atacağıq. İki ölkə arasında mövcud olan müştərək dini, mədəni münasibətləri nəzərə alsaq, sərhəd məsələsində də heç bir problemin olmayacağı yəqinləşər.

Biz Əfqanıstanla sərhəddə onlar üçün bir baza yaradırıq. Əfqanıstan sərhədçiləri üçün İranda tədris kursları təşkil etmişik ki, onların öz ölkələrinin sərhədlərini qorumaq üçün imkanları olsun.

Çox sevinirik ki, Azərbaycanda sərhədçilər öz sahələrində müvəffəqiyyətlə fəaliyyət göstərirlər. Azərbaycanın və İranın sərhəd xidmətləri arasında olan əlaqələr ölkələrimiz arasındakı münasibətlərin inkişafının təzahürüdür.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Sərhədimiz dənizdə də, quruda da uzundur. Ona görə sərhəd xidmətlərinin birgə fəaliyyətinin əlaqələndirilməsi ikitərəfli münasibətlər üçün də çox böyük əhəmiyyət kəsb edir. Bunun bizim gələcək iqtisadi əlaqələrimizə də böyük təsiri olacaqdır. Burada müxtəlif məqsədlər qarşımızda durur. Bir tərəfdən, sərhəd etibarlı şəkildə qorunmalıdır ki, xoşagəlməz hadisələr baş verməsin. Digər tərəfdən, gərək insanlarımız da sərhəddən rahat keçsinlər. Bu məqsədlərə nail olmaq üçün, əlbəttə, ilk növbədə, gərək sərhəd xidmətləri arasında qarşılıqlı anlaşma olsun. Mən çox şadam ki, bu qarşılıqlı anlaşma, əməkdaşlıq var. Əminəm ki, bu əməkdaşlıq gələcəkdə daha da güclənəcəkdir. Sizin səfəriniz bunu bir daha sübut edir.

## DÜNYA ŞÖHRƏTLİ GÖRKƏMLİ MUSİQİÇİ MSTİSLAV ROSTROPOVİÇ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*
*27 yanvar 2004-cü il*

**İ l h a m  Ə l i y e v:** Xoş gəlmisiniz!

Sizi Vətəndə, Azərbaycanda yenidən görməyə çox şadam!

Biz bu yaxınlarda, təxminən bir neçə gün əvvəl Parisdə görüşmüşdük. Həmyerliləri görmək çox xoş idi. Vaxt tapıb gəldiyinizə görə sizə çox minnətdaram. Biz bu günü səbirsizliklə gözləyirdik, hərçənd, təmirdən sonra Filarmoniyamızın açılış gününü başqa cür təsəvvür edirdik. Təəssüf ki, istədiyimiz kimi olmadı. Buna baxmayaraq, bu, hər halda, fərəhli gündür, bayramdır. Hesab edirəm ki, bu gün Filarmoniya yenidən Azərbaycan tamaşaçısına, dinləyicisinə, ölkənin vətəndaşlarına qayıdır.

Sizin hər bir gəlişiniz bizim üçün bayramdır. Sizi hamı sevir, hamı çox qiymətləndirir, sizinlə fəxr edir. Sizi Heydər Əliyevlə böyük dostluq, səmimi, mehriban münasibətlər bağlayırdı. Bu münasibətlər necə dostluq etmək, bir-birinə necə qayğı ilə yanaşmaq baxımından bizim nəsil üçün örnəkdir. Əlbəttə ki, biz – sizin arxanızca gedən insanlar – bu münasibətləri elə həmin istiqamətdə bundan sonra da inkişaf etdirəcəyik. Mən sizi görməyimə çox şadam. İş cədvəlinizin sıx olduğu, geniş proqramlarınız olduğu halda, buraya gəlməyə vaxt tapmaq üçün böyük ürək, qəlb sahibi olmaq gərəkdir.

Mən çox şad, xoşbəxtəm və axşamı, bu böyük hadisədə sizinlə birlikdə iştirak edəcəyimiz vaxtı səbirsizliklə gözləyirəm.

**M s t i s l a v  R o s t r o p o v i ç:** İcazə verin, mətbuatın burada olmasından istifadə edərək, bir neçə söz deyim. Mən Sizi Fransanın Müdafiə nazirinin şərəfinizə təşkil etdiyi qəbulda

gördükdə şəxsən Sizə deyə bilmədim ki, necə xoşbəxtəm ki, atanızın xəttini davam etdirirsiniz. Zənnimcə, bunda, haradasa Tanrı hökmü var. Əlbəttə, Heydər Əliyeviç kimi insan olmaq mümkün deyildir. Lakin Siz onun oğlusunuz, Azərbaycan üçün çox işlər görmüş və şəxsən mənim üçün çox işlər görmüş insanın həyatını sanki davam etdirirsiniz. O məni Azərbaycana qaytardı, Azərbaycanı isə vətənim kimi mənim qəlbimə qaytardı. Odur ki, mən bütün ömrüm boyu onun barəsində məhəbbətlə, minnətdarlıqla düşünəcəyəm.

İndi mən öz proqramımı necə qurmaq barədə düşünürəm. Bilirsinizmi, konsert salonunun onun iştirakı ilə nəzərdə tutulduğu kimi açılışı mənim üçün, əlbəttə, bir tərəfdən, bayramdır, digər tərəfdən isə, bütün fikirlərim, xatirələrim büsbütün dostumla bağlıdır. Ona görə də bu gün belə etməyi qərara almışam. Əvvəlcə, giriş sözləri deyildikdən sonra mən – buraya violonçel gətirmişəm – Baxın «Sarabanda»sını, solo violonçel üçün süitasının hissələrindən birini ifa edəcəyəm. Bu sarabanda bir dua kimi səslənir. Orkestr ifa etməyə başlamazdan əvvəl mən musiqi vasitəsilə, tərcüməsiz dua etmək istəyirəm. Musiqinin dili ilə dua etmək istəyirəm... Mən bununla başlayacağam, sonra da Azərbaycanın gözəl qadın bəstəkarının əsərini səsləndirəcəyəm. Siz onu yaxşı tanıyırsınız. İlk dəfə səslənəcək əsəri o, xüsusi olaraq bu salonun açılışı üçün bəstələmişdir.

Xoşbəxtəm ki, buraya gəlmişəm, Bakıya öz evimə gəldiyim kimi gəlmişəm. Heyf ki, burada ancaq bu gün qala biləcəyəm. Mən dünən gəlmişəm, sabah səhər tezdən getməliyəm. İndi mənimlə görüşməyə vaxt tapdığınıza görə Sizə çox minnətdaram. Dahi atanızın müəyyənləşdirdiyi və davam etdirəcəyiniz yolda Sizə bol-bol səadət arzulayıram.

**İ l h a m Ə l i y e v:** Xoş, səmimi sözlərə görə çox sağ olun. Doğrudan da, hamımızı qarışıq hisslər bürümüşdür. Ölkəmizin həyatında hər bir bayram günü, hər bir yeni məqam, hər bir fərəhli hadisə həm də kədərlə müşayiət olunur. Kədər onunla bağlıdır ki, bütün bunları yaradan, Azərbaycan dövlətini,

əslində, yenidən quran insan indi bizimlə deyildir. Filarmoniya da bu qəbildəndir. Hər dəfə onun yanından keçəndə ziddiyyətli hisslər – həm fərəhli, həm də kədərli hisslər keçirirsən, qüssələnirsən. Bu sizin üçün də çox ağırdır, ilk dəfədir dostunuzun həyatda olmadığı bir vaxtda Azərbaycana gəlirsiniz. Yəqin ki, bu hisslər bizi həm yaxınlaşdırır, həm də bu itkinin acısını birlikdə yaşamağa kömək edir. Lakin həyat davam edir, ölkə inkişafdadır. Odur ki, bizim – burada yaşayanların hamısının, habelə ölkəmizin hüdudlarından kənarda yaşayan Azərbaycanın dostlarının vəzifəsi Heydər Əliyevin işini davam etdirməkdən ibarətdir. Xalqımızın yeganə nicatı və rifahı məhz bundadır. Ona görə də buraya gəldiyiniz üçün sizə bir daha təşəkkürümü bildirmək və ümidvar olduğumu söyləmək istəyirəm ki, səfərləriniz, əvvəllər olduğu kimi, müntəzəm davam edəcəkdir. Biz sizinlə hər il, bəlkə də daha tez-tez görüşəcək, sadəcə, ünsiyyətdə olacaq, ötüb-keçənləri xatırlayacaq və gələcək barədə düşünəcəyik.

**Mstislav Rostropoviç:** Demək istəyirəm ki, Sizi Parisdə necə də gözəl qarşıladılar.

## AZƏRBAYCAN DÖVLƏT FİLARMONİYASI BİNASININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ

*2004-cü il yanvarın 27-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası binasının əsaslı bərpadan sonra təntənəli açılış mərasimi olmuşdur.*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev mərasimdən əvvəl Bakının ən gözəl memarlıq abidələrindən sayılan Filarmoniya binasında aparılmış tikinti-bərpa işləri ilə tanış oldu.*

*Mədəniyyət naziri Polad Bülbüloğlu vaxtilə ümummilli liderimiz Heydər Əliyevin iştirakı ilə burada keçirilən görüşləri, onun olduğu konsertləri xatırlatdı. O, yeni görkəm almış Filarmoniyada aparılmış bərpa işləri, quraşdırılmış avadanlıq barədə ətraflı məlumat verdi, salonda tamaşaçı yerlərinin sayının 515-ə çatdırıldığını bildirdi.*

*Prezident İlham Əliyev Filarmoniya binasının əvvəlki və müasir görünüşünü əks etdirən fotoşəkillərə baxdı, ayrı-ayrı mərtəbələrdəki otaqları, konsert salonunu gəzdi, milli memarlıq üslublarının qorunub saxlanılması işlərinə xüsusi diqqət yetirdi. Dövlətimizin başçısı ən müasir standartlara uyğun yeni səs sistemi ilə də yaxından maraqlandı.*

**Polad Bülbüloğlu:** Cənab Prezident, biz ümummilli liderimiz Heydər Əliyevə dərin təşəkkürümüzü bildiririk ki, belə gözəl, qədimi bir binanın bu səviyyədə bərpa olunması barədə göstəriş verdi. O bu işləri həmişə, daim nəzarətdə saxlamışdır və bütün məsələlər onunla razılaşdırılmışdır.

**İlham Əliyev:** Keçmişdə bunlar yox idi?

**Polad Bülbüloğlu:** Bəli, bunlar, ümumiyyətlə, yox idi. Hamısı indi yaradılıbdır. Kondisioner də işləyir. Burada səsi udmaq üçün xüsusi qurğu qoyulmuşdur.

Cənab Prezident, Moskvada yaşayan azərbaycanlı Rafiq Rəhimov keçmiş ittifaqın tanınmış səs rejissorlarından biridir. İndi açılışda bizə kömək etmək üçün gəlmişdir.

**İlham Əliyev:** Bu avadanlıq səsi tənzimləyir?

**Polad Bülbüloğlu:** Bəli, bunlar ən müasir qurğulardır.

**İlham Əliyev:** Yəni konsert gedən zaman yazılır.

**Polad Bülbüloğlu:** Tamamilə doğrudur. İstər diskə, istərsə də videoya yazılır.

**İlham Əliyev:** Bəs yazının təmizliyi necədir?

**Polad Bülbüloğlu:** Cənab Prezident, burada hər cür şərait var və xüsusi televizorla da izləmək olur. Səsyazma ən müasir mikrofonlarla aparılır.

* * *

*Sonra Azərbaycanın bu musiqi məbədinin tamamilə yeni görkəm almış binasının təntənəli açılış mərasimi oldu.*

*Maestro Mstislav Rostropoviç əziz və sevimli dostu, Azərbaycan xalqının dahi oğlu prezident Heydər Əliyevin nurlu xatirəsinə dərin hörmət və ehtiram əlaməti olaraq, violonçeldə İohann Sebastyan Baxın iki nömrəli süitasından «Sarabanda»nı ifa etdi.*

## MÜSLÜM MAQOMAYEV ADINA AZƏRBAYCAN DÖVLƏT FİLARMONİYASI BİNASININ ƏSASLI BƏRPADAN SONRA TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*27 yanvar 2004-cü il*

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün Azərbaycanın muasir tarixində çox əlamətdar bir gündür. Uzun fasilədən sonra Filarmoniya öz qapılarını tamaşaçılara açır. Bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik edirəm.

Bilirsiniz ki, Filarmoniyamızın bərpası bilavasitə prezident Heydər Əliyevin təşəbbüsü və şəxsi göstərişi ilə olmuşdur. Məhz onun göstərişləri əsasında qısa müddət ərzində Filarmoniya bərpa olundu və indi ən yüksək dünya standartlarına cavab verir. Bu bir daha onu göstərir ki, hörmətli prezident Heydər Əliyev musiqiyə, Azərbaycanın musiqi mədəniyyətinə, incəsənətinə, ümumiyyətlə, mədəniyyətə nə qədər əhəmiyyət vermişdir. Bu diqqət, bu qayğı daim hiss olunurdu. Mədəniyyət işçiləri bunu çox yaxşı bilirlər.

Bu, 1970–1980-cı illərdə də özünü göstərirdi. Məhz o illərdə, birinci katib Heydər Əliyevin səyləri nəticəsində Azərbaycan özünü dünya miqyasında incəsənət ölkəsi kimi, mədəniyyət mərkəzi kimi təqdim edə bilibdir. Məhz o illər ərzində Azərbaycanın görkəmli bəstəkarları, müğənniləri, mədəniyyət xadimləri Sovet İttifaqının ən yüksək mükafatları, ordenləri ilə təltif olunmuşlar.

O illərdə Azərbaycanda klassik musiqi inkişaf etmişdir. Eyni zamanda, dünya klassikasının da Azərbaycanda təbliğ olunmasında Heydər Əliyevin xidmətləri müstəsna idi. Unudulmaz klassik musiqi gecələri məhz bu salonda, yay mövsümündə Filarmoniyamızın yay meydançasında keçirilirdi.

Beləliklə, Azərbaycan həm öz potensialını Sovet İdtifaqı və dünya miqyasında təqdim edə bilibdir, eyni zamanda, dünyanın musiqi inciləri Azərbaycanda səsləndirilmişdir.

Azərbaycanın dövlət müstəqilliyinin ilk illərində, ümumiyyətlə, ölkəmiz çətin vəziyyətdə yaşayırdı və incəsənətə, mədəniyyətə o qədər də böyük önəm verilmirdi. Hətta bəziləri Azərbaycanda, ümumiyyətlə, klassik musiqini qadağan etmək istəyirdilər. Amma 1993-cü ildə xalqın tələbi ilə Heydər Əliyev Azərbaycan rəhbərliyinə qayıdandan sonra, başqa sahələrdə olduğu kimi, bu sahədə də dönüş yarandı. Hər şey öz yerini tutdu. Mədəniyyət işçilərinə qayğı göstərilməyə, müxtəlif tədbirlər keçirilməyə başlandı. Beləliklə, Azərbaycanın mədəni həyatı dirçəldi, canlandı.

Ötən illər ərzində müxtəlif tədbirlər keçirilmiş, Heydər Əliyev tərəfindən çoxlu fəxri adlar verilmiş, xüsusi təqaüdlər təsis edilmişdir. Bunun da məqsədi məhz o idi ki, Azərbaycanın mədəniyyəti inkişaf etsin, incəsənəti, ədəbiyyatı, bütün sahələr inkişaf etsin. Çünki bizim xalqımız çox istedadlı xalqdır və onun imkanları olmalıdır ki, öz istedadını, öz potensialını bütün dünyaya çatdıra bilsin.

Filarmoniyanın bərpası da məhz bu siyasətin məntiqi nəticəsidir. Baxmayaraq ki, ölkənin müxtəlif iqtisadi-sosial problemləri mövcuddur, hələ ölkəmiz, tam mənada, öz iqtisadi potensialını yarada bilməyibdir, amma Filarmoniyanın bərpasına vəsait ayrıldı və qısa müddət ərzində bu gözəl bina, demək olar ki, yenidən yaradılıbdır.

Biz hamımız bu mərasimi başqa cür təsəvvür edirdik. Güman edirdik ki, Heydər Əliyev özü şəxsən bu açılışda iştirak edəcək, ürək sözlərini deyəcək və beləliklə, bu binaya ikinci həyatı, xeyir-duanı özü verəcəkdi. Amma Allah bunu bizə nəsib etmədi. Ancaq eyni zamanda, Heydər Əliyevin fiziki yoxluğu bizi sarsıtmamalıdır. Onun fiziki yoxluğu o demək deyil ki, o bizdən ayrılıbdır. Onun siyasəti yaşayır, onun ideyaları yaşayır və onun əsəri olan müstəqil Azərbaycan yaşayır. O bizim qəlbimizdə daim yaşayacaqdır.

Əziz Slava, şəxsən sizə müraciət etmək istəyirəm.

Əziz dost! Bu gün biz sizinlə görüşdük və mən düşündüklərimi söylədim. Buraya gəldiyinizə görə, neçə illər üçün əvvəlcədən tutulmuş çox gərgin iş cədvəlinizdə vaxt tapıb Azərbaycana gəldiyinizə, öz vətəninizə gəldiyinizə, amma qeyri-adi bir vaxtda gəldiyinizə görə öz dərin təşəkkürümü bir daha ictimaiyyət qarşısında bildirmək istəyirəm.

**Siz hər bir gəlişinizdə həmişə dostunuz Heydər Əliyevlə görüşürdünüz. Sizin hər bir gəlişiniz bizim üçün, görüşlərinizi müşahidə edən insanlar üçün alicənablıq dərsi olmuşdur. Biz sizin Heydər Əliyevlə dostluğunuzu müşahidə edərək, çox şey öyrənmişik.**

Lakin bu gün vəziyyət başqa cürdür və siz buraya əsl dost, öz ölkənizin vətənpərvəri kimi, böyük insan kimi, insanpərvər insan kimi gəlmisiniz, öz dostunuzun xatirəsini anmağa və eyni zamanda, birgə səylərinizlə – həm sizin səylərinizlə, həm də Heydər Əliyevin səyləri ilə tam bərpa olunmuş bu gözəl binanın açılış mərasimində iştirak etməyə gəlmisiniz. Mən buna görə sizə çox minnətdaram. Mən sizi yüksək qiymətləndirirəm, çox sevirəm, sizə böyük hörmət bəsləyirəm. Özü də təkcə mən yox, həm də bizim hamımız. Siz bizim üçün doğma insansınız. Bizim həmyerlimizsiniz, fəxrimizsiniz. Lakin biz sizi daha çox bir insan kimi, sözün əsl mənasında, böyük insan kimi, sədaqətli dost, vətənpərvər insan kimi sevirik. Ümidvaram ki – bu gün mən bunu sizə dedim, bunu xahiş etdim – siz Azərbaycana müntəzəm səfərlər edəcəksiniz. Bura sizin evinizdir, burada sizin dostlarınız var, burada sizi sevirlər. Mən sizə bir daha təşəkkürümü bildirirəm, sizi və hamımızı gözəl bayram – Filarmoniyanın açılışı, onun ikinci həyatı münasibətilə təbrik edirəm!

## İRAN İSLAM RESPUBLİKASININ ALİ RƏHBƏRİ AYƏTULLAH SEYİD ƏLİ XAMENEİ HƏZRƏTLƏRİNƏ

Möhtərəm Ayətullah Xamenei həzrətləri!

İran İslam Respublikasının milli bayramı – İnqilab günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə İran arasındakı mehriban qonşuluq, möhkəm dostluq və qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeyinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İran xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *28 yanvar 2004-cü il*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**SEYİD MƏHƏMMƏD XATƏMİYƏ**

Hörmətli cənab Prezident!

İran İslam Respublikasının milli bayramı – İnqilab günü münasibətilə Sizi və bütün İran xalqını öz adımdan və Azərbaycan xalqı adından səmimi–qəlbdən təbrik edirəm.

Əminəm ki, tarix boyu mehriban qonşuluq şəraitində yaşamış xalqlarımız arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı üçün birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İran xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *28 yanvar 2004-cü il*

**YENİ ZELANDİYANIN
BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ
XANIM HELEN KLARKA**

Hörmətli xanım Baş nazir!

Yeni Zelandiyanın milli bayramı – Vaytanqa günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi–qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Yeni Zelandiya arasında təşəkkül tapan münasibətlər bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Yeni Zelandiya xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *28 yanvar 2004-cü il*

**ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM ÇANDRİKA BANDARANAYKE KUMARATUNQAYA**

Hörmətli xanım Prezident!

Şri-Lanka Demokratik Sosialist Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və xalqınızı öz adımdan və bütün Azərbaycan xalqı adından səmimi– qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Şri-Lanka arasında yaranmış dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Şri-Lanka xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *28 yanvar 2004-cü il*

## ANS ŞİRKƏTLƏR QRUPUNUN VƏ ÇİNGİZ MUSTAFAYEV ADINA FONDUN TƏSİS ETDİYİ "2003-cü İLİN ADAMI" MÜKAFATININ VƏ DİPLOMUNUN TƏQDİM OLUNMASI MƏRASİMİNDƏ NİTQ

*«Hyat–Recensi» oteli*

*29 yanvar 2004-cü il*

Hörmətli xanımlar və cənablar!

Bu gün Azərbaycanın ictimai-siyasi həyatında çox əlamətdar bir gündür. Çingiz Mustafayev adına Fondun və ANS Şirkətlər Qrupunun qərarı ilə Heydər Əliyev vəfatından sonra "İlin adamı" elan edilmişdir.

Mən xatırlayıram ki, ötən ilin yanvar ayında belə mükafat Heydər Əliyevə təqdim olunanda o çox böyük sevinc hissləri keçirirdi. Heydər Əliyev ömrü boyu çoxlu mükafatlar – orden və medallar, müxtəlif dövlətlərin ən yüksək mükafatlarını almışdı. Amma bu mükafat onun üçün çox əziz idi. Çünki bu mükafat Azərbaycanda, müstəqil dövlətimizdə gördüyü işlərin nəticəsində ona təqdim olunmuşdu.

Prezident özü-özünə mükafat verə bilmir. ANS Şirkətlər Qrupunun və Çingiz Mustafayev adına Fondun onun fəaliyyətini belə yüksək qiymətləndirməsi Heydər Əliyev üçün çox əziz idi. Biz təsəvvür etmirdik ki, bir ildən sonra eyni mükafat ona veriləcək, amma o özü bu mükafatı ala bilməyəcəkdir. Müasir Azərbaycanın bütün uğurları Heydər Əliyevin adı ilə bağlıdır. 1993-cü ildə xalqın tələbi ilə Azərbaycana rəhbərliyə gəldikdən sonra Heydər Əliyev ölkəni inkişaf etdirməyə başladı. Müharibə dayandırıldı, vətəndaş qarşıdurmasına son qoyuldu, qeyri-qanuni silahlı dəstələr tərksilah olundu, qayda-qanun yaradıldı.

1996-cı ilədək göstərilən bütün səylər Azərbaycanda sabitliyin, sülhün və əmin-amanlığın yaranmasına yönəlmişdi. Həmin ildən sonra, çətin dövrlər arxada qaldıqdan sonra Azərbaycanda islahatlara başlanıldı. Ölkəmizdə siyasi, iqtisadi, sosial islahatlar uğurla həyata keçirildi. Heydər Əliyev bu islahatlara şüurlu şəkildə gedirdi. Heç kəs onu məcbur etməmişdi və edə də bilməzdi. Dünyada onu məcbur etmək iqtidarında olan heç bir qüvvə yox idi. Bütün seçimlər və yollar açıq idi. Ancaq o bu yolu – Azərbaycanı Dünya Birliyinə inteqrasiya yolunu seçdi. Azərbaycan onun rəhbərliyi altında bu yolla uğurla gedirdi və bu gün də gedir.

Azərbaycanda siyasi islahatlar, cəmiyyətimizin demokratikləşməsi istiqamətində atılan addımlar ölkəmiz üçün yeni üfüqlər açmışdır. Söz, mətbuat azadlıqlarına Heydər Əliyev çox böyük önəm verirdi. Azərbaycanda müasir, azad mətbuatın formalaşmasında da onun xidmətləri çox böyükdür. Mən bu fürsətdən istifadə edib sizin hamınızı əmin etmək istəyirəm ki, bu siyasətə sadiq qalacağam, Azərbaycanda bütün azadlıqlar – söz azadlığı, mətbuat azadlığı bundan sonra da təmin olunacaqdır. Bu azadlıqlar hər bir cəmiyyətin uğurlu inkişafı üçün ən vacib amillərdəndir.

Heydər Əliyev ANS telekanalına çox böyük hörmətlə, deyərdim ki, məhəbbətlə yanaşırdı. O sizin verilişlərinizi çox maraqla izləyirdi. Düzdür, həm prezident, həm də təcrübəli bir insan kimi, onun məlumat mənbələri çox idi. Amma bəzi şeyləri sizin kanalınızdan da götürürdü. Xüsusilə nöqsanlar, ədalətsizliklər haqqında gedən məlumatlara çox diqqətlə baxırdı və səhəri gün müvafiq qurumlara bu barədə öz iradlarını bildirirdi.

ANS Azərbaycanın aparıcı özəl telekanalıdır. O, müstəqil telekanaldır və özünəməxsus dəst-xətti var. Xüsusilə gənclərimizin və uşaqlarımızın vətənpərvərlik ruhunda tərbiyə olunmasında ANS telekanalının xidmətləri çox böyükdür və dəyərlidir. Buna görə Azərbaycan Respublikasının prezidenti kimi, mən sizə öz təşəkkürümü bildirmək istəyirəm. Bu çox

vacib bir məsələdir. Bizim gənclərimiz, uşaqlarımız, yeniyetmələrimiz vətənpərvərlik ruhunda tərbiyə olunmalı, böyüməli və beləliklə, cəmiyyət üçün həm fiziki, həm də mənəvi cəhətdən güclü nəsil yetişdirilməlidir.

Heç kəs üçün sirr deyildir ki, Ermənistan–Azərbaycan müharibəsinin ilk illərində Azərbaycan tərəfi informasiya qarşıdurmasında uduzurdu. Bunun obyektiv səbəbləri var idi: Ermənistanın güclü lobbiyə malik olması, Azərbaycanda bu istiqamətdə işlərin lazımi səviyyədə olmaması və digər amillər. Bu, həqiqət idi. Məhz informasiya müharibəsində uduzmağımız da Azərbaycanı çox çətin vəziyyətə salmışdı. Amma biz bu informasiya blokadasını yara bildik. Bu gün Azərbaycan həqiqətləri bütün dünyada yayılır. Ermənistan–Azərbaycan müharibəsinin real səbəbləri və nəticələri artıq bütün dünyaya məlumdur, dünyanın aparıcı və mötəbər təşkilatları bu məsələ ilə bağlı öz fikirlərini, rəylərini açıq-aydın surətdə bəyanatlarda, qəbul olunmuş sənədlərdə əks etdirirlər. Bu gün Avropa İttifaqının, Avropa Şurasının, məsələ ilə bilavasitə məşğul olan ATƏT-in Minsk qrupunun sənədlərində də, bəyanatlarında da Ermənistanın işğalçı siyasəti öz əksini tapır. Hesab edirəm ki, bu bizim böyük uğurumuzdur.

Əfsuslar olsun ki, dünyada mövcud olan ikili standartlar zəminində bu bizə uğur kimi gəlir. Halbuki bu, məlum həqiqətdir. Heç kəs üçün sirr deyil ki, Azərbaycan torpaqları işğal olunub və bu işğalın nəticəsində bir milyona yaxın vətəndaşımız evsiz-eşiksiz və torpaqsız qalmışdır. Amma bu gün bu həqiqətlər dünyada səslənir. Azad mətbuatın, ümumiyyətlə, mətbuatın bu istiqamətdə fəaliyyəti çox mühümdür. Siyasətçilər öz öhdələrinə düşən vəzifələri aparacaqlar. İctimai xadimlər və digər məsul şəxslər, məsələ ilə bilavasitə məşğul olan və danışıqlarda iştirak edən şəxslər bu prosesi davam etdirəcəklər. Amma mətbuatın bu istiqamətdə fəaliyyəti əvəzolunmazdır.

Mən hesab edirəm ki, ANS telekanalının bu istiqamətdə göstərdiyi fəaliyyət təqdirəlayiqdir, çox vacibdir. Arzu edirəm ki, Azərbaycanın bütün kütləvi informasiya vasitələri bu təcrübəni tətbiq etsinlər. Hər bir tədbirdə, hər bir verilişdə, beynəlxalq konfransda, digər mühüm tədbirlərdə bu məsələ səslənməlidir. Biz öz səsimizi daha geniş şəkildə bütün dünyaya çatdırmalıyıq və əminəm ki, bu öz nəticəsini verəcəkdir.

Bu gün mənim üçün çox xoş bir gündür. Mən Heydər Əliyevə təqdim olunan mükafatı alıram. Əlbəttə, bu kadrlara baxanda istər-istəməz, aprelin 21-də baş vermiş hadisə yenidən yada düşür. Həmin gün həm təntənəli, həm də faciəli idi. Ona görə faciəli idi ki, bu hadisədən sonra Heydər Əliyev öz səhhətini bərpa edə bilməmişdir.

Təntənəli idi ona görə ki, o gün gələcək zabitlər qarşısında çıxış edən prezident, Ali Baş Komandan səhhətinə ciddi zərbələr dəyməsinə baxmayaraq, öz gücünü toplayıb iki dəfə kürsüyə qayıtmışdı. Bu, cəsarətin, iradənin, rəşadətin təntənəsi idi. Çünki o, Prezident, Ali Baş Komandan idi. Heydər Əliyev yəqin ki, o anlar düşünürdü ki, belə hərəkətlərlə öz səhhətini böyük risk altına qoyur. Ümumiyyətlə, gələcək həyatını risk altına qoyur. Amma o başqa cür hərəkət edə bilməzdi. Çünki, sözün əsl mənasında, xalqın lideri idi.

O çətin günlər arxada qalmışdır. Bu gün biz onun fiziki yoxluğu ilə barışmalıyıq. Amma – mən bunu dəfələrlə demişəm və bir daha demək istəyirəm – bu bizi ruhdan salmamalıdır. Onun siyasəti yaşayır, ideyaları yaşayır, onun qurduğu ölkə – müstəqil Azərbaycan dövləti yaşayır və yaşayacaqdır. Bizim borcumuz ondan ibarətdir ki, onun yolu ilə gedək. Əminəm ki, biz hamımız – Azərbaycan xalqı onun ideyalarına sadiq qalacağır. Biz onun yolu ilə irəliyə gedəcəyik, doğma vətənimizi hərtərəfli inkişaf etdirəcək və gücləndirəcəyik.

Əziz dostlar!
Əziz xanımlar və cənablar!

Bu mükafatı Heydər Əliyevə təqdim etdikləri üçün onun oğlu kimi, mən Çingiz Mustafayev adına Fonda və ANS Şirkətlər Qrupuna bir daha təşəkkürümü bildirirəm. Sizi bir daha əmin etmək istəyirəm ki, Azərbaycan Respublikasının prezidenti kimi, mən bu siyasəti aparacağam, bu yoldan dönməyəcəyəm, ölkəmiz və dövlətimiz üçün səylərimi əsirgəməyəcəyəm, daima sizinlə birlikdə olacağam. Əminəm ki, biz hamımız birlikdə ölkəmizi hərtərəfli inkişaf etdirəcəyik və yeni qələbələrə doğru aparacağıq.

## LƏNKƏRANDA BAŞ VERMİŞ QƏZA İLƏ ƏLAQƏDAR KEÇİRİLƏN OPERATİV MÜŞAVİRƏDƏ ÇIXIŞ

*30 yanvar 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Lənkəran şəhərində baş vermiş qəza ilə əlaqədar yanvarın 30-da səhər buraya gəlmişdir.*

*Dövlətimizin başçısı hadisə yerində olmuş, qəzanın səbəbləri, xilasetmə işlərinin gedişi ilə maraqlanmışdır.*

*Prezident İlham Əliyev şəhər mərkəzi xəstəxanasında yerləşdirilmiş varalılara baş çəkmişdir. Yaralılara Allahdan şəfa diləyən prezident İlham Əliyev dedi ki, siz heç nədən narahat olmayın, nə lazımdırsa, ediləcəkdir. Mən göstəriş verəcəyəm, siz bütün lazımi ev əşyaları ilə də təmin olunacaqsınız. Bütün məsələlər araşdırılacaq, günahkarlar cəzalandırılacaqlar. Əsas odur ki, siz tezliklə sağalasınız. Dövlət Komissiyasının üzvləri və digər əlaqədar təşkilatların rəhbələri hər bir ailənin problemləri aradan qaldırılanadək Lənkəranda qalacaqlar. Bütün ailələr mənzillə təmin ediləcək, dəyən ziyanın ödənilməsi üçün kompensasiya veriləcək və digər yardımlar veriləcəkdir.*

– Dünən axşam Lənkəranda baş vermiş facіə ilə əlaqədar Dövlət Komissiyası yaradılmışdır. Komissiyanın sədri Baş nazir Artur Rasizadədir, digər üzvlər təyin edilibdir və bu məsələ araşdırılacaqdır.

Mən axşam Daxili İşlər naziri Ramil Usubovla əlaqə saxladım və ona göstəriş verdim ki, bütün lazımi tədbirlər görülsün. Xüsusi təlim keçmiş insanlar gecə ikən buraya göndərildi. Eyni zamanda, Səhiyyə naziri ilə də əlaqə saxladım və Bakıdan tibbi briqadalar göndərildi. Telefonla icra hakimiyyətinin başçısı

Zeynal Nağdəliyevlə danışdım. O bu məsələni mənə məruzə etdi. Bu gün də şəxsən özüm gəlmişəm.

Komissiya bu məsələni araşdıracaq. Mən hələlik bir şey demək istəmirəm. Amma ilkin məlumatlara əsasən deyə bilərəm ki, burada ciddi səhvlərə yol verilmişdir. Bu məsələ bu gün qalxmayıbdır. Artıq neçə aydır ki, bu məsələ ilə bağlı müzakirələr gedir. İcra hakimiyyətinin başçısı Nazirlər Kabinetinə məktublar göndərmişdir. Nazirlər Kabineti də öz növbəsində, müvafiq göstərişlər verərək Layihə İnstitutunun əməkdaşlarını buraya göndərmişdir. Layihə İnstitutu əməkdaşlarının apardığı təhlillərə əsasən, müəyyən iş cədvəli tutulmuş və təmirə başlanmışdır. Belə çıxır ki, bu təmir nəticəsində, yaxud təmir aparılan anlarda ev çökdü.

Mən istəyirəm ki, bu məsələ tezliklə hərtərəfli və ədalətli araşdırılsın. Bu məqsədlə cinayət işi açılıbdır. Baş prokurorun müavini indi buradadır. Mən bu gün bir daha göstəriş vermişəm ki, məsələ ədalətli və operativ şəkildə araşdırılmalıdır. Şübhə yoxdur ki, bu faciəli hadisə kiminsə səhlənkarlığı, səriştəsizliyi ucbatından, yaxud başqa hərəkətləri ucbatından baş vermişdir. Əgər bu müddət ərzində sakinlər, yerli orqanlar bu məsələ ilə bağlı öz nigarançılıqlarını ifadə edirdilərsə, deməli, buna reaksiya verilməli idi. Eyni zamanda, hesab edirəm ki, sakinlər vaxtında binadan çıxarılmalı idilər. Bu da baş vermədi.

Bu gün xəstəxanada olan yaralı insanlarla söhbət əsnasında aydın oldu ki, onları inandırırdılar ki, heç nə olmayacaq, təmir işləri aparılır və binaya heç nə olmayacaqdır. Bu çox xoşagəlməz bir haldır. Bu çox narahatedici bir haldır və ən başlıcası, böyük faciə olmuşdur. 6 adam həlak olub, 21 adam yaralanıbdır. Onların bəziləri ağırdır. Mən bu gün xəstəxanada onlarla söhbət etdim, ən ağır vəziyyətdə olanları da gördüm. Həkimlər əllərindən gələni edirlər. Yerli həkimlər sağ olsunlar. Eyni zamanda, Bakıdan göndərilmiş xüsusi briqadalar, fövqəladə hallarda iş təcrübəsi olan briqadalar işləyir.

Yəqin bilirsiniz ki, xilasedicilər də çox böyük işlər görürlər. Onların səyləri nəticəsində 12 saatdan sonra 1 nəfər xilas edildi.

Düzdür, onun vəziyyəti ağırdır, amma həkimlər mənə dedilər ki, vəziyyəti sabitləşibdir. Ümidvarıq ki, onun səhhəti bərpa olunacaqdır.

Beləliklə, hesab edirəm ki, biz komissiyanın yekun rəyini gözləməliyik. Mən hadisələri tələsdirmək istəmirəm. İstəyirəm ki, hər şey araşdırılsın və əgər günahkar varsa – hesab edirəm, günahkar var, çünki günahkar olmasaydı, bina bu şəkildə çökməzdi – onlar cəzalandırılmalıdır. Amma heç kəs üçün sirr deyil ki, komissiyanın işi hələ bir müddət davam edəcəkdir.

Ancaq zərər çəkmiş insanlar, yaralananlar, evdən çıxarılmış digər sakinlər var, onların vəziyyəti necə olacaq, taleyi necə olacaq? Evsiz-eşiksiz qalmış insanlar nə edəcəklər? Biz bu haqda da fikirləşməliyik. Onların maddi-məişət problemlərinə tezliklə baxmalıyıq. Mən bu məsələ ilə bağlı müvafiq göstərişlər verəcəyəm. Eyni zamanda, yerli icra orqanları da maksimum qayğı göstərməlidirlər. Bu insanlar – həm yaralananlar, həm də digər sakinlər indi stress vəziyyətindədirlər. Öz evlərinə qayıda bilmirlər. Onların illər boyu əldə etdikləri varidatı mənzillərdə qalıbdır. Evə daxil ola biləcəklər, ya bilməyəcəklər – bu hələ sual altındadır. Çünki bina gərək çox ciddi araşdırılsın. Müəyyən edilsin ki, bu binanın vəziyyəti sakinlərin oraya qayıtmasına imkan verirmi? Hər halda, bütün bu məsələlər operativ şəkildə həll olunmalıdır, kompensasiyalar ödənilməlidir. Bir daha – xüsusilə, yerli icra orqanlarına, eyni zamanda, mərkəzi orqanlara – deyirəm, maksimum diqqət göstərilməlidir.

Bu hadisə, eyni zamanda onu göstərir ki, belə hallar gələcəkdə təkrarlana bilər. Buna bənzər evlər Lənkəranda da, Azərbaycanın başqa yerlərində də az deyildir. 1970-ci ildə tikilmiş bu bina, görünür, o qədər də keyfiyyətli olmayıbdır. Yaxud da onun istismarında buraxılmış səhvlərin nəticəsində belə qəza vəziyyətinə düşübdür. Ona görə də buna bənzər bütün binalara operativ şəkildə baxış keçirilməlidir. Əgər buradakı çatlar, yaxud narahatedici faktlar aşkar olunarsa, təcili şəkildə Nazirlər Kabinetinə məlumat verilməlidir.

Mənim deyəcəyim bu qədər. Bu hadisə məni çox sarsıtdı. Mən dünən bunu eşidən kimi lazımi göstərişləri verdim. Ancaq bunların heç biri həlak olanları geri qaytarmayacaqdır. Bu, böyük dərddir, böyük faciədir. Hesab edirəm, indi hamımızın vəzifəsi ondan ibarətdir ki, yaralananların, zərər çəkənlərin faciəsini yüngülləşdirək. Əminəm ki, siz də bu fikirdəsiniz. Hesab edirəm ki, dəymiş ziyan yaxın vaxtda hesablanacaq və zərər çəkənlərə lazımi səviyyədə yardımlar göstəriləcəkdir. Kimin sözü, sualı varsa, buyursun.

**Zeynal Nağdəliyev** (*Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı*)**:** Cənab Prezident, icazə versəniz, bu görüşünüzə görə Sizə bütün lənkəranlılar adından minnətdarlığımızı bildirərdim. Bu hadisə baş verən kimi Sizin onunla maraqlandığınızı gördük və indi də burada olmağınız buna sübutdur. Ona görə də bütün lənkəranlılar adından Sizə bir daha minnətdarlığımı bildirirəm.

**İlham Əliyev:** Sağ olun. Bir də demək istəyirəm ki, Bakıdan gələn insanlar – həkimlər, xilasedənlər nə qədər lazımdırsa, burada qalacaqlar. Qəzanın nəticələrinin aradan qaldırılması istiqamətində lazımi tədbirlər görəcəklər. Axıra qədər, sonuncu yaralı xəstəxanadan evə gedənə qədər burada qalacaqlar. Nə kimi əlavə yardım, kömək lazım olarsa, siz birbaşa mənə deyin, bu məsələni şəxsən öz nəzarətimdə saxlayıram. Dövlət Komissiyası artıq öz işinə başlayıbdır və güman edirəm ki, tezliklə lazımi tədbirlər görəcəkdir. Biz bu məsələni həm axıra qədər ədalətli araşdırmalıyıq, eyni zamanda, ilk növbədə zərər çəkənlərə kömək göstərməliyik. Sağ olun.

* * *

*Prezident İlham Əliyev sonra icra hakimiyyətinin binası qarşısında ictimaiyyətin nümayəndələri, zərər çəkmiş sakinlər ilə görüşüb söhbət etdi.*

**Uçmuş binanın sakini:** Biz o binada yaşayırıq. İndi həmin evin bir tərəfi tamam uçubdur. Siz də gəlib görmüsünüz. O biri tərəfi isə tamam əyilibdir. İndi biz istəyirik ki, evdə qalan əşyalarımızı, paltarlarımızı götürək. Heç olmasa,

zərərin yarısından qayıdaq. Yəqin ki, bizə, imkan daxilində, ev tikəcəksiz, yaxud kompensasiya verəcəksiz, onu Siz həll edəcəksiz. Sizin atanız da xeyirxah olub, inşallah, Siz də xeyirxah olacaqsınız. Siz bizim dərdimizə şərik olur, bizi başa düşürsünüz. Sizin atanız bizə çox hörmət edib. Siz də onun oğlusunuz.

**İ l h a m Ə l i y e v:** Siz evsiz qalmayacaqsınız. O evə baxış keçiriləcək, müəyyən olunacaq ki, orada yaşamaq mümkündür, yaxud mümkün deyildir. Əgər mümkün deyilsə, bina tikiləcək və mənzillə təmin olunacaqsınız. Bunu biz edəcəyik. Ona görə narahat olmayın. O ki qaldı evə girib əşyaları çıxarmaq məsələsinə, gərək Bakıdan gələn xilasedənlər baxsınlar ki, təhlükə var, ya yox.

**U ç m u ş b i n a n ı n s a k i n i:** Elə təhlükə yoxdur. Hər mənzilə bir uşaq girər, nəyimiz varsa qablaşdırar, qaldırıcı kranla çıxararıq.

**İ l h a m Ə l i y e v:** Yaqub müəllim, *(Nazirlər Kabinetinin müavini*), mən tapşırmışam. Əgər binaya girməyə imkan varsa, qoy girib-çıxsınlar, əgər desəniz ki, yox, təhlükəlidir, onda gözləyək.

**U ç m u ş b i n a n ı n s a k i n i:** Bizim ev məsələmiz necə olacaqdır? Heç olmasa, kompensasiya versinlər...

**İ l h a m Ə l i y e v:** Veriləcəkdir. Orada yaşayan sakinlər öz qohum-əqrəbalarının yanına gediblər?

**U ç m u ş b i n a n ı n s a k i n i:** Bəli, gecəni elə qohumların evində qalmışıq. Səhərə qədər yatmamışıq, düşünürdük ki, evin taleyi necə olacaq. Allah Sizi salamat etsin. Buraya gəldiniz, bizə böyük dayaq oldunuz. Biz Sizə arxalandıq. Bu camaat da Sizə təşəkkür etməyə gəlmişdir. Siz bizim dərdimizə şərik olmağa gəlmisiniz. Biz Sizi çox istəyirik. Biz həmişə Sizinləyik.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

**U ç m u ş b i n a n ı n d i g ə r s a k i n i:** Narahat olmusunuz, gəlmisiniz, amma çox xahiş edirik ki, bir əncam qılasınız. Çünki hamımız küçədə qalmışıq.

**İ l h a m Ə l i y e v:** Mən başa düşürəm. Narahat olmayın, bu məsələ həll olunacaqdır. Siz bilirsiniz ki, mən komissiya yaratmışam. Bu hadisəni araşdıracaqdır. Amma məsələ gərək tezliklə həll olunsun ki, camaat küçədə qalmasın. Siz indi qohum-əqrəbanın evində qalırsınız. Buraya Bakıdan çoxlu nazirlər gəliblər, gecədən buradadırlar. Daxili İşlər Nazirliyinin, Respublika Prokurorluğunun nümayəndələri, Səhiyyə naziri, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri, İqtisadi İnkişaf naziri buradadırlar. Hələ ki, xilasetmə işləri gedir, dağıntılar təmizlənir. Bir az səbir edin. Sakinlərə də deyin ki, narahat olmasınlar. Mənim də onlara salamlarımı çatdırın. Mən bu məsələni öz nəzarətimdə saxlayıram. Sağ olun.

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edirəm.

Ulu Tanrının islami bir din olaraq tamamladığı bu əziz gün insanları saflığa, qardaşlığa və yüksək mənəviyyata çağıran ilahi hikmət rəmzi kimi, bütün dünya müsəlmanları tərəfindən geniş qeyd olunur. Müsəlman aləmi əsrlər boyu bu hikmətin işığında dünya sivilizasiyasına neçə-neçə dəyərli töhfələr bəxş etmişdir. Bu bayram islamın bütün ali prinsiplərini özündə birləşdirməklə dərin məna daşıyır, hər bir insanda qüvvətli inam və etiqad, ülvi amal uğrunda hər cür fədakarlığa hazır olmaq duyğusu aşılayır, düzlük və mənəvi saflıq əhvali-ruhiyyəsi tərbiyə edir.

Mübarək Qurban bayramının ölkəmizdə də təntənəli şəkildə qeyd edilməsi Azərbaycan xalqının öz milli-mənəvi dəyərlərinə, dini ənənələrinə sadiq olduğunu əyani şəkildə özündə təcəssüm etdirir. Bu əziz bayram günlərində bir-birinə daha da doğmalaşan həmvətənlərimiz din qarşısında müqəddəs borclarını şərəflə yerinə yetirməkdən sevinc duyur, dualar edir, bəxş etdiyi gözəl nemətlərə görə Böyük Yaradana minnətdarlıqlarını ifadə edirlər. İnanıram ki, ölkəmizin inkişafı, xalqımızın rifahının yüksəldilməsi üçün etdiyiniz dua və niyyətlər, bütün arzularınız gerçəkləşəcək, builki Qurban bayramı daha xoş günlərin müjdəçisi olacaqdır. Azərbaycanın haqq işi uğrunda şəhid olmuş Vətən övladlarının əziz xatirəsini bu bayram günlərində ehtiramla yad edir, mərhumların yaxınlarına və xalqımıza səbir diləyirəm.

Qurban bayramı insanlar arasında səmimiyyəti artıran və qardaşlıq tellərini gücləndirən gözəl bir vasitədir. Əmin olduğumu bildirmək istəyirəm ki, bu müqəddəs Qurban bayramı bütün Azərbaycan xalqının, ölkəmizin sərhədlərindən

uzaqlarda yaşayan soydaşlarımızın bir-birinə olan diqqət və qayğısının artması ilə əlamətdar olacaq, cəmiyyətdə həmrəyliyin daha da möhkəmləndirilməsi işinə öz töhfəsini verəcəkdir.

Əziz bayram münasibətilə hər birinizə xoşbəxtlik və cansağlığı, müstəqil Azərbaycanın gələcək inkişafı naminə işlərinizdə uğurlar arzu edirəm.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*31 yanvar 2004-cü il*

## TÜRKİYƏ RESPUBLİKASININ ENERGETİKA VƏ TƏBİİ EHTİYATLAR NAZİRİ HİLMİ GÜLƏR VƏ ONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*2 fevral 2004-cü il*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab nazir!

Hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz.

Sabah çox mühüm bir gündür. Bakı–Tbilisi–Ceyhan layihəsinin həyata keçirilməsində maliyyələşdirmə ilə bağlı son işlər görülür. Bu, böyük hadisədir və mühüm bir qələbədir. Bu bizim müştərək qələbəmizdir.

Bakı–Tbilisi–Ceyhan layihəsi ölkələrimizi bir-birinə daha da yaxın edir. Türkiyə ilə Azərbaycan dost və qardaş ölkələrdir. Əlbəttə, bizim siyasətimiz ondan ibarətdir ki, aramızda olan münasibətlər bütün sahələrdə daha da inkişaf etsin və genişlənsin. Buraya iqtisadi sahə də daxildir. Bakı–Tbilisi–Ceyhan bu baxımdan həm iqtisadi, həm də siyasi cəhətdən çox vacib layihədir. Onun həyata keçirilməsi nəticəsində bölgədə təhlükəsizlik daha da möhkəmlənəcəkdir, yaxın zamanlarda Türkiyə və Azərbaycan xalqları bu layihədən faydalanacaqlar.

Bütün işlər uğurla gedir. Bu yaxınlarda Türkiyədə müştərək işçi qrupunun toplantısı keçirilmişdir. Əminik ki, bütün bu işlər istədiyimiz səviyyədə başa çatacaq, layihə vaxtında tamamlanacaq və neft kəməri istifadəyə veriləcəkdir.

Bir daha sizi salamlayıram. Xahiş edirəm, mənim salamlarımı və ən xoş arzularımı hörmətli prezident Əhməd Necdət Sezərə və hörmətli Baş nazir Rəcəb Tayyib Ərdoğana çatdırasınız. Mən onları Bakıda gözləyirəm və eyni zamanda,

özüm də Türkiyəyə səfər etməyə hazırlaşıram. Əminəm ki, bizim əlaqələrimiz günü-gündən güclənəcəkdir.

**H i l m i  Gü l ə r:** Hörmətli Prezident!

Mən burada olmaqdan böyük şərəf duyuram. Hörmətli Baş nazirimizin salamlarını Sizə yetirirəm.

Bakı–Tbilisi–Ceyhan layihəsi bizim də son dərəcədə böyük əhəmiyyət verdiyimiz və çox ciddi surətdə izlədiyimiz bir layihədir. Bu layihənin yerinə yetirilməsi vaxtında başa çatdırılacaqdır. Biz bununla əlaqədar bütün işləri görmüşük. Son olaraq ötən həftə təkrar bir yerə yığışdıq və Azərbaycanın Baş naziri müavininin iştirakı ilə bütün məsələləri geniş müzakirə etdik. Layihənin vaxtında tamamlanacağına heç bir şübhə yoxdur və bu işdə məsuliyyət daşıyan bir insan kimi, bunu Sizə söyləməkdən məmnunluq duyuram.

Eyni zamanda, bu layihənin ən önəmli nöqtəsi olan Ceyhan terminalına mərhum prezident Heydər Əliyevin adını vermək istəyirik. Beləliklə, bu adı daşımaqla Ceyhan terminalı daha böyük əhəmiyyət və məna kəsb edəcəkdir. Biz bundan çox böyük xoşbəxtlik duyacağıq.

Türkiyə–Azərbaycan dostluğu Sizin də dəyərli töhfələrinizlə ən gözəl çağlarını yaşayır. Bundan sonra həyata keçirəcəyimiz layihələrlə, xüsusilə "Şahdəniz" layihəsi ilə biz daha böyük nəticələr əldə edəcəyik. Mən də ötən ay Yunanıstanla təbii qazın satılması barədə müqavilə imzaladım. Deməliyəm ki, başda Yunanıstan və İtaliya olmaqla, Avropa Azərbaycanın təbii qazını səbirsizliklə gözləyir. Ona görə həmin layihəni də sürətlə həyata keçirəcəyik. Bu layihə Bakı–Tbilisi–Ceyhana paralel layihə olacaqdır. Bununla bağlı işlər aparılır. Beləliklə, dostluğumuz və qardaşlığımız daha da möhkəmlənəcək və digər ölkələrə də örnək olacaqdır.

Məni qəbul etdiyiniz üçün və buraya səfərimdən şərəf duyduğumu bir daha söyləmək istəyirəm. İnşallah, apardığımız bütün işlər sabah imzalanacaq sənədlər sayəsində daha da inkişaf edəcəkdir.

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab nazir, çox sağ olun.

Prezident Heydər Əliyevin Türkiyə və Azərbaycan arasında olan münasibətlərin yüksək səviyyəyə qalxmasında böyük rolu olmuşdur. Əlbəttə, Azərbaycanda neft yataqlarının işlənilməsi və neftin dünya bazarlarına çatdırılması istiqamətində də onun müstəsna xidmətləri olmuşdur. Mən çox məmnunam ki, belə bir qərar qəbul olunmuşdur və Ceyhan terminalına Heydər Əliyevin adı veriləcəkdir. Bu çox düzgün qərardır və onun qəbul edilməsinə görə sizə öz minnətdarlığımı bildirmək istəyirəm.

Bu layihələr – həm Bakı–Tbilisi–Ceyhan, həm də "Şahdəniz" layihələri iqtisadi və siyasi cəhətdən böyük əhəmiyyətə malikdir. Çox sevindirici haldır ki, onlar artıq həyata keçirilir. Vaxtilə bu layihələr çoxlu maneələr, çətin məqamlarla qarşılaşmışdır. Bütün bunlara baxmayaraq, bizim iradəmiz və müştərək səylərimiz bunları gerçəyə çevirmişdir. Bir vaxt əfsanə kimi görünən bu layihələr artıq reallıqdır, gerçəkdir. Bu bir də onu göstərir ki, bölgədə bizim müştərək şəkildə həll edə bilməyəcəyimiz məsələ yoxdur. Bu gün ən çətin, ən çox vəsait, siyasi dəstək tələb edən layihələr həyata keçirilir və biz yaxın zamanlarda onların açılışında iştirak edəcəyik. Eyni zamanda, bu çox gözəl bir örnək, qonşu və qardaş ölkələrin əməkdaşlığı və bir-birinə yardım etmələri nümunəsidir. Əminəm ki, bu nümunə digərləri üçün də faydalı olacaq və ən önəmlisi ondadır ki, xalqlarımız bir-birinə daha yaxın olacaqlar.

Gələcəkdə bizi böyük işlər gözləyir. Ölkələrimiz inkişaf edir, iqtisadi cəhətdən güclənir, dünyada daha da möhkəm mövqe qazanırlar. Bunu ancaq alqışlamaq lazımdır. Mən çox sevinirəm ki, on il bundan əvvəl başlanılmış siyasət bu gün son nöqtəsinə gəlib çatır. Bu, böyük bayramdır və sabah biz bunu bir yerdə qeyd edəcəyik.

## BAKI BİZNES MƏRKƏZİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*2 fevral 2004-cü il*

Hörmətli sahibkarlar!

Hörmətli xanımlar və cənablar!

Bu gün Bakı Biznes Mərkəzinin açılışıdır. Mən bu münasibətlə sizin hamınızı ürəkdən təbrik edirəm. Bu çox əlamətdar bir hadisədir.

Müasir Azərbaycanın həyatında sahibkarlığa böyük əhəmiyyət verilir. Bu da təbiidir. Çünki ölkəmiz inkişaf edir, güclənir, ölkəmizdə bazar iqtisadiyyatı prinsipləri geniş miqyasda tətbiq olunur. Təbii ki, bu istiqamətdə işlər bundan sonra da aparılacaqdır.

Prezident Heydər Əliyev bu sahəyə çox böyük əhəmiyyət verir, çox böyük diqqət yetirirdi. Məhz onun rəhbərliyi altında Azərbaycanda 1993-cü ildən iqtisadi islahatlar aparılmağa başlandı. Məhz o islahatların nəticəsində ölkəmiz inkişaf etdi, Azərbaycanda sahibkarlar təbəqəsi yarandı. Təsadüfi deyil ki, Azərbaycanda bazar iqtisadiyyatının, demək olar, bütün prinsipləri öz əksini tapır.

Ümumiyyətlə, iqtisadi inkişaf baxımından ölkəmiz çox sürətlə irəliyə gedir. Əgər biz iqtisadi göstəricilərə baxsaq, görərik ki, son on il ərzində makroiqtisadi göstəricilər çox sürətlə artıbdır. Azərbaycana böyük həcmdə daxili və xarici sərmayə qoyulubdur. Azərbaycanda iqtisadiyyat üçün önəmli olan göstərici – ümumi daxili məhsul ildən-ilə artıbdır və son 6–7 il ərzində orta hesabla 10 faiz təşkil edibdir. Əhalinin pul gəlirləri artır. Bunlar və digər iqtisadi göstəricilər deməyə əsas verir ki, Azərbaycan iqtisadi baxımdan çox uğurla inkişaf edir.

İmzalanmış neft müqavilələrinin nəticəsində ölkəmizdə bütün sahələrdə böyük canlanma müşahidə olunur. Yeni iş yerləri açılır. Deyə bilərəm ki, – bu hamımız üçün yeni bir

məsələ deyil – adambaşına xarici sərmayə qoyuluşuna görə Azərbaycan MDB-də, Şərqi Avropada liderdir və bu ənənə davam edir. Hazırda dünyada energetika sektorunda ən böyük, ən irimiqyaslı layihə də Azərbaycanda həyata keçirilir. Azərbaycanın neft yataqlarının işlənilməsi, neft, qaz kəmərləri layihələri bir daha onu göstərir ki, xarici investorlarda inam var. Əgər onlarda inam olmasaydı, əlbəttə, Azərbaycana bu qədər sərmayə qoyulmazdı.

Bu inamı qazanmaq üçün Azərbaycan rəhbərliyi, şəxsən prezident Heydər Əliyev böyük səylər göstərmişdir. İnvestorları inandırmaq lazım idi ki, Azərbaycana sərmayə qoysunlar. Biz bu gün bunun nəticələrini görürük. Amma, eyni zamanda, bütün bu müsbət amillərlə yanaşı, problemlər də az deyildir. Biz bu problemləri aradan qaldırmaq üçün tədbirlər görəcək, proqramlar həyata keçirəcəyik.

Azərbaycanda iqtisadiyyat hərtərəfli inkişaf etməlidir. Düzdür, neft amili uzun illər ərzində hələ həlledici rola malik olacaqdır. Bu da təbiidir. Çünki qoyulan sərmayələr çox böyükdür və gələcəkdə gözlənilən mənfəətlər də çox böyükdür. Amma, eyni zamanda, əgər biz bu gün iqtisadiyyatımızın hərtərəfli inkişafına nail olmasaq, bu, ölkəmizi gələcəkdə çətin problemlərlə üz-üzə qoya bilər. Ona görə məqsədimiz budur ki, Azərbaycanda iqtisadiyyat hərtərəfli inkişaf etsin, təkcə Bakıda yox, bütün regionlarda bu inkişaf müşahidə olunsun. Mən əminəm ki, bu belə də olacaqdır.

Əlbəttə, bu istiqamətdə sahibkarların üzərinə böyük vəzifələr düşür. Azərbaycanda bazar iqtisadiyyatı prinsipləri tətbiq olunur. Bu o deməkdir ki, ölkəmizin gələcək inkişaf potensialını xeyli dərəcədə sahibkarlar yaradacaqlar. Baxmayaraq ki, indi iqtisadiyyatımızın ən gəlirli sahəsi olan neft sektoru dövlət inhisarındadır, ümumi daxili məhsulun formalaşmasında özəl sektorun payı 74 faiz təşkil edir. Bu onu göstərir ki, Azərbaycanda özəl sektor artıq tam mənada güclənibdir və inkişaf edir.

Azərbaycanda Heydər Əliyevin təşəbbüsü ilə aparılan genişmiqyaslı özəlləşdirmə proqramı uğurla həyata keçirilir.

Kənd təsərrüfatında, ticarətdə, nəqliyyatda, xidmət sektorunda və digər sahələrdə özəlləşdirmə, demək olar ki, başa çatıbdır. Bu sahələrdə özəl sahibkarlığın həcmi artıb, bəzi hallarda 100 faiz, bəzi hallarda 95 faiz təşkil edir.

Bir sözlə, Azərbaycanda son on il ərzində aparılmış düzgün iqtisadi siyasət ölkəmizi çox inkişaf etdiribdir. Ancaq, eyni zamanda, problemlər də mövcuddur. Azərbaycanda sosial problemlərin həllinə böyük diqqət göstərilir. Əgər belə olmasaydı, Azərbaycanın büdcəsi sosial xarakter daşımazdı. Baxmayaraq ki, bazar iqtisadiyyatı prinsipləri mövcuddur, eyni zamanda, büdcəyə nəzər salsaq görərik ki, büdcənin əksər hissəsi maaşlara, pensiyalara, müavinətlərə sərf olunur. Eyni zamanda, təhsilə, səhiyyəyə böyük həcmdə vəsaitlər ayrılır. Bu da təbiidir, biz bunu edəcəyik. Çünki sosial məsələlər daim diqqət mərkəzində olmalıdır.

Eyni zamanda, hamı bilməlidir ki, insanlarımıza dövlət tərəfindən çox böyük həcmdə gizli dotasiyalar da ödənilir. Xüsusilə energetika sektorunda. Azərbaycan hər il 200 milyon dollardan çox vəsait ödəyir ki, ölkəyə təbii qaz gətirilsin. Bu qaz əhaliyə, demək olar ki, pulsuz verilir. Min kubmetri 52 dollara alınan qaz Azərbaycanda əhaliyə 7 dollardan satılır. Heç bir başqa ölkədə belə hallara rast gəlinmir. Yeddi dolların da, demək olar, 30 faizi ödənilir.

Elektrik enerjisində də vəziyyət buna oxşardır. Düzdür, Azərbaycan neft hasil edən ölkədir. Amma bu neftin böyük hissəsi daxildə istehlak olunur, özü də çox aşağı qiymətə. Əgər biz daxildə istehlak olunan neft məhsullarını – bütün nefti və neft məhsullarını ixrac edə bilsəydik, bu, büdcəmizə əlavə olaraq minimum 300 milyon dollar gəlir gətirərdi. Bu vəsait də dotasiya şəklində, gizli formada əhaliyə ödənilir.

Mən bunu dövlətin nə dərəcədə yardımlar etdiyini göstərmək üçün demirəm. Sadəcə olaraq, bunu hamı bilməlidir. Bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf edən ölkədə hər şeyin real qiyməti olmalıdır. Azərbaycan da istisna deyil və əminəm

ki, bundan sonra aparılacaq siyasət və islahatlar bizə imkan verəcək ki, bu sahədə də qayda-qanun yaradılsın.

Biznes mühitinin yaxşılaşdırılması ən öncül məsələlərdən biridir. Əgər biz ölkəmizin hərtərəfli inkişafına nail olmaq istəyiriksə, biznes mühiti mütləq yaxşılaşdırılmalıdır. Sahibkarlara gözəl şərait yaradılmalıdır. Biz xarici sərmayəçilərə şərait yaradırıq, amma yerli şirkətlər bəzən əziyyət çəkirlər. Buna son qoyulmalıdır. Sahibkarlar təbəqəsi güclənməlidir. Çünki bu, ölkəmizin gələcəyidir. Bunsuz heç bir ölkə inkişaf edə bilməz. Mən əminəm ki, bu istiqamətdə görülən işlər bizə imkan verəcək ki, Azərbaycanın iqtisadiyyatı bundan sonra da uğurla inkişaf etsin.

Prezident Heydər Əliyev bu məsələyə çox böyük diqqət göstərirdi. Onun yerli və xarici sahibkarlarla görüşlərində də bu məsələlər təhlil olunmuşdur, vəzifələr qoyulmuşdur və bir çox məsələ öz həllini tapmışdır. Bu siyasət bundan sonra da davam etdiriləcəkdir.

Mən bu gün fürsətdən istifadə edirəm və məhz ona görə sahibkarlarla görüş keçirirəm ki, mövcud olan vəziyyəti bir daha təhlil edək, prioritetləri müəyyən edək və gələcək əməkdaşlıq haqqında fikir mübadiləsi aparaq. Eyni zamanda, bu görüşlə bir daha bütün cəmiyyətimizə, xüsusilə dövlət orqanlarına nümayiş etdirmək istəyirəm ki, mən sahibkarları dəstəkləyirəm, onlara öz siyasi dəstəyimi verirəm və bu məsələyə gələcəkdə çox böyük diqqət göstərəcəyəm.

Mənim tərəfimdən bu sahəyə aid imzalanmış fərmanlar icra olunacaq, Azərbaycanda regional proqramlar həyata keçiriləcək, iqtisadiyyatımızın gələcək inkişafı təmin ediləcəkdir. Əlbəttə, bütün bunlara nail olmaq üçün, ilk növbədə, sahibkarlara gərək lazımi şərait yaradılsın. Əgər biz qarşımızda böyük vəzifələr qoyuruqsa, yoxsulluqla mübarizə aparmaq, yeni iş yerlərinin açılmasına nail olmaq istəyiriksə, mütləq və mütləq dövlətlə özəl sektor çiyin-çiyinə işləməli, fəaliyyət göstərməli, bir-birinə kömək etməlidir, bir-birinə zərbələr vurmamalıdır.

Mən deyə bilərəm ki, dövlət tərəfindən qayğı daim göstəriləcəkdir. Amma, eyni zamanda, sahibkarlar tərəfindən də eyni yanaşmanı, eyni məsuliyyəti gözləyirəm. Sahibkarların vəzifəsi, təbii ki, öz bizneslərini inkişaf etdirmək, mənfəətə nail olmaq və beləliklə, idarə etdiyi şirkətləri daha da gücləndirməkdir. Bu təbiidir, təqdirəlayiqdir və bütün dünya bu qanunlarla işləyir. Ancaq, eyni zamanda, dövlətə düşən pay vergi şəklində vaxtlı-vaxtında ödənilməlidir və burada yol gərək ikitərəfli olsun.

Bir sözlə, hesab edirəm ki, bugünkü görüş hamımız üçün çox əhəmiyyətli olacaqdır. Mən həm öz fikirlərimi sizinlə bölüşməyə gəlmişəm, həm də ən önəmlisi, sizin fikirlərinizi eşitmək, bilmək istəyirəm. Ona görə burada çıxış edəcək şəxslərdən xahiş edirəm ki, problemləri olduğu kimi qoysunlar. Qarşımızda duran əsas məsələləri açıqlasınlar ki, biz birlikdə vəzifələri həyata keçirək və bütün problemləri aradan götürək. Mənim deyəcəyim hələlik bu qədər.

## YEKUN NİTQİ

Mən bugünkü fikir mübadiləsindən çox razıyam. Bu bizim ilk görüşümüzdür. Gələcəkdə də bu görüşlər keçiriləcəkdir.

Demək istəyirəm ki, burada səslənən bütün təkliflərə Nazirlər Kabinetində və İqtisadi İnkişaf Nazirliyində baxılmalıdır. Burada səslənən təkliflərin böyük əksəriyyəti bizə tanışdır, problemlər bizə tanışdır. Bu problemlər var. Düzdür, bu problemlərin həlli istiqamətində çox böyük işlər görülmüşdür. Sahibkarlara daha da böyük imkanlar yaradılmışdır, amma eyni zamanda, hələ demək olmaz ki, bu problemlər tamamilə aradan qaldırılmışdır.

Fərdi məsələlərə, yəni özəl məsələlərə gəldikdə, aidiyyəti orqanlardan tələb edirəm ki, bu məsələlərlə də məşğul olsunlar. Əgər sahibkar özü üçün ofis tikmək istəyirsə, yaxud yeni bir müəssisə yaratmaq istəyirsə, buna maneə törədilməməlidir.

Əksinə, dövlətin, hökumətin, icra orqanlarının vəzifəsi bundadır ki, onlara kömək göstərsinlər. Bu bizim siyasətimizdir. Amma bəzi hallarda kömək əvəzinə hətta çətinliklər törədilir.

Bir neçə məsələ ilə əlaqədar öz fikrimi bildirmək istəyirəm. Burada daxili bazarın qorunması məsələsi qoyuldu. Çox mühüm məsələdir. Azərbaycanın daxili bazarı, hələ ki, ölkədə istehsal edilən məhsullarla tam şəkildə təmin olunmur. Bu da təbiidir. Bunun təbii səbəbləri var. Çünki Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkədə yaşanan böhran – siyasi, hərbi və iqtisadi böhran iqtisadiyyatı tamamilə dağıtmışdı. Əlbəttə, daxili bazarı yerli məhsulla təmin etmək üçün istehsal olmalıdır. İstehsalı yaratmaq üçün investisiyalar olmalıdır. Onlar da, təbii ki, 1990-cı illərin ilk illərində lazımi səviyyədə yox idi. Ancaq Azərbaycanın iqtisadiyyatı inkişaf etməyə başlayandan sonra, Azərbaycanda siyasi sabitlik yaranandan sonra, ölkəyə böyük həcmdə xarici sərmayələr cəlb ediləndən sonra bu sahədə biz irəliləyişi müşahidə edirik.

Amma yenə də yerli istehsal bizim istədiyimiz səviyyəyə çatmayıb. Olan istehsalı biz gərək qoruyaq. Əlbəttə, bu məqsədlə Azərbaycanda istehsal olunan mallar gərək sərbəst şəkildə ölkəmizdə də istehlak olunsun. Bu məqsədlə buna oxşar malların idxalına da, əlbəttə ki, rüsumlar qoyulmalıdır. Bu, başqa ölkələrdə də var, bizdə də olmalıdır. Amma bu, məsələnin bir tərəfidir.

Tutaq ki, biz bunu etdik. Mən əminəm ki, etməliyik və edəcəyik. Amma heç kəs üçün sirr deyildir ki, bu gün Azərbaycanda gömrükdə qaçaqmalçılıqla mübarizə istənilən səviyyədə deyildir. Rəsmi qaydada gətirilən, daxil olan mallara rüsum tətbiq edilsə də, respublikamıza qaçaqmalçılıq yolu ilə gətirilmiş mallar yenə də yerli istehsala böyük ziyan vuracaqdır. Bu məsələ ilə əlaqədar ciddi tədbirlər görülməlidir. Qaçaqmalçılığa son qoyulmalıdır. Bunun kökü kəsilməlidir. Bu, Azərbaycanın iqtisadi inkişafına böyük zərbədir, biz bununla barışa bilmərik.

İnhisarçılıq məsələsinə gəldikdə isə, bunu iki yerə ayırmaq olar. İstehsal sahəsində mövcud olan inhisarçılıq, əlbəttə, xoşagələn hal deyil, amma bu, bir növ başadüşüləndir. Çünki Azərbaycan hələ ki, tam mənada öz iqtisadi potensialını işə sala bilməyibdir. Respublikamızın daxili bazarı müəyyən mənada məhduddur. Əlbəttə, əgər hansısa böyük şirkət burada investisiya qoyub böyük bir müəssisə yaradırsa, o, istər-istəməz inhisarçı olur. Amma, eyni zamanda, bizim təcrübəmiz də, burada bu gün gördüyüm sərgidə nümayiş olunan mallar da onu göstərir ki, hətta bizim üçün yeni olan sahələrdə də rəqabət artıq vardır.

Amma idxalda inhisarçılıqla, ümumiyyətlə, barışmaq mümkün deyildir. Nə üçün hansısa malların gətirilməsi hansısa bir qrup insanın inhisarında olmalıdır?! Bəzi hallarda o inhisarçı – əgər belə demək olarsa, şirkətlər – hansısa böyük vəzifəli şəxsin əhatəsindədir. Biz buna da dözməməliyik, yol verməməliyik. Xahiş edirəm ki, belə hallar haqqında – bunlar az deyil – mənə mütəmadi qaydada məlumat verilsin. Biz tədbir görəcəyik. Mən fürsətdən istifadə edərək belə işlərlə məşğul olan şəxslərə bildirmək istəyirəm ki, hələ ki, gec deyil, bu işlərdən əl çəksinlər.

Əlbəttə, Azərbaycanda iqtisadi inkişafa tam nail olmaq üçün lazımı səviyyədə kreditlər verilməlidir. Bank sistemi inkişaf etməlidir. Bizim kredit resurslarımız istənilən səviyyədə deyildir. Vəsaitlər azdır. Ona görə böyük həcmdə layihələrin həyata keçirilməsində çətinliklər yaranır. Dövlət büdcəsindən vəsait ayrılır. Amma o da təbiidir ki, dövlət istəyir bu, ədalətli paylansın, şirkətlərə ədalətli şəkildə verilsin. Belə olan halda verilən kreditlərin həcmi böyük olmur. Yəni istənilən səviyyədə olmur. Bu sahədə də biz tədbirlər görəcəyik.

Azərbaycanın maliyyə potensialı ildən-ilə artır, güclənir. Bizim Neft Fondumuzda yaranan vəsaitlər ildən-ilə artır və bu vəsaitin böyük hissəsi xarici banklarda çox aşağı faizlə saxlanılır. Beləliklə, biz istər-istəməz xarici iqtisadiyyatların inkişafına kömək etmiş oluruq. Düzdür, bu vəsaiti birdən-birə

ölkə iqtisadiyyatına sərmayə şəklində qoymaq düzgün siyasət olmazdı. İqtisadiyyatın öz qanunları var, bu, ümumiyyətlə, ölkəmizdə iqtisadi sabitliyin pozulmasına gətirib çıxara bilər. Amma, eyni zamanda, əgər bu vəsaitdən istifadə etsək, texniki-iqtisadi cəhətdən əsaslandırılmış layihələrə həmin vəsaitdən pul ayrılarsa, hesab edirəm ki, bizim iqtisadiyyatımız çox sürətlə inkişaf etməyə başlayar.

Regional layihələr həyata keçirilməlidir. Bu istiqamətdə proqram qəbul olunacaqdır. Bilirsiniz ki, mənim seçkiqabağı çıxışlarımda da bu məsələyə böyük diqqət yetirilmişdir. Hesab edirəm ki, Azərbaycanın uğurlu gələcəyi regionların inkişafı ilə bağlıdır. Bu sahəyə böyük diqqət göstərilməlidir. Yeni iş yerlərinin açılması regionlar üçün çox vacib məsələdir.

Vergi sistemində aparılan qeyri-qanuni yoxlamalar, xüsusilə uzunmüddətli yoxlamalar bizim biznesimizə böyük zərbə vurur. Uzunmüddətli yoxlama şirkəti iflic vəziyyətinə salır. Ondan sonra bəzi hallarda həmin şirkət özünə gələ bilmir. Bəzən bunu rəqabət naminə edirlər, onun kökündə başqa amillər də durur. Bunlara son qoyulmalıdır. Yoxlamalar hər bir ölkədə olduğu kimi aparılmalıdır. Amma onlar qərəzsiz aparılmalıdır. Onun kökündə başqa maraqlar olmamalıdır.

Burada Dövlət Yol Polisinin müdaxilələri haqqında fikir söylənildi. Tamamilə anlaşılmaz bir haldır, yol polisinin nə işinə qalıb ki, yerli yükdaşımalara müdaxilə etsin?! Buna son qoyulmalıdır. Ümumiyyətlə, gərək hüquq-mühafizə orqanlarının müdaxiləsi qanun çərçivəsində olsun. Bu məsələ ilə bağlı dəfələrlə müzakirələr aparılmışdır. Prezident Heydər Əliyev də sahibkarlarla görüşlərində və digər tədbirlərdə bu məsələ ilə bağlı dəfələrlə öz fikirlərini, iradlarını bildirmişdi. Amma görünür, bu, yaddan çıxarılır. Ona görə bildirmək istəyirəm ki, qeyri-qanuni hərəkətlərə son qoyulmalıdır. Hüquq-mühafizə orqanları sahibkarlara kömək etməli, şəxsi təmənna axtarmamalıdırlar.

Hüquqi şəxslərin qeydiyyatı haqqında demək istəyirəm ki, düzdür, Azərbaycanda bu istiqamətdə müsbətə doğru

dəyişikliklər var. Amma istənilən səviyyədə deyil. Xarici ölkələrdə bir şirkəti yaratmaq üçün bir-iki gün vaxt lazımdır. Bizdə isə bəzən həftələr, aylar tələb olunur. Ona görə hesab edirəm ki, biz bu məsələyə də öz münasibətimizi bildirməliyik. Bu məsələ Azərbaycanda maksimum bir-iki gün ərzində həll olunmalıdır. Bunun üçün hansı əməli-praktiki tədbirlər görmək lazımdırsa, mənə deyərsiniz, biz bunu edərik.

Lisenziyalaşdırma məsələsi istiqamətində də müsbət dəyişikliklər var. Keçmişdə 240 lisenziya olduğu halda, indi bu rəqəm 30-a endirilmişdir. Amma yenə də baxmaq lazımdır. Ümumiyyətlə, bizim iqtisadiyyatımız bazar iqtisadiyyatı prinsipləri əsasında qurulur və liberallaşma da aparılır. Əlbəttə, bu liberallaşmanın nəticəsində lisenziyaların sayı da, yəqin, azalacaqdır.

Burada digər məsələlər də səsləndi. Eyni zamanda, bəzi məsələlər haqqında burada, demək olar ki, deyilmədi. Halbuki məndə məlumat var, məhkəmə sistemində vəziyyət çox acınacaqlıdır. Bu sistemdə olan qeyri-qanuni hərəkətlər artıq heç kəs üçün sirr deyil. Qərarlar hansısa yanlış əsaslarla verilir, qanunlar təhrif olunur və ədalətsiz qərarlar qəbul edilir. Rüşvətxorluq mövcuddur.

Biz hamımız bunu bilirik. Bəlkə də bizim ilk görüşümüzdür deyə, siz bu məsələləri daha kəskin şəkildə qoymursunuz. Amma mən istəyirəm ki, bu məsələlər haqqında biz açıq fikir mübadiləsi aparaq. Bu məsələlərə son qoyulmalıdır. Düzdür, mübarizə aparmaq çox çətindir. Bütün dünyada bu bəla ilə mübarizə istənilən səmərəni vermir. Amma bu mübarizə hər gün aparılmalıdır. Əminəm ki, əgər biz bu bəla ilə mübarizəni birgə aparsaq, onda istədiyimizə nail ola bilərik.

Burada qeyd olundu ki, Azərbaycanın iqtisadiyyatında sahibkarların payı həlledicidir, 74 faiz təşkil edir. Təbii ki, keçmişdə mərkəzi və yerli icra orqanları dövlət müəssisələri ilə iş qururdular, dövlət müəssisələrini sıxışdırırdılar. Onlardan hansısa qeyri-qanuni imtiyazlar umurdular. İndi isə bütün bu yük sahibkarların üzərinə düşür.

Biz sahibkarları qorumalıyıq. Bu mənim mövqeyimdir, mənim siyasətimdir. Məni eşidən bütün icra hakimiyyəti orqanlarının nümayəndələri də bilməlidir ki, bu sahədə ciddi dönüş yaranmalıdır. Mən hələlik heç kimin adını çəkmək istəmirəm. Heç bir konkret tədbir haqqında bir şey demək istəmirəm. Amma hesab edirəm ki, bu müzakirədən sonra hərə öz payını götürməlidir və bunu birinci xəbərdarlıq kimi qəbul etməlidir.

Digər məsələlər də var. Amma vaxt keçir. Vaxtınızı çox da almaq istəmirəm. Bir sözlə, bir də demək istəyirəm ki, bu sahədə əldə olunmuş uğurlar bizi çox sevindirir. Azərbaycanda sahibkarlar təbəqəsi yaranıb, formalaşıbdır. Düzdür, hələ ki, güclü deyil, zəifdir. Amma getdikcə güclənəcəkdir. Bunun üçün bütün imkanlar var. Azərbaycanın gözəl iqtisadi potensialı var. Azərbaycanın gözəl gələcəyi var. Azərbaycanda sabitlik var. Azərbaycanda gözəl insani potensial var, çox peşəkar insanlar var. Əlbəttə, siyasi iradə də var.

Əgər biz hamımız, hərə öz yerində bu istiqamətdə vahid bir komanda kimi çalışsaq, əminəm ki, yaxın zamanlarda Azərbaycanda sahibkarların qarşısında heç bir problem olmayacaqdır.

Mən bu məsələ ilə şəxsən tanışam. Mən özüm keçmişdə sahibkar olmuşam. Ona görə bütün bu məsələlər – bunun müsbət tərəfləri də, mənfi tərəfləri də mənə tanışdır. Bunlar mənim həyatımda da olubdur. Ona görə mən sizi yaxşı başa düşürəm. Buna görə də mən çalışacağam ki, sizə maksimum dərəcədə sərbəstlik verilsin. Maksimum dərəcədə imkanlar yaradılsın ki, siz sərbəst, azad, rahat şəkildə öz fəaliyyətinizi davam etdirəsiniz.

Mən bugünkü görüşdən məmnunluğumu bildirirəm. Sizə öz təşəkkürümü bildirmək istəyirəm. Düzdür, mən söhbəti daha açıq gözləyirdim. Amma nəzərə alsaq ki, bu ilk görüşdür, hesab edirəm, indiki səviyyədə qənaətbəxş hesab etmək olar. Sizə uğurlar arzulayıram. Hamı da bilməlidir ki, Azərbaycan prezidenti sahibkarları dəstəkləyir, onlara inanır. Siz də mənə

həmişə arxalana bilərsiniz. Bütün xoşagəlməz hallar haqqında mənə birbaşa məruzə edə bilərsiniz. Bir daha sağ olun, təşəkkür edirəm.

* * *

Görüş başa çatdıqdan sonra jurnalistlərə müsahibə

**S u a l: Cənab Prezident, sabah Bakı–Tbilisi–Ceyhanla əlaqədar imzalanacaq müqavilə haqqında nə deyə bilərsiniz?**

**C a v a b:** Sabahkı hadisə Azərbaycan tarixində böyük hadisədir. On il bundan əvvəl imzalanmış "Əsrin müqaviləsi"nin məntiqi nəticəsidir. Bakı–Tbilisi–Ceyhanın maliyyə məsələləri tamamlanır.

**S u a l: Cənab Prezident, iş adamları ilə görüşdən hansı təəssüratlarla ayrılırsınız?**

**C a v a b:** Təəssüratlar yaxşıdır, müsbətdir. Mən bu görüşü çoxdan planlaşdırırdım. Onlarla çoxdan görüşmək istəyirdim. Sahibkarlarla bu formatda, demək olar ki, ilk görüşümdür. Müəyyən təkliflər səsləndi, fikirlər irəli sürüldü. Bunların hamısı təhlil ediləcək və gələcək fərmanlarda, sərəncamlarda öz əksini tapacaqdır. Məqsədimiz ondan ibarətdir ki, sahibkarlar üçün daha da yaxşı şərait yaradılsın.

**S u a l: Sahibkarlarla bağlı hansı ciddi problemlər Sizi bu görüşü keçirməyə vadar etdi?**

**C a v a b:** Xeyr, belə demək olmaz. Mən bu görüşləri bundan sonra da mütəmadi olaraq davam etdirəcəyəm. Çünki sahibkarlar mənim dəstəyimi daim hiss etməlidirlər. Ümumiyyətlə, onlara bəzi hallarda problem yaradanlar da bunları bilməlidirlər. Əgər onlar mənim dəstəyimi hiss etməsələr, sahibkarların vəziyyəti daha da çətinləşə bilər. Əlbəttə ki, konkret məsələlər də var, konkret faktlar da var. Mənim də bu faktlardan xəbərim var. Biz bu məsələyə qlobal şəkildə baxmalıyıq. Eyni zamanda, fərdi qaydada.

**S u a l: Cənab Prezident, görüşdə ciddi qanun pozuntuları ilə bağlı konkret faktlar səsləndi, xüsusilə Binəqədi rayonu ilə bağlı hansı tədbirlər görüləcəkdir?**

**C a v a b:** Artıq Hacıbala Abutalıbova göstəriş verilibdir. Məsələ araşdırılmalıdır. Bundan sonra tədbirlər görüləcəkdir. Əlbəttə, qanun pozulursa və kim bu qanunu pozursa, öz cəzasını alacaqdır.

**S u a l: Cənab Prezident, yüngül sənayenin və kənd təsərrüfatının inkişafında sahibkarlığa hansı şərait yaradılır?**

**C a v a b:** Bununla bağlı xüsusi proqram qəbul ediləcəkdir. Bu, Azərbaycanın regional inkişafına dair proqram olacaqdır. Proqramda hər bir şey nəzərdə tutulacaqdır. Proqram bəyanat olmayacaq, daha çox real iş qrafikinə bənzəyəcəkdir. Biz ancaq bu yolla irəliləyişə nail ola bilərik. Çünki burada maliyyə məsələləri öz əksini tapmalıdır. Əgər qanunvericilik bazası yoxdursa, o da yaradılmalıdır. Həmçinin texniki baza yaradılmalıdır. Traktorların çatızmazlığı da problemdir. Yəni, bunlara kompleks şəkildə baxılacaqdır. Sağ olun.

## BAKI–TBİLİSİ–CEYHAN LAYİHƏSİNİN MALİYYƏLƏŞDİRİLMƏSİ İLƏ ƏLAQƏDAR SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏ NİTQ

*3 fevral 2004-cü il*

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Düz on il bundan əvvəl, 1994-cü il sentyabrın 20-də bu salonda Azərbaycanın gələcəyi üçün böyük əhəmiyyət kəsb edən "Əsrin müqaviləsi" imzalanmışdır. Bu müqavilə Azərbaycanın gələcək inkişafı üçün çox mühüm rol oynamışdır. Həmin müqavilədən sonra Azərbaycanda Heydər Əliyevin neft strategiyası həyata keçirilməyə başlanmışdır. On il ərzində aparılan bu strategiya ölkəmizə böyük uğurlar gətiribdir. Azərbaycan iqtisadi cəhətdən güclənmiş, öz müstəqilliyini daha da möhkəmləndirmişdir. İndi ölkəmizin iqtisadi inkişafı uğurla davam edir. Azərbaycanın bütün iqtisadi göstəriciləri onu göstərir ki, ölkəmiz inkişaf edir, güclənir və bu ənənə davam edəcəkdir.

1994-cü ildə Azərbaycan çox çətin vəziyyətdə idi. Azərbaycan müharibədən təzə çıxmışdı. Ermənistan silahlı qüvvələrinin işğalçı siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal altına düşmüşdü. Bir milyondan artıq vətəndaşımız qaçqın-köçkünə çevrilmişdi. O vaxt ölkədə sabitlik hələ tam bərqərar olunmamışdı. Ümumiyyətlə, ölkədəki vəziyyəti böhran kimi dəyərləndirmək mümkün idi. Məhz o çətin vəziyyətdə, o çətin anlarda Azərbaycan rəhbərliyinin və şəxsən prezident Heydər Əliyevin müdrikliyi, uzaqgörənliyi və siyasi iradəsi nəticəsində Azərbaycana böyük həcmdə investisiyaların cəlb edilməsi mümkün olmuşdur.

O vaxt investorları inandırmaq üçün böyük səylər göstərilmişdir. Bu gün vəziyyət tam başqadır. Bu gün Azərbaycan

investisiyanın qoyulması baxımından keçmiş sovet respublikaları arasında liderdir. Adambaşına düşən birbaşa xarici investisiyaların həcminə görə bəzi Şərqi Avropa ölkələrini də qabaqlayıbdır. Ancaq o vaxt vəziyyət tamamilə başqa idi.

O vaxt investorları inandırmaq lazım idi ki, Azərbaycan xarici investisiyalar üçün məqbul yerdir, bu investisiyalar qorunacaqdır. Bu belə də oldu və son on il ərzində bütün beynəlxalq ictimaiyyət, bizimlə bir yerdə bu irimiqyaslı layihələri həyata keçirən şirkətlər bir daha əmin oldular ki, Azərbaycanda onların sərmayələri lazımi səviyyədə qorunur. Bu inamı qazanmaq üçün illər lazım idi. Amma bu inamı itirmək üçün bir yanlış addım da kifayət idi. Bu yanlış addım Azərbaycanda atılmadı. Çünki bütün bu proseslər şəxsən prezident Heydər Əliyevin nəzarəti altında idi.

1994-cü ildən başlayaraq Azərbaycan öz neft-qaz yataqlarının işlənilməsində böyük uğurlar əldə etmişdir. Xəzər dənizinin Azərbaycan sektorunda böyük işlər görülmüşdür. Azərbaycana milyardlarla dollar investisiya qoyulmuş və 1997-ci ildə "Çıraq" yatağından ilkin neft hasil olunmuşdur. Bakı–Novorossiysk, Bakı–Supsa neft kəmərləri istismara verilmişdir ki, bu da Azərbaycan neftinin dünya bazarlarına çıxarılmasında əhəmiyyətli rol oynamışdır. Əlbəttə, bizim hamımızın arzusu, istəyi, məqsədi onda idi ki, Azərbaycanda böyük ixrac neft kəməri tikilsin ki, o da, öz növbəsində, bizə böyük həcmdə neftin hasilatına nail olmağa imkan versin. Bu indi baş verir.

Bakı–Tbilisi–Ceyhan neft kəmərinin inşası uğurla aparılır. Demək olar ki, biz hazırda işlərin səmərəliliyini görürük. İşlərin təxminən 50 faizi artıq görülmüşdür. Əminik ki, yaxın zamanlarda Bakı–Tbilisi–Ceyhan neft kəməri istismara veriləcəkdir.

Bu gün isə bu layihənin maliyyələşməsi istiqamətində mühüm bir addım atılır. Beynəlxalq maliyyə qurumları bu layihəyə öz dəstəyini vermiş olurlar. Dünyanın aparıcı maliyyə qurumları tərəfindən verilən bu dəstək həm Bakı–Tbilisi–

Ceyhan layihəsi üçün, həm də gələcəkdə digər layihələr üçün də böyük əhəmiyyət kəsb edir.

Bu gün bizim birgə fəaliyyətimizin, elə bil ki, son mərhələsidir, son nöqtəsidir. Bu uğurlar yalnız bizim hamımızın vahid komanda kimi fəaliyyət göstərəcəyimiz təqdirdə mümkün idi. Bu da baş verdi. Azərbaycan Dövlət Neft Şirkəti ilə bp şirkətinin rəhbərliyi və liderliyi nəticəsində bu vahid komanda qarşıda duran bütün məsələlərə nail oldu. Azərbaycan bütün dünyaya nümayiş etdirdi ki, burada əməkdaşlıq öz bariz nəticələrini verir.

Bu müqavilələrin icrasında çətinliklər də az deyil, qarşımızda süni şəkildə yaradılmış maneələr də az deyildi. Çətin vəziyyətdə, xüsusilə 1994–1996-cı illərdə müqavilələr üçün real təhlükələr yaranmışdı. Amma Azərbaycan rəhbərliyinin və şəxsən prezident Heydər Əliyevin qətiyyəti, beynəlxalq neft şirkətlərinin inamı və dünya ictimaiyyətinin dəstəyi bizə imkan verdi ki, bütün bu çətinliklərə baxmayaraq istədiyimizə nail ola bilək. Bir daha bütün dünyaya sübut edək ki, Azərbaycan öz siyasətini müstəqil şəkildə aparır. Azərbaycan xalqının milli maraqları qorunur və heç kim, heç bir qüvvə bizi bu yoldan çəkindirə bilməz.

Bu müqavilənin həyata keçirilməsi regional əməkdaşlıq nöqteyi-nəzərdən çox əhəmiyyətlidir. Bu, üç ölkənin xarici neft şirkətlərinin, 30-dan yuxarı beynəlxalq maliyyə qurumlarının vahid məqsədə necə nail ola bilməsinə çox gözəl nümunədir. Türkiyə, Gürcüstan, Azərbaycan rəhbərlərinin səyi nəticəsində bu layihə həyata keçirilir. Əfsanə gerçəyə çevrilir. Mən əminəm ki, qardaş Türkiyə ilə, qardaş Gürcüstanla bizim əlaqələrimiz bundan sonra daha da inkişaf edəcək və Bakı–Tbilisi–Ceyhan neft kəməri bu istiqamətdə öz mühüm rolunu oynayacaqdır. Bizim ölkələrimiz, xalqlarımız bir-birinə daha yaxın olacaqdır.

Gələcəkdə bizim böyük planlarımız var, böyük arzularımız var. Gələcəkdə Azərbaycanın neft-qaz yataqlarından səmərəli şəkildə istifadə olunacaqdır. "Şahdəniz" layihəsinin həyata keçirilməsi məsələsi gündəlikdə durur. Mən əminəm ki, biz

buna da nail olacağıq. Bizim hamımızın məqsədi ondan ibarətdir ki, xalqlarımız bu layihələrdən fayda götürsün. Mən əminəm ki, belə də olacaqdır. Artıq bu baş veribdir. Minlərlə yeni iş yerləri açılıbdır. On minlərlə insanımız maddi fayda əldə etmişlər və bu proses davam edəcəkdir.

Azərbaycanda prezident Heydər Əliyevin sərəncamı ilə yaradılmış Dövlət Neft Fondunun fəaliyyəti çox səmərəlidir. Bu fondda yığılan vəsaitlər şəffaf şəkildə saxlanılır və Azərbaycanın ən ağır problemi olan qaçqınların və məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılmasına sərf edilir. Mən əminəm ki, Dövlət Neft Fondunda gələcəkdə yığılacaq vəsaitlər də bu məqsədlərə sərf olunacaqdır. Azərbaycanın iqtisadi-sosial problemlərinin həlli istiqamətində bu vəsaitlər ölkəmizə kömək edəcəkdir.

Əziz dostlar!

Bu gün müasir Azərbaycan tarixində çox əlamətdar bir gündür. Bu gün Azərbaycanın gələcək potensialını böyük dərəcədə müəyyən edəcək Bakı–Tbilisi–Ceyhan ixrac neft kəmərinin maliyyə məsələlərinin son nöqtəsidir. Mən bu gündə sizin hamınıza uğurlar arzulayıram. Arzulayıram ki, yaxın zamanlarda Bakı–Tbilisi–Ceyhan neft kəmərinin açılış mərasiminə toplaşaq, onun istismara verilməsini də böyük təntənə ilə qeyd edək. Mən əminəm ki, biz bu məqsədlərə nail olacağıq, Azərbaycanı daha da gücləndirəcəyik. Bu bizə imkan verəcək ki, regionda mövcud olan əməkdaşlıq daha da güclənsin və qonşu, qardaş ölkələrlə birlikdə biz qarşımızda duran bütün məqsədlərə çata bilək.

Bu mühüm hadisə münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm. Sizin hamınıza cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

## İTALİYANIN AVROPA ŞURASINDAKI DAİMİ NÜMAYƏNDƏSİ, AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN "AQO" MONİTORİNQ QRUPUNUN RƏHBƏRİ PYETRO ERKOLE AQONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*3 fevral 2004-cü il*

**İ l h a m Ə l i y e v:** Sizi səmimi-qəlbdən salamlayıram. Qeyd edim ki, Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsindən artıq 3 il keçmişdir. Bu müddət ərzində Azərbaycan Respublikasının nümayəndələri Strasburqa çoxsaylı səfərləri zamanı bu mötəbər Avropa qurumunda maraqlı görüşlər keçirmiş, məzmunlu müzakirələr aparmış, eləcə də Avropa Şurasının nümayəndələri dəfələrlə Azərbaycanda olmuş, müxtəlif məsələlərlə bağlı monitorinq keçirmişlər. Məhz bu təmaslar sayəsində Azərbaycanda qanunvericilik bazasının təkmilləşdirilməsi, demokratik təsisatların inkişaf edərək Avropa standartlarına uyğunlaşdırılması, insan hüquqlarının təmin olunması, demokratik prinsiplərin həyata keçirilməsi sahəsində irəliləyiş daim davam etmiş və ölkəmiz Avropa Şurasına üzv dövlətlər sırasında özünə layiq yer tutmuşdur.

Dövlətimizin başçısı daha sonra demişdir ki, Azərbaycan Respublikası eyni zamanda, regionda nəhəng layihələr həyata keçirir və regional əməkdaşlıq sayəsində böyük nailiyyətlər əldə etmişdir. Məhz indi respublikada siyasi, iqtisadi, qanunvericilik sahələrində həyata keçirilən islahatlar sayəsində dinamik iqtisadi inkişaf müşahidə olunur. Son dövrlərdə ümumi daxili məhsulun illik artımı orta hesabla 10 faizə bərabərdir və bu artım davam edir.

Beləliklə, Azərbaycan Respublikasının Avropa Şurası ilə səmərəli əməkdaşlığı ölkəmizin inkişafı üçün öz bəhrəsini verir. Azərbaycan gələcəyə böyük ümidlər bəsləyir və əmindir ki, Avropa Şurası ilə əməkdaşlıq bundan sonra faydalı olacaqdır.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində bir daha bəyan edirəm – Azərbaycanın mövqeyi qətidir.

**P y e t r o  E r k o l e  A q o:** Cənab Prezident, mən də Azərbaycanın Avropa Şurası ilə əməkdaşlığından məmnunam və bu əməkdaşlığın uğurları göz qabağındadır. Bəzi nöqsanların olmasına baxmayaraq, Azərbaycanda prezident seçkiləri yaxşı təşkil olunmuş və mütəşəkkil keçirilmişdir. Avropa Şurası nümayəndələrinin Azərbaycana səfərləri zamanı monitorinqlərin, görüşlərin və danışıqların məqsədi demokratik hüquqi dövlət qurmaqda Azərbaycana yardım göstərmək və bu istiqamətdə üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsinə kömək etməkdir.

Cənab Prezident, bu görüşə görə səmimi minnətdarlığımı bildirirəm. Sağ olun.

# ATƏT-in PARLAMENT ASSAMBLEYASI SƏDRİNİN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ QORAN LENMARKERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*4 fevral 2004-cü il*

**İ l h a m  Ə l i y e v:** Mən Sizi salamlayıram və bu görüşdən məmnun olduğumu bildirirəm. Sizin Bakıda keçirdiyiniz görüşlər çox əhəmiyyətlidir. ATƏT-in Parlament Assambleyasının regiondakı vəziyyətə, xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə böyük diqqət yetirməsini yüksək qiymətləndirirəm. Bu münaqişə uzun illərdir davam edir. Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğal olunması nəticəsində ölkəmizə böyük ziyan dəymiş, bir milyona yaxın insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş və onların çox çətin şəraitdə yaşadıqlarını diqqətinizə çatdırıram.

ATƏT-in Minsk qrupunun fəaliyyətinin hələlik səmərə vermədiyini təəssüflə vurğulayıram. Gələcəkdə bu qurumun fəaliyyətinin beynəlxalq normalar əsasında hansısa bir nəticə verəcəyinə ümidvar olduğumu da bildirirəm.

Bilirsiniz ki, danışıqlar prosesi davam edir, eyni zamanda, bildirim ki, münaqişənin həllində beynəlxalq ictimaiyyətin daha çox fəallıq göstərməsi də zəruridir. Bu prosesdə əsas vasitəçi olan ATƏT-in Minsk qrupu ilə yanaşı, digər beynəlxalq təsisatlar – ATƏT-in Parlament Assambleyası, Avropa Şurası, Avropa İttifaqı da səylərini artırmalıdır. Mənim fikrimcə, onların bu sahədə fəaliyyətinin gücləndirilməsi münaqişənin sülh yolu ilə həlli yollarının tapılmasında böyük əhəmiyyətə malikdir.

**Q o r a n  L e n m a r k e r:** Səmimi qəbula görə təşəkkürümü bildirirəm. Cənab Prezident, biz ilk dəfə Azərbaycana səfər etmiş və vəziyyətlə yaxından tanış olmuşuq. Mən qaçqınlar və məcburi köçkünlərlə görüşlərimiz zamanı bu insanların münaqişənin tezliklə həlli üçün beynəlxalq təşkilatların səylərinin artırılması barədə ciddi tələblərini eşidir, bu məsələdə beynəlxalq normalara əməl edilməsi və ikili standartlara son qoyulması barədə dedikləri fikirlərlə razı olduğumuzu bildirirəm.

Mən Avropa strukturlarının münaqişənin həllində, regionda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsində səylərinin artırılmasının zəruriliyi haqqında Sizin fikirləriniz ilə tam razıyam. Bilirsiniz ki, Avropa İttifaqı Şərqi Avropada təhlükəsizlik məsələlərinə böyük əhəmiyyət verir.

Onu da söyləyim ki, Türkiyənin Avropa İttifaqına üzv olması ilə əlaqədar fəal iş aparılır və Avropa strukturlarının gələcəkdə Cənubi–Şərqi Avropadakı mövcud problemlərin həllinə də diqqəti artırılacaqdır. Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparıldı.

## MOSKVAYA İLK RƏSMİ SƏFƏR ƏRƏFƏSİNDƏ "İZVESTİYA"nın XÜSUSİ MÜXBİRİ OLEQ SİQANOVA VERDİYİ MƏXSUSİ MÜSAHİBƏ

*4 fevral 2004-cü il*

**– Son vaxtlar Rusiyanın xarici siyasətində regional problemlərə diqqət artmışdır. Azərbaycan–Rusiya münasibətlərində nə – siyasət, yoxsa biznes üstünlük təşkil edir? Siz Rusiya firmalarının Azərbaycanın energetika bazarına doğru irəliləməsinə necə baxırsınız?**

– İqtisadi əlaqələrin uğurlu inkişafı üçün əla baza – Rusiya və Azərbaycan rəhbərliyi arasında siyasi qarşılıqlı anlaşma mövcuddur. Münasibətlərin səviyyəsi çox yüksəkdir. Onların təməlini prezidentlər Vladimir Putin və Heydər Əliyev qoymuşlar. Mən isə öz tərəfimdən bunun inkişaf etdirilməsi üçün bütün işləri görəcəyəm. Mən Vladimir Vladimiroviç Putinlə artıq dəfələrlə görüşmüşəm, ikitərəfli münasibətlər və regional problemlər barəsində bizim aramızda tam qarşılıqlı anlaşma var. Bax, siz Rusiya şirkətləri mövzusuna toxundunuz. Onlar Azərbaycanda bir çox energetika layihələrində iştirak edirlər. İndi Azərbaycan nefti Rusiya vasitəsilə nəql olunur. Azərbaycana Rusiyadan qaz gəlir. Əmtəə dövriyyəsi ildən-ilə çox böyük sürətlə artır, əminəm ki, gələcəkdə daha da artacaqdır. Rusiya və Azərbaycanın iqtisadiyyatları ildən-ilə daha da möhkəmlənir, bu, əmtəə dövriyyəsinin artması üçün yaxşı potensial yaradır. 2000-ci ilədək olan dövrü yada salsaq, görərik ki, onda energetikada da, boru kəməri siyasətində də, Xəzərlə bağlı sahədə də və digər sahələrdə də çoxlu problem vardı və onlar həllolunmaz hesab edilirdi. Amma biz onların hamısını həll etdik. İndi Rusiya ilə Azərbaycan arasında problemlər yoxdur. Müxtəlif fikirlər doğuran mübahisəli problemlər qətiyyən yoxdur. Rusiya bizim üçün strateji

tərəfdaşdır. Bu, Heydər Əliyevin mövqeyi idi və mənim də mövqeyimdir.

**– Cənab Prezident, Rusiyanın Qafqazda indiki siyasəti Sizi qane edirmi? Ümumi mənafelərimiz nədədir?**

– Mən ikitərəfli münasibətlər mövzusu çərçivəsindən kənara çıxmaq və Rusiyanın digər ölkələrlə münasibətlərini qiymətləndirmək istərdim. Qafqazda sabitlik və sülh Rusiyaya və Azərbaycana eyni dərəcədə gərəkdir. Rusiya belə sabitliyə nail olmaq üçün böyük səylər göstərir. Dağlıq Qarabağ münaqişəsi üzrə qrupun vasitəçilik missiyası çərçivəsində də, Cənubi Qafqaz regionundakı digər ağrılı-acılı məsələlər barəsində də. Qafqaz nadir bir regiondur. Təəssüf ki, planetin bu kiçik guşəsi o qədər problemlərlə, o qədər müharibələrlə qarşılaşmış, burada o qədər qanlar tökülmüşdür ki.

**– Siz tez-tez deyirsiniz ki, Xəzər sülh zonası olmalıdır. Bəs Qafqazı sülh zonasına necə çevirmək olar? Axı Dağlıq Qarabağda Ermənistan–Azərbaycan münaqişəsi, Gürcüstanda Acarıstan, Abxaziya, Cənubi Osetiya, Rusiyada Çeçenistan. Qafqazı yaxın gələcəkdə sülh zonasına çevirmək mümkündürmü?**

– Bu çox ciddi problemdir. Yəqin ki, onun həllinin çox variantları olacaqdır. Ən başlıcası isə odur ki, hər bir ölkə öz işləri ilə məşğul olsun və bir-birinə əngəl törətməsin. Dünyada çox müsibətlər ona görə baş verir ki, bəzi ölkələr başqalarının işlərinə qarışırlar. Məsələn, Dağlıq Qarabağ problemi Azərbaycanın daxili işidir. Çeçenistan məsələsi Rusiyanın daxili işidir. Abxaziya məsələsi Gürcüstanın işidir. Lakin kənar qüvvələr – bizim qarşılaşdığımız vəziyyətdə, bu Ermənistandır – peyda olduqda, belə münaqişə ocaqları alovlanır.

**– Sizin Rusiyaya səfəriniz Fransaya uğurlu səfərdən dərhal sonra olacaqdır. Fransaya səfər Azərbaycanın Avropa strukturlarına inteqrasiya sahəsində səylərini kəskin şəkildə gücləndirdiyini göstərən sübutlardan biri oldu. Bununla əlaqədar ölkənin strateji məqsədləri necədir?**

**Azərbaycan gələcəkdə Avropa Birliyinə daxil olmaq məsələsini qaldırmağa hazırdırmı?**

– Biz bu məsələni Avropa Birliyinə daxil olmağa hazır olduqda qaldıracağıq. Avropa Birliyinə inteqrasiya xəttimiz dəyişməzdir. Bu nə vaxt baş verə bilər? Buna cavab vermək hələlik çətindir, lakin biz Avropa Birliyinə daxil olmağın mümkünlüyünü mütləq nəzərdən keçirəcəyik. Bu, siyasi cəhətdən bizim üçün çox vacibdir.

**– Demək olar, bütün keçmiş sovet respublikaları NATO ilə bu və ya digər şəkildə əməkdaşlıq edirlər. Bəziləri – məsələn, Ukrayna və Gürcüstan – alyansa daxil olmağın mümkünlüyü barədə məsələ qaldırmışlar. Azərbaycan uzaq gələcəkdə NATO-ya daxil olmağı planlaşdırırmı?**

– Bir çox MDB ölkələri kimi, biz də "Sülh naminə tərəfdaşlıq" proqramında iştirak edirik. Dəfələrlə seminarlar, sessiyalar keçirmişik, NATO-nun təlimlərini və NATO-nun birgə Amerika–Azərbaycan təlimlərini dəstəkləyirik. Lakin indi mən alyansa daxil olmağımız mövzusunu müfəssəl müzakirə etmək istəmirəm, bu, gələcəyin mövzusudur, bu barədə danışmaq hələlik tezdir. Bunun vaxtı deyil. Belə qərar qəbul etməzdən əvvəl, hər şeyi ciddi şəkildə ölçüb-biçmək və nəzərdən keçirmək lazımdır. Bu qərarı ətraflı götür-qoy etmək, ən sərfəli yolları müəyyənləşdirmək gərəkdir. Bir halda ki, hələlik bu barədə ciddi müzakirələr aparılmır, deməli, bu mövzuda söhbət etmək də tezdir. Mən tələsmək istəməzdim.

**– ABŞ-ın keçmiş SSRİ məkanında fəallığı artır. Buna Rusiyada münasibət birmənalı deyildir: bəzi siyasətçilər hesab edirlər ki, "soyuq müharibə" dövrü arxada qalmışdır, ona görə də Amerika ilə əməkdaşlığı qaydaya salmaq olar, digərləri isə "ABŞ-ın müdaxiləsi"nin qəti əleyhinə çıxaraq, MDB-ni "Rusiyanın xüsusi mənafeləri" zonası hesab edirlər. Sizin fikrinizcə, ABŞ Qafqazdakı münaqişələrin nizama salınmasında nə kimi rol oynaya bilər?**

– Dağlıq Qarabağ üstündə Ermənistan–Azərbaycan münaqişəsi diqqət mərkəzimizdə qalmaqdadır. Amerika və Rusiya Dağlıq Qarabağda münaqişənin nizama salınması üzrə qrupun həmsədrləridir. ABŞ, Rusiya və Fransa bu məsələnin məqbul həlli yolunun tapılmasına birgə yanaşmalıdırlar. Ümidvarıq ki, onların fəaliyyəti beynəlxalq hüquq normalarının təntənəsinə gətirib çıxaracaqdır. Onlar Azərbaycanın işğal olunmuş torpaqlarının qaytarılması üçün problemin nizama salınmasına kömək etməlidirlər. Biz Ermənistanla düşmənçilik yox, əməkdaşlıq etmək istərdik.

**– Siyasət – kompromislərə getmək məharətidir. Siz Fransaya səfəriniz zamanı vurğulamışdınız ki, Qarabağ probleminin həlli tamamilə Ermənistan rəhbərliyinin işğal olunmuş əraziləri tərk etmək iradəsindən asılıdır. Münaqişənin mərhələ-mərhələ nizama salınması təqdirində, siz kompromisə gedə bilərsinizmi? Sizcə, Qarabağ münaqişəsinin nizama salınmasının gücləndirilməsi üçün Rusiya nə edə bilər? Siz bu məsələləri Putinlə müzakirə edəcəksinizmi?**

– Ümidvaram ki, Moskvaya səfərimin gedişində bu məsələlərə toxunulacaqdır. Hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normaları var, onlar həyata keçirilməlidir. İkili standartlar olmamalıdır. Siyasi konyunkturadan asılılıq olmamalıdır. Ermənistanın təcavüzkar olması, bizim ərazilərimizi işğal etməsi faktdır. Bu təcavüzə son qoyulmalıdır. Biz hər hansı dövlətin ərazi bütövlüyünün qorunub saxlanılmasına tərəfdarıq. Lakin istəyirik ki, bizim ərazi bütövlüyümüzə də riayət edilsin. Bu hansısa sövdələşmənin, danışıqların və söhbətlərin mövzusu ola bilməz. Biz ərazilərimizi qaytarmalı və Dağlıq Qarabağ münaqişəsini dinccliklə nizama salmalıyıq.

**– Siz Putinlə görüşün yekunlarından da bunu gözləyirsinizmi?**

– Düşünürəm ki, biz bu mövzunu mütləq müzakirə edəcəyik. Mən bu mövzunu Fransa prezidenti ilə də, Minsk qrupunun digər həmsədri ilə də müzakirə etmişəm. Ən başlıcası odur ki,

Minsk qrupu müşahidəçilər qrupuna çevrilməsin. Elə müşahidəçilər olur ki, onlar heç bir qərar qəbul etmir, ancaq müşahidə edirlər. İstərdik ki, Minsk qrupu konstruktiv qərarlar qəbul etsin.

**– Avropa Şurası Parlament Assambleyasının qış sessiyasında – bu sessiyada Səməd Seyidov AŞ PA-nın büro üzvü seçilmiş və bu vəzifədə Sizi əvəz etmişdir – Dağlıq Qarabağ probleminə toxunulmuşdur. Necə bilirsiniz, Avropa Şurasının təsiri ilə indi bu problemin həlli nə dərəcədə irəliləyəcək? Avropa Şurasının bu problemə münasibətinin özü dəyişəcəkmi?**

– Dağlıq Qarabağ münaqişəsinin müzakirəsi gündəliyə bizim təkidimizlə daxil edilmişdir. Ermənistan tərəfi hər vasitə ilə buna mane olmağa cəhd göstərirdi. Lakin biz hər halda, bu məsələni Avropa Şurası Siyasi Komitəsinin gündəliyinə daxil etməyə nail olduq. Avropa Şurasının ən böyük qrupunun rəhbəri Terri Devis məruzəçini təyin etdi. Məruzəçi artıq Bakıda və Yerevanda olmuşdur. Onun səfərinin yekunlarına əsasən, müvafiq məruzə hazırlanır. Biz ümid edirik ki, məruzədə münaqişəyə siyasi qiymət veriləcəkdir. Ermənistan bir daha təcavüzkar, işğalçı ölkə kimi tanınmalıdır. Ermənistandan həmişə olduğu kimi, yenə də öz qoşunlarını Azərbaycan ərazilərindən dərhal çıxarmaq tələb edilməlidir. Biz çox böyük ümid bəsləyirik ki, Terri Devis obyektiv olacaq – mənim isə buna şübhə etməyə heç bir əsasım yoxdur – onun məruzəsində Ermənistan–Azərbaycan münaqişəsi barədə bütün həqiqət öz əksini tapacaqdır. Ermənistan tərəfi həmişə bu münaqişənin doğru-düzgün işıqlandırılmasından yayınmağa cəhd göstərir. Lakin bu gün, əslində, kimin işğalçı olduğunu hamı bilir.

**– Kütləvi qırğın silahlarının yayılması əleyhinə qlobal kampaniyanın gedişində İran Dünya Birliyinin diqqət mərkəzində oldu və tənqidinə məruz qaldı. Bu dövlətə qarşı sanksiyalar tətbiq edilə biləcəyi təqdirdə Azərbaycan buna necə reaksiya göstərəcək?**

– Fərziyyə irəli sürmək istəməzdim. İran bizim qonşumuzdur, onunla uzun sərhədimiz var, İranda çoxlu azərbaycanlı yaşayır. Biz İranla normal ikitərəfli əlaqələrin olmasını istəyirik. Heydər Əliyev 2002-ci ildə İranla dostluq münasibətləri yaratdı, bu münasibətlər inkişaf edəcəkdir. Biz qonşu ölkədə və bütövlükdə regionda sabitlik olmasında maraqlıyıq. Qeyri-sabitlik olmasını əsla istəməzdik.

**– Bu yaxınlarda keçirilən birgə Azərbaycan–Amerika hərbi dəniz təlimləri neft platformalarının təhlükəsizliyini təmin etmək məqsədi daşıyırdı. Bununla əlaqədar Xəzər dənizindəki mövcud geosiyasi vəziyyətə, Xəzəryanı ölkələrin öz hərbi dəniz qüvvələrini yaratmaqla bağlı atdıqları ilk addımlara münasibətiniz necədir? Məsələn, Qazaxıstan və Türkmənistan yanvar ayında özlərinin hərbi dəniz qüvvələrini yaratdıqlarını bəyan etmişlər. İran isə artıq neçənci ildir ki, dənizdə hərbi qüvvələrini artırmaqdadır. Rusiya Xəzər donanmasını fəal surətdə modernləşdirir. Bununla belə, Xəzəryanı dövlətlərin möhkəm beynəlxalq əməkdaşlığı sistemini yaratmaq zəruridir...**

– Azərbaycanda hərbi dəniz donanması sovet dövründən mövcuddur, Xəzər hərbi donanması var idi, o, sonradan Həştərxana köçürüldü. Bizim qarşımızda hərbi dəniz qüvvələrinin yenidən yaradılması məsələsi durur, biz onları modernləşdirəcəyik. Xəzər dənizi əməkdaşlıq meydanı olmalıdır. Xəzər dənizi regionunda silahların hər hansı şəkildə artırılmasının axırı heç də yaxşı olmayacaqdır. Üstəlik, Xəzər dənizinin bölünməsinə dair əhatəli saziş indiyədək imzalanmamışdır. Doğrudur, Azərbaycanla Rusiya, Azərbaycanla Qazaxıstan, Qazaxıstanla Rusiya arasında ikitərəfli sazişlər mövcuddur. Ümid etməliyik ki, digər qonşularımız da bu müsbət təcrübədən istifadə edərək həmin sazişlərdə əksini tapmış mövqelərə qoşulacaqlar. Xəzər dənizində silahların hər cür artırılması məsələsinə gəldikdə isə bu təhlükəlidir və məqsədəuyğun deyildir. Biz Xəzər dənizinin tamamilə silahsızlaşdırılmasının tərəfdarıyıq və köhnə, mehriban qonşularımızı bizim

mövqeyimizlə həmrəy olmağa çağırırıq. Xəzər dənizi sülh zonası olmalıdır.

**– Sizin Fransaya səfəriniz ATƏT-in Azərbaycanda demokratiyanın vəziyyəti haqqında yekun hesabatı ilə bir vaxta təsadüf etdi. Bir sıra iradlar irəli sürüldü. Siz daxili siyasətin bu cəhətinə nə kimi əhəmiyyət verirsiniz, ATƏT-in monitorinq qruplarının fəaliyyətini bəyənirsinizmi? Müasir Azərbaycanın problemlərinin həllində müxalifətin müsbət və mənfi rolunu nədə görürsünüz?**

– ATƏT-in məruzəsinə gəldikdə, deməliyəm ki, Azərbaycanda seçkiləri müxtəlif beynəlxalq təşkilatları təmsil edən mindən artıq əcnəbi müşahidəçi izləmişdir. Seçkilərdən dərhal sonra bu təşkilatlar tənqidi fikirlərlə yanaşı, seçkilərin nəticələrinin heç kimdə şübhə doğurmadığını bildirmişdilər, onlar məni qələbə münasibətilə təbrik etmişdilər. Lakin təəssüflər olsun ki, sonradan onlar – ələlxüsus ATƏT də – nədənsə, öz mövqelərini tamamilə dəyişdilər. Hesab edirik, əslində əminik ki, bu, Azərbaycanın yeni rəhbərliyinə siyasi təzyiq göstərmək arzusu ilə əlaqədardır. Heç kimə sirr deyil ki, Azərbaycan geosiyasi baxımdan – həm coğrafi mövqeyinə, həm də təbii ehtiyatlarına görə – çox vacib dövlətdir. Bir neçə ildən sonra, bütün enerji və nəqliyyat layihələrimiz həyata keçdikdən sonra Azərbaycanın əhəmiyyəti daha da artacaqdır. Odur ki, bəzi dairələrin Azərbaycan rəhbərliyinə təzyiq göstərmək vasitələrinə malik olmaq arzusu, kimin isə onun zəifləməsini istəməsi şübhəsizdir. Buna görə də belə hesab edirəm ki, ATƏT-in məruzəsi real vəziyyəti tam əks etdirmir. Lakin Azərbaycanda rəhbərlik möhkəmdir, müstəqil siyasət yeridilir, kiminsə bizə təzyiq göstərməsi əbəsdir. Hər bir təsir əks-təsir doğurur. Azərbaycan əhalisi demokratik aşkarlıq yolu ilə öz seçimini etmişdir. Sadəcə, lazımdır ki, bunu indi olduğu kimi, təkcə bağlı qapılar arxasından deyil, açıq-aşkar etiraf etsin. Yoxsa ikiüzlülük olur...

**– Bakı–Tbilisi–Ceyhan layihəsi sayəsində Azərbaycan Mərkəzi Asiya üçün təbii ehtiyatların əsas nəqletmə**

**kanalına cevriləcəkdir. Qazaxıstan ərazisindən dənizlə boru kəməri çəkilməsinin perspektivləri necədir?**

– Mən deməzdim ki, bu, əsas kanaldır. Xəzər regionunda digər boru kəmərləri də vardır: Bakı–Novorossiysk, Bakı–Supsa, KTK mövcuddur. Xəzər dənizi regionunun dünya bazarlarına çıxışı olmayan ölkələri boru kəmərləri tikməyə məcburdur. Bakı–Ceyhan da eynilə belə boru kəməridir. Onun yalnız iqtisadi aspekti mövcuddur, bu, Azərbaycana üçüncü alternativ yola malik olmaq imkanı verəcəkdir. Alternativ variantlar nə qədər çox olarsa, manevr üçün imkanlar da çox olar. Digər mövcud boru kəmərləri də işləyəcəkdir. Regionda neft çoxdur. Qazaxıstandan dənizlə boru kəməri çəkilməsinə gəldikdə isə, Qazaxıstan bu məsələni müzakirə etmir. Biz öz boru kəmərlərimizi Azərbaycan neftini nəql etmək üçün tikirik. Bakı–Ceyhan boru kəmərinin gücü bizə Azərbaycan neftini nəql etməyə imkan verəcəkdir. Gələcəkdə belə bir arzu olarsa, başqa variantlar da nəzərdən keçiriləcək, lakin bu, gələcəyin işidir.

Boru kəmərinin 50 faizindən çoxu artıq tikilmişdir. Azərbaycanda, Türkiyədə, Gürcüstanda müvafiq kreditlər ayrılmışdır. Azərbaycan boru kəmərində pay iştirakının 25 faizini maliyyələşdirir. Bu isə 750 milyon dollar deməkdir, onun 250 milyonunu nağd ödəmişik. Zənn edirəm ki, ilin sonunda kəmər təhvil veriləcəkdir. Bütün işlər sabit, normal gedir. Cürbəcür texniki məqamlar və problemlər olur, lakin hər şey cədvəl üzrə gedir.

**– Lənkərandakı bədbəxt hadisənin – binanın uçması və insanların tələf olmasının səbəbi səhlənkarlıqdır, yoxsa inşaatçıların səhvi?**

– Mən bu faciəni araşdırmaq üçün Dövlət Komissiyası yaratmışam. Bu hadisə ilə əlaqədar mənim öz versiyam var, lakin hələlik hadisələri qabaqlamaq istəmirəm, çünki prezidentin fikri bəzən müstəqil təhqiqata təzyiq göstərə bilər. Hesab edirəm ki, ciddi səhvlər olmuşdur. Mən dünən yaralılarla görüşdüm. Mənim əlimdə bir-birinə zidd olan məlumatlar vardır

– rəsmi şəxslərin dedikləri və yaralılardan eşitdiklərim fərqlidir. Cinayət işi qaldırılmışdır. Hüquq–mühafizə orqanlarımızın nümayəndələri, xilasedicilər, həkimlər hadisə yerindədirlər. Mən bütün bunları yaxın günlərdə araşdırmağı tapşırmışam, günahkarların hamısı cəzalanacaqdır. Hələlik isə ən başlıcası, faciənin nəticələrini tezliklə aradan qaldırmaq və insanları mənzillə təmin etməkdir. Bunun üçün biz kompensasiyalar verəcək, yeni mənzillər ayıracağıq ki, insanlar küçədə qalmasınlar.

**– Atanız Heydər Əliyevin siyasi fəlsəfəsi həm son dərəcə çevik, həm də olduqca möhkəm idi. Bəs Sizin prinsipləriniz hansılardır?**

– Mən bütün çıxışlarımda, andiçmə zamanı da, ondan sonra da Azərbaycan xalqına vəd etmişəm ki, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm, çünki o, yeganə düzgün siyasətdir. Bu siyasət ona gətirib çıxartdı ki, Azərbaycan xaos, hərc-mərclik, vətəndaş müharibəsi vəziyyətindən quruculuq və tərəqqi, sülh və sabitlik mərhələsinə keçdi. Mən ondan çox şey öyrənmişəm və onun təcrübəsini, məsələlərə baxışını öyrənməklə hələ çox şey əxz edəcəyəm. Hər hansı bir qərar qəbul etməzdən əvvəl düşünürəm ki, bu vəziyyətdə Heydər Əliyev necə hərəkət edərdi. Çalışıram ki, mənə inanan, mənə səs verən adamlar məndən razı qalsınlar. Prezident üçün ən yüksək mükafat onun ideyalarına inamdır, bunsuz işləmək çox çətindir, ona görə mən çalışacağam ki, Heydər Əliyevin bütün prinsipləri həyatda öz təcəssümünü tapmaqda davam etsin.

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİNİN DƏVƏTİ İLƏ MOSKVAYA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*5 fevral 2004-cü il*

**S u a l: Cənab Prezident, səfəriniz zamanı əsas müzakirələrdən biri Qarabağ məsələsi olsa da, indiki məqamda hansısa bir irəliləyişi gözləmək doğru deyil. Bunu Yuri Merzlyakov demişdir. Siz necə hesab edirsiniz?**

**C a v a b:** Biz buna çalışırıq, istəyirik ki, problem həll olunsun. Minsk qrupu həmsədrlərinin də vəzifəsi bundan ibarətdir. Amma bunu danışıqlar göstərəcəkdir. Hələlik bir şey deyə bilmərəm. Yəqin ki, qayıdandan sonra bu barədə məndə daha da geniş məlumat olacaqdır.

**S u a l: Cənab Prezident, Trubnikov təklif edir ki, danışıqların formatı dəyişdirilməlidir. Yəni bu danışıqlarda qondarma Dağlıq Qarabağ Respublikasının rəhbərliyi də iştirak etməlidir. Buna Sizin münasibətiniz necədir?**

**C a v a b:** O kimə təklif edib?! Bizə belə bir təklif daxil olmayıbdır.

**J u r n a l i s t: Müsahibəsində deyib ki, biz bu təklifi vermək istəyirik.**

**İ l h a m Ə l i y e v:** Mən bu müsahibə ilə tanış deyiləm. Amma biz buna razı ola bilmərik. Danışıqların formatı müəyyən edilibdir. Bu münaqişə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Ona görə bunu iki tərəf – Ermənistan və Azərbaycan həll etməlidir. Hesab edirəm ki, üçüncü tərəfin iştirakı düzgün deyildir.

**S u a l: Cənab Prezident, əgər Sizin səfər proqramınız imkan versə, Moskvadakı Azərbaycan məktəbinə baş**

**çəkməyi və ümumiyyətlə, azərbaycanlılarla görüşməyi nəzərdə tutursunuzmu? Onlar səfərə çox maraq göstərirlər.**

**C a v a b:** Əlbəttə, diasporun nümayəndələri ilə görüş olacaqdır. Məktəbə də baş çəkmək istəyərdim. Çünki o məktəblə mənim keçmişdə əlaqələrim olubdur. Mənim üçün maraqlı olardı ki, bilim, bu məktəb hansı səviyyədə fəaliyyət göstərir. Amma, əlbəttə ki, bu, səfər proqramının qrafikindən asılı olacaqdır. Çalışacağam ki, buna vaxt tapım.

**S u a l: Cənab Prezident, Ermənistanın xarici ölkələrdə təxminən 80 səfirliyi vardır. Amma Azərbaycan səfirliklərinin sayı azdır. Əgər biz Qarabağla bağlı diplomatik müharibə aparırıqsa, onda səfirliklərin sayının artırılması planlaşdırılırmı?**

**C a v a b:** Planlaşdırıram. Artıq bu məsələ ilə əlaqədar mən Xarici İşlər naziri Vilayət Quliyevə tapşırıq vermişəm. Bizim səfirliklərin sayı çox böyük həcmdə artırılmalıdır. Hazırda 20-dən yuxarı səfirliyimiz var. Hesab edirəm ki, yaxın zamanlarda bunun sayını ən azı 2 dəfə artırmalıyıq. Əlbəttə, bunu etmək üçün maliyyə imkanları da olmalıdır. Artıq Nazirlər Kabinetinə də tapşırıq vermişəm. Rasizadənin rəhbərliyi ilə bu məsələyə baxılıb, təkliflər hazırlanıbdır. Biz bunu tezliklə etməliyik. Mən sizinlə tam razıyam ki, bəzi ölkələrdə bizim səfirliyimizin olmaması, həm Qarabağ məsələsi haqqında, həm də ümumiyyətlə, Azərbaycan haqqında yanlış təsəvvürlər yaradır. Ona görə də bu məsələ ilə bağlı tapşırıqlar verilibdir. Sağ olun.

## Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Moskvaya gəlmişdir

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev fevralın 5-də Rusiya paytaxtına ilk rəsmi səfərə gəlmişdir.*

*Moskvanın Vnukovo-2 beynəlxalq hava limanı Azərbaycanın və Rusiyanın dövlət bayraqları ilə bəzədilmiş, dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyev hava limanından fəxri motosikletçilər dəstəsinin müşayiəti ilə Moskvada onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

* * *

*Fevralın 5-də axşam Rusiya dövləti başçısının Moskva yaxınlığındakı iqamətgahında – Novo-Oqaryovoda Rusiya Federasiyasının prezidenti Vladimir Putin ilə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin qeyri-rəsmi görüşü oldu.*

*Prezident Vladimir Putin və xanımı Lyudmila Putina prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı iqamətgahın önündə böyük səmimiyyətlə qarşıladılar. Cənab Vladimir Putin Mehriban xanıma gül dəstəsi təqdim etdi.*

*Vladimir Putin Azərbaycan prezidentinin işlərinin gedişi ilə maraqlandı. Prezident İlham Əliyev hər şeyin yaxşı olduğunu bildirdi.*

*Sonra Rusiya dövlətinin başçısı qonaqları özünün iş otağına dəvət etdi. O, respublikamızın rəhbərini və onun xanımını bir daha salamladı və ümidvar olduğunu bildirdi ki, Azərbaycan prezidentinin Rusiyaya ilk rəsmi səfəri uğurlu, görüşləri isə səmərəli olacaqdır.*

* * *

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev fevralın 6-da Moskvada naməlum əsgərin məzarını ziyarət etmişdir.*

*Dövlətimizin başçısı Moskva Kremlinin yanındakı Aleksandr bağına gəldi. Burada fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyev Böyük Vətən müharibəsində həlak olmuş sovet əsgərlərinin xatirəsinin rəmzi olan məzarın önünə əklil qoydu.*

*Əklilqoyma mərasimində Rusiyanın yüksək vəzifəli dövlət və hökumət rəsmiləri, Azərbaycan* prezidentini *səfərdə müşayiət edən nümayəndə heyətinin üzvləri iştirak edirdilər.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Moskva metrosunda törədilmiş partlayış nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi. Biz hər cür terror əməlini qətiyyətlə pisləyir, terrorizmə qarşı mübarizədə birgə səylərimizi daha da artırmağa hazır olduğumuzu bildiririk.

Bu faciə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına şəxsən öz adımdan və bütün Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*6 fevral 2004-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

*Kreml sarayı,*
*Yaşıl salon*

*6 fevral 2004-cü il*

**V l a d i m i r  P u t i n:** Hörmətli cənab Prezident, izin verin, Sizi Moskvada bir daha salamlayım.

Son bir neçə ildə, xüsusilə də son iki ildə Azərbaycanla Rusiya arasında münasibətlər çox intensiv inkişaf etmişdir və bu gün çox yüksək səviyyədədir. Biz buna çox şadıq.

Ticarət-iqtisadi əlaqələrin inkişafı dinamik xarakter almışdır. Son iki il ərzində əmtəə dövriyyəsi orta hesabla 50 faizdən yuxarıdır. Biz ciddi layihələrin, o cümlədən yanacaq-energetika sistemində layihələrin həyata keçirilməsi barədə birgə düşünürük. Siyasi dialoq daimi xarakter almışdır. Hökumətlərimiz uğurla əməkdaşlıq edir və hökumətlərarası komissiya intensiv işləyir.

Biz Qafqaz regionunda təhlükəsizlik, terrorizmlə birgə mübarizə məsələlərinə də xüsusi diqqət yetiririk. Ümid edirəm ki, bütün bunlar Rusiya və Azərbaycan xalqlarının xeyrinə olacaqdır. Şübhə etmirəm ki, Sizin Moskvaya ilk səfəriniz münasibətlərimizin möhkəmlənməsinə xidmət edəcəkdir.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun, hörmətli cənab Prezident. Mən, ilk növbədə, Rusiyaya rəsmi səfərə dəvət etdiyinizə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Bu dəvət mənim üçün çox qiymətlidir.

İkitərəfli münasibətlərimizə toxunmazdan əvvəl mən Moskva metrosunda böyük insan tələfatı və çoxlu adamın

xəsarət alması ilə nəticələnmiş faciə ilə əlaqədar Sizə və bütün Rusiya xalqına dərin hüznlə başsağlığı vermək istərdim. Bu, böyük faciə və böyük dərddir. Mən bu gün rusiyalılar üçün necə ağır olduğunu başa düşürəm. Bir daha mənim başsağlığımı və xəsarət alanların tezliklə sağalması arzularımı qəbul edin.

Sizin qeyd etdiyiniz kimi, bizim ikitərəfli münasibətlərimiz bütün sahələrdə uğurla inkişaf edir. Bizim yaxşı əlaqələrimiz, ikitərəfli məsələlərə, regional əməkdaşlıq məsələlərinə dair aramızda tam qarşılıqlı anlaşma var. Bir çox beynəlxalq problemlərdə mövqelərimiz uyğun gəlir.

Rusiya Azərbaycan üçün strateji tərəfdaşdır. Biz bu strateji tərəfdaşlığa sadiqik və öz tərəfimizdən bu xətti daim davam etdirəcəyik. Son üç il ərzində ikitərəfli münasibətlərimizdə baş verən bütün proseslər tam əsasla belə deməyə imkan verir ki, qarşılıqlı münasibətlərimizdə bugünkü dinamizm gələcəkdə də uğurla davam etdiriləcəkdir. Biz bunu istəyirik. Mən əminəm ki, Rusiya və Azərbaycan xalqları bu uğurlu qarşılıqlı fəaliyyətdə maraqlıdırlar. Bizim ümumi məsələlərimiz olduqca çoxdur.

Odur ki, bu səfəri və bizi maraqlandıran bütün məsələlərin müzakirəsini ümidlə gözləyirdim.

Qonaqpərvərliyə, dəvətə və Moskvada olmaq və Sizinlə görüşmək imkanına görə bir daha Sizə minnətdarlığımı bildirirəm.

**V l a d i m i r  P u t i n:** Səmimi başsağlığına görə təşəkkür edirəm. Zənn edirəm, nəzərdə tutduğumuz kimi, terrorizmlə mübarizədə birgə fəaliyyət göstərəcəyik. Şübhə etmirəm ki, biz ikitərəfli, regional və beynəlxalq planda səylərimizi birləşdirsək, insanların təhlükəsizliyini təmin edə biləcəyik. Əminəm ki, bizim hüquq-mühafizə orqanlarımız terrorizmlə mübarizədə uğurla əməkdaşlıq edə bilərlər.

Mən bilirəm ki, Azərbaycanda quldurluqla və terrorizmlə mübarizədə olduqca səmərəli və ardıcıl tədbirlər görülür.

Ümidvaram ki, bizim müvafiq orqanlar Qafqazda, Avropada və bütün dünyada beləcə peşəkarcasına işləyəcəklər. Biz yalnız səylərimizi birləşdirməklə bu dəhşətli bəlanın, XXI əsrin taununun öhdəsindən gələ bilərik*.

* Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi, ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafı diqqət mərkəzində oldu. Dövlət başçıları hər iki tərəfi maraqlandıran beynəlxalq və regional məsələlər ətrafında da fikir mübadiləsi apardılar, siyasi dialoqun bundan sonra da davam etdirilməsinin vacibliyini vurğuladılar.

## DÖVLƏT BAŞÇILARININ TƏKBƏTƏK GÖRÜŞÜNDƏN SONRA İLHAM ƏLİYEVİN VƏ VLADİMİR PUTİNİN İŞTİRAKI İLƏ GENİŞ HEYƏTDƏ AZƏRBAYCAN–RUSİYA DANIŞIQLARI

*Kreml sarayı,*
*Yekaterina salonu*

*6 fevral 2004-cü il*

**V l a d i m i r  P u t i n:** Gün aydın, hörmətli cənab Prezident! İcazə verin, Sizi, nümayəndə heyətinin bütün üzvlərini burada bir daha salamlayım. Biz növbəti görüşümüzə çox şadıq. Bir daha vurğulayıram ki, Rusiya ilə Azərbaycan arasında qarşılıqlı fəaliyyətin səviyyəsi son illər özünün inkişafının ən yüksək nöqtəsinə çatmışdır. Biz bunu alqışlayırıq.

Ümid edirik ki, postsovet məkanında, regionda qarşılaşdığımız bütün çətinliklərə baxmayaraq, onları birgə səylərimizlə aradan qaldıra biləcəyik və onlar ikitərəfli münasibətlərin inkişafına əngəl törədən amil olmayacaqdır. Üstəlik, Rusiya və Azərbaycan xalqları arasında dostluq, qarşılıqlı fəaliyyət ənənələri çox möhkəmdir. Atanız, Azərbaycan prezidenti, ölkəmizdə çox böyük hörmətə malik olan Heydər Əlirza oğlu Əliyev tərəfindən bu sahədə son illər çox iş görülmüşdür. Biz hamımız onu hələ sovet dövründən tanıyırıq. O, Sovet İttifaqı, beynəlxalq miqyaslı siyasətçi idi.

Siz bilirsiniz ki, bir müddət əvvəl biz qərar çıxararaq onu Rusiya Federasiyasının ali mükafatına təqdim etdik. Biz Heydər Əliyevi "Müqəddəs apostol Andrey Pervozvannı" ordeni ilə təltif etdik. İşimizi başa çatdırdıqdan sonra mən Rusiya rəhbərliyinin tapşırığını yerinə yetirəcək və bu ordeni yadigar olaraq Sizin ailənizə verəcəyəm.

Əminəm ki, səfərin gedişində Moskvada görəcəyiniz iş faydalı olacaq və belə hallarda deyildiyi kimi, ikitərəfli əlaqələrimizin daha da inkişaf etməsinə, şübhəsiz, təkan verəcəkdir.

**İlham Əliyev:** Çox sağ olun, hörmətli cənab Prezident.

Məni Rusiyaya rəsmi səfərə dəvət etdiyinizə görə bir daha Sizə öz minnətdarlığımı bildirmək istərdim. İkitərəfli münasibətlərimizin necə inkişaf etməsindən, möhkəmlənməsindən və hər iki ölkənin həyat fəaliyyətinin, əslində, bütün sahələrini əhatə etməsindən çox şadam.

Sizin səyləriniz və prezident Heydər Əliyevin səyləri sayəsində əlaqələrimizin inkişafının çox möhkəm təməli qoyulmuşdur. İndi ən yüksək səviyyədə siyasi dialoq və məsləhətləşmələr aparılır. Biz regional xarakterli və dünya siyasətinə dair məsələlər barəsində məsləhətləşirik və təbiidir ki, ölkələrimiz arasında ikitərəfli münasibətlər danışıqlarımızda öncül yer tutur. Biz siyasi dialoq, iqtisadi əməkdaşlıq çərçivəsində əldə edilmiş uğurlara yalnız sevinə bilərik. Əmtəə dövriyyəsinin hər il artması bizim uğurlu iqtisadi əlaqələrimizin ən əyani göstəricisidir.

Biz humanitar sahədə də uğurla əməkdaşlıq edirik. Azərbaycanda rus mədəniyyətinə, rus dilinə necə qayğı ilə yanaşıldığını bilirsiniz. Ölkəmizdə təhsili rus dilində aparılan 400-dən artıq məktəb vardır və Sovet İttifaqının dağılmasından sonrakı dövrdə onların heç biri bağlanmamışdır. Bütün bunlar çox vacib məqamlardır və xalqlarımızı bir-birinə daha da yaxınlaşdırır.

Biz istəyirik ki, Rusiya və Azərbaycan bundan sonra da dinamik inkişaf etsin, öz fəaliyyətlərini əlaqələndirsinlər. Bu isə, öz növbəsində, ölkələrimizi, xalqlarımızı bir-birinə daha da yaxınlaşdıracaqdır.

Cənab Prezident, prezident Heydər Əliyevin təltif edildiyi mükafata görə Sizə çox minnətdaram. Bu, Rusiyanın ali mükafatıdır. Bizim hamımız ümid edirdik ki, bu mükafatı o Sizin əlinizdən şəxsən ala biləcəkdir, lakin taleyin hökmü başqa cür oldu. Biz bu mükafatı qayğı ilə qoruyub saxlayacağıq və o

hər bir azərbaycanlının qəlbində özünə yer tapacaqdır. Zənn edirəm ki, bu bizi, ölkələrimizi, xalqlarımızı bir-birinə daha da yaxınlaşdıracaq və gələcəkdə uğurla inkişaf etməyimiz üçün daha əlverişli zəmin yaradacaqdır. *

---

* Dostluq və qarşılıqlı anlaşma ruhunda keçən danışıqlarda ölkələrimiz arasında iqtisadi əməkdaşlığın inkişafı, o cümlədən ticarət əlaqələrinin genişləndirilməsi, yanacaq-energetika kompleksi sahəsində işbirliyi və digər məsələlər diqqət mərkəzində oldu. Moskvada imzalanacaq sənədlərin Azərbaycan–Rusiya münasibətlərinin inkişafına yeni təkan verəcəyi vurğulandı.

## “MÜQƏDDƏS APOSTOL ANDREY PERVOZVANNI” ORDENİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİ

*Kreml sarayı,*
*Yekaterina salonu*

*6 fevral 2004-cü il*

*Rusiya dövlətinin prezident Heydər Əliyevi təltif etdiyi "Müqəddəs apostol Andrey Pervozvannı" ordeninin dövlətimizin başçısı İlham Əliyevə təqdim olunması mərasimi keçirildi.*

*Rusiya prezidenti Vladimir Putin mərasimdə çıxış edərək bildirdi ki, Rusiya–Azərbaycan münasibətlərinin möhkəmlənməsində beynəlxalq miqyaslı görkəmli siyasətçi Heydər Əliyevin böyük xidmətləri var. Məhz onun yaratdığı əlverişli zəmin nəticəsində indi Rusiya–Azərbaycan münasibətlərində heç bir problem yoxdur.*

**V l a d i m i r  P u t i n:** Bu gün mən məmnunluqla qeyd edirəm ki, biz hamımız Azərbaycanın yeni prezidentinin öz atasından aldığı siyasi irsə necə yanaşdığını, yeni mərhələdə Azərbaycan–Rusiya münasibətlərinin qurulmasına necə qayğı ilə yanaşdığını görürük. Mən qəti əqidədə olduğumu bildirirəm ki, biz hələ çox iş görməyə müvəffəq olacağıq, ikitərəfli münasibətlərin qurulması, ümumən Cənubi Qafqazda vəziyyətin sabitləşdirilməsi sahəsində bizim qarşıda çox işlərimiz, böyük vəzifələrimiz var. Əsla şübhə etmirəm ki, Azərbaycan və Rusiya müasir demokratik münasibətlər qurulmasına birlikdə mühüm töhfə verəcəklər.

İcazə verin, Rusiya rəhbərliyi, Rusiya xalqı adından bu ali mükafatı Sizə təqdim edim. Qoy o, Heydər Əlirza oğlu Əliyevin xatirəsini yaşatsın və Azərbaycan xalqına bəslədiyimiz münasibətin əlaməti olsun.

**İ l h a m Ə l i y e v:** Heydər Əlirza oğlunun Rusiyanın ali mükafatı ilə təltif olunması xəbəri bizim hamımızı – onun ailə üzvlərini, bütün Azərbaycan xalqını, əlbəttə, onun özünü sevindirmişdi. Hamınız bilirsiniz ki, o bu ordenin təqdim olunacağı vaxtı səbirsizliklə gözləyirdi. O, dövlətlərimiz arasında münasibətlərə töhfəsinə və bir siyasətçi kimi töhfəsinə belə qiymət verildiyinə görə Sizə çox minnətdar idi. Amma təəssüf ki, taleyin hökmü başqa cür oldu. Bu gün həmin mükafatı saxlanmaq üçün mən, onun oğlu qəbul edirəm. Bu mükafat bizim hamımız üçün – ailə üzvləri üçün, bütün Azərbaycan xalqı üçün çox qiymətlidir.

Vladimir Vladimiroviç, belə qiymətə – prezident Heydər Əlirza oğluna – atama verdiyiniz bu qiymətə, onun xəstəliyi dövründə göstərdiyiniz hörmətə, diqqət və qayğıya görə Heydər Əliyevin oğlu kimi, mən şəxsən Sizə bütün ailəmiz adından təşəkkür etmək istəyirəm. Bunu Azərbaycanda hamı bilir və qiymətləndirir, ölkəmizdə Sizi təkcə Rusiya prezidenti kimi deyil, həm də çox xeyirxah, səmimi insan və Heydər Əlirza oğlunun dostu kimi sevirlər. Əmin olun ki, mən bu dostluq ənənələrini davam etdirəcək, ölkələrimizin və xalqlarımızın daha yaxın olması üçün öz tərəfimdən hər şey edəcəyəm.

Bu mükafata görə və Rusiyaya rəsmi səfərə dəvətə görə Sizə bir daha təşəkkürümü bildirirəm.

## RUSİYA–AZƏRBAYCAN SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİ

*Kreml sarayı,*
*"Malaxitovoye foye"si*

*6 fevral 2004-cü il*

Azərbaycan prezidenti İlham Əliyevin və Rusiya prezidenti Vladimir Putinin iştirakı ilə Rusiya–Azərbaycan sənədlərinin imzalanma mərasimi oldu.

Prezident Vladimir Putin və prezident İlham Əliyev mərasim iştirakçılarının alqışları altında Rusiya Federasiyasının və Azərbaycan Respublikasının Moskva Bəyannaməsini imzaladılar.

İTAR-TASS və AzərTAc agentlikləri arasında informasiya sahəsində əməkdaşlıq haqqında saziş;

Rusiya Federasiyası hökuməti ilə Azərbaycan Respublikası hökuməti arasında məxfi informasiyanın qarşılıqlı surətdə qorunması haqqında saziş;

Rusiya Federasiyası hökuməti ilə Azərbaycan Respublikası hökuməti arasında sərbəst ticarət haqqında 1992-ci il 30 sentyabr tarixli sazişə sərbəst ticarət rejimindən istisnalar haqqında protokol;

2004–2006-cı illər üçün Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında humanitar sahədə əməkdaşlıq proqramı imzalandı.

Sənədlər imzalandıqdan sonra Rusiya prezidenti Vladimir Putin və Azərbaycan prezidenti İlham Əliyev bəyanatlarla çıxış etdilər.

## RUSİYA PREZİDENTİ

## VLADİMİR PUTİNİN BƏYANATI

Hörmətli xanımlar və cənablar!

Mən Azərbaycan Respublikasının prezidenti İlham Heydər oğlu Əliyevi Moskvada salamlamağıma ürəkdən şadam. Bu onun yeni vəzifədə – prezident vəzifəsində xaricə ilk səfərlərindən biridir. Biz bunu Rusiya–Azərbaycan münasibətlərinə diqqət əlaməti kimi qiymətləndiririk.

Biz iki ölkə arasında münasibətlərin inkişafı üçün son illər çox iş görmüşük. Münasibətlərin möhkəmlənməsində Heydər Əlirza oğlu xüsusi rol oynamışdır. Biz bu görkəmli dövlət xadiminin, qeyri-adi insanın və Rusiyanın səmimi dostunun əziz xatirəsini unutmayacağıq. Bu gün mən "Müqəddəs apostol Andrey Pervozvannı" ordenini saxlanmaq üçün İlham Heydər oğluna verdim. Bu mükafat Azərbaycan prezidenti Heydər Əlirza oğlu Əliyevin xalqlarımız arasında dostluğun və etimadın möhkəmlənməsinə verdiyi müstəsna töhfənin təsdiqi deməkdir.

Bu gün biz Azərbaycan prezidenti ilə məzmunlu danışıqlar apardıq, gördüyünüz kimi, danışıqların yekunlarına əsasən, Moskva Bəyannaməsini imzaladıq. Bəyannamə nəinki strateji tərəfdaşlığı inkişaf etdirmək niyyətində olduğumuzu təsdiqləyir, həm də gələcək perspektiv üçün əməkdaşlığın əsasını müəyyənləşdirir.

Görüşdə biz bir daha təsdiq etdik ki, ölkələrimiz müasir dövrün ən mühüm problemlərinin həllinə eyni və ya oxşar mövqelərdən yanaşır. Məsələn, biz terrorizmlə mübarizədə səyləri birləşdirməyin zəruriliyinə eyni cür baxırıq. Regional və beynəlxalq məsələlərdə, digər qlobal təhdidlərə müqavimət göstərilməsində qarşılıqlı fəaliyyəti gücləndirməyin başqa imkanlarını da real surətdə görürük. Biz Cənubi Qafqazdakı vəziyyəti müzakirə edərkən "Qafqaz dördlüyü" çərçivəsində əməkdaşlığın əhəmiyyətini bir daha vurğuladıq. Əminik ki, Rusiya, Azərbaycan, Gürcüstan prezidentlərinin birbaşa dialoqu

regionda sabitliyi möhkəmləndirməyə və bir sıra köhnə problemləri aradan qaldırmağa imkan verəcəkdir.

Xəzər dənizinin hüquqi statusunu da müzakirə etdik. Dağlıq Qarabağ probleminə ciddi diqqət yetirildi. Ermənistan–Azərbaycan dialoquna yenidən başlanması Rusiyada məmnunluqla qarşılanmışdır. Bu gün mən yaranmış vəziyyətin hər iki tərəf üçün məqbul surətdə nizama salınmasına lazımi kömək göstərilməsinə hazır olduğumuzu bir daha təsdiqlədim. Əlbəttə, biz ikitərəfli işgüzar əməkdaşlığın inkişaf etdirilməsini də ətraflı müzakirə etdik. Ümumi rəyimiz belədir ki, indi əməkdaşlıq genişlənir və bu meyli hər vasitə ilə dəstəkləmək və saxlamaq lazımdır. Belə ki, ötən ilin 11 ayı ərzində qarşılıqlı əmtəə dövriyyəsi, demək olar, 40 faiz artmışdır. Biz mövcud sanballı ehtiyatlardan bundan sonra da istifadə edə bilərik. Qarşılıqlı surətdə faydalı şərtlərlə Azərbaycana enerjidaşıyıcıları göndərilməsinin yeni cədvəli də qəbul edilə bilər. Mən qazı nəzərdə tuturam, biz onu göndərməyə iki il əvvəl başlamışıq. Azərbaycan prezidenti bu sahədə bəzi məsələləri qaldırdı. Biz onları işgüzar səviyyədə nizama salacağıq.

Əlbəttə, iki ölkənin və ümumən regionun mənafelərinə ziyan dəymədən, hərbi-texniki sahədə də birgə işin nəticələri olduqca ümidverici ola bilər.

Bu gün 2004–2006-cı illər üçün humanitar sahədə əməkdaşlıq proqramı da imzalandı. Əminəm ki, zəngin mədəni potensialı və elmdə, incəsənətdə, təhsildə ənənəvi surətdə sıx əlaqələri olan dövlətlərimiz üçün bu istiqamətin son dərəcə böyük əhəmiyyəti var.

Xüsusi vurğulayacağam ki, İlham Heydər oğlunun Azərbaycanda rus dilinə münasibətini biz Rusiyada yüksək qiymətləndiririk. Ötən ilin sentyabrında Bakıda keçirilmiş V Ümumdünya rus mətbuatı konqresi Rusiyada böyük müsbət əks-səda doğurdu. Əminəm ki, alimlərin, jurnalistlərin birbaşa ünsiyyəti, təcrübə və ideya mübadiləsi təkcə Azərbaycanda deyil, digər MDB

ölkələrində və ümumən dünyada rus dilinə və mədəniyyətinə marağın artmasına kömək etmişdir.

Sonda bir daha diqqətinizə çatdırmaq istəyirəm ki, aparılmış danışıqları çox konstruktiv və faydalı, prezident İlham Heydər oğlu Əliyevin Rusiyaya ilk rəsmi səfərini isə ikitərəfli münasibətlərimizdə, strateji tərəfdaşlığın, Azərbaycan və Rusiya Federasiyası xalqları arasında dostluğun möhkəmlənməsində çox mühüm mərhələ hesab edirəm.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

Hörmətli xanımlar və cənablar!

Mən, ilk növbədə, Rusiyaya rəsmi səfərə dəvətə görə Rusiya prezidenti Vladimir Vladimiroviç Putinə bir daha təşəkkürümü bildirmək istərdim. Ölkələrimiz arasındakı münasibətlər bugünkü mərhələdə qonşular arasında münasibətlərə nümunə ola bilər. Bizim çox ciddi siyasi dialoqumuz, regional məsələlərdə, beynəlxalq siyasət məsələlərində tam qarşılıqlı anlaşmamız var. Əlbəttə, biz ikitərəfli münasibətlərimizdə ildən-ilə böyük tərəqqi olduğunu və bütün istiqamətlərdə əlaqələrin yaxşılaşdığını görürük. Bu, iqtisadi əlaqələrimiz, humanitar sahədə münasibətlərimiz üçün çox ciddi zəmindir.

Bu bazanın əsası Vladimir Vladimiroviç Putinin və Heydər Əlirza oğlu Əliyevin birgə səyləri ilə qoyulmuşdur. Onların ölkələrimizin əlaqələrinin möhkəmlənməsinə yönəlmiş qarşılıqlı münasibətləri, fəaliyyəti, aralarındakı tam qarşılıqlı anlaşma və qarşılıqlı hörmət elə bir zəruri siyasi baza olmuşdur ki, bütün istiqamətlərdə münasibətlər bunun üzərində qurulmağa başlamışdır. Çox qısa bir müddətdə hamı gördü ki, biz bütün istiqamətlərdə hissediləcək irəliləyişə nail olmuşuq. Ölkələrimiz arasında əmtəə dövriyyəsi ilbəil, özü də çox sürətlə artır. Bu gün keçirilən danışıqlar və işgüzar söhbətlər bizi bir daha əmin etdi ki, gələcəkdə bunu daha da genişləndirməliyik.

Ölkələrimizin iqtisadiyyatı dinamik inkişaf edir. Hər iki ölkədə ümumi daxili məhsul istehsalı sabit şəkildə artır ki, bu da əmtəə dövriyyəsini artırmaq üçün yaxşı zəmin yaradır.

Biz ümid edirik ki, energetika sektorunda əməkdaşlığımız davam etdiriləcəkdir. Bu əməkdaşlıq Rusiyanın və Azərbaycanın mənafelərinə cavab verir, bizə iqtisadi səmərə gətirir, habelə ölkələrimiz arasında çox mühüm körpüdür. Biz belə müsbət təcrübəni inkişaf etdirəcəyik və bu məsələlərdə tam qarşılıqlı anlaşma mövcuddur.

Əvvəllər müxtəlif məsələlərə münasibətdə mövqelərimizdə mövcud olan müəyyən fikir ayrılıqları, demək olar, tamamilə aradan qaldırılmışdır. Buna Xəzər dənizinin statusu haqqında məsələni də – bu məsələ ilə əlaqədar ölkələrimiz arasında ikitərəfli saziş var – bütün digər sahələrdə əməkdaşlığı da aid etmək olar.

Biz beynəlxalq terrorizmə qarşı mübarizədə çox uğurla əməkdaşlıq edirik. Təəssüf ki, bizim ölkələrimiz – Rusiya da, Azərbaycan da beynəlxalq terrorizmin qurbanları olmuşlar və bu indi də davam edir. Bizdə belə bir tam qarşılıqlı anlaşma vardır ki, bu bəla ilə yalnız birlikdə, əlbir mübarizə aparmaq mümkündür. Bu əməkdaşlıq bundan sonra da davam etdiriləcəkdir.

Azərbaycan cəmiyyətini neçə illərdir ki, narahat edən əsas məsələ Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin uzanmasıdır. Minsk qrupunun həmsədri kimi, Rusiya bu münaqişənin sülh yolu ilə nizama salınması üçün böyük səy göstərir. Azərbaycan bu münaqişənin nizama salınması yollarını sülh danışıqlarında görür. Biz ümid edirik ki, Minsk qrupunun fəaliyyəti nəticəsində problemin beynəlxalq hüquq normaları və ölkələrin ərazi bütövlüyü prinsipləri əsasında ədalətli həlli mümkün olacaqdır.

Bu mövzuda ikitərəfli dialoq davam etdirilir və biz ümidlə gözləyirik ki, Minsk qrupu yeni təkliflər verəcəkdir.

Hərbi-texniki əməkdaşlıq sahəsində münasibətləri bundan sonra da inkişaf etdirmək üçün yaxşı əsas vardır. Artıq bu

əməkdaşlığın təməli qoyulmuşdur. Biz bu istiqamətdə fəaliyyətin davam etdiriləcəyinə çox ümid edirik. Hesab edirəm ki, bu, hər iki tərəf üçün çox faydalı ola bilər.

Hörmətli Vladimir Vladimiroviç humanitar sahədə əlaqələrimizdən danışdı. Biz buna çox böyük əhəmiyyət veririk. Sovet İttifaqı dağılandan sonra, xoşbəxtlikdən, Azərbaycanda rus mədəniyyətinə, rus dilinə münasibətdə heç bir dəyişiklik olmadı. Bir çox məsələlərdə isə hətta tərəqqi müşahidə olunur. İkitərəfli görüşümüz zamanı mən dedim ki, Azərbaycanda rus dilində təhsil verən 400-dən artıq məktəb vardır. Azərbaycanın, demək olar ki, bütün ali məktəblərində rus dilində də təhsil verilir. Bütün bu illər ərzində bir məktəb də bağlanmamışdır. Bu, prezident Heydər Əliyevin siyasətidir və həmin siyasət bundan sonra da davam etdiriləcəkdir. Bu gün xalqlarımızın bir-biri ilə necə əməkdaşlıq etdiklərini görmək çox xoşdur. Azərbaycanda böyük rus icması, Rusiyada isə böyük Azərbaycan icması vardır. Mədəniyyətlərimizin bir-birinə qarşılıqlı nüfuz etməsinə, hətta mən deyərdim ki, bir-birini qarşılıqlı surətdə zənginləşdirməsinə yönəldilmiş bu siyasət çox vacibdir. Biz rus mədəniyyətinə, rus dilinə və bu baxımdan Rusiya ilə bağlı olan hər şeyə gələcəkdə də çox qayğı ilə yanaşacağıq. Zənnimcə, Azərbaycanda keçirilmiş və keçiriləcəyi nəzərdə tutulan Rusiya mədəniyyəti günləri, Rusiyada Azərbaycan mədəniyyəti günləri ölkələrimizin, xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına kömək edəcəkdir. Biz bunda maraqlıyıq.

Dünən olduğu kimi, bu gün də Azərbaycanın siyasəti ondan ibarətdir ki, ölkələrimiz ikitərəfli əsasda, regional planda, beynəlxalq miqyasda daha sıx qarşılıqlı fəaliyyət göstərsinlər. Bu bizə böyük fayda verəcəkdir.

Fürsətdən istifadə edib bu dəvətə, səmimiyyətlə qarşılandığıma görə bir daha öz minnətdarlığımı bildirmək istəyirəm. Ümid edirəm ki, görüşlərimiz gələcəkdə də davam edəcək və bu görüşlər ölkələrimizin bir-birinə daha da

yaxınlaşmasına kömək göstərəcəkdir.

* * *

*Rusiya və Azərbaycan prezidentlərinin jurnalistlərin suallarına cavabı*

**S u a l: Mənim sualım cənab Putinədir. Hörmətli Prezident, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi postsovet məkanında ən köhnə münaqişədir. Rusiya ATƏT-in Minsk qrupunun həmsədrlərindən biridir. Rusiyanın bu problemin dincliklə nizama salınmasına dair konkret təklifi varmı? Necə bilirsiniz, Azərbaycan prezidentinin bu səfəri ikitərəfli münasibətlərin inkişafına yeni təkan verəcəkmi?**

**V l a d i m i r P u t i n:** Həqiqətən Dağlıq Qarabağ problemi köhnə olsa da, yeganə deyildir. Bildiyiniz kimi, Qafqazda elə həmin vaxtlardan başlanmış münaqişələr də var, Dnestryanı bölgədə də heç də hər şey nizama salınmayıb. Bizə sovet dövründən çox problemlər qalıb və onlar Sovet İttifaqının dağılmasını gərginləşdirdi və sürətləndirdi. Mən bu mövzuda öz fikrimi açıqlamışam və təkrarlaya bilərəm. Biz bu istiqamətdə yollar axtarmağa, hətta səylərimizi gücləndirməyə hazırıq. Lakin biz heç nəyi zorla qəbul etdirməyəcəyik və nə Azərbaycan xalqına, nə də Ermənistan xalqına nəyisə zorla qəbul etdirməyə haqqımız yoxdur. Məsələnin həlli yolunu iki ölkənin xalqları axtarmalıdır, biz isə bu qərarın axtarışında iştirak etməyə hazırıq. Biz əldə edilə biləcək razılaşmaların təminatçısı olmağa hazırıq.

Bu məsələni mən bu yaxınlarda Fransa prezidenti cənab Jak Şirakla müzakirə etdim. O həmin məsələ ilə əlaqədar mənə xüsusi olaraq zəng vurmuşdu, çünki bilirdi ki, Azərbaycan prezidenti ilə görüşümüz olmalıdır. Beynəlxalq birliklə birgə biz problemin aradan qaldırılmasına ürəkdən çalışacağıq. Mən sizə yeganə bir şeyi tam dəqiq və aydın şəkildə deyə bilərəm: Rusiya bütün münaqişələrin, o cümlədən də Dağlıq Qarabağ

münaqişəsinin həllində maraqlıdır. Çünki bu, istər Azərbaycanla, istərsə də Ermənistanla dolğun əməkdaşlıq üçün bizə geniş imkan verəcəkdir və biz bunu çox istəyirik. İndiki qeyri-normal vəziyyətin davam etməsi istər bir, istərsə də digər istiqamətdə ikitərəfli əlaqələrin inkişafında təbii məhdudiyyət yaradır. Biz bu vəziyyətin dəyişməsində olduqca maraqlıyıq və bunun mümkün qədər tez baş verməsi üçün əlimizdən gələni əsirgəməyəcəyik. Bu istiqamətdə hər iki prezidentin səylərini dəstəkləyəcəyik.

O ki qaldı indiki səfərin kontekstində ikitərəfli əlaqələrin inkişafına, şübhə etmirəm ki, bu, yaxşı təkan olacaqdır. Qeyd edim ki, Azərbaycan prezidenti ikitərəfli münasibətlərimizin bütün mahiyyətinə dərindən bələddir. Bu işlərdə o heç də təcrübəsiz deyildir. Buna dərindən bələd olaraq, biz təxminən bir saat, hətta bundan çox vaxt ərzində təkbətək söhbət etdik, özü də iqtisadi və siyasi səpkidə tamamilə konkret məsələləri təfərrüatı ilə müzakirə etdik. Bu, beynəlxalq mövzulara da, beynəlxalq məsələlərə də, iqtisadiyyatda qarşılıqlı fəaliyyətə də aiddir. Əminəm ki, prezidentin arzularına uyğun olaraq Rusiyanın müəyyən nazirliklərinin fəaliyyətində də təshihlər ediləcəkdir.

Bu, ikitərəfli münasibətlərin xeyrinə olacaqdır. Buna heç bir şübhə yoxdur.

**S u a l: Bu gün ağır gündür və cənab Azərbaycan prezidenti Moskvada baş vermiş terror aktı ilə bağlı fikrini bildirdi. Vladimir Vladimiroviçdən soruşmaq istərdim. Siz həmişə deyirsiniz ki, bu dəhşətli bəla ilə təkbaşına mübarizə aparmaq qeyri-mümkündür. Terrorizmlə mübarizədə ölkələr səylərini birlikdə necə gerçəkləşdirə bilərlər, məsələn, Siz bunu Azərbaycanla birlikdə necə etmək qərarına gəlmisiniz?**

**İ l h a m Ə l i y e v:** Əgər mümkünsə, bu suala əvvəlcə mən cavab verim. Biz, əlbəttə, bu mövzuda fikir mübadiləsi apardıq və fikirlərimiz tamamilə üst-üstə düşdü. Mən giriş sözümdə bu məsələyə toxundum. Bütün beynəlxalq birliyin bir

istiqamətə yönəlmiş səyləri olmalıdır. Biz bunun necə bir bəla olduğunu yaxşı bilirik. Təəssüf ki, bizim ölkələrimiz beynəlxalq terrorizmdən zərərçəkənlər arasındadır. Bu bəla ilə mübarizə aparmaq həddindən artıq çətindir. Çünki əslində düşmən görünmür. Sən onun kim olduğunu bilirsən, yaxud güman edirsən, onun harada olduğunu zənn edə bilirsən, lakin dəqiq müəyyən etmək çox çətindir. Odur ki, bu məsələdə heç bir müxtəlif münasibət olmamalıdır. Beynəlxalq birlik beynəlxalq terrorizmlə vahid və dəqiq konsepsiya, hətta belə demək mümkündürsə, fəaliyyət planı əsasında mübarizə aparmalıdır. Bu məsələyə adda-budda yanaşsaq – təəssüf ki, bəzən belə də olur – bütün səyləri yalnız bir istiqamətdə cəmləşdirsək, bu mübarizə səmərəli olmayacaqdır.

Terrorizm indiki dövrün elə bəlasıdır ki, ona yalnız birgə səylərlə son qoymaq mümkündür. Zənn edirəm ki, Rusiyanın və Azərbaycanın səylərinin birgə əlaqələndirilməsi – bu iş çox səmərəli gedir – ölkələrin bu bəla ilə necə birgə mübarizə aparmasına yaxşı nümunə ola bilər.

Bizim aramızda bu məsələdə tam qarşılıqlı anlaşma mövcuddur, ölkələrimizin müvafiq orqanları öz səylərini əlaqələndirirlər və ağır nəticələrə gətirib çıxara biləcək bir çox hərəkətlərin qarşısı bu fəaliyyət çərçivəsində alınmışdır. Biz bu məsələni müzakirə etdik və dövlətlərimizin müvafiq idarələri gələcəkdə də bu istiqamətdə işləyəcəklər. Bir daha yalnız ona ümidvar olmaq istərdim ki, həmin bəlaya son qoymaq üçün bütün Dünya Birliyi bu istiqamətdə vahid mexanizm, vahid komanda kimi fəaliyyət göstərəcəkdir.

**Vladimir Putin:** Azərbaycan prezidentinin indicə dedikləri çox vacibdir. Xüsusən bütün beynəlxalq birliyin səylərini sıx birləşdirmək barədəki son sözləri. Bu suala cavab verməzdən əvvəl mən də bütün zərərçəkənlərə, həlak olanların ailələrinə başsağlığı vermək istəyirəm. Bu, böyük cinayətdir və müsibətə məruz qalan insanlar üçün və bütün ölkəmiz üçün ağır sınaqdır.

Mən Azərbaycan prezidentinin bütün beynəlxalq birliyin səylərini sıx birləşdirmək barədə sözlərinə niyə diqqət yetirdim?

Budur, indi biz Məshədovla hansısa danışıqların zəruriliyi barədə xaricdən çağırışlar eşidirik. Biz Rusiya ərazisində törədilən cinayətlərin və terrorçularla danışıqlara çağırışların eyni vaxta düşməsi ilə ilk dəfə qarşılaşmırıq. Belə cinayətlər törədildikdən sonra bizi Məshədovla danışıqlara çağırmaq faktının özü sübut edir ki, bu danışıqlara çağıranlar Məshədovla, quldur və terrorçularla əlaqədə olduqlarını dolayısı ilə təsdiqləyirlər. Əslinə qalsa, bizə heç bir əlavə dəlil-sübut lazım da deyildir. Biz yəqin bilirik ki, Məshədov və onun quldurları bu terrorla bağlıdırlar. Belə cinayətləri Rusiya Federasiyasının özündə bəzi ünsürlərlə də sinxronlaşdırmağa dair misallar var. İstisna deyil ki, bundan Rusiya Federasiyası prezidentinin seçkiləri çərçivəsində daxili siyasi debatların gedişində istifadə ediləcək və dövlətin indiki başçısına təzyiq vasitəsi kimi istifadə olunacaqdır. Lakin terrorçularla hər hansı dialoqdan qeyd-şərtsiz imtina edilməsi terrorla mübarizənin hamılıqla qəbul edilmiş beynəlxalq prinsipidir. Çünki quldur və terrorçularla hər hansı ünsiyyət onları yeni və daha qanlı cinayətlərə şirnikləndirir. Rusiya buna getməyib və gələcəkdə də getməyəcəkdir. Rusiya terrorçularla danışıqlar aparmır, onları məhv edir.

## QEYDLƏR

**1. Qurani–Kərim,** əl–Quran – Müsəlmanların müqəddəs kitabı. Quranı Allah Cəbrayıl vasitəsilə Məhəmməd əleyhüssəlama göndərib. Quran qafiyəli nəsrlə yazılmış 114 surə və 6200-dən çox ayədən ibarətdir. «Məkkə surələrinə» (610–622, Məkkə, 90 surə) və «Mədinə surələrinə» (622–632, Mədinə, 24 surə) bölünür. – 5,56.

**2. Heydər Əliyev,** Heydər Əlirza oğlu (1923–2003) – görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsinə, əmək və ictimai-siyasi fəallığın artırılmasına, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsinə, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi

Büro üzvü seçilmiş və eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi vaxtlarda da həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may-iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət başçıları onu rəsmən Bakıya dəvət etməyə məcbur oldular. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü ilin oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon

sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda «Əsrin müqaviləsi» adı almış dünyanın aparıcı neft şirkətləri ilə mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanları Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən, Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür.

Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusudur.– 6,7,8,9,11,12,13,16,18,22,23,24,28,29, 35,36,41,42,44,51, 52,56,57,72,74,78,79,97,98,101,106,107,108,110,113,116,117, 120,121,125,127,129,141,151, 156,159,163,173-179,180,181,182, 183,184,185,189,190,191,202,210,211,212,214,215,221,222, 227,228,234, 236,242,254,255, 256,261,268,274,275,276-278, 282,283,286,288,292,293,294,295,296,297,298,303,304,306, 307,317,318,319, 320,322,326,331,333,334,339,340,343,347, 356,357, 359-360,362,363,364,366.

**3. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət

etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən AŞ-nın üzvüdür. – 6,30,69,144,149,166,215,229, 261,275,276,305,335-336,337,343.

**4. Cürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Zaqafqaziyanın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 5493 min nəfərdir. Dövlətin başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 6,12-13,24,25,60-63,89,114,122,184-186,198,220,230, 247,257,263,269,333,340, 341,346,363.

**5. Şevardnadze** E d u a r d A m v r o s i y e v i ç(d.1928) – Gürcüstanın və SSRİ-nin siyasi və dövlət xadimi. 1972–85-ci illərdə Gürcüstan KP MK-nın Birinci katibi, 1985–90-cı illərdə SSRİ Xarici İşlər naziri, 1994–2003-cü illərdə Gürcüstanın prezidenti olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 6,12-13,24,185,262.

**6. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Ərazisi 17075,4 min km$^2$, əhalisi 146,3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı– Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir.–6,14-15,23,98,120-126,127-130,144,148-153,154, 227,228,229,247,257,259,262,263, 264,265,269,270,339-370.

**7. Sergey Mironov,** S e r g e y M i x a y l o v i ç (d.1953) – Rusiya dövlət xadimi, mühəndis-geofizik. 1994–2001-ci illərdə Sankt-Peterburq Qanunverici Məclisinin üzvü, 2001-ci ildə

Rusiya Federasiyası Federal Şurasının üzvü, 2001-ci ilin dekabrından Federal Şuranın sədridir. – 6,14-15,23.

**8. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub–şərq kənarında dövlət. Sahəsi 780,6 min km$^2$, əhalisi 78 mln. nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 6, 25,85,86,156-157, 178-179,201-203, 218, 257, 266, 267, 281-282,316-318,333,336,338,346.

**9. İran,** İran İslam Respublikası – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 62,2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 6,47,166,171,187-188,210-213,247, 257, 264,265,288-290,299,300,343.

**10. Ukrayna,** Ukrayna Respublikası – Cənub–Şərqi Avropada dövlət. Ərazisi 603,7 min km$^2$, əhalisi 51,3 milyon nəfərdir. Ukraynanın tərkibinə 24 vilayət və Krım Respublikası daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı – Ali RADA-dır. Paytaxtı Kiyev şəhəridir. – 6,16-17, 24,37,41-46,102,103,283-285,341.

**11. Yanukoviç Viktor Fyodoroviç** (d.1950) – mühəndis-mexanik. 2003 və 2007-2008-ci illərdə Ukrayna Respublikasının Baş naziri olmuşdur. Hal-hazırda Regionlar Partiyasının rəhbəridir. – 6,16-17.

**12. «Əsrin müqaviləsi»** – 1994-cü ilin sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi»

haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 8,113,116.

**13. Bakı–Novorossiysk neft kəməri –** 1994-cü ilin sentyabrında Azərbaycan Respublikası hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir hissəsi Bakı–Novorossiysk neft kəməridir. Bu kəmər 1997-ci ilin noyabrında istifadəyə verilmişdir. – 8,345.

**14. Bakı–Supsa neft kəməri** – 1994-cü ilin sentyabrında Azərbaycan hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir vəsiləsi Bakı–Supsa neft kəməridir. Kəmərin uzunluğu 830 km, gündəlik maksimum ötürmə gücü 115 min barreldir. Supsada hər birinin tutumu 250 min barrel olan dörd terminal tikilmişdir.

1999-cu il aprelin 17-də Supsada ilkin Xəzər neftinin qərb istiqamətində nəqli üçün Bakı–Supsa ixrac boru kəmərinin və Supsa yerüstü terminalının təntənəli rəsmi açılış mərasimi olmuşdur. – 8,345.

**15. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 8,9,51,52,55,79,82, 83,109, 111,114,116,189,191,218,220,267,316,317,318,329,331-334, 345, 346.

**16. Dövlət Neft Fondu** – 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti Azərbaycanın neft strategiyasından əldə edilən gəlirlərin idarə edilməsidir. – 8,53,54,55,74,78,90,91,92,162,163,166,190,230, 238,243,268,325,334.

**17. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Ərazisi 4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə Qarabağ separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822,853,874,884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyri-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 10,29,30,36,56,68,69,70,87,88,115, 122,123,147,148-153,158,162,163,166,168,169,171,192,201, 202,210,215,216,227,228,229,235,246,253,257,258,259,264, 277,286,337,340,342,343,348,349,363,365,367.

**18. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və Fransa həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 10,30,36, 68,70,71,84,88,122,123,148-153,162,166,167,192,201,215, 216,227,228,229,235,253,258,259,260,264,274,305,338,342, 365,367.

**19. MDBMİ** – Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu. – 13.

**20. Putin,** V l a d i m i r V l a d i m i r o v i ç (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının prezidenti. 1975-97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Ru-

siya Federasiyası prezidenti administrasiyasının rəhbəri, 1998-99-cu illərdə MTİ-in direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. – 14,23,120,121, 125,127,128,144,154,228,262,339,342,348,350,352,353-370.

**21. Leonid Daniloviç Kuçma** (d.1938) – Ukraynanın siyasi və dövlət xadimi. 1994–2005-ci illərdə Ukrayna Respublikasının prezidenti olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 16,17,24,41,42,46, 283,284.

**22. Avropa Şurasının Parlament Assambleyası** (AŞ PA) – 2004-cü ildə təşkil olunmuşdur. AŞ PA-da 25 Avropa ölkəsinin 732 deputatı fəaliyyət göstərir. – 17,68-71,158-159,343.

**23. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici işlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt–Peterburq şəhərində olan Parlament-

lərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir.– 24,41,73,101,120,122,129,149,181,189,320, 341,363.

**24. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyə ictimai, siyasi və dövlət xadimi. P.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1983-cü ildən siyasi fəaliyyətini Rifah partiyasında davam etdirir. 1994-cü ilin martında keçirilən bələdiyyə seçkilərində İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri seçilir. Bu arada Rifah partiyası bağlanır və onun bazasında Fəzilət partiyası yaradılır. Buna görə də Ərdoğanı dəstəkləyən partiya üzvləri Fəzilət Partiyasından ayrılaraq Ədalət və İnkişaf partiyasını qurdular və onu özlərinə lider seçdilər.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində AKP təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri seçildi. – 25,86, 203,316.

**25. Əhməd Necdət Sezər** (d.1941) – 2000–2007-ci illərdə Türkiyə prezidenti. 1962–83-cü illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1993-cü ildə Türkiyə Kassasiya Məhkəməsinin, 1988-ci ildə isə Türkiyə Konstitusiya Məhkəməsinin üzvü seçilib. 1998–2000-ci illərdə Türkiyə Konstitusiya Məhkəməsinin sədri olmuşdur. – 25,85,203,316.

**26. Əlcəzair,** Əlcəzair Xalq Demokratik Respublikası – Şimali Afrikada dövlət. Sahəsi 2381,7 min km$^2$, əhalisi 29 milyon nəfərdir. İnzibati ərazisi 48 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Xalq Məclisidir. Paytaxtı Əlcəzair şəhəridir. – 27.

**27. Əbdüləziz Buteflik** – 1999-cu ildən Əlcəzair prezidenti. – 27.

**28. Bolqarıstan,** B o l q a r ı s t a n  R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 8,4 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 28-31.

**29. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə relsindən əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 29,30,230,344,345.

**30. SSRİ,** S o v e t  S o s i a l i s t  R e s p u b l i k a l a r ı  İ t- t i f a q ı – 1922–1991-ci illərdə dünyanın ən böyük və qüdrətli dövlətlərindən biri. Tərkibində 15 müttəfiq respublika, 20 muxtar respublika, 8 muxtar vilayət olmuşdur. – 31,37,236,242,259.

**31. Kamboca,** K a m b o c a  K r a l l ı ğ ı – Cənub–Şərqi Asiyada dövlət. Sahəsi 181 min km$^2$, əhalisi 10 milyon nəfərdir. Ərazisi 19 əyalətə (kxetə) bölünür. Dövlət başçısı kral, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Pnompen şəhəridir. – 34.

**32. Norodom Sianik** (d.1922) – 1945–55 və 1993-cü ildən Kambosanin kralı. 1955-ci ildə atasının xeyrinə taxt-tacı tərk etmişdi. 1955–60-cı illərdə hökumət başçısı, 1970–75 və 1979–90-cı illərdə isə mühacirətdə olmuşdur. 1991-ci ildən yenidən dövlətin başçısı kimi tanındı. 1991-ci ildən həm də Ali Milli Məclisin (Milli barışığın) sədridir. – 34.

**33. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Ərazisi 9,14 milyon km$^2$, əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 35-38,82-84,87-89,123,141-142,148-153,173,181, 227,228,229,258,262,264,270,281,282,341,342.

**34. Bjezinski Zbiqnev** (d.1928) – Amerikanın siyasi və dövlət xadimi, politoloq. 1977–81-ci illərdə ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri, 1981-ci ildən Strateji və Beynəlxalq Tədqiqatlar Mərkəzinin rəhbəridir. 1987–91-ci illərdə ABŞ prezidentinin xarici kəşfiyyat üzrə müşavirlər komitəsinin üzvü olmuşdur. 1989-cu ildən Con Hopkins Universitetinin Nitse adına Dərinləşdirilmiş Beynəlxalq Tədqiqatlar Mərkəzinin rəhbəri, Amerika–Azərbaycan Ticarət Palatasının fəxri müşaviridir. – 35-38.

**35. Polşa,** P o l ş a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 37.

**36. Çexiya,** Ç e x i y a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 78,9 min km$^2$, əhalisi 10,3 milyon nəfərdir. İnzibati cəhətdən 7 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Deputatlar palatası) parlamentdir. Paytaxtı Praqadır. 1993-cü ildən Çexoslovakiya Federasiyasının fəaliyyəti dayandırıldıqdan sonra Çexiya müstəqil dövlətdir. – 37.

**37. Macarıstan,** Macarıstan Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 93 min km$^2$, əhalisi 10,2 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Dövlət Şurasıdır. Paytaxtı Budapeşt şəhəridir. – 37.

**38. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 37,196.

**39. Avropa Birliyi** (AB) – 1951–57-ci illərdə yaranmış üç Qərbi Avropa inteqrasiya təşkilatının ümumi adı (Avropa İqtisadi Birliyi – AİB, Avropa Kömür və Polad Birliyi – AKPB, Avropada Atom Energetika Birliyi – (AAEB). AB ümumi prinsiplərin müəyyən edilməsindən birgə fəaliyyətə qədər bir neçə mərhələ (Avropa İnvestisiya Bankının, Avropa Regional İnkişaf Fondunun – vahid valyuta qəbul etməsi – AVRO) keçmişdir. Mühüm mərhələ Vahid Avropa Aktının (1986–1987-ci ildən qüvvəyə minmişdir) qəbul edilməsi olmuşdur. 1967-ci ildə rəhbər orqanların birləşməsindən sonra – AİB, AKPB və AAEB – Avropa Birliyi – 1993-cü ildə isə Avropa Şurası yarandı. – 37,341.

**40. Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı** – 1992-ci ildə İstanbul zirvə görüşündə yaradılmışdır. Buraya Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan,

Moldova, Rumıniya, Rusiya, Serbiya, Xorvatiya, Türkiyə, Ukrayna və Yunanıstan daxildir. Bu təşkilat ancaq iqtisadi əməkdaşlıq maraqları əsasında qurulmuş təşkilatdır. İqamətgahı İstanbuldadır. – 39-40.

**41. Bakı Slavyan Universiteti** – 2000-ci ildə prezident Heydər Əliyevin fərmanı ilə M.F.Axundov adına Azərbaycan Rus dili və Ədəbiyyatı İnstitutunun bazası əsasında yaradılmışdır. İnstitutun beş fakültəsi var. Burada rus, bolqar, polyak, çex, yunan, ukrayna dilləri, roman–alman filologiyası öyrənilir. Universitetdə 40-dan çox elmlər doktoru, 200-ə yaxın elmlər namizədi fəaliyyət göstərir, üç min tələbə isə təhsil alır. – 44,45.

**42. Şəhidlər xiyabanı.** Azərbaycanın azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş mərd oğul və qızların uyuduğu müqəddəs ziyarətgah. 1990-cı il yanvarın 20-də sovet ordusunun hücumu zamanı həlak olmuş onlarla adam «Dağüstü park»ın qərb hissəsində dəfn edilmişdir. Bura o vaxtdan «Şəhidlər xiyabanı» adlanır. Xiyabanda eyni zamanda Ermənistan işğalçılarına qarşı Azərbaycan torpaqlarının müdafiəsi uğrunda qəhrəmancasına həlak olanlar da dəfn edilmişdir. 1998-ci ildə burada hündürlüyü 22 metr olan əbədi məşəl – abidə qoyulmuşdur. – 45,214-222.

**43. 1990-cı ilin yanvarı –** 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə

tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 45,214-222.

**44. Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi** – BMT-nin əsas orqanlarından biri. BMT üzvü olan bütün dövlətlərdən ibarətdir. BMT üzvlərinə və ya BMT Təhlükəsizlik Şurasına hər cür məsələlərə və işlərə tövsiyələr vermək səlahiyyəti var.

Baş Məslisin qərarları tövsiyə xarakteri daşıyır, yəni hüquqi cəhətdən üzv dövlətlər üçün məcburi deyil. Məclisin hər il növbəti sessiyası olur. Baş Məclisin nəzdində onun funksiyalarını həyata keçirmək üçün 7 əsas komitə var. – 45,288.

**45. Xatəmi Seyid,** M ə h ə m m ə d X a t ə m i (d.1943) – İranın siyasi, ictimai və dövlət xadimi. 1989–92-ci illərdə İranın mədəniyyət və islam orijentasiyası naziri, 1997–2005-ci illərdə İran İslam Respublikasının prezidenti olmuşdur. – 47,166,187,211,213,288,300.

**46. Səudiyyə Ərəbistanı,** S ə u d i y y ə Ə r ə b i s t a n ı K r a l l ı ğ ı – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon $km^2$, əhalisi 18,4 milyon nəfərdir. Paytaxtı ər-Piyaddır. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası var. Müsəlmanların iki müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. – 48,49.

**47. Fəhd Bin Əbdüləziz,** A l S ə u d (1922–2005) – 1982-ci ildən iki müqəddəs ocağın xidmətçisi və Səudiyyə Ərəbistanının kralı. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 48.

**48. İndoneziya,** İndoneziya Respublikası – Cənub–Şərqi Asiyada dövlət. Sahəsi 1904,5 min km$^2$, əhalisi 198,2 milyon nəfərdir. İnzibati ərazisi 24 əyalətə, əyalət statusu olan 2 xüsusi inzibati əraziyə, 1 metropoliten mahalına (paytaxt) bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridir. – 50.

**49. Meqavati Sukarnoputri** (d.1947) – 2001–2004-cü illərdə İndoneziyanın prezidenti olmuşdur. Birinci prezident Əhməd Sukarnonun qızıdır. – 50.

**50. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton–Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 51-55,75,82.

**51. Vulfenson Ceym** (d.1933) –1995–2007-ci illərdə Dünya Bankının prezidenti olmuşdur. – 52.

**52. Avropa Yenidənqurma və İnkişaf Bankı –** Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Londonda yerləşir. Bankın 57 üzvü var, həmçinin Avropa İnvestisiya Bankı və Avropa Birliyi ora daxildir. – 53,83.

**53. Beynəlxalq Valyuta Fondu** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-ci ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə, məqsədi beynəlxalq valyuta

əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkələrin ödəmə balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur. – 54,238,268,269.

**54. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** A l l a h-ş ü k ü r  H ü m m ə t  o ğ l u (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 56-57,106-108,176.

**55. Ramazan ayı** – Qurani-Kərimin nazil olduğu ay. – 56.

**56. Acarıstan** – Gürcüstan Respublikasında muxtar respublika. Ərazisi 2,9 min km$^2$, əhalisi 386,7 min nəfərdir. Paytaxtı Batumi şəhəridir. – 60-63,340.

**57. İtaliya,** İ t a l i y a  R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Radan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301 min km$^2$, əhalisi 57,5 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 64,65,317,335-336.

**58. Adzelyo Karlo Çampi** (d.1920) – İtaliya siyasi xadimi. 1999–2006-cı illərdə İtaliya Respublikasının prezidenti olmuşdur. – 64.

**59. Silvio Berluskoni (**d.1936) – 1994–95, 2001–2006-cı illər və hal-hazırda İtaliya Respublikasının Baş naziri. – 65.

**60. Latviya,** L a t v i y a  R e s p u b l i k a s ı – Şərqi Avropada, Pribaltikada dövlət. Sahəsi 64,5 min km$^2$, əhalisi

2530 min nəfərdir. İnzibati ərazisi 26 rayona (qəza) bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. – 66.

**61. Vayra Vike–Freyberq** (d.1937) – Latviya dövlət xadimi, 1999–2007-ci illərdə Latviya Respublikasının prezidenti. Psixologiya elmləri doktoru, professor. Kanadada emiqrant olmuş, 1997-ci ildə Latviyaya köçmüş və siyasi fəaliyyətə başlamışdır. – 66.

**62. Oman,** O m a n   S u l t a n l ı ğ ı – Şərqi Ərəbistan yarımadasında dövlət. Sahəsi 212,4 min $km^2$, əhalisi 2,2 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə bölünür. Dövlət başçısı sultandır. Paytaxtı – Məskət şəhəridir. – 67.

**63. Qabus Bin Səid** (d.1940) – 1970-cı ildən Oman sultanı. Sultan həm də ölkənin Baş naziri, Müdafiə naziri və Xarici İşlər naziri vəzifələrini icra edir. Sultan Bin Səid ərəb aləmində yenilikçi və reformator kimi tanınır. Qabus öz administrasiyasını müdhiş korrupsionerlərdən təmizləmiş, əhalinin həyat səviyyəsini xeyli qaldırmışdır. – 67.

**64. Avropa İttifaqı** – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderlandiya, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına Avstriya, Finlandiya daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildə vahid valyuta–avro işlənir, vahid pul-kredit siyasəti aparılır. – 68,69,215,228,230,245,266,267,275, 305,337,338.

**65. Xankəndi** – Azərbaycan Respublikasında şəhər. Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi. 1990-cı ildən erməni separatçıları tərəfindən işğal edilmişdir. – 70.

**66. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ)** – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 75,76,243,333.

**67. Əfqanıstan,** Əfqanıstan İslam Dövləti – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 652,2 min km$^2$, əhalisi 22,7 milyon nəfərdir. İnzibati ərazisi 29 vilayətə və 2 tabe mərkəzi mahala bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 83,89,125,144,146,204,289.

**68. Donald Ramsfeld** (d.1932) – Amerika siyasi xadimi, respublikaçı, 1975–77, 2001–2006-cı illərdə ABŞ-ın müdafiə naziri olmuşdur. – 89,141-142.

**69. Kolumbiya universiteti** – ABŞ-ın ən böyük elm mərkəzlərindən biri. Əsası Nyu-York şəhərində 1754-cü ildə qoyulmuşdur. Universitet statusunu 1912-ci ildə almışdır. Burada 20 minə yaxın tələbə təhsil alır. – 90-93.

**70. Cozef Stiqlits** (d.1943) – amerikan iqtisadçısı. Nobel mükafatı laureatı («Bazar iqtisadiyyatı və qeyri simmetrik analizə görə), Kolumbiya universitetinin professoru. – 90-93.

**71. Klinton Bill,** Uilyam Ceferson Blayd (d.1946) – ABŞ-ın görkəmli siyasi və dövlət xadimi. ABŞ-ın 41-ci prezidenti (1992–2000). Klinton xarici siyasətində SSRİ dağıldıqdan sonra müstəqillik qazanmış dövlətlərlə, o cümlədən

Azərbaycan Respublikası ilə münasibətlərin yaxşılaşdırılmasına mühüm əhəmiyyət vermişdir. – 91.

**72. Holland sindromu»** – ölkə iqtisadiyyatında əsas diqqətin bir sahəyə yönəldilməsi. – 92.

**73. Elmira Süleymanova** (d.1937) – kimya elmləri doktoru, professor. 1967-ci ildən Azərbaycan Respublikası MEA-nın kimya elmləri bölməsinin elmi katibi, 1982-ci ildən Neft Kimya Prosesləri İnstitutunda laboratoriya müdiri, 1990-cı ildən Azərbaycan Qadınlar Cəmiyyətinin sədr müavini, 1995-ci illərdə isə Qadın və İnkişaf Mərkəzinin sədri olmuşdur. Hazırda Azərbaycan Respublikasının ombudsmanıdır. – 94-105.

**74. Nobel qardaşları** – İsveç ixtiraçıları və sənayeçiləri. Silah istehsalı və ağ neft ticarəti ilə məşğul olmuşlar. Robert Nobel XIX əsrin 70-ci illərində Bakıya gəlmiş və neft işi ilə maraqlanmışdı. O, sonralar qardaşı Lüdviqi də bu işə cəlb etmiş və onlar 1879-cu ildə «Nobel qardaşları» şirkətini təsis etmişlər. Şirkətin, demək olar, bütün kapitalı, habelə illər boyu götürdüyü yüz milyon manatlarla izafi mənfəət Bakı neftinin hesabına qazanılmışdı. Tərkibinə əsas kapitalı 130 milyon manatdan çox olan 25 müxtəlif müəssisə daxil idi.

Nobel qardaşları inhisarlarının Bakıda fəaliyyəti Azərbaycan iqtisadiyyatının inkişafına səbəb oldu. Onların açdığı müəssisələrdə minlərlə azərbaycanlı işləmiş və onlar öz işlərinin gözəl mütəxəssisi olmuşlar. Onların sifarişi ilə İsveçdə tikilən və Xəzərə gətirilən «Zoroastr» gəmisi dünyada ilk neftdaşıyan tanker idi. Beynəlxalq Nobel mükafatları Alfred Nobelin vəsiyyətinə əsasən Nobel fondu tərəfindən təsis edilmişdir. Bu mükafat hər il məşhur alimlərə (etdikləri ixtiralara və gördükləri işlərə), ictimai və siyasi xadimlərə, yazıçı və şairlərə verilir. – 98,99.

**75. Əsgər Akayev** (d.1944) – 1989–90-cı illərdə Qırğızıstan EA-nın prezidenti, 1990–2005-ci illərdə Qırğızıstan Respublikasının prezidenti olmuşdur. – 101,167.

**76. Ramazan bayramı –** müsəlman aləmində oruclaq bitəndən sonra keçirilən bayram. Qurani-kərim oruc tutmağı islamın vacib əməllərindən biri hesab etmiş və insanlarda yol verilmiş xətaların oruc tutmaqla bağışlanmasını təsbit edir. Bu bayram bir də ona görə əzizdir ki, məhz Qurani-kərim müqəddəs Ramazan ayında nazil olmuşdur. Bu bayram bir fərdin deyil, bütün cəmiyyətin mənəvi sevinci, bu həyəcanın hamıya çatması, bütün müsəlmanları qəlbdən qardaş sanmaqdır. – 106-108.

**77. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 372 min km$^2$, əhalisi 126 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 109-112.

**78. Koidzumi** (d.1942) – Yaponiya Liberal–Demokrat partiyasının başçısı. 2001-2006-cı illərdə Yaponiyanın Baş naziri olmuşdur. – 110.

**79. Ümumdünya Ticarət Təşkilatı** – 1947-ci ildə qəbul edilmiş müqavilə 23 ölkənin beynəlxalq ticarətdə gömrük rüsumlarının aşağı salınmasına və başqa çətinliklərin aradan götürülməsində hökumətlərarası qəbul etdiyi çoxtərəfli müqavilədir. Bu müqavilə 1995-ci ildə beynəlxalq ticarətdə rüsumlar haqqında qəbul edilmiş müqavilənin hüquqi varisidir.

Təşkilatın əsas prinsipi bütün iştirakçılar üçün münasib mühit yaratmaqdır. Təşkilata 130 ölkə daxildir. – 111.

**80. Abid Şərifov,** A b i d Q o c a o ğ l u (d.1940) – inşaatçı. 1995-ci ildən Azərbaycan Respublikası Baş nazirinin müavini. – 111,218.

**81. Bakı Dərin Dəniz Özülləri zavodu** – 1978-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə yaradılmışdır. Respublikada neft sənayesinin inkişafında böyük rolu vardır. – 113-118.

**82. Ayaz Mütəllibov,** A y a z N i y a z i o ğ l u (d.1938) – 1989–90-cı illərdə Azərbaycan SSR Nazirlər Sovetinin sədri, 1990-cı ildə Azərbaycan KP MK-nın birinci katibi seçilmişdir. 1992–1993-cü illərdə Azərbaycan Respublikasının prezidenti olmuşdur. Ayaz Mütəllibov işində ciddi səhvlərə yol vermiş, nəticədə Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağdan azərbaycanlı əhalini çıxarmış və ərazini işğal etməyə nail olmuşlar. – 116.

**83. Rəsul Quliyev,** R ə s u l B a y r a m o ğ l u (d.1947) – 1993–96-cı illərdə Milli Məclisin sədri olmuşdur. – 116.

**84. Albaniya,** A l b a n i y a R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 28,7 min $km^2$, əhalisi 3,2 milyon nəfərdir. İnzibati cəhətdən 26 retiyə (rayona) bölünür. Dövlətin başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Tirana şəhəridir. – 119.

**85. Trubnikov Vyaçeslav,** V l a ç e s l a v İ v a n o v i ç (d.1944) – Rusiya dövlət xadimi, ordu generalı. 1996–2000-ci illərdə Rusiya Federasiyası Xarici Kəşfiyyat İdarəsinin direktoru, 2000-2004-cü illərdə Xarici İşlər nazirinin birinci müavini, 2004-cü ildən Hindistanda fövqəladə və səlahiyyətli səfirdir. – 120-126,148-153,348.

**86. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 551 min $km^2$, əhalisi 58,4 milyon

nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici hakimiyyəti iki palatadan (Milli Məclis və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 123, 148-153,195,215,220,226-280,286-287,340,342,344,367.

**87. Çeçenistan (İçkeriya)** – Rusiya Federasiyasında respublika. Paytaxtı Qroznı şəhəridir.

Orta əsrlərin əvvəllərində Çeçenistanın xeyli hissəsi Alan dövlətinin tərkibində idi. XIX əsrdə Rusiya Şimali Qafqazı işğal etməyə başladı. Çeçenlər öz torpaqlarından çıxarılır, onların yerinə burada kazaklar yerləşdirilirdi. Bu da Çeçenistanda milli-azadlıq hərəkatının başlanmasına səbəb oldu. Dağlıların bu hərəkatı (1817–1864) 1859-cu ildə Şeyx Şamil təslim olduqdan sonra yatırıldı və Çeçenistan tamamilə Rusiyaya birləşdirildi. 1991–92-ci illərdə Rusiya Federasiyası tərkibində müstəqil Çeçenistan Respublikası yaradıldı. – 124,125, 340.

**88. Vilayət Quliyev,** Vilayət Muxtar oğlu (d.1952) – filoloq, diplomat. Filologiya elmləri doktoru. 1996–2000-ci illərdə Milli Məclisin deputatı olmuşdur. 1999–2004-ci illərdə Azərbaycan Respublikası Xarici İşlər naziri vəzifəsində çalışmışdır. Hazırda Azərbaycan Respublikasının Polşa Respublikasında fövqəladə və səlahiyyətli səfiridir. – 125,349.

**89. Viktor Xristenko,** Viktor Borisoviç (d.1957) – iqtisad elmləri doktoru, professor. 2000-ci ildən Rusiya Federasiyası Baş nazirinin müavini, 2004-cü ildən Rusiya Federasiyasının Sənaye və Energetika naziri, 2008-ci ildən Sənaye və Ticarət naziridir. – 127-130.

**90. Rumıniya** – Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 237,5 min km$^2$, əhalisi 22,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunvericilik orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 131.

**91. İon İliesku** (d.1930) – Rumıniyanın siyasi və dövlət xadimi. 1989-cu ildə N.Çauşesku rejimi devrildikdən sonra ölkənin və dövlətin bütün məsuliyyətini öz üzərinə götürən Milli Dirçəliş Cəbhə Şurasına başçılıq edib. 1992–96-cı və 2000–2004-cü illərdə Rumıniyanın prezidenti olmuşdur. – 131,166.

**92. Tahir Salahov,** T a h i r  T e y m u r  o ğ l u (d.1928) – görkəmli Azərbaycan boyakarı və qrafiki. Azərbaycan və SSSR-nin xalq rəssamı. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. Rusiya Rəssamlıq Akademiyasının həqiqi üzvü. 1973-cü ildən SSRİ Rəssamlar İttifaqı İdarə Heyətinin 1-ci katibi olmuşdur. Salahovun yaradıcılığı mövzu və janr zənginliyi, bədii forma əlvanlığı, estetik kamilliyi ilə səciyyələnir. Bu baxımdan müasir portret sənətinin ən kamil nümunələrindən olan «Bəstəkar Qara Qarayev»in portreti, eləcə də monimental divar rəsmini xatırladan «Abşeron qadınları» əsərləri xüsusilə fərqlənir. Azərbaycan Respublikası və SSRİ Ali sovetlərinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif olunmuşdur. – 132-133.

**93. Birləşmiş Ərəb Əmirlikləri** – Cənubi Asiyada dövlət. Sahəsi 83,6 min $km^2$, əhalisi 2,5 milyon nəfərdir. BƏƏ-nin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı – Federal Milli Şuradır ki, prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 134.

**94. Zayid Bin Sultan Al Nəhəyya** (d.1949) – 2004-cü ildən Birləşmiş Ərəb Əmirliklərinin prezidenti, Əbu-Dabunun əmiridir. – 134.

**95. LAOS,** Laos Xalq Demokratik Respublikası – Cənub–Şərqi Asiyada dövlət. Sahəsi 236,8 min $km^2$, əhalisi 5 milyon

nəfərdir. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Ali Xalq Məclisidir, Paytaxt Vyentyan şəhəridir. – 135.

**96. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür. – 138,143-147,161,162-163,164,166,168-169,170-172,206.

**97. Tailand,** T a i l a n d  K r a l l ı ğ ı – Cənub–Şərqi Asiyada dövlət. Sahəsi 514 min km$^2$, əhalisi 60 milyon nəfərdir. Dövdət başçısı kraldır. Qanunverici orqanı ikipalatalı Milli Assambleyadır. İnzibati cəhətdən 73 çanqvata (əyalətə) bölünür. Paytaxtı Banqkok şəhəridir. – 138,139.

**98. Finlandiya,** F i n l a n d i y a  R e s p u b l i k a s ı – Şimali Avropada dövlət. Sahəsi 397 min km$^2$, əhalisi 5,13 milyon nəfərdir. İnzibati ərazisi 11 lyaniyə (əyalətə) bölünür. Aland adaları isə muxtar ərazidir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Raytaxtı Helsinki şəhəridir. – 140.

**99. Tarya Halonen** (d.1943) – Finlandiyanın ictimai və siyasi xadimi. Müxtəlif illərdə – Ədliyyə, Sosial Müdafiə və Xarici İşlər nazirliklərinə başçılıq etmişdir. 2000-ci ildən Finlandiya Respublikasının prezidentidir. – 140.

**100. Corc Buş** (d.1946) – ABŞ-ın 43-cü prezidenti (2000–2008-ci illər). ABŞ-ın 41-ci prezidenti Corc Herbert Buşun oğludur. 1968-ci ildə Yel universitetini (incəsənət, tarix bakalavrı), 1975-ci ildə isə Harvard universitetini (incəsənət magistri) bitirmişdir. «Speaktrum-7 Enerci Korporeyşn» firmasının yaradıcısıdır. 1994-cü ildən Texas ştatının qubernatoru olmuşdur. Respublikaçıdır. – 141.

**101. Klivlend** – ABŞ-da şəhər. Klivlend ABŞ-ın sənaye, maliyyə–ticarət və mədəni mərkəzlərindən biri kimi tanınır. – 142,173.

**102. «Sülh naminə tərəfdaşlıq» proqramı** – NATO ilə Şərqi Avropa və keçmiş SSRİ ölkələri arasında siyasi və hərbi sahələrdə əməkdaşlıq sənədi, 1994-cü il yanvarın 10–11-də NATO Şurasının dövlət və hökumət başçıları səviyyəsində Brüsseldə keçirilən görüşdə ABŞ tərəfindən təklif edilmişdir.

Azərbaycan prezidenti Heydər Əliyev 1994-cü il mayın 4-də NATO-nun Brüsseldəki mənzil-qərargahında Azərbaycanın «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulması haqqında sənədi imzalamışdır. 1996-cı ilin aprelində Heydər Əliyev NATO-nun Brüsseldəki mənzil-qərargahında NATO-nun Baş katibi Xavyer Solana ilə görüşündə Azərbaycan Respublikasının təqdimat sənədini ona vermişdir. Həmin sənəd əsasında Azərbaycanın NATO ilə tərəfdaşlığının fərdi proqramı hazırlanmışdır. – 142,196,341.

**103. QİÇS** – Qazanılmış İmmunitet Çatışmazlığı Sindromu. – 145.

**104. Əli Həsənov,** Ə l i Ş a m i l o ğ l u (d.1948) – 1998-ci ildən Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsinin sədridir. 1995–2000-ci illərdə Milli Məclisin üzvü olmuşdur. – 145.

**105. Merzlyakov Yuri** (d.1949) – Rusiya Federasiyasının fövqəladə və səlahiyyətli səfiri. 2003-cü ildən ATƏT-in Minsk qrupunda Dağlıq Qarabağ məsələsinin nizamlanması üzrə həmsədrlərindən biri. – 148-153.

**106. Keniya,** K e n i y a  R e s p u b l i k a s ı – Şərqi Afrikada dövlət . Sahəsi 582,6 min $km^2$, əhalisi 29,1 milyon nəfərdir. İnzibati ərazisi 7 əyalətə və paytaxt mahalına bölünür. Millətlər Birliyinə daxildir. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Nayrobi şəhəridir. – 155.

**107. Mustafa Kamal Atatürk,** Q a z i  M u s t a f a  K a m a l (1881-1938) –Türkiyə dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk Prezidenti (1923–38). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Atatürk 1919-cu ildə «Kamalçılar hərəkatı»na – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soyadı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 156,281,282.

**108. İpək yolu**, B ö y ü k  İ p ə k  y o l u – beynəlxalq tarixi tranzit–ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin böyük İpək yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də böyük İpək yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – böyük İpək yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 156,223-225,247.

**109. İsveçrə,** İsveçrə Konfederasiyası – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 7,1 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 160-172,197.

**110. Cenevrə** – İsveçrədə şəhər, Cenevrə kantonunun inzibati mərkəzi. Bir çox beynəlxalq təşkilatlar burada yerləşir. – 160-172,263,288.

**111. Cenevrə kantonu** – İsveçrənin ən böyük inzibati ərazi bölgələrindən biridir. – 161.

**112. Kofi Annan** (d.1938) – 1997–2006-cı illərdə Birləşmiş Millətlər Təşkilatının Baş katibi olmuşdur. Nobel mükafatı laureatı. – 162-163,170,171,206.

**113. Süleyman Dəmirəl** (d.1924) – Türkiyənin görkəmli siyasi, ictimai və dövlət xadimi. Yeddi dəfə hökumətə başçılıq etmiş, 1993–2000-ci illərdə Türkiyə Respublikasının prezidenti olmuşdur. SSRİ dağıldıqdan sonra müstəqillik qazanmış türk dövlətləri ilə münasibətlərin, xüsusilə Azərbaycanla əlaqələrin genişlənməsi və möhkəmlənməsi Süleyman Dəmirəlin diqqət mərkəzində olmuşdur. Süleyman Dəmirəl: «Türkiyə həmişə Azərbaycanın yanındadır, Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkədir, onun inkişaf etməsi üçün əlindən gələn hər bir yardımı göstərmişdir və göstərməkdə də davam edəcəkdir» kəlamına əbədi sadiq dövlət xadimidir.

S.Dəmirəl Türkiyə–Azərbaycan, xalqlarımız və dövlətlərimiz arasında sarsılmaz dostluq münasibətlərinə xüsusi diqqət göstərdiyinə görə Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 178-179.

**114. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublika ərazisinin sahəsi 5,5 min $km^2$, əhalisi 372,9 min nəfərdir. Hazırda 7 inzibati rayona (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur (Kəngərli) bölünmüşdür; 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kənd inzibati ərazi dairəsi var. – 180.

**115. Zurab Jvaniya** (1953–2005) – Gürcüstanın siyasi və dövlət xadimi. 1992–95-ci illərdə Gürcüstan parlamentinin deputatı seçilmiş, 1995-ci ildə spiker vəzifəsini tutmuşdur. 2002-ci ildən «Birləşmiş demokratlar» partiyasına rəhbərlik etmişdir. 2003-cü ilin noyabrında məxməri inqilabın təşkilatçılarından biri olmuş və Baş nazir təyin edilmişdir. – 183-186.

**116. M i x a i l  S a a k a ş v i l i,** Mixail Nikolozoviç (d.1967) – 2003-ci ildən Gürcüstan Respublikasının prezidenti. 2000–2001-ci illərdə Gürcüstanda Ədliyyə naziri olmuşdur. Vahid Milli Hərəkat partiyasının sədri, «məxməri inqilab»ın liderlərindən biridir. – 184,198.

**117. Pakistan,** Pakistan İslam Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 796 min km$^2$, əhalisi 133,5 milyon nəfərdir. Paytaxtı İslamabad şəhəridir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. – 193.

**118. Pərviz Müşərrəf** (d.1943) – 2001–2007-ci illərdə Pakistan Respublikasının prezidenti, ordu generalı. 1988–90 və 1993-96-cı illərdə Pakistanın Baş naziri, 1998-ci ildə Baş qərargah rəisi olmuş, 1999-cu ildə hərbi çevriliş nəticəsində hakimiyyətə gəlmişdir. – 193.

**119. Misir Ərəb Respublikası** – Afrikanın şimal-şərqində və Asiyanın Sinay yarımadasında dövlət. Sahəsi 1001,4 min km$^2$, əhalisi 61 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Qahirə şəhəridir. – 194,195.

**120. Hüsnü Mübarək,** S e y i d  M ə h ə m m ə d (d.1928) – Misir Ərəb Respublikasının görkəmli siyasi və dövlət xadimi. 1975–81-ci illərdə Misir Ərəb Respublikasının vitse-prezidenti, 1981-ci ilin oktyabrından prezidentidir. – 194.

**121. Jak Şirak** (d.1932) – Fransanın görkəmli siyasi və dövlət xadimi. 1974–76 və 1986–88-ci illərdə Fransanın Baş naziri, 1977–95-ci illərdə Paris şəhərinin meri, 1995–2007-ci illərdə Fransa Respublikasının prezidenti. «Heydər Əliyev» ordeni ilə təltif olunmuşdur. – 195,274,279,286-287.

**122. Şimali Atlantika Təşkilatı**, bax NATO.

**123. Yaap de Hoop Sxeffer (**d.1948) – Niderlandiya siyasi xadimi, 2004-cü ildən NATO-nun Baş katibidir. – 196.

**124. Milad bayramı** – İsa peyğəmbərin anadan olması şərəfinə keçirilən xristian bayramı. Dekabrın 25-də qeyd edilir. Milad bayramının ilkin mənbəyi hər il qış günəş duruşu zamanı (21–25 dekabr) xilaskar Allahın «doğulması» ilə əlaqədar keçirilən qədim bütpərəst mərasim bayramı olmuşdur. Milad bayramını ilk dəfə Roma xristian icmaları keçirmişdir. Milad bayramı 431-ci ildə Efes kilsə yığıncağında qanuniləşdirilmişdir. – 199-200.

**125. Abdullah Gül** (d.1950) – Türkiyə dövlət və siyasi xadimi, iqtisad elmləri doktoru, professor. 1991-ci ildə TBMM-nın üzvü seçilmişdir. Abdullah Gül Rəcəb Ərdoğanla Ədalət və İnkişaf partiyasının yaradıcılarından biridir. 2007-ci ildən Türkiyənin prezidentidir. – 201-203,218, 316.

**126. Həmid Kərzayi** (d.1957) – 2004-cü ildən Əfqanıstan İslam Dövlətinin prezidenti. 2001-2002-ci illərdə Əfqanıstanın Baş naziri olmuşdur. Kərzayi Əfqanıstanı 200 il idarə etmiş tanınmış Populzay qəbiləsindən olan puştu klanının nümayəndəsidir. – 204.

**127. İslam Kərimov,** İslam Əbduqəni oğlu (d.1938) – Özbəkistanın siyasi və dövlət xadimi. 1989–90-cı illərdə Özbəkistan KP MK-nın Birinci katibi olmuşdur. 1990-cı ildən Özbəkistan Respublikasının prezidentidir. – 205.

**128. Hindistan,** Hindistan Respublikası – Cənubi Asiyada dövlət. Millətlər Birliyinin tərkibindədir. Ərazisi 3,3 milyon km$^2$, əhalisi 953 milyon nəfərdir. Hindistan inzibati cəhətdən 22 ştata və 7 müttəfiq əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Dehli şəhəridir. – 207,208,223.

**129. Əbdül Kalam** (d.1931) – 2002–2007-ci illərdə Hindistan Respublikasının prezidenti. Əbdül Kalam Hindistanda raket və yerətrafı peyk proqramının yaradıcılarındandır. 1980-ci ildə onun başçılığı ilə birinci hind SLV–3 yerətrafı süni peyki kosmosa göndərilmişdir. – 207.

**130. Avstraliya,** A v s t r a l i y a İ t t i f a q ı – Avstraliya qitəsində dövlət. Millətlər Birliyinin tərkibindədir. Ərazisi 7,7 milyon $km^2$, əhalisi 18,3 milyon nəfərdir. Avstraliya İttifaqı inzibati cəhətdən 6 ştata və iki əraziyə bölünür. Dövlət başçısı Böyük Britaniya kraliçasıdır. Ölkədə kraliçanı general-qubernator təmsil edir. Qanunverici orqanı ikipalatalı (Senat və Nümayəndələr palatası) parlamentdir. Paytaxtı Kanberra şəhəridir. – 209.

**131. Con Hovard** (d.1939) – 1996-cı ildən Avstraliyanın Baş naziri. Avstraliya Liberal partiyasının lideri. – 209.

**132. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Ərazisi 0,013 min $km^2$, əhalisi 67 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində isə Albaniyanın, IV əsrdən isə Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olur. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil edilərkən respublikanın paytaxtı oldu. – 213,247.

**133. «BP– Azərbaycan»** – neft şirkəti. 1994-cü ildə yaradılmışdır. Hazırda ABƏŞ-in əsas operatorudur. – 218.

**134. Devid Vuqvord** (d.1946) – neftçi-mühəndis, 1999–2007-ci illər «BP–Azərbaycan» şirkətinin prezidenti. Bir çox ölkələrdə – Ərəb əmirliklərində, Norveç, Rusiya və ABŞ-da «BP» şirkətinin

nümayəndəsi vəzifələrində işləmişdir. İngiltərənin «Müqəddəs Mixail və Müqəddəs Çeorgi», Gürcüstanın «Şərəf», Azərbaycan Respublikasının «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. – 218.

**135. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə elmləri namizədi, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–93-ci illərdə Krasnov adına Moskva Elmi –Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün çoxlu işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan –İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talesimiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahı xalq yaradıcılığına və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliginə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. – 226,279, 350.

**136. Füzuli** (1959-cu islədək Qaryagin rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi

1386 km$^2$, 80,2 min nəfərdir. 1993-cü ildə erməni hərbi qüvvələri tərəfindən işğal edilmişdir. – 245.

**137. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1094 km$^2$, əhalisi 101,6 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni qəsbkarları tərəfindən işğal edilmişdir. – 245.

**138. Şəki xanlarının sarayı** – XVIII əsrin 60-cı illərinə aid Azərbaycan memarlıq abidəsi. Vaxtilə Şəki qalasının (içqalanın) daxilində inşa edilmiş və bir neçə tikilidən ibarət olmuş kompleksdən Şəki xanı Hüseyn xan Müştaqın tikdirdiyi, hazırda Şəki xanlarının sarayı adlanan ikimərtəbəli imarət qalmışdır. Ətraf mühitlə ahəngdar şəkildə tikilmiş sarayın plan quruluşu onun baş (cənub) fasadında əksini tapmışdır. Tavanı güzgülənmiş alt xannişində fəvvarəli mərmər hovuz tikilmişdir.

Tavanında 5 mindən artıq rəsmli həndəsi fiqurlardan yığılmış bədii tərtibat olan alt salon və frizində ov, müharibə səhnələri təsvir olunan üst salon incəliklə işlənməsi, əlvan şəbəkələr, rəngarəng rəsmləri, ornament və təsvirlərin zənginliyinə görə XVIII əsrdə Azərbaycanda tikilmiş saray tipli binaların ən qiymətlisi hesab olunur.

Şəki xanlarının sarayının divarlarında XVIII əsrdə yaşamış tərtibatçı nəqqaş, usta Abbasqulunun (onu həm də sarayın memarı hesab edirlər) adı qalmışdır. – 247.

**139. Şirvanşahlar sarayı –** Azərbaycan memarlıq kompleksi, Şirvan – Abşeron memarlıq məktəbinin görkəmli abidəsi. Bakının İçərişəhər hissəsindədir. Bakının XV əsrdə Şirvanşahlar dövlətinin paytaxtına çevrilməsilə əlaqədar tikilmişdir. 1420–60-cı illər arasında salınmış Şirvanşahlar sarayı ansamblının binaları yerin relyefinə uyğun olaraq inşa edilmişdir. Ərazisinin ən hündür yerində olan Yuxarı həyətdə saray binası (1420-ci illər) və ona bitişik Divanxana (1450-cı illər), aşağı həyətdə türbə (1435) və minarəli Şah məscidi (1442), yuxarı həyətin yaxınlığında Seyid Yəhya Cəlaləddin Bakuvinin türbəsi (1450-ci illər) və ona bitişik kiçik məscid yerləşir. Türbə olan həyətin giriş baştağı Şimal darvazası (1585) tikilmişdir. Şirvanşahlar sarayı ansamblının yaxınlığında hamam, «Şah kəhrizi»nin qurtaracağında 500 min litr su tutan ovdan qalmışdır. – 247.

**140. «Total»** – məşhur fransız neft şirkəti. 1954-cü ildə təşkil olunmuşdur. Bir çox ölkələrdə neftin kəşfiyyatı, emalı və satışı ilə məşğul olur. – 251,252.

**141. Atəşkəs rejimi –** 1994-cü il mayın 12-də Moskvada Ermənistan–Azərbaycan arasında atəşin müvəqqəti dayandırılması (atəşkəs) haqqında müqavilə imzalandı. Müqaviləyə görə, müharibə aparan tərəflər sülh müqaviləsi bağlanana qədər atəşin dayandırılması haqqında razılığa gəldilər. – 256, 268.

**142. Sorbonna** – Paris universitetinin, xüsusən Fransadan xaricdə geniş yayılmış adı. 1253-cü ildə Parisdə keşiş R.de Sorbonun təşəbbüsü ilə yaradılmış və onun şərəfinə adlandırılmış ilahiyyat kolleji və tələbə yataqxanası. Fransa burjua inqilabi dövründə Sorbonna ilahiyyat məktəbi bağlanmış (1792), I Napoleon Sorbonnanın binasını Paris universitetinin sərəncamına vermişdir (1808). – 267.

**143. İkinci dünya müharibəsi** (1939–45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibə elan etdi. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 72 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 264.

**144. «Fəxri legionun böyük xaç komandoru» ordeni** – Fransa Respublikasının ali mükafatı. Bu orden 200 il əvvəl təsis edilmişdir. – 276-279,286.

**145. Napoleon I,** Napoleon Bonapart (1769–1821) – 1804–14 və 1815-ci illərdə Fransa inperatoru. Napoleon istedadlı sərkərdə kimi, Fransa tarixində özünə layiqli yer tutmuşdur. Napoleon fitri istedada, müstəsna işgüzarlığa, dərin zəkaya və yenilməz iradəyə malik bir şəxsiyyət idi. – 277.

**146. Xərrazi Seyid Kamal** (d.1945) – İranın siyasi və dövlət xadimi, pedaqoji elmləri doktoru, professor. 1998–2005-ci illərdə İran İslam Respublikasının Xarici İşlər naziri olmuşdur. Hazırda İran İslam Respublikasının Ali Məsləhət Şurasının üzvü və Strateji Tədqiqatlar Mərkəzinin rəhbəridir. – 288.

**147. Rostropoviç** Mstislav Leopoldoviç (1927–2007) – Bakıda doğulmuş görkəmli musiqiçi, violençelist, dirijor. Lenin mükafatı laureatı, SSRİ xalq artisti. Bakı Musiqi Akademiyasının fəxri professoru. Azərbaycan Respublikasının «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif edilmişdir. – 291-293,295.

**148. Azərbaycan Dövlət Filarmoniyası** – respublikanın ən böyük musiqi təşkilatı. Azərbaycanda Filarmoniya 1936-cı ildə təşkil olunmuşdur (həmin ildən də M.Maqomayevin adını daşıyır). Filarmoniyanın nəzdində Simfonik orkestr, Mahnı və rəqs ansamblı, Rəqs ansamblı, Xor kapellası, Simli kvartet fəaliyyət göstərir. – 294-298.

**149. Müslüm (Əbdülmüslüm) Maqomayev** (1885–1937) – görkəmli Azərbaycan bəstəkarı. 1912-ci ildən ömrünün axırınadək opera tamaşalarına dirijorluq etmişdir. M.Maqomayevin «Şah İsmayıl» operası Azərbaycan opera sənətinin inkişafı tarixində əhəmiyyətli yer tutur. –294.

**150. Polad Bülbüloğlu** (d.1945) – bəstəkar, müğənni, dövlət xadimi. Azərbaycan Respublikasının xalq artisti. Mahnıları 1960–70-ci illərdə SSRİ məkanında məşhur estrada müğənnilərinin ifasında səslənmişdir. 1988–2005-ci illər Azərbaycan Respublikasının mədəniyyət naziri olmuşdur. Hazırda Azərbaycan Respublikasının Rusiyada Fövqəladə və Səlahiyyətli səfiridir. – 294-298.

**151. Sebastyan Bax,** İ o h a n  S e b a s t y a n (1685–1750) – dahi alman bəstəkarı və orqançısı. 1723-cü ildən ömrünün sonunadək Leypsiqin Müqəddəs Foma kilsəsində orqançı olmuşdur. Bax yaşadığı dövrdə orqan ustası kimi şöhrət qazanmış, lakin bəstəkar kimi layiqincə qiymətləndirilməmişdi. Baxı Bethoven «harmoniyanın babası» adlandırmışdır. Bəstəkarın dünya musiqi tarixində mühüm əhəmiyyətə malik «Yaxşı temperasiyalı klaviri» polifoniya üslublarının «ensiklopediyası»dır. Baxın fuqaları Qərbi Avropa polifoniya üslubunun zirvəsidir. – 295.

**152. Firəngiz Əlizadə,** F i r ə n g i z  Ə l i a ğ a  q ı z ı (d.1947) – pianoçu, bəstəkar. Azərbaycan Respublikasının xalq artisti. 2007-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqının sədridir. 2008-ci ildə YUNESKO tərəfindən dünyanın artisti adlandırılmışdır. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 295.

**153. Rauf Abdullayev,** R a u f  C a n b a x ı ş  o ğ l u (d. 1937) – dirijor, Azərbaycan Respublikasının xalq artisti. Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijorudur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 295.

**154. Üzeyir Hacıbəyov,** Ü z e y i r  Ə b d ü l h ü s e y n  o ğ l u (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 295.

**155. Qara Qarayev,** Q a r a  Ə b u l f ə z  o ğ l u (1918–1982) – dahi Azərbaycan bəstəkarı. Musiqisi ümumdünya şöhrəti qazanmış, baletləri respublikamızın və bir sıra dünya teatrlarının səhnəsində tamaşaya qoyulmuşdur. Qarayevin müsiqi dili sahəsinə gətirdiyi yeniliklər Azərbaycan və dünya musiqisinin inkişafında mühüm rol oynamışdır. SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət və Lenin mükafatları laureatı idi. – 295.

**156. Fikrət Əmirov,** F i k r ə t  C ə m i l  o ğ l u (1922-1984) – görkəmli Azərbaycan bəstəkarı. Simfonik muğam janrının yaradıcısı. Fikrət Əmirov instrumental konsert janrında yaradan ilk Azərbaycan bəstəkarlarındandır. Əsərləri, xüsusilə simfonik muğamları Niyazi, Rojdestvenski (Rusiya), L.Stokovski (ABŞ), Ş.Münş (Fransa), Ç.Abendrot (Almaniya) kimi məşhur dirijorların repertuarında səslənmişdir. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı idi. – 295.

**157. Ayətullah Xamenei,** Hüseyn Xamenei Se-yid Əli (d.1939) – İranın dini və dövlət xadimi. 1981–89-cu illərdə İranın prezidenti, 1989-cu ildən isə İran İslam Respublikasının dini rəhbəridir. – 299.

**158. Yeni Zelandiya** – Sakit okeanın cənub-qərbində dövlət. Sahəsi 270,5 min km$^2$, əhalisi 3,62 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. Dövlət başçısı Böyük Britaniya kraliçası. Onu ölkədə general-qubernator təmsil edir. Qanunverici orqan parlamentdir. Paytaxtı Vellinqtondur. – 301.

**159. Şri-Lanka,** Şri–Lanka Sosialist Demo-kratik Respublikası – Cənubi Asiyada dövlət. Millətlər Birliyinə daxildir. Sahəsi 65,6 min km$^2$, əhalisi 18,3 milyon nəfərdir. İnzibati ərazisi 25 əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı rəsmi olaraq Cayavar Denapurakotte, faktiki isə Kolombodur. – 302.

**160. ANS televiziyası** – Azərbaycanda 1991-ci ildən fəaliyyət göstərən müstəqil televiziya kanallarından biri. – 303-307.

**161. Çingiz Mustafayev,** Çingiz Fuad oğlu (1960–1992) telejurnalist. Azərbaycan Respublikasının Milli Qəhrəmanı. – 302-307.

**162. Artur Rasizadə,** Artur Tahir oğlu (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 308.

**163. Lənkəran** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 661 km$^2$, əhalisi 146,9 min nəfərdir. – 308-313,346.

**164. Ramil Usubov** (d.1948) – general-polkovnik. 1994-cü ildən Azərbaycan Respublikasının Daxili İşlər naziridir. – 308.

**165. Qurban bayramı** – müsəlman dünyasında ən əziz bayramlardan biri. Qurban bayramı zil-hiccə ayının 10-cu günü başlayır. Müsəlmanlar bu bayramı islamın əsas şərtlərindən biri – həcc mərasimlərinin yerinə yetirilməsi və böyük Allahın bəndələrinin günahının bağışlanması günü kimi qeyd edirlər. – 314-315.

**166. Hacıbala Abutalıbov,** Hacıbala İbrahim oğlu (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika–riyaziyyat elmləri doktorudur. – 330.

**167. ATƏT-in Parlament Assambleyası** –317 parlamentarisi olan beynəlxalq parlament qrupu. 1990-cı ildə Parisdə yaradılmışdır. Assambleya ildə bir neçə dəfə Milli parlament deputatlarını toplayaraq ATƏT-lə bağlı məsələləri müzakirə edir. Hər il Assambleya səs çoxluğu ilə sədr seçir, sədr əsas yığıncaqlarda iştirak edir. Mənzil –qərargahı Kopenhagendədir. Assambleyanın daimi əməkdaşları 14 nəfərdir. – 337-338.

**168. «İzvestiya»** – Rusiya Federasiyasında gündəlik, siyasi qəzet. 1917-ci ildən nəşr edilir. – 339-347.

**169. «Soyuq müharibə»** – keçmiş SSRİ və müttəfiqləri, digər tərəfdən isə ABŞ və onun müttəfiqləri arasında olan hərbi-siyasi konfrantasiya. «Soyuq müharibə» İkinci dünya müharibəsindən sonra yaranmış və ona 90-cı illərin əvvəlinə qədər SSRİ-də və digər sosialist ölkələrində siyasi və sosial dəyişikliklər nəticəsində son qoyulmuşdur. – 341.

**170. Səməd Seyidov,** Səməd İsmayıl oğlu (d.1964) – filologiya elmləri doktoru, professor. 2000-ci ildən Azərbaycan Dövlət Dillər Universitetinin rektoru, Azərbaycan Respublikası Milli Məclisinin deputatı. 2003-cü ildən Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin başçısıdır. – 343.

**171. Lyudmila Putina,** Lyudmila Aleksandrovna (d.1958) – Rusiya Federasiyası Baş naziri V.V.Putinin həyat yoldaşı. – 350.

**172. AzərTAc** – Azərbaycanda dövlət informasiya orqanı. 1920-ci ildə yaradılmışdır. Əvvəllər Azərinform adlanırdı. 1992-ci ildən Azər TAc kimi fəaliyyət göstərir. Azərbaycan Respublikası mətbuatı, televiziya və radiosu üçün xarici və daxili informasiyanı yayır, respublikanın həyatı haqqında ölkədə və xaricdə yaymaq üçün informasiya verir. – 361.

**173. İTAR** – **TASS** – Rusiya İnformasiya Teleqraf Agentliyi. 1992-ci ildə SİTA-nın bazası əsasında yaradılmışdır. – 361.

## Şəxsi adlar göstəricisi


**Abaşidze Aslan** – 60-63
**Abdullayev Rauf** –295
**Abulyade Bhumibol** – 138
**Abutalıbov Hacıbala** – 330
**Akayev Əsgər** – 101,167
**Aqo Pyetro Erkole** – 335-336
**Al Nəhəyya Zayid Bin Sultan** – 134
**Al Səud Abdullah Bin Əbdüləziz** – 49
**Al Səud Fəhd Bin Əbdüləziz** – 48
**Alyo-Mari Mişel** – 253-254
**Annan Kofi** – 162-163,170,171,206
**Atatürk Mustafa Kamal** – 156,281,282
**Bax Sebastyan** – 295
**Bakir Tursunbay** – 94-105
**Berluskoni Silvio** – 65
**Bjezinski Zbiqnev** – 35-38
**Borsotti Marko** – 94-105
**Bryus Malkolm** – 158-159
**Buadve Serj** – 242
**Buş Corc** – 141
**Buteflik Əbdüləziz** – 27
**Conson** – 88
**Gampi Karlo Adzelyo** – 64
**Çeçelaşvili Valeri** – 39-40
**Days Yozef** – 197
**Delan Jan Pol** – 245
**Demare Tyeri** – 251
**Devis Terri** – 343
**Dəmirəl Süleyman** – 178-179
**Dousset-Koyrolo Donna** – 51-55
**Dö Vilpen** – 255

**Dümo** – 262
**Eskokol Corc** – 264
**Əbtəhi Məhəmmədəli** – 6
**Əliyev Əziz** – 176
**ƏliyevHeydər** –6,7,8,9,11,12,13,16,18,22,23, 24,28,29,35,36,41,42,44,51,52, 56,57,72,74,78,79,97,98,101, 106,107,108,110,113,116,117, 120,121,125,127,129,141,151, 156,159,163,173-179,180,181, 182,183,184,185,189,190,191, 202,210,211,212,214,215,221, 222,227,228,234,236,242,254, 255,256,261,268,274,275,276-278,282,283,286,288,292,293, 294,295,296,297,298,303,304, 306,307,317,318,319,320,322,3 26,331,333,334,339,340,343, 347,356,357,359-360,362,363, 364,366.
**Əliyeva Mehriban** –226,279,350
**Əliyeva Zərifə** – 176
**Əliyev Fərhad** – 213
**Əlizadə Firəngiz** – 295
**Əminzadə Möhsün** – 210-213
**Əmirov Fikrət** – 295
**Ərdoğan Rəcəb Tayyib** – 25,86,203,316
**Fucisaki İçiro** – 109-112
**Fucivara** – 110,111
**Gül Abdullah** – 201-203,218,316
**Gülər Hilmi** – 316-318
**Hacıbəyov Üzeyir** – 295
**Halonen Tarya** – 140
**Həsənov Əli** – 145
**Hovard Con** – 209

**Xamenei Seyid Əli** – 299
**Xatəmi Seyid Məhəmməd** – 47,166,187,211,213,288,300
**Xərrazi Seyid Kamal** – 288
**Xristenko Viktor** – 127-130
**İliyesku İon** – 131
**Jakolən Anzi** – 148-153
**Jyaniya Zurab** – 183-186
**Kalam Əbdül** – 207
**Kastel Pyer** – 251
**Kərimov İslam** – 205
**Kərzayi Həmid** – 204
**Kibaki Mvai** – 155
**Klinton Bill** – 91
**Klyuyev Andrey** – 283-285
**Klark Helen** – 301
**Koidzumi** – 110
**Konroy Riçard** – 206
**Kosta Antonio Maria** – 143-147
**Köçəryan Robert** – 151,167,263
**Kuçma Leonid** – 16,17,24,41,42,46,283,284
**Kumaratunqa Bandaranayke** – 302
**Kurina Devid** – 158-159
**Qabus Bin Səid** – 67
**Qarayev Qara** – 295
**Qarton Per** – 68-71
**Quliyev Rəsul** – 116
**Quliyev Vilayət** – 125,349
**Qurbanov Aydın** – 44
**Lenmarker Qoran** – 337-338
**Li Ceyms** – 94-105
**Lomsadze Teymuraz** –94-105
**Lubbers Ruud** – 168-169,171
**Luis Kler** – 94-105
**Maqomayev Müslüm** – 294
**Malar Kristian** – 273

**Merzlyakov Yuri** – 148-153
**Merzlyakova Tatyana** – 94-105
**Məshədov** – 369,370
**Miçi** – 110
**Mironov Sergey** – 6,14-15,23
**Moisiu Alfred** – 119
**Monsam Kristian** – 248
**Monteskyö** – 262
**Moskal Gennadi** – 41-46
**Mustafayev Çingiz** – 302-307
**Mübarək Hüsni** – 194
**Mütəllibov Ayaz** – 116
**Müşərrəf Pərviz** – 193
**Nağdəliyev Zeynal** – 311
**Napoleon** – 277
**Orconikidze Sergey** – 170-172
**Pasko Linn** – 82-84
**Paşazadə Allahşükür** – 56-57,106-108,176
**Pavlenko Eduard** – 94-105,106
**Periqo Fransua** – 249-250
**Perina Rudolf** – 148-153
**Polad Bülbüloğlu** – 294-298
**Ponsole Kristian** – 233
**Putin Vladimir** – 14,23,120,121,125,127,128, 144,154,228,262,339,342, 348,350,352,353-370
**Putina Lyudmila** – 350
**Raxanski Anatoli** – 17
**Ramsfeld Donald** – 89,141-142
**Rasizadə Artur** – 308
**Rəhimov Rafiq** – 295
**Rossel Eduard** – 97
**Rostropoviç Mstislav** – 291-293,295
**Saakaşvili Mixail** – 184,198
**Salaseviçyute Rimante** – 94-105

**Salohov Tahir** – 132-133
**Seyidov Səməd** – 343
**Sezər Əhməd Necdət** – 25,85,203,316
**Sxeffer Yaap** – 196
**Sianik Norodom** – 34
**Siqanov Oleq** – 339-347
**Siphandon Xamtay** – 135
**Sirotkin Sergey** – 94-105
**Stiqlits Cozef** – 90-93
**Sukarnoputri Meqavati** – 50
**Süleymanova Elmira** – 94-105
**Svinarov Nikolay** – 28-31
**Şevardnadze Eduard** – 6,12-13,24,25,185,262
**Şənər Əbdüllətif** – 6
**Şərifov Abid** – 111,218
**Şəriətifər Behnam** – 288-290
**Şinavatra Taksin** – 139
**Şirak Jak** – 195,274,279,286-287
**Şvartsler Nikolaus** – 94-105
**Traykovski Boris** – 167
**Trubnikov Vyaçeslav** – 120-126,148-153,348
**Uold Çarlz** – 87-89
**Uorton Frenk** – 94-105
**Usubov Ramil** – 308
**Vacpai Binari** – 208
**Vike-Freyberq Vayra** – 66
**Vidvord Devid** – 218
**Vulfenson** – 52
**Yanuçenko Alina** – 94-105
**Yanukoviç Viktor** – 6,16-17
**Yusupov Marat** – 94-105
**Ziya Rəhman Xalidə** – 167-168

## Coğrafi adlar göstəricisi


**Abxaziya** – 259,340
**Abşeron (yarımada)** – 77,247
**Acarıstan** – 60-63,340
**Afrika** – 146-258
**Ağdam** – 245
**Albaniya Respublikası** – 119
**Almaniya** – 267
**Amerika Birləşmiş Ştatları** – 35-38,82-84,87-89,123,141-142,148-153,173,181,227,228,229,258,262,264,270,281,282,341,342
**Ankara** – 84,202
**Asiya** – 181
**Avropa** –68,69,96,148,181,215,228,235,245,253,261,268,317,338,340,355
**Avstraliya** – 209
**Bakı** – 26,27,32,33,34,47,48,49,50,59,61,64,65,66,67,77,84,85,86,90,98,116,119,131,133,134,135,137,138,139,140,143,152,154,155,169,175,180,187,192,193,194,195,196,197,198,200,204,205,206,207,208,209,213,218,220,223,225,239,241,242,245,247,259,282,287,292,299,300,301,302,313,315,319,343,363
**Banqladeş** – 166
**Bəm** – 187,210
**Biləsuvar** – 190

**Birləşmiş Ərəb Əmirlikləri** – 134
**Bosniya və Hersoqovina** – 98
**Bolqarıstan Respublikası** – 28-31
**Brüssel** – 142
**Cenevrə** – 117,160-172,263,288
**Ceyhan** – 317
**Cənubi Qafqaz** – 160,273,340
**Cənubi Osetiya** – 259,340
**Cənubi–Şərqi Avropa** – 338
**Çeçenistan** – 124,125,340
**Çexiya** – 37
**Çin** – 223
**Dağlıq Qarabağ** – 10,29,30,36,56,68,69,70,87, 88,115,122,123,147,148-153, 158,162,163,166,168,169,171,192,201,202,210,215,216, 227,228,229,235,246,253,257,258,259,264,277,286,337, 340,342,343,348,349,363,365,367
**Daşkənd** – 205,206
**Dnestryanı** – 259,367
**Estoniya Respublikası** – 166
**Əfqanıstan** – 83,89,125,144,146,204,289
**Əlcəzair** – 27
**Ən-Hasiriyyə** – 64,65
**Ər-Riyad** – 48,49
**Finlandiya Respublikası** – 140
**Fransa** –123,148-53,195,215,220,226-280,286-287,340,342,344, 367
**Füzuli** – 245
**Gürcüstan** –6,12-13,24,25,60-63,89,114, 122,198,220,230,247,257,262, 263,269,333,340,341,346,363
**Həştərxan** – 344

**Hindistan Respublikası** – 207,208,223
**Xankəndi** – 70
**Xəzər dənizi** –17,88,89,122,165,262,269, 344,345,363,365
**İndoneziya Respublikası** – 50
**İraq** – 83,89
**İran** –6,47,166,171,187-188,210-213,247,257,264,265,288-290, 299,300,343
**İstanbul** – 39,85,86
**İsveç** – 98,99
**İsveçrə Konfederasiyası** – 160-172,197
**İtaliya Respublikası** – 64,65,317,335-336
**Kamboca Krallığı** – 34
**Kanada** – 95
**Keniya Respublikası** – 155
**Kirman (İranda ostan)** – 187,210
**Kiyev** – 37
**Klivlend** – 142,173
**Qafqaz** – 83,101,223,241,248,270,340, 353,355
**Qazaxıstan** – 88,271,344,345
**Qırğızıstan** – 100,167
**Laos** – 135
**Latın Amerikası** – 66,146
**Latviya Respublikası** – 66
**Lənkəran** – 308-313,346
**Litva** – 100
**Macarıstan** – 37
**Makedoniya Respublikası** – 167
**Mərkəzi Asiya** – 144,223,241,248
**Mərkəzi Avropa** – 165,189
**Misir Ərəb Respublikası** – 194,195
**Moldova** – 99
**Moskva** – 25,44,125,127,295,339-370

**Naxçıvan** – 213,247
**Naxçıvan Muxtar Respublikası**– 180
**Norveç** – 231,270
**Nyu-York** – 46,141,288
**Oman Sultanlığı** – 67
**Ontario (Kanadada əyalət)** – 95
**Orta Asiya** – 101,160
**Özbəkistan** – 102,205,206,271
**Pakistan** – 193
**Paris** – 226-279
**Polşa** – 37
**Rumıniya Respublikası** – 131,166
**Rusiya** – 6,14-15,23,98,120-126,127-130,144,148-153,154,227, 228,229,247,257,258,259,262, 263,264,265,269,270,339-370
**Səudiyyə Ərəbistanı** – 48,49
**Sibir** – 265
**Sofiya** – 29
**Sverdlovsk (RF-da vilayət)** – 97
**Şərqi Avropa** – 73,189,223,320,338
**Şərm-əş-Şeyx** – 194,195
**Şimali Qafqaz** – 125
**Şri-Lanka** – 302
**Tailand Krallığı** – 138-139
**Tbilisi** – 84
**Tokio** – 110
**Tuluza** – 280
**Türkiyə** – 6,25,85,86,156-157,178-179, 201-203,218,257,266,267,281-282,316-318,333,336,338,346
**Türkmənistan** – 344
**Ukrayna** – 6,16-17,37,41-46,102,103, 283-285,341
**Varşava** – 37

**Vilnüs** – 37
**Vyana** – 145
**Yalta** – 46,120,125,144
**Yaponiya** – 109-112
**Yeni Zelandiya** – 301
**Yerevan** – 84,343
**Yessentuki** – 154
**Yəzd (İranda vilayət)** – 47
**Yunanıstan** – 317

# KİTABIN İÇİNDƏKİLƏR

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ SEÇİLMƏSİ İLƏ ƏLAQƏDAR ANDİÇMƏ MƏRASİMİNDƏ NİTQ
*31 oktyabr 2003-cü il..........................................................................5*

GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZE İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*31 oktyabr 2003-cü il........................................................................12*

RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ SƏDRİ SERGEY MİRONOV İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*31 oktyabr 2003-cü il........................................................................14*

UKRAYNANIN BAŞ NAZİRİ VİKTOR YANUKOVİÇ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*31 oktyabr 2003-cü il........................................................................16*

KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNƏ İLK MÜSAHİBƏ
*31 oktyabr 2003-cü il........................................................................18*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ SEÇİLMƏSİ İLƏ ƏLAQƏDAR ANDİÇMƏ MƏRASİMİNDƏN SONRA TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA NİTQ
*31 oktyabr 2003-cü il........................................................................21*

YEKUN NİTQİ........................................................................................*23*

ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA
*1 noyabr 2003-cü il..........................................................................27*

BOLQARISTAN RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ NİKOLAY SVİNAROV VƏ ONU MÜŞAYİƏT EDƏN ŞƏXSLƏRLƏ GÖRÜŞDƏ SÖHBƏT
*4 noyabr 2003-cü il..........................................................................28*

İNFORMASİYA VƏ KOMMUNİKASİYA TEXNOLOGİYALARININ MİLLİ STRATEGİYALARI VƏ ELEKTRON İDARƏÇİLİYİ ÜZRƏ BEYNƏLXALQ FORUMUN İŞTİRAKÇILARINA

*5 noyabr 2003-cü il*.........................................................................................*32*

KAMBOCANIN KRALI ƏLAHƏZRƏT NORODOM SİANUKA
*5 noyabr 2003-cü il*.........................................................................................*34*

ABŞ PREZİDENTİNİN MİLLİ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ ÜZRƏ SABİQ MÜŞAVİRİ ZBİQNEV BJEZİNSKİ VƏ ONU MÜŞAYİƏT EDƏN ŞƏXSLƏRLƏ GÖRÜŞDƏ SÖHBƏT
*7 noyabr 2003-cü il*.........................................................................................*35*

QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ VALERİ ÇEÇELAŞVİLİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*7 noyabr 2003-cü il*.........................................................................................*39*

UKRAYNA DÖVLƏT MİLLƏTLƏRİN İŞLƏRİ VƏ MİQRASİYA KOMİTƏSİNİN SƏDRİ GENNADİ MOSKALIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*10 noyabr 2003-cü il*.......................................................................................*41*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SEYİD MƏHƏMMƏD XATƏMİYƏ
*10 noyabr 2003-cü il*.......................................................................................*47*

İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANININ MƏLİKİ ƏLAHƏZRƏT FƏHD BİN ƏBDÜLƏZİZ AL SƏUDA
*10 noyabr 2003-cü il*.......................................................................................*48*

SƏUDİYYƏ ƏRƏBİSTANI MƏMLƏKƏTİNİN VƏLİƏHDİ ƏLAHƏZRƏT ABDULLAH BİN ƏBDÜLƏZİZ AL SƏUDA
*10 noyabr 2003-cü il*.......................................................................................*49*

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM MEQAVATİ SUKARNOPUTRİYƏ
*11 noyabr 2003-cü il*.......................................................................................*50*

DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ DİREKTORU DONNA DOUSSET-KOYROLONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*11 noyabr 2003-cü il*.......................................................................................*51*

QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNİN SƏDRİ ŞEYXÜLİSLAM HACI ALLAHŞÜKÜR PAŞAZADƏ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*11 noyabr 2003-cü il*..........................................................................*56*

AZƏRBAYCANDA BANK FƏALİYYƏTİNİN İNKİŞAFINA HƏSR OLUNMUŞ BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA
*12 noyabr 2003-cü il*..........................................................................*58*

GÜRCÜSTANIN ACARISTAN MUXTAR RESPUBLİKASININ BAŞÇISI ASLAN ABAŞİDZE İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*12 noyabr 2003-cü il*..........................................................................*60*

İTALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KARLO ADZELYO ÇAMPİYƏ
*13 noyabr 2003-cü il*..........................................................................*64*

İTALİYA RESPUBLİKASI NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB SİLVİO BERLUSKONİYƏ
*13 noyabr 2003-cü il*..........................................................................*65*

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM VAYRA VİKE-FREYBERQAYA
*15 noyabr 2003-cü il*..........................................................................*66*

OMANIN SULTANI ƏLAHƏZRƏT QABUS BİN SƏİDƏ
*15 noyabr 2003-cü il*..........................................................................*67*

AVROPA PARLAMENTİNİN XARİCİ ƏLAQƏLƏR, İNSAN HÜQUQLARI, BİRGƏ TƏHLÜKƏSİZLİK VƏ MÜDAFİƏ SİYASƏTİ KOMİTƏSİNİN CƏNUBİ QAFQAZ ÜZRƏ MƏRUZƏÇİSİ PER QARTON İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*15 noyabr 2003-cü il*..........................................................................*68*

AZƏRBAYCANDA PREZİDENT SEÇKİLƏRİNDƏN SONRA RESPUBLİKA HÖKUMƏTİNİN İLK İCLASINDA NİTQ
*17 noyabr 2003-cü il*..........................................................................*72*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI DÖVLƏT KATİBİ MÜAVİNİNİN AVRO-ASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MƏSUL NÜMAYƏNDƏSİ LİNN PASKO İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*17 noyabr 2003-cü il*..........................................................................*82*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ

*20 noyabr 2003-cü il*..........................................................................*85*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA
*20 noyabr 2003-cü il*..........................................................................*86*

ABŞ-ın AVROPA KOMANDANLIĞININ QƏRARGAH RƏİSİNİN MÜAVİNİ GENERAL ÇARLZ UOLDUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*20 noyabr 2003-cü il*..........................................................................*87*

MƏŞHUR İQTİSADÇI, NOBEL MÜKAFATI LAUREATI, KOLUMBİYA UNİVERSİTETİNİN PROFESSORU COZEF STİQLİTS İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*20 noyabr 2003-cü il*..........................................................................*90*

OMBUDSMANLARIN II BEYNƏLXALQ «DƏYİRMİ MASA» İŞTİRAKÇILARI İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*21 noyabr 2003-cü il*..........................................................................*94*

QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNİN SƏDRİ ŞEYXÜLİSLAM HACI ALLAHŞÜKÜR PAŞAZADƏNİN MÜQƏDDƏS RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AÇDIĞI İFTAR SÜFRƏSİNDƏ NİTQ
*22 noyabr 2003-cü il*........................................................................*106*

YAPONİYA XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ İÇİRO FUCİSAKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*24 noyabr 2003-cü il*........................................................................*109*

BAKIDAKI DƏRİN DƏNİZ ÖZÜLLƏRİ ZAVODUNUN İŞÇİLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*24 noyabr 2003-cü il*........................................................................*113*

ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALFRED MOİSİUYA
*24 noyabr 2003-cü il*........................................................................*119*

RUSİYA FEDERASİYASI XARİCİ İŞLƏR NAZİRİNİN BİRİNCİ MÜAVİNİ VYAÇESLAV TRUBNİKOV İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*26 noyabr 2003-cü il*........................................................................*120*

RUSİYA FEDERASİYASI HÖKUMƏTİ SƏDRİNİN MÜAVİNİ VİKTOR XRİSTENKO İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*28 noyabr 2003-cü il.........................................................................127*

RUMINİYANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İON İLİYESKUYA
*28 noyabr 2003-cü il.........................................................................131*

XALQ RƏSSAMI TAHİR SALAHOVA
*28 noyabr 2003-cü il.........................................................................132*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX ZAYİD BİN SULTAN AL NƏHƏYYANA
*28 noyabr 2003-cü il.........................................................................134*

LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB XAMTAY SİPHANDONA
*28 noyabr 2003-cü il.........................................................................135*

NARKOTİKLƏRƏ NƏZARƏT ÜZRƏ REGİONAL ƏMƏKDAŞLIĞA DAİR ANLAŞMA MEMORANDUMUNUN ÜZV TƏRƏFLƏRİNİN BEŞİNCİ GÖRÜŞÜNÜN İŞTİRAKÇILARINA
*2 dekabr 2003-cü il.........................................................................136*

TAİLANDIN KRALI ƏLAHƏZRƏT BHUMİBOL ADULYADEYƏ
*2 dekabr 2003-cü il.........................................................................138*

TAİLAND KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB TAKSİN ŞİNAVATRAYA
*2 dekabr 2003-cü il.........................................................................139*

FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM TARYA HALONENƏ
*2 dekabr 2003-cü il.........................................................................140*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ MÜDAFİƏ NAZİRİ DONALD RAMSFELDİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*3 dekabr 2003-cü il.........................................................................141*

BMT BAŞ KATİBİNİN MÜAVİNİ VƏ BU TƏŞKİLATIN NARKOTİKLƏR VƏ CİNAYƏTKARLIQ ÜZRƏ İDARƏSİNİN İCRAÇI DİREKTORU

ANTONİO MARİA KOSTA İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*4 dekabr 2003-cü il..........................................................................143*

ATƏT-İN MİNSK QRUPUNUN RUSİYADAN, AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINDAN VƏ FRANSADAN OLAN HƏMSƏDRLƏRİ YURİ MERZLYAKOV, RUDOLF PERİNA, ANRİ JAKOLƏNİ VƏ RUSİYA FEDERASİYASI XARİCİ İŞLƏR NAZİRİNİN BİRİNCİ MÜAVİNİ VYAÇESLAV TRUBNİKOV İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*5 dekabr 2003-cü il..........................................................................148*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ
*5 dekabr 2003-cü il..........................................................................154*

KENİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MVAİ KİBAKİYƏ
*5 dekabr 2003-cü il..........................................................................155*

“TÜRKİYƏ–AZƏRBAYCAN ƏLAQƏLƏRİ XXI ƏSRDƏ” FORUMUNUN İŞTİRAKÇILARINA
*8 dekabr 2003-cü il..........................................................................156*

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ AZƏRBAYCANDA “SİYASİ MƏHBUSLAR” MƏSƏLƏSİ ÜZRƏ MƏRUZƏÇİSİ MALKOLM BRYUS, HÜQUQ MƏSƏLƏLƏRİ VƏ İNSAN HÜQUQLARI KOMİTƏSİ KATİBİNİN MÜAVİNİ DEVİD KUPİNA İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*8 dekabr 2003-cü il..........................................................................158*

İNFORMASİYA CƏMİYYƏTİ ÜZRƏ DÜNYA SAMMİTİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN İSVEÇRƏNİN CENEVRƏ ŞƏHƏRİNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*9 dekabr 2003-cü il..........................................................................160*

CENEVRƏ ZİRVƏ GÖRÜŞÜNÜN KEÇİRİLƏCƏYİ PALEKSPO SARAYINDA BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ BAŞ KATİBİ KOFİ ANNAN İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*9 dekabr 2003-ci il..........................................................................162*

İNFORMASİYA CƏMİYYƏTİ ÜZRƏ DÜNYA SAMMİTİNİN AÇILIŞINDA NİTQ

*10 dekabr 2003-cü il*...........................................................................*164*

BMT-nin QAÇQINLAR İŞİ ÜZRƏ ALİ KOMİSSARLIĞININ RƏHBƏRİ RUUD LUBBERS İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*11 dekabr 2003-cü il*...........................................................................*168*

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ CENEVRƏ BÖLMƏSİNİN BAŞ DİREKTORU SERGEY ORCONİKİDZE İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*12 dekabr 2003-cü il*...........................................................................*170*

AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ, AZƏRBAYCAN RESPUBLİKASININ EKS-PREZİDENTİ HEYDƏR LİRZA OĞLU ƏLİYEVİN VƏFATI İLƏ BAĞLI RƏSMİ MƏLUMAT
*12 dekabr 2003-cü il*...........................................................................*173*

HEYDƏR ƏLİYEVİN MƏZARININ ZİYARƏT EDİLMƏSİ
*12 dekabr 2003-cü il*...........................................................................*175*

XALQIMIZIN ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN VƏFATI İLƏ ƏLAQƏDAR BAŞSAĞLIĞI VERMƏK ÜÇÜN BAKIYA GƏLMİŞ TÜRKİYƏ CÜMHURİYYƏTİNİN SABİQ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*20 dekabr 2003-cü il*...........................................................................*178*

DÜNYA AZƏRBAYCANLILARINA
*26 dekabr 2003-cü il*.........................................................................*180*

GÜRCÜSTANIN DÖVLƏT NAZİRİ ZURAB JVANİYA VƏ ÖLKƏNİN HÖKUMƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*27 dekabr 2003-cü il*...........................................................................*183*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ SEYİD MƏHƏMMƏD XATƏMİYƏ
*27 dekabr 2003-cü il*...........................................................................*187*

AZƏRBAYCAN XALQINA YENİ İL TƏBRİKİ
*31 dekabr 2003-cü il*...........................................................................*189*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ
*2 yanvar 2004-cü il*............................................................................*193*

MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD HÜSNİ MÜBARƏKƏ
*3 yanvar 2004-cü il.........................................................................194*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JAK ŞİRAKA
*3 yanvar 2004-cü il.........................................................................195*

ŞİMALİ ATLANTİKA MÜQAVİLƏSİ TƏŞKİLATININ BAŞ KATİBİ CƏNAB YAAP DE HOOP SXEFFERƏ
*5 yanvar 2004-cü il.........................................................................196*

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YOZEF DAYSA
*5 yanvar 2004-cü il.........................................................................197*

GÜRCÜSTAN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MİXAİL SAAKAŞVİLİYƏ
*6 yanvar 2004-cü il.........................................................................198*

AZƏRBAYCANIN PRAVOSLAV İCMASINA
*7 yanvar 2004-cü il.........................................................................199*

TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ VƏ BAŞ NAZİRİN MÜAVİNİ ABDULLAH GÜL VƏ ONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*10 yanvar 2004-cü il.......................................................................201*

ƏFQANISTAN İSLAM DÖVLƏTİ KEÇİD HÖKUMƏTİNİN BAŞÇISI ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ
*12 yanvar 2004-cü il.......................................................................204*

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA
*14 yanvar 2004-cü il.......................................................................205*

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ BAŞ KATİBİ ZATİ-ALİLƏRİ CƏNAB KOFİ ANNANA
*14 yanvar 2004-cü il.......................................................................206*

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜL KALAMA

*16 yanvar 2004-cü il*.............................................................................*207*

HİNDİSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB ATAL BİHARİ VACPAİYƏ
*16 yanvar 2004-cü il*.............................................................................*208*

AVSTRALİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB CON HOVARDA
*16 yanvar 2004-cü il*.............................................................................*209*

İRAN İSLAM RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRİNİN BİRİNCİ MÜAVİNİ MÖHSÜN ƏMİNZADƏ VƏ ONU MÜŞAYİƏT EDƏN ŞƏXSLƏRLƏ GÖRÜŞDƏ SÖHBƏT
*16 yanvar 2004-cü il*.............................................................................*210*

QANLI YANVAR FACİƏSİNDƏ HƏLAK OLANLARIN ƏZİZ XATİRƏSİNİ YAD ETMƏK ÜÇÜN ŞƏHİDLƏR XİYABANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ
*20 yanvar 2004-cü il*.............................................................................*214*

"BÖYÜK İPƏK YOLU DÖVLƏTLƏRİNDƏ NARKOTİK VASİTƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI MÜBARİZƏ" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA
*21 yanvar 2004-cü il*.............................................................................*223*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV FRANSADA
*21 yanvar 2004-cü il*.............................................................................*226*

FRANSANIN ƏN NÜFUZLU MƏTBUAT ORQANLARINDAN OLAN "FİQARO" QƏZETİNƏ MÜSAHİBƏ
*22 yanvar 2004-cü il*.............................................................................*227*

FRANSANIN "LCİ" TELEVİZİYA KANALINA MÜSAHİBƏ
*22 yanvar 2004-cü il*.............................................................................*232*

FRANSA SENATINDA QARŞILANMA
*22 yanvar 2004-ci il*.............................................................................*233*

FRANSA SAHİBKARLAR TƏŞKİLATININ – MEDEF-in ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ
*22 yanvar 2004-cü il*.............................................................................*235*

FRANSANIN "KASTEL" QRUPUNUN PREZİDENTİ İLƏ GÖRÜŞÜ
*22 yanvar 2004-cü il..........................................................................251*

"TOTAL" NEFT ŞİRKƏTİNİN PREZİDENTİ İLƏ GÖRÜŞÜ
*22 yanvar 2004-cü il..........................................................................251*

FRANSANIN MÜDAFİƏ NAZİRİ XANIM MİŞEL ALYO-MARİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ
*22 yanvar 2004-cü il..........................................................................253*

FRANSA BEYNƏLXALQ ƏLAQƏLƏR İNSTİTUTUNDA GÖRÜŞDƏ ÇIXIŞ
*23 yanvar 2004-cü il..........................................................................255*

FRANSA TELEVİZİYASININ ÜÇÜNCÜ KANALINA MÜSAHİBƏ
*23 yanvar 2004-cü il..........................................................................273*

FRANSA PREZİDENTİ JAK ŞİRAK İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ
*24 yanvar 2004-cü il..........................................................................274*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ JAK ŞİRAKIN ÜMUMMİLLİ LİDERİMİZ PREZİDENT HEYDƏR ƏLİYEVİ VAXTİLƏ TƏLTİF ETDİYİ "FƏXRİ LEGİONUN BÖYÜK XAÇ KOMANDORU" ORDENİNİN İLHAM ƏLİYEVƏ TƏQDİM EDİLMƏSİ MƏRASİMİ
*24 yanvar 2004-cü il..........................................................................276*

TULUZA ŞƏHƏRİNƏ YOLA DÜŞMƏ
*24 yanvar 2004-cü il..........................................................................280*

AMERİKA TÜRK ASSOSİASİYALARI ASSAMBLEYASININ XXIV QURULTAYINA
*26 yanvar 2004-cü il..........................................................................281*

UKRAYNA BAŞ NAZİRİNİN MÜAVİNİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*26 yanvar 2004-cü il..........................................................................283*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JAK ŞİRAKA
*27 yanvar 2004-cü il..........................................................................286*

İRANIN SƏRHƏD QOŞUNLARININ KOMANDANI VƏ ONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*27 yanvar 2004-cü il*.........................................................................288

DÜNYA ŞÖHRƏTLİ GÖRKƏMLİ MUSİQİÇİ MSTİSLAV ROSTROPOVİÇ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*27 yanvar 2004-cü il*.........................................................................291

AZƏRBAYCAN DÖVLƏT FİLARMONİYASI BİNASININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ
*27 yanvar 2004-cü il*.........................................................................294

MÜSLÜM MAQOMAYEV ADINA AZƏRBAYCAN DÖVLƏT FİLARMONİYASI BİNASININ ƏSASLI BƏRPADAN SONRA TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ
*27 yanvar 2004-cü il*.........................................................................296

İRAN İSLAM RESPUBLİKASININ ALİ RƏHBƏRİ AYƏTULLAH SEYİD ƏLİ XAMENEİ HƏZRƏTLƏRİNƏ
*28 yanvar 2004-cü il*.........................................................................299

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ SEYİD MƏHƏMMƏD XATƏMİYƏ
*28 yanvar 2004-cü il*.........................................................................300

YENİ ZELANDİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ XANIM HELEN KLARKA
*28 yanvar 2004-cü il*.........................................................................301

ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM ÇANDRİKA BANDARANAYKE KUMARATUNQAYA
*28 yanvar 2004-cü il*.........................................................................302

ANS ŞİRKƏTLƏR QRUPUNUN VƏ ÇİNGİZ MUSTAFAYEV ADINA FONDUN TƏSİS ETDİYİ “2003-CÜ İLİN ADAMI” MÜKAFATININ VƏ DİPLOMUNUN TƏQDİM OLUNMASI MƏRASİMİNDƏ NİTQ
*29 yanvar 2004-cü il*.........................................................................303

LƏNKƏRANDA BAŞ VERMİŞ QƏZA İLƏ ƏLAQƏDAR KEÇİRİLƏN OPERATİV MÜŞAVİRƏDƏ ÇIXIŞ
*30 yanvar 2004-cü il*.........................................................................308

QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
*31 yanvar 2004-cü il..........................................................................314*

TÜRKİYƏ RESPUBLİKASININ ENERGETİKA VƏ TƏBİİ EHTİYATLAR NAZİRİ HİLMİ GÜLƏR VƏ ONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*2 fevral 2004-cü il..............................................................................316*

BAKI BİZNES MƏRKƏZİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ
*2 fevral 2004-cü il..............................................................................319*

YEKUN NİTQİ..........................................................................................*323*

BAKI-TBİLİSİ-CEYHAN LAYİHƏSİNİN MALİYYƏLƏŞDİRİLMƏSİ İLƏ ƏLAQƏDAR SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏ NİTQ
*3 fevral 2004-cü il..............................................................................331*

İTALİYANIN AVROPA ŞURASINDAKI DAİMİ NÜMAYƏNDƏSİ, AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN "AQO" MONİTORİNQ QRUPUNUN RƏHBƏRİ PYETRO ERKOLE AQONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*3 fevral 2004-cü il..............................................................................335*

ATƏT-in PARLAMENT ASSAMBLEYASI SƏDRİNİN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ QORAN LENMARKERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*4 fevral 2004-cü il..............................................................................337*

MOSKVAYA İLK RƏSMİ SƏFƏR ƏRƏFƏSİNDƏ "İZVESTİYA"NIN XÜSUSİ MÜXBİRİ OLEQ SİQANOVA VERDİYİ MƏXSUSİ MÜSAHİBƏ
*4 fevral 2004-cü il..............................................................................339*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİNİN DƏVƏTİ İLƏ FEVRALIN 5-də MOSKVAYA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ
*5 fevral 2004-cü il..............................................................................348*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ
*6 fevral 2004-cü il*...........................................................................*352*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN TƏKBƏTƏK GÖRÜŞÜ
*6 fevral 2004-cü il*...........................................................................*353*

DÖVLƏT BAŞÇILARININ TƏKBƏTƏK GÖRÜŞÜNDƏN SONRA İLHAM ƏLİYEVİN VƏ VLADİMİR PUTİNİN İŞTİRAKI İLƏ GENİŞ HEYƏTDƏ AZƏRBAYCAN–RUSİYA DANIŞIQLARI
*6 fevral 2004-cü il*...........................................................................*356*

“MÜQƏDDƏS APOSTOL ANDREY PERVOZVANNI” ORDENİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİ
*6 fevral 2004-cü il*...........................................................................*359*

RUSİYA–AZƏRBAYCAN SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ
*6 fevral 2004-cü il*...........................................................................*361*

RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN BƏYANATI.....................*362*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI............*364*

QEYDLƏR.................................................................................................*371*

ŞƏXSİ ADLAR GÖSTƏRİCİSİ..................................................................*411*

COĞRAFİ ADLAR GÖSTƏRİCİSİ............................................................*416*

KİTABIN İÇİNDƏKİLƏR........................................................................*421*

**Kitabı çapa hazırlayan** *Tofiq Babayev*

**Texniki redaktoru** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x108 1/32. Ofset kağızı 1. Şərti çap vərəqi 26,5. Uçot vərəqi 26,0. Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç., 61, dalan 2, ev 3.
"Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.